# TOVZİHUL-MƏSAİL RİSALƏSİ

**ŞİƏ ALƏMİNİN MƏRCƏYİ-TƏQLİDİ AYƏTULLAHÜL-ÜZMA HACI ŞEYX MƏHƏMMƏD FAZİL LƏNKƏRANİ (DAMƏ ZİLLUHUL-ALİ)**



**Китабын ады:..........................Товзиһул-мәсаил рисаләси**
**Мүәллиф:...Һәзрәт Ајәтуллаһүл-үзма Мәһәммәд Фазил Ләнкәрани**
**Тәрҹүмә едән:.........................................................М.Әлизадә**
**Нәшр едән:..............................................................Darul-huda**
**Чап тарихи:.....................................................................2005**
**Чап нөвбәси:.................................................................Икинҹи**
**Тираж:............................................................................3000**

**نام كتاب:.........................................................توضیح المسائل**
**مولف:.........................................آیت الله العظمی فاضل لنکرانی**
**مترجم:.................................................................م.علیزاده**
**ناشر:................................................................دارالهدای**
**تارخ چاپ:.................................................................١٣٨۴**
**نوبت چاپ:...............................................................دوم**
**تیراژ:.....................................................................٣٠٠٠**

BİSMİLLAHİR RƏHMANİR RƏHİM

بِسمِ الله الرحمن الرَحِيمِ
اَلحَمدُ للهِ رَبِّ العالَمِينَ وَالصَّلَوةُ وَالسَّلاَمُ عَلَى سَيِّدِنَا وَنَبِيِّنَا أَبِى القاسِمِ مُحَمَّدٍ وَآلِهِ الطاهِرِينَ
وَلَعنَةُ اللهِ عَلَى أَعدائِهِم أَجمَعِينَ إِلَى يَومِ الدِّينِ



Bu şərif risaləyə əməl etmək, inşallah, müczidir (əməllərin düzgün olmasına kifayətdir).

## *TƏQLİD*

## *TƏQLİD MƏSƏLƏLƏRİ*

**Məsələ:1.** Üsuli-dində təqlid etmək caiz deyildir. Müsəlman bir şəxs üsuli dində yəqinə çatmalıdır. Dinin qeyri-zəruri hökmlərində isə ya müctehid olub öz ictihadına uyğun əməl etməli, ya müctehidə təqlid etməlidir (yə’ni onun göstərişlərinə müvafiq olaraq əməl etməlidir), ya da ehtiyatın keyfiyyətinə agah olduğu halda ehtiyata əməl etməlidir ki, öz şər’i vəzifəsini yerinə yetirdiyinə yəqin etsin. Məsələn, əgər müctehidlərdən bə’ziləri müəyyən bir əməlin haram olduğunu, bə’ziləri isə haram olmadığını deyirlərsə o əməli yerinə yetirməsin. Habelə, əgər müəyyən bir əməli bə’ziləri vacib, bə’ziləri isə müstəhəb hesab edirlərsə, o əməli yerinə yetirsin. Həmçinin ehtiyatın keyfiyyətində də ehtiyata əməl etmək vacibdir, yə’ni əgər bir neçə yolla ehtiyat etmək mümkün olarsa, ehtiyata müvafiq olan yolu seçsin.

**M:2.** Vəzifəsi təqlid etmək olan şəxs–mükəlləf təqlid etməkdən boyun qaçırsa əməlləri batildir. Amma əgər onun əməli həqiqətlə, yaxud təqlid etməli olduğu müctehidin fətvalarına müvafiq olarsa batil olmaz.

**M:3.** Hökmlərdə təqlid–müctehidin göstərişinə əməl etməkdir. Elə müctehidə təqlid etmək lazımdır ki: kişi, həddi-büluğa çatmış, aqil, on iki İmam şiəsi, halalzadə, diri və adil olsun. Ədalətdən məqsəd odur ki, vacibatı yerinə yetirmək və kəbirə günahları tərk etməkdə nəfsani qüdrətə (səciyyəyə) malik olsun. Bunlardan əlavə, mürüvvət[1] də şərtdir. Bu da zahiri əlamətlərin gözəlliyi

---

[1]Öz-özlüyündə haram olmayan, ancaq camaatın nəzərində qəbih sayılan iş. (Məsələn, yolda ucadan gülmək, yol gedə-gedə bir şey yemək və s.)

ilə tanınır. Həmçinin, ehtiyat-vacibə[2] görə mərcəyi-təqlid dünya malına həris olmasın, başqa müctehidlərdən ə'ləm (elmli) olsun. Yə'ni Allah hökmünü dərk etməkdə öz əsrinin bütün müctehidlərindən daha bilikli olsun.

**M:4.** Əgər iki müctehid elm cəhətindən bərabər olsalar, ehtiyat-lazıma görə[3] onlardan daha təqvalı və vərə'si çox olana təqlid olunmalıdır.

**M:5**. Ə'ləm müctehidi üç yolla tanımaq olar:

**1-**İnsanın özü (bir kəsin ə'ləm olmasına) yəqin və ya xatircəmlik tapsın. Məsələn, özü bu sahədə mütəxəssis olub ə'ləm müctehidi tanıya bilsin.

**2-**Ə'ləm müctehidi başqalarından seçə bilən iki adil və alim şəxs hər hansı bir müctehidin ə'ləm olmasını təsdiq etsinlər; bu şərtlə ki, başqa iki alim və adil şəxs onların dedikləri ilə müxalifət etməsin.

**3-**Bir müctehidin ə'ləm olması camaat arasında o qədər məşhur olsun ki, insan üçün yəqinlik, yaxud xatircəmlik hasil olsun.

**M:6.** Əgər ə'ləm müctehidi tanımaq müşkül olsa gərək ə'ləm olmasına güman etdiyi şəxsə təqlid etsin. Hətta əgər bir kəsin ə'ləm olmasına zəif ehtimal da versə və başqasının ə'ləm olmasına ehtimal verməsə, həmin müctehidə təqlid etməlidir. Həmçinin əgər iki nəfər müctehid elmdə bərabər, yaxud onlardan biri müəyyən şəkildə, ehtimalən ə'ləm olmasını yəqin etsə, ondan başqasının isə ə'ləm olmasına ehtimal verməsə, həmin müəyyən şəxsə təqlid etməlidir. Əgər bir neçə nəfər onun nəzərində başqa müctehidlərdən ə'ləm, öz aralarında isə bərabər olsalar, onlardan birinə təqlid etməlidir.

**M:7.** Müctehidin fətvasını üç yol ilə əldə etmək olar:

**1-**Müctehidin özündən eşitməklə;

**2-**Müctehidin fətvasını nəql edən iki nəfər adil şəxsdən eşitməklə; bir nəfər adil şəxsin xəbər verməsi yalnız onun sözündən xatircəmlik hasil olduğu halda kifayət edər.

**3-**Fətvanı müctehidin risaləsində görməklə; bu şərtlə ki, insan o risalənin düzlüyünə xatircəm olsun, yə'ni risalənin hamısını müctehidin özü, yaxud onun e'tibarlı saydığı şəxslər mülahizə etmiş olsun.

**M:8.** Təqlid yalnız vacibat və haramlarda vacibdir, amma müstəhəb əməllərdə isə (vacib olması ehtimalı verilən müstəhəblər istisna olmaqla) vacib deyil.

**M:9.** Bir kəs müctehidin fətvasının dəyişdiyinə yəqin etməyincə, risalədə yazılanlara əməl edə bilər. Fətvanın dəyişilməsinə ehtimal verərsə, təhqiqat aparması vacib deyil.

---

[2] Ehtiyat vacib o əməldir ki, etiyata müvafiqdir, amma fəqih onunla yanaşı fətva verməyibdir. Belə olan hallarda müqəllid sonrakı rütbədə gələn müctehidin fətvasına əməl edə bilər.

[3] O ehtiyatdır ki, müctehid ona riayət etməyi əqli dəlillər vasitəsi ilə isbat etmişdir.

**M:10.** Vəfat edən müctehid elmdə diri müctehid ilə bərabər olsa, meyyidə təqlid etməkdə qalmaq caizdir. Amma əgər o ikisindən (vəfat edən və diri müctehid) biri ə’ləm olsa ə’ləmə təqlid etmək lazımdır. Ölmüş müctehidin təqlidində qalmaqda, əməl etdiyi və etmədiyi əməllər arasında heç bir fərq yoxdur.

**M:11.** Diri bir müctehidin təqlidindən başqa diri bir müctehidin təqlidinə keçmək caizdir. Əgər başqası ə’ləm olsa onun təqlidinə keçmək vacibdir.

**M:12.** Müctehidin rə’yi dəyişdikdə onun əvvəlki fətvasında qalmaq caiz deyildir. Amma əgər əvvəlki fətvası ehtiyata müvafiq olsa, onda birinci fətvada qalmaq təqlid ünvanı ilə deyil, ehtiyat ünvanı ilə caizdir.

**M:13.** Əgər mükəlləf şəxs müəyyən bir müddətdə öz ibadətlərini təqlidsiz yerinə yetirsə və onların qədərini bilməsə, bu halda: əgər ibadətlərini təqlid etməli olduğu müctehidin fətvaları ilə müvafiq olaraq yerinə yetirmiş olarsa səhihdir; yox əgər müvafiq olmasa, gərək vəzifəsinin boynundan götürüləcəyinə yəqin etdiyi qədər ibadətlərinin qəzasını etsin. Əlbəttə, bu şərtlə ki, həmin müctehid onların qəzasını vacib bilsin.

**M:14.** Mükəlləfə vacibdir ki, “ə’ləmə təqlidin” vacib olub-olmaması məsələsində ə’ləm bir müctehidə təqlid etsin.

**M:15.** Əgər bir müctehid ibadət hökmlərində, başqası isə müamilə (al-ver, ticarət) hökmlərində ə’ləm olsa, ehtiyata görə mükəlləf şəxs təqlidi iki yerə bölməlidir: yə’ni ibadət hökmlərində birinciyə, müamilə hökmlərində isə ikinciyə təqlid etməlidir.

**M:16.** Mükəlləf şəxsin ə’ləm müctehid barəsində təhqiqat apardığı zaman ehtiyata əməl etməsi vacibdir.

**M:17.** Əgər ə’ləm müctehid müəyyən bir məsələdə fətva versə, onun müqəllidi həmin məsələdə başqa müctehidin fətvasına əməl edə bilməz. Amma əgər fətva verməsə və “ehtiyat-vacibdir”-deyə buyursa, müqəllid ya bu ehtiyata əməl edə bilər, yaxud elmi təqlid etdiyi müctehiddən az olan başqa bir müctehidə müraciət edə bilər.

## TƏHARƏTİN HÖKMLƏRİ

### *MÜTLƏQ VƏ MÜZAF SU*

**M:18.** Su ya mütləqdir, ya müzaf. Müzaf su başqa bir şeydən alınan (gülab, qarpız suyu və s.), və ya başqa bir şeylə qarışan suya deyilir. Məsələn, müəyyən miqdar palçıq və s. kimi şeylərlə qarışıq olan və daha ona su deyilməyən sular. Bundan qeyrilərinə isə mütləq su deyilir və beş qismdir: 1-kürr suyu; 2-qəlil (az) su; 3-axar su; 4-yağış suyu; 5-quyu suyu.

### *1-KÜRR SUYU*

**M:19.** Kürr suyu o suya deyilir ki, eni, uzunluğu və hündürlüyü üç qarış yarım olan qabı su ilə doldursalar və onun çəkisi də yüz iyirmi səkkiz Təbriz “mən” ölçüsündən iyirmi misqal az olsun (təqribən 386 kq).

**M:20.** Əgər nəcasətin eyni (bovl və qan kimi) kürr suya dəysə və onun vasitəsi ilə suyun rəngi, iyi və ya dadı dəyişsə, su nəcis olar. Amma əgər dəyişməsə, nəcis olmaz.

**M:21.** Əgər kürr suyun iyi nəcasətdən başqa bir şeyin vasitəsi ilə dəyişsə nəcis olmaz.

**M:22.** Əgər nəcasətin eyni (qan kimi) kürrdən çox olan suya dəysə (qarışsa) və onun bir hissəsinin iyi, rəngi və ya dadı dəyişsə, bu halda: dəyişməyən hissə kürrdən az olarsa, suyun hamısı nəcisdir; yox əgər dəyişməyən hissə kürr qədər, yaxud ondan çox olarsa, təkcə rəngi, iyi, yaxud dadı dəyişən hissə nəcis olar.

**M:23.** Əgər fəvvarə suyu kürr suyuna birləşmiş olsa nəcis suyu paklayar. Amma damcı-damcı nəcis suyun üstünə tökülsə onu paklamaz. Əgər fəvvarənin üstünə bir şey qoysalar və damcı-damcı olmazdan əvvəl nəcis suya birləşsə (pak edər). Ehtiyat-vacibə görə gərək fəvvarə suyu nəcis suyu ilə qarışsın.

**M:24.** Əgər nəcis bir şeyi kürrə birləşmiş olan krantın altında yusalar, onda o şeydən çıxan su kürrə birləşmiş olsa və nəcasətin iyini, rəngini və ya dadını özünə götürməsə pakdır.

**M:25.** Əgər kürr suyunun bir hissəsi buz bağlasa və qalan hissə isə kürr qədərində olmasa, bu halda ona nəcis dəysə hamısı nəcis olur; və buz əriyib su olduqca nəcis olur.

**M:26.** İnsan əvvəlcə kürr miqdarında olan suyun o miqdardan azalıb-azalmaması barədə şəkk etsə, kürr suyu kimidir; yə’ni nəcasəti paklayır və ona bir nəcis şey dəyəndə nəcis olmur. Həmçinin, əvvəlcə kürrdən az olan suyun kürr qədərinə çatıb-çatmaması barədə şəkk etsə, o su kürr suyu hökmündə deyil.

**M:27.** Suyun kürr olması iki yolla mə’lum olar:

**1-**İnsanın özü üçün yəqin, yaxud xatircəmlik hasil olsun.

**2-**İki adil kişi xəbər versin.

### *2-QƏLİL SU*

**M:28.** Qəlil su–yerdən qaynamayan və kürrdən də az olan suya deyilir.

**M:29.** Əgər qəlil su nəcis şeyin üstünə tökülsə, yaxud nəcis şey o suya dəysə, su nəcis olar. Amma əgər yuxarıdan nəcis bir şeyin üstünə tökülsə o şeyə dəyən miqdarı nəcis, yuxarıda olan hissəsi isə pakdır. Həmçinin əgər fəvvarə kimi təzyiqlə aşağıdan yuxarı getsə və nəcasət onun yuxarı hissəsinə toxunsa, aşağı hissəsi nəcis olmaz; amma aşağı hissəsinə dəysə, yuxarısı da nəcis olar.

**M:30.** Nəcis şeyin üstünə tökülüb ondan ayrılan qəlil su da nəcisdir. Həmçinin əqva[4] nəzərə görə nəcis şeyin üstündə olan nəcasətin eyni aradan qaldırıldıqdan sonra nəcis olmuş şeyi suya çəkmək üçün tökülən və ondan ayrılıb axan qəlil sudan ictinab etmək (qorunmaq) lazımdır. Amma bovl və qaitin məxrəcini yumaq üçün istifadə olunan su beş şərtlə pakdır:

**1-**Nəcasətin iyini, rəngini, yaxud dadını özünə götürməmiş olsun;

**2-**Xaricdən ona başqa nəcasət dəyməmiş olsun;

**3-**Bovl və ya qaitlə birlikdə başqa bir nəcasət (qan kimi) çölə gəlməmiş olsun;

**4-**Qaitin zərrələri suda olmasın;

**5-**Nəcasət məxrəcin ətrafına adi qaydadan çox yayılmamış olsun.

### *3-AXAR SU*

**M:31.** Axar su o suya deyilir ki, müəyyən bir mənbədən cərəyana başlasın və axarı olsun (çeşmə və kəhrizlərin suyu kimi).

**M:32.** Əgər axar su kürrdən az olsa və nəcasət ona dəysə, nə qədər ki, iyi, rəngi, yaxud dadı nəcasətin vasitəsi ilə dəyişməyib, pakdır.

**M:33.** Əgər nəcasət axar suya dəysə, nəcasətin vasitəsi ilə iyi, rəngi və ya dadı dəyişən qədəri nəcisdir və çeşməyə birləşən tərəf, hətta kürrdən az da olsa, pakdır. Sair arx (nəhr) suları əgər kürr miqdarında olsa, yaxud (rəngi, iyi, dadı) dəyişməyən su vasitəsi ilə çeşmə tərəfinə birləşsə pak, əks halda nəcisdir.

**M:34.** Axarı olmayan, amma hər dəfə su götürdükdə yenidən qaynayan çeşmə suyuna nəcasət dəysə, nə qədər ki, onun rəngi, iyi, yaxud dadı nəcasət vasitəsi ilə dəyişilməyib, pakdır.

**M:35.** Çayın kənarında yığışan və axar suya birləşən suya nəcasət dəysə, nə qədər ki, rəngi, iyi və dadı nəcasətin vasitəsi ilə dəyişməyib pakdır.

**M:36.** Qışda qaynayan, yayda isə quruyan çeşmə yalnız qaynadığı vaxtda axar su hökmündədir.

---

[4] Bir məsələ barəsində güclü ehtimal verilən aşkar fətvadır ki, ona müvafiq əməl etmək lazımdır.

**M:37.** Hamamın hövuzunun suyu, hətta kürrdən az olsa və kürr miqdarında olan su anbarına birləşsə, axar su hökmündədir.

**M:38.** Hamamın, habelə böyük binaların krant və duşlarından axan suyun boruları kürr suyuna birləşmiş olsa axar su hökmündədir.

**M:39.** Yerdən qaynamayan, amma yerin üzündə cərəyanda olan su kürrdən az olsa və ona nəcasət dəysə, nəcis olar. Amma əgər yuxarıdan aşağı tökülsə və nəcasət onun aşağı hissəsinə dəysə, yuxarı hissəsi nəcis olmaz.

### *4-YAĞIŞ SUYU*

**M:40.** Əgər üstündə nəcasətin eyni olmayan nəcis bir şeyə bir dəfə yağış yağsa, yağışın dəydiyi yerlər pak olur və paltar-palaz və bu kimi şeyləri (yağış dəyəndən sonra) sıxmaq lazım deyil, amma iki-üç damcı yağış yağması kifayət deyil: elə yağmalıdır ki, “yağış yağır” deyilsin.

**M:41.** Əgər yağış nəcasətin üstünə yağıb başqa yerə sıçrasa, bu halda nəcasətin eyni o damcılarla birlikdə olmasa və nəcasətin iy, rəng və dadını özünə götürməsə pakdır. Deməli əgər yağış qanın üstünə yağıb başqa yerlərə sıçrasa, bu halda qanın zərrələri sıçrayan suda olarsa, yaxud o su qanın rəng, iy, yaxud dadını özünə götürərsə, nəcisdir.

**M:42.** Əgər binanın tavanında, yaxud damın üstündə nəcasətin eyni olsa, yağışın dama yağdığı müddətdə nəcis şeyə dəyib tavandan, yaxud navalçadan axan su pakdır. Yağış dayanandan sonra axan suyun nəcis şeyə dəyməsi mə’lum olsa nəcisdir.

**M:43.** Nəcis torpağın üstünə yağış yağsa, pak olur. Əgər yağış pak yerin üstünə yağıb, axmağa başlasa və tavanın altında olan nəcis yerə dəysə oranı da paklayar.

**M:44.** Nəcis torpaq yağış suyu vasitəsi ilə palçıq olsa və su onun hər yerini əhatə etsə, pak olar.

**M:45.** Əgər yağışın suyu bir yerdə toplansa, hətta kürrdən az olsa da, yağış yağan müddətdə nəcis şeyi onda yusalar və nəcasətin rəng, iy, yaxud dadını özünə götürməsə, o nəcis şey pakdır.

**M:46.** Əgər nəcis torpağın üstünə salınmış pak xalçanın üzərinə yağış yağıb nəcis yerə keçsə, xalça nəcis olmaz, nəcis torpaq da paklanar.

**M:47.** Əgər yağış suyu, yaxud başqa bir su çuxur yerdə yığılsa və kürrdən az olsa, yağış kəsiləndən sonra ona bir nəcasət dəysə, nəcis olar.

### *5-QUYU SUYU*

**M:48.** Yerdən qaynayan quyu suyu, kürrdən az olsa da belə, nəcasət ona dəyəndə, nə qədər ki, rəngi, iyi və ya dadı nəcasətin vasitəsi ilə dəyişməyib, pakdır. Amma müstəhəbdir ki, bə’zi nəcasətlər quyu suyuna dəyəndə (düşəndə) sair kitablarda müfəssəl şəkildə deyilən qədər o quyunun suyundan çəksinlər.

**M:49.** Əgər quyuya müəyyən bir nəcasət tökülsə, və onun rəngini, iyini və ya dadını dəyişsə, o vaxt pak olar ki, quyudan qaynayan su, onunla qarışsın və onun səbəbi ilə suda baş verən dəyişikliklər aradan getsin.

***SULARIN HÖKMLƏRİ***

**M:50.** Mə’nası yuxarıda deyilən muzaf su nəcis şeyi pak etmir, onunla alınan dəstəmaz və qusul batildir.

**M:51.** Əgər nəcasətin zərrələri muzaf suya dəysə, su da nəcis olur. Amma əgər yuxarıdan-aşağıya nəcis şeyin üstünə tökülsə, nəcis şeyə dəyən hissələr nəcis, ondan yuxarıdakı hissələr isə pakdır. Məsələn, əgər gülab suyunu gülabdandan nəcis əlin üstünə töksələr, ələ dəyən hissələr nəcis, dəyməyən hissələr isə pakdır. Həmçinin, əgər fəvvarə suyu kimi təzyiqlə aşağıdan yuxarıya getsə və yuxarı hissəsinə nəcis dəysə, nəcis olur, aşağı hissələri isə pak qalır.

**M:52.** Əgər nəcis muzaf su kürr, yaxud axar su ilə, daha muzaf su deyilməyəcəyi tərzdə qarışsa, pak olar.

**M:53.** Əvvəldə mütləq olan suyun muzaf olub-olmaması mə’lum olmazsa, mütləq su kimidir, yə’ni nəcis şeyi paklayır, onunla dəstəmaz və qusul səhihdir. Habelə, əvvəlcə muzaf olan suyun mütləq olub-olmaması mə’lum olmazsa, muzaf su kimidir, yə’ni nəcis şeyi pak etmir, onunla alınan dəstəmaz və qusul batildir.

**M:54.** Hal-hazırda mütləq, yaxud muzaf olması mə’lum olmayan, əvvəllər də muzaf və ya mütləq olması mə’lum olmayan su nəcasəti paklamır, onunla alınan dəstəmaz və qusul da batildir. Amma kürr qədərində, yaxud ondan da çox olsa və nəcasət ona dəysə, onun nəcis olmasına hökm olunmur.

**M:55.** Nəcasətin eyni (qan, bovl və s. kimi) dəyən və rəngi, iyi, yaxud dadı dəyişən su, hətta kürr, yaxud axar da olsa, nəcis olur. Amma suyun rəngi, iyi və ya dadı, sudan çöldə olan bir şeyin (məsələn, su kənarında olan ölü heyvanın) vasitəsi ilə dəyişsə, nəcis olmaz.

**M:56.** Nəcasətin eyni (bovl, qan kimi) tökülən və rəngi, iyi və ya dadı dəyişilən su kürrə, yaxud axar suya birləşmiş olsa, yaxud üstünə yağış yağsa və ya külək yağış suyunu onun üzərinə töksə, yaxud yağışın suyu yağış yağdığı vaxt navalçalardan axıb onun üstünə tökülsə və ondakı dəyişiklikləri aradan aparsa, paklanar. Amma ehtiyat-vacibə görə yağışın suyu, yaxud axar su və ya kürr su onunla qarışmalıdır.

**M:57.** Əgər nəcis bir şeyi kürr, yaxud axar suda suya çəksələr, onu çölə çıxartdıqdan sonra tökülən su pakdır.

**M:58.** Əvvəldə pak olan suyun nəcis olub-olmaması mə’lum olmasa, pakdır; habelə, əvvəldə nəcis olan suyun pak olub-olmaması mə’lum olmasa, nəcisdir.

**M:59.** İt, donuz və kafirin artığı nəcis və onun yeyilməsi haramdır. Əti haram olan heyvanların artığı pak, yeyilməsi isə məkruhdur.

## *TƏXƏLLİNİN HÖKMLƏRİ*

**M:60.** Vacibdir ki, insan təxəlli halında (ayaq yoluna getdiyi vaxt) və s. vaxtlarda öz ovrətini mükəlləf şəxslərdən, hətta ana, bacı, qardaş kimi məhrəm olan şəxslərdən, həmçinin, dəlidən və yaxşını-pisi seçə bilən müməyyiz uşaqlardan örtsün. Amma ər-arvadın ovrətlərini bir-birindən örtməsi lazım (ilzami) deyil.

**M:61.** Ovrəti məxsus şeylə örtmək ilzami deyil; hətta əllə də örtsələr, kifayətdir.

**M:62.** Təxəlli halında gərək bədənin qabaq hissəsi (qarın, sinə) üzü, yaxud arxası qibləyə olmasın.

**M:63.** Əgər təxəlli halında bir kəsin bədəninin qabaq, yaxud arxa tərəfi qibləyə olsa, amma ovrətini qiblədən başqa tərəfə döndərsə, kifayət deyildir. Əgər bədənin qabağı, yaxud arxası qibləyə tərəf olmasa, ehtiyat-vacib budur ki, ovrətini üzü, yaxud arxası qibləyə etməsin.

**M:64.** Bovl və qaitin məxrəcini paklayanda, istibra edəndə bədənin üzü, yaxud arxası qibləyə olmasının maneəsi yoxdur. Amma ehtiyat-müstəhəb budur ki, bu halda da üzü, yaxud arxası qibləyə olmasın.

**M:65.** Bir kəs, naməhrəm onu görməsin deyə, üzü, yaxud arxası qibləyə oturmağa məcbur olsa, gərək üzü, yaxud arxası qibləyə otursun. Həmçinin, əgər başqa səbəblər üzündən də üzü, yaxud arxası qibləyə oturmağa məcbur olsa, maneəsi yoxdur.

**M:66.** Ehtiyat-vacib budur ki, uşağı, təxəlli halında üzü, yaxud arxası qibləyə oturtmasınlar. Amma əgər uşağın özü otursa, qarşısını almaq vacib deyil.

**M:67.** Aşağıdakı yerlərdə təxəlli etmək haramdır:

**1-**Sahibi icazə verməyən bağlı küçələrdə (dalanlarda);

**2-**Təxəlli üçün icazə verməyən kəsin mülkündə;

**3-**Məxsus insanlar üçün vəqf edilən yerlərdə (bə'zi mədrəsələr kimi);

**4-**Ehtiramsızlıq olacağı halda, mö'minlərin qəbirlərinin üstünə.

**M:68.** Üç halda qaitin məxrəci təkcə su ilə paklanar:

**1-**Qaitlə başqa nəcasət (qan kimi) çölə gələrsə;

**2-**Xaricdən bir nəcis qaitin məxrəcinə dəymiş olarsa;

**3-**Məxrəcin kənar hissələri adi qaydadan artıq nəcasətə bulaşmış olarsa. Bunlardan başqa hallarda məxrəci həm su ilə yumaq olar, həm də sonradan deyiləcəyi qaydada parça, daş və s. kimi şeylərlə paklamaq olar. Amma su ilə yumaq daha yaxşıdır.

**M:69.** Bovlun məxrəci sudan başqa şeylə paklanmır. Əgər bovl aradan qaldırılandan sonra bir dəfə su ilə yuyulsa, kifayətdir. Amma ehtiyat-müstəhəb

budur ki, iki dəfə yuyulsun. Bovlu özünün təbii məcrasından gəlməyən şəxslər iki dəfə yumalıdırlar. Xüsusilə, əgər bovlun o məcradan çölə gəlməsi qeyri-adi olarsa.

**M:70.** Əgər qaitin məxrəcini su ilə yusalar, gərək qaitdən bir şey orada qalmasın. Amma onun rəngi və iyinin qalmasının maneəsi yoxdur. Əgər birinci dəfədə yuyulanda qaitin zərrələri orada qalmasa, ikinci dəfə yuyulması lazım deyil.

**M:71.** Əgər qaiti məxrəcdən daş, kəsək və bu kimi şeylərlə təmizləsələr, pak olmasının təəmmül-məhəlli[5] olmasına baxmayaraq, namaz qılmağın maneəsi yoxdur.

**M:72.** Məxrəci üç daşla, yaxud üç parça ilə paklamaq lazım (ilzami) deyildir; Hətta bir daşın və ya parçanın müxtəlif tərəfləri ilə də paklamaq kifayətdir. Amma üç dəfədən az olmamalıdır. Məxrəci sümük, peyin, yaxud ehtiramı lazım olan şeylərlə (məsələn, Allahın adı yazılan kağız ilə) paklasalar, onunla namaz qılmaq olmaz.

**M:73.** Bir kəs məxrəci paklayıb-paklamamasında şəkk etsə, həmişə bovl, yaxud qaitdən sonra adəti dərhal paklamaq olmasına baxmayaraq, ehtiyat-vacibə görə, paklamalıdır.

**M:74.** Əgər namazdan sonra namazdan əvvəl məxrəci paklayıb-paklamamasında şəkk etsə, qıldığı namazlar səhihdir, amma sonrakı namazlar üçün paklamalıdır.

### *İSTİBRA*

**M:75.** İstibra müstəhəb bir əməldir ki, kişilər bovl xaric olandan sonra (bovl kanalını tam təmizləmək üçün) yerinə yetirirlər. Bunun bir neçə yolu vardır. Ən yaxşısı budur ki, bovl kəsiləndən sonra əgər qaitin məxrəci nəcisdirsə, əvvəlcə onu paklasın, sonra üç dəfə sol əlin orta barmağı ilə qaitin məxrəcindən alətin dibinə qədər çəksin, sonra baş barmağı alətin üstünə, onun yanındakı barmağı isə alətin altına qoyub üç dəfə dəllək kəsən yerə qədər sıxaraq, daha sonra alətin başını üç dəfə sıxsın.

**M:76.** İnsandan mazaqlaşma zamanı xaric olan su (bu, məzi adlanır) pakdır. Həmçinin, bə’zi vaxtlar mənidən sonra gələn su (bu vəzi adlanır) da pakdır. Amma bə’zi vaxtlar bovldan sonra gələn suya (bu, vədi adlanır) əgər bovl dəyməsə, pakdır. Əgər insan bovldan sonra istibra etsə və sonra ondan su xaric olsa, onun ya bovl, yaxud bu (pak) sulardan biri olmasında şəkk etsə, pakdır.

**M:77.** Əgər insan istibra edib-etməməsi barədə şəkk etdikdən sonra ondan rütubət çıxsa, və o, bu rütubətin pak olub-olmamasını bilməsə, nəcisdir.

---

[5]Ehtiyat olunmalıdır. (Müqəllid belə məsələlərdə başqa müctehidə müraciət edə bilər.)

Dəstəmaz almış olsa, dəstəmazı da batildir. Amma əgər etdiyi istibranın səhih olub-olmaması barədə şəkk etsə və bu halda ondan pak olub-olmamasını bilmədiyi rütubət xaric olsa, bu rütubət pakdır, dəstəmazı da batil etmir.

**M:78.** Bir kəs istibra etməsə və bovl etməsindən uzun müddət keçməsi səbəbi ilə bovlun məcrada qalmaması barədə yəqin etsə, sonra rütubət görüb pak olub-olmamasında şəkk etsə, o rütubət pakdır, dəstəmazı da batil etmir.

**M:79.** Əgər insan bovldan sonra istibra edib dəstəmaz alsa və sonra rütubət görüb ya bovl, yaxud da məni olmasını bilsə, vacibdir ki, ehtiyatən həm qusl, həm də dəstəmaz alsın. Amma əgər dəstəmaz almamış olsa, təkcə dəstəmaz alması kifayətdir.

**M:80.** Qadınlar üçün bovldan sonra istibra yoxdur və əgər bir rütubət görüb pak olub-olmaması barədə şəkk etsələr, pakdır, dəstəmaz və qusul da batil olmaz.

## *TƏXƏLLİNİN MÜSTƏHƏB VƏ MƏKRUHATI*

**M:81**. Müstəhəbdir ki, insan təxəlli vaxtında elə yerdə otursun ki, heç kəs onu görməsin. Təxəlli yerinə (ayaq yoluna) sol ayaqla daxil olub sağ ayaqla çıxsın. Həmçinin müstəhəbdir ki, təxəlli halında başını örtsün, bədənin ağırlığını sol ayağının üstünə salsın.

**M:82** Təxəlli vaxtında günəş və ay ilə üzbəüz oturmaq məkruhdur. Amma əgər öz ovrətini müəyyən bir şeylə örtsə, məkruh deyil. Həmçinin təxəlli vaxtında küləklə üzbəüz, yolda, xiyabanda, küçədə, evin qapısında, meyvə verən ağacın altında oturmaq, həmçinin təxəlli halında bir şey yemək, çox qalmaq, sağ əllə taharət almaq məkruhdur. Həmçinin təxəlli halında danışmaq da məkruhdur. Amma danışmağa məcbur olsa, yaxud Allah zikri desə eybi yoxdur.

**M:83** Ayaq üstə bovl etmək, habelə, bərk torpağın üstünə, heyvanların (həşəratların) yuvasına, suya, xüsusilə axarı olmayan (bir yerə yığılmış) suya bovl etmək məkruhdur.

**M:84.** Bovl və qaitin qarşısını almaq məkruhdur, amma insana zərər versə, gərək qarşısı alınmasın.

**M:85.** Müstəhəbdir ki, insan namaz, yuxu və cimadan əvvəl, həmçinin məni gələndən sonra bovl etsin.

## *NƏCASƏTLƏR*

**M:86.** Nəcasət on bir şeydən ibarətdir: bovl, qait, məni, murdar olmuş heyvan, qan, it, donuz, kafir, şərab, pivə və nəcasət yeyən dəvənin təri.

### *1 VƏ 2-BOVL VƏ QAİT (İFRAZAT)*

**M:87.** İnsanın və atıcı qanı olan (yə'ni damarını kəsdikdə qanı sıçrayışla gələn) haram ətli heyvanların bovl və qaiti nəcisdir.

**M:88.** Əti haram olan quşların fəzləsi pakdır.

**M:89.** Nəcis yeyən heyvanların bovl və qaiti nəcisdir. Habelə, insanın yaxınlıq etdiyi heyvanın və əti donuz südündən qidalanmaqla möhkəmlənən qoyunun bovl və qaiti nəcisdir.

### *3-MƏNİ*

**M:90.** Atıcı qanı olan heyvanların mənisi nəcisdir.

### *4-MURDAR (ÖLÜ HEYVAN)*

**M:91.** Atıcı qanı olan heyvanın ölüsü nəcisdir–istər özü ölmüş olsun, istərsə də başı Şəriətdə müəyyən olunmuş qaydaların əksinə olaraq kəsilmiş olsun. Balığın isə atıcı qanı olmadığından, hətta suda da ölsə pakdır.

**M:92.** Ölmüş heyvandan ayrılan və ruhu olmayan hissələri (yun, kürk, tük, sümük, diş kimi), it kimi zatən nəcis olan heyvanlardan olmazsa, pakdır.

**M:93.** Əgər insanın bədənindən, yaxud atıcı qanı olan heyvanın bədənindən diri halda ət, yaxud ruhu olan başqa bir şey qoparılsa, nəcisdir.

**M:94.** İnsan dodağın və başqa bədən üzvlərinin kiçik dərilərinin, düşmə vaxtı çatanda, qopartsa pakdır.

**M:95.** Ölü toyuğun qarnından çıxan yumurtanın üstü və qabığı bərkiməmiş olsa da pakdır.

**M:96.** Əgər quzu və ya çəpiş ölsə onun qursağında olan pendir mayası pakdır. Amma onun üstünü, zahirini suya çəkmək lazımdır.

**M:97.** İnsanın qeyri-müsəlman ölkələrindən gətirilən dava-dərman, ətir, yağ, krem, maz və sabunların nəcis olmasına yəqinliyi olmazsa pakdır.

**M:98.** Müsəlmanın əlində olan ət, piy, dəri pakdır. Əgər bir kəs o müsəlmanın bunları kafirdən aldığını bilsə və Şəriətdə müəyyən olunmuş qayda-qanun üzrə kəsilməsi barədə axtarış aparmasa nəcis deyil, amma onu yemək haramdır və o dəridən hazırlanan paltarlarda namaz qılmaq caiz deyil.

### *5-QAN*

**M:99.** İnsanın və atıcı qanı olan (yə'ni damarını kəsdikdə qanı sıçrayışla gələn) hər heyvanın qanı nəcisdir. Deməli atıcı qanı olmayan heyvanların (balıq və milçək kimi) qanı pakdır.

**M:100.** Əgər əti halal olan heyvanı Şəriət qanunlarına müvafiq olaraq kəssələr və onun bədənindən normal qaydada qan getsə, bədənində qalan qan pakdır. Amma heyvanın nəfəs çəkməsi, yaxud başqa səbəblər ilə (məsələn, heyvanın başının ucada olması kimi) bədəninə qayıdan qan nəcisdir.

**M:101.** Yumurtanın içində olan qan nəcis deyildir, amma ehtiyat-müstəhəbbə görə ondan ictinab etmək lazımdır.

**M:102.** Yara sağalan zaman onun ətrafında olan sarı rəngli suyun qanla qarışması mə'lum olmazsa, pakdır.

**M:103.** Heyvanları sağanda heyvanın döşündən gələn qan nəcisdir və südü də nəcis edir.

**M:104.** Dişlərin dibindən gələn qan, ağız suyu ilə qarışaraq aradan getsə pakdır və bu halda onu udmağın eybi yoxdur.

**M:105.** Əgər dırnağın, dərinin əzilməsi səbəbilə, onun altında olan ölü qanlara artıq qan deyilməzsə pakdır; yox əgər, onlara qan deyilsə, dırnaq və ya dəri deşildiyi halda nəcis sayılır. Əgər məşəqqəti olmasa qusul və dəstəmaz üçün o qan təmizlənməlidir. Amma məşəqqəti olsa nəcasətin artıq yayılmaması şərti ilə onun ətrafı yuyulmalı, sonra onun üstünə parça və bu kimi şeylər qoyulmalı, yaş əllə parçanın üstünə çəkilməlidir.

**M:106.** Əgər insan, qanın dərinin altında ölməsini, yoxsa ətin əzilməsi səbəbilə bu hala düşməsini bilməsə pakdır.

**M:107.** Əgər xörək qaynayan zaman içinə bir zərrə qan düşsə, xörək və onun qabı nəcis olur. Odun hərarəti və ya suyun qaynaması nəcisi paklamaz.

### *6 VƏ 7-İT VƏ DONUZ*

**M:108.** Quruda yaşayan it və donuz, hətta onların tükü, sümüyü, pəncəsi, dırnağı və rütubəti nəcisdir. Amma su iti və su donuzu pakdır.

### *8-KAFİR*

**M:109.** Kafir–yə'ni Allaha e'tiqadı olmayan və ya Ona şərik qoşan, yaxud Həzrət Mühəmməd ibni Əbdillah (səlləllahu əleyhi və alihi və səlləm)-i qəbul etməyən şəxs nəcisdir. Əhli-kitaba gəlidikdə isə onlar pakdır (114-cü məsələdə qeyd olunacaq). Həmçinin dinin zəruri məsələlərini (müsəlmanların İslam dininin bir hissəsi saydıqları şeyləri) inkar edən şəxs, o şeyin dinin zəruri məsələlərindən olduğunu bilsə və o şeyi inkar etməsi nübüvvətin inkarına qayıtsa, həmin şəxs nəcisdir; yox əgər bu işi bilməsə ehtiyatən ondan ictinab etmək lazımdır.

**M:110.** Kafirin bədəninin hamısı: tükü, dırnağı və rütubəti nəcisdir.

**M:111.** Həddi-büluğa çatmamış bir uşağın atası, anası, babası, nənəsi kafir olsa o uşaq da nəcisdir. Amma onlardan biri müsəlman olsa, uşaq da pakdır.

**M:112.** Əgər bir nəfərin müsəlman və ya kafir olması mə'lum olmasa, keçmişdə də onun müsəlman və ya kafir olması mə'lum olmasa pakdır, lakin müsəlmanların sair hökmləri ona aid edilmir. Məsələn, müsəlman qadınla evlənə, yaxud müsəlmanların qəbiristanlığında dəfn oluna bilməz.

**M:113.** Əgər müsəlman şəxs on iki İmam (əleyhimüs-salam)-dan birinə nalayiq söz desə (söysə), yaxud onlarla düşmən olsa nəcisdir.

**M:114.** Mürtəd–istər milli[6] olsun, istərsə də fitri[7]–nəcisdir. Amma əhli-kitab (yəhudilər və məsihilər kimi) pakdırlar.

### *9-ŞƏRAB*

**M:115.** Şərab və insanı məst edən hər bir şey əgər öz-özlüyündə, zatən maye olsa nəcisdir; yox əgər narkotik maddələr olan həşiş kimi zatən maye olmasa, hətta bir şeydə həll edilib məhlul halına salınmaqla da axıcı olsa pakdır.

**M:116.** Qapı, stol, stul və s.-nin rənglənməsində işlənən texniki spirtin, məstedici şeylərdən hazırlanması və zatən maye (axıcı) olması mə'lum olmasa, pakdır.

**M:117.** Əgər üzüm və onun suyu öz-özlüyündə qaynasa (qıcqırsa), yeyilməsi haramdır, amma nəcis deyildir. Əgər bişirilməklə qaynasa, yeyilməsi haramdır, amma nəcis deyilidir.

**M:118.** Xurma, meviz, kişmiş və onların suyu qaynadıldıqda pak, yeyilməsi də halaldır.

### *10-PİVƏ*

**M:119.** Arpadan alınan və "arpa suyu" deyilən pivə nəcisdir. Amma təbibin göstərişi ilə arpadan alınan və "mauş-şəir" adlanan su pakdır.

### *HARAMDAN CÜNUB OLANIN TƏRİ*

**M:120.** Haramdan cünub olan şəxsin təri nəcis deyil. Amma ehtiyat-vacib budur ki, o tərə bulaşan bədən və ya paltarda namaz qılınmasın.

**M:121.** Əgər insan, qadınla yaxınlıq etməyin haram olduğu vaxt (məsələn, Ramazan ayının gündüzündə) öz qadını ilə yaxınlıq etsə, ehtiyat-vacibə görə namazda öz tərindən qorunmalıdır.

**M:122.** Əgər haram yolla cünub olan şəxs qusul edə bilməyib qusul əvəzindən təyəmmüm etsə, ehtiyat-vacibə görə gərək namazda öz tərindən qorunsun.

**M:123.** Əgər bir kəs haram yolla cünub olsa və sonra öz halalı ilə yaxınlıq etsə, ehtiyat-vacibə görə namazda öz tərindən qorunmalıdır. Amma əgər əvvəlcə öz halalı ilə yaxınlıq edib sonra haram yolla yaxınlıq etsə, tərindən qorunması vacib deyil.

---

[6]Atası, yaxud anası, nütfə bağlanan zaman müsəlman olub həddi-büluğa çatandan sonra İslamı izhar edən və sonradan mürtəd olan şəxsə deyilir.

[7]Atası və anası müsəlman olmayan halda dünyaya gəlib sonradan müsəlman olan və daha sonra mürtəd olan şəxsə deyilir.

### *11-NƏCASƏT YEYƏN DƏVƏNİN TƏRİ*

**M:124.** Nəcasət yeyən dəvənin təri nəcisdir, amma başqa heyvanlar nəcasət yeməyə adət etsələr, onların tərindən qorunmaq lazım deyil.

### *NƏCASƏTİN SÜBUT OLUNMASI YOLLARI*

**M:125.** Hər şeyin nəcis olması üç yolla sübut olunur:

**1-**İnsanın özü bir şeyin nəcis olmasına yəqin etsin. Amma ki, bir şeyin nəcis olmasına güman etsə, ondan qorunması lazım deyil. Amma gümanı səbəbi ilə, adi camaatın yəqin hesab etdikləri xatircəmlik hasil olsa, bu halda ictinab etmək lazımdır. Buna əsasən, laqeyd və nəcis-paklıq məsələlərinə riayət etməyən şəxslərin yemək yedikləri mehmanxanalarda, qəhvəxanalarda yemək yeyən zamanı onun üçün gətirilən şeyin nəcis olmasına yəqini olmasa, yeməyin eybi yoxdur.

**2-**İnsanın ixtiyarında olan bir kəs, hər hansı şeyin nəcis olmasını xəbər versə (məsələn, insanın həyat yoldaşı, nökəri, yaxud ailə üzvləri müəyyən bir qabın, yaxud nəcis olmasını xəbər versə);

**3-**İki nəfər adil şəxs hər hansı bir şeyin nəcis olmasını desələr, ehtiyat-vacibə o şeydən ictinab etmək lazımdır.

**M:126.** Əgər məsələni bilməməzlik üzündən müəyyən bir şeyin nəcis və ya pak olmasını (məsələn, haram yolla cünub olan şəxsin tərinin nəcis və ya pak olmasını) bilməsə, məsələni soruşmalıdır. Amma məsələni bildiyi halda bir şeyin nəcis və ya pak olması barəsində şəkdə olsa (məsələn, bir şeyin qan olub-olmaması barəsində şəkk etsə, yaxud insanın və ya milçəyin qanı olmasını bilməsə) pakdır.

**M:127.** Bir kəs nəcis şeyin pak olub-olmamasında şəkk etsə, nəcisdir; pak bir şeyin nəcis olub-olmamasında şəkk etsə, pakdır. Hətta əgər onun pak və ya nəcis olmasını başa düşə bilməsi mümkün olsa da, təhqiqat aparması lazım deyil.

**M:128.** Hər ikisindən istifadə etdiyi iki qab, yaxud iki paltardan birinin nəcis olmasını bilsə, amma müəyyən şəkildə hansının nəcis olmasını bilməsə, hər ikisindən ictinab etməlidir. Hətta əgər öz libasının, yaxud ümumiyyətlə istifadə etmədiyi və başqasının olan paltarın nəcis olması barəsində şəkk etsə yenə də ehtiyat budur ki, öz paltarından ictinab etsin. Lakin bu, ilzami deyildir.

### *PAK ŞEYLƏRİN NƏCİS OLMASI YOLLARI*

**M:129.** Əgər pak şey nəcis bir şeyə toxunsa və hər ikisi, yaxud biri, digərinə sirayət edə bilən həddə yaş olsa, pak şey də nəcis olur. Amma əgər rütubət çox az olsa və ona toxunan pak şeyə sirayət etməsə, əvvəldə pak olan şey nəcis olmaz.

**M:130.** Əgər pak bir şey nəcis şeyə toxunsa və insan onlardan hər ikisinin, yaxud birinin rütubətli olub-olmaması barədə şəkk etsə, pak şey nəcis olmaz.

**M:131.** Əgər pak bir şey, insanın hansının pak, hansının nəcis olmasını bilmədiyi iki şeydən birinə, rütubətli halda dəysə, nəcis olmaz; amma onlardan biri əvvəlcə nəcis olsa və insan pak olub-olmamasını bilməsə və pak şey ona toxunsa, nəcis olar.

**M:132.** Torpaq, parça və bu kimi şeylər rutubətli olsa nəcasətin onlara toxunduğu yerləri nəcis, qalan hissələr isə pakdır. Xiyar, qovun və s. kimi şeylər də bu qayda ilə.

**M:133.** Əgər maye halda olan şirə və yağın bir nöqtəsi nəcis olsa, hər yeri nəcis olur. Amma axıcı olmasa (bərk olsa) hamısı deyil, yalnız nəcasət dəyən yerlər nəcis olur.

**M:134.** Əgər milçək və s. kimi həşəratlar yaş və nəcis bir şeyin üstünə qonub sonradan rutubətli və pak bir şeyin üstündə otursa, bu halda insan o həşəratın üstündə nəcasətin olmasını bilsə, bu halda pak şey nəcis olur; yox əgər həşəratla birlikdə nəcasətin olmasını bilməsə, onun qonduğu pak şey nəcis olmaz.

**M:135.** Əgər bədənin tərləmiş bir yeri nəcis olsa və tər oradan başqa yerlərə axsa, tərin dəydiyi hər yer nəcis olur. Amma tər başqa yerlərə axmasa, bədənin sair yerləri pakdır.

**M:136.** Burun və ya boğazdan gələn sularda qan olsa, qan olan yerləri nəcis, qalan yerləri isə pakdır. Deməli əgər bu sular ağızın çöl tərəfində dodaqlara və yaxud buruna dəysə o suyun nəcis yerinin dəydiyinə yəqin etdiyi yerlər nəcisdir. Amma suyun nəcis yerinin həmin yerlərə dəyib-dəyməməsində şək etsə, pakdır.

**M:137.** Altı deşik olan aftafanı nəcis torpağın üstünə qoysalar və aftafadan axan su onun altında bir yerə yığışıb onun suyu ilə bir hesab olunsa, aftafanın suyu nəcis olar. Amma əgər aftafanın altından çıxan su yerə batsa, yaxud axıb getsə, bu halda aftafanın deşiyi nəcis torpağa birləşmiş olsa, aftafanın suyu da nəcis olur. Əgər deşiyi nəcis torpağa birləşməmiş olsa və aftafanın altında olan su onun daxilindəki su ilə bir hesab olunmasa, aftafanın daxilindəki su nəcis olmaz.

**M:138.** Əgər bir şey bədənə daxil olub nəcisə dəysə və çölə çıxandan sonra nəcasətə qarışmamış olsa pakdır. Deməli imalə avadanlıqları, yaxud onun suyu qaitin məxrəcinə daxil edilsə, yaxud iynə, bıçaq və s. kimi şeylər bədənin hər hansı yerinə batsa və çölə çıxandan sonra nəcasətə bulaşmamış olsa, nəcis deyildir. Həmçinin əgər burunun, ağızın suyu daxildə qana dəyib çıxandan sonra qanla qarışmamış olsa (pakdır).

### *NƏCASƏTİN HÖKMLƏRİ*

**M:139.** Qur’anın vərəqini, xəttini (yazısını) nəcisləmək haramdır; əgər nəcis olsa dərhal onu suya çəkmək lazımdır.

**M:140.** Əgər Qur’anın cildi nəcis olsa, onu suya çəkmək lazımdır.

**M:141.** Qur’anı nəcasətin eyni olan şeyin (qan, ölü heyvan və s.) üstünə, hətta nəcisin eyni quru da olsa, haramdır və Qur’anı o nəcis şeyin üstündən götürmək vacibdir.

**M:142.** Qur’anı, hətta bir hərfini də belə, nəcis mürəkkəblə yazmaq haramdır və əgər yazılsa onu suya çəkmək lazımdır, yaxud yonmaq və s. kimi işlərlə aradan aparmaq lazımdır. Əgər aradan aparmaq mümkün olmasa, suya çəkmək lazımdır.

**M:143.** Qur’anı kafirə vermək olmaz; amma Qur’an onun əlində olsa mümkün olan surətdə ondan almaq lazımdır. Amma Qur’anın kafirə verməkdə məqsəd, yaxud onun özünün Qur’anı olmaqda məqsədi din barəsində mütaliə, təhqiqat aparmaq olsa, habelə, insan bilsə ki, kafir yaş əllə Qur’ana ləms etməyəcək, bu halda eybi yoxdur.

**M:144.** Əgər Qur’anın vərəqi, yaxud ehtiram qoyulması vacib olan bir şey (Allahın, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in və İmamlar (əleyhimüs-salam)-ın adları yazılan kağız kimi) tualetə düşsə, onu oradan çıxardıb suya çəkmək–hətta xərci olsa belə vacibdir. Əgər onu tualetdən çıxarmaq mümkün olmasa ehtiyat-vacibə görə, o vərəqlərin çürüməsi barədə yəqin hasil olana qədər o tualetə gedilməməlidir. Həmçinin əgər İmam Hüseyn (əleyhissalam)-ın türbəti (qəbrinin torpağı) tualetə düşsə və onun çölə çıxarmaq mümkün olmasa, o torpağın tamamilə aradan getməsinə yəqinlik hasil olmayınca o tualetə gedilməməlidir.

**M:145.** Nəcis şeyi yemək, içmək haramdır. Həmçinin nəcisin eynini uşağa yedizdirmək də haramdır. Amma əgər uşağın özü nəcis xörəyi, yaxud sair qida məhsullarını yesə, yaxud nəcis əl ilə yeməyi murdarlayıb sonra yesə, onun qarşısını almaq lazım deyil.

**M:146.** Suya çəkilməsi mümkün olan nəcis bir şeyi satanda, yaxud ariyə verəndə nəcis olmasını deməməyin eybi yoxdur. Amma insan, alıcı və yaxud ariyə götürənin həmin şeyi yemək-içməkdə istifadə edəcəyini bilsə, nəcis olmasını həmin şəxsə deməlidir.

**M:147.** Əgər bir kəs başqa bir kəsin nəcis şeyi yeməsini, yaxud nəcis paltarda namaz qılmasını görsə, ona xəbər verməsi lazım deyil.

**M:148.** Əgər bir kəsin evinin, yaxud xalça, palaz kimi şeylərinin müəyyən bir yeri nəcis olsa və onun otağına daxil olan kəslərin paltarı və ya bədənin bir hissəsi rütubətli halda nəcis olan yerə dəydiyini bilsə, onlara deməsi lazım deyildir.

**M:149.** Əgər ev sahibi yemək əsnasında yeməyin nəcis olduğunu başa düşsə, qonaqlara deməlidir. Amma qonaqlardan biri bu məsələni başa düşsə, sair qonaqlara xəbər verməsi lazım deyil.

**M:150.** Bir şəxsin icarəyə götürdüyü şey nəcis olsa və mal sahibinin həmin şeyi yeyib-içməkdə istifadə etməsini bilsə, ona xəbər verməsi vacibdir.

**M:151.** Əgər uşaq əlində olan bir şeyin nəcis olmasını, yaxud nəcis şeyi suya çəkdiyini desə, sözünü qəbul etmək olmaz–amma yaxşını-pisi seçə bilən müməyyiz, yaxud mürahiq (yə’ni həddi-büluğa yaxın olan) uşağın sözünün e’tibarlı olması ehtimalı var.

### *PAKLAYICILAR*

**M:152.** On şey nəcasəti paklayır (bunlara mütəhhirat deyilir): **1-**Su; **2-**Yer; **3-**günəş; **4-**İstihalə (bir haldan başqa hala keçmə); **5-**intiqal (bir yerdən başqa yerə nəql olunma); **6-**İslam; **7-**Təbəiyyət; **8-**Nəcasətin eyninin aradan qaldırılması; **9-**Nəcasət yeyən heyvanın istibrası; **10-**Müsəlmanın qaib olması (və bunların hökmləri sonrakı məsələlərdə müfəssəl şəkildə gələcəkdir).

### *1-SU*

**M:153.** Su, dörd şərt daxilində nəcis şeyi pak edir:

1-ci şərt budur ki, mütləq olsun; (Deməli əgər muzaf olsa (gülab suyu və s. kimi) nəcis şeyi pak etməz.)

2-ci şərt budur ki, pak olsun;

3-cü şərt budur ki, nəcis şeyi yuyanda su muzaf olmasın və rəngi, iyi, yaxud dadı, nəcasətin rəngini, iyini, dadını özünə götürməsin;

4-cü şərt budur ki, nəcis şeyi suya çəkəndən sonra nəcasətin eyni onda qalmasın. (Nəcis şeyin qəlil (az) su ilə pak olmasının əlavə şərtləri vardır ki, sonradan qeyd olunacaq.

**M:154.** Nəcis qabı qəlil su ilə üç dəfə yumaq lazımdır amma kürr, yaxud cari (axar) suda bir dəfə yumaq kifayətdir. İtin yaladığı, yaxud su və ya maye şeylər yediyi qabı əvvəlcə pak torpaq ilə sürtmək, sonra isə ehtiyat-vacibə görə kürr, axar, yaxud qəlil suda iki dəfə yumaq lazımdır. Həmçinin itin ağzının suyu tökülən qabı da ehtiyat-vacibə görə yumaqdan əvvəl torpaqla sürtmək lazımdır.

**M:155.** Əgər itin ağzını vurduğu qabın ağzı dar olsa və onu torpaqla sürtmək mümkün olmasa, gərək torpağı onun içinə töküb möhkəm hərəkət etdirsinlər ki, torpaq qabın hər tərəfinə çatsın. Bundan qeyri surətdə qabın pak olması işkallıdır.

**M:156.** Donuzun axıcı (maye) şey yediyi qabı qəlil su ilə yeddi dəfə; ehtiyat-vacibə görə kür və ya axar suda da 7 dəfə yumaq lazımdır. Onu torpaq ilə sürtmək vacib deyil. Amma, ehtiyat-müstəhəb budur ki, o da torpaqla sürtülsün.

**M:157.** Əgər şərab vasitəsilə nəcis olmuş qabı qəlil su ilə suya çəkmək istəsələr, gərək üç dəfə yusunlar. Daha yaxşı olar ki, yeddi dəfə yuyulsun.

**M:158.** Nəcis palçıqdan düzəldilən, yaxud nəcis suyun hopduğu kuzəni kürr, yaxud axar suda qoysalar və hər yerinə su dəysə, pak olar. Əgər onun batinini

də paklamaq istəsələr, kürr, yaxud cari suda o qədər qalmalıdır ki, su onun hər yerinə hopsun (nüfuz etsin). Rütubətin hopması kifayət deyil.

**M:159.** Nəcis olmuş qabı, az su ilə iki cür yumaq olar: **1-**O qabı üç dəfə doldurub-boşaltsınlar; **2-**Bir miqdar suyu üç dəfə onun içinə töksünlər və hər dəfədə suyu onun içində elə hərəkət etdirsinlər ki, bütün nəcis yerlərinə çatsın, sonra isə suyu boşaltsınlar.

**M:160.** Xum, qazan və s. kimi böyük qablar nəcis olsa və onu üç dəfə su ilə doldurub-boşaltsalar, paklanar. Həmçinin üç dəfə ona yuxarıdan su töksələr və onun hər tərəfinə dəysə və hər dəfə də onun dibində yığılan suyu çölə töksələr, paklanar. Ehtiyat-vacib budur ki, o böyük qabın içində yığılan suyu çölə tökmək üçün istifadə olunan qab hər dəfə suya çəkilsin.

**M:161.** Əgər nəcis bir şeyi nəcasətin eyni aradan qaldırdıqdan sonra bir dəfə kürr, yaxud axar suya batırsalar və su onun nəcis yerlərinin hamısına dəysə, pak olar. Ehtiyat-vacib budur ki, xalça, palaz-paltar və s. kimi şeyləri elə sıxsınlar və ya hərəkət etdirsinlər ki, onun daxilindəki su çıxsın.

**M:162.** Əgər bovl ilə nəcis olmuş şeyi qəlil su ilə suya çəkmək istəsələr, suyu bir dəfə onun üstünə töksələr və ondan ayrılsa, bovlun o şeydə qalmadığı halda üstünə ikinci dəfə su töküldükdə paklanar. Amma, əgər paltar-palaz və bu kimi şeylərdə hər dəfə su töküldükdən sonra sıxılmalıdır ki, onun içində olan ğüsalə suyu çölə çıxsın (ğüsalə o sudur ki, adətən yuyulma vaxtında, yaxud ondan sonra yuyulan şeydən öz-özünə, yaxud sıxılmaqla tökülür).

**M:163.** Əkər bir şey, iki yaşı tamam olmayan və xörək və donuz südü yeməyən oğlan uşağının bovlu ilə nəcis olsa, onun üstünə bir dəfə su töksələr və su nəcis yerlərinin hamısına çatsa, pak olar. Amma ehtiyat-müstəhəb budur ki, ikinci dəfə də həmin yerin üstünə su töksünlər. Bu halda paltar, palaz və s. kimi şeyləri sıxmaq lazım deyildir.

**M:164.** Əkər bir şey bovldan başqa bir şeylə nəcis olsa, nəcasəti aradan qaldırdıqdan sonra, onun üstünə bir dəfə su töksələr və üstünə tökülən su həmin şeydən ayrılsa pak olar. Həmçinin əgər onun üstünə birinci dəfə su töküləndə nəcasət aradan getsə, pak olar. Amma hər halda paltar və s. kimi şeyləri sıxmaq lazımdır ki, onun ğüsaləsi çıxsın.

**M:165.** Əgər iplə toxunmuş həsir nəcis olsa və onu kürr, yaxud axar suya batırsalar, nəcasətin eyni aradan gedəndən sonra pak olar.

**M:166.** Əgər buğda, arpa, düyü, sabun və s. kimi şeylərin zahiri nəcis olsa kür, yaxud axar suya batırmaqla pak olar. Amma batini nəcis olsa, pak olmaz.

**M:167.** Əgər insan nəcis suyun sabunun batininə keçib-keçməməsində şəkk etsə, batini pakdır.

**M:168.** Əgər düyü, ət və s. kimi şeylərin zahiri nəcis olsa və onları bir qabın içərisinə qoyub qabı, üstünə örtənə qədər üç dəfə su ilə doldurub-boşaltsalar həm onlar, həm də o şeylərin qoyulduğu qab pak olar. Amma, əgər paltar və

sıxılması lazım olan sair şeyləri bir qaba qoyub suya çəksələr, gərək suyu hər dəfə onun üstünə tökəndə, sıxsınlar və qabı əysinlər ki, ondan çıxan ğüsalə çölə çıxsın.

**M:169.** Lilə və bu kimi şeylərlə rənglənmiş nəcis paltarı əgər kür və axar suya batırsalar və su, lilə və rəngin vasitəsilə muzaf olmamışdan qabaq paltarın hər yerinə çatsa, sıxanda ondan muzaf, yaxud rəngli su çıxmasına baxmayaraq, paltar pakdır.

**M:170.** Əgər paltarı kür və ya axar suya çəkəndən sonra suyun çöküntüləri paltarda görünsə, bu halda o çöküntülərin suyun paltarın hər bir nöqtəsin çatmasının qarşısını alması ehtimalı verilməzsə, o paltar pakdır.

**M:171.** Əgər paltar və s. kimi şeyləri suya çəkdikdən sonra (nəcis olan) palçıq və ya başqa əşyaların kiçik zərrələri onda görünsə, bu halda həmin zərrələrin, suyun paltarın hər yerinə çatmasının qarşısını almadığı mə'lum olarsa, o paltar pakdır. Amma əgər nəcis su palçığın və kiçik əşyaların daxilinə keçsə, palçığın və ya kiçik əşyaların zahiri pak, batini isə nəcis olar.

**M:172.** Hər nəcis şeydən, nə qədər ki, nəcasətin eyni aradan qaldırılmayıb, pak olmaz. Amma nəcasətin rəngi və ya iyi o şeydə qalsa eybi yoxdur. Deməli əgər qanı paltardan təmizləyib suya çəkdikdən sonra qanın rəngi o paltarda qalsa pakdır. Amma əgər nəcasətin iyi və ya rəngi vasitəsilə nəcasətin zərrələrinin o şeydə qalmasını yəqin etsələr, yaxud ehtimal versələr nəcisdir.

**M:173.** Əgər bədənin nəcasətini kürr, yaxud axar suda aradan qaldırıb təmizləsələr, bədən pak olur: və sudan çölə çıxıb, yenidən suya girmək lazım deyil.

**M:174.** Əgər nəcis yemək dişin dibində qalsa və suyu ağızda dolandırdıqda nəcis yemək qalıqlarının hər yerinə çatsa (pak etmənin sair şərtlərinə riaət etməklə) pak olar.

**M:175.** Əgər üzün, yaxud başın tükü uzun olsa və onun qəlil su ilə suya çəksələr, sıxmalıdırlar ki, onun ğüsaləsi ayrılsın.

**M:176.** Əgər bədənin və ya paltarın bir yerini qəlil su ilə suya çəksələr, o yerə birləşən və adətən nəcis olan ətraf hissələr, nəcasət yerinin pak olması ilə (ətraf hissələri də) pak olar. Həmçinin pak bir şeyi nəcis şeyin yanına qoyub hər ikisinin üstünə su töksələr, nəcis şey pak olanda hər ikisi pak olur. Deməli, əgər bir nəcis barmağı suya çəkmək üçün barmaqların hamısına su tökülsə və nəcis su bütün barmaqlara dəysə, nəcis barmaq pak olandan sonra bütün barmaqlar pak olur.

**M:177.** Nəcis olmuş ət, quyruq və s. şeylər kimi suya çəkilir. Həmçinin əgər bədən və yaxud paltar azacıq yağlı olsa və (bu yağlılıq) suyun onlara dəyməsinin qarşısını almasa suya çəkilməklə pak olur.

**M:178.** Əgər qab və ya bədən nəcis olduqdan sonra çox yağlı olsa, belə ki, yağlılıq suyun onlara çatmasının qabağını alarsa, bədəni və yaxud qabı suya

çəkmək üçün əvvəlcə onun yağlılığı təmizlənməlidir ki, su onun hər yerinə çatsın.

**M:179.** Üzərində nəcasətin eyni olmayan nəcis şey kürr suya birləşmiş olan krantın altında bir dəfə yusalar, pak olar. Həmçinin əgər nəcasətin eyni də onun üstündə olsa, amma nəcasətin eyni krantın altında və ya başqa bir vasitə ilə aradan qaldırılsa və o şeydən axan su nəcasətin iy, rəng, yaxud dadını özünə götürməmiş olsa, krant suyu ilə pak olar. Amma əgər həmin nəcis şeydən axan su, nəcasətin iy, dad, və ya rəngini özünə götürmüş olsa, krantın suyu onun üstündən o qədər axmalıdır ki, ondan ayrılan suda nəcasətin iyi, rəngi, yaxud dadı olmasın.

**M:180.** Əgər bir şeyi suya çəkib pak olmasını yəqin etdikdən sonra nəcasətin eyninin ondan ayrılıb-ayrılmamasında şəkk etsə, o şey pakdır.

**M:181.** Əgər üstündən su axa bilməyən torpaq nəcis olsa, qəlil su ilə pak olmaz. Amma üstü çınqıllı, qumlu olan torpaq, su onun üstünə töküləndə ondan ayrılıb quma batdığına görə, qəlil su ilə pak olur. Amma, qumların altı nəcis qalır.

**M:182.** Suyun batmadığı daş, kərpic döşənən yerlər, həmçinin bərk torpaq nəcis olsa, qəlil su ilə pak olur. Amma, bu halda onun üstünə o qədər su tökülməlidir ki, o yerdə axmağa başlasın. Əgər onun üstünə tökülən su bir deşikdən axıb çölə çıxsa, torpağın hamısı pak olur. Amma axıb çölə çıxmasa, o suyun yığıldığı yer nəcis qalır. Onun pak olması üçün bir çala qazmalıdırlar ki, su çalaya yığılsın, sonra oranın suyunu çölə çəksinlər, həmin çalanı isə torpaq ilə doldursunlar.

**M:183.** Əgər daş duz və s. kimi şeylərin zahiri nəcis olsa kürrdən az su ilə də pak olur.

**M:184.** Əgər suda həll olmuş nəcis şəkərdən qənd düzəldib sonradan kürr, yaxud axar suya qoysalar pak olmaz.

### *2-TORPAQ*

**M:185.** Torpaq üç şərtlə nəcis olmuş ayağı və ayaqqabının altını pak edir: **1-**Təmiz olsun; **2-**Quru olsun; **3-**Qan və ya bovl kimi nəcasətin eyni, yaxud nəcis dəymiş palçıq kimi şeylər ayağın və ya ayaqqabının altında olsa, yol getmək, yaxud yerə sürtmək vasitəsilə aradan qaldırılsın. Həmçinin yer, torpaq və ya daş, yaxud kərpic kimi şeylərdən döşənmiş olsun. Fərş, xalça, palaz, həsir, çəmənlik və s. kimi yerlərdə getməklə ayağın və ya ayaqqabının altı pak olmaz. Əgər yol getməkdən başqa bir vasitə ilə nəcis olarsa, yol getmək vasitəsilə paklanmasının işkalı vardır.

**M:186.** Nəcis ayağın və ya ayaqqabının altı asfaltda, yaxud taxta döşənmiş yollarda getməklə təmizlənməsi işkallıdır.

**M:187.** Nəcis olmuş ayağın və ayaqqabının altını paklamaq üçün daha yaxşı olar ki, on beş və ondan artıq addım gedilsin–hətta on beş addımdan az yol getməklə və ya ayağı yerə sürtməklə nəcasət aradan qaldırılmış olsa da.

**M:188.** Ayağın və ayaqqabının nəcisinin yaş olması lazım deyil; əgər quru da olsa, yol getməklə paklanır.

**M:189.** Ayağın və ayaqqabının altı, yol getməklə paklanandan sonra, adi halda palçığa batan kənar hissələri də pak olur.

**M:190.** Əlləri və dizləri ilə yol gedənlərin əli və dizləri nəcis olsa, yol getməklə paklanması işkallıdır. Əsanın və sün'i (protez) ayaqların altı, habelə heyvanların nalı, avtomobillərin təkərləri və s. kimilərin də nəcis olduğu halda yol getməklə paklanması işkallıdır.

**M:191.** Əgər yol getdikdən sonra, nəcasətin gözlə görünməyən kiçik zərrələri ayağın, yaxud ayaqqabının altında qalsa, ehtiyat-vacibə görə, o zərrələr də aradan qaldırılmalıdır. Amma, rəng və ya iyinin qalmasının eybi yoxdur.

**M:192.** Ayaqqabı və ya ayağın yerə dəyməyən hissəsi, yol getməklə pak olmur. Corabın altının yol getməklə paklanması işkallıdır. Amma corabın altı dəridən olsa, yol getməklə paklanar.

### *3-GÜNƏŞ*

**M:193.** Günəş yeri, binanı və binada işlənən qapı-pəncərəni, həmçinin divara vurulan və binanın bir hissəsi sayılan mıxı, altı şərt daxilində pak edir.

**1-**Nəcis şey yaş olsun; əgər quru olsa, müəyyən vasitələrlə onu islatmaq lazımdır ki, günəş onu qurutsun;

**2-**Nəcasətin eyni (zərrələri) o şeyin üstündə olsa, günəşin onun üstünə düşməsindən qabaq, o zərrələr aradan qaldırılmış olsun;

**3-**Günəş şüalarının qarşısını bir şey almasın; deməli, əgər günəş pərdə, bulud və s. kimi şeylərin arxasından düşüb nəcis şeyi qurutsa, pak olmaz. Amma, əgər bulud və ya pərdə çox nazik olub günəşin qabağını almazsa, eybi yoxdur.

**4-**Günəş təklikdə nəcis şeyi qurutmuş olsun; deməli, əgər, misal üçün, nəcis şey külək və günəşin ikisinin vasitəsilə qurusa, pak olmaz. Amma külək çox az olsa və "həmin şeyin qurudulmasına cü'zi kömək edib"-deyilsə, eybi yoxdur.

**5-**Günəş binanın nəcis hopmuş yerini bir dəfəyə qurutsun; deməli, künəş bir dəfə nəcasət dəymiş binanın və yerin üst tərəfinə düşüb qurutsa, ikinci dəfə isə alt tərəfini qurutsa, təkcə onun üst tərəfi pak olur, alt tərəfi isə nəcisliyində qalır.

**6-**Günəşin düşdüyü yerin, yaxud binanın üzü ilə daxili arasında hava və yaxud başqa pak bir şey fasilə salmasın.

**M:194.** Günəş nəcis həsiri pak edir. Həmçinin, ağac və bitkilər (nəcis olarsa) günəşin vasitəsilə pak olur.

**M:195.** Əgər günəş nəcis torpağa düşsə və insan günəşin düşdüyü vaxt həmin yerin yaş olub-olmamasında şəkk etsə, yaxud şəkk etsə ki, onun yaşlığı təkcə

günəşin vasitəsilə quruyub ya yox, o torpaq nəcisdir. Həmçinin, əgər insan günəşin düşməsindən qabaq nəcasətin eyninin aradan qalxıb-qalxmamasında, yaxud günəşin düşməsinin qabağını bir şey alıb-almamasında şəkk etsə, o torpaq nəcisdir.

**M:196.** Əgər günəş nəcis divarın bir tərəfinə düşsə, düşmədiyi tərəf pak olmur. Amma, divar çox nazik olsa və günəşin, onun bir tərəfinə düşməsi səbibilə o biri tərəfi də qurusa pak olar.

### *4-İSTİHALƏ (BİR HALDAN BAŞQA HALA KEÇMƏK)*

**M:197.** Əgər nəcis şeyin cinsi (zatı) dəyişilib başqa pak bir şeyə çevrilsə pak olar. Belə dəyişikliyə istihalə deyilir. Məsələn, nəcis çubuq, taxta yanıb külə çevrilsə, yaxud it duzlağa batıb duza çevrilsə, paklanar. Amma əgər cinsi dəyişilməsə, (məsələn, nəcis buğdanı üyüdüb un etsələr, yaxud çörək bişirsələr) pak olmaz.

**M:198.** Nəcis palçıqdan düzəldilən kuzə və s. kimi şeylər nəcisdir. Həmçinin, nəcis odundan düzəldilmiş kömürdən ictinab olunmalıdır.

**M:199.** İstihalə olub-olmaması mə'lum olmayan nəcis şey öz nəcisliyində qalır.

**M:200.** Əgər şərab öz-özünə, yaxud sirkə və duz tökülməsi vasitəsilə sirkəyə çevrilsə pak olar.

**M:201.** Nəcis üzümdən düzəldilən şərab sirkəyə çevrilməklə pak olmur. Hətta əgər xaricdən şəraba bir nəcasət dəysə ehtiyat-vacib budur ki, sirkə olduqdan sonrada ondan ictinab olunsun.

**M:202.** Nəcis üzüm, kişmiş və xurmadan hazırlanan sirkə nəcisdir.

**M:203.** Əgər üzümün, yaxud xurmanın kiçik quru budaqları onun içində olsa və ona sirkə töksələr zərəri yoxdur. Həmçinin üzüm, kişmiş, xurma sirkə olmamışdan qabaq içinə xiyar, badımcan və s.-ni töksələr eybi yoxdur.

### *5-ÜZÜM SUYUNUN ÜÇDƏ İKİ HİSSƏSİNİN AZALMASI*

**M:204.** Qaynayan üzüm suyunun üçdə iki hissəsi buxarlanmamışdan qabaq nəcis deyil, amma yeyilməsi haramdır. Amma məstedici olduğu mə'lum olsa, haram və nəcisdir. Təkcə sirkəyə çevrilməklə pak və halal olur.

**M:205.** Əgər misal üçün, bir qora salxımında bir-iki üzüm giləsi olsa o salxımdan alınan, şirinlikdən əsər-əlamət olmayan qora suyu qaynasa pak, yeyilməsi halaldır.

**M:206.** Qora, yaxud üzüm olması mə'lum olmayan üzüm giləsi qaynasa haram olmaz.

### *6-İNTİQAL (BİR YERDƏN BAŞQA YERƏ NƏQL OLUNMA)*

**M:207.** İnsanın, yaxud atıcı qanı olan (yə'ni damarı kəsildikdə qanı sıçrayışla çölə gələn) heyvanın qanı, atıcı qanı olmayan heyvanın (həşəratın) bədəninə gedib (sorulub) o heyvanın qanı hesab olunsa, pak olur. Buna intiqal deyilir. Deməli, zəlinin insandan çəkdiyi qana "zəli qanı" deyil, "insan qanıdır" deyildiyinə görə nəcisdir.

**M:208.** Əgər bir kəs, bədəninə qonmuş ağcaqanadı öldürsə və ondan çıxan qanın öz qanı, yaxud ağcaqanadın qanı olmasını bilməsə, pakdır. Həmçinin, əgər həmin insandan sormasını bilsə, amma ağcaqanadın bədənindən hesab olunsa, yenə də pakdır. Amma əgər ağcaqanadın onun qanını çəkməsi ilə öldürməsi arasındakı zaman fasiləsi çox az olsa və "insan qanıdır" deyilsə, yaxud "insan və ya ağcaqanadın qanıdır" deyilməsi mə'lum olmasa nəcisdir.

### *7-İSLAM*

Əgər kafir şəhadəteyni (yə'ni "Əşhədü ən la ilahə illəllah və əşhədü ənnə Mühəmmədən Rəsulullah") desə, müsəlman olar. Müsəlman olandan sonra onun bədəni, ağzının, burnunun suyu və təri pakdır. Amma müsəlman olduğu zaman nəcasətin eyni onun bədənində olsa, onu təmizləməli, yerini suya çəkməlidir. Həmçinin əgər müsəlman olmamışdan qabaq nəcasətin eyni aradan qaldırılmış olsa, onun yerini suya çəkmək lazımdır.

**M:210.** Şəxs kafir olduğu vaxt paltarı, rütubətlə bədəninə dəymiş olsa və o paltar müsəlman olduğu vaxtda bədənində olmasa, nəcisdir. Hətta əgər bədənində də olsa ondan ictinab etməlidir.

**M:211.** Əgər kafir, şəhadəteyni desə və insan onun qəlbən müsəlman olub-olmamasını bilməsə, pakdır. Amma qəlbən müsəlman olmadığını bilsə, ehtiyat vacibə görə ondan ictinab etməlidir.

### *8-TƏBƏİYYƏT*

**M:212.** Təbəiyyət odur ki, nəcis bir şey başqa nəcis şeyin pak olması ilə paklansın.

**M:213.** Əgər şərab sirkəyə çevrilsə, onun qabı da–şərab qaynayanda çatdığı yerə qədər–pak olur. Şərab qaynayan adətən qabın ağzına qoyulan parça və s. kimi şeylər şərabın rütubəti ilə nəcis olsa, (sirkəyə çevriləndən sonra) pak olur. Hətta əgər qaynadığı vaxt köpüklənib daşsa və qabın çöl tərəfini bulaşdırsa, sirkəyə çevriləndən sonra qabın çöl tərəfi də pak olur.

**M:214.** Üstündə meyyit yuyulan taxta və ya daş, habelə meyyitin ovrətinə örtülən parça, onu yuyan şəxsin əlləri, meyyitin yuyulduğu kisə və sabun qusul işi qurtarandan sonra paklanır.

**M:215.** Bir kəs öz əli ilə nəcis şeyi suya çəkəndə, əgər onun əli həmin şeylə birlikdə suya çəkilirsə, həmin şey paklanandan sonra əli də pak olur.

**M:216.** Əgər paltar və bu kimi şeyləri qəlil su ilə suya çəksələr, onun üstünə tökülən su xaric olsun deyə adi, normal halda sıxsalar, daxilində qalan su pakdır.

**M:217.** Nəcis qabı qəlil su ilə suya çəkəndə onun pak olması üçün üstünə tökülən suyun ondan ayrılmasından sonra, daxilində qalan az miqdarda su pakdır.

### *9-NƏCASƏTİN ARADAN GETMƏSİ*

**M:218.** Əgər heyvanın bədəni nəcisin eyni (qan kimi), yaxud su kimi mütənəccislə (nəcis olmuş su ilə) nəcis olsa onlar aradan getdikdə, heyvanın bədəni də pak olur. Həmçinin insanın bədəninin batini (içəri) tərəfi, ağızın, burnunun içi də eyni qayda ilə. Məsələn, əgər dişin dibindən qan gəlsə və ağız suyunda həll olub aradan getsə ağızın içini suya çəkmək lazım deyil.

**M:219.** Əgər bir kəsin dişinin dibində yemək qalığı qalsa və ağızdan qan gəlsə, bu qanın ağızda qalan yemək qalıqlarına dəyib-dəyməməsini bilməsə ağzındakı yemək pakdır. Əgər qan o yemək qalıqlarına dəysə, ehtiyat-vacibə görə nəcis olur. Sün'i (protez) dişlər də həmin hökmdədir.

**M:220.** Əgər insanın bədənin zahiri hissələrindən olub-olmamasını bilmədiyi yerləri nəcis olsa, suya çəkilməsi lazım deyil. Amma suya çəkilməsi əhvətdir.[8]

**M:221.** Əgər nəcis toz-torpaq palaz-paltar və s. kimi şeylərin üstünə qonsa və hər ikisi quru olsa nəcis olmaz. Amma əgər, toz-torpaq, yaxud palaz, paltar və bu kimi şeylər yaş olsa onda toz-torpağın oturduğu yerlər suya çəkilməlidir.

### *10-NƏCASƏT YEYƏN HEYVANIN İSTİBRASI*

**M:222.** İnsan nəcasətini yeməyə adət edən heyvanın bovlu və qaiti nəcisdir. Onların pak olması üçün heyvan istibra olunmalıdır. Yə'ni bir müddət nəcasət yeməsinin qabağı alınmalı, həmin müddət ərzində ona "daha nəcasət yeyən" deyilməyəcəyi qədər pak yem verilməlidir. Nəcasət yeyən dəvənin–40 gün, inəyin–20 gün, qoyunun–on gün, qaz-ördəyin–5 gün, ev toyuğunun–3 gün nəcasət yeməsinin qabağı alınmalı, pak yeməklər verilməlidir.

### *11-MÜSƏLMANIN QAİB OLMASI*

**M:223.** Əgər bir müsəlmanın paltarı, bədəni və yaxud ixtiyarında olan qab-qacaq, xalça və s. nəcis olsa və o müsəlman qaib olsa, həmin şəxsin o şeylərinin suya çəkilməsini, yaxud misal üçün, axar suya düşüb pak olması ehtimal verilsə, ondan ictinab etmək lazım deyildir.

**M:224.** Əgər insanın özü, nəcis olan şeyin pak olmasını yəqin etsə, yaxud iki adil şəxs onun pak olmasını xəbər versə o şey pakdır. Həmçinin, nəcis şey

---

[8]Əhvət–ehtiyata müvafiq olan

ixtiyarında olan şəxs "o şey pak olub" desə və ya hər hansı müsəlman nəcis şeyi suya çəkmiş olsa, hətta əgər düz, səhih surətdə suya çəkməsi mə'lum olmasa belə, həmin şey pakdır.

**M:225.** İnsanın paltarlarını yumağa vəkil olan bir kəs paltarlar onun ixtiyarında olduğu halda "suya çəkmişəm" desə, o paltarlar pakdır.

**M:226.** Əgər insana bir halət üz versə və nəticədə nəcis şeyin suya çəkilməsi barəsində yəqinə çata bilmirsə, adi camaat kimi əməl etməlidir, yəqinə çatması da lazım deyil.

## *QABLARIN HÖKMLƏRİ*

**M:227.** İtin, donuzun, yaxud murdar olmuş heyvanın dərisindən hazırlanan qablarda yeyib-içmək haramdır və o qabları dəstəmaz, qusul və pak şeylərlə yerinə yetirilməsi lazım olan sair işlərdə istifadə etmək olmaz. Hətta ehtiyat-vacibə görə gərək it, donuz və ya murdar olmuş heyvanın dərisi, hətta qab olmasa da, (başqa şeylər üçün də) istifadə olunmasın.

**M:228.** Qızıl və gümüş qablarda yeyib-içmək, onlardan, hətta otağı zinətləndirmək məqsədilə belə istifadə etmək haramdır. Amma o qabları saxlamaq haram deyildir.

**M:229.** Qızıl, gümüş qablar düzəltmək və onların düzəldilməsindən alınan muzd haram deyildir.

**M:230.** Qızıl və gümüş qabların al-veri, satıcının bu qablar müqabilində aldığı pul haram deyildir.

**M:231.** Əgər stəkanın tutacağı qızıl və ya gümüşdən hazırlansa, bu halda stəkanı götürdükdən sonra ona qab deyilərsə, həm təklikdə, həm də stəkanla birlikdə istifadə olunması haramdır. Amma ona (ayrılıqda) qab deyilməzsə, istifadə edilməsinin eybi yoxdur.

**M:232.** Üstü qızıl və gümüş suyu ilə işlənmiş qablardan istifadə etməyin eybi yoxdur.

**Məsəsl 233.** Əgər hər hansı bir metalı qızıl və gümüş ilə xəlitə edib qab düzəltsələr, bu halda o metalın miqdarı çox olsa və onlara artıq "qızıl və gümüş qab" deyilməzsə, istifadə edilməsinin eybi yoxdur.

**M:234.** Əgər insan qızıl və gümüş qabda olan xörəyi yalnız qızıl və ya gümüş qabı boşaltmaq məqsədi ilə başqa bir qaba töksə, yaxud ikinci qabdan xörək yemək istəsə bu növ istifadə etmək haramdır.

**M:235.** Qəlyanın əllə tutulan yeri, qılıncın və Qur'anın qabı qızıl və gümüşdən hazırlansa istifadə etməyin eybi yoxdur. Həmçinin, ətir və ya sürmə qabı və s. kimi şeylər də eynilə.

**M:236.** Qızıl və gümüş qablardan məcburiyyət halında istifadə etməyin eybi yoxdur. Amma dəstəmaz və ya qusul üçün hətta çarəsizlik halında belə qızıl və ya gümüş qablardan istifadə etmək olmaz.

**M:237.** Qızıl və gümüşdən, hazırlanması mə’lum olmayan qabdan istifadə etməyin eybi yoxdur.

### *DƏSTƏMAZ*

**M:238.** Dəstəmazda vacibdir ki, üz və əllər yuyulsun. Başın qabaq tərəfinə və ayaqların üstünə məsh edilsin.

**M:239.** Üzün yuyulan hissəsi gərək alının yuxarı hissəsindən (tüklərin bitdiyi yerdən) çənənin axırına qədər olsun. Eni isə baş barmaqla orta barmağın arası qədər olmalıdır. Əgər bu miqdardan hətta azacıq yuyulmasa, dəstəmaz batildir. Bu miqdarın tamamilə yuyulmasını yəqin etmək üçün onun ətrafını bir az artıq yumaq lazımdır.

**M:240.** Əgər bir kəsin üzü, yaxud əli normal insan əli və üzündən böyük, yaxud kiçik olsa, adi insanların üzlərinin hansı miqdarda yuyulduğunu mülahizə etməli, onların yuduğu qədər yumalıdır. Əgər bir insanın əlləri və üzü, yaxud hər ikisi qeyri-normal, amma bir-birinə mütənasib olsa, adi camaatı mülahizə etməsi lazım deyil, əksinə əvvəlki məsələdə qeyd olunan göstərişə uyğun olaraq, dəstəmaz almalıdır. Həmçinin əgər bir kəsin alnında tük göyərmiş olsa, yaxud alnının yuxarısında tük olmazsa, alnını və üzünü adi camaatın yuduğu qədər yumalıdır.

**M:241.** Əgər insan, qaşlarında, gözün künclərində, ağızın kənarlarında suyun çatmasına mane olan çirk və ya başqa şeylərin yığılmasını ehtimal versə və onun ehtimalı camaatın nəzərində yerli ehtimal olarsa, dəstəmazdan qabaq axtarış aparmalıdır ki, əgər çirkli olarsa onları təmizləsin.

**M:242.** Əgər üzün dərisi tüklərin arasından görünərsə, onda suyu dəriyə çatdırmaq lazımdır. Amma görünməsə, tükləri yumaq kifayətdir, suyun tüklərin altına çatdırılması lazım deyil.

**M:243.** Əgər insan, üzünün dərisinin tüklərin arasından görünüb-görünməməsində şəkk etsə, ehtiyat-vacibə görə tükləri yumalı, suyu dəriyə çatdırmalıdır.

**M:244.** Burunun içi, dodaqlar və gözün içi yumulduğu halda görünməyən yerləri yumaq vacib deyildir. Amma yuyulmalı yerlərin tam yuyulmasına yəqin etmək üçün onlardan bir qədər yuyulmalıdır.

**M:245.** Ehtiyat-vacibə görə üzü yuxarıdan aşağı yumaq lazımdır: aşağıdan yuxarı yuyularsa, dəstəmaz batildir. Əlləri də dirsəkdən barmaqların ucuna tərəf istiqamətdə yuyulmalıdır.

**M:246.** Əgər insan əllərini isladıb üzünə və əllərinə çəksə, və əlinin yaşlığı çox olub üzə, əllərə çəkilməsi vasitəsilə su oradan axmağa başlasa, kifayətdir.

**M:247.** Üzü yuyandan sonra əvvəlcə sağ əli, sonra isə sol əli dirsəkdən barmağın ucuna qədər yumaq lazımdır.

**M:248.** Dirsəyin tamamilə yuyulmasını yəqin etmək üçün bir az dirsəkdən yuxarı yuyulmalıdır.

**M:249.** Üzünü yumamışdan qabaq, əllərini biləyə qədər yuyan bir kəs, dəstəmaz vaxtı barmaqların ucuna qədər yumalıdır; əgər biləyə qədər yusa dəstəmazı batildir.

**M:250.** Dəstəmazda üzü və əlləri yumaq birinci dəfə vacib, ikinci dəfə caiz, üçüncü və daha artıq dəfələrdə isə haramdır. Əgər bir ovuc su ilə bütün üzv yuyulsa və dəstəmaz niyyətilə bu su, üzvlərə tökülsə–istər birinci dəfəni qəsd etsin, istərsə də etməmiş olsun–birinci dəfə hesab olunur.

**M:251.** Əlləri yuduqdan sonra əldə qalan dəstəmaz suyu ilə başın qabaq tərəfinə məsh edilməlidir. Sağ əllə, yaxud yuxarıdan aşağı olması vacib deyildir.

**M:252.** Başın alın tərəfində olan dörd qismətdən biri məsh yeridir. Onun hər hansı yerinə, məsh qədərində çəksələr kifayətdir. Amma ehtiyat-müstəhəb budur ki, uzunluğu bir barmağın uzunluğu, eni isə üç bağlı barmaq qədər məsh etsin.

**M:253.** Məshin başın dərisinə çəkilməsi vacib deyildir: başın qabaq tərəfindən olan tüklərə çəkilsə də səhihdir. Amma əgər bir kəsin başının qabaq tərəfinin tükləri çox uzun olsa (məsələn, darananda alının bir hissəsinə tökülsə, yaxud başın başqa bir yerinə çatsa), tüklərin dibinə məsh çəkməlidir. Yaxud başının tüklərini ortadan aralamalı və dəriyə məsh etməlidir. Əgər üzünə tökülən, yaxud başının başqa yerlərinə çatan tükləri başın qabağında bir yerə yığıb məsh etsə, yaxud başın, sair yerlərindən qabaq tərəfinə gələn tükünə məsh etsə batildir.

**M:254.** Başı məsh etdikdən sonra, əldə qalan dəstəmaz suyu ilə ayaqlara–barmaqlardan birinin ucundan, ayağın üstündə olan çıxıntıya qədər məsh etməlidir.

**M:255.** Ayağa çəkilən məshin eni nə qədər olur-olsun, kifayətdir. Amma ehtiyat-müstəhəb budur ki, əlin içinin hamısı ilə ayağın üstünə məsh edilsin.

**M:256.** Ehtiyat-vacibə görə ayaqların məshində əl barmaqların ucuna qoyulub ayağın üstündə tədricən məsh edilsin. Əgər bir kəs əlin içinin hamısını ayağın üstünə qoyub bir az çəksə səhih deyildir.

**M:257.** Başa və ya ayağın üstünə məsh çəkməkdə əli onların üstünə çəkmək lazımdır; əgər əli saxlayıb başı və yaxud ayağı hərəkət etdirsələr, dəstəmaz batildir. Amma əli məsh üçün çəkəndə baş və yaxud ayaq azacıq hərəkət etsə eybi yoxdur.

**M:258.** Məsh çəkilən yer quru olmalıdır. Əgər çox yaş olsa və əlin rütubətinin əsər-əlaməti olmasa, məsh batildir. Amma məsh yerinin rütubəti çox az olsa və məsh çəkiləndən sonra əlin rütubəti məsh yerində görünüb "təkcə əlin rütubətidir"-deyilsə, eybi yoxdur.

**M:259.** Əgər məsh üçün əldə rütubət qalmasa onu başqa su ilə islatmaq olmaz. Əksinə, dəstəmazın başqa üzvlərindən rütubət götürüb onunla məsh edilməlidir.

**M:260.** Əgər əlin rütubəti yalnız başın məshinə çatarsa, əldə olan həmin rütubətlə başa məsh çəkə bilər və ayaqların məshi üçün dəstəmazın başqa üzvlərindən rütubət götürməlidir.

**M:261.** Corabın və ya ayaqqabının üstündən məsh çəkmək batildir. Amma kəskin soyuq, yaxud oğru, yırtıcı heyvan və s. kimi şeylərdən qorxu törənərsə və ayaqqabını, yaxud corabı çıxarmaq mümkün olmasa, onların üstünə məsh çəkməyin eybi yoxdur. Bu halda ayaqqabının üstü nəcis olsa, pak bir şeyi onun üstünə atıb onun üstündən məsh etmək lazımdır.

**M:262.** Əgər ayağın üstü nəcis olsa və məhs üçün onu suya çəkmək mümkün olmasa, təyəmmüm edilməlidir.

## *İRTİMASİ DƏSTƏMAZ*

**M:263.** İrtimasi dəstəmaz budur ki, insan üzünü, əllərini dəstəmaz almaq niyyəti və yuxarıdan-aşağıya yumaq qaydasına riayət etməklə suya batırsın, yaxud onları suya batırıb sonra dəstəmaz niyyəti ilə çölə çıxartsın. Əgər əllərini suya batırdığı vaxt, dəstəmaz niyyəti etsə və onları sudan çıxarana və suyun tökülməsi qurtarana qədər dəstəmaz niyyətində olsa, dəstəmazı səhihdir.

**M:264.** İrtimasi dəstəmazda da üz və əllər yuxarıdan-aşağıya tərəf yuyulmalıdır. Deməli əgər bir kəs üzü və əlləri suya batırdığı vaxt dəstəmaz niyyəti etsə, gərək üzünü alın tərəfdən, əllərini isə dirsək tərəfdən suya batırsın; yox əgər sudan çıxartdığı vaxt dəstəmaz niyyəti etsə gərək üzünü alın, əllərini isə dirsək tərəfdən sudan çıxartsın.

**M:265.** Əgər dəstəmaz üzvlərindən bə’zilərini irtimasi, bə’ziləri isə qeyri-irtiması yolla yerinə yetirsə, eybi yoxdur.

## *DƏSTƏMAZ VAXTI MÜSTƏHƏB OLAN DUALAR*

**M:266.** Müstəhəbdir ki, dəstəmaz alan şəxsin nəzəri suya düşəndə desin:

بِسمِ اللهِ وَبِاللهِ وَالحَمدُ للهِ الَّذِى جَعَلَ المَاءَ طَهُورًا وَلَم يَجعَلهُ نَجِسًا

“Bismillahi və billahi vəl-həmdu lillahilləzi cəələl-maə təhurən və ləm yəc’əlhu nəcisa.”

Allahın adı ilə. Həmd olsun Allaha ki, suyu pak edici qərar verib nəcis qərar vermədi.

Dəstəmazdan qabaq əllərini yuyanda desin:

أَللَهُمَّ اجعَلنِى مِنَ التَّوَّابِينَ وَاجعَلنِى مِنَ المَتَطَهِّرِينَ

“Allahumməc’əlni minət-təvvabinə vəc’əlni minəl-mütətəhhirin.”

İlahi, məni tövbə edənlərdən, pak olanlardan qərar ver!

Ağzında suyu dolandıranda (yə’ni məzməzə edəndə) desin:

أَللَّهُمَّ لَقِّنِى حُجَّتِى يَومَ أَلقَاكَ وَأطلِق لِسَانِى بِذِكرِكَ

“Allahummə ləqqini hüccəti yovmə əlqakə və ətliq lisani bizikrikə.”

İlahi, Səninlə görüşdüyüm gün hüccətimi mənə təlqin et! Və dilimi Sənin zikrinlə danışdır!

İstinşaq (yə’ni suyu buruna çəkdiyi) vaxtı desin:

أَللّهُمَ لاَتُحَرِّم عَلَىَّ رِيحَ الجَنّةِ وَاجعَلنِى مِمَّن يَشُمُّ رِيحَهَا وَرَوحَهَا وَطِيبَهَا

“Allahummə la tuhərrim ələyyə riyhəl-cənnəti, vəc”əlni mimmən yəşummu riyhəha və rəvhəha və tiybəha.”

İlahi, mənə cənnət iyini haram etmə və məni cənnətin iyini iyləyənlərdən qərar ver!

Üzünü yuyanda desin:

اَللّهُمَّ بَيِّض وَجهِى يَومَ تَسودُّ فِيهِ الوُجُوهُ وَلاَ تُسَوِّد وَجهِى يَومَ تَبيَضُّ فِيهِ الوُجُوهُ

“Allahummə bəyyiz vəchi yovmə təsvəddu fihil-vücuh və la tusəvvid vəchi yəvmə təbyəzzu fihil-vücuh.”

İlahi və Rəbbi, üzlərin qara olduğu gün, mənim üzümü ağart və üzlərin ağ olduğu vaxt mənim üzümü qaraltma!

Sağ əlini yuyanda desin:

اَللّهُمَّ أعطِنِى كِتَابِى بِيَمِينِى وَالخُلدَ فِى الجِنَانِ بِيَسَارِى وَحَاسِبنِى حِسَابًا يَسِيرًا

“Allahummə ə’tini kitabi bi yəmini vəl-xüldə fil-cinani biyəsari və hasibni hisabən yəsira.”

İlahi, mənim əməl kitabımı sağ tərəfdən əta et və cənnətlərdə əbədi qalmağı əta et və mənim hesabımı yüngül hesablardan qərar ver!

Sol əlini yuyanda desin:

أَللّهُمَّ لاَتُعطِنِى كِتَابِى بِشِمَالِى وَلاَ مِن وَرَاءِ ظَهرِى وَلاَ تَجعَلهَا مَغلُولَةً إِلَى عُنُقِى وَ اَعُوذُ بِكَ مِن مُقَطَّعَاتِ النِّيرَانِ

“Allahummə la tu”tini kitabi bi şimali və la min vərai zəhri və la təc”əlha məğlulətən ila unuqi və əuzu bikə müqəttiatin-niyran.”

İlahi mənim əməl kitabımı sol əlimə və arxa tərəfdən vermə və əməl kitabımı boynumdan asılı halda qərar vermə! Mən odun parçalarından Sənə pənah aparıram!

Başına məsh çəkdiyi vaxt desin:

أَللّهُمَّ غَشِّنِى بِرَحمَتِكَ وَبَرَكَاتِكَ وَعَفوِكَ

“Allahummə ğəşşini birəhmətikə və bərakatikə və əfvikə.”

İlahi və Rəbbi! Məni Öz rəhmət, bərəkət və əfvinlə ört!

Ayağına məsh edəndə desin:

أَللّٰهُمَّ ثَبِّتْنِى عَلَى الصِراطِ يَومَ تَزِلُّ فِيهِ الاَقْدَامُ وَاجعَل سَعيِى فِى مَايُرضِيكَ عَنِّى يَاذَاالجَلاَلِ وَالإِكرَامِ

“Allahummə səbbitni ələssirati yovmə təzillu fihil-əqdamu vəc’əl sə’yi fima yurzikə ənni, ya zəl-cəlali vəl-ikram.”

İlahi və Rəbbi! Qədəmlərin lərzəyə gəlib sürüşdüyü gündə məni Siratda sabit qədəm et! Və sə’yimi Sənin məndən razı olduğun şeylərdə qərar ver, ey Cəlal və İkram sahibi!

### *DƏSTƏMAZIN ŞƏRTLƏRİ*

Dəstəmazın səhih olmasının on üç şərti var:

1-ci şərt budur ki, dəstəmazın suyu pak olsun.

2-ci şərt budur ki, dəstəmazın suyu mütləq olsun.

**M:267.** Nəcis və muzaf su ilə alınan dəstəmaz batildir. Hətta əgər insan onun nəcis və muzaf olmasını bilməsə, yaxud unutsa da batildir. Əgər bu sularla alınan dəstəmazla namaz qılsa, o namazı yenidən, səhih dəstəmazla qılmalıdır.

**M:268.** Əgər palçıq qarışmış muzaf sudan başqa dəstəmaz üçün su olmasa, namazın vaxtı da az olduğu halda təyəmmüm etməlidir. Amma əgər, vaxtı olsa, suyun saflaşmasını gözləməlidir ki, onunla dəstəmaz alsın.

**3-ü şərt** budur ki, dəstəmazın suyu mübah olsun (qəsbi olmasın).

**M:269.** Qəsbi su, habelə sahibinin razı olub-olmadığı mə’lum olmayan su ilə dəstəmaz almaq haram və batildir. Amma əgər sahibi əvvəlcə razı olsa və sonradan insan onun razılığından dönüb-dönməməsini bilməsə, dəstəmaz alması səhihdir. Həmçinin, əgər dəstəmazın suyu üz və əllərdən qəsbi yerdə tökülsə, dəstəmazı səhihdir.

**M:270.** Ümumi istifadə üçün, yoxsa yalnız təhsil alan şagird və tələbələr üçün vəqf olunduğu mə’lum olmayan mədrəsənin hövuzunda dəstəmaz almağın–adətən camaat o sudan istifadə edərək dəstəmaz alırsa və bu iş ümumi camaatın istifadəsi üçün icazəni göstərirsə–eybi yoxdur.

**M:271.** Əgər bir kəs müəyyən bir məsciddə namaz qılmaq istəmirsə, bu halda onun hovuzunun hamı üçün, yoxsa yalnız həmin məsciddə namaz qılanlar üçün vəqf olunduğunu bilməsə, o məscidin hovuzunda dəstəmaz ala bilməz. Amma əgər o məsciddə namaz qılmayan şəxslər də adətən o hovuzda dəstəmaz alırlarsa və bu iş ümumi istifadə üçün icazə verildiyinə dəlalət edirsə o hovuzda dəstəmaz ala bilər.

**M:272.** Karvansara, müsafirxana və bu kimi yerlərin hovuzlarında dəstəmaz almaq, o yerin sakini olmayan şəxslər üçün, əgər oranın əhli olmayan kəslər də adətən orada dəstəmaz alırlarsa və camaatın dəstəmaz alması ümumi icazəni göstərirsə, səhihdir.

**M:273.** Böyük arxlarda dəstəmaz almaq hətta sahibinin razı olub-olmaması mə'lum olmasa, eybi yoxdur. Amma əgər, onun sahibləri dəstəmaz almaqdan nəhy etsələr, ehtiyat-vacibə görə oranın suyu ilə dəstəmaz almaq olmaz.

**M:274.** Əgər bir kəs suyun qəsbi olmasını unudub dəstəmaz alsa, dəstəmazı səhihdir.

4-ü şərt budur ki, dəstəmazın suyunun qabı da mübah olsun.

5-ci şərt budur ki, dəstəmazın suyunun qabı qızıl və ya gümüş olmasın.

**M:275.** Bir kəsin dəstəmazının suyu qəsbi qabda olsa və o sudan başqa suyu olmasa, təyəmmüm etməlidir. Əgər o su ilə dəstəmaz alsa dəstəmazı batildir. Habelə, başqa mübah suyu olsa və o qəsbi qabda irtiması dəstəmaz alsa, yaxud üzünə və ya əllərinə o qabdan su töksə, dəstəmazı batildir. Amma əgər ovcu ilə suyu o qabdan götürüb üzünə və əllərinə töksə, qəsbi qabdan istifadə etdiyi üçün haram işə mürtəkib olmasına baxmayaraq, dəstəmazı səhihdir. Qızıl və gümüş qabdan istifadə edərək, aldığı dəstəmaz ehtiyat-vacibə əsasən qəsbi qabdan alınan dəstəmaz kimidir.

**M:276.** Bir daşı, yaxud kərpici qəsbi olan hovuzda dəstəmaz alsa, dəstəmazı səhihdir.

**M:277.** Əgər əvvəllərdə qəbiristan olan, sonradan İmamzadə və ya İmamın hərəminin həyəti olan yerdə hovuz, yaxud arx salsalar, insan o həyətin qəbirstan üçün vəqf olunmasını bilməsə və orada dəstəmaz alsa, eybi yoxdur.

6-cı şərt budur ki, dəstəmaz üzvləri yuyulduqda və məsh edildikdə pak olsun.

**M:278.** Əgər dəstəmaz qurtarmamışdan qabaq yuyulmuş, yaxud məsh edilmiş yer nəcis olsa, dəstəmaz səhihdir.

**M:279.** Dəstəmaz üzvlərindən başqa yerlər nəcis olsa dəstəmaz səhihdir. Amma bovl və ya qaitin məxrəcini paklamamış olsa yaxşı olar ki, əvvəlcə onu paklayıb sonra dəstəmaz alsın.

**M:280.** Əgər dəstəmaz üzvlərindən biri nəcis olsa və dəstəmazdan sonra, əvvəldə oranı suya çəkib-çəkməməsində şəkk etsə, bu halda dəstəmaz aldığı vaxt o yerin pak, yaxud nəcis olmasını fikrinə gətirməyibsə, dəstəmazı batildir. Amma əgər fikrinə gətirməsini bilirsə, yaxud şəkk edirsə, səhihdir. Hər halda nəcis olan yeri suya çəkməlidir.

**M:281.** Əgər üzdə, yaxud əllərdə kəsilən yer, yaxud yara olsa və qanı dayanmasa, suyun da zərəri olmasa, bu halda o üzvü kürr və ya axar suya batırıb o qədər sıxmaq lazımdır ki, qanı dayansın. Sonra da qeyd olunan göstərişə əsasən irtimasi dəstəmaz almalıdır.

7-ci şərt budur ki, namaz və ya dəstəmaz üçün kifayət qədər vaxt olsun.

**M:282.** Əgər vaxt çox dar olsa, belə ki, dəstəmaz alacağı halda namazın hamısı, yaxud bir hissəsi öz vaxtından sonraya (qəzaya) qalacaqsa, onda təyəmmüm etməlidir. Amma dəstəmaz və ya təyəmmümün hər biri üçün eyni qədər vaxt olarsa, dəstəmaz almalıdır.

**M:283.** Vaxtın azlığına görə təyəmmüm etməli olan şəxs dəstəmaz alsa–istər o namaz üçün, istərsə də başqa işlər üçün dəstəmaz alsın–dəstəmazı səhihdir.

8-ci şərt budur ki, dəstəmazı qürbət qəsdi ilə, yə'ni Allah Təbarək və Təalanın əmrini yerinə yetirmək üçün dəstəmaz alsın. Amma sərinləmək, yaxud başqa məqsədlə dəstəmaz alsa, batildir.

**M:284.** Dəstəmazın niyyətini dildə demək, yaxud qəlbdən keçirtmək vacib deyil. Amma, dəstəmaz aldığı bütün müddət ərzində diqqətli olmalıdır ki, dəstəmaz alır. Belə ki, ondan"nə edirsən?"-deyə soruşsalar, "dəstəmaz alıram" deyə bilsin.

9-cu şərt budur ki, dəstəmazı əvvəldə qeyd olunan ardıcıllıqla yerinə yetirsin. Yə'ni əvvəlcə üzünü, sonra sağ əlini, daha sonra sol əlini yuyub əvvəlcə başına, sonra isə ayaqlarına məsh etsin. Ehtiyat-vacibə görə sağ ayağa sol ayaqdan əvvəl məsh etsin. Əgər bu ardıcıllıqla alınmasa, batildir.

10-cu şərt budur ki, dəstəmazın işlərini fasiləsiz olaraq yerinə yetirsin.

**M:285.** Əgər dəstəmazın işləri arasında çoxlu fasilə düşsə, belə ki, bir yeri yuyub, yaxud məsh etdikdə, ondan əvvəlki yerin və ya məhsin rütubəti qurusa, dəstəmaz batildir. Əgər bir üzvü yumaq istəyəndə, ondan əvvəl yuduğu, yaxud məsh etdiyi yerin rütubəti qurumuş olsa (məsələn, sol əli yumaq istəyəndə sağ əli qurusa, amma üzü yaş olsa), yaxşı olar ki, dəstəmazı əvvəldən başlasın.

**M:286.** Əgər bir kəs dəstəmazın işləri fasiləsiz yerinə yetirsə, amma havanın kəskin istisi, yaxud bədənin kəskin hərarəti səbəbilə rütubət qurusa, dəstəmazı səhihdir.

**M:287.** Dəstəmaz əsnasında yol getməyin eybi yoxdur. Deməli, bir kəs üzü və əlləri yuduqdan sonra bir neçə addım gedib sonra başa və ya ayaqlara məsh etsə, dəstəmazı səhihdir.

11-ci şərt budur ki, üzün, əllərin yuyulmasını, başa və ayağa məsh çəkilməsini insanın özü yerinə yetirsin: başqası ona dəstəmaz alsa, yaxud kömək etsə, dəstəmazı batildir.

**M:288.** Əgər bir şəxsin özü dəstəmaz ala bilmirsə, gərək başqasını kömək üçün götürsün ki, ona dəstəmaz aldırsın. Kömək edən şəxs muzd istəsə, verə biləcəyi təqdirdə gərək versin. Amma onun özü və tutduğu naib (köməkçi) hər ikisi dəstəmaz niyyəti etməli və naib onun öz əli ilə məsh çəkməlidir. Əgər bunu edə bilməsə, gərək naibi onun əlini tutub məsh yerlərinə çəksin. Bu da mümkün olmasa, naib onun əlinin rütubətindən götürüb başına və ayaqlarına məsh etməlidir. Ehtiyat-vacib, imkan olan surətdə bunun ardınca təyəmmüm etməkdir. Yə'ni dəstəmazdan əlavə, təyəmmüm də etsin.

**M:289.** Dəstəmazın bə'zi işlərini təklikdə yerinə yetirə bilirsə onlar üçün kömək almamalıdır.

12-ci şərt budur ki, sudan istifadə olunmasının şəxs üçün heç bir maneəsi olmasın.

**M:290.** Əgər bir kəs dəstəmaz alarsa xəstələnəcəyindən, yaxud suyu dəstəmaz üçün istifadə edərsə susuz qalacağından qorxsa, ehtiyat-vacibə görə dəstəmaz almamalıdır. Amma suyun zərərli olub-olmamasını bilmədiyi halda dəstəmaz alıb sonradan zərərli olduğunu başa düşsə, dəstəmazı səhihdir. Amma ehtiyat-müstəhəbbə görə o dəstəmazla namaz qılmasın və təyəmmüm etsin. O dəstəmazla namaz qılıbsa, ehtiyat-müstəhəb budur ki, o namazı (təyəmmümlə) yenidən qılsın.

**M:291.** Əgər üzə və əllərə, dəstəmazın səhih olduğu az miqdarda suyun dəyməsinin zərəri olmasa, amma ondan artıq istifadə etməyin zərəri olsa, gərək az miqdar su ilə dəstəmaz alsın.

13-cü şərt budur ki, dəstəmazın üzvlərində suyun bədənə dəyməsinin qarşısını alan maneə olmasın.

**M:292.** Əgər dəstəmaz üzvlərindən birinə bir şey yapışdığını bilsə, amma suyun onun bədəninə çatmasının qarşısını alıb-almamasında şəkk etsə, gərək ya o şeyi aradan qaldırsın, ya da suyu onun altına çatdırsın.

**M:293.** Əgər dırnağın altında çirk olsa, dəstəmazın eybi yoxdur. Amma əgər dırnağı tutsa, dəstəmaz üçün o çirki təmizləməlidir. Həmçinin dırnaq adi qaydadan artıq uzun olarsa və onun altına yığışan çirk bədənin zahirindən hesab olunarsa, onda adi haldan uzun olan miqdarın altındakı çirk təmizlənməlidir.

**M:294.** Əgər üzdə, əllərdə, başın qabağında və ayaqların üstündə yanıq və ya başqa səbəblərlə şiş (qabar) olarsa, onun üstünü yumaq və ya məsh etmək kifayətdir. Əgər bu şiş (qabar) deşilsə, suyu onun altına, (içəridəki boşluğa) çatdırmaq lazım deyil. Hətta əgər onun bir hissəsinin dərisi qopsa, qopmayan hissələrin altına su çatdırmaq lazım deyil. Amma qopan dəri bə’zi vaxtlar bədənə yapışıb, bə’zi vaxtlar aralanırsa, onu qoparmalı, yaxud suyu onun həm altına həm də üstünə çatdırmaq lazımdır.

**M:295.** Əgər insan, dəstəmaz üzvlərinə bir şey yapışıb-yapışmamasında şəkk etsə, bu halda onun ehtimalı camaatın nəzərində yerli ehtimal olsa (məsələn, palçıqla işlədikdən sonra, palçığın əlinə yapışıb-yapışmamasında şəkk etsə), bu halda axtarış aparmalı, yaxud əlini o qədər sürtməlidir ki, bir şey olubsa aradan qaldırılmasında, yaxud suyun onun altına çatmasında xatircəmlik hasil olsun.

**M:296.** Yuyulmalı və məsh edilməli yerlərdə nə qədər çirk olsa–suyun bədən üzvlərinə çatmasına maneçilik törətməzsə–eybi yoxdur. Həmçinin əgər kəc, suvaq və s. kimi işlərdən sonra suyun bədənin dərisinə çatmasının qarşısını almayan maddə qalsa eybi yoxdur. Amma onun olması ilə suyun bədənə çatıb-çatmamasında şəkk etsə gərək onu təmizləsin.

**M:297.** Əgər dəstəmazdan qabaq, dəstəmaz üzvlərinin bə’zisində, suyun dəriyə çatmasının qarşısını alan maneə olduğunu bilib dəstəmazdan sonra (dəstəmaz alan vaxt) suyun o hissələrə çatıb-çatmamasında şəkk etsə, dəstəmazı səhihdir.

**M:298.** Əgər dəstəmaz üzvlərinin hər hansı birində bə’zi vaxtlar suyun öz-özünə onun altındakı dəriyə çatıb, bə’zi vaxtlar isə çatmadığı bir maneə olsa, insan da dəstəmazdan sonra, suyun onun altına çatıb-çatmamasında şəkk etsə, bu halda dəstəmaz aldığı vaxt suyun onun altına çatmasına diqqət yetirməyibsə, dəstəmazı yenidən almalıdır.

**M:299.** Əgər dəstəmazdan sonra suyun dəriyə çatmasına mane olan bir şeyi dəstəmaz üzvlərində görüb dəstəmaz vaxtı orada olduğunu, yoxsa sonradan əmələ gəldiyini bilməsə, dəstəmazı səhihdir. Amma dəstəmaz vaxtında o maneənin olmasına diqqətli olmadığını bilsə, ehtiyat-vacibə görə gərək ikinci dəfə dəstəmaz alsın.

**M:300.** Əgər dəstəmazdan sonra ki, suyun dəriyə çatmasına mane olan bir şeyin dəstəmaz üzvlərində olub-olmamasında şəkk etsə, dəstəmazı səhihdir.

## *DƏSTƏMAZIN HÖKMLƏRİ*

**M:301.** Əgər bir kəs dəstəmazın işlərində və onun şərtlərində (suyun pak olması, qəsbi olmaması) çox şək etsə gərək öz şəkkinə e’tina etməsin.

**M:302.** Əgər onun dəstəmazının batil olub-olmamasında şəkk etsə, niyyəti buna qoymalıdır ki, dəstəmazı qalır. Amma əgər bovldan sonra istibra etməmiş dəstəmaz alsa və dəstəmazdan sonra ondan rütubət xaric olsa, bovl və başqa şey olmasını bilməsə dəstəmazı batildir.

**M:303.** Dəstəmaz alıb-almamasında şəkk edən şəxs dəstəmaz almalıdır.

**M:304.** Əgər bir kəs dəstəmaz aldığını və ondan hədəs baş verdiyini (məsələn bovl etməsini) bilsə, amma hansının qabaq və hansının sonra olduğunu bilməsə, onda bu, namazdan əvvəldirsə, dəstəmaz almalıdır; əgər namaz əsnasındadırsa, namazı pozub dəstəmaz almalıdır; əgər namazdan sonra olsa dəstəmaz alıb qıldığı namazı yenidən qılmalıdır.

**M:305.** Əgər namazdan sonra, dəstəmaz alıb-almamasında şəkk etsə, namazı səhihdir, amma sonrakı namazlar üçün dəstəmaz almalıdır.

**M:306.** Əgər namaz əsnasında dəstəmaz alıb-almamasında şəkk etsə, namazı batildir və dəstəmaz alıb yenidən namaz qılmalıdır.

**M:307.** Əgər namazdan sonra, dəstəmazının namazdan əvvəl yoxsa sonra batil olmasında şəkk etsə, qıldığı namaz səhihdir.

**M:308.** Əgər xəstəlik səbəbi ilə bir kəsin bovlu damcı-damcı axsa, yaxud qaitin çıxmasının qarşısını ala bilməsə, bu halda namazın vaxtının əvvəlindən axırına qədər dəstəmaz alıb namaz qılmaq miqdarında vaxt tapa biləcəyinə yəqin etsə, gərək namazı fürsət tapan vaxt qılsın. Əgər onun vaxtı namazın yalnız vacib əməlləri miqdarında olsa, fürsət olan vaxtda namazın yalnız vacib əməllərini yerinə yetirməli, müstəhəbb əməllərini isə (azan, iqamə, qunut və s. kimi) tərk etməlidir.

**M:309.** Əgər dəstəmaz və namaz miqdarında vaxt tapmasa, belə ki, namaz əsnasında ondan bir neçə dəfə bovl xaric olsa, bu halda hər dəfədən sonra dəstəmaz ala bilsə və bu iş onun üçün çətin olmasa, onda öz yanında bir qabda su qoymalıdır ki, bovl xaric olan hər dəfədə ehtiyat-vacibə görə dəstəmaz alıb namazın qalan hissəsini qılsın. Həmçinin əgər insandan, xəstəlik səbəbi ilə namazın əsnasında qait bir neçə dəfə xaric olsa, bu halda hər dəfədən sonra dəstəmaz almaq istəsə və bu işin onun üçün çətinliyi olmasa, onda yanına bir qab su qoymalıdır ki, hər dəfə qait xaric olanda dəstəmaz alıb namazının qalanını qılmalıdır.

**M:310.** Qaitin dalbadal xaric olduğu bir kəs namazının müəyyən miqdarını dəstəmaz ilə qıla bilsə, bu halda hər dəfə xaric olandan sonra, nə qədər ki, onun üçün çətin deyil öz dəstəmazını təkrarlamalıdır.

**M:311.** Bovlu ardıcıl olaraq xaric olan bir kəsdən iki namaz arasında bovl xaric olmasa, bir dəstəmaz ilə hər iki namazı qıla bilər. Namazın əsnasında xaric olan qətrələrin eybi yoxdur.

**M:312.** Bovl və qaiti fasiləsiz olaraq xaric olan bir şəxs namazın heç bir hissəsini dəstəmazla qıla bilməsə, bir neçə namazı bir dəstəmazla qıla bilər. Amma ixtiyar üzündən bovl və qait xaric etsə, yaxud dəstəmazı batil edən başqa işlər baş versə, qeyd olunan kimi əməl edə bilməz.

**M:313.** Əgər bir kəs xəstəlik səbəbi ilə hava çıxmasının qarşısını ala bilməsə, qaitin çölə gəlməsinin qabağını ala biməyən şəxslər kimi əməl etməlidir.

**M:314.** Əgər bir kəsdən dalbadal qait xaric olursa, gərək hər namaz üçün dəstəmaz alıb dərhal namaza başlasın. Amma yerinə yetirilməsi namazdan dərhal sonra olan unudulmuş səcdə, təşəhhüd və ehtiyat namazı kimi işləri dərhal namazdan sonra yerinə yetirsə, dəstəmaz alması lazım deyil.

**M:315.** Əgər bir kəsdən damcı-damcı bovl xaric olursa, namaz üçün əlində pambıq və başqa şey olan, bovlun və bədəninin başqa yerlərinə dəyməsini qabağını alan bir kəsin vasitəsi ilə özünü qorumalıdır. Ehtiyat-vacib budur ki, hər namazdan qabaq bovlun nəcis olmuş məxrəcini suya çəksin. Həmçinin qaitin çölə gəlməsinin qarşısını ala bilməyən şəxs, imkan daxilində, namaz qıldığı müddətdə qaitin başqa yerlərə sirayət etməsinin qarşısını almalıdır. Ehtiyat-vacib budur ki, məşəqqəti olmayan halda hər namaz üçün qaitin məxrəcini suya çəksin.

**M:316.** Əgər bir kəs bovl və qaitin çölə çıxmasının qarşısı ala bilmirsə, mümkün olan halda namaz qıldığı müddətdə hətta xərci də olsa, bovl və qaitin çıxmasının qarşısını alsın. Ehtiyat-vacibə əsasən onun xəstəliyi asan yolla müalicə olunarsa gərək özünü müalicə etsin.

**M:317** Bovl və qaitin xaric olmasının qarşısını ala bilməyən kəsin xəstəliyi sağalandan sonra xəstəlik halında öz vəzifəsinə uyğun olaraq qıldığı namazları

qəza etməsi lazım deyil. Amma əgər namaz əsnasında xəstəliyi sağalsa gərək həmin namazı yenidən qılsın.

### *DƏSTƏMAZ ALINMASI VACİB OLAN ƏMƏLLƏR*

**M:318.** Altı şey üçün dəstəmaz almaq vacibdir:

**1**-Meyyit namazından başqa sair vacibi namazlar üçün;

**2**-Unudulmuş təşəhhüd və səcdə üçün; (Əgər onlar ilə qıldığı namaz arasında hədəs (bovl kimi) baş vermiş olarsa.)

**3**-Allah Evinin (Kə'bənin) vacibi təvafı üçün;

**4**-Dəstəmaz alması üçün Allah ilə əhd bağlasa, and içsə və ya nəzir etsə;

**5**-Əgər bədənin hər hansı yerini Qur'anın yazılarına vurmağı nəzir etmişsə;

**6**-Nəcis olmuş Qur'anı suya çəkmək, yaxud onu, tualet və s. kimi yerlərə düşdüyü halda çıxartmaq üçün–əgər əli və bədənin başqa yerlərini Qur'anın yazılarına vurmağa məcbur olsalar. Amma dəstəmaz almaq qədərindəki fasilədə Qur'ana ehtiramsızlıq olarsa, dəstəmaz almadan Qur'anı tualetdən çıxartmaq, yaxud nəcis olduğu halda suya çəkmək lazımdır. Mümkün qədər gərək Qur'anın yazısına əl vurulmasın.

**M:319.** Dəstəmazı olmayan şəxslər üçün Qur'anın yazılarına məss etmək (yə'ni bədənin hər hansı bir hissəsini onun yazılarına vurmaq) haramdır. Amma Qur'anı fars dilinə və ya başqa dillərə tərcümə etsələr, məss etməyin eybi yoxdur.

**M:320.** Uşağın və dəlinin Qur'anı məss etməsinin qarşısını almaq vacib deyildir. Amma əgər onların məss etməsi Qur'ana ehtiramsızlıq olarsa, qarşısı alınmalıdır.

**M:321.** Dəstəmazı olmayan şəxs, yaxşı olar ki, hər dildə yazılmış olsa da, Allahın adına məss etməsin.

**M:322.** Əgər bir kəs namaz vaxtından əvvəl, təharətli olmaq niyyəti ilə dəstəmaz alsa, yaxud qusul etsə səhihdir. Habelə, namaz vaxtına yaxın olan vaxtlarda namaza hazır olmaq niyyəti ilə dəstəmaz alsa eybi yoxdur.

**M:323.** Əgər namaz vaxtının daxil olmasını yəqin edən bir kəs, vacib dəstəmaz niyyəti edib dəstəmaz aldıqdan sonra, vaxtın daxil olmadığını başa düşsə, dəstəmazı səhihdir.

**M:324.** Müstəhəbdir ki, insan meyyit namazı üçün, habelə qəbiristan əhlinin ziyarətinə, məscidə və İmamlar (əleyhimüs-salam)-ın hərəminə getmək üçün dəstəmaz alsın. Həmçinin, Qur'anı özü ilə aparmaq, oxumaq və onu yazmaq, habelə onun haşiyələrinə məss etmək, yatmaq üçün, dəstəmaz almaq müstəhəbdir. Həmçinin dəstəmazı olan şəxsin ikinci dəfə dəstəmaz alması müstəhəbdir. Əgər bu işlərdən biri üçün dəstəmaz alsa, dəstəmazla yerinə yetirilməli olan hər işi görə bilər. Məsələn, bu dəstəmaz ilə namaz qıla bilər.

### *DƏSTƏMAZI BATİL EDƏN ŞEYLƏR*

**M:325.** Yeddi şey dəstəmazı batil edir: **1**-bovl; **2**-qait; **3**-qaitin məxrəcindən xaric olan mə'də və ya bağırsağın yeli; **4**-gözün görmədiyi, qulağın eştmədiyi yuxu (amma əgər göz görməsə amma qulaq eşitsə dəstəmaz batil olmaz); **5**-əqli aradan aparan şeylər (dəlilik, məstlik, huşdan getmə kimi); **6**-qadının istihazəsi (sonradan deyiləcək); **7**-qusul alması lazım olan işlər (cənabət kimi).

### *CƏBİRƏ DƏSTƏMAZININ HÖKMLƏRİ*

Yara və sınıq yerin bağlandığı şey, həmçinin yaranın üstünə qoyulan dərman cəbirə adlanır.

**M:326.** Əgər dəstəmaz üzvlərinin birində yara, çiban, yaxud sınıqlıq olsa və onun üstü açıq olsa və suyun da zərəri olmasa, adi qaydada dəstəmaz almalıdır.

**M:327.** Əgər yara, çiban, yaxud sınıqlıq üzdə, əllərdə olsa və onların üstü açıq, suyun tökülməsinin də zərəri olsa, onun ətrafını yumaq, sonra yaş əllə onların üstünə çəkilməsinin zərəri olmasa, ehtiyata görə yaş əllə onun üstünə çəkmək, sonra pak bir parçanı yaranın üstünə qoyub yaş əllə o parçanın da üstünə çəkmək lazımdır. Əgər bu qədərin də zərəri olsa, yaxud yara nəcis olsa və suya çəkilməsi mümkün olmasa, bu halda, dəstəmazın qaydalarında deyildiyi kimi, yaranın ətrafını yuxarıdan-aşağı yuyub ehtiyat-vacibə görə, sonuncu xəstəlikdə təyəmmüm də edilməlidir.

**M:328.** Əgər yara, çiban, yaxud sınıqlıq başın qabaq tərəfində, yaxud ayağın üstündə olsa və onların üstü də açıq olsa, bu halda ona məsh edilməsi mümkün olmazsa, pak bir parçanı onun üstünə qoyub, parçanın üstünə dəstəmazın yaşlığı ilə məsh çəkilməlidir. Əgər parça qoyulması mümkün olmazsa məsh lazım deyil, amma dəstəmazdan sonra təyəmmüm də etməlidir.

**M:329.** Əgər yara, çiban, yaxud sınıqlığın üstü bağlı olsa, açılması mümkün olsa və (açmağın) zəhməti, məşəqqəti; suyun da zərəri olmazsa, onun üstü açılmalı və dəstəmaz alınmalıdır–istər yara və bu kimi şeylər üzdə və əllərdə olsun, istərsə də başın qabaq tərəfində, yaxud ayağın üstündə.

**M:330.** Əgər yara, çiban, yaxud sınıqlıq üzdə və əllərdə olsa və üstünü açmaq mümkün olsa, bu halda suyu onun üstünə tökməyin zərəri olsa, amma yaş əl çəkməyin zərəri olmasa, vacibdir ki, yaş əllə onun üstünə çəkilsin.

**M:331.** Əgər yaranın üstünü açmaq mümkün olmasa, amma yara və onun üstünə qoyulmuş parça və bu kimi şeylər pak, suyun da dəriyə çatdırılması mümkün olsa və zərəri, məşəqqəti olmasa, bu halda suyu yaranın üstünə çatdırmaq lazımdır. Əgər yara və ya onun üstünə qoyulan şey nəcis olsa, bu halda onu suya çəkmək və suyu yaranın üstünə çatdırmaq mümkün olsa və məşəqqəti olmasa, onu suya çəkmək, dəstəmaz alanda suyu yaraya çatdırmaq lazımdır. Amma əgər, suyun yaraya zərəri olsa, yaxud suyu yaranın üstünə

çatdırmaq mümkün olmasa və ya yara nəcis olsa və suya çəkilməsi də mümkün olmasa, yaranın ətraf hissələrini dəstəmazda deyildiyi kimi, yumalıdır. Əgər cəbirə pak olsa, onun üstünə məsh edilməlidir. Amma nəcis olsa, yaxud onun üstünə yaş əllə çəkmək mümkün olmasa (məsələn, dərman ələ yapışırsa) pak bir parçanı cəbirənin bir hissəsi hesab olunduğu şəkildə onun üstünə qoyub, yaş əllə onun üstünə çəkmək lazımdır. Əgər bu da mümkün olmasa, ehtiyat-vacib budur ki, dəstəmaz alıb təyəmmüm də etsin.

**M:332.** Əgər cəbirə üzün, yaxud əllərdən birinin hər yerini örtmüş olsa, yenə də cəbirənin hökmləri tətbiq olunacaq və cəbirə dəstəmazı kifayətdir. Amma əgər dəstəmaz üzvlərindən çox yeri tutmuş olsa, cəbirənin hökmləri tətbiq olunmayacaq: təyəmmüm alınmalıdır.

**M:333.** Əgər cəbirə dəstəmaz üzvlərinin hamısını tutmuş olsa, gərək təyəmmüm edilsin.

**M:334.** Əgər bir kəsin əlinin içində və barmaqlarında cəbirə olsa, dəstəmaz alan zaman yaş əllə onun üstünə çəkibsə, başına və ayaqlarına həm həmin rütubətlə məsh çəkə bilər, həm də başqa dəstəmaz üzvlərindən rütubət götürə bilər.

**M:335.** Əgər cəbirə ayağın üstünün hamısını örtsə, amma bir az barmaqların tərəfindən, bir az da ayağın yuxarı tərəfindən açıq qalsa, açıq olan yerlərin özünə, cəbirə olan yerlərdə isə cəbirənin üstünə məsh etməlidir.

**M:336.** Əgər üzdə və əllərdə bir neçə cəbirə olsa, onların arası yuyulmalıdır. Əgər cəbirələr başda və ya ayaqların üstündə olsa onların arası məsh edilməli, cəbirə olan yerlərdə isə cəbirə göstərişlərinə uyğun əməl olunmalıdır.

**M:337.** Əgər cəbirə, yaranın ətrafını adi qaydadan artıq tutsa və onu götürmək mümkün olmasa, bu halda cəbirə göstərişlərinə əməl etməli, ehtiyata əsasən təyəmmüm də almalıdır.

Əgər cəbirəni götürmək mümkün olsa, götürməlidir. Deməli, yara üzdə və əllərdə olarsa onun ətrafını yumalıdır; başda və yaxud ayaqların üstündə olsa onun ətrafına məsh çəkməli, yara olan yer üçünsə cəbirə göstərişlərinə əməl etmək lazımdır.

**M:338.** Əgər dəstəmazın yerində yara, çiban və yaxud sınıqlıq yoxdursa, amma başqa səbəblərə görə suyun əlin və üzün hamısına zərəri olsa, təyəmmüm etməlidir. Ehtiyat-vacibə görə əgər əllər və üzün müəyyən hissəsi üçün zərəri olsa, onun ətrafını yumalı və təyəmmüm etməlidir.

**M:339.** Əgər dəstəmaz üzvlərinin bir yerinin damarı kəsilibsə və onu suya çəkmək mümkün deyilsə, yaxud suyun ona zərəri varsa, üstü bağlı olan halda cəbirə qaydalarına əməl etməlidir; yox əgər üstü açıqdırsa onun ətrafını yuyandan sonra ehtiyat-vacibə əsasən, üstünə bir parça qoyub yaş əllə onun üstünə çəkməlidir.

**M:340.** Əgər dəstəmaz və qusul yerlərinə qoparılması mümkün olmayan, yaxud qoparıldıqda dözülməsi mümkün olmayan qədər əziyyəti olan bir şey yapışıbsa, cəbirəyə əməl olunmalıdır.

**M:341.** Cəbirə quslu cəbirə dəstəmazı kimidir. Amma ehtiyat-vacibə əsasən onu irtimasi deyil, tərtiblə yerinə yetirmək lazımdır.

**M:342.** Vəzifəsi təyəmmüm etmək olan bir kəsin təyəmmüm üzvlərinin bə'zisində yara, çiban, yaxud sınıqlıq olsa cəbirə dəstəmazının qaydalarına uyğun olaraq cəbirə təyəmmümü almalıdır.

**M:343.** Cəbirə dəstəmazı və ya cəbirə quslu ilə namaz qılmalı olan şəxs namaz vaxtının axırına qədər üzrünün aradan qalxmayacağını bilsə, namaz vaxtının əvvəlində namaz qıla bilər.

Amma vaxtın axırına qədər üzrün aradan qalxmasına ümidi olsa, ehtiyat-vacibə görə gözləməlidir: əgər üzrü aradan qalxmasa, namazı axır vaxtda cəbirə quslu, yaxud cəbirə dəstəmazı ilə qılmalıdır.

**M:344.** Əgər insan gözündə olan xəstəlik üçün gözünün tüklərini yapışdırsa, cəbirə dəstəmazı almalıdır.

**M:345.** Əgər bir kəs vəzifəsinin təyəmmüm, yaxud cəbirə dəstəmaz olduğunu bilmirsə, ehtiyat-vacibə görə hər ikisini yerinə yetirməlidir.

**M:346.** İnsanın cəbirə dəstəmazı ilə qıldığı namazları səhihdir və üzrü aradan qaldırılsa, sonrakı namazlar üçün dəstəmaz almamalıdır. Amma əgər vəzifəsinin cəbirə, yaxud təyəmmüm olduğunu bilmədiyi üçün hər ikisini yerinə yetirən şəxs sonrakı namazlar üçün dəstəmaz almalıdır.

## *QUSULLAR*

Vacibi qusullar yeddi qismdir: **1-**Cənabət quslu; **2-**Heyz quslu; **3-**Nifas quslu; **4-**İstihazə quslu; **5-**Meyyit quslu; **6-**Məss-meyyit quslu; **7-**Nəzir, and içmə sair səbəbilə vacib olan qusullar.

## *CƏNABƏTİN HÖKMLƏRİ*

**M:347.** İnsan iki yolla cünub olur: 1-Cima etməklə; 2-Məninin çölə gəlməsi ilə (istər yuxuda olsun, istərsə də ayıq olan vaxt; istər az olsun, istərsə də çox; istər şəhvətlə olsun, istərsə də şəhvətsiz; istər ixtiyar üzündən olsun, istərsə də ixtiyarsız).

**M:348.** Əgər insandan bir rütubət xaric olsa və onun bovl, məni və ya başqa şey olmasını bilməsə, bu halda əgər şəhvətlə, sıçrayışla çölə gəlsə və gələndən sonra bədən süstləşsə, o rütubət məni hökmündədir. Əgər onda bu üç əlamətdən heç biri, yaxud bə'zisi olmasa, məni hökmündə deyil. Amma qadında və xəstədə onun sıçrayışla gəlməsi ilzami deyil; hətta əgər təkcə şəhvətlə gəlsə, məni hökmündədir, bədənin də süstləşməsi lazım deyil.

**M:349.** Müstəhəbdir ki, insan, məni gələndən sonra bovl etsin. Əgər bovl etməsə və qusuldan sonra məni və ya başqa bir şey olmasını bilmədiyi bir rütubət görsə, məni hökmündədir.

**M:350.** Əgər insan cima etsə və dəllək kəsən yerə qədər, yaxud daha çox daxil olsa, istər kişidə olsun, istərsə də qadında; istər qabaqdan olsun, istərsə də arxadan; istər baliğ olsunlar, istərsə də olmasınlar; hətta məni gəlməsə də hər ikisi cünub olur.

**M:351.** Əgər dəllək kəsən yerə qədər daxil olub-olmamasında şəkk etsə, qusul vacib deyil.

**M:352.** Əgər (nəuzu billah!) heyvanla yaxınlıq etsə və məni də gəlsə, təkcə qusul kifayətdir. Amma əgər məni gəlməsə, bu halda vətydən əvvəl dəstəmazlı olsa, yenə də qusul kifayətdir. Amma əgər dəstəmazlı olmasa, ehtiyat-vacib budur ki, qusul alandan sonra dəstəmaz da alsın.

**M:353.** Əgər məni öz yerindən hərəkət etsə, amma çölə gəlməsə;, yaxud məninin çölə gəlib-gəlməməsində şəkk etsə, qusul vacib deyil.

**M:354.** Qusul ala bilməyən, amma təyəmmüm ala bilən bir kəs namaz vaxtı daxil olandan sonra səbəb olmadan öz əyalı ilə yaxınlıq etsə, işkalı var. Amma əgər ləzzət almaq, yaxud özü üçün qorxudan olsa, eybi yoxdur.

**M:356.** Əgər bir şəxs öz bədənində məni görüb onun üçün qusul etmədiyi öz mənisindən olduğunu bilsə, qusul almalı, məninin gəlməsindən sonra qıldığına yəqini olan namazların qəzasını etməlidir. Amma məninin gəlməsindən sonra qılmasına ehtimal verdiyi namazların qəzasını etməsi lazım deyil.

### *CÜNUBA HARAM OLAN ŞEYLƏR*

**M:356.** Cünub şəxsə beş şey haramdır:

**1-**Bədənin hər hansı bir yerini Qur'anın yazısına, yaxud Allahın mübarək adına vurmaq; Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in və İmamlar (əleyhimüs-salam)-ın adları da ehtiyat-vacibə görə Allahın adının hökmündədir.

**2-**Məscidül-Hərama və Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) məscidinə getmək; hətta əgər bir qapısından daxil olub digərindən çıxmaq kimi olsa da.

**3-**Başqa məscidlərdə dayanmaq; amma bir qapısından daxil olub, başqa qapısından çıxsa, yaxud hər hansı bir şeyi götürmək üçün məscidə daxil olsa eybi yoxdur. Ehtiyat-vacib budur ki, İmamlar (əleyhimüs-salam)-ın hərəmində də dayanmasın. Hərçənd daha üstün (hökm) budur ki, Məscidül-Həram və Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) məscidinin hökmünə, İmamlar (əleyhimüs-salam)-ın da hərəmində riayət olunsun.

**4-**Məscidə bir şey qoymaq;

**5-**Vacibi səcdəsi olan surələri oxumaq. O surələr bunlardan ibarətdir:

**a)** Qur'anın 32-ci Surəsi ("Əlif, Lam, Mim, Tənzil");

**b)** 41-ci Surə (“Ha-mim” (“Səcdə’) Surəsi);
**v)** 53-cü Surə (“Vən-nəcm” Surəsi);
**q)** 96-cı Surə (“İqrə’ bismi”).
Bu Surələrin hətta bir hərfini belə oxumaq haramdır.

### *CÜNUB ŞƏXSƏ MƏKRUH OLAN ŞEYLƏR*

**M:357.** Doqquz şey cünub şəxsə məkruhdur:

**1** və **2**-Yemək və içmək; (amma əgər dəstəmaz alsa məkruh deyil.)

**3**-Vacibi səcdəsi olmayan Surələrin hər hansı birindən yeddi ayədən artıq oxumaq;

**4**-Bədənin hər hansı bir yerini Qur’anın cildinə, haşiyəsinə və yaxud yazılarının arasına vurmaq;

**5**-Qur’anı özü ilə gəzdirmək;

**6**-Yatmaq; (amma əgər dəstəmaz alsa, yaxud su olmaması səbəbilə qusul əvəzindən təyəmmüm etsə, məkruh deyil.)

**7**-Həna qoymaq;

**8**-Bədənə yağ çəkmək;

**9**-(Möhtəlim olduqdan sonra) cima etmək.

### *CƏNABƏT QUSLU*

Cənabət quslu öz-özlüyündə müstəhəbdir, amma vacibi namazlar və s. kimi işlər üçün vacibdir. Amma meyyit namazı, şükr səcdəsi və Qur’anın vacibi səcdələrini etmək üçün cənabət quslu lazım deyil.

**M:359.** Qusul alanda “vacib (və, yaxud müstəhəb) niyyəti ilə qusul alıram”-deyə niyyət etməsi lazım deyil. Əgər fəqət qürbət, yə’ni Allah-Təalanın fərmanını yerinə yetirmək məqsədi ilə qusul etsə kifayətdir.

**M:360**. Əgər namaz vaxtının daxil olmasını yəqin edib vacib qusul niyyəti etsə sonradan namaz vaxtından əvvəl qusul etdiyi mə’lum olsa, quslu səhihdir.

**M:361.** İstər vacib, istərsə də müstəhəb quslu iki cür almaq olar–tərtibi və irtiması.

### *TƏRTİBİ QUSUL*

**M:362.** Tərtibi qusulda, qusul niyyəti ilə əvvəlcə başı və boynu, sonra bədənin sağ tərəfini, daha sonra isə sol tərəfini yumaq lazımdır. Əgər bir kəs qəsdən, yaxud unutqanlıq, və ya məsələni bilməməzlik üzündən bu tərtibə riayət etməsə, quslu batildir.

**M:363.** Göbək və ovrətin bir yarısını bədənin sağ tərəfi ilə, o biri yarısını isə sol tərəfi ilə yumaq lazımdır. Üstəlik daha yaxşı olar ki, göbəyin və ovrətin hamısı hər iki tərəflə yuyulsun.

**M:364.** Bədənin üç hissəsini, (yə'ni baş, sağ tərəf və sol tərəfini) tamamilə qusul etməsini yəqin etmək üçün hər tərəfi yuyanda, başqa tərəfdən də bir miqdarını yusun. Hətta ehtiyat-müstəhəb budur ki, boyunun sağ tərəfinin hamısını bədənin sağ tərəfi ilə, sol tərəfini isə bədənin sol tərəfi ilə yusun.

**M:365.** Əgər qusul alandan sonra bədəninin hər hansı bir yerinin yuyulmadığını, bilsə, amma hansı yeri olmasını dəqiq bilməsə yenidən qüsül almalıdır.

**M:366.** Əgər qusuldan sonra bədənin bir hissəsinin yuyulmadığını başa düşsə, bu halda: yuyulmayan sol tərəfdən olsa, həmin miqdarı yumaq kifayətdir. Amma sağ tərəfdən olsa o miqdarı yuduqdan sonra yenidən sol tərəfi yumalıdır. Əgər baş və boyun tərəfdən qalmış olsa həmin miqdarı yuduqdan sonra, yenidən bədənin sağ tərəfini və daha sonra sol tərəfini yumalıdır.

**M:367.** Əgər qusul qurtarmamışdan qabaq sol tərəfin bir hissəsinin yuyulub-yuyulmamasında şəkk etsə, həmin miqdarı yumaq kifayətdir. Amma əgər sol tərəfi yumağa başlayandan sonra sağ tərəfin, yaxud onun bir miqdarını yuyulub-yuyulmamasında şəkk etsə;, yaxud sağ tərəfi yumağa başlayanda baş və boyunun, yaxud onlardan bir miqdarının yuyulub-yuyulmamasına şəkk etsə, gərək şəkkinə e'tina etməsin.

## *İRTİMASİ QUSUL*

**M:368.** İrtimasi qusulda gərək su bir anlığa bədənin hər yerini əhatə etsin. Deməli əgər irtimasi qusul niyyəti ilə bir dəfəyə, yaxud tədrici olaraq suya girsə və bədəni suyun altında olsa, onun quslu səhihdir.

**M:369.** İrtimasi qusulda bədənin hamısını suyun altına aparıb sonra qusul niyyəti etsə və bədənini hərəkət etdirsə quslu səhihdir.

**M:370.** Əgər irtimasi qusldan sonra, bədəninin bir hissəsinin suya çatmadığını başa düşsə, istər onun müəyyən şəkildə hansı yer olduğunu bilsin, istərsə də bilməsin, yenidən qusul etməlidir.

**M:371.** Əgər tərtibi qusul üçün vaxt olmasa, amma irtimasi qusul üçün vaxt olsa, gərək irtimasi qusul etsin.

**M:372.** Vacib oruc tutan, yaxud Həcc və ya Ömrə üçün ehram bağlayan bir kəs irtimasi qusul edə bilməz.

Amma əgər unutqanlıq üzündən irtimasi qusul etsə səhihdir.

## *QUSLUN HÖKMLƏRİ*

**M:373.** İrtimasi qusulda bədənin hər yeri pak olmalıdır. Amma tərtibi qusulda bədənin hamısının pak olması lazım deyil. Belə ki, əgər bədənin hamısı nəcis olsa və hər qisməti qusul etməmişdən qabaq suya çəksə, kifayətdir.

**M:374.** Haram yolla cünub olan şəxsin təri nəcis deyil. Və haram yolla cunub olan şəxs isti su ilə də qusul etsə, səhihdir.

**M:375.** Əgər qusulda bir yer iynənin ucu qədər yuyulmamış qalsa, quslu batildir. Amma bədənin görünməyən yerlərini (qulağın, burnun içi kimi) yumaq vacib deyil.

**M:376.** Bir yerin bədənin zahirindən, yaxud batinindən olmaması barədə şəkk etdikdə ehtiyat-vacibə görə o yeri yumaq lazımdır.

**M:377.** Əgər sırğanın deşiyi və s. kimi yerlər çox geniş olub daxili görünsə və bədənin zahiri hesab olunsa, onu yumaq lazımdır. Amma görünmürsə və bədənin zahiri hesab olunmursa, onun daxilini yumaq lazım deyil.

**M:378.** Suyun bədənə çatmasına mane olan şeylər aradan qaldırılmalıdır. Əgər aradan qaldırılmasına yəqin etmədən qusul etsə, quslu batildir.

**M:379.** Əgər qusul edən vaxt, bədənində suyun bədənə çatmasına mane olan bir şeyin olub-olmamasında şəkk etsə, bu halda onun şəkkinin mənşəyi əql olsa axtarış aparmalıdır ki, maneənin olmamasına yəqin etsin.

**M:380.** Qusulda bədənin hissələrindən sayılan qısa tüklər yuyulmalıdır. Ehtiyata əsasən uzun tüklərin də yuyulması lazımdır.

**M:381.** Dəstəmazın səhih olması üçün qeyd olunan bütün şərtlər (suyun pak olması, qəsbi olmaması) quslun də səhih olmasında şərtdir. Amma qusulda bədəni yuxarıdan aşağı yumaq vacib deyil. Həmçinin tərtibi qusulda hər üç qisməti, yuyandan sonra, növbəti hissəni dərhal yumaq vacib deyil. Belə ki, başı, boyunu yuduqdan sonra bir az gözləyib sonra sağ tərəfi yusa, sonra müəyyən fasilədən sonra sol tərəfi yusa, eybi yoxdur. Amma bovl və qaitin çölə gəlməsinin qarşısını ala bilməyən bir kəs əgər qusul edib namaz qıla biləcəyi vaxtda bovl və qait çölə gəlməsə, bu halda bədənin qusul üzvlərinin hər birinə, digərindən sonra dərhal qusul verməlidir. Qusuldan sonra da dərhal namaz qılmalıdır. Həmçinin (sonradan deyiləcək) müstəhazə qadın da belədir.

**M:382.** Bir kəs hamamçının pulunu verməməyi niyyət etsə, yaxud hamamçının nisyə, qusul etməyə razı olub-olmamasını bilmədən qusul etsə, hətta sonradan hamamçı razı olsa da, quslu batildir.

**M:383.** Əgər hamamçıya haram, yaxud xumsu verilməyən puldan vermək istəsə, quslu batildir.

**M:384.** Əgər hamamçı nisyə qusul etməyə razı olsa, amma qusul edən kəsin məqsədi onun pulunu verməmək, yaxud haram puldan vermək olsa, quslu işkallıdır.

**M:385.** Əgər qaitin məxrəcini hamamın xəzinə suyu ilə paklayıb sonra, qusuldan qabaq hamamın suyundan pakladığı üçün hamamçının onun qusul etməsinə razı olub-olmamasında şəkk etsə, onun quslu batildir. Amma, qusul almamışdan qabaq hamamçını razı salsa, batil olmaz.

**M:386.** Əgər bir kəs qusul edib-etməməsində şəkk etsə, qusul etməlidir. Amma qusuldan sonra, aldığı quslun səhihliyində şəkk etsə, yenidən qusul etməsi lazım deyil.

**M:387.** Əgər qusul əsnasında insandan kiçik hədəs baş versə (məsələn, bovl etsə), bu halda quslu tamamlayıb, sonradan dəstəmaz ala bilər. Daha yaxşı olar ki, ehtiyatən, boynunda olması qəsdi ilə, quslu tamamlamaq, yaxud yenidən təkrarlamağın boynunda olması məqsədilə yenidən başlasın. Amma, bu halda qusuldan sonra dəstəmaz alması da vacibdir.

**M:388.** Əgər qusul və namaz üçün lazımi qədər vaxtın olduğunu güman edib namaz üçün qusul etsə və qusuldan sonra qusul qədərində vaxt olmadığını başa düşsə, quslu səhihdir.

**M:389.** Cünub olan şəxs qusul edib-etməməsi barədə şəkk etsə, qıldığı namazlar səhihdir. Amma sonrakı namazlar üçün qusul almalıdır.

**M:390.** Boynunda bir neçə vacibi qusul olan bir kəs həm onların hamısını niyyət edərək bir qusul ala bilər, həm də onların hər biri üçün ayrılıqda qusul ala bilər.

**M:391.** Cünub olan bir şəxsin bədəninin müəyyən yerində Qur’an ayəsi və ya Allah-Taalanın adı yazılmış olsa, əlini onun üstünə vurması haramdır. Əgər qusul etmək istəsə suyu bədəninə elə tökməlidir ki, əli o yazılara dəyməsin.

**M:392.** Cənabət quslu alan bir kəs namaz üçün dəstəmaz almamalıdır. Amma başqa qusullar ilə namaz qılmaq olmaz: dəstəmaz da almaq lazımdır.

## *İSTİHAZƏ*

Qadınlardan xaric olan qanlardan biri də istihazə qanıdır. İstihazə qanı görən müddətdə qadına müstəhazə deyilir.

**M:393.** İstihazə qanı əksər vaxtlar sarı rəngli, soyuq olur və təzyiq, yandırıcılıq olmadan çölə gəlir. Çox da qəliz deyil, amma ola bilsin ki, bə’zi vaxtlar qara, qırmızı, isti və qəliz olsun, təzyiqlə və yandıra-yandıra çölə gəlsin.

**M:394.** İstihazə üç qismdir: Qəlilə (az), mütəvəssitə (orta), kəsirə (çox).

**Qəlilə istihazə** budur ki, qan, qadının ovrətinin daxilinə qoyduğu pambığın bir tərəfindən keçib o biri tərəfində zahir olmasın.

**Mütəvəssitə istihazə** odur ki, qan qadının ovrətinə qoyduğu pambığa hopub o biri tərəfindən zahir olsun. Amma qadınların, adətən, qanaxmanın qarşısını almaq üçün qoyduqları dəsmala çatmasın.

**Kəsirə istihazə** budur ki, qan ora qoyulan pambıqdan keçib dəsmala çatsın.

## *İSTİHAZƏNİN HÖKMLƏRİ*

**M:395.** Qəlilə istihazədə qadın hər namaz üçün bir dəstəmaz almalı, ovrətinin zahirinin qan dəyən yerlərini suya çəkməlidir. Ehtiyat-vacibə görə qoyduğu pambığı dəyişməli, yaxud suya çəkməlidir.

**M:396.** Əgər namazdan əvvəl, yaxud namaz əsnasında mütəvəssitə istihazə qanını görsə, o namaz üçün qusul etməlidir. Amma əgər mütəvəssitə istihazədə sübh namazından qabaq qusul etsə, sonrakı günün sübhünə qədər hər namaz

üçün (əvvəlki məsələdə deyilən) qəlilə istihazənin işlərini yerinə yetirməlidir. Amma qəsdən, yaxud unutqanlıq üzündən qusul etməsə, zöhr və əsr namazları üçün qusul etməlidir. Əgər onun üçün də qusul etməsə, məğrib və işa namazlarından qabaq qusul etməlidir.

**M:397.** Kəsirə istihazədə, (əvvəlki məsələdə deyilən) mütəvəssitə istihazənin işlərindən əlavə, hər namaz üçün ovrətinə qoyduğu dəsmalı dəyişməli, yaxud suya çəkməlidir. Sonra bir qusul zöhr və əsr namazları üçün, bir qusul da məğrib və işa namazları üçün etməli, zöhr və əsr namazları arasında fasilə salmamalıdır. Əgər fasilə salsa əsr namazı üçün də yenidən qusul etməlidir. Həmçinin, əgər məğrib və işa namazları arasında fasilə salsa işa namazı üçün yenidən qusul almalıdır.

**M:398.** Əgər istihazə qanı namazın vaxtından əvvəl də gəlsə, hətta qadın o qan üçün dəstəmaz və quslu yerinə yetirmiş olsa da, ehtiyat-vacibə görə namaz vaxtı dəstəmaz və qusul etməlidir.

**M:399.** Dəstəmaz və qusul almağın vacib olduğu mütəvəssitə və kəsirə qanı olan qadın, qusul və dəstəmazdan hər hansını əvvəl yerinə yetirsə səhihdir. Amma daha yaxşı olar ki, əvvəl dəstəmaz alsın.

**M:400.** Əgər qadının qəlilə istihazə qanı sübh namazından sonra mütəvəssitəyə çevrilsə, bu halda zöhr və əsr namazı üçün qusul etməlidir; və əgər zöhr və əsr namazından sonra qəlilə mütəvəssitəyə çevrilsə, məğrib və işa namazları üçün qusul etməlidir.

**M:401.** Əgər qadının qəlilə və yaxud mütəvəssitə istihazəsi sübh namazından sonra kəsirə olsa, zöhr və əsr namazları üçün bir qusl, məğrib və işa namazı üçün başqa bir qusul almalıdır. Əgər zöhr və əsr namazından sonra kəsirə olsa məğrib və işa namazı üçün qusul etməlidir.

**M:402.** Kəsirə və ya mütəvəssitə qanı olan qadın əgər vaxtın daxil olmasından əvvəl namaz üçün qusul etsə, onun quslu batildir. Hətta əgər sübh namazının vaxtına yaxın olan vaxtlarda gecə namazı üçün qusul edib gecə namazı qılsa, ehtiyat-vacib budur ki, sübh namazının vaxtı daxil olandan sonra yenidən qusul və dəstəmaz alsın.

**M:403.** Müstəhazə qadın istər vacib, istərsə də müstəhəb namazın hər biri üçün dəstəmaz almalıdır. Həmçinin qıldığı namazı ehtiyatən yenidən, yaxud təklikdə qıldığı namazı yenidən camaatla qılmaq istəsə, gərək istihazədə deyilən bütün işləri yerinə yetirsin. Amma ehtiyat namazı, unudulmuş səcdə və təşəhhüdü, həmçinin səcdeyi-səhvi yerinə yetirmək üçün əgər onları namazdan sonra dərhal yerinə yetirsə, istihazə işlərini təkrarlaması lazım deyil.

**M:404.** Müstəhazə qadın, qanı dayandıqdan sonra qılacağı ilk namaz üçün iztihazənin işlərini yerinə yetirməlidir. Sonrakı namazlar üçün isə lazım deyil.

**M:405.** Əgər bir qadın istihazəsinin hansı növdən olduğunu bilməsə, namaz qılmaq istədiyi vaxt bir miqdar pambığı öz ovrətinin daxilinə qoyub bir az

gözlədikdən sonra çıxardıb istihazənin hansı növdən olduğunu bilməli, sonra həmin növün göstərişlərə əsasən əməl edilməlidir. Amma əgər namaz qıldığı vaxtda istihazəsinin dəyişilməyəcəyini bilsə, vaxt daxil olmamışdan əvvəl də özünü yoxlaya bilər.

**M:406.** Əgər müstəhazə qadın özünü yoxlamadan namaza başlasa, bu halda qürbət qəsdi olsa və öz vəzifəsinə əməl etsə (məsələn, istihazəsi qəlilə olsa və qəlilə istihazənin göstərişlərinə əməl etsə), namazı səhihdir. Amma əgər qürbət qəsdi olmasa, yaxud əməli öz vəzifəsinə müvafiq olmasa (məsələn, onun qanı mütəvəssitə olduğu halda qəlilə istihazə göstərişlərinə əməl etsə), qıldığı namaz batildir.

**M:407.** Əgər müstəhazə qadın özünü yoxlaya bilməsə, 100% vəzifəsi olduğu şeylərə əməl etməlidir. Məsələn, əgər istihazəsinin qəlilə, yaxud mütəvəssitə olmasını bilməsə, qəlilə istihazəsinin işlərini yerinə yetirməlidir; və əgər mütəvəssitə və ya kəsirə olduğunu bilməsə, mütəvəssitə işlərini yerinə yetirməlidir. Əgər, əvvəlcə bu üç növdən hansının olduğunu bilsə, onun göstərişlərinə uyğun əməl etməlidir.

**M:408.** Əgər istihazə qanı batində olub çölə gəlməsə onun dəstəmazı və quslu batil olmaz. Amma əgər çölə gəlsə, hətta az da olsa belə, dəstəmazı və quslu (əvvəldə qeyd olunduğu kimi) batil olur.

**M:409**. Əgər müstəhazə qadın namazdan sonra özünü yoxlayıb qan görməsə, ikinci dəfə qan gələcəyini bilsə də aldığı dəstəmaz ilə namazı qıla bilər.

**M:410.** Əgər müstəhazə qadın dəstəmaz, yaxud qusul almağa başladığı vaxtdan e’tibarən qan gəlməyəcəyini, həmçinin namazdan sonra da ovrətinin daxilində qan olmayacağını və çölə gəlmədiyini bilsə, namazını tə’xirə sala bilər.

**M:411.** Əgər müstəhazə qadın namazın vaxtının gəlməsindən əvvəl tamamilə paklanacağını, yaxud namaz müddətində qanın dayanacağını bilsə, bu halda gözləməli, namazını pak olduğu vaxtda qılmalıdır.

**M:412.** Əgər dəstəmaz və qusldan sonra qan zahirən dayansa və müstəhazə qadın, namazı tə’xirə salacağı halda dəstəmaz, qusul və namazı yerinə yetirə biləcəyi müddətdə paklanacağını bilsə, onda namazını tə’xirə salmalı, tamamilə paklandıqdan sonra yenidən dəstəmaz, qusul alıb namazını qılmalıdır. Amma namazın vaxtı az olsa dəstəmazı və quslu yenidən təkrarlaması lazım deyil– əvvəlki qusul və dəstəmazı ilə namaz qıla bilər.

**M:413.** Kəsirə və mütəvəssitə istihazəsi olan qadın, qandan tamamilə paklandıqda qusul etməlidir. Amma əgər qabaqkı namaz üçün qusul etdiyi vaxtdan ondan qan gəlmədiyini bilsə, yenidən qusul alması lazım deyil.

**M:414.** Qəlilə istihazəsi olan qadın dəstəmazdan sonra, kəsirə və mütəvəssitə istihazəsi olan qadın isə qusul və dəstəmazdan sonra dərhal namaza başlamalıdır. Amma azanı və iqaməni deməyin, namazdan əvvəl olan duaları

oxumağın eybi yoxdur. Namazda da qunut və s. kimi müstəhəb işləri yerinə yetirə bilər.

**M:415.** Əgər müstəhazə qadın qusul və namaz arasında fasilə salsa yenidən qusul etməli və dərhal namaza başlamalıdır. Amma qan onun ovrətinin daxili fəzasına gəlməsə qusul lazım deyil.

**M:416.** Əgər istihazə qadının qanı axsa və dayanmasa, bu halda zərəri olmazsa qusldan qabaq və sonra pambıq vasitəsilə qanın axmasının qarşısını almalıdır. Amma əgər həmişə axmasa, yalnız dəstəmaz və qusldan sonra qanın qabağını almalıdır. Əgər e'tinasızlıq etsə və qan çölə gəlsə, ehtiyat-vacibə görə qusul etməli, dəstəmaz da almalıdır. Namazı da qılmış olsa yenidən qılmalıdır.

**M:417.** Əgər qusul aldığı vaxtda qan dayanmasa, quslu səhihdir. Amma əgər qusul əsnasında mütəvəssitə istihazə kəsirəyə çevrilsə vacibdir ki, quslu yenidən başlasın.

**M:418.** Ehtiyat-vacib budur ki, istihazəsi olan qadın oruc olduğu bütün gün ərzində mümkün qədər qanın çölə gəlməsinin qarşısını alsın.

**M:419.** Qusul etməyin vacib olduğu müstəhazə qadının orucu o vaxt səhihdir ki, gündəlik namazlar üçün vacib olan qusulları gün ərzində yerinə yetirsin. Həmçinin ehtiyat-vacibə əsasən sabahı oruc tutacağı günün axşamı məğrib və işa namazı üçün quslu yerinə yetirsin. Amma məğrib və işa namazı üçün qusul etməsə, sübh azanından qabaq gecə namazı üçün qusul etsə və gün ərzində də gündəlik namazlarda vacib olan qusulları yerinə yetirsə, orucu səhihdir.

**M:420.** Əgər əsr namazından sonra müstəhazə olsa və qüruba qədər qusul etməsə, orucu səhihdir.

**M:421.** Əgər qəlilə istihazəsi olan qadın namazdan əvvəl mütəvəssitə, (yaxud kəsirə) olsa, bu halda mütəvəssitənin, (yaxud kəsirənin) qeyd olunan əməllərini yerinə yetirməlidir. Əgər mütəvəssitə istihazə kəsirə olsa, bu halda kəsirə istihazənin işlərini yerinə yetirməlidir. Deməli mütəvəssitə istihazə üçün qusul almış olsa, faydası yoxdur: kəsirə istihazə üçün yenidən qusul almalıdır.

**M:422.** Əgər namaz əsnasında mütəvəssitə istihazə kəsirəyə dönsə, namazı pozmalı, kəsirə istihazə üçün qusul edib dəstəmaz almalı və onun sair işlərini yerinə yetirib həmin namazı qılmalıdır. Əgər qusul və dəstəmazdan heç biri üçün vaxt olmasa, iki təyəmmüm etməlidir: biri qusul əvəzindən, digəri isə dəstəmaz əvəzindən. Əgər bunlardan biri üçün vaxt olmasa həminkinin əvəzindən təyəmmüm almalı, digərini də yerinə yetirməlidir. Amma əgər təyəmmüm üçün də vaxt olmasa, namazı poza bilməz; namazı qurtarmalı, ehtiyat-vacibə görə qəzasını da qılmalıdır. Həmçinin əgər namaz əsnasında qəlilə istihazə mütəvəssitəyə, yaxud kəsirəyə çevrilsə də bu qayda ilə əməl etməlidir.

**M:423.** Əgər namaz əsnasında istihazəsi olan qadının qanı dayansa və o, batinində də dayanıb-dayanmadığını bilməsə, bu halda namazdan sonra

(batinində də) dayandığını bilsə, ehtiyat-vacibə görə dəstəmaz, qusul və namazı təzədən yerinə yetirməlidir.

**M:424.** Əgər kəsirə istihazəsi olan qadının qanı mütəvəssitəyə çevrilsə, bu halda birinci namaz üçün kəsirə, sonrakı namazlar üçün isə mütəvəssitə istihazənin əməllərini yerinə yetirməlidir. Məsələn, əgər zöhr namazından qabaq kəsirə, mütəvəssitəyə çevrilsə, bu halda zöhr namazı üçün qusul etməli, əsr, məğrib və işa namazları üçün yalnız dəstəmaz almalıdır. Amma əgər zöhr namazı üçün qusul etməsə və təkcə əsr namazı qılmaq miqdarında vaxt qalsa, onda əsr namazı üçün qusul etməlidir. Əgər əsr namazı üçün də qusul etməsə, gərək məğrib namazı üçün qusul etsin. Onun üçün də qusul etməsə və işa namazı miqdarında vaxt qalsa, işa namazı üçün qusul etməlidir.

**M:425.** Əgər hər namazdan qabaq kəsirə istihazə qanı dayanıb yenidən gəlsə hər namaz üçün bir qusul etməlidir.

**M:426.** Əgər kəsirə istihazə qəliləyə çevrilsə, gərək birinci namaz üçün kəsirə, sonrakı namazlar üçün qəlilə istihazə əməllərini yerinə yetirsin. Həmçinin əgər mütəvəssitə istihazə qəlilə olsa, gərək birinci namaz üçün mütəvəssitə, sonrakı namazlar üçün isə qəlilə istihazə əməllərini yerinə yetirsin.

**M:427.** Əgər istihazəli qadın ona vacib olan əməllərdən hər hansı birini, hətta pambığı dəyişməyi tərk etsə onun namazı batildir.

**M:428.** Qəlilə istihazəsi olan qadın, namazdan başqa, dəstəmazla şərtlənən bir iş görmək istəsə, (məsələn, bədəninin hər hansı yerini Qur'anın yazısına vurmaq istəsə) ehtiyat-vacibə görə dəstəmaz almalıdır. Çünki namaz üçün aldığı dəstəmaz kifayət deyildir.

**M:429.** Əgər istihazəsi olan qadın özünə vacib olan qusulları yerinə yetirsə, məscidə getmək, orada dayanmaq, vacibi səcdəsi olan Surələri oxumaq, əri ilə yaxınlıq etmək və s. kimi işlər–hətta namaz üçün vacib olan sair əməlləri (dəstəmaz almaq, pambığı dəyişmək, dəsmal qoymaq) yerinə yetirməmiş olsa da–ona halal olur.

**M:430.** Əgər kəsirə və ya mütəvəssitə istihazəsi olan qadın namaz vaxtından qabaq bədəninin hər hansı yerini Qur'an yazısına vurmaq istəsə qusul etməli və dəstəmaz da almalıdır.

**M:431.** Ayət namazı müstəhazə qadına vacibdir və bu namaz üçün də gündəlik namaz üçün vacib olan əməlləri yerinə yetirməlidir.

**M:432.** Əgər yovmiyyə namazı vaxtında, müstəhazə qadına ayət namazı da vacib olsa və o, hər ikisini bir-birinin ardınca qılmaq istəsə, gərək ayət namazı üçün də yovmiyyə namazı üçün olan əməllərin hamısını yerinə yetirsin. Və hər iki namazı bir qusul və bir dəstəmazla yerinə yetirə bilməz.

**M:433.** Müstəhazə qadın qəza namazı qılmaq istəsə hər namaz üçün əda namazında vacib olan əməlləri yerinə yetirməlidir.

**M:434.** Əgər qadın ondan xaric olan qanın yara qanı olmadığını bilsə və şər'ən də heyz və nifas hökmündə deyilsə, gərək istihazə göstərişlərinə əməl etsin. Hətta əgər qanın istihazə qanı, yoxsa sair qanlar olduğunda şəkk etsə, bu halda sair qanların əlamətləri olmasa, ehtiyat-vacibə görə istihazə əməllərini yerinə yetirməlidir.

### *HEYZ*

Heyz, əksərən, hər ayda, bir neçə gün müddətində, qadınların bətnindən xaric olan bir qandır. Qadın heyz gördükdə haiz adlanır.

**M:435.** Heyz qanı əksər hallarda qəliz və istidir, rəngi qaraya çalan qırmızı, yaxud qara-qırmızıdır. Təzyiqlə və azacıq yandırıcılıqla çölə gəlir.

**M:436.** Seyyid olan qadınların altmış, seyyid olmayan qadınların isə əlli yaşları tamam olduqdan sonra yaisə olurlar, yə'ni heyz qanı görmürlər.

**M:437.** Qızın doqquz yaşı tamam olmamışdan əvvəl və qadının yaisə olduqdan sonra gördüyü qan heyz deyildir.

**M:438.** Hamilə və uşağa süd verən qadının heyz görməsi mümkündür.

**M:439.** Doqquz yaşının tamam olub-olmamasını bilməyən bir qız uşağı heyzin əlamətləri olmayan qan görsə, heyz deyildir. Həmçinin əgər heyzin nişanələri onda olsa, heyz olduğunu demək olmaz.

**M:440.** Yaisə olub-olmamasında şəkk edən qadın qan görsə və heyz olub-olmamasını bilməsə, yaisə olmamasına hökm etməlidir.

**M:441.** Heyzin müddəti üç gündən az, on gündən çox olmur, əgər üç gündən azacıq az olsa heyz deyildir.

**M:442.** Heyzin üç günü ardıcıl gəlməlidir. Deməli əgər misal üçün, iki gün qan görüb bir gün paklansa və yenidən bir gün qan görsə, heyz deyildir.

**M:443.** Tamam üç gün ərzində qanın çölə gəlməsi lazım deyil; hətta əgər ovrətinin daxilində də qan olsa kifayətdir. Bu üç gün müddətində müxtəsər olaraq pak olsa, belə ki, onun pak olma müddəti çox az olub nəzərə çarpmasa və nəticədə "üç gün onun ovrətində qan vardır" deyilsə, yenə də heyzdir.

**M:444.** Birinci və dördüncü gecədə qan görməsi lazım deyil. Amma ikinci və üçüncü gecələrdə qan dayanmamalıdır. Deməli əgər birinci günün sübh azanından üçüncü günün qürubuna qədər ardıcıl olaraq qan gəlsə;, yaxud birinci günün ortalarında başlayıb dördüncü günün həmin vaxtında dayansa və ikinci və üçüncü günün gecələrində heç dayanmasa, heyzdir.

**M:445.** Əgər üç gün ardıcıl olaraq qan görüb sonra pak olsa və yenidən qan görsə, bu halda qan gördüyü və arada pak olduğu günlər üst-üstə on günü keçməsə, arada pak olduğu günlərdə də heyzdir.

**M:446.** Əgər üç gündən artıq, on gündən az müddətdə qan görüb onun çiban qanı, yaxud heyz qanı olduğunu və çibanın sağ və ya sol tərəfdə olmasını bilməsə, mümkün olan surətdə bir miqdar pambığı içəri daxil etməli, sonra çölə

çıxardıb baxmalıdır: əgər qan sol tərəfdən gəlirsə heyz, sağ tərəfdən gəlirsə çibandır.

**M:447.** Əgər üç gündən artıq, on gündən az olan müddətdə qan görsə və bu qanın heyz və ya yara qanı olduğunu bilməsə, bu halda əgər əvvəldə heyz olubsa bu da heyzdir; yox əgər (əvvəldə heyzdən) pak olubsa, pak hesab etməlidir. Həmçinin, pak və yaxud heyz olduğunu bilməsə, haizə haram olan bütün şeyləri tərk etməli, haiz olmayan qadınlara vacib olan bütün ibadətləri yerinə yetirməlidir.

**M:448.** Əgər qan görüb heyz, yaxud nifas olmasında şəkk etsə, bu halda heyzin şərtləri varsa, heyz hesab etməlidir.

**M:449.** Əgər qan görüb heyz, yaxud bakirəlik qanı olmasını bilməsə özünü yoxlamalıdır. Belə ki, bir miqdar pambığı fərcin içinə daxil edib bir az gözləməli, sonra çıxartmalıdır. Əgər onun ətrafı qana bulaşsa, bakirəlik, hər yerinə dəymiş olsa, heyz qanıdır.

**M:450.** Əgər üç gündən az müddətdə qan görüb pak olsa və sonra yenidən üç gün qan görsə, ikinci dəfə gördüyü qanda heyzin əlamətləri olsa heyzdir. Əvvəlki qanlar isə heyz deyildir.

## *HAİZİN HÖKMLƏRİ*

**M:451.** Haiz qadına bir neçə şey haramdır:

**1-**Dəstəmaz, qusul, yaxud təyəmmüm ilə yerinə yetirilməli olan ibadətlər; amma dəstəmaz, qusul və təyəmmüm lazım olmadığı ibadətləri (meyyit namazı kimi) yerinə yetirməsinin eybi yoxdur.

**2-**Cünub şəxsə haram olan şeylər; (Cənabətin hökmlərində deyilib.)

**3-**Fərcinə (cinsiyyət üzvünə) cima etmək; həm kişi, həm də qadın üçün–hətta əgər dəllək kəsən yerə qədər daxil olsa və məni gəlməsə də–haramdır. Hətta ehtiyat-vacib budur ki, dəllək kəsən yerdən az da daxil etməsin. Haiz qadına (razı olduğu halda) arxadan yaxınlıq etməyin kəskin kərahəti var.

**M:452.** Heyz olması qəti olmayan və şər'ən özünü heyz hesab etdiyi günlərdə qadınla cima etmək haramdır. Deməli, on gündən artıq qan görən və (qeyd olunacaq) əməllərə riayət edərək qadın, öz qohumlarının adətini götürməli olan qadının əri o günlərdə onunla yaxınlıq edə bilməz.

**M:453.** Əgər qadının heyz günləri üç yerə bölünsə və kişi onlardan birincidə öz qadını ilə qabaq tərəfdən cima etsə, ehtiyat-vacibə görə on səkkiz noxud[9] qızıl, ikinci hissədə cima etsə, doqquz noxud qızıl, üçüncü hissədə cima etsə dörd noxud yarım qızıl kəffarə fəqirə verməlidir Məsələn, altı gün heyz görən qadının əri birinci və ikinci gecədə (yaxud onun gündüzündə) onunla yaxınlıq

[9]Bir misqal 4,64 qramdır. (24 noxud bir misqaldır, deməli, bir noxud misqalın 24-də biri qədərdir.)

etsə on səkkiz noxud, üçüncü və ya dördüncü gecədə (yaxud onun gündüzündə) yaxınlıq etsə doqquz noxud, beşinci və ya altıncı günün gecələrində (yaxud gündüzlərində) yaxınlıq etsə, dörd noxud yarım qızıl kəffarə verməlidir.

**M:454.** Heyz halında olan qadına arxadan yaxınlıq etməyin kəffarəsi yoxdur.

**M:455.** Əgər qızılın yaxınlıq etdiyi vaxtdakı qiyməti kəffarəni fəqirə vermək istədiyi vaxtla fərqlənsə, fəqirə vermək istədiyi vaxtın qiyməti ilə hesab etməlidir.

**M:456.** Əgər bir kəs heyzin həm birinci, həm ikinci, həm də üçüncü hissəsində öz qadını ilə yaxınlıq etsə, hər üç kəffarəni verməlidir ki, bu da 31,5 noxud qızıla bərabərdir.

**M:457.** Əgər kişi heyz halında qadını ilə cima etsə və onun kəffarəsini verdikdən sonra, yenidən cima etsə, yenə də kəffarə verməlidir.

**M:458.** Əgər heyz halında olan qadını ilə bir neçə dəfə yaxınlıq etsə və onların arasında kəffarə verməsə, ehtiyat-vacib budur ki, hər yaxınlıq üçün bir kəffarə versin.

**M:459.** Əgər kişi yaxınlıq halında qadının heyz olmasını başa düşsə, dərhal ondan ayrılmalıdır. Əgər ayrılmasa, ehtiyat-vacibə görə, kəffarə verməlidir.

**M:460.** Əgər bir kişi heyz halında olan qadınla zina etsə və ya heyz halında olan naməhrəm qadınla, öz əyalı olduğu güman edərək cima etsə, ehtiyat-vacibə görə, gərək kəffarə versin.

**M:461.** Kəffarə verməyən bir şəxs, ehtiyata əsasən bir fəqiri doyuzdurmaq qədərində sədəqə verməlidir. Əgər bunu da edə bilməsə Allahdan bağışlanmaq istəməli, tövbə etməli, hər vaxt imkanı olsa, kəffarə verməlidir.

**M:462.** Qadına heyz halında təlaq vermək (təlaq kitablarında deyildiyi kimi) batildir.

**M:463.** Əgər qadın "heyzəm", yaxud "heyzdən pak olmuşam" desə onun sözü qəbul edilməlidir.

**M:464.** Əgər qadın namaz əsnasında heyz olsa namazı batildir.

**M:465.** Əgər qadın namaz əsnasında heyz olub-olmamasında şəkk etsə, namazı səhihdir. Amma namazdan sonra, namaz əsnasında heyz olduğunu başa düşsə, qılıdığı namaz batildir.

**M:466.** Qadın heyzdən pak olduqdan sonra, namaz, habelə dəstəmaz, qusul, yaxud təyəmmümlə yerinə yetirilməli olan sair ibadətlər üçün qusul almalıdır. Bu qusul da eynilə cənabət quslu kimidir. Amma namaz üçün qusuldan qabaq, yaxud sonra dəstəmaz da almalıdır. Əgər qusuldan əvvəl alsa, daha yaxşıdır.

**M:467.** Qadın heyzdən pak olandan sonra qusul etməmiş olsa da təlaq vermək səhihdir, əri də onunla yaxınlıq edə bilər. Amma ehtiyat-müstəhəb budur ki, qusuldan qabaq onunla yaxınlıq etməsin. Heyz vaxtında ona haram olan şeylər (məsciddə dayanmaq, Qur'anın yazısına əl vurmaq və s.) isə qusul etməyincə ona halal deyil.

**M:468.** Əgər həm qusul, həm də dəstəmazın hər ikisi üçün deyil, təkcə dəstəmaz almaq qədərində su olsa, dəstəmaz almalı, qusul əvəzindən təyəmmüm etməlidir. Əgər bunlardan heç biri üçün su olmasa, iki təyəmmüm etməlidir: biri qusul əvəzindən, digəri isə dəstəmaz əvəzində.

**M:469.** Qadının heyz halında qılmadğı gündəlik namazların qəzası yoxdur. Amma vacibi orucların qəzasını tutmalıdır.

**M:470.** Əgər namazın vaxtı daxil olsa və namazı tə'xirə salarsa, heyz olacağını bilsə, dərhal namazını qılmalıdır.

**M:471.** Əgər qadın namazını tə'xirə salsa və namazın əvvəlindən, bir namazın vacibi əməllərini yerinə yetirmək miqdarında keçsə və sonra heyz görsə, o namazın qəzası ona vacibdir. Amma namazın tez və ya gec qılmasında və s. işlərdə öz halını mülahizə etməlidir. Məsələn, müsafir olmayan bir qadın zöhrün əvvəlində namazını qılmasa, onun qəzası o halda vacib olur ki, dörd rəkət namaz qılmaq miqdarında (qeyd olunan göstərişlərə əsasən) zöhrün əvvəlindən keçmiş olsun və o qadın da heyz görsün. Səfərdə olan qadın üçün isə iki rəkət namaz qılmaq miqdarında vaxt kifayətdir. Həmçinin mövcud olmayan şərtləri hazırlamaqda da öz halını mülahizə etməlidir. Deməli əgər o müqəddimati işləri hazırlamaq və bir namaz qılmaq miqdarında vaxt keçsə və haiz olsa onun qəzası vacibdir. Əgər o miqdarda vaxt keçməsə vacib deyildir.

**M:472.** Əgər qadın namazın axır vaxtında qandan paklansa və qusl, dəstəmaz və namazın sair müqəddimati işlərini görüb (paltar hazırlamaq, yaxud onu suya çəkmək) və bir rəkət və daha artıq namaz qılmaq üçün vaxtı olsa, gərək namazı qılsın. Əgər qılmasa, qəzasını yerinə yetirməlidir.

**M:473.** Əgər heyzli qadının qusul və dəstəmaz üçün vaxtı yoxdursa, amma namazı təyəmmüm ilə vaxtında qıla bilərsə, o namaz o qadına vacib deyildir. Amma əgər vaxtın azlığından əlavə, vəzifəsi də təyəmmüm etmək olsa, (məsələn, suyun ona zərəri varsa) təyəmmüm etməli, sonra namaz qılmalıdır.

**M:474.** Əgər qadın heyzdən pak olandan sonra namaz üçün vaxt olub-olmamasında şəkk etsə, namazı qılmalıdır.

**M:475.** Əgər namazın müqəddimati işlərini hazırlayıb bir rəkət namaz qılmaq üçün vaxt olmadığını güman edərək namaz qılmasa və sonradan vaxt olduğunu başa düşsə, o namazın qəzasını yerinə yetirməlidir.

**M:476.** Müstəhəbdir ki, heyzli qadın namaz vaxtında qanlarını təmizləsin, pambığı və dəstmalı dəyişsin, dəstəmaz alsın, (əgər dəstəmaz ala bilmirsə təyəmmüm etsin) və namaz qıldığı yerdə üzü qibləyə oturub zikr, dua, salavat desin.

**M:474.** Qur'an oxumaq, Qur'anı özü ilə aparmaq, bədənin hər hansı yerini onun haşiyəsinə, yaxud yazılarının arasına vurmaq, həna və s. kimi şeylər ilə rənglənmək haiz qadına məkruhdur.

## *HAİZ QADINLARIN NÖVLƏRİ*

**M:478.** Heyz görən qadınlar altı qismdir:

1-Vəqtiyyə və ədədiyyə adət sahibi olan qadın; o qadındır ki, iki ayda, hər ayın müəyyən vaxtlarında heyz görsün, heyz olduğu günlərin sayı da hər iki ayda bir-birinə bərabər olsun. Məsələn, iki ayın hər birində, ayın əvvəlindən yeddisinə qədər qan görsün.

2-Vəqtiyyə adət sahibi olan qadın; o qadındır ki, hər iki ayın müəyyən günlərində heyz qanı görsün. Amma hər iki ayda heyz gördüyü günlərin sayı bir-birinə bərabər olmasın. Məsələn, iki ayda hər ayın əvvəlindən qan görsün, amma birinci ayda yeddinci gün, ikinci ayda isə səkkizinci gün qandan paklansın.

3-Ədədiyyə adət sahibi olan qadın; o qadındır ki, heyz günlərinin sayı iki ayda bir qədərdə olsun, amma o iki qanın görünmə vaxtı eyni olmasın. Məsələn, birinci ayda ayın beşindən onuna qədər, iki ayda isə on ikisindən on yeddisinə kimi qan görsün.

4-Müztəribə; o qadındır ki, bir neçə ayda qan görsün amma müəyyən bir adəti olmasın, yaxud adəti pozulusun və təzə bir adət də tapmamış olsun.

5-Mübtədiə; o qadındır ki, ilk dəfə olaraq qan görsün.

6-Nasiyə; o qadındır ki, öz adətini unutmuş olsun.

(Bunlardan hər birinin özünə məxsus hökmləri vardır ki, gələcək məsələlərdə deyiləcək.)

## *1-VƏQTİYYƏ VƏ ƏDƏDİYYƏ ADƏT SAHİBLƏRİ OLAN QADINLAR*

**M:479.** Vəqtiyyə və ədədiyyə adəti olan qadınlar üç qismdir:

**1-**İki ayda ardıcıl olaraq eyni vaxtda heyz qanı görüb eyni vaxtda da pak olanlar. Məsələn, iki ayda, hər ayın birinci günü qan görüb yeddinci günü pak olsa, onun heyz adəti hər ayın birindən yeddisinə qədərdir.

**2-**O qadınlardır ki, (arada) qandan pak olmur, amma iki ay ardıcıl olaraq müəyyən günlərdə (məsələn, ayın əvvəlindən səkkizinə qədər) gördüyü qanda heyzin əlamətləri vardır. Yə'ni qəliz, qara və istidir, təziqlə, yandırıcılıqla çölə gəlir. Onun qanının qalanında isə istihazənin əlamətləri vardırsa, adəti ayın əvvəlindən səkkizinə qədərdir.

**3-**O qadınlardır ki, iki ay ardıcıl olaraq müəyyən vaxtda heyz qanı görsün və üç gün, yaxud daha artıq qan görüb sonra bir və ya bir neçə gün pak olsun və yenidən qan görsün. Bu halda qan gördüyü günlərlə arada pak olduğu günlərin cəmi on gündən keçməsə və iki ayda qan gördüyü günlərlə pak olduğu günlərin sayı üst-üstə eyni olsa, belə qadının adəti qan gördüyü günlərlə arada pak olduğu günlərin cəmisinə bərabərdir. Arada pak olduğu günlərin hər iki ayda sayı bərabər olması lazım deyil. Məsələn, əgər birinci ayda ayın birindən üçünə

kimi qan görüb arada üç gün pak olsa və yenidən üç gün qan görsə, ikinci ayda da yenə üç gün qan görüb sonra üç gündən artıq və ya az pak olsa və yenidən qan görsə, üst-üstə doqquz gün olsa bu günlərin hamısı (doqquz gün) heyz olub o qadının adət dövrüdür.

**M:480.** Vəqtiyyə və ədədiyyə adəti olan qadın əgər adəti dövründə, yaxud iki-üç gün əvvəl və ya sonra qan görsə, bu halda "heyz irəliyə atmışdır" və ya "tə'xirə düşmüşdür" deyilsə, hətta bu qanda heyzin əlamətləri olmasa da, haiz qadın üçün deyilən hökmlərə əməl etməlidir. Əgər sonradan heyz olmadığını başa düşsə (məsələn, üç gün tamam olmamış pak olsa), bu müddətdə yerinə yetirmədiyi ibadətlərin qəzasını etməlidir.

**M:481.** Vəqtiyyə və ədədiyyə adəti olan qadın əgər adətindən bir neçə gün qabaq, adətinin bütün günləri və adətdən bir neçə gün sonra qan görsə, qan gördüyü günlər üst-üstə on gündən çox olmazsa, hamısı heyzdir. Əgər on gündən artıq olsa, öz adəti günlərində gördüyü qan heyz, ondan əvvəl və sonra gələn qanlar isə istihazədir. Adətindən sonra və əvvəl yerinə yetirmədiyi ibadətlərin qəzasını etməlidir. Əgər adət günlərinin hamısı və adətindən bir neçə gün əvvəl gördüyü qanlar üst-üstə on gündən çox olmasa, hamısı heyzdir. Amma on gündən artıq olsa, təkcə adət günləri heyz, ondan qabaq gördüyü qanlar isə istihazədir. Və o günlərdə ibadətlərini tərk edibdirsə, qəzasını etməlidir. Əgər adət günlərinin hamısını və bir neçə gün adətindən sonra qan görsə və üst-üstə on gün olmazsa, heyzdir; yox əgər on gündən artıq olsa, adət günləri heyz, yerdə qalanlar isə istihazədir.

**M:482.** Vəqtiyyə və ədədiyyə adəti olan qadın əgər bir miqdar adət günlərində və ondan əvvəl bir neçə gün qan görsə və üst-üstə on gündən artıq olmasa, onda hamısı heyzdir. Əgər on gündən artıq olsa, adət günlərində gördüyü qan, adətindən bir neçə gün qabaq gördüyü qanın adəti miqdarına çatanı heyz, əvvəlki günləri isə istihazə hesab edilməlidir. Əgər adət günlərindən bir miqdarını və adətindən bir neçə gün sonra qan görsə və üst-üstə on gündən çox olmasa, hamısı heyzdir; əgər on gündən artıq olsa, adəti günlərində gördüyü qanla sonrakı bir neçə gün gördüyü qanın adət günlərinə çatdığı qədəri heyz, qalanlarını isə istihazə hesab etməlidir.

**M:483.** Adəti olan qadın üç gün, yaxud üç gündən daha artıq qan görüb paklansa və yenidən qan görsə, bu iki qan arasındakı zaman fasiləsi on gündən az olsa və qan gördüyü günlərin hamısı arada pak olduğu günlərlə birlikdə on gündən artıq olsa, (məsələn, beş gün qan görüb sonra beş gün pak olsa və yenidən beş gün qan görsə), bu halda bir neçə fərz ola bilər:

**1**-Birinci dəfə gördüyü qanın hamısı, yaxud bir miqdarı adət günlərində olsa və paklandıqdan sonra gördüyü ikinci qan adət günlərində olmasa, birinci dəfədəki qanın hamısını heyz, ikinci dəfədəkini isə istihazə hesab etməlidir.

**2-**Birinci qan adət günlərində olmasa və ikinci qanın hamısı, yaxud bir miqdarı adət dövrünə düşsə, onda ikinci qanın hamısı heyz, birinci isə istihazədir.

**3-**Birinci və ikinci qanın bir miqdarı adət vaxtına düşsə və adət vaxtına düşən birinci qan üç gündən az olmasa və ortadakı paklıq və adət dövründə olduğu ikinci qan qan ilə birlikdə on gündən çox olmasa, bunların hamısı heyzdir. Birinci qanın adət günlərindən əvvəl olan hissəsi və ikinci qanın adət günlərindən sonra olan hissəsi istihazədir. Məsələn, əgər qadının adəti ayın üçündən onuna qədər olsa, bu halda birinci ayın əvvəlindən altısına qədər qan görüb iki gün paklansa və sonra ayın on beşinə kimi qan görsə, üçündən onuna qədər heyz, birindən üçünə və onundan on beşinə qədər istihazədir.

**4-**Birinci və ikinci qanın bir miqdarı adət günlərində olsun, amma adət günlərində olan birinci qan üç gündən az olsa, bu halda gördüyü birinci və ikinci qanın hamısı və aradakı paklıq müddətində haiz qadına haram olan işləri (əvvəldə deyildiyi kimi) tərk etməli, istihazənin əməllərini yerinə yetirməlidir. Yə'ni müstəhazə qadın üçün deyilən göstərişlərə uyğun olaraq öz ibadətlərini yerinə yetirməlidir.

**M:484.** Vəqtiyyə və ədədiyyə adəti olan qadın adəti dövründə qan görməsə və ondan başqa vaxtlarda heyz günləri qədər qan görsə və bu, adət vaxtından sonra olsa, qan görən kimi heyz hesab etməlidir. Amma adət vaxtından əvvəl görsə və onda heyzin əlamətləri olsa, onu heyz hesab etməlidir; yox əgər heyzin əlamətləri olmasa, üç gün müddətində haizə haram olan əməlləri tərk, istihazə əməllərini yerinə yetirməlidir ki, heyz, yaxud istihazə qanı olması mə'lum olsun.

**M:485.** Vəqtiyyə və ədədiyyə adəti olan qadın əgər öz adəti vaxtında qan görsə, amma onun günlərinin sayı adətinin vaxtından az və ya çox olsa, pak olduqdan sonra da yenidən öz adəti müddətində qan görsə, qan gördüyü hər iki müddətdə haizə haram olan işləri tərk, istihazə göstərişlərinə əməl etməlidir.

**M:486.** Vəqtiyə və ədədiyyə adəti olan qadın əgər on gündən artıq qan görsə adəti günlərində gördüyü qan–hətta heyzin əlamətləri onda olmasa da–heyzdir; və adəti günlərindən sonra gördüyü qan–hətta heyz əlamətləri də onda olsa istihazədir. Məsələn, bir qadının heyz adəti ayın əvvəlindən yeddisinə qədər olsa və ayın əvvəlindən on ikisinə qədər qan görsə, əvvəldəki yeddi günü heyz, qalan beş günü isə istihazədir.

## *2-VƏQTİYYƏ ADƏT SAHİBİ OLAN QADINLAR*

**M:487.** Vəqtiyyə adəti olan qadınlar üç qismdir:

**1-**İki ayın hər birində müəyyən vaxtda heyz qanı görüb bir neçə gündən sonra paklanan, amma qan gördüyü günlərin sayı hər ayda bir-birinə bərabər olmayan qadın. Məsələn iki ayın hər birində ayın əvvəlindən qan görsə, amma birinci

ayda yeddinci gün, ikinci ayda isə səkkizinci gün qandan paklansa ayın birinci gününü heyz adəti günü hesab etməlidir.

**2-**O qadınlardır ki, (arada) qandan pak olmurlar, amma iki ayın hər birində müəyyən vaxta qan görürlər və onların qanında heyzin əlamətləri (yə'ni qəliz, qara və isti olub, təziqlə, yandırıcılıqla çölə gəlir) və onun qalan qanlarında istihazə əlamətləri var. Heyzin əlamətləri olan günlərin sayı hər iki ayda eyni deyil. Məsələn, birinci ayda, ayın əvvəlindən yeddisinə qədər, ikinci ayda isə ayın əvvəlindən səkkizinə qədər qanında heyz, qalan günlərdə isə istihazə əlaməti var. Bu qadınlar da ayın əvvəlini öz adətinin əvvəli hesab etməlidir.

**3-**O qadınlardır ki, iki ayın hər birində müəyyən vaxtda üç gün, yaxud daha artıq heyz qanı görüb sonra pak olurlar sonra yenidən qan görürlər. Qan gördüyü günlərlə pak olduğu günlərin cəmi on gündən keçmir. Amma ikinci ayda birinci aydan artıq, yaxud azdır. Məsələn birinci ayda səkkiz gün, ikinci ayda isə doqquz gün olsa, bu qadın ayın ilk gününü heyz adətinin ilk günü hesab etməlidir.

**M:488.** Vəqtiyyə adəti olan qadın əgər öz adətinin vaxtında, yaxud iki-üç gün adətdən qabaq və ya iki-üç gün sonra qan görsə, bu halda əgər "onun heyzi tez olubdur" və ya "tə'xirə düşübdür" desələr, o qanda heyzin əlamətləri olmasa belə, haiz qadınlar üçün deylən hökmlərə uyğun olaraq əməl etməlidir. Amma sonradan heyz olmamasını başa düşsə (məsələn, üç gündən tez dayansa), yerinə yetirmədiyi ibadətlərin qəzasını etməlidir.

**M:489.** Vəqtiyyə adəti olan qadın əgər on gündən artıq qan görsə və heyzi, onun öz əlamətləri vasitəsilə ayırd edə bilməsə, öz qohumlarının adət günlərini özü üçün heyz hesab etməlidir. Bu qohumlar istər ata tərəfdən olsun, istərsə də ana tərəfdən; istər diri olsun, istərsə də ölü; amma qohumlarının heyz adətini o vaxt özü üçün heyz adəti götürə bilər ki, onlarını heyz günlərinin hamısının miqdarı eyni olsun. Amma əgər onların heyz günlərinin sayı eyni olmasa, (məsələn, bə'zilərinin adəti beş, bə'zilərininki isə yeddi gün olarsa) onların heyz günlərini özü üçün adət götürə bilməz. Amma adətləri başqalarının adətləri ilə çox cüzi fərqlənən halda (belə ki, bu fərq onların müqabilində hesaba gəlməz) onların arasında olan ən çox heyz günlərini özü üçün heyz adəti götürməlidir.

**M:490.** Vəqtiyyə adəti olan və qohumlarının adətini özü üçün adət götürən qadın hər ayda adətinin əvvəli olan günü heyzinin hesab etməlidir. Məsələn, əgər bir qadın hər ayda ayın ilk günü qan görürdüsə və bə'zi hallarda yeddinci, bə'zi hallarda isə səkkizinci gün pak olurdusa, bu halda birinci ayda on iki gün qan görsə və onun qohumlarının adəti yeddi gün olsa, onda əvvəlki yeddi günü heyz, qalan günləri isə istihazə hesab etməlidir.

**M:491.** Vəqtiyyə adəti olan və öz qohumlarının adətini öz heyz adəti götürməli olan qadının qohumu olmasa və ya qohumlarının adət günlərinin sayı bir-biri ilə eyni olmasa, bu halda hər ayda qan gördüyü günlərdən üç, yaxud altı,

yaxud da yeddisini heyz, qalanlarını isə istihazə hesab etməlidir. Sonrakı aylarda da həmin miqdarı heyz hesab etməlidir.

### *3-ƏDƏDİYYƏ ADƏTİ OLAN QADINLAR*

**M:492.** Ədədiyyə adəti olan qadınlar da üç qismdir:

**1-**Heyz günlərinin sayı iki ayın hər birində eyni qədərdə olub, qan görməsi vaxtı hər iki ayda eyni olmayan qadınlar. Bu halda neçə gün qan görsə, hamısı onun adəti sayılır. Məsələn, əgər birinci ay, ayın birindən beşinə qədər, ikinci ayda isə on birindən on beşinə qədər qan görsə, onun adəti beş gündür.

**2-**(Arada) qandan pak olmayan, amma iki ayın hər birində bir neçə gün gördüyü qanlarda heyzin, yerdə qalanlarında isə istihazənin əlamətləri olan qadınlardır. Belə ki, heyz əlamətləri olan günlərin sayı hər iki ayda eynidir, amma onların vaxtları eyni deyildir. Belə olan halda qanında heyz əlaməti olan günlər onun adətidir. Məsələn, əgər birinci ay, ayın birindən beşinə qədər, sonrakı ay on birindən on beşinə qədər olan günlərdə heyz, yerdə qalan günlərin qanında isə istihazə əlamətləri olsa, onun adəti beş gündür.

**3-**İki ayın hər birində üç gün, yaxud daha artıq qan görən, arada bir gün, yaxud daha artıq pak olub yenidən qan görən və birinci ayda qan görmələrinin vaxtı ikinci aydakından fərqlənən qadınlardır. Belə ki, əgər qan gördüyü və pak olduqları günlər üst-üstə on gündən keçmirsə və iki ayda da bu günlərin sayı eynidirsə, qan gördüyü günlərin hamısı arasındakı pak olduğu günlərlə birlikdə heyz adətidir. Arada pak olduğu günlərin sayının hər iki ayda eyni olması lazım deyil. Məsələn, birinci ayda, ayın birindən üçünə qədər qan görüb iki gün paklansa və yenidən üç gün qan görsə, ikinci ayda da ayın on birindən on üçünə kimi qan görüb iki gün, yaxud az, yaxud da çox paklansa və yenidən qan görsə və üst-üstə səkkiz gündən çox olmasa, adəti səkkiz gündür.

**M:493.** Ədədiyyə adəti olan qadın əgər öz adət günlərindən çox qan görsə və onun sayı on gündən çox olsa, bu halda gördüyü qanların hamısı eyni cür olsa, ehtiyat-vacibə görə qan gördüyü gündən e’tibarən adət günlərinə qədər heyz, qalanlarını isə istihazə hesab etməlidir. Əgər gördüyü qanların hamısı eyni olmayıb bir neçə günündə heyz, qalan günlərində isə istihazə əlaməti olsa, bu halda heyz nişanələri olan günlərinin sayı adət günləri ilə eyni olsa, həmin günləri heyz, qalanlarını isə istihazə hesab etməlidir. Əgər qanda heyz nişanələri olan günləri adət günlərindən çox olsa, bu halda adət günləri qədərini heyz, qalanları isə istihazədir. Əgər qanın heyz əlamətləri olduğu günlərin sayı adət günlərindən az olsa, o günlərə sonrakı bir neçə günlə birlikdə (heyz günlərinə çata bilən qədər) əlavə edib heyz, yerdə qalanlarını isə istihazə saymalıdır.

### *4-MÜZTƏRİBƏ*

**M:494.** Müstəribə–bir neçə ay qan görüb, amma müəyyən adət tapmayan qadına deyilir. Bu qadın on gündən artıq qan görsə və gördüyü qanların hamısı eyni olsa, bu halda onun qohumlarının adəti yeddi gün olsa o da yeddi gün heyz, qalanlarını isə istihazə hesab etməlidir. Amma qohumlarının adət günləri yeddi gündən az olsa, məsələn, beş gün olsa, bu beş günü heyz hesab etməlidir. Ehtiyat-vacibə görə qohumlarının adət günlərinin yeddi gün ilə olan fərqi (yə’ni iki gün) haizə haram olan işləri tərk etməli, istihazə əməllərini yerinə yetirməlidir. Yə’ni müstəhazə qadın üçün deylən göstərişlərə əsasən öz ibadətlərini yerinə yetirməlidir. Amma qohumlarının adəti yeddi gündən çox olsa (məsələn, doqquz gün olsa) gərək yeddi gün heyz hesab etsin. Ehtiyat-vacibə görə yeddi gün ilə onun qohumlarının adəti günləri arasında olan fərqi (yə’ni iki gün) istihazə əməllərini yerinə yetirsin, haizə haram olan əməlləri isə tərk etsin.

**M:495.** Əgər müztəribə qadın on gündən artıq qan görsə və onun bir neçə günündə heyz, bir neçə günündə isə istihazə əlamətləri olsa, bu halda heyz əlamətləri olan qan üç gündən az, yaxud on gündən çox olmasa heyz əlamətləri olan günləri heyz, istihazə əlamətləri olan günləri istihazədir. Əgər heyz əlamətləri olan qan üç gündən az olsa, bu halda öz qohumlarının adət günlərinə baxmalıdır: əgər yeddi gündürsə, o da yeddi günü heyz, qalanlarını istihazə hesab etməlidir; yox əgər qohumlarının adət günləri yeddi gündən az və ya çox olsa, qabaqkı məsələdə deyilənlərə əsasən əməl etməlidir. Yə’ni həmin günləri heyz hesab etməli, sonrakı yeddi günə çatana qədər əməlləri qabaqda deyilən əməllərə uyğun olaraq əməl etməlidir. Həmçinin heyz əlamətləri olan qandan on gün keçməmiş yenidən, heyz əlamətləri olan qan görsə (məsələn, beş gün qara qan, sonra doqquz gün sarı qan, daha sonra yenidən beş gün qara qan görsə) birinci gördüyü qanı heyz hesab etməli, sonrakı günlərdə yeddi günə çatana qədər qabaqdakı məsələdə deyilən kimi əməl etməlidir.

### *5-MÜBTƏDİƏ*

**M:496.** Mübtədiə ilk dəfə qan görən qadına deyilir. Belə ki, on gündən artıq qan görsə və gördüyü qanların hamısı eyni olsa, öz qohumlarının adətlərini (vəqtiyyədə deyildiyi kimi) heyz, qalanlarını isə istihazə hesab etməlidir.

**M:497.** Əgər mübtədiə on gündən artıq qan görsə və onun bir neçə günündə heyz, bir neçə günündə isə istihazə əlamətləri olsa, bu halda heyz əlamətləri olan qan üç gündən az və ya on gündən çox olmasa, heyz əlamətləri olan qan heyz və heyz əlamətləri olmayan qan istihazədir. Amma əgər heyz əlamətləri olan qandan on gün keçməmişdən qabaq, yenidən heyzin əlamətləri olan qan görsə (məsələn, beş gün qara qan sonra isə doqquz gün sarı qan, daha sonra beş

gün qara qan görsə), bu halda birinci gördüyü və heyzin əlamətləri olan qanın əvvəlindən heyzi hesab etməli, sayında isə öz qohumlarına müraciət edib qalanlarını istihazə hesab etməlidir.

**M:498.** Mübtədiə on gündən çox qan görsə və onun bir neçə günündə heyzin, bir neçə günündə isə istihazənin əlamətləri olsa, bu halda heyzin əlamətləri olan qan üç gündən az, yaxud on gündən çox olsa heyzin əlamətləri olan qanın əvvəlini heyzin əvvəli hesab etməli, heyz günlərinin sayında isə öz qohumlarına müraciət edib, qalanları isə istihazə hesab etməlidir.

## *6-NASİYƏ*

**M:499.** Nasiyə–öz adətini unudan qadına deyilir. Belə qadın əgər on gündən artıq qan görsə, bu qanın heyz əlamətləri olduğu günləri–on günə qədər heyz, qalanlarını isə istihazə hesab etməlidir. Amma heyzi, əlamətləri vasitəsilə ayırd edə bilməsə, ehtiyat-vacibə görə ilk yeddi günü heyz, qalanını isə istihazə hesab etməlidir.

## *HEYZİN MÜXTƏLİF MƏSƏLƏLƏRİ*

**M:500.** Mübtədiə, müztəribə, nasiyə və ədədiyyə adəti olan qadınlar qan görsələr və bu qanda heyzin əlamətləri olsa, yaxud üç gün davam edəcəyinə yəqinlikləri olsa, ibadətləri tərk etməlidirlər. Sonradan heyz olmadığını başa düşsələr, tərk etdikləri ibadətlərin qəzasını etməlidirlər. Amma əgər üç gün müddətində davam edəcəyinə yəqinlikləri olmasa və heyzin əlamətləri də onda olmasa, ehtiyat-vacibə görə üç günə qədər istihazənin əməllərini yerinə yetirməli, haizə haram olan işləri tərk etməlidirlər. Əgər üç gündən əvvəl pak olmasalar, heyz hesab etməlidirlər.

**M:501.** Heyzində adəti olan qadın–istər heyzin vaxtında, istərsə də heyzin günlərinin sayında, yaxud həm vaxt, həm də sayında adəti olarsa–əgər iki ayın hər birində öz adətinin əksinə olaraq qan görsə və onun vaxtı, yaxud günlərinin sayı, yaxud həm sayı, həm də vaxtı eyni olsa, adəti bu iki ayda gördüyünə qayıdır. Məsələn, əvvəlki ayın birindən yeddisinə qədər qan görüb pak olurdusa, bu halda ikinci ayın onundan on yeddisinə qədər qan görüb pak olsa, bu halda ayın onundan on yeddisinə qədər onun adətidir.

**M:502.** Bir aydan məqsəd ayın əvvəlindən axırına qədər deyil, qanın görünməyə başlamasından otuz gün keçənə qədərdir.

**M:503.** Adət üzrə ayda bir dəfə qan görən qadın, əgər bir ayda iki dəfə qan görsə və onda heyzin əlamətləri olsa, onda arada pak olduğu günlərin sayı on gündən az olmasa hər ikisini heyz hesab etməldir.

**M:504.** Əgər üç gün, yaxud üç gündən artıq heyzin əlamətləri olan qan görüb, sonra on gün, yaxud daha artıq istihazənin əlamətləri olan qan görsə və

yenidən üç gün heyz əlamətləri olan qan görsə, (heyzin əlamətləri olan) birinci və axırıncı qalanları heyz hesab etməlidir.

**M:505.** Əgər qadın on gündən qabaq pak olsa və batinində qan qalmadığını bilsə, hətta on gün tamam olmamışdan qabaq yenidən qan görəcəyinə gümanı olsa da öz ibadətləri üçün qusul etməlidir. Amma əgər on gün tamam olmamışdan qabaq yenidən qan görəcəyinə yəqini olsa, qusul etməməlidir: namaz qıla bilməz və haizin hökmlərinə əməl etməlidir.

**M:506.** Əgər qadın on gündən qabaq pak olsa və batinində qan olmasına ehtimal versə, gərək bir miqdar pambığı ovrətinin daxilinə qoysun, bir az gözləyib sonra çıxartsın: əgər pakdırsa qusul edib ibadətlərini yerinə yetirməlidir; yox əgər pak deyilsə (bulaşıbsa), hətta əgər sarı rəngli suya bulaşmış olsa da, bu halda heyzində adəti yoxdursa və ya adəti on gündürsə, gözləməlidir ki, əgər on gündən tez pak olsa qusul etsin. Və əgər (onuncu günün tamam olduğu vaxt) pak olsa, yaxud qanı on gündən keçsə, on günün tamam olduğu vaxt qusul etməlidir. Əgər adəti on gündən azdırsa, on günü tamam olmamışdan qabaq, yaxud tamam olduğu vaxt pak olacağını bilsə qusul etməməlidir. Əgər qanın on gündən keçəcəyini ehtimal versə, ehtiyat-vacib budur ki, bir gün müddətinə qədər ibadətlərini tərk etsin. Ondan sonra on gün müddətinə qədər ibadətlərini tərk edə bilər. Daha yaxşı olar ki, on günə qədər haizə haram olan işləri tərk edib, müstəhazənin əməllərini yerinə yetirsin. Əgər on gün tamam olmamışdan qabaq, yaxud on gün tamam olan vaxt qandan pak olsa, hamısı heyzdir; yox əgər on gündən keçsə, bu halda öz adəti müddətini heyz, qalanlarını isə istihazə hesab edib adət günlərindən sonra yerinə yetirmədiyi ibadətləri qəza etməlidir.

**M:507.** Əgər bir neçə günü heyz hesab edib ibadət etməsə, sonradan heyz olmadığını başa düşsə, gərək o gündə yerinə yetirmədiyi namaz və orucun qəzasını etsin. Əgər bir neçə günü heyz olmaması gümanı ilə ibadət edib sonradan heyz olmasını başa düşsə, o günlərdə oruc tutmuş olsa, tutduğu orucun qəzasını etməlidir).

## *NİFAS*

**M:508.** Uşağın ilk üzvü ananın bətnindən çıxdığı andan e’tibarən qadından gələn on gündən qabaq, yaxud on gün tamam olan müddətdə kəsilən hər qan nifas qanıdır. Nifas halında olan qadına “nəfsa’ deyilir.

**M:509.** Qadının uşağın ilk üzvünün çölə gəlməsindən qabaq gördüyü qan nifas deyildir.

**M:510.** (Qanın nifas sayılmasında) uşağın xilqətinin kamil olması şərt deyil; hətta laxtalanmış qan surətində də bətndən xaric olsa və qadının özü bilsə, yaxud mamalardan dörd nəfəri “əgər bətndə qalsaydı, insan olacaqdı”, desə, on gün müddətində gördüyü qan nifas qanıdır.

**M:511.** Nifas qanı bir anlıqdan artıq gəlməyə bilər. Amma on gündən də artıq ola bilməz.

**M:512.** Əgər bir şeyin siqt olub-olmamasında şəkk etsə, yaxud siqt olan şeyin qalacağı halda insan olub-olmayacağında şəkk etsə, axtarış aparması lazım deyil; ondan xaric olan qan şər'ən nifas qanı deyil.

**M:513.** Haizə haram olan işlər, o cümlədən məsciddə dayanmaq, Məscidül-Hərama, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) məscidinə getmək, bədənin hər hansı yerini Qur'anın yazısına vurmaq və s. kimi işlər nifaslı qadına da haramdır. Haiz qadına vacib, müstəhəb və məkruh olan əməllər, eynilə nifaslı qadına da vacib, müstəhəb və məkruhdur.

**M:514.** Nifas halında olan qadına verilən talaq batil və bu halda yaxınlıq etmək haramdır. Əgər əri onunla (nifas halında) yaxınlıq etsə, ehtiyat-müstəhəbbə görə heyz bəhslərində deyilənlərə uyğun olaraq kəffarə versin.

**M:515.** Qadın nifas qanından pak olduqda, qusul etməli, öz ibadətlərini yerinə yetirməlidir. Əgər yenidən qan görsə və onun qan görüb pak olduğu günlər üst-üstə on gün, yaxud on gündən az olarsa, o günlərin hamısı nifas sayılır. Əgər pak olduğu günlərdə oruc tutmuş olsa, qəzasını yerinə yetirməlidir.

**M:516.** Əgər qadın nifas qanından pak olub batinində qan qalmasına ehtimal versə, bir miqdar pambığı ovrətinə daxil edib bir az gözləməli, sonra çıxarıb baxmalıdır: əgər pakdırsa, öz ibadətləri üçün qusul etməlidir.

**M:517.** Əgər qadının nifas qanı on gündən keçsə, bu halda heyzdə adəti varsa, adətlərinin günü qədər nifas, qalanlarını isə istihazə hesab etməlidir. Amma əgər heyzdə adəti yoxdursa, on günə qədər nifas, qalanları isə istihazə sayılır. Ehtiyat-müstəhəb budur ki, adəti olan şəxs adətindən sonrakı gündən, adəti olmayan isə doğuşun onuncu günündən on yeddinci gününə qədər istihazədə deyilən işləri yerinə yetirsin, nifaslı qadına haram olan işləri işə tərk etsin.

**M:518.** Heyz adəti on gündən az olan qadın əgər adət günlərindən artıq nifas qanı görsə, adət günləri qədərində nifas hesab etməlidir. Ehtiyat-vacib budur ki, bir, iki və yaxud on günə qədər ibadəti tərk etsin. Əgər on gündən keçsə adət günləri heyz, qalanları isə istihazədir. Əgər ibadətləri tərk etmiş olsa, qəzasını yerinə yetirməlidir.

**M:519.** Heyzdə adəti olan qadın əgər doğuşdan sonra bir ay, yaxud ondan da artıq müddətdə ardıcıl olaraq qan görsə, adət günləri qədəri nifasdır. Nifasdan sonra gördüyü qandan on günü adət günlərində də olsa istihazədir. Məsələn, əgər bir qadının heyz adəti hər ayın iyirmisindən iyirmi yeddisinə qədərdirsə, bu halda ayın onunda uşaq doğsa və bir ay, yaxud ondan da artıq ardıcıl olaraq qan görsə, ayın on yeddisinə qədər nifas, on yeddisindən on gün sonraya qədər hətta adət günlərində (iyirmisindən iyirmi yeddisiə qədər) gördüyü qan istihazədir. on gün keçdikdən sonra əgər gördüyü qan adət günlərində olsa heyzdir–istər heyzin

əlamətləri olsun, istərsə də olmasın; və əgər adət günlərində olmasa, hətta heyzin əlamətləri onda olsa da, onu istihazə hesab etməlidir.

**M:520.** Heyzdə adəti olmayan bir qadın əgər doğuşdan sonra bir ay, yaxud daha artıq müddətdə qan görsə, onun əvvəldəki on gününü nifas, ikinci on gününü istihazə və ondan sonra gördüyü qanda heyz əlaməti olsa heyz, əks halda istihazə hesab etməlidir.

## *MƏSS-MEYYİT QUSLU*

**M:521.** Əgər bir kəs bədəni soyumuş və qusul verilməmiş bir meyyitə məss etsə, yə'ni bədəninin bir hissəsini o meyyitə vursa, məss-meyyit quslu eləməlidir–istər yuxu halında məss etsin, istərsə də ayıq; istər ixtiyari olaraq məss etsin, istərsə də ixtiyarsız. Hətta əgər onun dırnağı meyyitin dırnağına, sumüyü də meyyitin sümüyünə dəysə, qusul etməlidir. Amma ölmüş heyvana məss etsə məss-meyyit quslu vacib deyil.

**M:522.** Bədəni tamamilə soyumamış ölüyə məss etdikdə–hətta bədəninin soyumuş hissələrinə məss etsə də–qusul vacib deyildir.

**M:523.** Əgər insan öz tüklərini meyyitin bədəninə vursa, bu halda "meyyitə məss etmişdir"-deyilmərsə, yaxud öz bədənini meyyitin tüklərinə və ya öz tüklərini meyyitin tüklərinə vursa qusul vacib deyil.

**M:524.** Ölmüş uşağa–hətta dörd ayı tamam olan siqt olunmuş uşağa məss etdikdə məss-meyyit quslu vacibdir. Hətta daha yaxşı olar ki, dörd ayı tamam olmazdan qabaq siqt olunan uşağa məss etdikdə də qusul alınsın. Buna əsasən, əgər dörd aylıq uşaq ölü halda dünyaya gəlsə, anası məss-meyyit quslu almalıdır. Hətta əgər dörd aydan da az olsa, yaxşı olar ki, onun anası qusul etsin.

**M:525.** Anası öləndən sonra dünyaya gələn uşaq həddi-büluğa çatdıqdan sonra məss-meyyit quslu almalıdır.

**M:526.** Əgər insan üç quslu tamamilə verilmiş bir meyyitə məss etsə, ona məss-meyyit quslu vacib deyil. Amma əgər üç quslu tamam olmamışdan əvvəl onun bədəninin bir hissəsinə məss etsə–hətta üç qusul həmin hissədə tamam olsa da belə məss-meyyit quslu etməlidir.

**M:527.** Əgər dəli, yaxud həddi-büluğa çatmamış uşaq bir meyyitə məss etsə, dəli ağıllanandan, uşaq isə həddi-büluğa çatandan sonra məss-meyyit quslu almalıdır.

**M:528.** Əgər diri insanın bədənindən, yaxud quslu verilməmiş ölü insanın bədənindən sümüyü olan bir hissə ayrılsa və bu hissəyə qusul verilməzdən qabaq insan ona məss etsə, gərək məss-meyyit quslu etsin. Amma əgər ayrılan hissənin sümüyü olmasa onu məss etdikdə qusul vacib deyil.

**M:529.** Ölü insandan ayrılan quslu verilməmiş diş və sümüyə məss etdikdə ehtiyat-vacibə əsasən qusul alınmalıdır. Amma diri insandan ayrılan əti olmayan sümük və dişə məss etdikdə, qusul almaq vacib deyil.

**M:530**. Məss-meyyit quslunu eynilə cənabət quslu kimi almaq lazımdır. Amma məss-meyyit qusulu alan bir kəs namaz qılmaq istəsə, dəstəmaz da almalıdır.

**M:531.** Əgər insan bir neçə meyyitə məss etsə, yaxud bir meyyiti bir neçə dəfə məss etsə bir qusul kifayətdir.

**M:532.** Meyyitə məss etdikdən sonra qusul etməyən bir şəxsin məsciddə dayanması, cima etməsi, vacibi səcdəsi olan Surələr oxumasının eybi yoxdur. Amma namaz və bu kimi işlər üçün qusul və dəstəmaz almalıdır.

## *MÖHTƏZİRİN HÖKMLƏRİ*

**M:533.** Ehtizar, yə'ni can verən halda olan müsəlmanı–istər kişi olsun, istərsə də qadın, istər böyük olsun istərsə də kiçik–arxası üstə elə yatırtmalıdırlar ki, ayaqlarının altı qiblə tərəfə olsun. Əgər onu tamamilə bu qaydada yatırtmaq mümkün olmasa, mümkün olan qədər rəcaən[10] bu göstərişə əməl etməlidirlər. Əgər onu, qeyd olunan kimi ümumiyyətlə yatırtmaq mümkün olmazsa, rəca niyyəti ilə üzü qibləyə oturtmalıdırlar. Bu da mümkün olmasa yenə də rəca niyyəti ilə onu sağ, yaxud sol böyrü üstə üzü qibləyə uzatmalıdırlar.

**M:534.** Ehtiyat-vacib budur ki, nə qədər ki, meyyitin quslu tamam olmayıb onu üzü qibləyə yatırtsınlar. Amma quslu tamam olandan sonra yaxşı olar ki, onu meyyit namazı qılınan vaxtdakı kimi yatırtsınlar.

**M:535.** Can verən insanı üzü qibləyə döndərmək hər müsəlmana vacibdir və can verənin qəyyumundan icazə almaq lazım deyildir.

**M:536.** Müstəhəbdir ki, can vermə halında olan hər kəsə şəhadət kəlmələrini, on iki İmam (əleyhis-salam)-ın adını və s. kimi haqq əqidələrini elə təlqin etsinlər ki, başa düşsün. Həmçinin, müstəhəbdir ki, qeyd olunan kəlmələri öldüyü ana qədər təkrar etsinlər.

**M:537.** Müstəhəbdir ki, aşağıdakı duanı can verən şəxsə elə təlqin etsinlər ki, başa düşsün:

أَللّٰهُمَّ اغفِر لِىَ الكَثِيرَ مِن مَعَاصِيكَ وَأَقبِل مِنِّى اليَسِيرَ مِن طَاعَتِكَ يَا مَن يَقبَلُ اليَسِيرَ وَيَعفُو عَنِ الكَثِيرِ اِقبِل مِنِّىاليَسِيرَ وَاعفُ عَنِّى الكَثِيرَ اِنَّكَ اَنتَ العَفُوُّ الغَفُورُ اللّٰهُمَّ ارحَمنِى فَاِنَّكَ رَحِيمٌ

**M:538.** Müstəhəbdir ki, ağır can verən insanı narahat olmadığı halda namaz qıldığı yerə aparsınlar.

**M:539.** Müstəhəbdir ki, can verənin rahat olması üçün başının üstündə mübarək "Yasin", "Saffat", "Əhzab" Surələrini, "Ayətəl-kürsü"nü, həmçinin

---

[10] Rəcaən–Mükəlləfin hər hansı bir əməli, onu Allah dərgahına yaxınlaşdırmasını ehtimal verərək yerinə yetirdiyi əməldir.

“Ə’raf” Surəsinin 54-cü ayəsini və “Bəqərə’ Surəsinin axırıncı üç ayəsini oxusunlar. Ümumiyyətlə, Qur’andan mümkün olan qədər oxusunlar.

**M:540.** Can verən şəxsi tək qoymaq, onun qarnının üstünə bir şey qoymaq, cənabətli, heyzli şəxslərin onun yanında olması, həmçinin onun yanında çox danışmaq, ağlamaq, qadınları can verənin yanında tək qoymaq məkruhdur.

### *ÖLÜMDƏN SONRANIN HÖKMLƏRİ*

**M:541.** Ölümdən sonra müstəhəbdir ki, meyyitin ağzını bağlasınlar (ki, açıq qalmasın), gözlərini, çənəsini bağlasınlar, əllərini və ayaqlarını uzatsınlar, onun üstünə parça çəksinlər. Əgər gecə ölübsə, öldüyü yerdə çıraq yandırsınlar və onu dəfn etmək üçün mö’minlərə xəbər versinlər. Onu dəfn etməkdə tələssinlər. Amma onun ölümünə yəqinlikləri olmasa, gözləməlidirlər ki, dəqiq mə’lum olsun. Əgər meyyit hamilə olsa və qarnındakı uşaq diri olsa, dəfn işini o qədər tə’xirə salmalıdırlar ki, onun sol tərəfdən qarnını yarıb uşağı çölə çıxartsınlar, sonra yarılan yeri tiksinlər.

### *QUSUL, KƏFƏN, NAMAZ VƏ DƏFNİN HÖKMLƏRİ*

**M:542.** Müsəlman şəxsə, hətta on iki İmama inanan şiə olmasa belə, qusul verib, kəfənə bükmək, namaz qılıb, dəfn etmək hər bir mükəlləf şəxsə vacibdir. Əgər bir neçə nəfər bu işləri yerinə yetirsə, başqalarından götürlər. Amma heç kəs bu işi görməsə, hamı günah etmişdir.

**M:543.** Əgər bir kəs meyyitin qusul-kəfən işlərinə məşğul olsa başqalarının bu işə başlaması vacib deyil. Amma biri bu işi başlayıb yarımçıq qoysa, başqaları tamamlamalıdır.

**M:544.** Əgər insan başqasının meyyitin kəfən və qusul işlərinə məşğul olmasını yəqin etsə, bu işlərə başlaması vacib deyil. Amma şəkk və ya güman etsə gərək bu işə başlasın.

**M:545.** Bir kəs meyyitin qusl, kəfən, namaz, dəfnini batil yerinə yetirildiyini bilsə, bu işləri yenidən yerinə yetirməlidir. Amma əgər batil olmasını güman etsə, yaxud səhih olub-olmamasında şəkk etsə, bu işləri yerinə yetirməsi lazım deyil.

**M:546.** Meyyitin qusl, kəfən, namaz və dəfni üçün onun qəyyumundan icazə alınmalıdır.

**M:547.** Qadının qusul, kəfən, namaz və dəfn işlərindəki qəyyumu onun əridir. Ondan (ərindən) sonra meyyitdən irs aparan kişilər irs aparan qadınlardan irəlidir. Hər kəs irs aparmaqda irəlidirsə, bu işlərdə də irəlidir.

**M:548.** Əgər bir kəs “mən meyyitin canişini və ya qəyyumuyam” və ya “meyyitin vəlisi mənə icazə vermişdir ki, onun qusul, kəfən və dəfn işlərini yerinə yetirəm” desə, bu halda başqası “mən meyyitin vəlisi və canişiniyəm”,

yaxud “meyyitin vəlisi mənə icazə vermişdir”-deməsə, meyyitin bu kimi işlərini yerinə yetirmək həmin şəxsin öhdəsindədir.

**M:549.** Əgər meyyit, əvvəlcədən özünün qusul, kəfən, dəfn və namazı üçün qəyyumundan başqa bir kəsi tə’yin etsə, ehtiyat-vacib budur ki, bu işdə meyyitin qəyyumu və icazəli olan şəxs–hər ikisi icazə versin. Və meyyitin bu işləri yerinə yetirməsini müəyyən etdiyi şəxsin bu vəsiyyəti qəbul etməsi lazım deyil. Amma qəbul etsə, gərək ona əməl etsin.

## *MEYİT QUSLUNUN HÖKMLƏRİ*

**M:550.** Meyyitə üç qusl: 1-sidr qatılmış su ilə; 2-kafur qartılmış su ilə və 3-xalis su ilə qusul vermək vacibdir.

**M:551.** Sidr və kafur həddindən artıq çox olmamalıdır ki, suyu muzafa döndərsin; habelə, həddindən artıq az da olmamalıdır ki, ona sidr və kafur qatılmamış kimi nəzərə çarpsın.

**M:552.** Əgər sidr və kafur lazım olan miqdarda tapılmasa ehtiyat-vacibə görə tapılan qədəri suya töksünlər. Amma o qədər az olmamalıdır ki, ümumiyyətlə sidr və kafur suyu deyilə bilməsin.

**M:553.** Əgər həcc üçün ehram bağlayan bir kəs Səfa və Mərva arasındakı sə’y əməlini tamamlamamışdan qabaq ölsə, ona kafur qatılmış su ilə qusul verilməməlidir: onun yerinə xalis su ilə qusul verilməlidir. Həmçinin əgər ömrə ehramında, saçları qırxmamışdan qabaq ölsə də bu qayda ilə.

**M:554.** Əgər sidr və kafur, yaxud ikisindən biri tapılmasa, yaxud istifadəsi caiz olmasa (məsələn qəsbi olsa), gərək mümkün olmayan hər birinin yerinə meyyitə xalis su ilə qusul versinlər.

**M:555.** Meyyitə qusul verən şəxs müsəlman, on iki İmam şiəsi, aqil, həddi-büluğa çatmış və qusul məsələlərini bilən olmalıdır.

**M:556.** Meyyitə qusul verən şəxs “qürbətən-iləllah” qəsdi, yə’ni Allahın əmrini yerinə yetirmək niyyəti ilə etməlidir və əgər bu niyyətlə üçüncü quslun axırına qədər qalsa, niyyətini təzələməsi lazım deyil.

**M:557.** Müsəlman uşağına, hətta zinadan da olsa qusul vermək vacibdir. Kafir və onun övladına qusul, kəfən, dəfn işlərini etmək caiz deyildir. Uşaqlıqda dəli olub elə bu halda da həddi-büluğa çatıb ölən bir kəsin ata-anası, yaxud onlardan biri müsəlman olsa, ona qusul verməlidir. Əgər onlardan heç biri müsəlman olmasa ona qusul vermək caiz deyildir.

**M:558.** Siqt olunmuş uşağa, dörd aylıq və daha artıq olarsa, qusul verilməlidir. Amma dörd ayı tamam olmasa, bir parçaya büküb qusul verilmədən dəfn olunmalıdır.

**M:559.** Əgər kişi qadına və ya qadın kişiyə qusul versə batildir. Amma arvad öz ərinə, ər də arvadına qusul verə bilər. Amma ehtiyat-müstəhəb budur ki, arvad öz ərinə, ər də öz arvadına qusul verməsin.

**M:560.** Kişi yaşı üçdən keçməmiş ölü qız uşağına, qadın da yaşı üçdən keçməyən oğlan uşağına qüsul verə bilər.

**M:561.** Əgər ölmüş kişiyə qusul vermək üçün kişi tapılmazsa, ona qohumluq səbəbi ilə məhrəm olan qadınlar (ana, bacı, bibi, xala), yaxud süd verməklə məhrəm olan qadınlar meyyitə paltarda qusul verməlidirlər. Həmçinin əgər ölmüş qadına qusul vermək üçün qadın tapılmazsa, onunla qohumluq səbəbi ilə, yaxud süd vasitəsilə məhrəm olan kişilər ona paltarda qusul verə bilər.

**M:562.** Əgər meyyit və ona qusul verən–hər ikisi kişi, yaxud hər ikisi qadın olsa yaxşı olar ki, ovrətdən başqa meyyitin başqa yerləri açıq olsun.

**M:563.** Meyyitin ovrətinə baxmaq haramdır. Ona qusul verən kəs onun ovrətinə baxsa, günah etmişdir, amma verdiyi qusul batil olmaz.

**M:564.** Əgər meyyitin bədəninin hər hansı bir yeri nəcis olsa o yer, qusul verilməmişdən qabaq suya çəkilməlidir. Ehtiyat-vacib budur ki, meyyitin bədəninin hər yeri qusla başlamazdan qabaq pak olsun.

**M:565.** Meyyitə verilən qusul cənabət quslu kimidir. Ehtiyat-vacib budur ki, nə qədər ki, tərtibi qusul mümkündür, irtimasi qusul verməsinlər. Amma tərtibi qusulda bədənin hər üç qismətindən birini kəsir[11] suda suya batırıb qusul vermək caizdir.

**M:566.** Heyz və ya cənabət halında ölən bir kəsə heyz və cənabət qusulu vermək lazım deyil: meyyit quslu kifayətdir.

**M:567.** Meyyitə qusul vermək üçün muzd almaq caiz deyil. Amma quslun müqəddimati işləri üçün muzd almaq haram deyil.

**M:568.** Əgər su tapılmasa və yaxud suyun istifadə olmasında müəyyən maneələr olsa hər quslun əvəzindən o meyyitə bir təyəmmüm verilməlidir.

**M:569.** Meyyitə təyəmmüm edən kəs öz əllərini yerə vurub meyyitin üzünə və əllərinin arxasına çəkməlidir. Əgər mümkün olsa, ehtiyat-vacibə görə meyyitin əlləri ilə də ona təyəmmüm versin.

### *MEYİTİN KƏFƏNİNİN HÖKMLƏRİ*

**M:570.** Müsəlman meyyiti gərək long, köynək və sərtasər adlanan üç parça ilə kəfənə bükülsün.

**M:571.** Long göbəkdən dizlərə qədər olmalı, o qədər yerin hər tərəfini örtməlidir. Yaxşı olar ki, sinəsindən ayağının üstünə qədər çatsın. Ehtiyat-vacibə görə gərək köynək çiyindən baldırın yarısına (dizlə topuğun arasına) qədər örtsün. Daha yaxşı olar ki, ayağın üstünə də çatsın. Sərtasərin uzunluğu o qədər olmalıdır ki, onun iki tərəfdən başını bağlamaq olsun. Eni də o qədər olmalıdır ki, (meyyiti onunla) bükdükdə bir tərəfi o biri tərəfin üstünə gəlsin.

---

[11]Kürrdən çox olan su

**M:572.** Göbəkdən dizlərə qədər örtən ləngin, həmçinin köynəyin çiyindən baldırın yarısına qədər örtən hissəsi kəfənin vacib hissəsidir. Bu miqdardan artıq kəfənin müstəhəb hissələridir.

**M:573.** Əgər meyyitin vərəsələri həddi-büluğa çatmış olsalar və kəfənin (əvvəldəki məsələdə deyilən) vacibi miqdardan artığını onların irs paylarından götürülməsinə icazə versələr, eybi yoxdur. Ehtiyat-vacib budur ki, kəfənin vacib miqdarından artıq, həmçinin ehtiyatən lazım olan qədəri baliğ olmamış varisin payından götürməsinlər.

**M:574.** Əgər bir kəs kəfənin müstəhəb hissəsini, onun malının üçdə birindən götürülməsini, yaxud malının üçdə birinin onun özünə xərclənməsini vəsiyyət etsə, amma onun məsrəf olunacağı yerləri müəyyən etməsə, yaxud onun fəqət müəyyən hissəsinin məsrəf olunacağı yerləri müəyyən etsə, bu halda kəfənin müstəhəb miqdarını onun malının üçdə birindən götrə bilərlər.

**M:575.** Qadının kəfəni–hətta özünün malı da olsa, ərinin öhdəsinədir. Həmçinin əgər qadına təlaq kitabında deyildiyi kimi, rəc"i təlaq versələr və iddəsi tamam olmamışdan qabaq ölsə, onun əri kəfənini verməlidir. Əgər onun əri həddi-büluğa çatmamış və ya dəli olsa, ərinin qəyyumu (vəlisi) onun malından arvadının kəfənini verməlidir.

**M:576.** Meyyitin sağlığında həyat xərcləri qohumlarına vacib olsa da, öləndən sonra kəfəni onlara vacib deyil.

M:**577.** Ehtiyat-vacibə görə kəfənin hər üç parçası o qədər nazik olmamalıdır ki, meyyitin bədəni görünsün.

**M:578.** Əgər başqa bir şey tapılmasa da, meyyiti qəsbi şeylə kəfənə bükmək caiz deyildir. Əgər meyyitin kəfəni qəsbi olsa və onun sahibi razı olmasa, hətta onu dəfn etmiş olsalar belə, kəfəni onun bədənindən çıxartmaq lazımdır. Amma ehtiyata əsasən, çarəsizlik halında (yə'ni heç nə tapılmadıqda) murdar olmuş heyvanın dərisində kəfənə bükmək olar.

**M:579.** Meyyiti nəcis şey, xalis ipək, yaxud qızıldan toxunmuş parça ilə kəfənə bükmək caiz deyildir, amma çarəsizlik halında eybi yoxdur.

**M:580.** Meyyiti əti haram olan heyvanların tükündən, yaxud yunundan toxunmuş parça ilə kəfənə bükmək ixtiyar halında caiz deyildir. Amma əgər əti halal olan heyvanın dərisindən (kəfən üçün) müəyyən qaydada paltar hazırlasalar, yaxud kəfən əti halal olan heyvanın tükündən və yunundan da olsa, eybi yoxdur. Amma ehtiyat-müstəhəb budur ki, bu ikisi ilə də kəfənə bükməsinlər.

**M:581.** Əgər meyyitin kəfəni onun öz nəcisi, yaxud başqa bir nəcasətlə nəcis olsa, bu halda kəfən zay olmazsa, nəcis yeri yumalı, yaxud kəsməlidirlər. Amma əgər qəbrə qoymuş olsalar, yaxşı olar ki, kəssinlər. Hətta meyyitin qəbirdən çıxarılması ona qarşı hörmətsizlik olarsa, bu halda həmin yeri kəsmək

vacibdir. Əgər onu yumaq və ya kəsmək mümkün olmazsa, dəyişdirilməsi mümkün olan halda dəyişdirilməlidir.

**M:582.** Həcc, yaxud ömrə üçün ehram bağlayan bir kəs ölsə, başqaları kimi kəfənə bükülməlidir; başının və üzünün örtülməsinin eybi yoxdur.

**M:583.** Müstəhəbdir ki, insan sağlığında kəfən, sidr və kafurunu hazırlasın.

## *HƏNUTUN HÖKMLƏRİ*

**M:584.** Qusuldan sonra vacibdir ki, meyyitə hənut vursunlar, yə’ni alnına, əllərinin içinə, dizlərinin gözünə, ayaqlarının iki baş barmaqlarının ucuna kafur sürtsünlər. Müstəhəbdir ki, meyyitin burnunun ucuna da kafur sürtsünlər. Kafur təzə və əzilmiş olmalıdır. Əgər köhnəlmək səbəbilə ətri getsə, kifayət deyildir.

**M:585.** Meyyitə hənut vuranda səcdə üzvləri arasında tərtibə riayət etmək lazım deyildir. Amma ehtiyat-müstəhəb budur ki, əvvəl kafuru meyyitin alnına vursunlar.

**M:586.** Daha yaxşı olar ki, meyyitə, kəfənə bükməmişdən əvvəl hənut vursunlar. Amma kəfənə bükmə əsnasında və ondan sonra da vurmağın maneəsi yoxdur.

**M:587.** Həcc üçün ehram bağlayan bir kəs, Səfa və Mərva arasındakı sə’y əməlini yerinə yetirməyi tamamlamazdan əvvəl ölsə, ona hənut vurmaq caiz deyil. Həmçinin əgər ömrə ehramında başının tükünü qısaltmaqdan qabaq ölsə, ona hənut vurmaq olmaz.

**M:588.** Əri ölən və iddəsi tamam olmayan qadın özünü ətirləməsinin haram olmasına baxmayaraq, ölərsə, ona hənut vurmaq vacibdir.

**M:589.** Ehtiyat-vacib budur ki, meyyitə müşk, ənbər, ovd və s. ətirlər vurmasınlar, yaxud hənut edəndə onları kafura qarışdırmasınlar.

**M:590.** Müstəhəbdir ki, Həzrət Seyyidüş-şühəda (əleyhissalam)-ın türbətindən bir qədər kafura qarışdırsınlar. Amma gərək ondan ehtiramsızlıq olan bədən üzvlərinə vurmasınlar. Həmçinin, türbət o qədər çox olmamalıdır ki, kafurla qarışanda daha ona kafur deyilməsin.

**M:591.** Əgər kafur qusul və hənuta kifayət etməsə, bu halda qusul suyuna qarışdırmağı qabağa salmaq lazımdır; və əgər yeddi üzvün hənutuna çatmasa, alnına vurmağı qabağa salmaq lazımdır.

**M:592.** Müstəhəbdir ki, iki yaş, tər-təzə çubuğu meyyitlə yanaşı qəbrə qoysunlar.

## *MEYYİT NAMAZININ HÖKMLƏRİ*

**M:593.** Müsəlman meyyitə–hətta uşaq da olsa belə–namaz qılmaq vacibdir, amma gərək uşağın ata-anası, yaxud onlardan biri müsəlman olsun, altı yaşı da tamam olmuş olsun.

**M:594.** Meyyit namazı qusl, kəfən və hənut işlərindən sonra qılınmalıdır. Əgər bu işlərdən qabaq və ya bu işlər əsnasında hətta unutqanlıq, yaxud məsələni bilməməzlik üzündən qılınmış olsa, kifayət deyildir.

**M:595.** Meyyit namazı qılmaq istəyən şəxsin dəstəmaz, qusl, yaxud təyəmmüm alması, bədəninin, yaxud paltarının pak olması lazım deyil. Hətta onun paltarı qəsbi də olsa, eybi yoxdur. Amma ehtiyat-müstəhəbbə görə sair namazlarda riayət olunmalı məsələlər bunda da riayət olunsun.

**M:596.** Meyyitə namaz qılan şəxs üzü qibləyə dayanmalıdır. Həmçinin vacibdir ki, meyyiti onun qarşısında arxası üstə elə yatırtsınlar ki, başı namaz qılanın sağ tərəfində, ayağı isə sol tərəfində olsun.

**M:597.** Namaz qılanın məkanı meyyitin qoyulduğu yerdən alçaq və ya uca olmamalıdır. Amma azacıq alçaq və ya uca olsa, eybi yoxdur.

**M:598.** Namaz qılan şəxs meyyitdən uzaq olmamalıdır. Amma əgər meyyit namazını camaatla qılan şəxs meyyitdən uzaq olsa və camaat namazının cərgələri bir-birinə müttəsil olsa, eybi yoxdur.

**M:599.** Meyyit namazı qılan şəxs meyyitlə üzbəüz durmalıdır. Amma əgər namaz camaatla qılınsa və camaat namazının cərgələri iki tərəfdən meyyiti ötüb keçsə, meyyitin müqabilində durmayan şəxslərin namazının eybi yoxdur.

**M:600.** Meyyitlə namaz qılan şəxsin arasında pərdə, divar və s. kimi şeylər olmamalıdır. Amma əgər meyyit tabut və bu kimi şeylərin içində olsa, eybi yoxdur.

**M:601.** Meyyit namazı qılınan vaxt meyyitin ovrəti örtülməlidir. Əgər onu kəfənə bükmək mümkün olmazsa, (namaz vaxtı) ovrətini hətta taxta, kərpic və s. kimi şeylərlə örtmək lazımdır.

**M:602.** Meyyit namazı ayaq üstə, qürbətən iləllah niyyəti ilə qılınmalı və niyyətdə meyyit müəyyənləşdirilməlidir. Məsələn, "bu meyyitə namaz qılıram, qürbətən iləllah"-deyə niyyət etməlidir.

**M:603.** Əgər meyyitə ayaq üstə namaz qıla bilən bir kəs tapılmazsa, oturan halda namaz qılan şəxs ona namaz qıla bilər.

**M:604.** Əgər meyyit əvvəldə müəyyən bir şəxsin ona namaz qılmasını vəsiyyət etmiş olsa, ehtiyat-vacib budur ki, o şəxs meyyitin qəyyumundan icazə alsın. Qəyyumun da ehtiyat-vacibə əsasən icazə verməsi vacibdir.

**M:605.** Bir meyyitə bir neçə dəfə namaz qılmaq məkruhdur. Amma əgər meyyit elm, təqva əhli olarsa, məkruh deyil.

**M:606.** Əgər meyyiti qəsdən, yaxud unutqanlıq üzündən, və ya müəyyən bir üzr səbəbi ilə namazsız dəfn etmiş olsalar, yaxud dəfn etdikdən sonra qılınan namazın batil olması mə'lum olarsa, nə qədər ki, onun cəsədi çürüməyib, vacibdir ki, meyyit namazında deyilən şərtlər daxilində onun qəbrinə namaz qılsınlar.

## *MEYYİT NAMAZININ QAYDALARI*

**M:607.** Meyyit namazının beş təkbiri vardır və əgər onlar aşağıdakı tərtiblə deyilsə, kifayətdir: Niyyətdən və birinci təkbirdən sonra desin:

اَشهَدُ اَن لاَاِلَهَ اِلاَّاللهِ وَاَنَّ مُحَمَّداً رَسُولُ اللهِ

"Əşhədu ənla ilahə illəllah və ənnə Muhəmmədən Rəsulullah." İkinci təkbirdən sonra desin:

أَللّهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ

"Allahummə səlli əla Muhəmmədin və ali-Muhəmməd." Üçüncü təkbirdən sonra desin:

أَللّهُمَّ اغفِرللمؤمِنِينَ وَالمؤمِنَاتِ

"Allahumməğfir lil-mu'mininə vəl-mu'minat." Dördüncü təkbirdən sonra əgər meyyit kişidirsə, desin:

أَللّهُمَّ اغفِر لِهَذَا المَيِّتِ

"Allahumməğfir li hazəl-məyyit"; əgər qadın olarsa, desin:

أَللّهُمَّ اغفِر لِهَذِهِ المَيِّتِ

"Allahumməğfir li hazihil-məyyit" və sonra 5-ci təkbiri desin.

Daha yaxşı olar ki, birinci təkbirdən sonra bu duanı oxusun:

أَشهَدُ اَن لاَاِلهَ إلاَاللهُ وَحدَهُ لاَشَرِيكَ لَهُ إِلهَا واَحِدًا اَحَدًا صَمَدًا فَردًا قَيُّومًا دائِمًا اَبَدًا لَم يَتَّخِذ صَاحِبَةً وَلاَ وَلَدًا وَاَشهَدُ اَنَّ مُحَمَّدًا عَبدُهُ وَرَسُولُهُ اَرسَلَهُ بِالهُدى وَدِينِ الحَقِ لِيُظهِرَهُ عَلَى الدِينِ كُلّهِ وَلَو كَرِهَ المُشرِكُونَ بَشِيرًا وَنَذِيرًا بَينَ يَدَىِ السَاعِةِ

İkinci təkbirdən sonra bu duanı oxusun:

أَللّهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ وَبَارِك عَلَى مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ وَارحَم مُحَمَّدًا وَآلَ مُحَمَّداً كَاَفضَلِ مَاصَلَّيتَ وَبَارَكتَ وَتَرَحَّمتَ عَلَى اِبراهِيمَ وَآلِ اِبراهِيمَ اِنَّكَ حَمِيدً مَجِيدً وَصَلَّ عَلَى جَمِيعِ الاَنبِيَاءِ وَ مُرسَلِينَ

Üçüncü təkbirdən sonra bu duanı oxusun:

أَللّهُمَّ اغفِر لِلمؤمِنِينَ وَالمُؤمِنَاتِ وَالمُسلِمِينَ وَالمُسلِمَاتِ اَلاَحيَاءِ مِنْهُم وَالاَمواَتِ تَابِع بَينَنَا وَبَينَهُم بِاالخَيرَاتِ اِنَّكَ عَلَى كُلَّ شَىءٍ قَدِيرً

Dördüncü təkbirdən sonra meyyit kişidirsə, bu duanı oxusun:

أَللّهُمَّ اِنَّ هَذا المُسَجّىَ قُدامَنَا عَبدُكَ وَابنُ عَبدِكَ وَابنُ اَمَتِكَ نَزَلَ بِكَ وَاَنتَ خَيرُ مَنزُولٍ بِهِ أَللّهُمَّ اِنَّكَ قَبَضتَ رُوحَهُ اِلَيكَ وَقَد اِحتَاجَ اِلَى رَحمَتِكَ وَاَنتَ غَنِىٌ عَن عَذَابِهِ أَللّهُمَّ اِنَّا لاَنَعلَمُ مِنهُ اِلاَ خَيرًا وَاَنتَ اَعلَمُ بِهِ مَنَّا أَللّهُمَّ اِن كَانَ مُحسِنًا فَزِد فِى اِحسَانِهِ وَ اِن كَانَ مُسِيئًا فَتَجَاوَز عَنهُ وَاَغفِرلَنَا وَلَهُ أَللّهُمَّ اجعَلهُ عِندَكَ فِى اَعلَى العِلِّيِّينَ وَخُلُف عَلَى اَهلِهِ فِى الغَابِرِينَ وَارحَمهُ بِرَحمَتِكَ يَااَرحَمَ الرَّاحِمِينَ

Dördüncü təkbirdən sonra meyyit qadındırsa, bu duanı oxusun:

أَلّٰلهُمَّ اِنَّ هَذِهِ المُسَجَّاتَ قُدَامَنَا اَمَتُكَ وَاَبنَتُ عَبدِكَ وَابنَتُ اَمَتِكَ نَزَلَت بِكَ وَاَنتَ خَيرُ مَنزُولِ
بِهِ أَلّٰلهُمَّ اِنَّا لاَنَعلَمُ مِنهَا الاَّ خَيرًا وَانتَ اَعلَمُ بِهَا مِنَّا أَلّٰلهُمَّ اِن كَانَت مُحسِنَةً فَزِد فِى اِحسَانِهَا
وَاِن كَانَت مُسِيئَةً فَتَجَاوَز عَنهَا وَاغفِرلَهَا أَلّٰلهُمَّ اجعَلهَا عِندَكَ فِى اعلىَ عَلِّيِّينَ وَاخلُف عَلَى
اَهلِهَا فِى الغابِرِنَ وَارحَمهَا بِرَحمَتِكَ يَا اَرحَمَ لرَّاحِمِنَ

Sonra beşinci təkbiri desin.

**M:608.** Meyyit namazının təkbirləri və duaları elə ardıcıl oxunmalıdır ki, namaz surətindən çıxmasın.

**M:609.** Meyyit namazını camaatla birlikdə qılan kəs gərək təkbirləri və duaları oxusun.

### *MEYYİT NAMAZININ MÜSTƏHƏBBATI*

**M:610.** Bir neçə şey meyyit namazında müstəhəbdir:

**1**-Meyyit namazını qılan şəxs dəstəmaz, yaxud qusl, yaxud da təyəmmüm almış olsun; Ehtiyat-müstəhəbbə görə o vaxt təyəmmüm almalıdır ki, dəstəmaz və qusul almaq mümkün olmasın, yaxud dəstəmaz və ya qusul alacağı təqdirdə meyyit namazına çata bilməyəcəyi gözlənilsin.

**2**-Əgər meyyit kişidirsə, camaata imamlıq edən, yaxud namazı təklikdə qılan şəxs, cənazənin orta hissəsinin; və əgər meyyit qadındırsa, sinəsinin müqabilində dursun;

**3**-Ayaqyalın namaz qılsın;

**4**-Hər təkbiri deyəndə iki əlini qaldırsın;

**5**-Onunla meyyitin arasındakı fasilə çox az olsun, belə ki, əgər külək onun paltarını hərəkət etdirsə, cənazəyə toxunsun;

**6**-Meyyit namazı camaatla qılınsın;

**7**-Meyyit namazına imamət edən şəxs, təkbiri və duaları ucadan, onunla birlikdə namaz qılanlar isə astadan desinlər;

**8**-Meyyit namazı camaatla qılınanda, hətta iqtida edən (mə’mum) bir nəfər olsa da, imamın arxasında dayansın;

**9**-Namaz qılan şəxs meyyitə və mö’minlərə çoxlu dua etsin;

**10**-Namazdan qabaq üç dəfə “əssəlat” desin;

**11**-Namazı elə yerdə qılsın ki, camaat meyyit namazı qılmaq üçün əksərən oraya gedirlər;

**12**-Haiz qadın camaat namazına dayansa, bir cərgədə tək dayansın.

**M:611.** Meyyit namazını məscidlərdə qılmaq məkruhdur, amma Məscidül-Həramda məkruh deyildir.

### *DƏFNİN HÖKMLƏRİ*

**M:612.** Vacibdir ki, meyyit elə dəfn edilsin ki, onun iyi çölə gəlməsin, vəhşi heyvanlar da bədənini çölə çıxarda bilməsin. Vəhşi heyvanlardan, həmçinin

meyyitin iyindən əziyyət çəkən şəxslərin oraya yaxınlaşması ehtimalı olmazsa, ehtiyat-vacibə görə qəbrin dərinliyi yuxarıda qeyd olunan qədər olmalıdır. Amma əgər yırtıcı heyvanların onun bədənini çıxarmasından qorxu törənsə, qəbri kərpic və s. kimi şeylərlə möhkəmlətməlidirlər.

**M:612.** Əgər meyyiti torpaqda dəfn etmək mümkün olmazsa, dəfn etmək yerinə, onu binada və ya tabutda qoymaq olar.

**M:614.** Meyyiti qəbirdə sağ çiyni üstə elə uzatmalıdırlar ki, bədəninin qabağı üzü qibləyə olsun.

**M:615.** Əgər bir kəs gəmidə ölsə, bu halda cəsədi çürüməzsə və gəmidə qalmasının maneəsi olmazsa, gözləməlidirlər ki, gəmi qraqlığa çatsın və onu torpaqda dəfn etsinlər. Əks halda, gəmidə qusul verib, hənut-kəfən etməli, namaz qıldıqdan sonra ağır bir şeyi ayağına bağlayıb dəryaya buraxmalı, yaxud onu böyük bir xuma qoyub ağzını bağlamalı, sonra dəryaya atmalıdırlar. Mümkün olsa, elə yerdə atsınlar ki, dərhal heyvanlara yem olmasın.

**M:616.** Əgər düşmənin qəbri açıb meyyiti çıxaracağından və sonra qulağını, burnunu və ya başqa üzvlərini kəsəcəyindən qorxsalar, onda mümkün olan surətdə, əvvəlki məsələdə deyildiyi qaydada, onu dəryaya atsınlar.

**M:617.** Meyyitin dəryaya atılmasının və ya qəbrinin möhkəmləndirilməsinin xərcləri (lazım olan surətdə) meyyitin malının əslindən[12] götürülməlidir.

**M:618.** Əgər kafir bir qadın ölsə və onun bətnindəki uşaq da ölmüş olsa, uşağın atası müsəlman olarsa, qadını qəbirdə sol böyrü üstə arxası qibləyə tərəf elə uzatmalıdırlar ki, uşağın üzü qibləyə olsun. Hətta əgər ruh uşağın bədəninə daxil olmamışsa da, ehtiyat-vacibə görə həmin göstərişə əməl olunmalıdır.

**M:619.** Müsəlmanın kafir, kafirin də müsəlman qəbiristanlığında dəfn edilməsi caiz deyildir.

**M:620.** Müsəlmanı, ehtiramsızlıq olacağı yerlərdə (məsələn, toz-torpaq və zibil tökülən yerlərdə) dəfn etmək caiz deyildir.

**M:621.** Meyyit qəsbi yerdə dəfn olunmamalıdır. Meyyitin dəfn olunmasından başqa işlər üçün vəqf olunan məscid kimi yerlərdə və məscid kimi dəfndən başqa işlər üçün vəqf olunan yerlərdə dəfn etmək caiz deyildir.

**M:622.** Bir meyyiti başqa bir meyyitin qəbrində dəfn etmək caiz deyildir, amma əgər qəbir çox köhnələrsə və əvvəlki meyyit çürüyüb aradan getmiş olarsa, eybi yoxdur.

**M:623.** Meyyitdən ayrılan şeylər, hətta tük, dırnaq, diş kimi olsa da belə, onunla dəfn olunmalıdır. İnsanın sağlığında ondan ayrılan dırnağı və dişi yerə basdırmaq müstəhəbdir.

---

[12] Yə”ni meyyitə məxsus olan üçdə biri çıxılmamış, vərəsələrin payı ayrılmamış olan malından.

**M:624.** Əgər bir kəs quyuya düşüb ölsə və onu çıxarmaq mümkün olmasa, quyunun ağzını bağlayıb onun üçün qəbir etmək lazımdır.

**M:625.** Əgər uşaq ana bətnində ölsə və onun bətndə qalması ana üçün təhlükə doğursa, ən asan yolla onu çıxarmalıdırlar. Əgər onu doğrayıb çıxarmağa naçar olsalar, eybi yoxdur. Amma ərinin vasitəsi ilə (əgər əri bu sahədə mütəxəssisdirsə), yaxud mütəxəssis qadının vasitəsi ilə çölə çıxarılmalıdır. Əgər bu da mümkün olmasa, mütəxəssis olan məhrəm kişilər, bu da mümkün olmasa, mütəxəssis olan naməhrəm kişi onu çölə çıxarmalıdır. Bu da mümkün olmasa və mütəxəssis tapılmazsa, mütəxəssis olmayan bir şəxs də uşağı çölə çıxara bilər.

**M:626.** Əgər ana ölsə və uşaq onun bətnində diri olsa, hətta onun (çıxarılmasından sonra) sağ qalmasına ümid olmasa da, əvvəlki məsələdə deyilən qaydada, onun sol böyrü yarılıb uşağı çıxarmalı, sonra isə yarılan yer tikməlidirlər.

## *DƏFNİN MÜSTƏHƏBBATI*

**M:627.** Müstəhəbdir ki, qəbri normal insan boyunda qazsınlar və meyyiti ən yaxın qəbiristanlıqda dəfn etsinlər. Amma əgər uzaqda olan qəbiristan müəyyən cəhətlərə görə yaxşı olsa (məsələn, yaxşı insanlar o qəbiristanlıqda dəfn edilirlərsə, yaxud camaat qəbiristan əhlinə Fatihə oxumaq üçün oraya daha çox gəlirlərsə) onda oraya aparsınlar.

Həmçinin, meyyiti qəbiristanın bir neçə metrliyində yerə qoyub üç dəfəyə, yavaş-yavaş qəbiristanlığa yaxınlaşdırsınlar və hər dəfə də yerə qoyub götürsünlər. Dördüncü dəfə isə qəbrə daxil etsinlər. Əgər meyyit kişidirsə, üçüncü dəfə elə yerə qoysunlar ki, onun başı qəbrin axır tərəfinə düşsün və dördüncü dəfədə başı tərəfindən qəbrə daxil etsinlər; və əgər qadındırsa, üçüncü dəfə qəbrin qiblə tərəfinə qoyub, eninə qəbrə daxil etsinlər. Qəbrə daxil edəndə, qəbrin üstünə bir parça tutsunlar.

Həmçinin cənazəni aramlıqla tabutdan götürüb, qəbrə qoysunlar. Dəfndən qabaq və dəfn zamanı lazım olan duaları oxusunlar. Meyyiti ləhədə qoyandan sonra kəfənin düyünlərini açıb üzünü torpağa qoysunlar, başının altında torpaqdan balış kimi düzəltsinlər, arxasına xam kərpic, yaxud kəsək qoysunlar ki, arxaya aşmasın. Ləhədi örtməzdən əvvəl sağ əli meyyitin sağ çiyninə vurub sol əli qüvvətlə meyyitin sol çiyninə qoysunlar, ağızı onun qulağına yapışdırıb möhkəm silkələsinlər və üç dəfə desinlər:

اِسمَع اِفهَم يَافُلاَنَ ابنَ فُلاَن

“İsmə’, ifhəm ya Fulanəbnə Fulan” Fulan kəlməsinin yerinə meyyitin adını və atasının adını desinlər. Məsələn, əgər meyyitin adı Məhəmməd, atasının adı Əli olarsa, üç dəfə deyilməlidir ki, “ismə’, ifhəm, ya Məhəmmədəbnə Əli”,

اِسمَع اِفهَم يَا مُحَمَّد بن عَلِىًّ

Deyib sonra isə bu sözləri desinlər:

هَل اَنتَ عَلىَ العَهدِ الَّذِى فَارَقتَنَا عَليهِ مِن شَهَادَتِ اَن لاَ اِلهَ اِلاَّاللَّه وَحدَهُ لاَشَرِيكَ لَهُ وَاَنَّ مُحَمَّدًا صَلّى اللَّهُ عَلَيهِ وَآلِهِ عَبدُهُ وَرَسُولُهُ وَسَيّدُ النَّبِيِّينَ وَخَاتَمُ المُرسَلِنَ وَاَنَّ عَلِيًّا اَمِير المُومِنِينَ وَسَيِّدُ الوَصِيِّينَ وَاِمَامُ اِفتَرَضَ اللهُ طَاعَتَهُ عَلَى العَالَمِينَ وَاَنَّ الحَسَنَ وَالحُسَينَ وَعَلىَّ بنَ الحُسَينِ وَمُحَمَّدَ بنَ عَلِيّ وَجَعفَرَبنَ مُحَمَّدٍ وَمُوسىبنَ جَعفَرٍ وَعَلِىَّبنَ مُوسىَ وَمُحَمَّدَ بنَ عَلىّ وَعَلِىّ بنَ مُحَمَّدٍ وَالحَسَنَ بنَ عِلِىّ وَالقَايِمَ الحُجّةَ المَهدِىّ صَلَوَاتُ اللهِ عَلَيهِم ايئِمَّةُ المُومِنِينَ وَحُجَجُ اللهِ عَلىَ الخَلقِ اجمَعِينَ وَاَيئِمَّتَكَ اَيئِمّةُ هُدِىَ بِهِم اَبرارُ يَا فُلاَنَ بنَ فُلاَن

“Fulan ibni fulan” kəlməsinin yerinə meyyitin adını və atasının adını deyib sonra desinlər:

اِذا اَتَاكَ المَلَكَانِ المُقَرَّبَانِ رَسُولَينِ مِن عِندِاللهِ تَبَارَكَ وَتَعَالىَ وَسَألاَكَ عَن رَبِّكَ وَعَن نَبِيِّكَ وَعَن دِينِكَ وَعَن كِتَابِكَ وَعَن قِبلَتِكَ وَعَن اَئِمَّتِكَ فَلاَتَخَف وَلاَتَحزَن وَقُل فِي جوابِهِمَااللهُ رَبىِّ وَمُحمَّدٌ صَلَّىاللهُ عَلَيهِ وَآلِهِ نَبِيِّي وَالاِسلاَمُ دِينِيَ والقُرآنُ كِتَابِى وَالكَعبةُ قِبلَتِي وَاَمِيرُ المُؤْمِنِينَ عَلِىُّ بنُ اَبِى طَالِبٍ اِمَامِى وَالحَسَنُ بنُ عَلىٍّ المُجتَبىَ اِمَامِى وَالحُسَينُ بنُ عَلِىٍّ الشَّهِيدُ بِكَربَلاَ اِمَامِى وَعَلِىُّ زَينُ العَابِدِينَ اِمَامِى وَمُحَمَّدٌ البَاقِرُ اِمَامِى وَجَعفَرٌ الصَّادِقُ اِمَامِى وَمُوسَى الكَاظِمُ اِمَامِى وَعَلِىُّ الرِّضَا اِمَامِى وَمُحَمَّدٌ الجَوَادُ اِمَامِى وَعَلِىٌّ الهَادِى اِمَامِىوَالحَسَنُ العَسكَرِى اِمَامِى وَالحُجَّةُ المُنتَظَرُ اِمَامِى هَؤُلاَءِ صَلَوَاتُ اللهِ عَلَيهِم اَجمَعِينَ اَئِمَّتِى وَسَادَتِي وَقَادَتِى وَشُفَعَائِي بِهِم اَتَوَلّى وَمِن اَعدائِهِم اَتَبَرَّءُ فِى الدُنْيَا وَالآخِرَةِ ثُمَّ اعلَم يَا فُلاَنَ بنَ فُلاَن

“Fulanəbnə fulan” kəlmələrinin yerinə meyyitin adı, atasının adını deyib sonra desinlər:

اِنَّ اللهَ تَبَارَكَ وَتَعَالَى نِعمَ الرَّبُّ وَاَنَّ مُحَمَّداً صَلَّى اللهُ عَلَيهِ وَآلِهِ نِعمَ الرَّسُولُ وَاَنَّ عَلِىَّ بنَ اَبِى طَالِبٍ وَاَولاَدَهُ المَعصُومِينَ الاَئمَّةَ الاِثنَى عَشرَ نِعمَ الاَئِمَّةُ وَاَنَّ مَاجَاءَ بِهِ مُحَمَّدٌ صَلَّى اللهُ عَلَيهِ وَ آلِهِ حَقٌّ وَاَنَّ المَوتَ حَقٌّ وَسُؤاَلَ مُنكَرٍ وَنَكِيرٍ فِى القَبرِ حَقٌّ وَالبَعثَ حَقٌّ وَالنُّشُورَ حَقٌّ وَالصِّراطَ حَقٌّ وَالمِيزاَنَ حَقٌّ وَتَطَايُرَ الكُتُبِ حَقٌّ وَاَنَّ الجَنَّةَ حَقٌّ وَالنَّارَ حَقٌّ وَاَنَّ السَّاعَةَ آتِيَةُ لاَرَيبَ فِيهَا وَاَنَّ اللهَ يَبعَثُ مَن فِى القُبُورِ

Sonra desin:

اَفَهِمتَ يَا فُلاَنُ

“Fulan” kəlməsinin yerinə meyyitin adını desin, sonra isə bunları desin:

ثَبَّتَكَ اللهُ بِالقَولِ الثَّابِتِ وَهَدَاكَ اللهُ اِلى صِراَطٍ مُستَقِيمٍ عَرَّفَ اللهُ بَينَكَ وَبَينَ اَولِيَاءِكَ فِى مُستَقَرٍّ مِن رَحمَتِهِ

Sonra bunu desin:

اَللَّهُمَّ جَافِ الاَرضَ عَن جَنبَيهِ واصعَد بِرُوحِهِ اِلَيكَ وَلَقِّنهُ مِنكَ بُرهَانًا اللَّهُمَّ عَفوَكَ عَفوَكَ

**M:628.** Müstəhəbdir ki, meyyiti qəbrə qoyan şəxs təharətli, başı açıq, ayaqyalın olsun və meyyitin ayaq tərəfindən qəbirdən çıxsın. Meyyitin qohumlarından başqa orada olan şəxslər əllərinin arxası ilə torpağı qəbrə töküb “inna lillahi və inna iləyhi raciun” desinlər. Əgər meyyit qadın olsa, onu, məhrəm olanlardan biri qəbrə qoysun. Əgər məhrəmi olmazsa, sair qohumları onu qəbrə qoysun.

**M:629.** Müstəhəbdir ki, qəbri dördbucaq şəklində düzəltsinlər, dörd barmaq qədərində yerdən ucaldıb üstünə müəyyən əlamət qoysunlar ki, səhv olunmasın. Sonra qəbrin üstünə su səpsinlər. Daha sonra orada olanlar əllərini qəbrin üstünə qoyub barmaqları açıq halda torpağa batırsınlar və mübarəkə “İnna ənzəlna” Surəsini yeddi dəfə oxuyub sonra meyyit üçün Allahdan bağışlanmaq diləyib bu duanı oxusunlar:

اَللَّهُمَّ جَافِ الاَرضَ عَن جَنبَيهِ واصعَد اِلَيكَ رُوحَهُ وَلَقِّهِ مِنكَ رِضوانًا وَاَسكِن قَبرَهُ مِن رَحمَتِكَ مَاتُغنِيهِ بِهِ عَن رَحمَةِ مَن سِواك

**M:630.** Cənazənin dəfn mərasimində iştirak edənlər gedəndən sonra müstəhəbdir ki, meyyitin vəlisi, yaxud vəlisinin tərəfindən icazəsi olan bir kəs göstərişi verilən duaları meyyitə təlqin etsin.

**M:631.** Dəfndən sonra müstəhəbdir ki, matəm sahiblərinə başsağlığı verilsin. Amma əgər müəyyən müddət keçsə və başsağlığı verilməsi səbəbi ilə baş verən müsibət yadlarına düşərsə, onu etməmək daha yaxşıdır. Həmçinin müstəhəbdir ki, meyyitin ev əhlinə yemək göndərilsin. Onların yanında və mənzillərində yemək yemək məkruhdur.

**M:632.** Müstəhəbdir ki, insan qohumlarının, xüsusilə də övladının ölümündə səbirli olsun, hər vaxt meyyiti yad edəndə, “İnna lillahi və inna iləyhi raciun” desin. Meyyit üçün Qur’an oxusun, ata-ananın qəbrinin yanında Allahdan hacətlərini istəsin. Qəbri möhkəm düzəltsinlər, tez xarab olmasın.

**M:633.** İnsanın bir kəsin ölümündə üzünü, yaxud bədənini cırmaqlaması, özünə xəsarət vurması caiz deyildir.

**M:634.** Ata və qardaş ölümü istisna olmaqla, sair şəxslərin ölümündə paltarın yaxasını cırmaq caiz deyildir.

**M:635.** Əgər kişi arvadının, yaxud övladının ölümündə paltarının yaxasını cırsa, yaxud qadın meyyitin matəmində üzünü cırsa və qan gəlsə, yaxud öz saçlarını yolsa, gərək bir qul azad etsin, yaxud on fəqirə təam versin, yaxud da onları geyimlə tə’min etsin. Bu işləri edə bilməsə, üç gün oruc tutmalıdır. Hətta əgər cırdığı yerlərdən qan gəlməsə də, ehtiyat-vacibə görə bu əmələ (kəffarə hökmünə) əməl etsin.

**M:636.** Ehtiyat-vacib budur ki, meyyitə ağlamaqda səsi çox ucaltmasınlar.

## VƏHŞƏT NAMAZI

**M:637.** Müstəhəbdir ki, meyyitin dəfn olunduğu ilk gecə onun üçün iki rəkət vəhşət namazı qılsınlar. Onun qılınması qaydası belədir: birinci rəkətdə Həmddən sonra bir dəfə "Ayətəl-kürsü", ikinci rəkətdə isə Həmddən sonra on dəfə "İnna ənzəlna" Surəsi oxunsun, namazın salamından sonra deyilsin:

اَللَّهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ وَابعَث ثَوَابَهَا اِلَى قَبرِ فُلاَن

"Allahummə səlli əla Mühəmmədin və ali Mühəmməd vəb'əs səvabəha ila qəbri fülan." "Fulan" kəlməsinin yerinə mərhumun adını desin.

**M:638.** Vəhşət namazını, mərhumun dəfn olunduğu ilk gecənin hər saatında olsa, qılmaq olar. Amma daha yaxşı olar ki, işa namazından sonra gecənin əvvəlində qılınsın.

**M:639.** Əgər meyyiti uzaq bir şəhərə aparmaq istəsələr, yaxud başqa səbəblərə görə onun dəfni tə'xirə düşsə, bu halda vəhşət namazı onun qəbrə qoyulduğu ilk gecəyə qədər tə'xirə salınmalıdır.

## QƏBRİN AÇILMASI

**M:640.** Müsəlmanın qəbrini açmaq–hətta uşaq və ya dəli olsa belə–haramdır. Amma əgər, bədəni çürüyüb aradan getsə və torpağa çevrilsə eybi yoxdur.

**M:641.** İmamzadələrin (yə'ni İmam övladlarının), şəhidlərin, alimlərin, saleh bəndələrin qəbrini açmaq–hətta illər ötüb keçsə də belə haramdır.

**M:642.** Bir neçə halda qəbri açmaq haram deyildir:

**1**-Meyyit qəsbi torpaqda dəfn olunsa və yerin sahibi də onun orada qalmasına razı olmasa;

**2**-Meyyitin dəfn olunduğu kəfən, yaxud onunla birlikdə dəfn olunan başqa şeylər qəsbi olsa, sahibi də qəbirdə qalmasına razı olmasa, həmçinin əgər meyyitin vərəsələrinə çatacaq bir şey onunla birlikdə dəfn olunsa, vərəsələr də o şeyin qəbirdə qalmasına razı olmasalar; Amma əgər meyyit dua kitabı və Qur'an, yaxud üzüyünü onunla birlikdə dəfn olunmasını vəsiyyət etsə və vəsiyyəti malının üçdə birindən artıq olmasa, onları çıxartmaq üçün qəbri açmaq olmaz.

**3**-Meyyit qusulsuz və ya kəfənsiz dəfn olunsa, yaxud quslunun batil olmasını bilsələr və ya Şəriət qanunlarına uyğun olmayaraq kəfənə bükmüş olsalar, yaxud da qəbirdə onu üzü qibləyə qoymamış olsalar;

**4**-Müəyyən bir haqqı subut etmək üçün meyyitin bədənini görmək istəsələr;

**5**-Meyyiti, ehtiramsızlıq olan bir yerdə (məsələn, kafirlərin qəbristanlığında, yaxud toz-torpaq, zibil tökülən yerlərdə) dəfn etmiş olsalar;

**6**-Əhəmiyyəti qəbrin açılmasından daha çox olan şər'i bir mətləb üçün qəbri açsalar (məsələn, diri uşağı ölmüş anasının bətnindən çıxartmaq istəsələr);

**7-**Vəhşi heyvanların meyyitin bədənini parçalamasından, sel aparmasından, düşmənlərin çıxartmasından qorxslar;

**8-**Meyyitin, onunla birlikdə dəfn olunmayan ə’zasını dəfn etmək istəsələr. Amma ehtiyat-vacib budur ki, bədənin o ə’zasını qəbrə elə qoysunlar ki, meyyitin bədəni görünməsin.

## *MÜSTƏHƏBB QUSULLAR*

**M:643.** Müqəddəs İslam Şəriətində müstəhəb qusullar çoxdur, o cümlədən:

**1-**Cümə quslu. Onun vaxtı (cümə günü) sübh azanından zöhr azanına qədərdir. Daha yaxşı olar ki, zöhrə yaxın vaxtlarda etsinlər. Əgər bir kəs zöhrə qədər də yerinə yetirə bilməsə, yaxşı olar ki, əda və qəza niyyəti etmədən cümənin əsr vaxtına qədər yerinə yetirsin. Əgər cümə günü də qusul etməsə, ehtiyat budur ki, şənbə günü sübhdən qüruba qədər onun qəzasını yerinə yetirsin. Əgər bir kəs cümə günündə su tapmayacağından qorxsa, cümə axşamı günü qusul edə bilər. Hətta əgər cümə axşamı gecəsində “Allah Talanın istədiyidir” ümidi ilə etsə səhihdir. Cümə quslu alan vaxt müstəhəbbdir ki, bu duanı oxusun:

اَشهَدُ اَن لاَاِلَهَ اِلاَّ اللهُ وَحدَهُ لاَشَرِيكَ لَهُ وَاَنَّ مُحَمَّداً عَبدُهُ وَرَسُولُهُ اللَّهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ وَاجعَلنِى مِنَ التَّوّاَبِينَ وَاجعَلنِى مِنَ المَتَطَهِّرِينَ

**2-**Mübarək Ramazan ayının birinci gecəsinin, həmçinin bu mübarək ayın tək günlərinin gecəsinin quslu; (məsələn 3, 5, 7-ci və s.) Amma 21-ci gecədən e’tibarən müstəhəbdir ki, bütün gecələrdə qusul etsin. Həmçinin 1, 15, 17, 19, 21, 23, 25, 27, 29-cu gecələrdə qusul etməyə daha artıq sifariş olunmuşdur. Mübarək Ramazan ayının gecələrinin quslunun vaxtı bütün gecədir və daha yaxşı olar ki, günəşin qürubuna yaxın olan vaxtlarda yerinə yetirilsin. Amma 21-ci gecədən ayın axırına qədərki qusullar yaxşı olar ki, məğrib və işa namazları arasında yerinə yetirilsin. Həmçinin müstəhəbbdir ki, 23-cü gecədə birinci qusuldan əlavə, gecənin axırında da bir qusul etsin.

**3-**Fitir və Qurban bayramı gününün quslu; Bunun da vaxtı sübh azanından günəş batana qədərdir. Daha yaxşı olar ki, onu bayram namazından qabaq etsinlər. Əgər zöhrdən qüruba qədərki vaxtda etsələr, ehtiyat budur ki, rəca niyyəti ilə yerinə yetirsinlər.

**4-**Fitr bayramının gecəsinin quslu; Onun da vaxtı məğribin əvvəlindən sübh namazına qədərdir. Daha yaxşı olar ki, gecənin əvvəlində yerinə yetirilsin.

**5-**Zil-həccənin 8-ci və 9-cu günlərinin quslu; Və 9-cu günündə daha yaxşı olar ki, onu zöhrə yaxın vaxtlarda yerinə yetirsinlər.

**6-**Rəcəb ayının 1, 15, 27 və axırıncı günlərinin quslu;

**7-**Qədir-Xum bayramının quslu; Bu da yaxşı olar ki, zöhrdən qabaq yerinə yetirilsin.

**8-**Zil-həccənin 24-ci gününün quslu.

**9-**Novruz bayramında, Şə’banın 15, Rəbiül-əvvəlin 9 və 17, Zilqə’dənin 25-ci günlərində rəca qəsdi ilə qusul etsin.

**10-**Təzə dünyaya gələn uşağa verilən qusul;

**11-**Ərindən başqası üçün ətir vuran qadının quslu;

**12-**Məstlik halında yatan insanın quslu;

**13-**Bədənin hər hansı bir yerini qusul verilmiş meyyitə vuran kəsin quslu;

**14-**Günəş, yaxud ay tutulan vaxtda qəsdən ayət namazını qılmayan bir kəsin quslu (və bu da günəş və yaxud ay tamamilə tutulandadır);

**15-**Dara asılan kəsə tamaşa etmək üçün gedən və onu görən şəxsin quslu. Amma əgər, təsadüfən, yaxud naçarlıq üzündən gözü ona düşsə və ya misal üçün, şəhadət vermək üçün getsə qusul alması müstəhəb deyil.

**M:644.** Məkkənin hərəminə, Məkkə şəhərinə, Məscidül-Hərama, Kə’bə Evinə, Mədinənin hərəminə, Mədinə şəhərinə, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) məscidinə, İmamların (əleyhimüs-salam) hərəminə daxil olmamışdan qabaq müstəhəbdir ki, insan qusul etsin. Əgər bir gündə bir neçə dəfə o yerlərə müşərrəf olsa, bir qusul kifayətdir. Bir kəs bir gündə Məkkəyə, Məscidül-Hərama və Kə’bə Evinə daxil olmaq istəsə, bunların hamısı üçün bir qusul etsə, kifayətdir; habelə, əgər bir gündə Mədinə hərəminə, Mədinə şəhərinə, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) məscidinə daxil olmaq istəsə, onların hamısı üçün bir qusul kifayətdir. Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)i və İmamları uzaqdan və yaxud yaxından ziyarət etmək, Allahdan hacət istəmək üçün, habelə tövbə etmək, ibadət səbəbilə şadlıq, səfərə, xüsusilə Həzrət Seyyidüş-Şühəda (əleyhis-salam)-ın ziyarətinə səfər etmək üçün qusul etmək müstəhəbdir. Bu məsələdə deyilən qusullardan birini edib sonradan dəstəmazı batil edən bir iş görsə (məsələn, yatsa) onun quslu batil olur. Müstəhəbdir ki, yenidən qusul alsın.

**M:645.** İnsan müstəhəb qusul ilə, dəstəmazla şərtlənən əməli (namaz kimi) yerinə yetirə bilməz.

**M:646.** Əgər bir kəsə bir neçə qusul müstəhəb olsa və onların hamısının niyyəti ilə bir qusul etsə kifayətdir.

## TƏYƏMMÜM

7 yerdə dəstəmaz və qusul əvəzindən təyəmmüm almaq lazımdır.

### *BİRİNCİ YER*

Dəstəmaz və qusul almaq üçün lazım olan suyu tapmaq mümkün olmasa;

**M:647.** Əgər insan abadlıq yerdə olsa, dəstəmaz və qusul suyunu tapmaq üçün o qədər axtarış aparmalıdır ki, daha onu tapmaqdan naümid olsun. Amma əgər çöldə, biyabanda olsa, bu halda oranın məntəqəsi dərə-təpəlik olsa, yaxud ağac və s. kimi şeylər vasitəsilə geçirməsi müşkül olsa, hər dörd tərəfə, qədim kamanlardan atılan bir ox uçuşu qədərində axtarış aparmalıdır. Amma əgər (coğrafi şəraiti) bu cür olmayan yerdə olsa, hər tərəfə iki ox uçuşu miqdarında axtarış aparmalıdır.

**M:648.** Əgər dörd tərəfdən bə’ziləri düzənlik, bə’ziləri isə dərə-təpəlik, yaxud keçilməsi müşkül olsa, düzənlik tərəflərdə iki ox, bu cür olmayan tərəflərdə isə bir ox uçuşu miqdarda axtarış aparmalıdır.

**M:649.** Su olmadığına yəqin etdiyi tərəfdə axtarış aparmaq lazım deyil.

**M:650.** Namazın vaxtı az olmayan və su tapmaq üçün vaxtı olan bir kəs axtarmalı olduğu məkandan uzaq bir yerdə su olmasına yəqin etsə, bu halda maneəsi və məşəqqəti olmayan surətdə su tapmaq üçün getməlidir. Əgər su olmasına gümanı olsa, o yerə getməsi lazım deyil. Amma əgər yəqinə yaxın gümanı olsa, ehtiyat-vacibə görə, su tapmaq üçün o yerə getməlidir.

**M:651.** İnsanın özünün su axtarmaq üçün getməsi vacib deyil, hətta sözlərindən xatircəmlik hasil olan başqa bir adamı da göndərə bilər. Bu halda bir nəfər bir neçə nəfərin tərəfindən getsə, kifayətdir.

**M:652.** Əgər səfər yüklərinin arasında, yaxud mənzilində, yaxud da karvanda su olmasına ehtimal versə, o qədər axtarış aparmalıdır ki, suyun olmaması barədə yəqinlik tapsın, yaxud da onu tapmaqdan naümid olsun.

**M:653.** Əgər namaz vaxtı daxil olmamışdan əvvəl axtarış aparıb su tapmasa, namaz vaxtına qədər və həmin yerdə qalsa, namaz vaxtı daxil olandan sonra yenidən su axtarmağa getməsi lazım deyil.

**M:654.** Əgər namaz vaxtı daxil olandan sonra axtarış aparıb su tapmasa və sonrakı namaz vaxtına qədər həmin yerdə qalıb su tapılacağına ehtimal versə, ehtiyat-vacib budur ki, su axtarmağa getsin.

**M:655.** Əgər vəhşi heyvanlardan, oğrudan, öz mal və canının təhlükəyə düşməsindən qorxursa;, yaxud su axtarmaq dözüləsi mümkün olmayan qədər çətin olsa, və ya namazın vaxtı çox az olsa və axtarış aparmağa heç vaxt olmasa, bu halda axtarış aparmaq lazım deyil.

**M:656.** Əgər su axtarmağa getməsə və namazın da vaxtının qurtarmasına az qalsa, günah etmişdir, amma namazı təyəmmümlə səhihdir.

**M:657.** Su tapmayacağına yəqini olan bir kəs su axtarmaq üçün getməyib təyəmmümlə namaz qılsa və namazdan sonra axtarış aparacağı halda su tapacağını bilsə, namazı batildir.

**M:658.** Əgər axtarış apardıqdan sonra su tapmayıb təyəmmümlə namazı qılsa və sonradan başa düşsə ki, axtarış apardığı filan yerdə su var imiş, namazı səhihdir.

**M:659.** Əgər namaz vaxtının daxil olmasından sonra dəstəmazı olsa və dəstəmazını batil edərsə su tapmasının mümkün olmayacağını bilsə, bu halda əgər bacarırsa, dəstəmazını saxlasın və onu batil etməsin.

**M:660.** Əgər namaz vaxtından əvvəl dəstəmazı olsa və öz dəstəmazını batil edəcəyi halda su tapmaq mümkün olmayacağını bilsə, bu halda öz dəstəmazını saxlaya bilsə ehtiyat-vacib budur ki, onu batil etməsin.

**M:661.** Əgər bir kəsin yalnız dəstəmaz və yaxud qusul almaq miqdarında suyu olsa və onu yerə tökərsə su tapmayacağını bilsə, namazın vaxtı daxil olandan sonra o suyu yerə tökmək haramdır. Ehtiyat-vacib budur ki, namaz vaxtı daxil olmamışdan qabaq da o suyu yerə tökməsin.

**M:662.** Su tapmayacağını bilən bir kəs, namazın vaxtı daxil olandan sonra öz dəstəmazını batil etsə, yaxud ixtiyarında olan suyu yerə töksə, günah etmişdir. Amma namazı təyəmmümlə səhihdir, ehtiyat-müstəhəb budur ki, bu namazın qəzasını da yerinə yetirsin.

### *İKİNCİ YER*

**M:663.** Əgər bir kəs qocalıq səbəbilə, yaxud oğrudan, yırtıcı heyvandan və s. kimi şeylərdən qorxmaq və yaxud da suyu quyudan çıxartmaq üçün lazımi avadanlığın olmaması səbəbilə su əldə edə bilməsə, təyəmmüm etməlidir.

**M:664.** Əgər suyu quyudan çəkmək üçün ip vedrə və s. kimi şeylərə ehtiyac duyulsa və onları almağa, yaxud kirayə etməyə məcbur olsa, hətta onların qiyməti adi vaxtdakı qiymətdən bir neçə dəfə baha olsa da, onu almalıdır. Həmçinin, əgər suyu öz qiymətindən bir neçə qat baha qiymətə satsalar da eyni qayda ilə (yə’ni almalıdır). Amma əgər onları almaq üçün çoxlu pul istəsələr, belə ki, alanın vəziyyətinə zərər yetirsə, alması vacib deyil.

**M:665.** Əgər bir kəs su əldə etmək üçün borc almağa naçar olsa borc almalıdır. Amma öz borcunun qaytara bilməməsini bilsə və yaxud güman etsə, borc alması vacib deyil.

**M:666.** Əgər quyu qazmaq məşəqqətli olmasa, ehtiyat-vacibə görə, su əldə etmək üçün quyu qazmalıdır.

**M:667.** Əgər bir kəs adi halda minnətsiz su ehsan bəxşiş etsə gərək onu qəbul etsin.

### *ÜÇÜNCÜ YER*

**M:668.** Əgər bir kəs suyun işlədilməsinin səhhətinə zərər verəcəyindən, yaxud onu istifadə edəcəyi halda hər hansı bir xəstəlik və eybin vücuda gələcəyindən, yaxud xəstəliyinin uzanacağından, şiddətlənəcəyindən və ya çətinliklə müalicə olunacağından qorxsa, təyəmmüm etməlidir. Amma əgər isti suyun zərəri olmasa, isti su ilə dəstəmaz və ya qusul etməlidir.

**M:669.** Suyun insana zərəri olmasını yəqin etmək lazım (ilzami) deyil; hətta əgər zərər ehtimalı da versə və onun ehtimalı, camaatın nəzərində yerli ehtimal olsa və bu ehtimaldan onun üçün qorxu hasil olsa təyəmmüm etməlidir.

**M:670.** Göz ağrısı xəstəliyinə düçar olan və su işlədilməsi zərər olan şəxs təyəmmüm etməlidir.

**M:671.** Əgər zərərin baş verəcəyinə yəqini olsa, yaxud zərərdən qorxub təyəmmüm etsə və namazdan sonra onun zərəri olmadığını başa düşsə, təyəmmümü batildir. Amma əgər namazdan sonra başa düşsə qıldığı namaz səhihdir.

**M:672.** Suyun zərərli olmamasını bilən bir şəxs qusul, yaxud dəstəmaz alıb sonradan zərərli olduğunu başa düşsə, aldığı qusul və dəstəmaz səhihdir.

### *DÖRDÜNCÜ YER*

**M:673.** Əgər insan suyu dəstəmaz və qusul üçün məsrəf edəcəyi halda özü, əyalı, övladları, dostu və ona aid olan şəxslərin (nökər və ya külfət) susuzluqdan öləcəklərindən, yaxud xəstələnəcəklərindən, yaxud da dözülməsi məşəqqətli olan qədər susayacaqlarından qorxsa, dəstəmaz və qusul əvəzindən təyəmmüm etməlidir. Həmçinin özünün, yaxud başqasının malı olan heyvanın susuzluqdan tələf olmasıdan qorxsa, suyu onlara verib təyəmmüm almalıdır. Həmçinin əgər, canının hifzi vacib olan bir kəs çox susuz olsa və suyu ona verməyəcəyi halda tələf olacaqsa, suyu ona verib təyəmmüm etməlidir.

**M:674.** Əgər qusul və dəstəmaz üçün ayrılan pak sudan əlavə, özünün və ya ona aid olan şəxslərin içməsi miqdarında nəcis suyu da olsa, pak suyu içmək üçün sərf etməli, təyəmmüm ilə namaz qılmalıdır. Əgər suyu heyvana içirtmək istəsə, nəcis suyu ona verib pak su ilə dəstəmaz və qusul almalıdır.

### *BEŞİNCİ YER*

**M:675.** Bədəni, yaxud paltarı nəcis olan və yalnız qusul və dəstəmaza çatan qədər suyu olan bir kəs, dəstəmaz və qusul aldıqda, bədənini və yaxud paltarını suya çəkmək üçün suyu qalmayacaqsa, bədənini və paltarını suya çəkib təyəmmümlə namaz qılmalıdır. Amma əgər təyəmmüm almaq üçün bir şeyi olmasa, o suyu dəstəmaz və qusul üçün istifadə edib, nəcis bədən və ya paltarla namaz qılmalıdır.

### *ALTINCI YER*

**M:676**. Əgər istifadəsi haram olan su və ya qabdan başqa bir suyu və ya qabı olmazsa (məsələn, suyu, yaxud qabı qəsbi olsa və ondan da başqa suyu və yaxud qabı olmasa), dəstəmaz və ya qusul yerinə təyəmmüm etməlidir.

### *YEDDİNCİ YER*

**M:677.** Əgər vaxt çox az olsa və dəstəmaz, yaxud qusul alacağı təqdirdə namazın hamısı, yaxud bir miqdarı namazın vaxtından sonra qılınacaqsa (qəza olacaqsa), təyəmmüm etməlidir.

**M:678.** Əgər qəsdən namazı çox tə'xirə salsa və qusul, yaxud dəstəmaz üçün vaxt olmasa, günah etmişdir, amma onun namazı təyəmmümlə səhihdir. Ehtiyat-müstəhəb budur ki, o namazın qəzasını yenidən qılsın.

**M:679.** Dəstəmaz və ya qusul alacağı təqdirdə namaz üçün vaxt qalıb-qalmayacağında şəkk edən bir kəs təyəmmüm etməlidir.

**M:680.** Vaxtın az olması səbəbilə təyəmmüm alan bir kəsin namazdan sonra ixtiyarında olan su əlindən çıxsa, hətta əgər öz təyəmmümünü pozmayıbsa, vəzifəsi təyəmmüm olan surətdə yenidən təyəmmüm etməlidir.

**M:681.** İxtiyarında su olan bir şəxs vaxtın az olması səbəbi ilə təyəmmüm alıb namaza başlasa və namaz əsnasında ixtiyarında olan su əlindən çıxsa, sonrakı namazlar üçün həmin təyəmmümlə namaz qıla bilməz, əksinə yenidən təyəmmüm almalıdır.

**M:682.** Əgər insanın dəstəmaz və ya qusul alıb namazı müstəhəb əməlləri (iqamə, qunut və s.) yerinə yetirmədən qılmağa vaxt varsa gərək qusul edib, yaxud dəstəmaz alıb namazı, onun müstəhəb əməllərini yerinə yetirmədən qılsın. Hətta əgər Surəni oxumaq üçün də vaxt olmasa, qusul edib dəstəmaz almalı, namazı Surəsiz qılmalıdır.

### *TƏYƏMMÜMÜN SƏHİH OLDUĞU ŞEYLƏR*

**M:683.** Təyəmmüm torpağa, quma, kəsəyə, daşa (əgər pak olsalar) səhihdir. Həmçinin, bişmiş palçığa (kərpic, kuzə və s.) da səhihdir.

**M:684.** Gəc daşına, əhəng daşına, qara mərmər daşına və s. növlərdən olan daşlara təyəmmüm etmək səhihdir. Amma cəvahirlərə (əqiq, firuzə və s.) edilən təyəmmüm batildir. Ehtiyat-vacib budur ki, bişmiş əhəngə və gəcə də təyəmmüm edilməsin.

**M:685.** Əgər torpaq, qum, kəsək və daş tapılmasa, palaz-paltar, xalça və s. kimi şeylərin üstündə olan tozlara təyəmmüm edilməlidir. Əgər toz da tapılmasa, palçığa təyəmmüm edilməlidir. O da tapılmasa, ehtiyat-müstəhəbbə görə namazı təyəmmümsüz qılmalı, ehtiyata əsasən, sonra qəzasını da yerinə yetirməlidir.

**M:686.** Əgər palaz-paltar və s. kimi şeyləri çırpmaqla torpaq əldə etmək mümkün olarsa, bu halda toza təyəmmüm etmək batildir. Əgər palçığı qurudub torpaq əldə etmək mümkün olarsa, bu halda palçığa edilən təyəmmüm batildir.

**M:687.** Suyu olmayan bir kəsin qarı və ya buzu olsa, mümkün olan surətdə onu əridib su etməli və onunla dəstəmaz və ya qusul almalıdır. Amma əgər mümkün olmasa və təyəmmümün səhih olduğu şeylər də tapılmasa, ehtiyat-müstəhəb budur ki, namazı dəstəmazsız, təyəmmümsüz qılsın, ehtiyat-vacibə görə sonradan qəzasını etsin.

**M:688.** Əgər torpağa və quma təyəmmümün batil olduğu şeylər (saman kimi) qarışsa, ona təyəmmüm etmək olmaz. Amma həmin qarışıq çox az olub torpaqda və ya qumda aradan getmiş hesab olunsa, onlara təyəmmüm etmək səhihdir.

**M:689.** Təyəmmüm etmək üçün bir şey olmazsa, imkan daxilində almaq və s. yollarla əldə etmək lazımdır.

**M:690.** Palçıq divara təyəmmüm etmək səhidir. Amma ehtiyat-müstəhəb budur ki, quru yer və quru torpaq olan halda, nəmli torpağa və yerə təyəmmüm olunmasın.

**M:691.** Üstünə təyəmmüm edilən şey pak olmalıdır. Əgər bir şəxsin təyəmmümün səhih olduğu pak şeyi olmazsa, namaz ona vacib deyil. Amma ehtiyat-müstəhəb budur ki, təyəmmümsüz və dəstəmazsız namaz qılıb ehtiyat-vacibə görə qəzasını da yerinə yetirsin.

**M:692.** Əgər bir şeyə təyəmmümün səhih olduğunu yəqin etdikdən sonra təyəmmüm edib sonradan, həmin şeyə batil olduğu mə'lum olsa, o təyəmmümlə qıldığı namazı yenidən qılmalıdır.

**M:693.** Üstünə təyəmmüm edilən şey qəsbi olmamalıdır.

**M:694.** Fəzası qəsbi olan yerdə edilən təyəmmüm batil deyil. Deməli, bir kəs öz mülkündə əllərini yerə vurub icazəsiz başqasının mülkünə daxil olaraq əllərini alnına çəksə, onun təyəmmümü batil deyil.

**M:695.** Əgər təyəmmüm aldığı yerin qəsbi olmasını bilməsə və ya bilib unutsa–hətta unudan şəxsin özü qəsb edən olsa da, onun təyəmmümü səhihdir.

**M:696.** Qəsbi yerdə məhbus olan bir kəs, o yerin suyu və torpağı da qəsbi olarsa, təyəmmümlə namaz qılmalıdır.

**M:697.** Müstəhəbdir ki, üstünə təyəmmüm edilən şeyin tozu olsun ki, əllərdə qalsın. Əlləri ona vurduqdan sonra müstəhəbdir ki, bir az hərəkət etdirsin, tozları tökülsün.

**M:698.** Çala-çuxur yerə, yolların torpağına, şoran yerə (əgər torpağının üzünü duz örtməyibsə) təyəmmüm etmək məkruhdur. Amma əgər duz onun üstünü tutmuş olsa, batildir.

## *TƏYƏMMÜMÜN QAYDASI*

**M:699.** Təyəmmümdə dörd şey vacibdir: **1**-Niyyət; **2**-İki əlin içini, təyəmmümün səhih olduğu şeyə vurmaq; **3**-İki əli birlikdə alnın hər yerinə və onun iki tərəfinə: tüklər göyərən yerdən qaşlara qədər və burunun üst tərəfinə çəkmək. Ehtiyat-vacibə görə əllər qaşların da üstünə çəkilməlidir. **4**-Sol əlin içini sağ əlin üstünün hər yerinə və sağ əlin içini sol əlin üstünə eyni qayda ilə çəkmək.

**M:700.** Dəstəmaz və ya qusul əvəzindən olan təyəmmüm arasında heç bir fərq yoxdur. Amma ehtiyat-müstəhəb budur ki, şəxs, qusul əvəzindən olan təyəmmümü, əlləri iki dəfə yerə vurmaqla yerinə yetirsin: birinci dəfə əlləri yerə vurub alına, ikinci dəfədə isə əllərin arxasına çəksin. Hətta ehtiyat-müstəhəb budur ki, dəstəmaz əvəzindən olan təyəmmümü də bu qayda ilə, yə'ni iki dəfə yerə vurmaqla yerinə yetirsin. Daha yaxşı olar ki, təyəmmümü, əlləri üç dəfə yerə vurmaqla yerinə yetirsin: iki dəfə yerə vurduqdan sonra alına, sonra isə bir dəfə yerə vurub əllərin üstünə çəksin.

## *TƏYƏMMÜMÜN HÖKMLƏRİ*

**M:701.** Əgər alın və ya əllərin üstünün kiçik bir yerinə məss etməsə–istər qəsdən, istərsə də məsələni bilməməzlik və ya unutqanlıq üzündən olsun, təyəmmüm batildir. Amma həddindən artıq diqqət etmək lazım deyil: belə ki, "alnının və əllərinin üstünün hər yerinə məss çəkibdir", desələr kifayətdir.

**M:702.** Əllərin üstünün hamısına məss etməsini yəqin etmək üçün biləkdən bir az yuxarı da məss etməlidir, amma barmaqların arasına məss etmək lazım deyil.

**M:703.** Alın və əllərin üstünü, ehtiyat-vacibə görə yuxarıdan-aşağı məss etmək, onun işlərini bir-birinin ardınca (fasiləsiz) yerinə yetirmək lazımdır. Əgər onların arasında çox fasilə salsa və "təyəmmüm alır" deyilməsə, təyəmmümü batildir.

**M:704.** Niyyət edən zaman təyəmmümü dəstəmaz və ya qusul əvəzindən almasını; və qusul əvəzindən olarsa, hansı qusul əvəzindən olduğunu da müəyyən etməlidir. Əgər səhvən dəstəmaz əvəzindən olan təyəmmümü qusul əvəzindən olan, yaxud qusul əvəzindən olan təyəmmüm yerinə dəstəmaz əvəzindən olan təyəmmüm kimi niyyət etsə, habelə cənabət quslu əvəzindən olan təyəmmümdə məss-meyyit quslu əvəzindən olan təyəmmüm niyyət etsə və onun səhvi "ayırd etməkdə olan səhv" olmazsa, təyəmmümü batildir.

**M:705.** Təyəmmümdə alın, əllərin içi və üstü pak olmalıdır. Əgər əllərin içi nəcis olsa və onu suya çəkmək mümkün olmasa, elə nəcis əllə təyəmmüm etməlidir. Amma əlin içindəki nəcasət yayılan olsa, bu halda əlin üstü, yaxud dirsəklə bilək arasında olan yerlə təyəmmüm etməlidir.

**M:706.** İnsan təyəmmüm üçün əlindəki üzüyü çıxartmalı, alnında, əllərinin üstündə, içində maneə olsa (məsələn, bir şey yapışmış olsa), aradan qaldırmalıdır.

**M:707.** Əgər alın, əllərin üstü yara olsa və üstünə bağlanan parça və ya başqa şeyi aça bilməsə, əli onun (parçanın) üstünə çəkməlidir. Həmçinin əgər əlin içində yara olsa və parça (və bu kimi şeylər) ilə bağlanmış olsa, onu da aça bilməsə, əli həmin parça ilə təyəmmümün səhih olduğu şeyin üstünə vurub alına və əllərin üstünə çəkməlidir.

**M:708.** Əgər alında, əllərin üstündə tük olsa eybi yoxdur. Amma başın tükü alına tökülmüş olsa, onları dala çəkmək lazımdır.

**M:709.** Əgər alında, əllərin içində, üstündə maneə olmasını ehtimal versə və bu ehtimal camaatın nəzərində yerli ehtimal olsa, axtarış aparmalıdır ki, maneə olub-olmamasına dair yəqin, yaxud xatircəmlik tapsın.

**M:710.** Əgər bir kəsin vəzifəsi təyəmmüm olan halda təyəmmüm ala bilməsə, başqasını naib tutmalıdır. Naib tutulan şəxs onun öz əlləri ilə təyəmmüm etməlidir. Əgər mümkün olmasa, naib öz əllərini təyəmmümün səhih olduğu şeylərə vurub onun alnına və əllərinin üstünə çəkməlidir.

**M:711.** Əgər bir kəs hər hansı yerin təyəmmümünə başlayandan sonra, ondan əvvəlkiləri unudub-unutmamasında şəkk etsə, gərək şəkkinə e’tina etməsin: onun təyəmmümü səhihdir. Həmçinin, hər bir hissənin əməlini yerinə yetirdikdən sonra, səhih, düzgün şəkildə yerinə yetirib-yetirməməsində şəkk etsə, gərək şəkkinə e’tina etməsin: onun təyəmmümü səhihdir.

**M:712.** Əgər sol ələ məsh etdikdən sonra, təyəmmümü düzgün edib-etməməsində şəkk etsə, təyəmmümü səhihdir.

**M:713.** Vəzifəsi təyəmmüm olan bir kəs ehtiyat-vacibə görə gərək namaz vaxtı daxil olmamışdan qabaq, namaz üçün təyəmmüm etməsin. Amma əgər başqa bir vacib, yaxud müstəhəb iş üçün təyəmmüm etsə və namaz vaxtına qədər həmin üzrü yerində qalsa, o təyəmmümlə namaz qıla bilər.

**M:714.** Vəzifəsi təyəmmüm olan bir kəs, namaz vaxtının axırına qədər üzrünün qalacağını bilsə, vaxt geniş olan zaman təyəmmümlə namaz qıla bilər. Amma vaxtın axırına qədər üzrünün aradan qalxacağını bilsə, gözləyib, dəstəmaz və ya qusulla; yaxud vaxtın az olduğu zaman təyəmmümlə namaz qılmalıdır.

**M:715.** Dəstəmaz və ya qusul ala bilməyən şəxs, üzrünün tezliklə aradan qaldırılmasına ehtimal versə də, öz qəza namazlarını təyəmmümlə qıla bilər. Amma üzrün qəza namazının fövtə getməsindən qabaq aradan qaldırılacağını bilsə, gərək gözləsin.

**M:716.** Dəstəmaz və ya qusul ala bilməyən bir kəs gecə-gündüzün nafilə namazları kimi vaxtı müəyyən olan müstəhəb namazları, hətta vaxtın əvvəlində

də təyəmmümlə qıla bilər. Bu şərtlə ki, vaxtın axırına qədər üzrün aradan qalxması barədə yəqini olmasın.

**M:717.** Ehtiyatən cəbirə quslu və təyəmmüm alan (məsələn, arxasında, kürəyində yara olan) bir kəs qusul və təyəmmüm edib namaz qılandan sonra ondan kiçik hədəs baş versə (məsələn, bovl etsə) sonrakı namazlar üçün dəstəmaz almalıdır.

**M:718.** Əgər bir kəs su olmaması, yaxud başqa səbəblərə görə təyəmmüm etsə, üzrü aradan qaldırıldıqdan sonra təyəmmümü batil olur.

**M:719.** Dəstəmazı batil edən şeylər onun əvəzindən olan təyəmmümü də batil edir; habelə, quslu batil edən şeylər, onun əvəzindən olan təyəmmümü də batil edir.

**M:720.** Qusl edə bilməyən bir kəsə bir neçə qusul vacib olarsa, ehtiyat-vacibə görə hər birinin əvəzindən bir təyəmmüm etməlidir.

**M:721.** Qusul edə bilməyən bir kəs qusul edilməsi vacib olan bir iş görmək istəsə, qusul əvəzindən təyəmmüm etməlidir. Əgər dəstəmaz ala bilməsə və dəstəmazın vacib olduğu hər hansı iş görmək istəsə, dəstəmaz əvəzindən təyəmmüm almalıdır.

**M:722.** Əgər cənabət quslu əvəzindən təyəmmüm etsə, namaz üçün dəstəmaz alması lazım deyil. Amma əgər sair qusulların əvəzindən təyəmmüm etsə, (namaz üçün) dəstəmaz almalıdır. Dəstəmaz da ala bilməsə, onun əvəzindən də başqa bir təyəmmüm almalıdır.

**M:723.** Əgər qusul əvəzindən təyəmmüm etdikdən sonra dəstəmazı batil edən bir şey qarşıya çıxsa, bu halda sonrakı namazlar üçün qusul edə bilməsə, gərək dəstəmaz alsın; əgər dəstəmaz da ala bilmirsə, onun əvəzindən təyəmmüm etməlidir.

**M:724.** Vəzifəsi dəstəmaz və qusul əvəzindən təyəmmüm etmək olan bir kəsə bu iki təyəmmüm kifayət edər; başqa təyəmmüm lazım deyil.

**M:725.** Vəzifəsi təyəmmüm olan bir kəs, müəyyən bir iş üçün təyəmmüm etsə, nə qədər ki, təyəmmümü və üzrü yerində qalır, dəstəmaz, yaxud qusul ilə yerinə yetirilməli olan işləri görə bilər. Amma əgər vaxtın az olması, yaxud su olduğu halda meyyit namazı, yaxud yatmaq üçün təyəmmüm etsə, yalnız təyəmmüm etdiyi həmin işləri görə bilər.

**M:726.** Bir kəs aşağıdakı hallarda təyəmmümlə qıldığı namazları yenidən qılması müstəhəbdir: 1-Sudan istifadə etdiyi halda zərər törənəcəyindən qorxub, qəsdən özünü cünub etsə və təyəmmümlə namaz qılsa; 2-Su tapmayacağını bilib, yaxud güman etdiyi halda qəsdən özünü cünub etsə və təyəmmümlə namaz qılsa; 3-Vaxtın axırına qədər qəsdən su axtarmağa getməyib, namazı təyəmmümlə qılsa və sonradan bilsə ki, əgər su axtarmağa getsəydi, tapacaqdı; 4-Qəsdən namazı tə’xirə salıb, vaxtın axırında təyəmmüm ilə qılsa; 5-Su tapa

bilməyəcəyini bilib, yaxud güman etdiyi halda əlində olan suyu yerə töksə və təyəmmümlə namaz qılsa.

## NAMAZIN HÖKMLƏRİ

Namaz dinin ən mühüm əməllərindəndir ki, əgər Allah-Taalanın dərgahında qəbul olsa, sair ibadətlər də qəbul olar; yox əgər qəbul olunmazsa sair əməllər də qəbul olunmaz. Necə ki, insan gündə beş dəfə çayda çimsə, bədəni çirkdən təmizləndiyi kimi beşlik təşkil edən namazlar da insanı günahlardan təmizləyir. Daha yaxşı olar ki, insan namazı vaxtın əvvəlində qılsın. Hər kəs namazı alçaq və yüngül saysa, namaz qılmayanlar kimidir. Peyğəmbəri Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) buyurub: "Namaza əhəmiyyət verməyən və onu yüngül sayan kəs axirət əzabına layiqdir."

Günlərin birində Həzrəti Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) məsciddə idi. Bir kişi məscidə daxil olub namaza başladı, amma rüku və səcdəni layiqincə yerinə yetirmədi. Həzrət buyurdu: "Əgər bu kişi, namazı belə olan halda dünyadan getsə, mənim dinimdə dünyadan getməyib."

Deməli, insan gərək namazı əlüstü və tə'cili halda qılmasın. Namaz halında Allahı yad etsin, xüzu və xüşu və vüqarlı olsun. Xatırlasın ki, kiminlə danışır. Özünü Allahın böyüklüyü və əzəməti qarşısında çox zəlil və əhəmiyyətsiz görsün. Əgər insan namaz vaxtı bu məsələlərə tam diqqət yetirsə, özündən xəbərsiz olar. Necə ki, namaz halında oxu Əli (əleyhis-salam)-ın mübarək ayağından çıxartdılar və O Həzrət bunu hiss etmədi.

Həmçinin, namaz qılan şəxs tövbə və istiğfar etməli, namazın Allah dərgahında qəbul olmasının qarşısını alan günahları (həsəd, təkəbbür, qeybət, haram mal yemək, məstedici şeylər içmək, xums-zəkat verməmək, ümumiyyətlə hər günahı) tərk etsin. Həmçinin, daha yaxşı olar ki, namazın savabını azaldan işləri də görməsin. Məsələn, yuxulu halda, bovlun qabağını zorla saxladığı halda namaza dayanmasın, namazda göylərə tərəf baxmasın. Həmçinin namazın savabını artıran əməlləri yerinə yetirsin: əqiq üzük taxsın, pak-pakizə paltarlar geysin, başını darayıb, dişlərini yusun, özünü ətirləsin.

### *VACİBİ NAMAZLAR*

Vacibi namazlar altıdır: gündəlik namazlar, ayət namazı, meyyit namazı, Allah Evinin vacibi təvaf namazı (təməttö və müfrəd ömrədəki təvaf namazı, təməttö həccində təvaf namazı, nisa təvaf namazı), ata-ananın (böyük oğula vacib olan) qəza namazı, icarə, nəzir, and, əhd və s. kimi şeylərlə vacib olan namaz. (Qeyd etmək lazımdır ki, icarə, nəzir, and, əhd kimi şeylər səbəblərlə vacib olan namazların özü vacib deyil, əksinə icarə, nəzir, and və əhdə vəfa etmək səbəbilə vacibdir.)

## *GÜNDƏLİK VACİB NAMAZLAR*

Gündəlik vacib namazlar beşdir: zöhr və əsr (hər biri dörd rəkət), məğrib (üç rəkət), işa (dörd rəkət), sübh (iki rəkət).

**M:727.** Səfərdə dörd rəkətli namazlar gələcəkdə deyilən şərtlərlə, iki rəkət qılınmalıdır.

## *ZÖHR VƏ ƏSR NAMAZLARININ VAXTI*

**M:728.** Əgər çubuq və bu kimi şeyi düz yerə şaquli vəziyyətdə batırsalar, günəş çıxanda onun kölgəsi günbatan tərəfə düşür. Günəş yuxarı qalxdıqca, onun kölgəsi azalır. Günortadan keçəndə, çubuğun kölgəsi günçıxan tərəfə keçir. Günəş qüruba yaxınlaşdıqca, çubuğun kölgəsi də uzanır. Deməli, çubuğun kölgəsi azaldığı istiqamətdə ən az (minimum) nöqtəyə çatıb sonra artmağa başladığı vaxt şər'i zöhr olması mə'lum olur. Amma bə'zi şəhərlərdə (Məkkə kimi) bə'zi vaxtlar zöhr olanda çubuğun kölgəsi tamamilə yox olur. Kölgə yenidən görünməyə başlayanda mə'lum olur ki, zöhr olmuşdur.

**M:729.** Zöhrü müəyyən etmək üçün yerə batırılan çubuq və s. kimi şeylərə "şaxis" deyilir.

**M:730.** Zöhr və əsr namazlarının hər birinin məxsus və müştərək vaxtları vardır. Zöhr namazının məxsus vaxtı zöhrün əvvəlindən, zöhr namazı qılınan vaxt qədər keçənə qədərdir. Əsr namazının məxsus vaxtı isə məğribə, əsr namazı qılmaq miqdarında vaxt qalandadır ki, əgər bir kəs bu vaxta qədər zöhr namazını qılmasa qəza olur və əsr namazını qılmalıdır. Zöhr namazının məxsus vaxtı ilə əsr namazının məxsus vaxtı arasında olan vaxt bu namazların müştərək vaxtıdır. Əgər bir kəs müştərək vaxtda səhvən zöhr namazını əsrin yerinə, yaxud əsr namazını zöhrün yerinə qılsa səhihdir.

**M:731.** Əgər zöhr namazını qılmazdan əvvəl səhvən əsr namazına başlasa və namaz əsnasında səhvini başa düşsə, bu halda əgər müştərək vaxtdadırsa, niyyəti zöhr namazına döndərməlidir. (Yə'ni niyyət etməlidir ki, bu vaxta qədər qılmış olduğu, hal-hazırda qıldığı və bundan sonra qılacaqları–hamısı zöhr olsun.) Namazı qurtarandan sonra isə əsr namazı qılsın. Amma əgər zöhr namazının məxsus vaxtında olsa, niyyətini zöhr namazına döndərib namazı qurtarmalı, sonra isə əsr namazını qılmalıdır. Ehtiyat-müstəhəb budur ki, əsr namazından sonra, zöhrü və əsri yenidən qılsın.

**M:732.** Cümə namazı iki rəkətdən ibarətdir və cümə günü zöhr namazının yerinə qılınır. Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in, məsum İmamlar (əleyhis-salam)-ın və onun naiblərinin hazır olduqları vaxtlarda vacibi-eynidir,[13] Qeybəti-Kübra zamanında isə vacibi-təxyiridir,[14] yə'ni bir kəs zöhr

---

[13]hər bir şəxsin özünə (başqalarını nəzərə almadan) vacib olan əməldir (namaz, oruc kimi).

və cümə namazının hər birini qılmaqda ixtiyar sahibidir. Amma ədalətli İslam hökuməti zamanında cümə namazı qılınsa, daha yaxşı olar ki, cümə namazını qılsın.

**M:733.** Ehtiyat-vacib budur ki, cümə namazı camaat arasında zöhrün əvvəli hesab edilən vaxtdan o yana tə’xirə salınmasın; əgər zöhrün əvvəlindən tə’xirə düşsə, cümə namazının yerinə zöhr namazı qılınsın.

**M:734.** 730-cu məsələdə bəyan olunduğu kimi, zöhr və əsr, həmçinin, məğrib və işa namazlarının hər biri üçün məxsus vaxt vardır ki, əgər mükəlləf şəxs qəsdən əsr namazını zöhrün məxsus vaxtında, yaxud işa namazını məğribin məxsus vaxtında qılsa namazı batildir. Amma əgər, başqa bir namazı (məsələn, sübh namazının qəzasını) zöhrün və ya məğribin məxsus vaxtında qılsa, namazı səhihdir.

## *MƏĞRİB VƏ İŞA NAMAZLARININ VAXTI*

Məğrib o vaxtıdır ki, gün batandan sonra məşriq tərəfdən zahir olan qızartı, insanın başının üstündən (məğribə tərəf) keçmiş olsun.

**M:736.** Məğrib və işa namazlarının hər birinin həm məxsus, həm də müştərək vaxtı vardır. Məğrib namazının məxsus vaxtı məğribin əvvəlindən başlayır və məğribdən üç rəkət namaz qılmaq qədər vaxt keçəndə tamam olur. Əgər məsələn, bir kəs səfərdə olsa və işa namazının hamısını (iki rəkəti) səhvən bu vaxtda qılsa, namazı batildir. İşa namazının da məxsus vaxtı budur ki, onu qılmaq qədərində gecənin yarısına vaxt qalmış olsun. Əgər bir kəs bu vaxta qədər məğrib namazını qəsdən qılmasa, əvvəlcə işa namazını qılmalı, sonra isə məğribin qəzasını etməlidir.

Məğrib namazı ilə işa namazının məxsus vaxtları arasındakı vaxt bu iki namazın müştərək vaxtıdır ki, əgər bir kəs səhvən işa namazını məğrib namazından əvvəl qılsa və namazdan sonra, əvvəl qılmasını bilsə namazı səhihdir və məğrib namazını ondan sonra qılmalıdır.

**M:737.** Mə’nası qabaqkı məsələdə deyilən məxsus və müştərək vaxt müxtəlif şəxslər üçün fərqlidir. Məsələn, əgər iki rəkət namaz qılmaq qədərində zöhrün əvvəlindən keçsə, səfərdə olan şəxsin zöhr namazının məxsus vaxtı tamam olur və müştərək vaxtda daxil olar. Amma müsafir olmayan kəslər üçün zöhrün əvvəlindən dörd rəkət namaz qılmaq müddətində keçməlidir.

**M:738.** Əgər məğrib namazını qılmamışdan əvvəl səhvən işa namazına başlasa və namaz əsnasında səhvini başa düşsə, bu halda əgər qıldıqlarının hamısı və ya bir hissəsi müştərək vaxtda qılsa, dördüncü rəkətin rükusuna getməmiş olsa, niyyətini məğrib namazına döndərib namazı qurtarmalı, sonra da işa namazını qılmalıdır. Əgər dördüncü rəkətin rükusuna getmiş olsa, işa

---

[14] Bir neçə vacibdən, istədiyini görməkdə ixtiyar sahibidir.

namazını tamamlayıb sonra məğrib namazını qılmalıdır. Amma qıldıqlarının hamısı məğrib namazının məxsus vaxtında olarsa, namazı batildir.

**M:739.** İşa namazının vaxtının axırı gecə yarısıdır. Ehtiyat-vacib budur ki, məğrib, işa və s. namazlarda keçəni qürubun əvvəlindən sübh azanına qədər hesab etsin. Gecə namazı və bu kimi işlər üçün də günəş çıxan vaxta qədər hesab edə bilər.

**M:740.** Əgər müəyyən üzrlər səbəbilə məğrib, yaxud işa namazını keçə yarısına qədər qıla bilməsə, ehtiyat-vacibə görə gərək sübh azanından qabaq əda və qəza niyyəti etmədən qılsın.

### *SÜBH NAMAZININ VAXTI*

**M:741.** Sübh azanına yaxın vaxtlarda günçıxan tərəfdən bir ağartı yuxarı tərəfə hərəkət edir ki, buna birinci fəcr deyilir. Bu ağlıq üfüqün məşriq tərəfində genişlənib yayılsa, buna ikinci fəcr deylir ki, sübh namazının əvvəl vaxtıdır. Axırıncı vaxtı isə günəşin çıxdığı vaxtdır.

### *NAMAZ VAXTININ HÖKMLƏRİ*

**M:742.** İnsan vaxtın daxil olmasına yəqin edəndən, yaxud iki adil şəxsin vaxtın daxil olmasını xəbər verəndən sonra namaza başlaya bilər. Bu şərtlə ki, onların xəbərləri və şəhadətləri hissi olsun. Məsələn, şəhadət versinlər ki, şaxisin kölgəsi qısalıb axır həddə çatdıqdan sonra artmağa başlayıbdır. Vaxtı bilən və sözündən arxayanlıq hasil olan şəxsin azanı kifayətdir.

**M:743.** Kor, zindanda olan və bu kimi şəxslər ehtiyat-vacibə görə nə qədər ki, vaxtın daxil olmasını yəqin etməyiblər, namaza başlamasınlar. Amma əgər, insan göydə müəyyən maneə (bulud, toz, duman və s.) səbəbilə namazın əvvəl vaxtının daxil olmasını yəqin edə bilməsə və bu hamı üçün yəqin hasil olmasına maneədirsə, bu halda vaxtın daxil olduğunu güman etdikləri vaxt namaza başlaya bilərlər.

**M:744.** Əgər insan namazın vaxtının daxil olduğunu yəqin etsə, yaxud iki nəfər adil kişi hiss üzündən vaxtın daxil olmasını xəbər versə və o şəxs namaza başlayıb namaz əsnasında hələ vaxtın daxil olmadığını başa düşsə, namazı batildir. Həmçinin əgər namazdan sonra, namazın hamısının vaxtından qabaq qıldığını başa düşsə, namazı batildir və yenidən qılmalıdır. Amma əgər namaz əsnasında vaxtın daxil olduğunu başa düşsə, yaxud namazdan sonra, vaxtın namaz əsnasında daxil olduğunu bilsə, səhihdir.

**M:745.** Əgər insan qəflət və ya unutqanlıq üzündən namaza, vaxtın daxil olmasına yəqinlik hasil olduqdan sonra başlamalı olacağına diqqət yetirməsə, bu halda əgər namazdan sonra, namazın hamısını vaxtın daxilində qıldığını bilsə namazı səhihdir; əgər namazın hamısını vaxtdan əvvəl qıldığını başa düşsə, habelə vaxtında qıldığını, yaxud vaxtdan əvvəl qıldığını bilməsə namazı

batildir. Hətta əgər namazdan sonra, vaxtın namaz əsnasında daxil olduğunu başa düşsə, ehtiyat-vacib budur ki, o namazı yenidən qılsın.

**M:746.** Əgər vaxtın daxil olmasını yəqin edib namaza başlasa və namaz əsnasında yenidən vaxtın daxil olub-olmamasında şəkk etsə namazı batildir. Amma namaz əsnasında vaxtın olmasına yəqin edib, qıldığı miqdarın vaxt daxilində olub-olmamasında şəkk etsə namazı səhihdir.

**M:747.** Əgər namazın vaxtı çox az olsa və onun bə'zi müstəhəblərinin yerinə yetirilməsi vacibatının bə'zisinin vaxtdan xaricdə qılınacağına səbəb olsa, o müstəhəbləri tərk etməlidir. Məsələn, əgər qunutu yerinə yetirmək səbəbilə namazın bir miqdarı vaxtdan xaricdə qılınacaqsa qunut tutmamalıdır; əgər qunut tutsa, günah etmişdir, amma namazı səhihdir.

**M:748.** Bir kəsin bir rəkət namaz qılmaq miqdarında vaxtı olsa, namazı əda niyyəti ilə qılmalıdır. Amma gərək namazı qəsdən bu vaxta qədər tə'xirə salmasın.

**M:749.** Müsafir olmayan bir kəsin məğribə beş rəkətlik namaz qədərində vaxtı qalsa, zöhr və əsr namazının hər ikisini qılmalıdır. Amma bundan az vaxt qalırsa, gərək təkcə əsr namazını qılsın, sonra isə zöhrün qəzasını etsin. Habelə gecə yarısına qədər beş rəkətlik namaz qılmaq qədərində vaxt qalsa, məğrib və işa namazının hər ikisini qılmalıdır. Əgər bundan az miqdarda vaxt qalsa təkcə işa namazını qılıb, sonra məğrib namazını ehtiyat-vacibə görə əda və qəza niyyəti etmədən qılmalıdır.

**M:750.** Səfərdə olan bir kəsin əgər məğribə qədər üç rəkət namaz qılmaq miqdarında vaxtı olsa, zöhr və əsr namazının hər ikisini qılmalıdır. Əgər bundan az miqdarda vaxt olsa, təkcə əsr namazını qılıb sonra isə zöhr namazının qəzasını etsin. Habelə, əgər gecə yarısına qədər dörd rəkət namaz qılmaq miqdarında vaxt olsa məğrib və işa namazının hər ikisini qılmalıdır. Amma bundan az miqdarda vaxtı olsa, işa namazını qılıb sonra məğrib namazını əda və qəza niyyəti etmədən qılmalıdır. İşa namazını qıldıqdan sonra bir rəkət və ya daha artıq namaz qılmaq qədər vaxt qaldığı mə'lum olarsa, kecə yarısına qədər dərhal məğrib namazını əda niyyəti ilə qılmalıdır.

**M:751.** Müstəhəbdir ki, insan namazı vaxtında qılsın. Bu barədə çoxlu sifariş olunmuşdur. Namaz nə qədər əvvəl vaxtda yaxın vaxtlarda qılınsa bir o qədər yaxşıdır. Amma əgər namazın tə'xirə salınması müəyyən səbəblərə görə (məsələn, namazı tə'xirə salıb camaatla birlikdə qılmaq istəsə) yaxşı olsa eybi yoxdur.

**M:752.** Əgər insan müəyyən üzr səbəbilə əvvəl vaxtda namaz qılmaq istəsə və nəticədə təyəmmümlə qılmağa məcbur olsa, bu halda əgər üzrünün vaxtın axırına qədər qalacağını bilsə və ya ehtimal versə, əvvəl vaxtda namaz qıla bilər. Amma əgər misal üçün, paltarı nəcis olsa, yaxud başqa bir üzrü olsa və üzrünün aradan qalxmasına ehtimal versə, ehtiyat-vacibə görə üzrü aradan

qaldırılana qədər gözləməlidir ki, əgər üzrü aradan qalxmasa, axır vaxtda namaz qılsın. O qədər də gözləməməlidir ki, namazın təkcə vacib işlərini yerinə yetirə bilsin; hətta əgər namazın müstəhəb əməlləri üçün də (azan, iqamə, qunut) da vaxtı olsa, namazı nəcis paltarla, həmin müstəhəblə yerinə yetirsin.

**M:753.** Bir kəs namazın məsələlərini, şəkkiyyatı, səhviyyatı bilmirsə və bunlardan hər hansının namazda qarşıya çıxacağına ehtimal verirsə, ehtiyat-vacibə görə onları öyrənmək üçün namazı əvvəl vaxtdan sonraya tə'xirə salmalıdır. Amma əgər namazı səhih tərzdə tamam etməsinə xatircəmdirsə, əvvəl vaxtda qıla bilər: əgər namazda məsələsini bilmədiyi bir hökm qabağa gəlməsə, namazı səhihdir. Amma əgər hökmünü bilmədiyi bir məsələ qabağa gəlsə, ehtimal verdiyi iki tərəfdən birinə əməl edərək namazı qılıb qurtara bilər. Amma namazdan sonra məsələni soruşmalıdır ki, əgər batil olubsa, yenidən qılsın.

**M:754.** Əgər namazın vaxtı çox olsa və borclu da öz borcunu istəsə, mümkün olan surətdə gərək əvvəl borcunu verib, sonra namaz qılsın. Həmçinin əgər dərhal yerinə yetirilməsi vacib bir iş qarşıya çıxsa məsələn, məscidin nəcis olduğunu görsə, əvvəlcə məscidi təmizləyib sonra namazı qılmalıdır. Əgər əvvəl namazını qılsa mə'siyət etmişdir, amma namazı səhihdir.

### *TƏRTİBLƏ QILINMALI OLAN NAMAZLAR*

**M:755.** İnsan əsr namazını zöhrdən, işa namazını isə məğribdən sonra qılmalıdır. Əgər qəsdən əsr namazını zöhrdən və işa namazını məğribdən əvvəl qılsa, batildir.

**M:756.** Əgər zöhr niyyəti ilə namaza başlasa və namaz əsnasında, zöhr namazını qıldığı yadına düşsə, niyyəti əsrə döndərə bilməz. O namazı pozub əsr namazını qılmalıdır. Məğrib və işa namazında da bu qayda ilə.

**M:757.** Əgər əsr namazı əsnasında zöhr namazını qılmadığını yəqin edib niyyəti zöhr namazına döndərsə, rüknə daxil olandan sonra yenidən zöhr namazını qılması yadına düşsə, ehtiyat-vacibə görə gərək niyyəti əsrə döndərib namazı qurtarandan sonra əsr namazını sonradan qılsın. Amma əgər rüknə daxil olmamışdan qabaq yadına düşsə, gərək niyyəti əsrə döndərib zöhr niyyəti ilə qıldıqlarını əsr namazı niyyəti ilə yenidən qılsın və namazı səhihdir. Amma ehtiyat-müstəhəbbə görə gərək əsr namazını yenidən qılsın.

**M:758.** Əgər bir kəs əsr namazı əsnasında, zöhrü qılıb-qılmaması barədə şəkk etsə, niyyəti zöhrə döndərməlidir. Amma vaxt çox az olsa, belə ki, namazı qurtarandan sonra məğrib çatacaqsa, əsr namazı niyyəti ilə namazı qurtarıb sonra zöhrün qəzasını qılmalıdır.

**M:759.** Əgər işa namazı əsnasında dördüncü rəkətin rükusuna getməmişdən əvvəl, məğrib namazını qılıb-qılmaması barədə şəkk etsə, bu halda vaxt çox az olsa, belə ki, namazı qurtarandan sonra gecə yarısı olacaqsa işa namazı niyyəti

ilə namazı tamamlamalıdır. Amma əgər vaxtı çox olsa, niyyəti məğribə döndərməli, namazı üç rəkətlə qurtarıb sonra işa namazını qılmalıdır.

**M:760.** Əgər işa namazında dördüncü rəkətin rükusuna çatandan sonra məğrib namazını qılıb-qılmaması barədə şəkk etsə, gərək namazı qurtarıb sonra məğrib namazını qılsın. Amma əgər bu şəkk işa namazının məxsus vaxtında olsa, məğrib namazını qılmaq lazım deyil.

**M:761.** Əgər insan qıldığı namazı ehtiyatən yenidən qılsa və namaz əsnasında ondan qabaq qılmalı olduğu namazı qılmadığı yadına düşsə, niyyəti həmin namaza döndərə bilməz. Məsələn, əsr namazını ehtiyatən qıldığı vaxtda ki, zöhr namazını qılmadığı yadına düşsə, niyyəti zöhrə döndərə bilməz.

**M:762.** Niyyəti qəza namazından əda namazına, müstəhəbdən vacibə döndərmək caiz deyil.

**M:763.** Əgər əda namazının vaxtı çox olsa, insan namaz əsnasında niyyətini qəzaya döndərə bilər. Amma gərək niyyəti qəza namazına döndərmək mümkün olsun. Məsələn, zöhr namazını qılmağa məşğul olsa niyyəti üçüncü rəkətə daxil olmamış sübhün qəzasına döndərə bilər.

## *MÜSTƏHƏB NAMAZLAR*

**M:764.** Müstəhəb namazlar çoxdur, onlara nafilə deyilir. Müstəhəb namazlar arasında gecə-gündüz namazların nafiələlərini qılmağa daha çox tövsiyə olunubdur. Onlar cümə günü istisna olmaqla 34 rəkətdən ibarətdir ki, səkkizi zöhrün, səkkizi əsrin, dördü məğribin, ikisi işanın, on biri gecə namazının, ikisi sübh namazının nafiləsidir. İşa namazının nafiləsi ehtiyat-müstəhəbbə görə oturan yerdə qılınmalı olduğuna görə, bir rəkət hesab olunur. Cümə günündə zöhr və əsrin on altı rəkət nafiləsinə dörd rəkət də artırılır.

**M:765.** Gecə namazının on bir rəkət nafiləsindən səkkizi gecə namazı, iki rəkəti şəf" namazı, bir rəkəti də vətr namazı niyyəti ilə qılınmalıdır. Gecə namazının kamil qayda-qanunları dua kitablarında deyilmişdir.

**M:766.** Nafilə namazlarını oturan halda qılmaq olar. Amma daha yaxşı olar ki, iki rəkət oturan halda qılınan nafilə namazı bir rəkət hesab olunsun. Məsələn, zöhr namazının səkkiz rəkət nafiləsini oturan yerdə qılmaq istəyən şəxs, yaxşı olar ki, on altı rəkət qılsın. Əgər vətr namazını oturan yerdə qılsa, oturan halda iki dənə bir rəkətli namaz qılmalıdır.

**M:767.** Zöhr və əsrin nafiləsi səfərdə saqit olur və qılınmamalıdır. Amma işanın nafiləsini, "ola bilsin ki, Allahın istədiyidir" niyyəti ilə yerinə yetirmək olar.

## *GÜNDƏLİK NAFİLƏ NAMAZLARININ VAXTLARI*

**M:768.** Zöhr namazının nafiləsi onun özündən əvvəl qılınır. Vaxtı isə zöhrün əvvəlindən başlayıb, əmələ gələn kölgənin o şaxisin uzunluğunun yeddidə

ikisinə qədər keçəndədir. Məsələn, əgər şaxisin uzunluğu 70 sm. olsa, bu halda zöhrdən sonra əmələ gələn gölgənin uzunluğu 20 sm-ə çatanda, zöhrün nafiləsinin axırıncı vaxtıdır.

**M:769.** Əsr namazının nafiləsi əsrdən əvvəl qılınır. Onun vaxtı isə şaxisin zöhrdən sonra əmələ gələn kölgəsinin şaxisin uzunluğunun yeddidə dördünə qədər çatdığı vaxtdır. Əgər zöhrün, yaxud əsrin nafiləsini ondan sonra qılmaq istəsə, ehtiyat-vacibə görə zöhrün nafiləsini zöhrdən, əsrin nafiləsini də əsrdən sonra qılsın və ehtiyat-vacibə görə əda və ya qəza niyyəti də etməsin.

**M:770.** Məğribin nafiləsinin vaxtı məğrib namazı tamam olandan sonra başlayıb, məğribdən sonra günbatan tərəfdə əmələ gələn qızartının aradan getdiyi vaxta qədər davam edir.

**M:771.** İşa namazının nafiləsinin vaxtı işa namazı qurtarandan başlayıb gecə yarısına qədər davam edir. Daha yaxşı olar ki, işa namazından sonra dərhal qılınsın.

**M:772.** Sübh namazının nafiləsi sübh namazından qabaq qılınır və onun vaxtı, gecə yarısından on bir rəkətlik namaz vaxtı keçənə qədərdir. Ehtiyat budur ki, birinci fəcrdən əvvəl qılınmasın. Amma gecə namazı nafiləsindən sonra dərhal qılınsa, bu halda maneəsi yoxdur.

**M:773.** Gecə nafiləsinin vaxtı gecə yarısından sübh namazına qədərdir. Daha yaxşı olar ki, sübh namazına yaxın vaxtlarda qılınsın.

**M:774.** Müsafir və gecə namazını gecə yarısından qabaq qılmaq çətin olan, yaxud vaxtında ayıla bilməməsindən qorxan bir kəs, onu gecənin əvvəlində qıla bilər.

## *ĞÜFEYLƏ NAMAZI*

**M:775.** Müstəhəb namazlardan biri ğüfeylə namazıdır ki, məğrib və işa namazları arasında qılınır. Onun vaxtı, məğrib namazından sonra, məğrib tərəfdəki qızartı aradan gedənə qədərdir. O iki rəkətdən ibarətdir ki, birinci rəkətdə Həmddən sonra Surənin yerinə bu ayəni oxumaq lazımdır:

وَذَاالنُّونِ اِذ ذَهَبَ مُغَاضِبًا فَظَنَّ اَن لَن نَقدِرَ عَلَيهِ فَنَادَى فِى الظُّلُمَاتِ اَن لاَ اِلهَ اِلاَّ اَنتَ
سُبحَانَكَ اِنّى كُنتُ مِنَ الظَّالِمِينَ فَاستَجَبنَا لَهُ وَنَجَّينَاهُ مِنَ الغَمِّ وَكَذَالِكَ نُنجِي المؤمِنِينَ

“Və zənnuni iz zəhəbə muğazibən fə zənnə ən lən nəqdirə ələyhi fə nada fizzulumati ən la ilahə illa əntə subhanəkə inni kuntu minəzzaliminə, fəstəcəbna ləhu və nəccəynahu minəl-ğəmmi və kəzalikə nuncil-mu”minin.

İkinci rəkətdə isə Həmddən sonra deyilməlidir:

وَعِندَهُ مَفَاتِحُ الغَيبِ لاَيَعلَمُهَا اِلاَّ هُوَ وَيَعلَمُ مَا فِى البَرِّ والبَحرِ وَمَا تَسقُطُ مِن وَرَقَةٍ اِلاَّ يَعلَمُهَا
وَلاَحَبَّةٍ فِى ظُلُمَاتِ الاَرضِ وَلاَ رَطبٍ وَلاَ يَابِسٍ اِلاَّ فِى كِتَابٍ مُبِينٍ

“Və indəhu məfatihul-ğəybi la yə’ləmuha illa hu, və yə’ləmu ma fil-bərri vəl-bəhri və ma təsqutu min vərəqətin illa yə’ləmuha və la həbbətin fi zulumatil-ərzi və la rətbin və la yabisin illa fi kitabin mubin.”

Qunutda isə deyilməlidir:

اَللَّهُمَّ اِنَّى اَسأَلُكَ بِمَفَاتِحِ الغَيبِ الَّتِى لاَيَعلَمُهَا اِلاَّ اَنتَ اَن تُصَلِّىَ عَلَى مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ وَاَن تَفعَلَ بِى كَذا وَ كَذا

“Allahummə inni əs’ələkə bi məfatihil-ğəybilləti la yə’ləmuha illa əntə, ən tusəlliyə əla Muhəmmədin və Ali-Muhəmmədin və ən təf’ələ bi” “Kəza və kəza” kəlmələrinin yerinə öz hacətlərini Allahdan istəyib sonra desin:

اَللَّهُمَّ اَنتَ وَلِىُّ نِعمَتِى وَالقَادِرُ عَلَى طَلِبَتِى تَعلَمُ حَاجَتِى فَاسأَلُكَ بِحَقِّ مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ عَلَيهِ وَعَلَيهِمُ السَلاَمُ لَمَّا قَضَيتَهَالِى

“Allahummə əntə vəliyyu ne’məti, vəl-qadiru əla təlibəti, tə’ləmu hacəti, fə əs’ələkə bi həqqi Muhəmmədin və Ali-Muhəmməd, ələyhi və ələyhimussəlam ləmma qəzəytəha li.”

## *QİBLƏNİN HÖKMLƏRİ*

**M:776.** Əzəmətli Məkkə şəhərində yerləşən Kə’bə Evi qiblədir ki, namazı onunla üzbəüz durub qılmaq lazımdır. Amma oradan uzaqda olan şəxs üzü qibləyə dursa, belə ki, “üzü qibləyə durub”, desələr kifayətdir. Həmçinin bə’zi işlər də (heyvan başının kəsilməsi kimi) üzü qibləyə yerinə yetirilməlidir.

**M:777.** Vacibi namazı ayaq üstə qılan bir kəs elə dayanmalıdır ki, “üzü qibləyədir”-desinlər Amma dizləri və ayaqlarının uclarının üzü qibləyə olması lazım deyil.

**M:778.** Oturan yerdə namaz qılmalı bir kəs adi qaydada otura bilmirsə və oturanda ayaqlarının altını yerə qoyursa, gərək namaz qılan halda üzü, sinəsi, qarnı, üzü qibləyə olsun. Baldırlarının üzü qibləyə olması lazım deyil.

**M:779.** Oturan halda namaz qıla bilməyən bir kəs namaz halında sağ böyrü üstə elə uzanmalıdır ki, bədəninin qabaq tərəfi üzü qibləyə olsun. Əgər bu da mümkün olmasa sol böyrü üstə elə uzanmalıdır ki, bədəninin qabaq tərəfi üzü qibləyə olsun; bu da mümkün olmasa arxası üstə elə uzanmalıdır ki, ayaqlarının altı qibləyə tərəf olsun.

**M:780.** Ehtiyat namazı, unudulmuş səcdə və təşəhhüd üzü qibləyə yerinə yetirilməlidir, səcdeyi-səhvdə də ehtiyat-müstəhəbdir ki, üzü qibləyə olsun.

**M:781.** Müstəhəb namazı yol gedə-gedə, minikdə (maşın, qatar, təyyarə, gəmi) də qılmaq olar. Əgər insan bu iki halda müstəhəb namazı qılsa üzü qibləyə olması vacib deyil.

**M:782.** Namaz qılmaq istəyən bir kəs qibləni tapmaq, hansı tərəfdə olduğunu yəqin etmək üçün çalışmalıdır. İki adil şahidin hissi nişanələr üzündən verdiyi şəhadətə, yaxud elmi qaydalar üzündən qibləni tanıyan və sözündən xatircəmlik

hasil olan şəxsin sözünə əsasən əməl edə bilər. Əgər bunlar mümkün olmasa, məscidin mehrabı, müsəlmanların qəbirləri və s. yollarla hasil olan gümana əməl etsin. Hətta əgər elmi qaydalar üzündən qibləni tanıyan fasiq və ya kafirin dediyinə əsasən, qibləni tanıya bilsə, kifayətdir.

**M:783.** Qiblənin müəyyən istiqamətdə olduğuna gümanı olan bir şəxs, ondan daha güclü bir güman tapsa, əvvəlki gümanına əməl edə bilməz. Məsələn, əgər qonaq, ev sahibinin dediyindən qiblənin istiqamətinə güman tapsa və elə, bu halda başqa bir yolla (məsələn, qiblənamənin göstərişinə əsasən) daha güclü bir güman tapsa, ev sahibinin dediyinə əməl etməməlidir.

**M:784.** Adi qiblənamələr düz işlədiyi halda qibləni tanımaq üçün yaxşı vasitələrdəndir. Ondan hasil olan güman, sair yollarla hasil olan gümanlardan heç də geri qalmır, üstəlik əksər hallarda onlardan daha dəqiqdir.

**M:785.** Əgər qiblənin istiqamətini bilməsə, məscidlərin mehrabına, müsəlmanların qəbirlərinə müraciət etməklə qibləni tapa bilər, amma əgər namaz qılmazdan əvvəl öz sə’yi ilə, yaxud sair vasitələrdən (qiblənamə və s.) istifadə etməklə başqa bir cəhətə yəqin və ya xatircəmlik tapsa, ehtiyat-vacibə görə, məscidin mehrabı və müsəlmanların qəbirlərini əsas tutub qiblə götürə bilməz. Xüsusilə o, bu məntəqənin müsəlmanlarının məscidin mehrabını tikməkdə və qəbirləri düzəltməkdə təxminə yol verib kifayət qədər diqqət etmədiklərinə çoxlu güman tapsa namazı daha güclü zənn, yaxud xatircəmlik tapdığı tərəfə qılmalıdır.

**M:786.** Əgər qibləni tapmaq üçün vəsaiti olmasa, yaxud sə’y etməsinə baxmayaraq gümanı heç bir tərəfə çatmazsa, bu halda namazın vaxtı çoxdursa, dörd tərəfə namaz qılmalıdır; əgər dörd namaz qılmağa vaxtı yoxdursa, vaxtın çatacağı tərəflərə namaz qılmalıdır. Məsələn, əgər təkcə bir namaz qılmaq qədərində vaxtı varsa, onda hər tərəfə olursa olsun, bir namaz qılmalıdır. Namazları da elə qılmalıdır ki, heç olmazsa, birinin qibləyə tərəf olmasına yəqinlik olsun.

**M:787.** Əgər bir kəs, iki tərəfdən birinin qiblə olmasını güman etsə, hər iki tərəfə namaz qılmalıdır. Amma ehtiyat-müstəhəb budur ki, güman etdiyi surətdə dörd tərəfə namaz qılsın,

**M:788.** Bir neçə tərəfə namaz qılmalı olan şəxs, əgər zöhr və əsr, yaxud məğrib və işa namazını qılmaq istəsə, yaxşı olar ki, birinci namazı vacib olan hər tərəfə qılıb sonra ikinci namazı başlasın.

**M:789.** Qiblənin istiqamətinə yəqini olmayan bir kəs, namazdan başqa, üzü qibləyə yerinə yetirilməli olan sair işləri (məsələn, heyvanın başını kəsmək kimi) görmək istəsə gümana əməl etməlidir. Əgər gümanı da mümkün olmasa, hər tərəfə yerinə yetirsə səhihdir.

**M:790.** Əgər qiblə tərəfə zənn tapsa, amma namaz əsnasında zənni başqa bir istiqamətə dönsə, namazın qalan hissəsini ikinci istiqamətə qılmalıdır. Amma

əgər qıldığı namaz sağa, sola, yaxud qiblənin arxasına olmuşdursa, bu halda gərək namazını qibləyə tərəf tamamlasın. Ehtiyat-müstəhəbbə görə namazı yenidən qılsın.

**M:791.** Əgər qiblə barəsində təhqiqat aparmadan, qəflət, yaxud səhlənkarlıq üzündən namaza başlasa, bu halda namazdan sonra qiblənin səhih olmasını başa düşsə və namazı da qılmasında qürbət qəsdi olsa, namazı səhihdir. Amma namazdan sonra qiblənin səhih olmadığını başa düşsə, batildir–yenidən qılmalıdır.

**M:792.** Əgər bir kəs qoyun, yaxud dəvənin başını qəsdən qiblədən başqa tərəfə kəssə, yaxud nəhr etsə, o qoyunun və dəvənin ətini yemək haramdır. Amma əgər (onları kəsəndə) qiblənin istiqamətini bilməsə, yaxud unutsa və ya cahil və üzrlü olaraq başı qiblədən başqa istiqamətə kəsmiş olsa, yemək halaldır.

### *NAMAZDA BƏDƏNİN ÖRTÜLMƏSİ*

**M:793.** Kişi namaz halında–hətta əgər bir kəs onu görmürsə də–ovrəteynini örtməlidir. Daha yaxşı olar ki, göbəkdən dizlərə qədər də örtsün.

**M:794.** Qadın namaz halında bütün bədənini, hətta başını və tüklərini örtməlidir. Amma üzünü, dəstəmazda yuyulan miqdarda, əllərini biləyə qədər, ayaqlarını topuğa qədər ötrməsi lazım deyil. Amma vacib miqdarın örtülməsinə yəqin etmək üçün üzünün ətrafını və biləkdən bir az aşağı hissəni də örtməlidir.

**M:795.** İnsan unudulmuş səcdə, yaxud təşəhhüdün qəzasını yerinə yetirdiyi vaxt, habelə ehtiyat-vacibə görə səcdeyi-səhvi də yerinə yetirdiyi vaxt özünü namaz halında olduğu kimi örtməlidir.

**M:796.** Qadınlar üçün namaz halında sün'i tükləri (pariki), gizlində olan zinətlərini (bilərzik, boyunbağı) və üzündə olan zinəti (gözün sürməsi kimi) örtməsi lazım deyil. Amma naməhrəmdən örtməsi vacibdir.

**M:797.** Əgər insan namazda qəsdən ovrətini örtməsə, namazı batildir. Hətta əgər məsələni bilməməzlik üzündən də olsa, ehtiyat-vacibə görə yenidən qılmalıdır.

**M:798.** Əgər namaz əsnasında ovrətinin açıldığın başa düşsə, örtməlidir. Əgər ovrətini örtmək vaxt çox tutsa, ehtiyat-vacib budur ki, namazı qurtarıb yenidən qılsın. Amma əgər namazdan sonra, namazda ovrətinin açıldığını başa düşsə, namazı səhihdir.

**M:799.** Əgər bir kəs ayaq üstə olanda paltarı ovrətini örtüb başqa hallarda (məsələn rükuya, səcdəyə gedəndə) örtməməsi gözlənilirsə, bu halda ovrəti açıq olan vaxtlar müəyyən vasitələrlə onu örtə bilsə, namazı səhihdir. Amma ehtiyat-müstəhəbdir ki, bu cür paltarla namaz qılmasın.

**M:800.** İnsan namaz halında özünü ot və yarpaqla örtə bilər, amma ehtiyat-müstəhəb budur ki, başqa şey tapılmayan halda bu kimi şeylərlə özünü örtsün.

**M:801.** Əgər namazda özünü örtmək üçün palçıqdan başqa bir şeyi olmasa, palçıq satir (örtük) olmadığından, çılpaq halda namaz qıla bilər. Amma ehtiyat-müstəhəb budur ki, hər ikisinə əməl etsin: bir dəfə çılpaq halda, bir dəfə isə palçıqla ovrəteyni örtüb namaz qılsın.

**M:802.** Əgər özünü namazda örtmək üçün bir şey tapa bilməsə və tapacağına ehtimal versə, ehtiyat-vacibə görə namazı tə'xirə salmalıdır. Amma əgər bir şey tapmasa, gərək namaz vaxtının axırında öz vəzifəsinə müvafiq olaraq namazı qılsın.

**M:803.** Namaz qılmaq istəyən bir kəsin hətta ağac yarpağı və otu olmasa və vaxtın axırına kimi də bir şey tapacağına ehtimal verməsə, onu naməhrəm görəcəyi surətdə oturan halda namaz qılmalı, ovrətini budları ilə örtməlidir; yox əgər bir kəs onu görmürsə, ayaq üstə namaz qılıb əlləri ilə ovrətini örtsün. Hər iki halda rüku və səcdəni işarə ilə yerinə yetirsin və səcdədə başını azacıq aşağı endirsin.

### *NAMAZ QILANIN PALTARI*

**M:804.** Namaz qılanın paltarında altı şərt lazımdır: 1-Pak olsun; 2-Ehtiyat-vacibə görə mübah olsun (qəsbi olmasın); 3-Paltarının hissələri ölü heyvandan olmasın; 4-Əti haram olan heyvanlardan olmasın; 5 və 6-Əgər namaz qılan kişidirsə, paltarı xalis ipəkdən və ya qızıldan toxunmuş olmasın. (Bunların təfsilatı gələcək məsələlərdə bəyan olunacaq.)

### *BİRİNCİ ŞƏRT*

**M:805.** Namaz qılanın paltarı pak olamalıdır; əgər bir kəs qəsdən nəcis paltar və ya bədənlə namaz qılsa, namazı batildir.

**M:806.** Nəcis paltar və nəcis bədənlə qılınan namazın batil olmasını bilməyən bir kəs nəcis paltar və nəcis bədənlə namaz qılsa, namazı batildir.

**M:807.** Əgər nəcis şeyin nəcis olmasını, məsələn, nəcasət yeyən dəvənin, yaxud kafirin tərinin nəcis olmasını bilməsə və bu tərlərin dəydiyi bədən, yaxud paltarla namaz qılsa, namazı batildir.

**M:808.** Əgər namazdan əvvəl bədən və ya paltarının nəcis olmasını bilməyib namazdan sonra bilsə, namazı səhihdir. Amma ehtiyat-müstəhəb budur ki, əgər vaxtı varsa, o namazı (pakladıqdan sonra) yenidən qılsın.

**M:809.** Əgər paltar və ya bədəninin nəcis olmasını unutsa və namaz əsnasında, yaxud ondan sonra yadına düşsə, namazı yenidən qılmalı; vaxtı keçmiş olarsa, qəzasını yerinə yetirməlidir.

**M:810.** Əgər bir kəs namaz vaxtının çox olduğu vaxtda namaza məşğul olub namaz əsnasında bədəni və ya paltarı nəcis olsa və namazın hər hansı bir əməlini bu halda qılmazdan əvvəl nəcis olmasını bilsə; yaxud bədən və ya paltarının nəcis olmasını görüb həmin vaxt, yaxud əvvəldən nəcis olmasında

şəkk etsə, onda bədən və ya paltarı suya çəkmək, dəyişdirmək və ya bədəndən çıxarmaq namazın surətini pozmazsa, gərək namaz əsnasında bu işləri etsin; və yaxud başqa bir şey ovrətini örtmüş olsa, paltarını çıxartsın, sonra namazını davam etdirsin. Amma əgər bədən və ya paltarını suya çəkəcəyi, dəyişəcəyi, yaxud çıxaracağı surətdə namazın surəti pozulsa, yaxud paltarını çıxaracağı təqdirdə tam çılpaq qalacaqsa, namazı pozmalı, pak bədən və ya paltarla namaz qılmalıdır.

**M:811.** Namaz vaxtının az olduğu bir vaxtda, namaz qılmağa məşğul olan bir kəsin namaz əsnasında bədən və ya paltarı nəcis olsa və namazın hər hansı bir hissəsini nəcasətlə qılmamışdan qabaq nəcis olmasını başa düşsə, yaxud onun paltarının nəcis olmasını görüb həmin vaxt nəcis olduğu, yoxsa əvvəldən nəcis olduğunda şəkk etsə, bu halda onu suya çəkmək, dəyişmək və ya çıxartmaq namazın surətini pozmursa və paltarını çıxara bilərsə, paltarını çıxarıb suya çəkməli və ya dəyişdirməli, yaxud bir şey onun ovrətini örtmüşsə paltarını çıxartmalı və namazı tamamlamalıdır. Amma başqa bir şey ovrətini örtməmişsə, paltarını da suya çəkə, yaxud dəyişə bilmirsə, paltarını çıxarmalı, çılpaq adamın namaz qılmasında deyilən göstərişlərə əsasən, namazı tamamlamalıdır. Amma əgər paltarını suya çəkdikdə, yaxud dəyişdikdə namazın surəti pozulursa, yaxud soyuq və s. səbəbilə paltarını çıxara bilmirsə, elə həmin halda namazını qurtarmalıdır və namazı da səhihdir.

**M:812.** Namaz vaxtının az olduğu vaxtda namaza başlayan bir kəsin namaz əsnasında bədəni nəcis olsa və namazın hər hansı hissəsini həmin halda qılmamışdan əvvəl nəcis olduğunu bilsə, yaxud nəcis olduğunu görüb həmin vaxtda, yaxud namazdan əvvəl nəcis olmasında şəkk etsə, bu halda bədənini suya çəkəndə namazın surəti pozulmursa gərək suya çəksin; yox əgər namazın surəti bir-birinə dəyərsə həmin halda namazı tamam etməlidir, namazı da səhihdir.

**M:813.** Öz paltar və ya bədəninin pak olmasında şəkk edən bir kəs namazdan sonra bədən və ya paltarının nəcis olmasını başa düşsə namazı səhihdir.

**M:814.** Əgər paltarını suya çəkib pak olduğunu yəqin etsə və onunla namaz qılıb sonradan pak olmadığını başa düşsə ehtiyat-vacibə görə namazın vaxtı varsa yenidən qılmalı, əgər vaxtı keçmişsə qəzasını etməlidir.

**M:815.** Əgər öz bədənində, yaxud paltarında qan görüb nəcis qanlardan olmadığını yəqin etsə (məsələn, ağcaqanad qanı olduğunu bilsə), amma namazdan sonra onunla namaz qılmağın səhih olmadığı qan olduğunu bilsə, namazı səhihdir.

**M:816.** Bədənində və ya paltarında olan qanın namaz qılmağın səhih olduğu nəcis qanlardan (məsələn, yara qanı və ya çiban qanı) olmasını yəqin etsə namazdan sonra, həmin qanla namazın batil olduğunu bilsə, namazı səhihdir.

**M:817.** Əgər hər hansı bir şeyin nəcis olmasını unutsa və bədəni, yaxud paltarı rütubətlə ona dəysə və bunu unudub namaz qılsa, namazdan sonra yadına düşsə namazı səhihdir. Amma əgər bədəni, rütubətlə, nəcis olduğunu unutduğu şeyə dəysə və onu suya çəkmədən qusul edib namaz qılsa, quslu və namazı batildir. Həmçinin dəstəmaz üzvlərindən bir yeri rütubətlə, nəcis olduğunu unutduğu bir şeyə dəysə və o yeri suya çəkmədən dəstəmaz alıb namaz qılsa, dəstəmazı və namazı batildir.

**M:818.** Əgər bir nəfərin təkcə bir paltarı olsa və bədəni, paltarı nəcis olsa, su da onların birini suya çəkmək miqdarında olsa, bu halda paltarını çıxarda bilərsə gərək bədənini suya çəkib, çılpaqların namaz qaydalarına əməl edərək namazını qılsın. Amma soyuq, yaxud başqa səbəbdən paltarını çıxara bilməsə, bu halda paltarın və bədənin nəcasəti–hər ikisi bərabər olsa (məsələn, hər ikisi bovl, yaxud hər ikisi qan ilə nəcis olsa), yaxud bədənin nəcasəti artıq və ya daha şədid olsa (məsələn, bədən bovl ilə nəcis olmuşsa) və bunu da iki dəfə qəlil su ilə suya çəkmək lazımdırsa, ehtiyat-vacib budur ki, bədəni suya çəksin. Əgər paltarının nəcasəti çox, yaxud daha şədid olsa, bədən və paltardan hər birini suya çəkməkdə ixtiyar sahibidir.

**M:819.** Nəcis paltarından başqa paltarı olmayan bir kəs, namaz üçün vaxt az olsa, yaxud pak paltar tapmasına ehtimal vermirsə, gərək namazı çılpaqar üçün deyilən qaydalara əsasən qılsın. Amma həmin şəxs, havanın soyuq olması və s. səbəblərə görə paltarını çıxarda bilmirsə, o paltarda namaz qılmalıdır, namazı da səhihdir.

**M:820.** Əgər bir kəsin iki paltarı olsa və ikisindən birinin nəcis olmasını bilsə, amma onları suya çəkə bilməsə və hansının nəcis olmasını bilməsə, vaxt olan halda hər ikisində namaz qılmalıdır. Məslən, əgər zöhr və əsr namazlarını qılmaq istəyirsə, hər paltarda bir zöhr və bir əsr namazı qılmalıdır. Amma əgər vaxt az olsa, ehtiyat-vacibə görə namazı çılpaqların namazlarında deyilən göstərişlərə əsasən qılmalı və ehtiyat-vacibə görə pak paltarda həmin namazın qəzasını qılmalıdır.

### *İKİNCİ ŞƏRT*

**M:821.** Namaz qılan şəxsin paltarı, ehtiyat-vacibə görə, mübah olmalıdır. Qəsbi paltarı geyməyin haram olmasını bilən bir kəs qəsdən qəsbi paltarda, yaxud sapı, düyməsi, yaxud başqa şeyləri qəsbi olan bir paltarda namaz qılsa, ehtiyat-vacibə görə namazı batildir. Onu qəsbi olmayan paltarda yenidən qılmalıdır.

**M:822.** Qəsbi paltarı geyməyin haram olduğunu bilən, amma namazı batil etdiyini bilməyən bir kəs, qəsdən qəsbi paltarda namaz qılsa ehtiyat-vacibə görə namazı batildir və onu qəsbi olmayan paltarda yenidən qılmalıdır.

**M:823.** Əgər paltarının qəsbi olmasını bilməsə və ya unudub onunla namaz qılsa, namazı səhihdir. Amma əgər paltarı özü qəsb etmiş olsa və səhlənkarlıq, e’tinasızlıq üzündən qəsb etməsini unutsa, lazım ehtiyata əsasən, namazı batildir, o namazı, qəsbi olmayan paltarda yenidən qılmalıdır.

**M:824.** Qəsbi əşyalar–istər kiçik olsun, istərsə də böyük (təsbeh, dəsmal və s. kimi) namaz qılanın üstündə (cibində) olsa, namazı batil etməz.

**M:825.** Əgər bir kəs canını qorumaq üçün qəsbi paltarda namaz qılsa, yaxud misal üçün, oğrunun onun qəsb etdiyi paltarı aparmasın deyə, o paltarda namaz qılsa, namazı səhihdir.

**M:826.** Əgər bir kəs paltarının qəsbi olmasını bilməsə, yaxud unutsa və namaz əsnasında başa düşsə, onda başqa bir şey onun ovrətini örtmüş olsa və namazın muvalatına xələl yetirmədən və namazın surətini pozmadan dərhal onu çıxarda bilirsə, kərək onu çıxartsın, namazı davam etdirib tamamlasın, namazı da səhihdir. Amma əgər ovrətini bir şey örtmürsə, yaxud qəsbi paltarı dərhal bədənindən çıxara bilmirsə və ya bədənindən çıxaracağı halda namazın surəti pozulacaqsa, bu halda hətta bir rəkətlik namaz üçün də vaxt varsa, namazı pozub qəsbi olmayan paltarla yenidən qılmalıdır.

Əgər bu qədər də vaxt olmazsa namaz üstündə paltarını çıxarıb çılpaq şəxsin namazında deyilən göstərişlərə əməl edərək namazı qurtarmalıdır.

**M:827.** Əgər zəkatı və ya xumsu verilməmiş pulun eyni ilə paltar alsa, bu paltar qəsbi paltar hökmündədir və onunla qılınan namaz batildir.

Amma əgər zimməsinə alsa, yə’ni müamilə vaxtında xumsu-zəkatı verilməyən puldan verəcəyini nəzərdə tutsa, bu halda yanında xumsu verilməsi lazım olmayan başqa pulu da olsa və zimməsinə alıb xumsu verilməmiş puldan versə, (o paltarda) namazı səhihdir. Əks halda isə batildir.

### *ÜÇÜNCÜ ŞƏRT*

**M:828.** Namaz qılanın paltarı gərək atıcı qanı olan (yə’ni damarını kəsdikdə qan sıçrayışla gələn) heyvanların ölüsünün hissələrindən olmasın. Hətta əgər atıcı qanı olmayan (balıq və ilan kimi) heyvanların ölüsündən paltar hazırlasalar, ehtiyat-müstəhəb budur ki, onunla namaz qılınmasın.

**M:829.** Əgər murdar olmuş heyvanın ruhu olan ət, dəri və s. kimi şeyləri namaz qılanın üstündə olsa–hətta onun paltarı da olmasa belə namazı batildir.

**M:830.** Əgər murdar olmuş əti halal heyvanın ruhu olmayan hissələri (tükü, yunu və s.) namaz qılanın üstündə olsa, yaxud onlardan hazırlanmış paltarda namaz qılsa, namazı səhidir.

### *DÖRDÜNCÜ ŞƏRT*

**M:831.** Namaz qılanın paltarı əti haram olan heyvanlardan hazırlanmamalıdır. Əgər o heyvanların, hətta bir tükü belə namaz qılanın üstündə olsa, namazı batildir.

**M:832.** Əgər əti haram olan heyvanların (pişik kimi) ağzının, burnunun suyu, yaxud başqa rütubəti namaz qılanın bədənində, yaxud paltarında yaş olsa, namazı batildir. Quru və eyni aradan qaldırılmış olsa, namazı səhihdir.

**M:833.** Əgər bir kəsin tükü, təri, yaxud ağzının suyu namaz qılanın bədənində və ya paltarında olsa, həmçinin, namaz qılanın üstündə mirvarid, mum, bal olsa, eybi yoxdur.

**M:834.** Əgər paltarının əti halal olan, yaxud haram olan heyvandan hazırlanmasında şəkk etsə–istər ölkə daxilində istehsal olunanlardan olsun, istərsə də xaricdə–onunla namaz qılmağın maneəsi yoxdur.

**M:835.** Əgər insan sədəfdən olan düymə və bu kimi şeylərin heyvandan olduğunu ehtimal versə, onunla namaz qılmağın maneəsi yoxdur. Əgər sədəf olmasını ehtimal versə və sədəfin də əti olmasa, onda namaz qılmağın eybi yoxdur.

**M:836.** Xəz adlanan heyvanların dərisindən hazırlanan paltarda namaz qılmağın eybi yoxdur. Ehtiyat-vacibə görə sincabın dərisi ilə namaz qılmasınlar.

**M:837.** Bir kəs əti haram olan heyvanlardan olub-olmaması mə’lum olmayan paltar ilə namaz qılsa namazı səhihdir. Amma bunu unutmuş olsa ehtiyat-vacibə görə bu namazı yenidən qılmalıdır.

**M:838.** Plastik mə’mulatlar və s. kimi şeylərdən hazırlanan sün’i dərilərdə namaz qılmağın eybi yoxdur. Deməli hər vaxt insan bir şeyin sün’i, yaxud həqiqi dəridən və habelə əti haram olan heyvanın, yaxud ölü heyvanın dərisindən hazırlanmasında şəkk etsə, onunla namaz qılmağın eybi yoxdur.

### *BEŞİNCİ VƏ ALTINCI ŞƏRTLƏR*

**M:839.** Qızıldan toxunmuş paltar geymək kişiyə haramdır və onunla namaz qılsa batildir. Amma qadın üçün namaz və s. hallarda eybi yoxdur.

**M:840.** Qızıl ilə zinət vermək (məsələn, boynuna qızıl zəncir (sep) asmaq, ələ qızıl üzük və qızıl saat taxmaq) kişilər üçün haramdır və onlarda namaz qılmaq batildir. Ehtiyat-vacib budur ki, qızıl eynəkdən də istifadə olunmasın. Amma qadın üçün qızıldan zinət verməyin həm namaz, həm də qeyri-namaz vaxtlarında eybi yoxdur.

**M:841.** Əgər bir kişi üzük və ya paltarının qızıldan hazırlandığını bilməyib onunla namaz qılsa namazı səhihdir. Amma paltarı, yaxud üzüyünün qızıldan olduğunu unudub namaz qılsa, ehtiyat-vacibə görə namazı batildir.

**M:842.** Kişi üçün qızıl ilə zinət vermək, qızılla toxunmuş paltar geymək–istər görünən yerdə olsun, istərsə də görünməyən yerdə–haram, onunla namaz qılmaq batildir. Deməli əgər kişinin alt köynəyi qızıldan olsa, yaxud boynunda qızıl zəncir (sep) olsa–hətta görünməsə də haram, namazı isə batildir.

**M:843.** Namaz qılan kişinin paltarı gərək xalis ipəkdən olmasın. Həmçinin ehtiyat-vacibə görə (təklikdə ovrətini örtməyə kifayət olmayan) araqçın və ya bu kimi şeylərin, hətta namazdan başqa vaxtlarda da geyilməsi kişiyə haramdır.

**M:844.** Əgər paltarın astarının hamısı, yaxud bir hissəsi xalis ipəkdən olsa, onun geyilməsi kişi üçün haram, onunla qılınan namaz da batildir.

**M:845.** Əgər qızıl üzük, zəncir və s. kişinin cibində olsa, eybi yoxdur, namazı da batil etmir.

**M:846.** Xalis ipəkdən və ya başqa şeydən hazırlanması mə’lum olmayan paltarı geyməyin eybi yoxdur, onunla namaz qılmaq səhihdir.

**M:847.** İpək dəsmal və bu kimi şeylər kişinin cibində olsa eybi yoxdur, namazı da batil etmir.

**M:848.** Qadının namazda və qeyri-namazda ipək paltar geyməsinin eybi yoxdur.

**M:849.** Məcburiyyət qarşısında qəsbi, xalis ipəkdən və ya qızıldan toxunan, murdar olmuş heyvandan hazırlanan paltar geyməyin maneəsi yoxdur. Həmçinin bir kəs paltar geyməyə məcbur olsa və bunlardan başqa paltarı da olmasa, namaz vaxtının axırına kimi də onun bu halı davam etsə bu paltarlarla namaz qıla bilər.

**M:850.** Əgər namaz qılan kişinin paltarı ipək və başqa şeylə qarışıq toxunmuş olsa, onda namaz qılmaq səhihdir. Bu şərtlə ki, həmin qarışıq namazın səhih olduğu şeylərdən olsun. Amma ipəyə qatılan şey çox az olub hesaba gəlməzsə o paltarda namaz qılmaq kişi üçün caiz deyildir.

**M:851.** Əgər qəsbi və ölmüş heyvandan hazırlanmış paltardan əlavə paltarı olmasa və paltar geyməyə naçar olmasa, çılpaqların hökmündə deyilənlərə uyğun olaraq namaz qılmalıdır.

**M:852.** Əgər əti haram olan heyvandan hazırlanmış paltardan başqa paltarı olmasa və bu paltarı geyməyə məcbur olsa, həmin paltar ilə namaz qıla bilər. Amma naçar olmasa, çılpaqların namazında deyilən göstərişlərə əsasən namaz qılıb sonra ehtiyat-vacibə görə bir dəfə də həmin paltarda namaz qılmalıdır.

**M:853.** Əgər kişinin xalis ipək və ya qızıldan toxunmuş paltardan başqa paltarı olmasa, bu halda həmin paltarı geyməyə məcbur olmasa, çılpaqların namazında deyilən göstərişlərə əsasən namaz qılmalıdır.

**M:854.** Əgər ovrətini namazda örtmək üçün bir şey olmasa, vacibdir ki, kirayə və pulla almaqla da olsa paltar hazırlasın. Amma əgər həmin paltarı almaq üçün çoxlu pul tələb olunursa və bu pullar onun var-dövlətinə nisbətən çoxdursa, yaxud bu pulları həmin paltarı almağa xərcləsə, halına zərər

yetirəcəksə, bu halda çılpaqların namazının göstərişlərinə əsasən namaz qılmalıdır.

**M:855.** Paltarı olmayan bir kəsə başqası paltar bağışlasa və yaxud kirayə versə, bu halda onu qəbul etmək o şəxs üçün məşəqqətli deyilsə, qəbul etməlidir. Hətta əgər əmanət götürmək, yaxud bəxşiş istəmək onun üçün çətin deyilsə paltarı olan kəsdən bəxşiş istəməli və yaxud əmanət almalıdır.

**M:856.** Ehtiyat-vacibə görə gərək insan parçası, rəngi və tikilişi onun üçün adi olmayan şöhrət paltarlarını geyməkdən çəkinsin. Amma o paltarla namaz qılsa eybi yoxdur.

**M:857.** Ehtiyat-vacibə görə gərək kişi qadın paltarı, qadın da kişi paltarı geyməsin. Amma əgər o paltarda namaz qılsalar, eybi yoxdur

**M:858.** Örtüyü olmayan və vaxtın axrına qədər örtük tapa bilməyəcəyini ehtimal verən bir kəs ehtiyat-vacibə görə gərək namazı əvvəl vaxtdan tə'xirə salıb namazı örtüklə qılsın.

**M:859.** Uzanan halda namaz qılmalı olan bir kəs çılpaq olsa və onun yorğan-döşəyi nəcis, yaxud xalis ipəkdən və ya əti haram olan heyvanlardan olsa, ehtiyat-vacibə görə gərək namazda özünü onlarla örtməsin.

### *NAMAZ QILANIN PALTAR VƏ BƏDƏNİNİN PAK OLMASININ LAZIM OLMADIĞI HALLAR*

**M:860.** Təfsilatı sonrakı məsələdə deyiləcək üç halda namaz qılanın bədəni və ya paltarı nəcis olsa, onun namazı səhihdir:

**1-**Bədəni yara və ya çiban səbəbilə qana bulaşarsa;

**2-**Onun paltarı və ya bədəni dirhəmdən az qana bulaşarsa;

**3-**Nəcis paltar və ya bədənlə namaz qılmağa naçar olsa.

İki halda isə namaz qılanın təkcə paltarı nəcis olsa, namazı səhihdir:

**1-**Onun kiçik paltarı (corab, əlcək kimi) nəcis olarsa;

**2-**Uşaq saxlayan qadının paltarı nəcis olarsa. (Bu beş surətin təfsilatı deyiləcək.)

**M:861.** Əgər namaz qılanın bədənində və paltarında yara, yaxud çiban qanı olsa, bu halda bədənin və paltarın suya çəkilməsi, yaxud dəyişdirilməsi əksər camaat üçün və ya o şəxsin özü üçün çətin olsa, nə qədər ki, onun yarası, yaxud çibanı sağalmayıb, o qanla namaz qıla bilər. Həmçinin qanla birlikdə çölə gələn çirk, yaxud yaranın üstünə qoyulan dərman nəcis olub bədənində, yaxud paltarında olsa da (namaz qıla bilər).

**M:862.** Əgər namaz qılanın bədənində və ya paltarında yuyulması asan olan kəsik yerin qanı, yaxud tezliklə sağalan yara qanı dirhəm qədərində və ondan çox olarsa, namazı batildir.

**M:863.** Əgər bədənin, yaxud paltarın yara yerdən aralı olan hissəsi yaranın rütubəti ilə nəcis olsa, onunla namaz qılmaq caiz deyil. Amma bədənin və ya

paltarın adətən yaranın rütubətinə bulaşan hissələri onun rütubəti ilə nəcis olsa, onunla namaz qılmağın maneəsi yoxdur.

**M:864.** Əgər ağız, burun və bu kimi üzvlərin içindən bədənə və ya paltara qan dəysə, namaz üçün onu suya çəkmək lazımdır: onunla namaz qılmaq olmaz. Amma, babasil qanı ilə, hətta şişləri daxildə də olsa, namaz qılmaq olar.

**M:865.** Bədəni yara olan bir kəs bədənində, yaxud paltarında qan görüb yara qanı və ya başqa qan olduğunu bilməsə, onunla namaz qılmağın maneəsi yoxdur.

**M:866.** Əgər bədənin bir neçə yerində yara olsa və onlar bir-birinə çox yaxın olub bir yara hesab olunsalar, nə qədər ki, hamısı sağalmayıb, onlarla namaz qılmağın eybi yoxdur. Amma əgər bir-birindən çox aralı olsalar və hər biri bir yara hesab olunsa, onda hər biri sağalanda, namaz üçün bədən və paltarı onun qanından təmizləmək, suya çəkmək lazımdır.

**M:867.** Əgər heyz qanından iynənin ucu qədər namaz qılanın bədən və ya paltarında olsa, onun namazı batildir. Ehtiyat-vacibə görə gərək nifas və istihazə qanı da namaz qılanın bədənində və ya paltarında olmasın. Daha yaxşı olar ki, əti haram olan heyvanların qanından da namazda ictinab olunsun. Amma başqa qanlar (insanın, yaxud əti halal olan heyvanın qanı) paltarın bir neçə yerində olub üst-üstə dirhəmdən az olsa, onunla namaz qılmağın eybi yoxdur.

**M:868.** Əgər qan astarsız paltara tökülüb o biri tərəfinə keçsə bir qan hesab olunur. Amma onun arxası ayrılıqda qana bulaşsa, hər birini (hər iki tərəfdə olan qanı) ayrılıqda hesab etmək lazımdır: əgər paltarın içində və üstündə olan qan üst-üstə dirhəmdən az olsa namaz səhih, çox olsa batildir.

**M:869.** Əgər qan astarlı paltarın üstünə tökülüb, astarına keçsə, yaxud astara tökülüb paltarın üstünə çıxsa və paltar da qanlı olsa, hər birini ayrılıqda hesab etmək lazımdır. Deməli, paltarın üstündə və astarında olan qan üst-üstə dirhəmdən az olsa və namaz səhih, çox olsa batildir.

**M:870.** Bədəndə, yaxud paltarda olan qan dirhəmdən az olsa və ona rütubət dəysə, bu halda qan və ona dəyən rütubət–ikisi birlikdə dirhəm qədərində, yaxud ondan çox olub ətrafını bulaşdırsa onunla qılınan namaz batildir. Hətta əgər rütubətlə qan birlikdə dirhəm qədərində olmasa və ətrafına bulaşmasa da onunla namaz qılmağın işkalı var. Amma əgər rütubət qanla qarışıb aradan getsə, namaz səhih, əks halda (aradan getməsə) batildir.

**M:871.** Əgər bədən, yaxud paltar qanlı olmasa, amma qana dəymək səbəbilə nəcis olsa, hətta nəcis olan miqdar dirhəmdən az olsa da onunla namaz qılmaq olmaz.

**M:872.** Əgər bədəndə, yaxud paltarda olan qan dirhəmdən az olsa və ona başqa bir nəcasət dəysə (məsələn, üstünə bovl damcısı düşsə) onunla namaz qılmaq caiz deyil.

**M:873.** Əgər namaz qılanın, ovrəti örtə bilməyən kiçik paltarları (araqçın, corab, əlcək və s.) nəcis olsa, bu halda əti haram və ya murdar olmuş heyvandan hazırlanmış olmasa, onunla namaz qılmaq səhihdir. Həmçinin nəcis üzük və eynəklə namaz qılmağın eybi yoxdur.

**M:874.** Ehtiyat-vacib budur ki, ovrəti örtə bilən nəcis şey namaz qılanın üstündə olmasın. Amma bir kəs bu məsələni bilməyib bir müddət bu cür namaz qılsa namazlarının qəzasını qılması lazım deyil. Ovrəti örtə bilməyən (kiçik dəsmal, açar, bıçaq, pul və s.) nəcis şeyin isə namaz qılanın üstündə olmasının eybi yoxdur.

**M:875.** Uşağa baxan qadının birdən artıq paltarı olmasa və pulla, icarə və əmanət kimi ala bilməsə, gün ərzində paltarını bir dəfə suya çəksə, sonrakı günə qədər paltarı uşağın bovlu ilə nəcis olsa da belə, namaz qıla bilər. Amma ehtiyat-vacibə görə, gün ərzində bir dəfə, paltarı ondan qabaq nəcis olan birinci namaz üçün suya çəksin. Həmçinin birdən artıq paltarı olsa və onların hamısını geyməyə məcbur olsa, bu halda gün ərzində yuxarıdakı göstərişə əsasən onların hamısını bir dəfə suya çəksə kifayətdir.

### *NAMAZ QILANIN PALTARINDA MÜSTƏHƏB OLAN ŞEYLƏR*

**M:876.** Namaz qılanın paltarında bir neçə şey müstəhəbdir. O cümlədən: təhtül-hənəki olan əmmamə qoymaq, əba geymək (xüsusilə imam üçün); ağ paltar geymək, paltarların ən təmizini geymək, xoş iyli ətirdən istifadə etmək, əqiq üzük taxmaq.

### *NAMAZ QILANIN PALTARINDA MƏKRUH OLAN ŞEYLƏR*

**M:877.** Namaz qılanın paltarında bir neçə şey məkruhdur. O cümlədən: qara, çirkli, dar paltar geymək, şərab içənin və nəcasətdən pərhiz etməyən şəxsin paltarını, üstündə şəkil olan paltar geymək; həmçinin paltarın düymələrinin açıq olması, üstündə şəkil olan üzüyün taxılması da məkruhdur.

### *NAMAZ QILANIN YERİ*

Namaz qılanın məkanında bir neçə şərt vardır:

1-ci şərt budur ki, mübah olsun.

**M:878.** Əgər bir kəs qəsbi yerdə namaz qılırsa, hətta palaz, paltar, taxt və s. kimi şeylərin üstündə də olsa, namazı batildir. Amma qəsbi tavan və qəsbi xeymənin (çadırın) altında namaz qılmağın maneəsi yoxdur.

**M:879.** Mənfəəti başqasına məxsus olan yerdə, mənfəət sahibinin icazəsi olmadan namaz qılmaq batildir. Məsələn, icarə olunmuş evdə evin sahibi, yaxud başqa bir kəs namaz qılmaq istəsə, (və icarə edən şəxs icazə verməsə) namazı batildir. Həmçinin, başqasının haqqı olan bir mülkdə namaz qılsa, namazı batildir. Məsələn, əgər meyyit, malının üçdə birini müəyyən yerə məsrəf

edilməsini vəsiyyət etsə, nə qədər ki, onun üçdə biri ayrılmayıb, onun mülkündə namaz qılmaq olmaz.

**M:880.** Əgər bir kəs məsciddə otursa və başqası onun yerini qəsb edib orada namaz qılsa, ehtiyat-vacibə görə namazını başqa yerdə yenidən qılmalıdır.

**M:881.** Əgər qəsbi olmasını bilmədiyi yerdə namaz qılıb namazdan sonra başa düşsə, yaxud qəsbi olduğunu unutsa və namazdan sonra yadına düşsə, namazı səhihdir. Amma əgər özü qəsb etmiş olsa, səhih deyildir.

**M:882.** Əgər bir yerin qəsbi olduğunu bilsə, amma qəsbi yerdə namazın batil olduğunu bilməyib orada namaz qılsa, namazı batildir.

**M:883.** Vacibi namazını süvari halında qılmağa məcbur olan bir şəxsin mindiyi heyvan, yaxud onun palanı qəsbi olsa, namazı batildir. Müstəhəb namazlar da eyni qayda ilə.

**M:884.** Hal-hazırda müəyyən bir maliki və sahibi olmayan qəsbi torpaqda təsərrüf etmək[15] caiz deyildir və orada qılınan namaz batildir. Burada vəzifəni müəyyənləşdirmək üçün cameüş-şərait müctehidə[16] müraciət etmək lazımdır. Həmçinin müəyyən tikinti materiallarını (dəmir, kərpic və s.) qəsb edib onunla ev, yaxud mağaza tiksələr və o materialların sahibini tanımasalar, o ev və mağazadan istifadə etmək camaat arasında qəsbi malı ələ keçirmək hesab olunsa, caiz deyil, onda qılınan namaz da batildir. Bu barədə cameüş-şərait müctehidə müraciət etmək lazımdır.

**M:885.** Əgər bir kəs müəyyən bir mülkdə başqası ilə şərik olsa, şərikinin payı ayrılmasa, onun icazəsi olmadan o mülkdə təsərrüf edə və namaz qıla bilməz.

**M:886.** Xumsu və zəkatı verilməmiş pulun eyni ilə müəyyən bir mülk alınsa, o mülkdə təsərrüf etmək haram, onda qılınan namaz batildir. Həmçinin, əgər zimməsinə alsa və aldığı vaxt məqsədi pulunu xumsu və zəkatı verilməmiş maldan vermək istəsə də bu qayda ilə (təsərrüf haram, namaz batildir).

**M:887.** Əgər mülkün sahibi dildə namaz qılmaq icazəsi versə və insan onun qəlbən razı olmadığını bilsə, o mülkdə namaz qılmaq batildir; əgər icazə verməsə və insan onun qəlbən razı olduğunu bilsə, namazı səhihdir.

**M:888.** Xums və ya zəkat borcu olan meyyitin mülkündə təsərrüf etmək haram, onda namaz qılmaq batildir. Amma əgər onun, borclarını vermək niyyəti olubsa, batil olmaz.

**M:889.** Camaata borclu olan şəxs ölsə, onun mülkündə–borcu, malının hamısı qədərində olarsa–təsərrüf etmək haram, onda namaz qılmaq batildir. Amma meyyitin təchizatına (kəfən-dəfn işlərinə) vərəsələrin tərəfindən xərclənən adi, cüz"i təsərrüfün maneəsi yoxdur. Əgər borcu malından az olsa və

---

[15]İxtiyarına keçirmək, alıb-satmaq, hədiyyə etmək, ümumiyyətlə hər növ istifadə nəzərdə tutulur.

[16]Mərcəyi-təqlid olmaq üçün lazım olan bütün şərtlərə malik olan şəxs.

onun borclarının az olması səbəbilə borc sahibinin (və ya sahiblərinin) razı olmasını, vərəsələrin də səhlənkarlıq etmədən onun borclarını verəcəklərini bilsələr, bu halda o mülkdə təsərrüf edib namaz qılmağın eybi yoxdur. Amma ehtiyat-vacibə görə meyyitin qəyyumundan da icazə almaq lazımdır.

**M:890.** Əgər meyyitin borcu olmasa, amma vərəsələrindən bə’zisi səğir, dəli və ya qaib olsalar, onun mülkündə təsərrüf etmək haram, namaz qılmaq da batildir. Amma kəfən və dəfn işlərində adət olan bu cür təsərrüflərin eybi yoxdur.

**M:891.** Ümumi məkanlarda–müştəri və müsafirlərin daxil olması üçün hazırlanan ümumi otel, müsafirxana və ya hamamlarda namaz qılmağın eybi yoxdur. Amma bu kimi yerlərdə müsafir və müştəri olmayan kəslərin, oranın sahibinin razılığını göstərən əlamətlərin olduğu halda namaz qılmasının eybi yoxdur. Məxsus yerlərdə isə mülk sahibinin icazəsi olmadan namaz qılmaq caiz deyildir. Əgər bu kimi yerlərdə sair təsərrüflərə icazə versə və bundan da namaz qılmağa icazə verməsi mə’lum olsa, orada namaz qılmaq olar. Məsələn, bir şəxs yeməyə də’vət olunsa, şübhəsiz ki, namaz qılmağa da razılıqları var imiş.

**M:892.** Şəhər və kəndlərdən çox uzaqda yerləşən, adətən heyvanların otlağı olan və hal-hazırda otlaq üçün istifadə olunmayan geniş sahəli torpaqların sahiblərinin razı olmamalarına baxmayaraq, orada namaz qılmaq, oturmaq və yatmağın eybi yoxdur. Həmçinin şəhər və kəndlərin yaxınlığındakı hasarsız əkin yerlərində, hətta sahibləri səğir və dəli olsalar da, namaz qılmaq, oradan ötüb keçmək və məhsula zərər yetirməyən cüz”i təsərrüf etməyin eybi yoxdur. Amma əgər sahiblərindən biri narazı olsa, orada təsərrüf etmək haram, namaz qılmaq batildir.

2-i şərt budur ki, namaz qılanın yeri hərəkətsiz, qərarlaşan olsun.

**M:893.** Namaz qılanın məkanı hərəkətsiz olmalıdır. Əgər vaxtın azlığı, yaxud başqa zəruri məsələlər ucbatından hərəkət edən yerdə (avtomobil, qatar gəmi, qayıq) namaz qılmağa məcbur olsa, bu kimi vasitələr qiblədən başqa tərəfə hərəkət etsələr, namaz qılan qibləyə tərəf dönməlidir və mümkün qədər hərəkət halında bir şey deməməlidir. Amma zaman fasiləsi çox olsa və namazın muvalatı pozulsa, nəticədə namaz surətindən çıxsa, namazı batildir.

**M:894.** Avtomobil, gəmi, qatar, təyyarə və bu kimi şeylər dayanmış olsalar onda namaz qılmağın maneəsi yoxdur.

**M:895.** Üstündə dayanmaq mümkün olmayan arpa-buğda dəyirman xırmanında, qum təpəsində və s. kimi yerlərdə namaz batildir. Amma əgər onların hərəkəti çox az olsa və namazın vacibatını yerinə yetirib başqa şərtlərə də riayət etmək mümkün olsa maneəsi yoxdur.

**M:896.** Külək, yağış, camaatın çox olması və bu kimi şeylərin ehtimal verilməsi səbəbilə namazın tamam qılınmasına yəqinlik olmayan yerdə bir kəs namazı qurtarmaq ümidi ilə başlasa, eybi yoxdur. Əgər, bu halda hər hansı bir

maneəyə rastlaşsa, namaz səhihdir. Qalmaq haram olan yerlərdə (məsələn, tavanın uçması, dağın sürüşməsi, sel gəlməsi ehtimalı olan yerlərdə, ağır trafiki olan avtomobil yollarında, xüsusilə gecə vaxtı) gərək namaz qılınmasın; əgər bir kəs qılsa namazı səhihdir, lakin haram işə mürtəkib olmuşdur. Həmçinin, üstündə dayanmaq və ya oturmaq haram olan yerlərdə (məsələn, Allahın adı və Qur'an ayələri yazılan paltar, palaz və qəzet kimi) namaz qılmaq olmaz. Amma əgər bir kəs namaz qılsa, namazı səhihdir, lakin günaha mürtəkib olmuşdur.

3-cü şərt budur ki, namaz elə yerdə qılınmalıdır ki, onun vacibatını yerinə yetirmək mümkün olsun.

**M:897.** Tavanı alçaq olan və düz dayanmaq mümkün olmayan yerlərdə, yaxud rüku və səcdə üçün yer olmayan kiçik yerlərdə namaz qılmaq olmaz. Əgər belə yerlərdə namaz qılmağa məcbur olsa qiyam, rüku, səcdəni mümkün olan qədər yerinə yetirməlidir.

**M:898.** İnsan gərək ədəb qaydalarına riayət edib Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in, İmamlar (əleyhimüs-salam)-ın qəbrindən qabaqda namaz qılmasın (yə'ni arxası qəbrə tərəf olmasın). Əgər belə yerlərdə namaz qılması ehtiramsızlıq olsa bu iş haram, namazı da batildir. Amma İmamlar (əleyhimüs-salam)-ın, mə'sumların mütəhhər qəbri ilə bərabər (bir xətt boyunca) durub namaz qılsa, batil olmaz. Hərçənd ki, mə'sumların ehtiramına riayət etmək, ədəb qaydalarına riayət etmək bəyənilən və yaxşı işlərdəndir.

**M:899.** Əgər namazda divar kimi bir şey onunla mə'sumun mütəhhər qəbri arasında fasilə salsa və ehtiramsızlıq sayılmasa eybi yoxdur. Amma şərif sandığın və zərihin, habelə qəbrin üstünə salınan parçanın fasilə salması kifayət deyildir.

4-cü şərt budur ki, namaz qılanın yeri nəcis olmasın.

**M:900.** Namaz qılanın yeri nəcis olarsa o qədər yaş olmamalıdır ki, rütubəti bədəninə, yaxud paltarına sirayət etsin. Əgər namazda əfv olunan (icazə verilən) nəcasətlərdən olsa eybi yoxdur. Amma alının qoyduğu yer nəcis hətta quru da olsa, namaz batildir. Ehtiyat-müstəhəb budur ki, namaz qılanın məkanı ümumiyyətlə nəcis olmasın.

**M:901.** Namazda qadın kişidən arxada dayanmalıdır. Daha yaxşı olar ki, qadının səcdə yeri kişinin dayandığı yerdən bir az arxada olsun. Deməli, əgər qadın kişidən qabaqda və yaxud onunla bir cərgədə (bir xətt boyunca) dayansa, namazı batildir. Bu hökmdə məhrəmlə naməhrəm, ərlə arvad arasında, namazın müstəhəb, yaxud vacib olmasının heç bir fərqi yoxdur.

**M:902.** Əgər qadın kişi ilə bir səviyyədə və ya ondan qabaqda dursa və hər ikisi birlikdə namaza başlasa, hər ikisinin namazı batildir. Amma əgər biri əvvəlcə namaza başlasa, onun namazı səhih, sonradan başlayanın namazı batildir.

**M:903.** Əgər qadınla kişi arasında divar, pərdə, yaxud bir-birini görmədikləri şey, yaxud aralarında on zira (təqribən 5 m) fasilə olsa, namazları səhihdir.

**M:904.** Əgər qadın ikinci mərtəbədə namaz qılsa, kişidən qabaqda, yaxud onunla bir cərgədə dursa da–hətta əgər ikinci mərtəbənin ucalığı on ziradan az olsa da, namazı səhihdir.

Beşinci şərt budur ki, namaz qılanın alnının yeri dizlərindən dörd bağlı barmaq qədər uca, yaxud alçaq olmasın.

**M:905.** Namaz qılanın alnının yeri dizlərindən dörd bağlı barmaq qədər uca, yaxud alçaq olmamalıdır. Ehtiyat-vacibə görə ayaq barmaqlarının ucundan da bu qədər alçaq və ya uca olmasın.

**M:906.** Naməhrəm kişi və qadının, başqalarının daxil ola bilmədiyi xəlvət yerdə olmaları haramdır. Orada qıldıqları namaz da səhih deyil. Amma əgər onlardan biri namaza başlasa və ona naməhrəm olan sonrakı daxil olsa birincinin namazının eybi yoxdur.

**M:907.** Günah məclisi təşkil olunmuş yerdə (məsələn, şərab içilən, qumar oynanılan, qeybət edilən, tar və bu kimi şeylər çalınan yerdə) namaz qılmaq batildir.

**M:908.** Ehtiyat-vacibə görə Kə’bə Evində və onun damında vacib namaz qılınmasın, amma çarəsizlik halında eybi yoxdur.

**M:909.** Kə’bə Evində və onun damında müstəhəb namaz qılmağın eybi yoxdur. Üstəlik Kə’bə Evindəki hər rüknün müqabilində iki rəkət namaz qılmaq müstəhəbdir.

### *NAMAZ QILMAĞIN MÜSTƏHƏB OLDUĞU YERLƏR*

**M:910.** Müqəddəs İslam Şəriətində namazın məsciddə qılınmasına dair çoxlu tövsiyə olunmuşdur. Məscidlərdən ən yaxşısı Məscidül-Həram, sonra Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) məscidi, sonra Kufə məscidi, sonra Beytül-Müqəddəs məscidi, ondan sonra hər şəhərin came məscidi, sonra məhəllə məscidi, nəhayət bazar məscididir.

**M:911.** Qadınlar üçün daha yaxşı olar ki, namazı evdə, öz xüsusi otaqlarında qılsınlar. Amma özlərini naməhrəmlərdən tam qoruya bilsələr, yaxşı olar ki, məsciddə namaz qılsınlar. Şəriət hökmlərini, islami məsələləri öyrənmək üçün məscidə getməkdən başqa bir yol yoxdursa, vacibdir ki, məscidə getsinlər.

**M:912.** İmamlar (əleyhis-salam)-ın hərəmində namaz qılmaq müstəhəbdir. Üstəlik məsciddən də yaxşıdır. Əmirəl-mö’minin Əli (əleyhissalam)-ın mütəhhər hərəmində qılınan namaz iki yüz min rəkətə bərabərdir.

**M:913.** Məscidə çox getmək və namaz qılan olmayan məscidə getmək müstəhəbdir. Məscidin qonşuluğunda olan bir kəsin üzrü olmasa, məsciddən başqa yerlərdə namaz qılması məkruhdur.

**M:914.** Müstəhəbdir ki, insan e’tinasızlıq üzündən müsəlmanların məscidinə getməyən bir kəslə dostluq əlaqəsi bərqərar etməsin, onunla birlikdə çörək yeməsin, işlərində onunla məşvərət etməsin, onunla qonşu olmasın, ona qız verib qız almasın.

### *NAMAZ QILMAĞIN MƏKRUH OLDUĞU YERLƏR*

**M:915.** Bir neçə yerdə namaz qılmaq məkruhdur, o cümlədən: hamamda, şoran (duzlu) torpaqda, insanın qabağında, açıq qapı ilə üzbəüz, böyük yollarda, küçə və xiyabanlarda (əgər oradan keçənlərə əziyyət verməsə; amma əgər əziyyət versə haram, namazı da batildir), habelə, odun və çırağın müqablində, aşpazxanada, ümumiyyətlə od yandırılan hər yerdə; bovl edilən quyunun, çalaların müqabilində, şəkillə üzbəüz, ruhu olan şeylərin heykəlinin qarşısında (amma əgər onların üstünə pərdə çəksələr, eybi yoxdur); cünub şəxsin olduğu otaqda, şəkil olan otaqda (hətta əgər namaz qılanla üzbəüz olmasa da), qəbrin müqabilində, üstündə, iki qəbrin arasında və ümumiyyətlə qəbiristanlıqda.

**M:916.** Bir kəs camaatın get-gəl etdiyi yerdə namaz qılsa, yaxud bir kəs namaz qılanla üzbəüz olsa, müstəhəbdir ki, öz qabağına bir şey qoysun ki, özü ilə onların arasında fasilə salsın. Hətta əsa, təsbeh, ip və s. kimi şeylər də kifayətdir.

### *MƏSCİDİN HÖKMLƏRİ*

**M:917.** Məscidin yerini, tavanını, damını, içəri tərəfdən divarını murdarlamaq haramdır. Hər kəs bunların nəcis olduğunu bilsə, dərhal nəcasəti aradan qaldırmalıdır. Ehtiyat-vacibə görə məscidin divarını çöl tərəfdən də murdarlamaq olmaz. Əgər nəcis olsa, gərək nəcasəti aradan qaldırsınlar. Amma əgər vəqf edən şəxs həmin hissələri məsciddən hesab etməsə, vacib deyil.

**M:918.** Əgər bir kəs məscidi paklaya bilməsə və ya lazımi kömək edə bilməsə, yaxud avadanlıq tapa bilməsə, məscidi paklamaq ona vacib deyil. Amma ehtiyat-vacibə görə onu paklaya bilən bir şəxsə xəbər verməlidir.

**M:919.** Əgər məscidin müəyyən yeri nəcis olsa və onu qazmaqdan, uçurmaqdan başqa yolla paklamaq mümkün olmasa, oranı qazmalı və ya çox uçurulması lazım gəlməzsə, uçurmalıdırlar. Qazılmış yeri doldurmaq, uçurulmuş yeri düzəltmək vacib deyil. Amma əgər oranı nəcis edən şəxs qazsa və ya uçursa, imkan olan surətdə qazdığı yeri doldurmalı, uçurduğu yeri tə’mir etməlidir.

**M:920.** Əgər hər hansı məscidi qəsb edib yerində ev və s. tiksələr, yaxud şəhər və ya kəndin, küçə və xiyabanların genişləndirilməsində məscidin bir hissəsi küçəyə düşsə, belə ki, daha ona məscid deməsələr, yenə ehtiyat-vacibə görə oranı nəcisləmək haram, (nəcis olduqda) paklamaq vacibdir.

**M:921.** Cənazəyə qusul verməzdən qabaq məscidə qoymaq, nəcasət məscidə sirayət etməsə və ya ehtiramsızlığa səbəb olmasa, maneəsi yoxdur. Amma daha yaxşı olar ki, cənazəni məscidə qoymasınlar. Lakin qusul verdikdən sonra eybi yoxdur.

**M:922.** Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) məscidini, İmamlar (əleyhis-salam)-ın hərəmini nəcis etmək haramdır. Əgər nəcis olsa və nəcasətin orada qalması ehtiramsızlıq olsa onu paklamaq vacibdir. Hətta ehtiyat-müstəhəbbə görə ehtiramsızlıq olmasa da paklamaq lazımdır.

**M:923.** Əgər məscidin həsiri, palazı, xalçası nəcis olsa ehtiyat-vacibə görə suya çəkilməlidir. Amma suya çəkmək səbəbilə xarab olsa və nəcis olan yeri kəsmək daha yaxşı olsa gərək kəsilsin. Əgər nəcis edən kəs oranı kəssə, xəsarəti ödəməlidir.

**M:924.** Nəcasətin eynini (qan, bovl və s. kimi) məscidə aparmaq ehtiramsızlıq olarsa haramdır. Həmçinin nəcis olmuş şeyləri (nəcis ayaqqabı və nəcis paltar kimi) ehtiramsızlıq olacağı surətdə məscidə aparmaq haramdır.

**M:925.** Əgər əzadarlıq, rovzəxanlıq, matəm, dini bayramlar və s. kimi mərasimləri təşkil etmək üçün məsciddə çadır qursalar və qara vursalar, çay, yemək hazırlamaq üçün lazım olan avadanlıqları məscidə aparsalar, bu halda əgər bu işlərdən məscidə zərər çatmazsa və namaz qılmağa mane olmazsa, eybi yoxdur.

**M:926.** Ehtiyat-vacibə görə gərək məscidə qızılla zinət verməsinlər, həmçinin insan və heyvan kimi ruhu olan şeylərin şəklini məscidə çəkməsinlər. Ruhu olmayan şeylərin (gül, ağac budağı və s.) şəklini çəkmək məkruhdur.

**M:927.** Əgər bir məscid xarab olsa da, onu satmaq, yaxud hər hansı bir mülkə qatmaq, üstündən yol salmaq olmaz.

**M:928.** Məscidin qapı, pəncərə, və s. kimi şeylərini satmaq haramdır. Əgər məscid xarab olsa, onları satıb həmin məscidin tə’mirinə sərf etmək lazımdır. Amma əgər həmin məsciddə gərəksiz olsa, başqa məscidlərə məsrəf olunmalıdır. Əgər başqa məscidlərə də lazım olmasa, satıb pulu ilə mümkün olan surətdə həmin məscidi tə’mir etməlidirlər; əgər mümkün olmazsa, sair məscidlərin tə’mirinə sərf edilməlidir.

**M:929.** Məscid düzəltmək, xarab olma ərəfəsində olan məscidi tə’mir etmək müstəhəbdir. Əgər bir məscid, tə’mir edilməsi mümkün olmayacaq dərəcədə xarab olsa, onu uçurub yenidən tikmək lazımdır. Hətta, xarab olmayan məscidi də camaatın ehtiyacını tə’min etmək üçün söküb genişləndirmək olar.

**M:930.** Məscidi təmizləmək, çıraqban etmək müstəhəbdir. Müstəhəbdir ki, məscidə getmək istəyən bir kəs özünü ətirləsin, pak-pakizə, gözəl və qiymətli paltarını geysin. Ayaqqabısını diqqətlə yoxlasın ki, nəcis olub-olmamasına yəqini olsun. Məscidə daxil olanda əvvəl sağ ayağını, çıxanda isə sol ayağını atsın, hamıdan tez məscidə gedib, hamıdan gec məsciddən çıxsın.

**M:931.** Bir kəs məscidə daxil olsa müstəhəbdir ki, məscidə ehtiram və salam (təhiyyət) niyyəti ilə iki rəkət namaz qılsın. Əgər başqa müstəhəb və ya vacib namaz qılsa kifayətdir.

**M:932.** Məsciddə yatmaq (əgər çarəsizlik üzündən olmazsa) dünya işləri barəsində söhbət etmək, nəsə bir şeyi düzəltmək, öyüd-nəsihəti olmayan şe’rlər oxumaq məkruhdur. Həmçinin ağızın, burunun suyunu, sinədən gələn bəlğəmi məscidə atmaq, itmiş şeyi tələb etmək, öz səsini ucaltmaq məkruhdur. Amma azan üçün səsi ucaltmağın maneəsi yoxdur.

**M:933.** Uşağı və dəlini məscidə buraxmaq məkruhdur. Amma əgər uşaqların oraya gətirilməsi başqalarının narahatçılığına səbəb olmazsa və onlarda namaza, məscidə qarşı məhəbbət yaranmasına səbəb olarsa, müstəhəbdir.

**M:934.** Bir kəs sarımsaq, soğan və bu kimi şeylər yeyib, ağzından gələn qoxu ilə camaata əziyyət verərsə, məscidə getməsi məkruhdur.

## *AZAN VƏ İQAMƏ*

**M:935.** Kişi və qadın üçün müstəhəbdir ki, gündəlik namazlardan əvvəl azan və iqamə desinlər. Amma Fitir və Qurban bayramı namazlarından qabaq müstəhəbdir ki, üç dəfə “əs-səlat”, sair vacib namazlarda isə üç dəfə “əs-səlat” rəca niyyəti ilə deyilsin.

**M:936.** Müstəhəbdir ki, uşağın dünyaya gəldiyi ilk gündə, yaxud göbəyi düşməzdən əvvəl sağ qulağına azanı, sol qulağına isə iqaməni desinlər.

**M:937.** Azan 18 cümlədən ibarətdir: 4 dəfə “Allahu əkbər”, 2 dəfə “əşhədu ən la ilahə illəllah”, 2 dəfə “əşəhədu ənnə Mühəmmədən Rəsulullah”, 2 dəfə “həyyə ələssəlat”, 2 dəfə “həyyə ələlfəlah”, 2 dəfə “həyyə əla xeyril əməl”, 2 dəfə “Allahu əkbər”, 2 dəfə “la ilahə illəllah”.

İqamə də 17 cümlədən ibarətdir: Yə’ni azanın əvvəlindəki dörd “Allahu əkbər”dən ikisi, axırdakı “la ilahə illəllah”dan biri azalır. Həmçinin “həyyə əla xeyril-əməl”dən sonra iki dəfə “qəd qamətis-səlat” əlavə deyilməlidir.

**M:938.** “Əşəhədü ənnə Əliyyən vəliyyullah” azan və iqamənin hissələrindən deyil. Amma yaxşı olar ki, “əşhədü ənnə Mühəmmədən Rəsululah” dedikdən sonra qürbət qəsdi ilə deyilsin.

## AZAN VƏ İQAMƏNİN TƏRCÜMƏSİ

اَللهُ اَكبَر

“Allahu əkbər”–Allah, Onu vəsf etdiklərindən çox-çox böyükdür.

اَشهَدُ اَن لاَ اِلهَ الاّ اللهُ

“Əşhədu ənla ilahə illəllah”–şəhadət verirəm ki, yeganə və misilsiz olan Allahdan başqa, heç bir mə’bud yoxdur.

اَشهَدُ اَنَّ مُحَمَّدًا رَسُولُ الله

“Əşədu ənnə Muhəmmədən Rəsulullah”–şəhadət verirəm ki, Həzrət Mühəmməd ibni Əbdillah (səlləllahu əleyhi və alihi və səlləm) Allahın peyğəmbəri, elçisidir.

اَشهَدُ اَنَّ اَميرَ المؤمِنِينَ عَلِيًّا وَلِىّ الله

“Əşhədu ənnə Əmirəl-mu”mininə Əliyyən vəliyyullah”–şəhadət verirəm ki, Həzrət Əli (əleyhis-salam) mö’minlərin əmiri, Allahın bütün məxluqat içərisində vəlisi, dostudur.

حَىَّ عَلَى الصّلوةِ

“Həyyə ələs-səlat”–namaza tələsin!

حَىَّ عَلَى الفَلاَحِ

“Həyyə ələl-fəlah”–nicat tapmaq üçün tələsin!

حَىَّ عَلَى خَيرِ الْعَمَلِ

“Həyyə əla xəyril-əməl”–işlərin ən yaxşısı olan namaz üçün tələsin!

قَد قَامَتِ الصَلوةُ

“Qəd qamətis səlat”–həqiqətən namaz bərqərar olub!

لاَ اِلَهَ اِلاّ الله

“La ilahə illəllah”–yeganə və misilsiz olan Allahdan başqa mə’bud yoxdur.

**M:939.** Azan və iqamənin cümlələri arasında çox zaman fasiləsi olmamalıdır. Əgər onların arasında adi qaydadan artıq fasilə düşsə, yenidən demək lazımdır.

**M:940.** Əgər azan və iqamədə səs boğaza salınıb qina (yə’ni, toy məclislərində oxunan avazlar kimi) olsa haram və batildir. Amma əgər qina olmasa, məkruhdur.

**M:941.** Əvvəlki namazla qılınan (ikinci) namazın azanı saqit olur. İstər o namazı əvvəlki namazla birlikdə qılmaq müstəhəb olsun, istərsə də olmasın. Deməli aşağıdakı hallarda azan saqit olur, ehtiyat-vacibə görə onu tərk etmək lazımdır:

**1-**Cümə günü əsr namazının azanı (cümə, yaxud zöhr namazı ilə birlikdə qılınarsa);

**2-**Zil-həccənin 9-cu günü olan Ərəfə gününün əsr namazı (zöhr ilə birlikdə qılınarsa);

**3-**Məş”ərül-həramda olan bir kəsin Qurban bayramı gecəsinin işa namazının azanı (əgər onu məğriblə birlikdə qılıbsa);

øİki namazı birlikdə (birincidən dərhal sonra) qılmaq qeyd olunan üç halda müstəhəbdir.π

**4-**Əsr namazını zöhrdən, işa namazını məğribdən dərhal sonra qılmalı olan müstəhazə qadının (əsr və işa) namazı;

**5-**Bovl və qaitin çölə çıxmasının qarşısını ala bilməyən bir kəsin əsr və işa namazı.

Bu beş namazda azan o vaxt saqit olur ki, əvvəlki namazla fasiləsi olmasın, yaxud bu fasilə çox az olsun. Amma zahirən, nafiləni qılmaqla zaman fasiləsi düşür. Əgər namazları bir-birindən ayrılıqda, hər birini onun öz fəzilətli vaxtında qılsa, hər ikisinin azan və iqaməsini oxumaq müstəhəbbdir.

**M:942.** Əgər hər hansı camaat namazı üçün azan və iqamə deyilmiş olsa, o camaatla birlikdə namaz qılan bir kəs öz namazı üçün azan və iqamə deməməlidir. Hətta əgər azan və iqaməni eşitməmiş olsa da, yaxud azan deyildiyi vaxt camaatın cərgələrində olmasa da.

**M:943.** Əgər namaz qılmaq üçün məscidə gedib orada təşkil olunan camaat namazının qurtardığını görsə, nə qədər ki, cərgələr pozulmayıb və camaat dağılışmayıb öz namazı üçün azan və iqamə deyə bilməz. (Bu o haldadır ki, camaat namazı üçün azan və iqamə deyilmiş olsun.)

**M:944.** Əgər bir yerdə bir neçə nəfər camaat namazına məşğul olsa, yaxud onların namazı təzəcə qurtarmış, cərgələri pozulmamış olsa və insan namazını furada, yaxud başqa camaatla təşkil olunan camaat namazı ilə qılmaq istəsə, beş şərt daxilində ondan azan və iqamə saqit olur:

**1-**Əvvəlki camaat namazı üçün azan və iqamə deyilmiş olsun;

**2-**Həmin camaat namazı batil olmasın;

**3-**Onun namazı camaat namazı ilə eyni məkanda olsun; (Deməli əgər camaat namazı məscidin içində olsa və insan məscidin damında namaz qılmaq istəsə müstəhəbdir ki, azan və iqamə desin.)

**4-**Onun namazı ilə camaat namazı–hər ikisi əda vaxtında olsun;

**5-**Onun namazı ilə camaat namazının vaxtı müştərək vaxtda olsun. Məsələn, hər ikisi zöhr və ya hər ikisi əsri qılsın;, yaxud camaatla qılınan namaz zöhr namazı, onun namazı isə əsr namazı olsun; yaxud o zöhr namazını qılsın, camaat namazında isə əsr namazı qılınsın.

**M:945.** Əgər bir kəs (qabaqkı məsələdə deyilən) ikinci şərtdə (yə’ni camaat namazının səhih olub-olmamasında) şəkk etsə, azan və iqamə ondan saqitdir.

Amma əgər yerdə qalan dörd şərtdə şəkk etsə, yaxşı olar ki, rəca niyyəti ilə azan və iqamə desin.

**M:946.** Əgər bir kəs başqasının dediyi azan və iqaməni eşidirsə müstəhəbdir ki, eşitdiyi hissələri təkrar etsin. Amma "həyyə ələs-salat"dan "həyyə əla xəyril-əməl"ə qədər savab niyyəti ilə təkrar etsin.

**M:967.** Bir kəs başqasının azan və iqaməsini eşitsə (istər onunla desin, istərsə də deməsin) və o azan və iqamə ilə qılmaq istədiyi namaz arasında çox fasilə düşməsə, öz namazı üçün azan və iqamə deməyə bilər.

**M:948.** Əgər kişi qadının azanını ləzzət məqsədi ilə eşitsə azan ondan saqit olmur; hətta əgər ləzzət məqsədi ilə olmasa da ehtiyat-vacibə görə azan ondan saqit olmur. Amma əgər qadın kişinin azanını eşitsə, ondan saqit olur.

**M:949.** Qadınların və kişilərin iştirak etdiyi camaat namazının azan və iqaməsini kişi deməlidir. Amma hamısı qadınlardan ibarət olan camaat namazında azan və iqaməni qadın desə, kifayətdir.

**M:950.** İqamə azandan sonra deyilməlidir; əgər ondan əvvəl deyilsə, səhih deyildir.

**M:951.** Əgər bir kəs azan və iqamənin cümlələrini tərtibsiz, ardıcıllıq olmadan desə (məsələn, "həyyə ələl-fəlah"ı "həyyə ələs-səllat"dan qabaq desə) əvvələ qayıdıb tərtibi pozduğu yerdən yenidən deməlidir.

**M:952.** Azan və iqamə arasında fasilə salınmamalıdır. Əgər onların arasında çox fasilə düşsə və deyilən azan, sonradan deyilən iqamənin azanı hesab olunmazsa, müstəhəbdir ki, yenidən azan və iqamə deyilsin. Həmçinin əgər azan-iqamə ilə namaz arasında çox fasilə düşsə və o namazın azan və iqaməsi hesab olunmasa, müstəhəbdir ki, həmin namaz üçün yenidən azan və iqamə deyilsin.

**M:953.** Azan və iqamə ərəbcə səhih deyilməlidir. Əgər ərəbcə səhv oxusalar, yaxud hər hansı hərfin yerinə başqa bir hərf desələr, və ya onun tərcüməsini başqa dildə desələr, səhih deyildir.

**M:954.** Azan və iqamə namaz vaxtı daxil olandan sonra deyilməlidir. Əgər qəsdən, yaxud unutqanlıq üzündən namaz vaxtından qabaq deyilsə, batildir.

**M:955.** Əgər bir kəs iqamədən əvvəl azanı deyib-deməməsində şəkk etsə azanı deməlidir. Amma əgər iqamə deməyə başlayandan sonra azanı deyib-deməməsində şəkk etsə azanı demək lazım deyil.

**M:956.** Əgər azan və ya iqamənin əsnasında müəyyən bir hissəni deməmişdən əvvəl, ondan əvvəlki hissəni deyib-deməməsində şəkk etsə, şəkk etdiyi hissəni deməlidir. Amma əgər azanın, yaxud iqamənin müəyyən hissəsini deyən halda ondan əvvəlki hissəni deyib-deməməsində şəkk etsə həmin hissəni demək lazım deyil.

**M:957.** Müstəhəbdir ki, insan azan deyən vaxt üzü qibləyə dursun, dəstəmaz, qusul almış olsun, əllərini qulağının dibinə qoyub səsini ucaltsın, onu uzada-

uzada desin. Azanın cümlələri arasında azacıq fasilə versin və cümlələrin arasında danışmasın.

**M:958.** Müstəhəbdir ki, insanın bədəni, iqamə dediyi vaxt aram olsun və onu azandan ahəstə desin, cümlələrini bir-birinə yapışdırmasın. Amma azanın cümlələri arasındakı fasilə qədər iqamədə fasilə salmasın.

**M:959.** Müstəhəbdir ki, azan və iqamə arasında bir addım irəli getsin, yaxud müəyyən qədər otursun, səcdə etsin və ya zikr desin, yaxud da dua oxusun, yaxud bir qədər sakit olsun, yaxud müəyyən söz danışsın, yaxud iki rəkət namaz qılsın. Amma sübh namazının azanı ilə iqaməsi arasında danışmaq, məğrib namazının azanı ilə iqaməsi arasında namaz qılmaq müstəhəb deyil.

**M:960.** Müstəhəbdir ki, azan demək üçün müəyyən olunan şəxs adil, vaxt tanıyan, səsi uca olsun, azanı uca yerdə desin. Mikrofonlardan istifadə olunması mane olmayan halda azan deyən şəxs nisbətən aşağı yerdə dayansın.

**M:961.** Azanı radio, maqintofon yerlərdən eşitmək namaz üçün kifayət deyil:, əksinə namaz qılanın özü azan deməlidir.

**M:962.** Ehtiyat-vacib budur ki, azanı həmişə namaz qəsdi ilə deyilsin. Azanın, vaxtın daxil olması üçün, ondan sonra namaz qəsdi olmadan deyilməsi müşküldür.

**M:963.** Əgər bir kəs azan və iqaməni namaz üçün desə və sonra bir neçə nəfər ondan imam olmasını xahiş etsələr, yaxud mə’mum kimi namazı onlarla birlikdə qılmaq istəsə, onun dediyi azan və iqamə kifayət deyil: müstəhəbdir ki, yenidən desinlər.

## *NAMAZIN VACİBATI*

Namazın vacibatı 11-dir: **1-**Niyyət, **2-**Qiyam (yə’ni ayaq üstə durmaq), **3-**Təkbirətul-ehram, (yə’ni namazın əvvəlində “Allahu əkbər” demək), **4-**Rüku, **5-**Səcdə, **6-**Qiraət, **7-**Zikr, **8-**Təşəhhüd, **9-**Salam**,** **10-**Tərtib, **11-**Muvalat (yə’ni namazın hissələrini dalbadal, fasiləsiz demək).

**M:964.** Namazın vacibatından bə’ziləri rükndür. Yə’ni əgər insan onu yerinə yetirməsə, yaxud namazda artırsa–istər qəsdən olsun istərsə də səhvən–namaz batil olur. Bə’ziləri isə rükn deyil. Yə’ni əgər qəsdən azaldılıb-artırılsa, namaz batil olur, amma səhvən azaldılıb-artırılsa batil olmaz.

Namazın rüknləri beşdir: niyyət, təkbirətül-ehram, təkbirətül-ehram dediyi vaxt, həmçinin rükuya müttəsil olan (yə’ni rükudan qabaqkı) qiyam, rüku, iki səcdə.

## *NİYYƏT*

**M:965.** İnsan namazı qürbət qəsdi ilə (yə’ni Allah-Taalanın əmrini yerinə yetirmək niyyəti ilə qılmalıdır. Niyyəti qəlbdən keçirmək və ya misal üçün,

dildə “dörd rəkət zöhr namazı qılıram, qürbətən iləllah” deməк lazım (ilzami) deyil.

**M:966.** Əgər zöhr və əsr namazında “dörd rəkət namaz qılıram” deyə niyyət etsə, amma onların hansını qıldığını müəyyənləşdirməsə, namazı batildir. Həmçinin zöhr namazının qəzası vacib olan bir şəxs zöhr namazı vaxtında onun qəzasını qılmaq istəsə, qıldığı namazı niyyətdə müəyyənləşdirməlidir.

**M:967.** İnsan namazın əvvəlindən axırına qədər öz niyyətində sabit qalmalıdır. Deməli əgər namaz əsnasında qafil olsa, belə ki, “nə edirsən?”-deyə soruşsalar nə deyəcəyini bilməsə, namazı batildir.

**M:968.** İnsan namazı yalnız Allahın əmrini yerinə yetirmək üçün qılmalıdır. Deməli əgər bir kəs riya etsə, yə’ni özünü camaata göstərmək üçün namaz qılsa, namazı batildir–istər təkcə camaata göstərmək üçün olsun, istərsə də həm Allah üçün, həm də camaata göstərmək üçün olsun (yə’ni hər ikisini nəzərdə tutsun).

**M:969.** Əgər namazın müəyyən hissəsini Allahdan başqası üçün qılsa, namazı batildir. İstər riya etdiyi o hissə vacib olsun (Həmd-Surə kimi), istərsə də müstəhəb (qunut kimi). Hətta əgər namazın hamısını Allah xatirinə qılsa, amma camaata göstərmək üçün məxsus yerlərdə (məscid kimi) və ya məxsus vaxtlarda (məsələn, namazın əvvəl vaxtında), yaxud da məxsus tərzdə (məsələn, camaatla) qılsa, namazı batildir.

## *TƏKBİRƏTÜL-EHRAM*

**M:970.** Hər namazın əvvəlində “Allahu əkbər” demək vacib və rükndür. “Allah” kəlməsinin və “əkbər” kəlməsini hərflərini və iki–”Allah” və “əkbər” kəlmələrini ardıcıl və ərəb dilində səhih deməlidir. Deməli bir kəs bunları ərəbcə səhv desə, yaxud tərcümələrini desə, səhih deyil.

**M:971.** Ehtiyat-vacib budur ki, namazın təkbirətül-ehramı ondan əvvəl deyilən hissələrə (iqaməyə, yaxud təkbirətül-ehramdan əvvəl oxunan duaya) birləşdirilməsin.

**M:972.** Əgər namaz qılan “Allahu əkbər” kəlməsini ondan sonra oxuduğu kəlməyə (məsələn “bismillahir-rəhmanir-rəhim”ə) birləşdirmək istəsə, gərək “əkbər” kəlməsinin rey hərfinə zəmmə versin (yə’ni “Allahu əkbəru bismillahir-rəhmanir-rəhim” desin).

**M:973.** Təkbirətul-ehram deyən vaxt bədən aram olmalıdır. Əgər bir kəs təkbirətül-ehramı qəsdən hərəkət halında desə batildir. Həmçinin səhvən hərəkət etsə, ehtiyat-vacibə görə gərək namazı batil edən hər hansı əməl edib sonra yenidən təkbir desin.

**M:974.** Təkbir, Həmd, Surə, zikr və dua elə oxunmalıdır ki, şəxsin özü eşitsin. Əgər qulağın ağırlığı, karlığı və ya səs-küyün çoxluğu səbəbi ilə eşitməsə, elə deməlidir ki, mane olmazsa eşidə bilsin.

**M:975.** Lal və ya dili xəstə olan bir kəs “Allahu əkbər”i düzgün deyə bilməsə, necə bacarırsa, elə də deməlidir. Əgər ümumiyyətlə deyə bilməsə, qəlbindən keçirtməli, təkbir üçün işarə olaraq dilini (əgər bacarırsa) tərpətməlidir.

**M:976.** Müstəhəbdir ki, təkbirətül-ehramdan qabaq bu dua oxunsun:

يَامُحسِنُ قَد اَتَاكَ المُسيئُ وَقَد اَمَرتَ المُحسِنَ اَن يَتَجاوَزَ عَنِ المُسيِئِ اَنتَ المُحسِنُ وَاَنَا المُسِيئُ بِحَقِّ مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ صَلِّ عَلَى مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ وَتَجاوَز عَن قَبِيحِ مَاتَعلَمُ مِنِّى

Yə’ni “Ey bəndələrinə ehsan edən Allah, Sənin günahakar bəndən Sənin dərgahına gəlmişdir. Sən də ehsan edənə əmr etmisən ki, günahkarın günahından keçsin. Sən ehsan edən, mən isə günahkaram. Səni and verirəm Mühəmməd və Ali-Mühəmmədin hörmətinə, Öz rəhmətini Mühəmməd və Ali-Mühəmmədə göndər, mənim pis əməllərimdən keç!”

**M:977.** Müstəhəbdir ki, namazın birinci təkbirini, habelə namaz əsnasındakı sair təkbirləri deyəndə əlləri qulaqların yuxarısına qədər qaldırsın. Bunun əksi müşküldür, hətta caiz də deyil.

**M:978.** Əgər təkbirətül-ehramı deyib-deməməsində şəkk etsə, bu halda qiraətə məşğuldursa, öz şəkkinə e’tina etməməlidir; yox əgər bir şey oxumamışdırsa, təkbiri deməlidir.

**M:979.** Əgər təkbirətül-ehramı deyəndən sonra, onu düzgün deyib-deməməsində şəkk etsə, öz şəkkinə e’tina etməməlidir. Amma müstəhəbdir ki, namazı qurtarandan sonra yenidən qılsın.

## *QİYAM*

**M:980.** Təkbirətül-ehram deyilən vaxtdakı və rükudan əvvəlki qiyam (buna rükuya müttəsil olan qiyam deyilir) rükndür. Amma Həmd-Surənin oxunduğu və rükudan sonrakı qiyam rükn deyildir. Bir kəs unudaraq onu tərk etsə, namazı səhihdir.

**M:981.** Vacibdir ki, təkbiri deyəndən əvvəl və sonra bir az dayansın ki, aramlıq halında təkbir deməsinə yəqin etsin.

**M:982.** Əgər rükunu unutsa və Həmd-Surəni deyib oturandan sonra rüku etmədiyi yadına düşsə, ayağa qalxıb yenidən rükuya getməlidir. Amma ayağa durmadan, elə oturduğu yerdən birbaşa rükuya qalxsa, rükuya müttəsil olan qiyamı yerinə yetirmədiyi üçün, namazı batildir.

**M:983.** Namaz qılan şəxs ayaq üstə olan halda bədənini hərəkət etdirməməli, hər hansı tərəfə əyilməməli, bir şeyə söykənməməlidir. Amma əgər çarəsizlik üzündən olsa və rükuya əyiləndə ayaqlarını hərəkət etdirsə eybi yoxdur.

**M:984.** Ayaq üstə durduğu vaxt unudaraq bədənini hərəkət etdirsə və ya hər hansı tərəfə əyilsə, yaxud bir şeyə söykənsə eybi yoxdur. Amma təkbirətül-ehram dediyi qiyamda və rükuya müttəsil olan qiyamda unutqanlıq üzündən olsa da, ehtiyat-vacibə görə namazı qurtarıb yenidən qılmalıdır.

**M:985.** Ayaq üstə olan vaxt hər iki ayağın yerdə olması vacibdir. Amma bədənin ağrılığının hər iki ayağın üstünə düşməsi lazım (ilzami) deyil, hətta bir ayağın üstünə də düşsə eybi yoxdur.

**M:986.** Düz dayana bilən bir kəs ayaqlarını çox aralı qoysa və adi ayaq üstə durmaq halında olmasa, namazı batildir.

**M:987.** Namaz vaxtında insan, azacıq dala və ya qabağa getmək istəsə, yaxud bədənini sağa-sola hərəkət etdirsə, bu halda (hərəkət halında) heç nə deməməlidir. Amma "bihovlillahi və quvvətihi əqumu və əq'ud" kəlməsini ayağa qalxanda deməlidir. Vacib zikrləri deyən vaxtda da bədən hərəkətsiz olmalıdır. Hətta ehtiyat-vacibə görə müstəhəb zikrləri deyəndə də bədən aram olmalıdır.

**M:988.** Əgər bir kəs bədəni hərəkət edən halda zikr desə (məsələn, rükuya, yaxud səcdəyə gedən halda təkbir desə), bu halda əgər onu namazda əmr olunan zikr qəsdi ilə desə namazını ehtiyatən yenidən qılmalıdır. Amma əgər bu qəsd ilə deməsə (ümumiyyətlə zikr demək niyyəti olsa) namazı səhihdir.

**M:989.** Həmd oxuyan zaman əli və barmaqları hərəkət etdirməyin eybi yoxdur. Amma ehtiyat-müstəhəb budur ki, onları da hərəkət etdirməsin.

**M:990.** Əgər Həmd-Surəni, yaxud təsbihatı oxuyanda ixtiyarsız olaraq müəyyən qədər hərəkət etsə və bədəni aramlıq halından çıxsa, ehtiyat-vacib budur ki, bədən aram olandan sonra hərəkət halında dediklərini yenidən desin.

**M:991.** Əgər bir kəs namaz əsnasında ayaq üstə dura bilməsə, oturmalı, otura da bilməsə, uzanmalıdır. Amma bədəni aramlaşmayınca heç nə deməməlidir. Amma ümumiyyətlə qürbət qəsdi olsa eybi yoxdur.

**M:992.** Nə qədər ki, insan ayaq üstə namaz qıla bilir, oturan halda qılmamalıdır. Məsələn, bir kəs ayaq üstə duranda bədəni hərəkət etsə, yaxud müəyyən bir şeyə söykənməyə məcbur olsa və ya bədənini əyməyə, əyilməyə, ayaqlarını adi haldan artıq aralı qoymağa naçar olarsa, gərək ayaq üstə necə qıla bilirsə, elə də qılsın. Amma əgər heç cür mümkün olmasa–hətta rüku halında belə ayaq üstə dayana bilmirsə, düz oturmalı, namazı oturan halda qılmalıdır.

**M:993.** İnsan nə qədər ki, otura bilir, uzandığı yerdə namaz qılmamalıdır. Əgər düz otura bilmirsə, onda necə otura bilsə, elə də oturmalıdır. Ümumiyyətlə heç cür otura bilmirsə, qiblənin hökmündə deyildiyi kimi, gərək sağ tərəfi üstə, bunu da edə bilməsə sol tərəfi üstə uzansın. Bu da mümkün olmasa arxası üstə elə uzanmalıdır ki, ayaqlarının altı üzü qibləyə olsun.

**M:994.** Oturan halda namaz qılan bir kəs Həmd-Surəni oxuduqdan sonra ayağa durub rükunu ayaq üstə yerinə yetirə bilsə gərək ayağa dursun və ayaq üstə olan halda rükuya getsin. Əgər bunu da edə bilməsə oturan halda rüku etməlidir.

**M:995.** Uzanan halda namaz qılan bir kəs əgər namaz əsnasında otura bilsə, gərək bacardığı, mümkün olan qədər oturduğu yerdə qılsın. Həmçinin əgər ayaq

üstə dura bilsə, gərək bacardığı qədər ayaq üstə durub, namazı ayaq üstə qılsın, bədəni aramlaşmayınca heç nə deməsin. Amma əgər ümumiyyətlə qürbət qəsdi olsa (aram olmamasının) eybi yoxdur.

**M:996.** Ayaq üstə dura bilən bir kəs ayaq üstə durması səbəbilə xəstələnəcəyindən, yaxud müəyyən bir zərər çatacağından qorxsa oturan halda namaz qıla bilər. Oturduğu yerdə də bu kimi işlərdən qorxsa uzanan halda namaz qıla bilər.

**M:997.** Əgər insan vaxtın axırına qədər ayaq üstə namaz qıla biləcəyinə ehtimal versə, əvvəl vaxtda namaz qıla bilər.

**M:998.** Müstəhəbdir ki, ayaq üstə duran halda bədəni düz saxlasın, çiyinlərini aşağı salsın, əllərini budlarının üstünə qoysun, barmaqlarını bir-birinə yapışdırsın, səcdə etdiyi yerə baxsın, bədənin ağırlığını ayaqlarına bərabər halda salsın, xüzu və xüşu halında olsun, ayaqlarını dal-qabaq qoymasın; əgər kişidirsə ayaqlarını üç barmaqdan bir qarışa qədər aralı qoysun; əgər qadındırsa, ayaqlarını bir-birinə yapışdırsın.

## *QİRAƏT*

**M:999.** Gündəlik vacibi namazların birinci və ikinci rəkətində əvvəlcə Həmd, sonra isə bir Surə bütöv oxunmalıdır.

**M:1000.** Əgər namazın vaxtı az olsa, yaxud insan Surəni oxumamağa məcbur olsa, məsələn, Surəni oxuyacağı təqdirdə oğru və ya yırtıcı heyvan, yaxud başqa bir şey ona xəsarət yetirəcəksə, Surəni oxumamalıdır. Əgər müəyyən bir iş üçün tələssə Surəni oxumaya bilər.

**M:1001.** Əgər qəsdən Surəni Həmddən qabaq oxusa, namazı batildir. Əgər səhvən Həmddən qabaq oxusa və Surə oxuyanda yadına düşsə, gərək onu yarımçıq kəsib Həmdi oxuduqdan sonra yenidən Surəni oxusun.

**M:1002.** Əgər Həmdi və Surəni, yaxud onlardan birini unutsa və rükuda yadına düşsə, namazı səhihdir.

**M:1003.** Əgər rükuya əyilməmişdən qabaq Həmd-Surəni oxumadığını bilsə gərək oxusun. Əgər təkcə Surəni oxumaması yadına düşsə, təkcə onu oxumalıdır. Amma əgər Həmdi oxumadığı yadına düşsə, gərək Həmdi oxusun, sonra isə Surəni yenidən oxusun. Həmçinin müəyyən qədər əyilsə və rükuya çatmamışdan qabaq Həmd-Surəni, yaxud onlardan birini oxumadığını bilsə gərək qalxıb həmin göstərişə əməl etsin.

**M:1004.** Əgər namazda vacibi səcdəsi olan Surələrdən birini qəsdən oxusa namazı batildir.

**M:1005.** Əgər vacibi səcdəsi olan Surəni səhvən oxumağa başlasa və səcdə ayəsinə çatmamış yadına düşsə, gərək o Surəni kəsib başqa Surə oxusun; yox əgər səcdə ayəsini oxuyandan sonra başa düşsə, namaz əsnasında, ehtiyata

əsasən, gərək işarə ilə onun səcdəsini yerinə yetirib oxuduğu Surə ilə kifayətlənsin.

**M:1006.** Əgər namaz əsnasında səcdəsi olan ayəni eşidib işarə ilə səcdə etsə namazı səhihdir.

**M:1007.** Müstəhəbbi namazda Surə oxumaq–hətta o namaz nəzir etmək səbəbilə vacib olsa da lazım deyil. Amma bə'zi müstəhəbbi namazlarda (məxsus Surəsi olan vəhşət namazı kimi) əgər o namazın göstərişlərinə əməl etmək istəsə onun Surəsini oxumalıdır.

**M:1008.** Cümə namazında, həmçinin cümə gününün zöhr namazında müstəhəbdir ki, birinci rəkətdə Həmddən sonra "Cümə' Surəsi, ikinci rəkətdə isə Həmddən sonra "Münafiqun" Surəsi oxunsun. Əgər bir kəs bunlardan birini oxumağa başlasa, ehtiyat-vacibə görə, onu kəsib başqa Surə oxuya bilməz.

**M:1009.** Əgər Həmddən sonra "Qul huvəllah", yaxud "Qül ya əyyühəl kafirun" Surəsini oxumağa başlasa, onu kəsib başqa Surə oxuya bilməz. Amma cümə namazında və cümə gününün zöhr namazında əgər unudaraq "Cümə' və "Münafiqun" Surələrinin yerinə qeyd olunan iki Surədən birini oxusa, yarısına çatmadığı vaxta qədər onu kəsib "Cümə' və ya "Münafiqun" Surəsini oxuya bilər.

**M:1010.** Əgər cümə namazında, yaxud cümə gününün zöhr namazında qəsdən "Qul huvəllah", yaxud "Qül ya əyyühəl kafirun" Surəsini oxusa, hətta yarısına çatmamış olsa da, ehtiyat-vacibə görə, onu kəsib "Cümə' və "Münafiqun" Surəsini oxuya bilməz.

**M:1011.** Əgər namazda "Qul huvəllah" və ya "Qül ya əyyühəl kafirun" Surəsindən savayı, başqa Surə oxusa, yarıya çatmamışdan onu kəsib başqa Surə oxuya bilər.

**M:1012.** Əgər Surənin müəyyən hissəsi yadından çıxsa, yaxud çarəsizlik üzündən (məsələn, vaxtın az olması və yaxud başqa səbəblərə görə) onu qurtara bilməsə–hətta yarısından keçmiş olsa da və oxuduğu Surə "Qul huvəllah" və ya "Qül ya əyyühəl kafirun" olsa da, o Surəni kəsib başqasını oxuya bilər.

**M:1013.** Kişi üçün vacibdir ki, sübh, məğrib, işa namazının (əvvəldəki iki rəkətində) Həmd-Surəsini ucadan oxusun. Həmçinin kişi və qadının hər ikisinə vacibdir ki, zöhr və əsr namazının Həmd-Surələrini astadan oxusun.

**M:1014.** Kişi diqqətli olmalıdır ki, sübh, məğrib və işa namazlarında (əvvəlki iki rəkətində) Həmd-Surənin bütün kəlmələrini, hətta onların axırıncı hərflərini belə ucadan desin.

**M:1015.** Qadın sübh, məğrib və işa namazının (əvvəldəki iki rəkətinin) Həmd-Surəsini həm ucadan, həm də alçaqdan qıla bilər. Amma əgər naməhrəm onun səsini eşitsə, ehtiyat-vacibə görə ahəstə qılmalıdır.

**M:1016.** Əgər namazı ucadan qılmalı olduğu yerdə qəsdən alçaqdan və ya alçaqdan qılmalı olduğu yerdə qəsdən ucadan qılsa namazı batildir. Amma

unutqanlıq, yaxud məsələni bilməməzlik üzündən olsa, səhihdir. Həmd və Surəni oxuduğu vaxtda səhv etdiyini başa düşsə, oxuduğu miqdarı yenidən oxuması lazım deyil.

**M:1017.** Əgər namaz qılan şəxs Həmd-Surəni oxuduğu zaman səsini adi haldan ucaya qaldırsa (məsələn, qışqıra-qışqıra oxusa) namazı batildir.

**M:1018.** İnsan namazı öyrənməlidir ki, səhv oxumasın. Əgər bir kəs namazı düzgün şəkildə ümumiyyətlə öyrənə bilmirsə, bacardığı kimi qılmalıdır və ehtiyat-müstəhəb budur ki, namazı camaatla qılsın.

**M:1019.** Əgər bir kəs namazın Həmd-Surəsini və ya başqa hissələrini yaxşı bilmirsə və öyrənə bilirsə, namazın vaxtı geniş olduğu halda öyrənməlidir. Amma namazın vaxtı az olsa ehtiyat-vacibə görə gərək mümkün olan halda namazını camaatla qılsın.

**M:1020.** Ehtiyat-vacib budur ki, namazın vacibatını öyrətməkdə muzd alınmasın. Amma onun müstəhəbbatı üçün muzd almağın eybi yoxdur.

**M:1021.** Əgər bir kəs Həmd və Surənin kəlmələrindən birini bilməsə, yaxud onu qəsdən deməsə və ya bir hərfin yerinə başqa hərf desə (məsələn, “zad” hərfinin yerinə “za” desə), yaxud fəthə və kəsrə ilə oxunmamalı yerdə fəthə və kəsrə desə, yaxud da təşdidi deməsə, namazı batildir.

**M:1022.** Əgər insan müəyyən bir kəlməni səhih bilsə və namazı da elə o cür qılıb, sonradan səhv dediyini başa düşsə, ehtiyat-müstəhəbbə görə gərək namazı yenidən qılsın, əgər vaxtı keçmişsə, qəzasını etsin.

**M:1023.** Əgər müəyyən bir kəlmənin fəthə və kəsrəsini bilməsə öyrənməlidir. Amma axırında vəqf etmək caiz olan bir kəlmədə həmişə vəqf etsə, onun fəthə və kəsrəsini öyrənmək lazım deyil. Həmçinin əgər kəlməni “sin” və ya “sad” ilə olmasını bilməsə, gərək öyrənsin. Əgər iki, yaxud daha artıq yolla qılsa (məsələn, “ihtinəs-siratəl-müstəqim” kəlməsinin “sirat” sözünü bir dəfə “sin”, bir dəfə isə “sad” ilə oxusa) namazı batildir. Amma əgər hər iki cür qiraət mövcud olsa, həqiqətə çatmaq ümidi ilə oxumasının eybi yoxdur.

**M:1024.** Əgər bir kəlmədə “vav ” olsa və ondan qabaqkı kəlmənin zəmməsi olsa, “vav”dan sonrakı hərf isə həmzə olsa (məsələn, “su”  kəlməsi kimi) daha yaxşı olar ki, “vav”a mədd verilsin, yə’ni uzadılsın. Həmçinin əgər bir kəlmədə “əlif” olsa və ondan qabaqkı hərfin fəthəsi olsa, “əlif”dən sonra isə “həmzə’ olsa (“caə’ kəlməsi kimi) daha yaxşı olar ki, onun “əlif” hərfi uzadılsın. Həmçinin əgər bir kəlmədə “yey” olsa və ondan əvvəlki hərf kəsrəli, “yey”dən sonrakı hərf isə həmzə olsa (“ciə’  kəlməsi kimi) daha yaxşı olar ki, “yey” mədd ilə oxunsun. Əgər bu kimi “vav”, “əlif” və “yey”dən sonra həmzənin yerinə, sakin olan başqa (fəthə, kəsrə və zəmməsi olmayan) bir hərf olsa, yenə də yaxşı olar ki, bu üç hərf mədd ilə oxunsun. Məsələn, “vələzzallin” kəlməsində “əlif”dən sonra “lam” hərfi sakinlə olduğundan, daha yaxşı olar ki, onun “əlif”i uzadılsın.

**M:1025.** Əqvaya görə namazda hərəkə ilə vəqf, sükun ilə vəsl edilməsinə riayət olunması lazım deyil. Hərəkə üzrə vəqf etməyin mə'nası budur ki, kəlmənin axırıncı hərfinin fəthə, kəsrə və ya zəmməsini deyib o kəlmə ilə sonrakı kəlmə arasında fasilə salsın. Məsələn, "ər-rəhmanir-rəhim" deyib, "rəhim" kəlməsinin "mim"inə kəsrə versin, sonra bir az fasilə salıb "maliki yovmiddin" desin. Sükun ilə vəsl etməyin mə'nası budur ki, bir kəlmənin fəthə, kəsrə və zəmməsini demədən, həmin kəlməni sonrakı kəlməyə birləşdirsin. Məsələn, "ər-rəhmanir-rəhim" deyib, "rəhim" kəlməsinin "mim"inə kəsrə vermədən dərhal "maliki yovmiddin"i desin.

**M:1026.** Namazın üçüncü və dördüncü rəkətlərində, ya təkcə Həmd deyilməlidir, ya da üç dəfə təsbihati-ərbəə.

سُبحَانَ اللهِ وَالحَمدُ للهِ وَلاَ اِلَهَ اِلاَّ اللهُ وَاللهُ اَكبَر

"Subhanəllahi vəlhəmdu lillahi və la ilahə illəllahu vəllahu əkbər." Ehtiyat-vacib budur ki, təsbihati-ərbəə üç dəfə deyilsin. Həmçinin, birinci rəkətdə Həmdi, o biri rəkətdə isə təsbihatı demək olar. daha yaxşı olar ki, hər iki rəkətdə təsbihat deyilsin.

**M:1027.** Vaxtın az olduğu hallarda təsbihatı bir dəfə demək lazımdır.

**M:1028.** Kişi və qadına vacibdir ki, namazın üçüncü və dördüncü rəkətlərində Həmdi, yaxud təsbihati-ərbəəni alçaqdan oxusunlar.

**M:1029.** Namazın üçüncü və dördüncü rəkətlərində Həmd oxunsa, ehtiyat-vacibə görə onun "bismillah"ı da ahəstə deyilməlidir. Xüsusilə, mə'mum və namazı furada qılanlar üçün.

**M:1030.** Təsbihati-ərbəəni öyrənə, yaxud düzgün şəkildə deyə bilməyən şəxs üçüncü və dördüncü rəkətlərdə Həmdi oxumalıdır.

**M:1031.** Əgər bir kəs namazın əvvəldəki iki rəkətini onun axırındakı iki rəkəti olduğunu güman edərək təsbihatı oxusa və rükudan əvvəl yadına düşsə, Həmdi və Surəni oxumalıdır; ehtiyat-müstəhəb budur ki, namazdan sonra artıq təsbihat dediyinə görə səcdeyi-səhv etsin. Amma rükuda yadına düşsə, namazı səhihdir.

**M:1032.** Əgər namazın axırındakı iki rəkətini, əvvəldəki iki rəkət güman edərək Həmd oxusa, yaxud əvvəldəki iki rəkətdə namazın axırıncı iki rəkət olduğunu güman etməsinə baxmayaraq, Həmdi oxusa və rükudan əvvəl, yaxud sonra yadına düşsə, namazı səhihdir.

**M:1033.** Əgər namazın üçüncü və dördüncü rəkətində Həmd oxumaq istədiyinə baxmayaraq, təsbihat dilinə gəlsə, yaxud əksinə olsa (təsbihat oxumaq istədiyi halda Həmd dilinə gəlsə), bu halda əqva budur ki, Həmdi və ya təsbihatı kəsib digərini (istədiyini) oxusun. Amma əgər adəti üzrə oxuduğu şey dilinə gəlsə və qəlbində də onu qəsd etmiş olarsa, oxuduğunu tamamlaya bilər, namazı da səhihdir.

**M:1034.** Namazın üçüncü və dördüncü rəkətində adəti təsbihat oxumaq olan bir şəxs əgər qəsd etmədən Həmd oxumağa başlayıbsa, əqva budur ki, onu kəsib təsbihatı və ya Həmdi oxusun.

**M:1035.** Namazın üçüncü və dördüncü rəkətində təsbihatdan sonra istiğfar etmək (məsələn, "əstəğfirullahə', yaxud "Allahumməğfir li" demək) müstəhəbdir. Əgər Həmdi və ya təsbihatı deməsini güman edib istiğfar deməyə başlasa və Həmdi, yaxud təsbihatı deyib-deməməsində şəkk etsə, gərək şəkkinə e'tina etməsin. Həmçinin əgər namaz qılan şəxs rüku üçün əyilməkdən qabaq, istiğfara məşğul olmayan halda, Həmdi, yaxud təsbihatı oxuyub-oxumamasında şəkk etsə, öz şəkkinə e'tina etməməlidir.

**M:1036.** Əgər üçüncü və ya dördüncü rəkətin rükusunda, yaxud rükuya gedən halda Həmd, yaxud təsbihatı oxuyub-oxumamasında şəkk etsə, öz şəkkinə e'tina etməməlidir.

**M:1037.** Əgər hər hansı ayə və ya kəlməni səhih deyib-deməməsində şəkk etsə, bu halda ondan sonrakı kəlmə və ya ayəni deməyə başlamayıbsa, həmin ayə və kəlməni səhih tərzdə deməlidir; yox əgər ondan sonrakı hissəyə başlayıbsa, onda: o şey rükndürsə (məsələn, rükuda Surənin hər hansı hissəsini düzgün oxuyub-oxumamasında şəkk etsə) öz şəkkinə e'tina etməməlidir; əgər rükn deyilsə (məsələn, "Allahus-səməd" deyəndə, "Qul huvəllahu əhəd"i düzgün deyib-deməməsində şəkk etsə) yenə də şəkkinə e'tina etməyə bilər. Amma əgər ehtiyatən o ayə və ya kəlməni səhih tərzdə desə, eybi yoxdur. Əgər bir neçə dəfə şəkk etsə, o qədər də deyə bilər. Amma əgər vəsvaslıq həddinə çatıb yenə desə, ehtiyat-vacib budur ki, namazını yenidən qılsın.

**M:1038.** Müstəhəbdir ki, birinci rəkətdə Həmddən qabaq "əuzu billahi minəş-şəytanir-rəcim" deyilsin, zöhr və əsr namazının birinci və ikinci rəkətlərində pişnamaz istisna olmaqla, qalanları "bismillah"ı ucadan deməsinlər; Həmd və Surəni kəlmə-kəlmə oxusunlar, hər ayənin axırında vəqf etsinlər, (yə'ni tələffüzdə onu, sonrakı ayəyə birləşdirməsinlər.) Həmd və Surəni oxuyan zaman mə'nalarına diqqət yetirsinlər. Əgər namazı camaatla birlikdə qılırsa, imamın Həmdi qurtarandan sonra; və əgər furada qılırsa, öz Həmdini qurtarandan sonra "əl-həmdu lillahi Rəbbil-aləmin", "Qul huvəllah" Surəsini qurtarandan sonra isə bir, iki və ya üç dəfə "kəzalikəllahu Rəbbuna", yaxud üç dəfə "kəzalikəllahu Rəbbi" desin. Surəni oxuyandan sonra azacıq dayanıb rükudan əvvəlki təkbiri desin, yaxud da qunut tutsun.

**M:1039.** Müstəhəbdir ki, bütün namazların birinci rəkətində "İnna ənzəlna", ikinci rəkətində isə "Qul huvəllah" Surəsi oxunsun.

**M:1040.** Məkruhdur ki, insan gecə-gündüz namazlarında "qulhuvəllah" Surəsini oxumasın.

**M:1041.** "Həmd", habelə "Qulhuvəllah" Surəsini birnəfəsə oxumaq məkruhdur.

**M:1042.** Birinci rəkətdə oxunan Surəni ikinci rəkətdə də oxumaq məkruhdur. Amma "Qul huvəllah" Surəsini hər iki rəkətdə oxumaq məkruh deyildir.

### *RÜKU*

**M:1043.** Namaz qılan hər rəkətdə qiraətdən sonra o qədər əyilməlidir ki, əllərini dizinə qoya bilsin. Bu əmələ rüku deyilir.

**M:1044.** Əgər rüku qədərində əyilib əllərini dizlərinə qoymasa, ehtiyatın xilafını etmişdir. Deməli, ehtiyat budur ki, əllərini dizlərinə qoysun.

**M:1045.** Əgər rükunu qeyri-adi şəkildə yerinə yetirsə, (məsələn, sağa, sola tərəf əyilsə) əllərinin rükuya çatmasına baxmayaraq, rükusu səhih deyildir.

**M:1046.** Rükuya əyilmək rüku niyyəti ilə olmalıdır. Deməli başqa iş üçün (məsələn, hər hansı həşəratı öldürmək niyyəti ilə) əyilsə onu rüku hesab etmək olmaz: ayağa qalxıb yenidən rükuya getməlidir və bu əməl vasitəsi ilə rükn artırılmamışdır, namaz da batil deyildir.

**M:1047.** Əgər bir kəsin əli və dizləri normal insanın əl və dizlərindən fərqlənsə, (məsələn, qolları çox uzun olsa və azacıq əyiləndə dizlərinə çatsa, yaxud dizləri normal dizdən aşağıda olsa və çox əyildikdə belə, əlləri dizlərinə çatmasa) normal insanın əyildiyi qədər əyilməlidir.

**M:1048.** Oturan halda namaz qılan şəxs rüku üçün o qədər əyilməlidir ki, üzü dizlərinin müqabilinə çatsın. Daha yaxşı olar ki, o qədər əyilsin ki, üzü səcdə etdiyi yerin yaxınlığına çatsın.

**M:1059.** İnsan rükuda hər zikri desə kifayətdir. Amma ehtiyat-vacib budur ki, üç dəfə "subhanəllah", yaxud bir dəfə "subhanə Rəbbiyəl əzimi və bi həmdih"dən az olmasın.

**M:1050.** Rükunun zikri bir-birinin ardınca və ərəbcə səhih deyilməlidir. Müstəhəbdir ki, 5, 7 dəfə və hətta daha artıq deyilsin.

**M:1051.** Rükuda vacibi zikr deyildiyi vaxt, bədən aram olmalıdır. Müstəhəb zikrdə də, əgər onu rükunun göstərişlərində deyilən zikr niyyəti ilə desə, ehtiyat-vacibə görə bədənin aram olması lazımdır.

**M:1052.** Əgər rükunun zikrini deyən vaxt ixtiyarsız olaraq müəyyən qədər hərəkət edib aramlıq halından çıxsa, ehtiyat-müstəhəbbə görə bədən aramlaşandan sonra həmin zikri yenidən desin. Amma çox az hərəkət etsə və bədən aramlıq halından çıxmasa, yaxud barmaqlarını tərpətsə, eybi yoxdur.

**M:1053.** Əgər rüku həddinə qədər əyilməzdən və bədən aram olmazdan qabaq rükunun zikrini desə, namazı batildir.

**M:1054.** Əgər vacibi zikr qurtarmazdan əvvəl qəsdən başını rükudan qaldırsa, namazı batildir; amma əgər səhvən qaldırsa və rüku halından çıxmamışdan qabaq, zikri axıra qədər demədiyi yadına düşsə, gərək rükunun zikrini bədənin aram olduğu halda yenidən desin. Əgər rüku halından çıxandan sonra yadına düşsə, namazı səhihdir.

**M:1055.** Əgər zikr demək miqdarında rükuda qala bilməsə, bu halda rüku həddindən çıxmazdan qabaq rükunun zikrini deyə bilsə, gərək elə o halda tamam etsin; əks halda, ehtiyata əsasən, qalxan halda zikri deməlidir.

**M:1056.** Əgər xəstəlik və s. kimi səbəblər üzündən rükuda aramlaşa bilməsə, namazı səhihdir. Amma gərək rüku halından xaric olmazdan qabaq vacibi zikri (yə’ni bir dəfə “subhanə Rəbbiyəl əzimi və bihəmdih”, yaxud üç dəfə “subhanəllah”) desin.

**M:1057.** Əgər rüku qədərində əyilə bilməsə, müəyyən bir şeyə söykənib rüku etməlidir; əgər söykəndiyi halda rükunu adi qaydada edə bilməsə, gərək nə qədər mümkündürsə, o qədər əyilsin. Əgər ümumiyyətlə əyilə bilməsə, onda rüku halında oturmalı, oturan halda rüku etməlidir. Ehtiyat-müstəhəb budur ki, başqa bir namaz da qılıb onun rükusunu başı ilə işarə etsin.

**M:1058.** Əgər bir kəs ayaq üstə namaz qıla bilirsə ayaq üstə, yaxud oturan halda rüku edə bilməsə, ayaq üstə namaz qılıb rüku üçün başı ilə işarə etməlidir. Əgər işarə də edə bilməsə, rüku niyyəti ilə gözlərini yumub zikri deməli, rükudan qalxmaq niyyəti ilə gözlərini açmalıdır. Əgər bunu da edə bilməsə, qəlbində rüku niyyəti edib zikrini deməlidir.

**M:1059.** Bir kəs ayaq üstə, yaxud oturan halda rüku edə bilmirsə və rüku üçün yalnız oturan halda azacıq əyilə, ya da ayaq üstə başı ilə işarə edə bilirsə, ayaq üstə namaz qılıb rüku üçün başı ilə işarə etməlidir. Ehtiyat-vacib budur ki, başqa bir namaz qılıb rükusunda yerə otursun və rüku üçün mümkün olan qədər əyilsin.

**M:1060.** Əgər bir kəs rükuya çatandan və bədəni aramlaşandan sonra başını qaldırıb yenidən rüku niyyəti ilə rüku həddinə qədər əyilsə, namazı batildir. Həmçinin rüku qədərində əyildikdən və bədəni aramlaşdıqdan sonra rüku qəsdi ilə bir qədər də əyilib rüku həddindən keçsə və yenidən rüku həddinə qayıtsa, ehtiyat-vacibə görə namazı batildir. Daha yaxşı olar ki, namazı qurtarıb yenidən qılsın.

**M:1061.** Rükunun zikri tamam olduqdan sonra qalxıb düz dayanmaq, bədən aram olduqdan sonra səcdəyə getmək lazımdır. Əgər qəsdən ayağa qalxmadan, yaxud ayağa qalxıb bədəni aram olmamışdan qabaq səcdəyə getsə, namazı batildir.

**M:1062.** Əgər rükunu unutsa və səcdəyə çatmazdan qabaq yadına düşsə, ayağa qalxıb sonra rükuya getməlidir. Əgər yarım əyilmiş halda rükuya qayıtsa, namazı batildir.

**M:1063.** Əgər alnı yerə çatmazdan qabaq rüku etmədiyi yadına düşsə, ehtiyat-vacibə görə ayağa qalxıb rükunu yerinə yetirməli, namazı qurtarandan sonra isə yenidən qılmalıdır.

**M:1064.** Müstəhəbdir ki, (namaz qılan şəxs) rükuya getməzdən əvvəl, bədən düz olan halda təkbir desin, rüku halında dizlərini arxaya tərəf versin, kürəyini

düz saxlasın, boynunu çəkib kürəyi ilə bir səviyyədə (bir xətt boyunca) saxlasın, ayaqlarının arasına baxsın; zikrdən əvvəl və ya sonra salavat desin. Rükudan qalxıb düz durduqdan və bədəni aramlaşdıqdan sonra “səmi”əllahu limən həmidəh” desin.

**M:1065.** Müstəhəbdir ki, rükuda qadınlar əllərini dizlərindən bir az yuxarıya qoysunlar və dizlərini dala verməsinlər.

## *SƏCDƏ*

**M:1066.** Namaz qılan şəxs vacib və müstəhəb namazların hər rəkətində rükudan sonra iki səcdə etməlidir. Səcdə o əməldir ki, alın, iki əlin içi, iki dizin gözü və iki ayağın baş barmağının ucu yerə qoyulsun.

**M:1067.** İki səcdə birlikdə bir rükndür ki, bir kəs vacibi namazda qəsdən və ya unudaraq hər ikisini tərk etsə, yaxud onlara iki səcdə əlavə etsə, namazı batildir.

**M:1068.** Əgər qəsdən bir səcdəni artırıb-azaltsa, namazı batildir, amma səhvən etsə bunun hökmü sonrakı məsələlərdə deyiləcək.

**M:1069.** Əgər alnı qəsdən və ya səhvən yerə qoymasa–hətta sair səcdə ə’zalarını yerə qoysa da, səcdə etməmişdir. Amma əgər alnını yerə qoyub sair səcdə üzvlərini səhvən yerə qoymasa, yaxud səhvən səcdənin zikrini deməsə, namazı səhihdir.

**M:1070.** Səcdədə hər zikr deyilsə, kifayətdir. Bu şərtlə ki, onun miqdarı üç dəfə “subhanəllah” və ya bir dəfə “subhanə Rəbbiyəl ə’la və bi həmdih”dən az olmasın. Müstəhəbdir ki “subhanə Rəbbiyəl ə’la və bi həmdih” 3, 5, 7 dəfə deyilsin.

**M:1071.** Səcdədə vacib zikr deyilən vaxt bədən aram olmalıdır. Hətta müstəhəb zikrdə belə, əgər onu səcdədə göstəriş verilən zikr niyyəti ilə oxusa, bədənin aram olması lazımdır.

**M:1072.** Əgər alnı yerə çatmazdan və bədən aramlaşmamışdan qabaq qəsdən səcdənin zikrini desə, yaxud zikr tamam olmamışdan qabaq qəsdən başını səcdədən götürsə, namazı batildir.

**M:1073.** Əgər alnı yerə çatmazdan və bədən aramlaşmamışdan qabaq səhvən, səcdənin zikrini desə və başını səcdədən götürməzdən qabaq səhv etdiyini bilsə, gərək yenidən, bədəni aram olan halda zikri desin.

**M:1074.** Əgər başını səcdədən götürdükdən sonra zikri, bədənin aram olmadığı halda dediyini, yaxud səcdənin zikri tamam olmamışdan qabaq başını qaldırdığını bilsə, namazı səhihdir.

**M:1075.** Səcdənin zikrini dediyi vaxt əgər yeddi səcdə üzvündən birini qəsdən yerdən qaldırsa, namazı batildir. Amma zikr demədiyi vaxt alından başqa, sair üzvləri yerdən qaldırıb yenidən yerə qoysa, eybi yoxdur.

**M:1076.** Əgər səcdənin zikri tamam olmamışdan qabaq səhvən alnını yerdən qaldırsa, yenidən yerə qoya bilməz və onu bir səcdə hesab etməlidir. Amma əgər sair səcdə üzvlərini səhvən yerdən qaldırsa, gərək yenidən yerə qoyub zikri desin.

**M:1077.** Birinci səcdənin zikri qurtarandan sonra qalxıb oturmaq, bədən aram olduqdan sonra yenidən səcdəyə getmək lazımdır.

**M:1078.** Namaz qılanın alnının yeri dizlərinin və (ayaq) barmaqlarının qoyulduğu yerdən dörd bağlı barmaqdan alçaq və ya uca olmamalıdır.

**M:1079.** Çala-çuxur olan və çala-çuxur olması dəqiq şəkildə mə’lum olmayan yerlərdə, ehtiyat-vacib budur ki, namaz qılanın alnını qoyduğu yer ayaqlarını və dizlərini qoyduğu yerdən dörd bağlı barmaqdan uca olmasın.

**M:1080.** Əgər səhvən alnını barmaqlarının ucundan və dizlərindən dörd bağlı barmaqdan hündür olan yerə qoysa və onun ucalığı “səcdə halındadır” deyilməyəcəyi qədərdirsə, bu halda başını qaldırıb ucalığı dörd bağlı barmaq, yaxud ondan az olan şeyin üstünə qoya bilər, yaxud başını hündürlüyü dörd bağlı barmaq və ya ondan da az olan şeyin üstünə çəkə bilər. Amma əgər onun ucalığı çox az olsa və “səcdə halındadır”, deyilsə, ehtiyat-vacib budur ki, alnını onun üstündən dörd bağlı barmaq, yaxud ondan da az olan şeyin üstünə çəksin. Əgər alnı çəkmək mümkün olmasa, ehtiyat-vacibə görə namazı qurtarıb yenidən qılmalıdır.

**M:1081.** Alın ilə səcdə edilən şeyin arasında bir şey olmamalıdır. Deməli, möhür çox çirkli olsa və alının özü möhürə dəyməsə, səcdə batildir. Amma, misal üçün, möhürün rəngi dəyişmiş olsa eybi yoxdur.

**M:1082.** Səcdədə əllərin içi yerə qoyulmalıdır. Amma çarəsizlik halında əllərin üstünü yerə qoymağın maneəsi yoxdur. Əgər bu da mümkün olmasa, onda bilək yerə qoyulmalıdır; bu da mümkün olmasa dirsəyə qədər olan hər yer mümkün olsa, onu yerə qoyulmalıdır; bu da mümkün olmasa qolun qoyulması kifayətdir.

**M:1083.** Səcdədə ehtiyat-vacibə görə ayağın iki baş barmağının ucu yerə qoyulmalıdır. Əgər başqa barmaqlar, yaxud ayağın üstü yerə qoyulsa və ya dırnağın uzun olması səbəbilə barmağın başı yerə dəyməsə, namaz batildir. Məsələni bilməməzlik üzündən öz namazlarını bu cür qılan bir kəs ehtiyat-müstəhəbbə görə onu yenidən qılmalıdır.

**M:1084.** Əgər bir kəsin ayağının baş barmağının bir miqdarı kəsilibsə, gərək onun qalan hissəsini yerə qoysun. Amma əgər o baş barmaqdan heç nə qalmayıbsa, yaxud qalanlar çox qısadırsa, onda sair barmaqları qoymalıdır. Əgər ümumiyyətlə barmağı olmasa, ayağın nə qədər hissəsi varsa oranı yerə qoymalıdır.

**M:1085.** Əgər bir kəs qeyri-adi halda səcdə etsə (məsələn, qarnını və sinəsini yerə yapışdırsa), ehtiyat-vacibə görə namazı yenidən qılmalıdır. Əgər ayaqlarını uzatsa, hətta yeddi səcdə üzvü yerdə olsa da, namazı yenidən qılmalıdır.

**M:1086.** Möhür, yaxud səcdə olunan sair şeylər pak olmalıdır. Amma misal üçün, möhürü nəcis palazın üstünə qoysalar, yaxud möhürün bir tərəfi nəcis olsa və alın (o biri) pak tərəfə qoyulsa eybi yoxdur.

**M:1087.** Əgər alında çiban və s. kimi şeylər olsa, mümkün olan surətdə alının sağlam yerləri ilə səcdə etməlidir. Əgər mümkün olmasa yeri bir az çala edib çibanı çalaya salmalı və alının səcdə üçün kifayət edən sağlam yerini yerə qoymaq lazımdır.

**M:1088.** Əgər çiban, yara alının hər yerini tutmuş olsa, onda alının iki tərəfindən biri ilə səcdə edilməlidir. Əgər bu da mümkün olmasa çənə ilə; çənə ilə də mümkün olmasa ehtiyat-vacibə görə üzün mümkün olan hər yeri ilə səcdə etməlidir. Üzünün də heç bir yeri mümkün olmasa, başının qabağı ilə səcdə etməlidir.

**M:1089.** Alnını yerə çatdıra bilməyən bir kəs bacardığı qədər əyilib möhürü, yaxud səcdənin səhih olduğu başqa bir şeyi uca bir şeyin üstünə qoymalı, alnını da onun üstünə elə qoymalıdır ki, “səcdə edir” desinlər. (Əgər möhürü yuxarı qaldırıb alnına yapışdırsa, səcdə səhih deyildir.) Amma əllərin içini, dizləri, ayaqların barmaqlarını adi qaydada yerə qoymalıdır.

**M:1090.** Ümumiyyətlə əyilə bilməyən bir kəs səcdə üçün yerə oturub başı ilə işarə etməlidir. Əgər bunu da edə bilməsə, gözləri ilə işarə etməlidir. Hər iki halda ehtiyat budur ki, mümkün olarsa, möhürü qaldırıb alnına qoysun; əgər başı və gözləri ilə də işarə edə bilməsə, qəlbində səcdə niyyəti etməli, ehtiyat-vacibə görə əli və s. ilə səcdəyə işarə etməlidir.

**M:1091.** Otura bilməyən bir adam ayaq üstə səcdə niyyəti etməlidir. Əgər mümkündürsə, başı ilə səcdə üçün işarə etməlidir. Bunu da edə bilməsə gözləri ilə işarə etməlidir (yə’ni, gözlərini səcdə niyyəti ilə yummalı, başını səcdədən qaldırmaq niyyəti ilə gözlərini açmalıdır); və əgər bunu da edə bilməsə, qəlbində səcdə niyyəti edib ehtiyat-vacibə görə əli və s. ilə səcdəyə işarə etməlidir.

**M:1092.** Əgər alın ixtiyarsız olaraq səcdə yerindən qalxsa, bu halda mümkün olarsa, qoymamalıdır ki, yenidən səcdə yerinə qayıtsın (və bu, bir səcdə hesab olunur–istər səcdənin zikrini demiş olsun, istərsə də deməmiş olsun). Əgər başını saxlaya bilməsə və ixtiyarsız olaraq yenidən səcdə yerinə qayıtsa, üst-üstə bir səcdə hesab olunur. Və (əvvəldə) zikri deməmişdirsə, bu dəfə deməlidir.

**M:1093.** İnsan təqiyyə etməli olduğu yerlərdə palaz və bu kimi şeylərə səcdə edə bilər: namaz üçün başqa yerə getməsi lazım deyil. Amma əgər o məkanda həsir, daş, yaxud səcdənin səhih olduğu sair şeylər mövcud olsa, gərək onun üstünə səcdə etsin.

**M:1094.** Əgər bədənin üstündə aramlaşmadığı bir şeyin üstünə səcdə etsə, batildir. Amma dolu döşəyin, yaxud başı qoyduqdan və bir az aşağı getdikdən sonra aramlaşan şeylərin üstünə səcdə etməyin eybi yoxdur.

**M:1095.** Əgər insan palçıqlı torpaqda namaz qılmağa məcbur olsa və bədən, yaxud paltarının palçığa bulaşmasının onun üçün məşəqqəti olmazsa, səcdə və təşəhhüdü adi qaydada etməlidir; yox əgər məşəqqəti olsa, ayaq üstə olan halda səcdə üçün başı ilə işarə edib, təşəhhüdü də ayaq üstə oxuya bilər. Lakin təşəhhüdü və səcdəni adi qaydada da yerinə yetirsə, namazı səhihdir.

**M:1096.** Təşəhhüdün vacib olmadığı yerlərdə (zöhr, əsr və işa namazlarının üçüncü rəkətində) ikinci səcdədən sonra daha yaxşı olar ki, bir anlığa oturub, sonrakı rəkət üçün qalxsın. Buna "istirahət oturuşu" deyilir.

## *SƏCDƏ ETMƏYİN SƏHİH OLDUĞU ŞEYLƏR*

**M:1097.** Səcdə yerə, habelə yerdən göyərib yeyilməli olmayan şeylərə (çubuq, ağacın yarpağı və s.) edilməlidir. Yeyilən və geyilən şeylərə səcdə etmək səhih deyildir. Həmçinin, mə'dəndən çıxarılan faydalı qazıntılara (məsələn, filizlərə, qızıla, gümüşə, əqiqə, firuzəyə və s.) səcdə etmək batildir. Amma mə'dəndən çıxarılan daşlara (mərmər daşı, qara daşlar kimi) səcdə etməyin eybi yoxdur.

**M:1098.** Üzüm ağacının yarpağına səcdə etmək təzə halda olarsa caiz deyil, amma quruduqdan sonra ona səcdə etmək olar.

**M:1099.** Yerdən göyərən və heyvanların yemi olan şeylərə (ot, saman kimi) səcdə etmək səhihdir.

**M:1100.** Yeyilməyən güllərə səcdə etmək səhihdir. Amma, yerdən göyərən və yeyilən dərman bitkilərinə (bənövşə, maldili kimi) səcdə etmək səhih deyildir.

**M:1101.** Yeyilməsi bə'zi yerlərdə adət olan, bə'zi yerlərdə isə adət olmayan bitkilərə, həmçinin, yetişməmiş meyvəyə səcdə etmək səhih deyildir. Amma tütünə səcdə etmək caizdir.

**M:1102.** Əhəng daşına, gəc daşına səcdə etmək səhihdir. Hətta bişmiş gəcə, əhəngə, kərpicə, palçıq kuzəyə və bu kimi şeylərə də səcdə etmək olar.

**M:1103.** Əgər kağızı, səcdənin səhih oludğu şeydən (məsələn, saman, yaxud ağacdan) düzəltsələr, ona səcdə etmək olar. Pambıqdan hazırlanan kağıza səcdə etməyin eybi yoxdur. Amma ehtiyat-vacibə görə ipəkdən hazırlanan kağıza səcdə etmək olmaz.

**M:1104.** Səcdə üçün hər şeydən yaxşı Həzrət Seyyidüş-Şühəda (əleyis-salam)-ın türbətidir. Ondan sonra adi torpaq, sonra daş və daha sonra bitkilərdir.

**M:1105.** Əgər bir kəsin səcdənin səhih olduğu şeyləri olmasa, yaxud olmasına baxmayaraq, şiddətli soyuq, istilik, yaxud təqiyyə və s. kimi səbəblər üzündən ona səcdə edə bilməsə, bu halda onun paltarı pambıq və ya kətandan

toxunmuş olsa, ona səcdə etməlidir. Amma paltar başqa şeydən toxunmuş olsa, həmin paltara səcdə etməlidir; o da olmasa, əlinin üstünə səcdə etməlidir; bu da mümkün olmasa, mə’dəndən çıxarılan şeylərə (əqiq üzük kimi) səcdə etməlidir.

**M:1106.** Palçığa və alnın aram olmadığı yumşaq torpağa səcdə etdikdə, əgər bir miqdar gedəndən sonra aramlaşırsa, eybi yoxdur.

**M:1107.** Əgər birinci səcdədə möhür alına yapışsa və alnından qoparmadan yenidən səcdəyə getsə, eybi yoxdur və iki səcdə hesab olunur. Amma daha yaxşı olar ki, möhürü alnından qopartsın.

**M:1108.** Əgər namaz əsnasında səcdə etdiyi şey yoxa çıxsa və səcdənin səhih olduğu başqa bir şey olmasa, bu halda vaxt çox olsa və başqa yerdə səcdənin səhih olduğu şey mövcuddursa, namazı pozmalıdır. Əgər vaxt azdırsa, yaxud səcdənin səhih olduğu şey yoxdursa, paltarına–əgər pambıq və kətandan toxunubsa–səcdə etməlidir. Amma başqa şeydən toxunmuş olsa, həmin şeyə səcdə etməlidir. Bu da mümkün olmasa, əlin üstünə, o da mümkün olmasa ehtiyata görə mə’dəndən çıxarılan şeylərə (əqiq üzük kimi) səcdə etməlidir.

**M:1109.** Əgər insan səcdə halında, alnını, səcdənin batil olduğu şeyin üstünə qoyduğunu bilsə, mümkün olan surətdə alnını həmin şeyin üstündən səcdənin səhih olduğu şeyin üstünə çəkməlidir. Əgər vaxt azdırsa, əvvəlki məsələdə deyilənlərə uyğun olaraq əməl etməlidir.

**M:1110.** Əgər səcdədən sonra, alnını səcdənin batil olduğu şeyin üstünə qoyduğunu bilsə, eybi yoxdur.

**M:1111.** Allah-Taaladan başqası üçün səcdə etmək haramdır. Avam camaatdan bə’zilərinin İmamlar (əleyhimüs-salam)-ın qəbirləri müqabilində alınlarını yerə qoymaları Allaha şükür etmək niyyəti ilə olsa, eybi yoxdur; əks halda (yə’ni şükür üçün olmazsa) haramdır.

### *SƏCDƏNİN MÜSTƏHƏB, BATİL VƏ MƏKRUHATI*

**M:1112.** Səcdədə bir neçə şey müstəhəbdir: **1**-Ayaq üstə namaz qılan şəxs, rükudan qalxdıqdan və bədəni tam aram olduqdan sonra; oturan halda namaz qılan şəxs isə tam düz oturduqdan sonra səcdəyə getmək üçün təkbir desin; **2**-Kişi səcdəyə gedəndə əvvəl əllərini, qadın isə əvvəl dizlərini yerə qoysun; **3**-Alından əlavə, burnu da möhürün, yaxud səcdənin səhih olduğu şeyin üstünə qoysun; **4**-Səcdə halında əlin barmaqlarını bir-birinə yapışdırsın və əllərini qulaqlarının müqabilində yerə elə qoysun ki, barmaqların ucu qibləyə tərəf olsun; **5**-Səcdədə dua edib Allahdan hacətlərini istəsin. Səcdədə münasib olan dualardan biri budur:

يَاخَيرَ المَسئُولِينَ وَيَا خَيرَ المُعطِينَ اُرزُقنِى وَارزُق عِيَالِى مِن فَضلِكَ فَاِنَّكَ ذُوالفَضلِ العَظِيمَ

“Ya xəyrəl-məs’ulinə və ya xəyrəl-mu’tinə urzuqni vərzuq iyali min fəzlikə fə innəkə zul-fəzlil-əzim”

“Ey hacət istənilənlərin ən yaxşısı və ey əta edənlərin ən yaxşısı! Mənə və mənim əhl-əyalıma Öz fəzlindən ruzi əta et. Çünki Sən, həqiqətən böyük fəzl və kərəm sahibisən.”

**6-**Səcdədən sonra sol budunun üstündə otursun, sağ ayağını sol ayağın üstünə qoysun (buna “təvərrük” deyilir); **7-**Hər səcdədən qalxıb oturandan və bədəni aram olandan sonra təkbir desin; **8-**Birinci səcdədən sonra, bədəni aram olduğu vaxt (ikinci səcdəyə getməzdən əvvəl) “əstəğfirullahə Rəbbi və ətubu iləyh” desin; **9-**Səcdəni uzatsın, oturanda isə əllərini budlarının üstünə qoysun; **10-**İkinci səcdəyə getmək üçün bədən aram olan halda “Allahu əkbər” desin; **11-**Səcdələrdə salavat desin; **12-**Qalxanda əlləri dizlərdən sonra yerdən götürsün; **13-**Kişilər dirsəyi və qarnı yerə yapışdırmasınlar və qollarını bədəndən aralı saxlasınlar (qabırğalara yapışdırmasınlar); qadınlar isə dirsək və qarınlarını yerə qoysunlar, bədən üzvlərini bir-birinə yapışdırsınlar.

Səcdənin sair müstəhəb əməlləri müfəssəl kitablarda bəyan olunmuşdur.

**M:1113.** Səcdədə Qur’an oxumaq məkruhdur. Həmçinin, səcdə yerinin toz-torpağını təmizləmək üçün üfürmək də məkruhdur. Əgər üfürmə nəticəsində ağızdan iki hərf tələffüz olunarsa, namaz batildir. (Səcdədə məkruh olan sair işlər müfəssəl kitablarda deyilmişdir.)

### *QUR’ANIN VACİBİ SƏCDƏ OLAN SURƏLƏRİ*

**M:1114.** Qur’anın dörd Surəsində vacibi səcdə vardır: 1-”Ən-nəcm” (53-cü Surə); 2-“İqrə’ (96-cı Surə); 3-“Əlif-Lam-Mim Tənzil” (32-ci Surə); 4-“Ha-Mim Səcdə’ (41-ci Surə). İnsan hər vaxt bu Surələrdən birinin səcdə ayəsini oxusa və ya eşitsə dərhal səcdəyə getməlidir. Əgər unudarsa, hər vaxt yadına düşsə, səcdə etməsi vacibdir. Amma qulaq asmasa və səcdə ayəsi qulağına dəysə, ehtiyat-vacibə görə səcdə etməlidir.

**M:1115.** Əgər insan səcdə ayəsini oxuyan vaxt başqasından da (səcdə ayəsini) eşitsə, iki səcdə etməlidir.

**M:1116.** Bir şəxs namazdan başqa hallarda bu ayələri səcdə halında oxusa, yaxud ona qulaq assa, başını səcdədən qaldırıb yenidən səcdə etməlidir.

**M:1117.** Əgər səcdə ayəsini radio, televiziya və ya maqnitofondan eşitsə, səcdə etməlidir.

**M:1118.** Ehtiyat-vacibə görə Qur’anın vacibi səcdələrində yeyilən və geyilən şeylərə səcdə etmək olmaz. Amma namazın səcdəsində lazım olan sair şərtlər bu səcdədə vacib deyil.

**M:1119.** Qur’anın vacibi səcdəsini elə etmək lazımdır ki, “səcdə edir” deyilsin. Yə’ni, niyyət və səcdənin zahiri surəti (forması) kifayət edir.

**M:1120.** Əgər Qur’anın vacibi səcdələrində alın səcdə niyyəti ilə yerə qoyulsa - hətta zikr deyilməsə də, kifayətdir. Amma zikri demək müstəhəbdir. Daha yaxşı olar ki, bu zikr deyilsin:

لاَاِلَه اِلاَّ اللهُ حَقًّا حَقًّا لاَ اِلَهَ الاَّ اللهُ اِيمَانًا وَتَصدِيقًا لاَاِلَه اِلاَّ اللهُ عبوديَّةً وَرِقًّا سَجَدتُ لَكَ يَارَبِّ تَعَبُّداً وَرِقًّالاَ مُستَنكِفًا وَلاَ مَستَكبِراً بَل اَنَا عَبدٌ ذَلِيلٌ ضَعِيفٌ خَائِفٌ مُستَجِيرٌ

“La ilahə illəllahu həqqən həqqa. La ilahə illəllahu iymanən və təsdiqa. La ilahə illəllahu ubudiyyətən və riqqa. Səcədtu ləkə ya Rəbbi, təəbbudən və riqqa. La mustənkifən və la mustəkbirən bəl ənə əbdun zəlilun, zəifun, xaifun, mustəcir.”

**M:1121.** Qur’anın vacibi səcdəsində təkbirətül ehram, təşəhhüd və salam yoxdur. Lakin ehtiyat-vacibə görə başı səcdədən qaldırdıqdan sonra təkbir deyilsin.

### *TƏŞƏHHÜD*

**M:1122.** Bütün vacibi namazların ikinci rəkətində, (bundan əlavə,) məğrib namazının üçüncü, zöhr, əsr və işa namazlarının dördüncü rəkətində ikinci səcdədən sonra oturub bədənin aram olduğu halda təşəhhüd oxunmalıdır. Yə’ni deməlidir ki:

اَشْهَدُ اَن لا اِلَهَ الاَّ اللهُ وَحدَهُ لاشَرِيكَ لَهُ وَاَشهَدُ اَنَّ مُحَمَّداً عَبْدُهُ وَرَسُولُهُ اَللَّهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ وَآلِ مُحَمَّد

“Əşhədu ən la ilahə illəllah, vəhdəhu la şərikə ləh, və əşhədu ənnə Muhəmmədən əbduhu və Rəsuluh. Allahummə səlli əla Muhəmmədin və Ali-Muhəmməd.”

**M:1123.** Təşəhüdün kəlmələri ərəbcə səhih və adi qaydada, bir-birinin ardınca deyilməlidir.

**M:1124.** Əgər bir kəs təşəhhüdü unudub ayağa qalxsa və rükudan əvvəl yadına düşsə, oturub təşəhhüdü deməli, yenidən ayağa durub həmin rəkətdə yerinə yetirməli olan şeyləri oxuduqdan sonra namazı qurtarmalıdır. Amma rükuda və ya ondan sonra yadına düşərsə, namazı qurtarmalı, salamdan sonra təşəhhüdü qəza etməli və unudulmuş təşəhhüd üçün iki səcdeyi-səhv etməlidir.

**M:1125.** Müstəhəbdir ki, namaz qılan şəxs təşəhhüd deyən halda sol budunun üstünə oturub, sağ ayağı sol ayağın üstünə qoysun. Təşəhüddən qabaq

“Əlhəmdu lillah” və ya “Bismillahi və billahi vəlhəmdu lillahi və xəyrul-əsmai lilllah” deyilsin. Həmçinin müstəhəbdir ki, əlləri dizlərinin üstünə qoysun, barmaqlarını bir-birinə yapışdırıb, ətəyinə baxsın. Təşəhhüd qurtarandan sonra isə

“Vətəqəbbəl şəfaətəhu vərfə’ dərəcətəh”-desin.

**M:1126.** Müstəhəbdir ki, qadınlar təşəhhüd oxuyanda budlarını bir-birinə yapışdırsınlar.

### *SALAMLAR*

**M:1127.** Namazın axırıncı rəkətinin təşəhhüdündən sonra müstəhəbdir ki, oturan və bədənin aram olduğu halda deyilsin:

اَلسَّلاَمُ عَلَيْكَ اَيُّهَا النَّبِيُّ وَرَحمَةُ اللهِ وَبَرَكاتُهُ

"Əssəlamu ələykə əyyuhən-Nəbiyyu və rəhmətullahu və bərəkatuh"

Ondan sonra gərək

اَسَّلاَمُ عَلَيكُم وَرَحمَةُ اللهِ وَبَرَكاتُهُ

"Əssəlamu ələykum və rəhmətullahi və bərəkatuh", yaxud

السَّلاَمُ عَلَيْنا وَعَلى عِبادِ اللهِ الصالِحِينَ

"Əssəlamu ələyna və əla ibadillahis-salihin" desin. Amma əgər bu salamı desə, ehtiyat-vacib budur ki, ondan sonra

السَّلاَمُ عَلَيكُم وَرَحمَةُ اللهِ وَبَرَكاتُهُ

"Əssəlamu ələykum və rəhmətulahi və bərəkatuh"u da desin.

**M:1128.** Əgər bir kəs namazın salamını unutsa və namazın surəti pozulmamış yadına düşsə, bu halda qəsdən, yaxud səhvən baş verməsi namazı batil edən işlərdən birini (məsələn, üzü qiblədən başqa tərəfə çevirmək) görməmişdirsə, salamı deməlidir, namazı da səhihdir.

**M:1129.** Əgər namazın salamını unutsa və namazın surəti pozulandan sonra yadına düşsə, bu halda namazın surəti pozulmamışdan əvvəl qəsdən, yaxud səhvən edilməsi namazı batil edən işlərdən (arxası qibləyə oturmaq kimi) görməyibsə namazı səhihdir. Amma namazın surəti pozulmamışdan əvvəl, səhvən və ya qəsdən edilməsi namazı batil edən işlərdən görübsə, namazı batildir.

### *TƏRTİB*

**M:1130.** Əgər insan namazın tərtibini qəsdən pozsa (məsələn, Surəni Həmddən qabaq oxusa, yaxud səcdəni rükudan qabaq etsə) namazı batildir.

**M:1131.** Əgər namazın rüknündən birini unudub sonrakı rüknü yerinə yetirsə (məsələn, rükunu yerinə yetirməmişdən əvvəl iki səcdə etsə) namazı batildir.

**M:1132.** Əgər bir rüknü unudub ondan sonrakı, rükn olmayan bir əməli yerinə yetirsə (məsələn, iki səcdəni yerinə yetirməmişdən qabaq təşəhhüd oxusa), unutduğu rüknü yerinə yetirməli, ondan qabaq səhvən qıldıqlarını yenidən yerinə yetirməlidir. Ehtiyat-vacibə görə hər artıq əməl üçün iki səcdeyi-səhv də etməlidir.

**M:1133.** Əgər rükn olmayan bir şeyi unudub sonrakı rüknü yerinə yetirsə, məsələn, Həmdi unudub rükuya getmiş olsa, namazı səhihdir. Unudulmuş Həmd üçün ehtiyat-vacibə görə gərək iki səcdeyi-səhv yerinə yetirsin.

**M:1134.** Əgər rükn olmayan bir şeyi unutsa və ondan sonra rükn olmayan başqa bir şeyi yerinə yetirsə (məsələn, Həmdi unudub Surəni oxumuş olsa), bu

halda ondan sonrakı rüknə məşğuldursa (məsələn, rükuda Həmdi oxumadığı yadına düşsə) gərək keçsin, namazı da səhihdir. Hər unudulmuş vacib əməl üçün ehtiyat-vacibə görə iki səcdeyi-səhv etməlidir. Amma sonrakı rüknə daxil olmayıbsa unutduqlarını yerinə yetirməli, sonra səhvən əvvəlcə oxuduqlarını yenidən oxumalı, artıq əməl etdiyi üçün ehtiyat-vacibə görə iki səcdeyi-səhv də etməlidir.

**M:1135.** Əgər birinci səcdəni "ikinci səcdədir" gümanı ilə və ya ikinci səcdəni birinci səcdə gümanı ilə yerinə yetirsə namazı səhihdir. Onun birinci səcdəsi birinci, ikinci səcdəsi də ikinci səcdə hesab olunur.

### *MUVALAT*

**M:1136.** İnsan namazı muvalat ilə oxumalıdır, yə'ni namazın hissələrini (rüku, səcdə, təşəhhüd kimi) bir-birinin ardınca, fasiləsiz yerinə yetirməlidir. Namazda oxuduqları da adi qaydada bir-birinin ardınca, fasiləsiz olmalıdır. Əgər bunların arasında müəyyən qədər fasilə salsa və "namaz qılır" deyilməsə– hətta əgər səhvən olsa da namazı batildir.

**M:1137.** Əgər namazda, hərflərin, yaxud kəlmələrin arasında qəsdən fasilə salsa və bu fasilə, namazın surətini poza biləcəyi qədər də olmasa, namazı batildir. Amma əgər bu işlər səhvən olsa nə qədər ki, sonrakı rüknə başlamayıb, o hərf və kəlmələri adi qaydada oxumalıdır. Amma sonrakı rüknə daxil olubsa, namazı səhihdir. Təkbirətül-ehramda isə əgər onun kəlmələri arasında fasilə düşsə, belə ki, təkbirətül-ehram halətindən çıxsa, namaz batildir.

**M:1138.** Rüku, səcdə və qunutu uzatmaq, böyük Surələri oxumaq namazın muvalatına xələl yetirmir.

### *QUNUT*

**M:1139.** Bütün vacibi və müstəhəbbi namazlarda, ikinci rəkətin rükusundan qabaq müstəhəbdir ki, qunut tutulsun. Vətr namazının bir rəkət olmasına baxmayaraq, onun rükusundan qabaq qunut tutmaq müstəhəbdir. Cümə namazının hər rəkətində bir qunut vardır: birinci rəkətdə rükudan əvvəl, ikinci rəkətdə isə rükudan sonra tutulur. Ayət namazının beş, Fitir və Qurban bayram namazlarının isə hər birinin birinci rəkətində beş, ikinci rəkətində isə dörd qunut vardır.

**M:1140.** Əgər namaz qılan qunut tutmaq istəsə, ehtiyat-vacibə görə əlləri üzünün müqabilinə qaldırmalıdır. Müstəhəbdir ki, əlin içi səmaya doğru olsun və əllərini bir-birinin yanında (qoşa) tutsun, baş barmaq istisna olmaqla, sair barmaqlarını bir-birinə yapışdırıb əllərinin içinə baxsın.

**M:1141.** Qunutda hər zikri, hətta bir dəfə "subhanəllah" desə kifayətdir. Amma daha yaxşı olar ki, bu dua oxunsun:

لاَ إِلٰهَ إِلاَّ اللهُ الحَلِيمُ الكَرِيمُ لاَ إِلٰهَ إِلاَّ اللهُ العَلِيُّ العَظِيمُ سُبحانَ اللهِ رَبِّ السَّمَاواَتِ السَّبعِ وَرَبِّ الأَرَضِينَ السَّبعِ وَمَا فِيهِنَّ وَمَابَينَهُنَّ وَرَبِّ العَرشِ العَظِيمِ وَالحَمدُ للهِ رَبِّ العَالَمِينَ

"La ilahə illəllahul-həlimul-kərim. La ilahə illəllahul-əliyyul-əzim. Subhanəllahi Rəbbis-səmavatis-səb'i və Rəbbil-ərəzinəs-səb'i və ma fihinnə və ma bəynəhunnə və Rəbbil-ərşil-əzim. Vəlhəmdu lillahi Rəbbil-aləmin."

**M:1142.** Müstəhəbdir ki, insan qunutu ucadan oxusun. Amma namazı camaatla qılan bir kəsin səsini imam eşidərsə, qunutu ucadan oxması müstəhəb deyil.

**M:1143.** Əgər qəsdən qunut tutmasa qəzası yoxdur. Amma unutsa və rüku qədərinə əyilməzdən qabaq yadına düşsə, müstəhəbdir ki, qayıdıb qunut tutsun. Əgər rükuda yadına düşsə müstəhəbdir ki, rükudan sonra qəzasını etsin; və əgər səcdədə yadına düşsə, müstəhəbdir ki, namazın salamından sonra qəza etsin.

## NAMAZIN TƏRCÜMƏSİ

### *1. HƏMD SURƏSININ TƏRCÜMƏSI*

⇲♊🕓◆🏱✍❑▪❷⚘⸙✁ ★✐⸙✁ ✐🏱⬄○🙬🗀
✐🏱⑩🙰○▪❷⚘⸙✁

بِسْمِ اللّٰهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

“Bismillahir-rəhmanir-rəhim”–yə’ni başlayıram dünyada həm mö’minə, həm də kafirə, axirətdə isə yalnız mö’minə rəhm edən Allahın adı ilə.

◆×✓🙰☺■🖬🕓⍓➔⍂⚘⸙✁ ✐♌❀◆❻ ✶✐ 🡐⑨⇧☺⍓⬧⍂⚘⸙✁

الْحَمْدُ لِلّٰهِ رَبِّ الْعٰلَمِينَ

“Əlhəmdu lillahi Rəbbil-aləmin”–yə’ni həmd və səna yalnız o Allaha məxsusdur ki, bütün mövcudatı, aləmləri tərbiyə edəndir.

✐🏱⑩🙰○▪❷⚘⸙✁ ⇲♊🕓◆🏱✍❑▪❷⚘⸙✁

الرَّحْمَٰنِ الرَّحِيمِ

“Ər-rəhmanir-rəhim”–yə’ni, dünyada həm mö’minə, həm də kafirə, axirətdə isə yalnız mö’minə rəhm edəndir.

✐×⬄🙰♏⸙✐⸙✁ 🙰✈⬀❑◆③ ⍄🖮🙰🖬🕓◆✎

مَلِكِ يَوْمِ الدِّينِ

“Maliki yovmiddin”–yə’ni, o Allah Qiyamət gününün padşahı və ixtiyar sahibidir.

☒🖰⸙▪③🙬◑◆❒ 🡐⑨🡐🖮✍➔◆☼ ☒🖰⸙▪③🙬◑
⍌▫✓🙰➔◆✌⬄○■♦

إِيَّاكَ نَعْبُدُ وَإِيَّاكَ نَسْتَعِينُ

“İyyakə nə’budu və iyyakə nəstəin”–yə’ni, yalnız Sənə ibadət edir və yalnız Səndən kömək istəyirik.

☒◐❒◆❸⍄♉⇲⚘⸙✁ ⸙◆☼🙰⑨✍♎⸙✁
⌘🏱⓿✐◑◆✌⬄○🡐☺⍂⚘⸙✁

اهْدِنَا الصِّرَٰطَ الْمُسْتَقِيمَ

“İhdinəs-siratəl müstəqim”–yə’ni, bizi (İslam dinindən ibarət olan) doğru yola hidayət et!

❁♌⇧☺⍓➔✍☼❒🕮 ◆×⬄🙰♎⅄✐⸙✁ ☒◐❒◆❸⍄🕓
⬀♉🙬♑⍂⓿■🖬◆⬉

صِرَٰطَ الَّذِينَ أَنْعَمْتَ عَلَيْهِمْ

“Siratəl-ləzinə ən’əmtə ələhim”–yə’ni, o kəslərin yoluna hidayət et ki, onlara ne’mət vermisən (və onlar peyğəmbərlər və onların canişinləridir).

••◆❒ ⬄⚐♑♑♑♍⓿■◘⧫⬂ ⬁✞❒➔♑♍⬄⌂☺♍♑♍✍✁ ♑❸⬀❷☒⬂
⧫×✓♑♏♑♍✐✍✁·♑♑♍✍✁

غَيْرِ الْمَغْضُوبِ عَلَيْهِمْ وِلا الضَّالِّينَ

“Ğəyril-məğzubi əleyhim vələzzallin”–yə’ni, o kəslərin yoluna hidayət etmə ki, onlara qəzəb etmisən; və onların yoluna yox ki, yollarından azıblar.

*2. “QUL HUVƏLLAH” SURƏSININ TƏRCÜMƏSI:*

♓♏♐

“Bismillahir rəhmanir rəhim.” yə’ni başlayıram dünyada həm mö’minə, həm də kafirə, axirətdə isə yalnız mö’minə rəhm edən Allahın adı ilə.

⬂⑨☒❍❒🕮 ✦✐✍✁ ◆❒➔♎ ⬀✍➔♉

قُلْ هُوَ اللهُ أَحَدٌ

“Qul huvəllahu əhəd”–yə’ni, (Ey Peyğəmbər,) de ki: Allah yeganə olan Allahdır.

🡐⑨⌂☺❍🕒♍✍✁ ✦✐✍✁

اللهُ الصَّمَدُ

“Allahus-səməd”–yə’ni, O Allah ki, bütün mövcudatlardan ehtiyacsızdır.

⇳⑨⬧♍❑⬉③ ⬀☠⬧♍◆❒ ⇳✍✁⧫③ ⬀☠⬧♍

لَمْ يَلِدْ وَلَمْ يُولَدْ

“Ləm yəlid və ləm yuləd”–yə’ni, övladı yoxdur və heç kəsin də övladı deyil.

🖮⑨☒❍❒🕮 ✁¤❒➔▦➔🗎 🛈⬉🕮⅄✐ ♊⬈▤⧫③ ⬀☠⬧♍◆❒

وَلَمْ يَكُن لَّهُ كُفُوًا أَحَدٌ

“Və ləm yəkun ləhu kufuvən əhəd”–yə’ni, məxluqatdan heç kəs Onun misli, tayı-bərabəri deyil.

**3. Rüku, səcdə və onlardan sonra müstəhəb olan zikrlərin tərcüməsi:**

سُبحان رَبِّیَ العَظیمِ وَ بِحَمدِهِ

“Subhanə Rəbbiyəl-əzimi və bihəmdi”–yə’ni, mənim böyük Pərvərdigarım hər eyb və nöqsandan pak və münəzzəhdir və mən də Ona həmd-sitayiş etməyə məşğulam.

سُبحان رَبِّیَ الأعلی وَ بِحَمدِهِ

“Subhanə Rəbbiyəl-ə’la və bihəmdih”–yə’ni, mənim hamıdan uca məqamlı Pərvərdigarım hər eyb və nöqsandan pak və münəzzəhdir, mən də Ona həmd-sitayiş etməyə məşğulam.

سَمِعَ اللهُ لِمَن حَمِدَهُ

"Səmiəllahu limən həmidəh"–yə'ni, Allah, Ona həmd-səna edənlərin həmd-sənasını qəbul etsin!

اَستَغفِرُ اللهَ رَبّى وَاَتُوبُ اِلَيهِ

"Əstəğfirullahə Rəbbi və ətubu iləyh"–bağışlanmaq və məğfirət tələb edirəm o Allahdan ki, mənə pərvəriş verəndir və mən Onun tərəfinə qaydıram.

بِحَولِ اللهِ وَقُوَّتِهِ اَقُومُ وَاَقعُدُ

"Bihovlillahi və quvvətihi əqumu və əq'ud"–Mütəal Allahın köməyi və hövl-qüvvəsi ilə oturub-dururam.

### *4. QUNUTUN TƏRCÜMƏSI*

لاَ إِلهَ إِلاّ اللهُ الحَلِيمُ الكَرِيمُ

"La ilahə illəllahul-həlimul-kərim"–Kərəm və helm sahibi olan Allahdan başqa bir mə'bud, ibadətə layiq olan kimsə yoxdur.

لاَ اِلهَ اِلاّ اللهُ العَلِىُّ العَظِيمُ

"La ilahə illəllahu-əliyyul-əzim"–Böyük, uca mərtəbə əzəmətli olan Allahdan başqa ibadətə layiq olan bir mə'bud yoxdur.

سُبحانَ اللهِ رَبِّ السَّمَاواَتِ السَّبعِ وَرَبِّ الأَرَضِينَ السَّبعِ وَمَا فِيهِنَّ وَمَابَينَهُنَّ وَرَبِّ العَرشِ العَظِيمُ

"Subhanəllahi Rəbbis-səmavatis-səb"i və Rəbbil-ərəzinəs-səb"i və ma fihinnə və ma bəynəhunnə və Rəbbil-ərşil-əzim"–Pak, hər eyb və nöqsandan pak və münəzzəhdir o Allah ki, yeddi qat göylərin, yeddi qat yerlərin və onların arasında olanların, əzəmətli ərşin Pərvərdigarıdır.

والحَمدُ للّهِ رَبِّ العَالَمِينَ

"Vəlhəmdu lillahi Rəbbil-aləmin"–Həmd və səna, aləmlərə pərvəriş verən, bütün mövcudatları tərbiyə edən Allaha məxsusdur.

**5-Təsbihati-ərbəənin tərcüməsi:**

سُبحَانَ اللهِ وَالحَمْدُ للهِ وَلا اِلَهَ اِلاَّ اللهُ وَاللهُ اَكْبَر

"Subhanəllahi vəlhəmdu lillahi və la ilahə illəllahu vəllahu əkbər"–hər eyb və nöqsandan pak və münəzzəhdir Allah, həmd yalnız Allaha məxsusdur, Allahdan başqa heç bir həmd-sənaya, ibadətə layiq olan bir mə'bud yoxdur. Allah, Onu vəsf edənlərin vəsfindən daha böyükdür.

**6-Təşəhhüd və salamın tərcüməsi:**

اَلحَمدُ للهِ اَشْهَدُ اَن لا اِلَهَ الاّ اللهُ وَحدَهُ لاشَرِيكَ لَهُ

“Əlhəmdu lillah, əşhədu ənla ilahə illəllahu vəhdəhu la şərikə ləh”–sitayiş və həmd Allaha məxsusdur. Şəhadət verirəm ki, Allahdan başqa heç bir mə’bud, pərəstişə layiq şəxs yoxdur. Təkdir, şəriki yoxdur.

وَاَشهَدُ اَنَّ مُحَمَّداً عَبْدُهُ وَرَسُولُهُ

“Və əşhədu ənnə Muhəmmədən əbduhu və Rəsuluh”–Şəhadət verirəm ki, Mühəmməd (səlləllahu əleyhi və alihi və səlləm) Allahın bəndəsi və Onun Rəsulu, göndərdiyidir.

اَللَّهُمَّ صَلِّ عَلىَ مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ

“Allahummə səlli əla Muhəmmədin və Ali-Muhəmməd”–Ey Xudavənd! Rəhmət göndər Mühəmmədə və Onun Əhi-beytinə.

وَتَقَبَّل شَفَاعَتَهُ وَارفَع دَرَجَتَهُ

“Və təqəbbəl şəfaətəhu vərfə’ dərəcətəh”–Peyğəmbərin şəfaətini qəbul et, O Həzrətin dərəcəsini Öz yanında ucalt!

اَلسَّلاَمُ عَلَيْكَ اَيُّهَا النَّبِىُّ وَرَحمَةُ اللهِ وَبَرَكَاتُهُ

“Əssəlamu ələykə əyyuhən-Nəbiyyu və rəhmətullahi və bərəkatuh”–Salam olsun Sənə ey Peyğəmbər! Allahın rəhmət və bərəkəti Sənə olsun!

السَّلاَمُ عَلَيْنا وَعَلى عِبادِ اللهِ الصّالِحِينَ

“Əssəlamu ələyna və əla ibadillahis-salihin”–Allah tərəfindən salam biz namaz qılanlara və bütün yaxşı bəndələrə olsun!

السَّلاَمُ عَلَيكُم وَرَحمَةُ اللهِ وَبَرَكاتُهُ

“Əssəlamu ələykum və rəhmətullahi və bərəkatuh”–Allahın salam, rəhmət və bərəkəti siz mö’minlərə olsun!

## *NAMAZIN TƏ’QİBATI*

**M:1144.** Müstəhəbdir ki, insan namazdan sonra müəyyən qədər tə’qibatla məşğul olsun. Yə’ni zikr etsin, dua və Qur’an oxusun. Daha yaxşı olar ki, öz yerindən hərəkət etməmiş, dəstəmaz, qusul və ya təyəmmümü batil olmamış üzü qibləyə durub tə’qibatı oxusun. Tə’qibatın ərəbcə olması vacib deyil. Amma daha yaxşı olar ki, dua kitablarında qeyd olunanları oxusun. İmamlarımız (əleyhimüs-salam)-dan daha çox sifariş olunan tə’qibatlar Həzrəti Zəhra (salamullahi əleyha)-nın zikridir ki, bu tərtiblə deyilməlidir: 34 dəfə Allahu Əkbər, 33 dəfə əlhəmdu lillah, 33 dəfə subhanəllah. Subhanəllahı əlhəmdu lillahdan qabaq da demək olar, amma daha yaxşı olar ki, sonra deyilsin.

**M:1145.** Müstəhəbdir ki, namazdan sonra şükür səcdəsi edilsin. Əgər alnı şükr etmək məqsədi ilə yerə qoysalar kifayətdir. Amma daha yaxşı olar ki, 100 dəfə, yaxud (heç olmazsa) üç dəfə və ya bir dəfə “şükrən lillah”, yaxud

"şükrən", yaxud da "əfvən" deyilsin. Həmçinin müstəhəbdir ki, insana hər vaxt ne'mət yetişsə, yaxud hər hansı bəla ondan uzaqlaşsa şükür səcdəsi etsin.

### *PEYĞƏMBƏRƏ (SƏLLƏLLAHU ƏLEYHİ VƏ ALİHİ VƏ SƏLLƏM) SALAVAT*

**M:1146.** Hər vaxt insan Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in mübarək adını (Mühəmməd, Əhməd), yaxud ləqəbini, künyəsini (Mustəfa, Əbul-Qasim və s.) desə, yaxud eşitsə, hətta namaz üstündə də olsa müstəhəbdir ki, salavat göndərsin.

**M:1147.** Həzrət Rəsuli Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-in adını yazanda müstəhəbdir ki, salavat da yazılsın. Həmçinin daha yaxşı olar ki, hər vaxt O Həzrəti yad etsə salavat göndərsin.

### *NAMAZI BATİL EDƏN ŞEYLƏR*

**M:1148.** 12 şey namazı batil edir (və onlara mübtilat deyilir):

1-Namaz əsnasında onun şərtlərindən hər hansı birinin pozulması.

(Məsələn, namaz qılan, namaz əsnasında yerin qəsbi olduğunu başa düşsə.)

2-Namaz əsnasında qəsdən, səhvən, yaxud çarəsizlikdən dəstəmazı, quslu batil edən şeylərin baş verməsi.

(Məsələn, insandan bovl xaric olsa.) Amma bovl və qaitin çölə gəlməsinin qarşısını ala bilməyən bir şəxsdən namaz əsnasında bovl və qait xaric olarsa və dəstəmaz bölməsində deyilən göstərişlərə əsasən əməl edərsə, namazı batil olmaz. Həmçinin əgər namaz əsnasında istihazəli qadından qan xaric olarsa və istihazədə göstərilən qaydaya əməl edərsə namazı səhihdir.

**M:1149.** Əgər bir kəs ixtiyarsız olaraq yuxlasa, amma namaz əsnasında, yaxud ondan sonra yuxladığını bilməsə, namazı yenidən qılmalıdır. Amma namazın tamam olmasını bilsə, amma namaz əsnasında, yaxud namazdan sonra yuxladığında şəkk etsə, namazı səhihdir.

**M:1150.** Əgər öz ixtiyarı ilə yatdığını bilsə amma, namazdan sonra və ya namaz əsnasında, namaz qılmasını unudaraq yatdığını bilməsə, namazı səhih deyil.

**M:1151.** Əgər səcdə halında yuxudan ayılıb namazın axırıncı səcdəsi və ya şükür səcdəsində olmasında şəkk etsə, namazı yenidən qılsın.

3-Şiə olmayan bə'zi kəslər kimi əlləri bir-birinin üstünə qoymaq.

**M:1152.** Əgər namaz qılan şəxs ədəb üçün əlləri bir-birinin üstünə qoysa, hətta onlar kimi də olmasa, ehtiyat-vacibə görə namazı yenidən qılmalıdır. Amma əgər unutqanlıq, yaxud naçarlıq üzündən, yaxud da, başqa işlər (əli qaşımaq və s.) üçün əlləri bir-birinin üstünə qoysa eybi yoxdur.

4-Həmdi oxuyandan sonra "amin" demək.

Amma əgər səhvən və ya təqiyyə üzündən desə, namazı batil olmaz.

5-Qəsdən və ya unudaraq qiblədən arxaya, sağa, yaxud sola dönmək.

Hətta əgər qəsdən bir az dönsə və “üzü qibləyədir” deməsələr, sağ tərəfə, sol tərəfə tamamilə dönməsə də, namazı batildir.

**M:1153.** Əgər qəsdən, yaxud səhvən başını bir qədər döndərsə, belə ki, öz arxasını görə bilsə, namazı batildir. Amma əgər başını azacıq döndərsə–istər qəsdən, istərsə də səhvən–namazı batil deyil.

6-Qəsdən mə’nası olan bir kəlmə demək.

İstər bu kəlmə bir hərfli, istərsə də çox hərfli olsun, mə’nasını qəsd etsə namazı batildir. Amma səhvən desə, namazı batil deyil.

**M:1154.** Əgər bir hərfli mə’nası olan kəlmə desə (məsələn, ərəb dilində “qi,□” (iki səsli, bir hərfli) kəlməsi “saxla” mə’nasındadır), bu halda əgər onun mə’nasını bilib və qəsd etsə, namazı batildir. Hətta əgər onun mə’nasını bilib qəsd etməsə də, ehtiyat-vacib budur ki, namazı yenidən qılsın.

**M:1155.** Namazda öskürmək, ah çəkmək və gəyirməyin eybi yoxdur. Amma “ah”, “ax” kimi iki hərfli kəlmələri qəsdən desə batildir.

**M:1156.** Əgər müəyyən bir kəlməni zikr qəsdi ilə desə, (məsələn, zikr qəsdi ilə “Allahu əkbər” desə) amma onu deyən vaxt səsini ucaldaraq başqasına bir şey anlatmaq istəsə, eybi yoxdur. Amma müəyyən bir şeyi bir kəsə başa salmaq üçün onu desə, hətta zikr qəsdi ilə deyilsə də, namazı batildir.

**M:1157.** Namazda vacibi səcdəsi olan (və hökmləri cənabət bölməsində deyilən) dörd Surədən başqa Qur’an oxumaq, həmçinin dua etməyin eybi yoxdur. Ehtiyat-vacib budur ki, bunlar (dua) ərəbcə olsun.

**M:1158.** Əgər Həmd-Surənin bə’zi hissələrini, namazın sair vacib zikrlərini qəsdən, yaxud ehtiyatən bir neçə dəfə təkrar etsə eybi yoxdur. Amma əgər vəsvaslıq üzündən bir neçə dəfə desə, namazı batildir.

**M:1159.** İnsan namaz halında gərək başqasına salam verməsin. Amma başqası ona salam versə, gərək elə cavab versin ki, salam kəlməsi əvvəldə olsun. Məsələn, “əssəlamu əleykum” və ya “salamun əleykum”. Amma “əleykumus-salam” deməməlidir (salam kəlməsini axıra salmamalıdır).

**M:1160.** İnsan salamın cavabını–istər namaz halında olsun, istərsə də başqa vaxtlarda–dərhal deməlidir. Əgər qəsdən, yaxud unudaraq salamın cavabını gec versə, (belə ki, artıq cavab hesab olunmasa) bu halda namaz halındadırsa daha cavab verməməlidir; yox əgər namaz üstə olmasa, cavabını vermək vacib deyil.

**M:1161.** Salamın cavabı elə verilməlidir ki, salam verən eşitsin. Əgər salam verən kar olsa, səsi ucaltmaqla, yaxud işarə ilə cavabı elə verilməlidir ki, eşitsin, yaxud salamın cavabı olduğunu anlasın.

**M:1162.** Namaz qılan şəxs salamın cavabını dua qəsdi ilə deyil, cavab qəsdi ilə verməlidir.

**M:1163.** Əgər qadın və ya naməhrəm kişi, yaxud müməyyiz (yə’ni, yaxşını-pisi seçə bilən) uşaq namaz qılan şəxsə salam versə, salamı ala bilər. Daha yaxşı olar ki, dua qəsdi ilə cavab versin.

**M:1164.** Əgər namaz qılan şəxs salamın cavabını verməsə günah etmişdir, amma namazı səhihdir.

**M:1165.** Əgər bir kəs namaz qılana səhv salam versə, belə ki, salam hesab olunmasa, onun cavabı vacib deyil. Amma salam hesab olunsa, onun cavabı vacibdir. Daha yaxşı olar ki, dua qəsdi ilə cavab versin.

**M:1166.** Zarafat və məsxərəbazlıq üzündən salam verən bir kəsin salamını almaq vacib deyil. Ehtiyat-vacib budur ki, qeyri-müsəlman kişi və ya qadının salamının cavabında “əleykə’ deyilsin.

**M:1167.** Əgər bir kəs (bir yerdə olan) bir neçə nəfərə salam versə onun salamının cavabı hamısına vacibdir. Amma, əgər biri cavab verərsə, kifayətdir.

**M:1168.** Əgər bir kəs bir neçə nəfərə salam versə və salam verənin qəsd etmədiyi bir nəfər cavabını versə o salamın cavabı yenə də oradakıların hamısına vacibdir.

**M:1169.** Əgər bir kəs bir neçə nəfərə salam versə və onların arasında namaz qılmağa məşğul olan bir kəs salamın onu da qəsd edərək verdiyində şəkk etsə, cavabını verməməlidir. Həmçinin əgər onu da qəsd etdiyini bilsə, amma salamın cavabını başqası versə cavab verməməlidir; əgər onu da qəsd etdiyini bilsə və başqası onun cavabını verməsə, namaz qılan şəxs cavabını verməlidir.

**M:1170.** Salam vermək müstəhəbdir. Bu barədə İmamlarımız (əleyhimüs-salam) çoxlu tövsiyələr etmişlər ki, süvari piyadaya, ayaq üstə olan oturana və kiçiklər böyüklərə salam versinlər.

**M:1171.** Əgər iki nəfər (eyni zamanda) bir-birinə salam versə, hər birinə vacibdir ki, o digərinin cavabını qaytarsın.

**M:1172.** Namazdan başqa hallarda müstəhəbdir ki, salamın cavabı verildiyindən daha yaxşı verilsin. Məsələn, əgər bir kəs “səlamun əleykum” deyə salam versə, cavabında “səlamun əleykum və rəhmətullah” deyilsin.

7-Namazı səsli və tərci”[17] gülüşlə qılmaq.

Ehtiyat-vacibə görə səsli gülüş tərci” ilə olmasa da, qəsdən olsa batildir; səhvən də ucadan gülsə və namazın surəti pozulsa, namaz batildir. Amma gülümsəmək (təbəssüm) namazı batil etmir.

**M:1173.** Əgər gülüş səsinin qarşısını almaq istədikdə halı dəyişsə, məsələn, rəngi qızarsa və bu qızartı namazın surətini poza biləcək həddə olsa, namaz batildir.

---

[17]Səsin boğaza salınması ilə olan səs.

8. Dünya işləri üçün ucadan ağlamaq. Ehtiyat-vacib budur ki, namaz qılan dünya işləri üçün astadan da ağlamasın. Amma əgər Allah xovfundan, yaxud Qiyaməti yada salıb ağlasa–istər alçaq səslə olsun, istərsə də uca səslə–eybi yoxdur. Üstəlik bu, daha yaxşı əməllərdən hesab olunur.

9. Namazın surətini pozan işlərdən görmək.

Məsələn, əl çalmaq, rəqs etmək, havaya tullanmaq və s. Bu işlər istər az olsun, istərsə də çox; istər qəsdən, istərsə də unutqanlıq üzündən olsun, heç bir fərqi yoxdur. Amma namazın surətini pozmayan işlərin (məsələn əllə bir şeyə işarə etmək kimi) eybi yoxdur.

**M:1174.** Əgər namaz əsnasında namaz qılmaq halından xaric olana qədər sakit qalsa, namaz batildir.

**M:1175.** Əgər namaz əsnasında müəyyən bir iş görsə, yaxud müəyyən qədər sakit qalıb sonra namazın pozulub-pozulmamasında şəkk etsə, namazı səhihdir.

10. Yemək və içmək.

Əgər namaz üstündə, namazın surətini poza biləcək qədər bir şey yesə və ya içsə–hətta namazın surəti pozulmasa da ehtiyat-vacibə görə namaz batildir.

**M:1176.** Ehtiyat-vacib budur ki, namazın surəti aradan getməsə də onun adi (ürfi) muvalatını pozan yeyib-içməkdən pərhiz edilsin.

**M:1177.** Əgər namaz əsnasında ağızda, yaxud dişlərin dibində qalan yemək qalıqlarını udsa, namaz batil olmaz. Amma qənd, şirini və s. kimi şeyləri ağzında saxlasa və məqsədi də namaz halında onu yavaş-yavaş həll edib udmaq olsa, namazı işkallıdır.

11. İki rəkətli və üç rəkətli namazlarda, həmçinin dörd rəkətli namazların ilk iki rəkətində şəkk etmək.

12. Namazın rüknünü qəsdən və ya səhvən azaldıb-çoxaltmaq, yaxud rükn olmayan şeyləri qəsdən artırıb-azaltmaq.

**M:1178.** Əgər bir kəs namazdan sonra, namaz əsnasında onu batil edən işlərdən görüb-görməməsi barədə şəkk etsə, namazı səhihdir.

### *NAMAZDA MƏKRUH OLAN ŞEYLƏR*

**M:1179.** Namazda üzü azacıq sağa və ya sola döndərmək, gözləri yummaq, yaxud sağa, sola döndərmək, saqqal və əllərlə oynamaq, barmaqları bir-birinə keçirtmək, ağızın suyunu yerə atmaq, Qur'anın, kitabın, üzüyün yazılarına baxmaq; həmçinin, Həmd və Surəni oxuyan və zikrləri deyən vaxtda başqasının sözünü eşitmək üçün səsi alçaltmaq məkruhdur. Ümumiyyətlə, Allah dərgahında xüzu və xüşunu[18] aradan aparan hər hansı bir işlə məşğul olmaq məkruhdur.

---

[18] Allahın əzəməti müqabilində tə'zim, Onun dərgahında bəndəçiliyin, zəlilliyin izhar edilməsi.

**M:1180.** İnsanın yuxusu gəldiyi, habelə bovl və qaitin qarşısını aldığı vaxt namaz qılması məkruhdur. Həmçinin ayağı sıxan dar corab geymək də məkruhdur. (Bundan başqa sair məkruhatlar da vardır ki, müfəssəl fiqhi kitablarda qeyd olunmuşdur.)

### *VACİBİ NAMAZI POZMAĞIN CAİZ OLAN YERLƏRİ*

**M:1181.** İxtiyar üzündən vacibi namazı pozmaq haramdır, amma can və malın hifz olunması, cana və mala dəyən zərərin qarşısını almaq üçün pozmağın eybi yoxdur.

**M:1182.** Əgər öz canını, yaxud canının qorunması vacib olan bir kəsi, yaxud qorunub-saxlanması vacib olan əmlakı (malı) hifz etmək namazı pozmadan mümkün olmazsa, gərək namazı pozsun. Amma çox əhəmiyyəti olmayan bir şeyi hifz etmək üçün namazı pozmaq məkruhdur.

**M:1183.** Əgər bir kəs namaz vaxtının çox olduğu vaxtda namaza başlasa və borc sahibi öz borcunu ondan istəsə, onda namaz üstündə verə bilərsə, elə o halda verməlidir; yox əgər namazı pozmadan verə bilməzsə, namazı pozub borcunu qaytardıqdan sonra qılmalıdır.

**M:1184.** Əgər namaz əsnasında məscidin nəcis olduğunu bilsə, vaxtın az olduğu halda namazı qılıb qurtarmalıdır; amma vaxt çox olsa və namazı pozmadan məscidi paklamaq mümkün olarsa, gərək namaz əsnasında məscidi təmizləyib sonra qalan hissəsini qılsın. Amma əgər namazı pozmalı olarsa, (namazı pozub) məscidi pakladıqdan sonra yenidən qılmalıdır.

**M:1185.** Namazı pozmalı olan bir kəs onu tamamlasa (axıra çatdırsa), günah etmişdir, amma namazı səhihdir. Amma ehtiyat-müstəhəb budur ki, namazı yenidən qılsın.

**M:1186.** Əgər rüku qədərində əyilməzdən qabaq azan və iqaməni unutduğu yadına düşsə, namazın vaxtı çox olan halda müstəhəbdir ki, onları demək üçün namazı pozsun (və təzədən azan və iqamə ilə qılsın).

### *NAMAZIN ŞƏKKİYYATI*

Namazın şəkkiyyatı 23 qismdir ki, onlardan səkkizi namazı batil edir, altısına e’tina olunmamalıdır, doqquzunda isə namaz səhihdir.

### *NAMAZI BATİL EDƏN ŞƏKLƏR*

**M:1187.** Namazı batil edən şəklər aşağıdakılardan ibarətdir:

**1-**İki rəkətli namazların rəkətlərinin sayındakı şək; (sübh namazı və səfərdə olan şəxsin (iki rəkətli) namazları kimi). Amma iki rəkətli müstəhəb namazların, habelə bə’zi ehtiyat namazlarının rəkətlərinin sayındakı şəkk namazı batil etmir.

**2-**Üç rəkətli namazın rəkətlərinin sayındakı şəkk;

**3-**Dörd rəkətli namazda bir rəkət və ya daha artıq qılınmasındakı şəkk;

**4-**Dörd rəkətli namazlarda, ikinci səcdənin qurtarmasından qabaq iki rəkətlə daha artıq arasındakı şəkk. (Bu məsələnin təfsilatı üçün səhih şəklərin dördüncü qisminə müraciət edin.)

**5-**İki rəkətlə beş, yaxud iki rəkətlə beşdən artıq rəkət arasındakı şəkk;

**6-**Üç rəkətlə altı rəkət və ya üç rəkətlə altı rəkətdən artıq arasındakı şəkk;

**7-**Neçə rəkət qıldığını bilmədiyi namazlardakı şəkk;

**8-**Dörd rəkətlə altı və ya dörd rəkətlə altıdan artıq rəkətlərdəki şəkk–istər ikinci səcdənin qurtarmasından əvvəl olsun, istərsə də sonra. Amma əgər ikinci səcdədən sonra dördlə altı, yaxud dördlə altıdan artıq rəkətlərdə şəkk etsə, ehtiyat-müstəhəb budur ki, niyyətini dörd rəkətə qoyub namazı qurtarsın, sonra iki səcdeyi-səhv yerinə yetirib namazı da yenidən qılsın.

**M:1188.** Əgər batil edən şəklərdən hər hansı biri insanın qarşısına çıxsa, namazı poza bilməz. Amma əgər çox fikirləşsə və şəkki qərarlaşsa, namazı pozmağın eybi yoxdur.

### *E'TİNA OLUNMAMALI ŞƏKLƏR*

**M:1189.** E'tina olunmamalı şəklər aşağıdakılardan ibarətdir:

**1-**Yerinə yetirilmə məhəlli keçmiş olan şeylərdəki şəkk; (Məsələn, rükuda Həmdi oxuyub-oxumamasında şəkk etsə.)

**2-**Salamdan sonrakı şəkk;

**3-**Namazın vaxtı keçəndən sonrakı şəkk;

**4-**Kəsirül-şəkk, yə'ni çox şəkk edən şəxsin şəkki. Əgər namaz vaxtında olsa, öz şəkkinə əməl edərək namazı qılmalıdır. Amma əgər namaz vaxtından sonra şəkk etsə, öz şəkkinə e'tina etməməlidir.

**5-**Pişnamazın, namazın rəkətlərinin sayında etdiyi şəkk–əgər mə'mum onların sayını bilirsə. Həmçinin mə'mumun namazın rəkətlərinin sayında etdiyi şəkk–əgər imam onların sayını bilirsə;

**6-**Müstəhəb namazlardakı şəkk.

### *1-MƏHƏLLI KEÇƏN ŞEYLƏRDƏ ŞƏKK*

**M:1190.** Əgər bir kəs namaz əsnasında onun vacibi əməllərindən birini yerinə yetirib-yetirməməsində məsələn, Həmdi oxuyub-oxumamasında şəkk etsə, bu halda ondan sonra yerinə yetirilməli olan əmələ başlamamış olsa şəkk etdiyi hissəni yerinə yetirməlidir. Amma ondan sonra yerinə yetirilməli olan işə məşğul olsa öz şəkkinə e'tina etməməlidir.

**M:1191.** Əgər hər hansı ayəni oxuyanda, ondan qabaqkı ayəni oxuyub-oxumamasında şəkk etsə, yaxud ayənin axırını oxuyanda onun əvvəlini oxuyub-oxumamasında şəkk etsə öz şəkkinə e'tina etməməlidir.

**M:1192.** Əgər rüku, yaxud səcdədən sonra onun vacibi işlərini (zikr, bədənin aram olması) yerinə yetirib-yetirməməsində şəkk etsə öz şəkkinə e'tina etməməlidir.

**M:1193.** Əgər səcdəyə gedən halda rüku edib-etməməsində, yaxud rükudan sonra ayağa qalxıb-qalxmamasında şəkk etsə öz şəkkinə e'tina etməməlidir.

**M:1194.** Əgər ayağa qalxan halda təşəhhüdü deyib-deməməsində şəkk etsə, öz şəkkinə e'tina etməməlidir. Amma səcdəni yerinə yetirməsində şəkk etsə, qaydıb səcdəni yerinə yetirməlidir.

**M:1195.** Oturan, yaxud uzanan halda namaz qılan bir kəs Həmdi, yaxud təsbihatı oxuyan vaxt səcdə və ya təşəhhüdü yerinə yetirib-yetirməməsində şəkk etsə öz şəkkinə e'tina etməməlidir. Əgər Həmd və ya təsbihatı oxumamışdan qabaq səcdə və ya təşəhhüdü yerinə yetirib-yetirməməsində şəkk etsə, gərək onları yerinə yetirsin.

**M:1196.** Əgər namazın rüknlərindən hər hansı birini yerinə yetirib-yetirməməsində şəkk etsə, bu halda ondan sonrakı işə başlamayıbsa onu yerinə yetirməlidir. Məsələn, əgər təşəhhüdü yerinə yetirməmişdən iki səcdəni edib-etməməsində şəkk etsə, gərək yerinə yetirsin. Amma sonradan yerinə yetirmiş olduğu mə'lum olsa, rükn artıq olduğuna görə, namazı batildir.

**M:1197.** Əgər rükn olmayan bir əməli yerinə yetirib-yetirməməsində şəkk etsə, bu halda ondan sonrakı işə məşğul olmayıbsa, onu yerinə yetirməlidir. Məsələn, əgər Surəni oxumamışdan qabaq Həmdi oxumasında şəkk etsə, Həmdi oxumalıdır. Əgər Surəni oxuyandan sonra yerinə yetirmiş olduğu mə'lum olarsa, rükn artıq olmadığı üçün, namaz səhihdir.

**M:1198.** Əgər hər hansı rüknü yerinə yetirib-yetirməməsində şəkk etsə, bu halda təşəhhüdə məşğuldursa və iki səcdəni yerinə yetirməsində şəkk etsə öz şəkkinə e'tina etməməlidir. Amma o rüknü yerinə yetirdiyi yadına düşsə, bu halda sonrakı rüknə başlamayıbsa onu yerinə yetirməldir; yox əgər sonrakı rüknə başlayıbsa, namazı batildir. Məsələn, rükudan qabaq əvvəlki iki səcdəni yerinə yetirmədiyi yadına düşsə, onu yerinə yetirməlidir. Amma rükuda, yaxud ondan sonra yadına düşsə, namazı batildir.

**M:1199.** Əgər rükn olmayan bir əməli yerinə yetirib-yetirməməsində şəkk etsə, bu halda ondan sonrakı əmələ başlayıbsa öz şəkkinə e'tina etməməlidir. Məsələn, Surəni oxuyanda Həmdi oxuyub-oxumamasında şəkk etsə öz şəkkinə e'tina etməməlidir. Əgər sonradan onu yerinə yetirmədiyi yadına düşsə, sonrakı rüknə başlamayıbsa, yerinə yetirməlidir. Amma rüknə başlamış olsa, namazı səhihdir. Misal üçün, qunutda, Həmdi oxumadığı yadına düşsə, gərək oxusun. Əgər rükuda yadına düşsə namazı səhihdir. Amma vacibdir ki, oxumadığı Həmd üçün səcdeyi-səhv etsin. Əgər yerinə yetirmədiyi vacib təşəhhüd, yaxud səcdə olarsa onun qəzasını etmək vacibdir.

**M:1200.** Əgər namazın salamını deyib-deməməsində, yaxud düz deyib-deməməsində şəkk etsə, bu halda namazın tə'qibatına, yaxud başqa bir namaza başlayıbsa, yaxud namazın surətini pozan, camaat arasında "o, namazı qurtarmış, namaz halından çıxmışdır" deyilən başqa bir işə məşğul olubsa, öz şəkkinə e'tina etməməlidir. Amma bu kimi işlərdən əvvəl şəkk etsə salamları deməlidir. Əgər salamın düzgün, səhih deyilib-deyilməməsində şəkk etsə, hər bir halda: istər başqa işə başlamış olsun, istərsə də olmasın–öz şəkkinə e'tina etməməlidir.

### *2-SALAMDAN SONRAKI ŞƏKK*

**M:1201.** Əgər salamlardan sonra namazın səhih olub-olmamasında şəkk etsə, məsələn, rüku edib-etməməsində şəkk etsə, yaxud dörd rəkətli namazın salamından sonra dörd rəkət, yaxud beş rəkət qılmasında şəkk etsə öz şəkkinə e'tina etməməlidir. Amma əgər şəkkinin hər iki tərəfi batil olsa (məsələn dörd rəkətli namazın salamından sonra üç rəkət, yaxud beş rəkət qılmasında şəkk etsə) namazı batildir.

### *3-VAXT KEÇƏNDƏN SONRAKI ŞƏKK*

**M:1202.** Əgər bir kəs namazın vaxtı keçəndən sonra namaz qılıb-qılmamasında şəkk etsə, yaxud qılmadığını güman etsə öz şəkkinə e'tina etməməlidir. Amma vaxtı keçməmişdən qabaq namaz qılıb-qılmamasında şəkk etsə, yaxud qılmadığını güman etsə, o namazı qılmalıdır. Hətta əgər qıldığını güman etsə də, yenidən qılmalıdır.

**M:1203.** Əgər namazın vaxtı keçəndən sonra onu düzgün qılıb-qılmamasında şəkk etsə öz şəkkinə e'tina etməməlidir.

**M:1204.** Əgər zöhr və əsr namazının vaxtı keçəndən sonra dörd rəkət namaz qılıb amma zöhr, yoxsa əsr niyyəti ilə qıldığını bilməsə, ona vacib olan namazın (ma fiz-zimmə) qəzası niyyəti ilə bir dörd rəkətli namaz qılmalıdır.

**M:1205.** Əgər məğrib və işa namazının vaxtı keçəndən sonra bir namaz qıldığnı bilsə, amma üç, yoxsa dörd rəkət qıldığını bilməsə, hər iki namazın qəzasını qılmalıdır.

### *4-KƏSİRÜL-ŞƏKK*

**M:1206.** Əgər bir kəs bir namazda üç dəfə, yaxud üç namazda ardıcıl olaraq (məsələn sübh, zöhr və əsr namazında) şəkk etsə, ona kəsirül-şəkk deyilir. Əgər onun çox şəkk etməsi qəzəb, qorxu, halının pərişan olması səbəbi ilə olmazsa öz şəkkinə e'tina etməməlidir.

**M:1207.** Çox şəkk edən adam əgər bir şeyi yerinə yetirməkdə şəkk etsə, bu halda onu yerinə yetirmək namazı batil etmirsə, niyyətini onun yerinə yetirildiyinə qoymalıdır. Məsələn əgər rüku edib-etməməsində şəkk etsə,

niyyətini rüku etmiş olduğuna qoymalıdır; yox əgər onu yerinə yetirmək namazı batil edirsə, niyyəti onu yerinə yetirmədiyinə qoymalıdır. Məsələn, əgər bir və ya daha artıq rüku etdiyində şəkk etsə, rüknün artıqlığı namazı batil etdiyindən, niyyəti birdən artıq rüku etmədiyinə qoymalıdır.

**M:1208.** Namazın bir əməlində çox şəkk edən adam onun başqa hissələrində də şəkk etsə, onun göstərişinə uyğun olaraq əməl etməlidir. Məsələn səcdə edib-etməməsində çox şəkk edən bir adam, rükunu yerinə yetirib-yetirməməsində şəkk etsə, onun göstərişinə müvafiq əməl etməlidir. Yə'ni əgər hələ ayaq üstədirsə, gərək rükunu yerinə yetirsin; səcdəyə gedibsə şəkkinə e'tina etməsin.

**M:1209.** Məxsusi namazda (məsələn, zöhr namazında) çox şəkk edən bir adam başqa namazda da (məsələn, əsr namazında) şəkk etsə öz şəkkinin göstərişinə müvafiq olaraq əməl etməlidir.

**M:1210.** Əgər bir kəs məxsus bir yerdə namaz qılanda çox şəkk edirsə, bu halda o yerdən başqa yerdə namaz qılanda şəkk hasil olsa, öz şəkkinin göstərişinə uyğun olaraq əməl etməlidir.

**M:1211.** Əgər insan özünün kəsirül-şəkk olub-olmamasında şəkk etsə, şəkkin göstərişinə mövzuiyyə şübhəsi[19] kimi əməl etməlidir. Və kəsirül-şəkk nə qədər ki, adi adamların halına qayıdıb-qayıtmadığını bilmir, öz şəkkinə e'tina etməməlidir.

**M:1212.** Çox şəkk edən adam müəyyən rüknü yerinə yetirib-yetirməməsində şəkk edib e'tina etməsə və sonradan onu yerinə yetirmədiyi mə'lum olsa, bu halda sonrakı rüknə daxil olmayıbsa, onu yerinə yetirməlidir; yox əgər sonrakı rüknə başlayıbsa, namazı batildir. Məsələn əgər rüku edib-etməməsində şəkk edib e'tina etməsə və səcdədən əvvəl etmədiyi yadına düşsə, rüku etməlidir; əgər səcdədə yadına düşsə namazı batildir.

**M:1213.** Çox şəkk edən insan rükn olmayan bir şeyi yerinə yetirib-yetirməməsində şəkk etsə və öz şəkkinə e'tina etməyib sonradan yerinə yetirməməsi mə'lum olsa, bu halda onun yerinə yetirilməsi məhəlli keçməyibsə, yerinə yetirməlidir; yox əgər məhəllindən keçibsə namazı səhihdir. Məsələn, əgər Həmdi oxyub-oxumamasında şəkk edib e'tina etməsə və qunutda oxumadığı yadına düşsə, Həmdi oxumalıdır. Əgər rükuda yadına düşsə namazı səhihdir.

### *5-İMAM VƏ MƏ'MUMUN ŞƏKKİ*

**M:1214.** Əgər imam namazın rəkətlərinin sayında şəkk etsə, məsələn, üç və ya dörd rəkət qılmasında şəkk etsə, bu halda mə'mum dörd rəkət qıldığını yəqin, yaxud güman edib imama başa salsa, imam namazı qurtarmalıdır. Ehtiyat

---

[19]Mövzunun ayırd edilməsindəki şübhə, şəkk; bunun müqabilində hökmün ayırd edilməsində olan şübhədir ki, ona hökmiyyə şübhəsi deyilir.

namazı da qılmaq lazım deyil. Həmçinin əgər imam neçə rəkət qıldığın yəqin, yaxud gümanla bilsə, mə’mum da rəkətlərin sayında şəkk etsə öz şəkkinə e’tina etməməlidir.

### *6-MÜSTƏHƏB NAMAZDAKI ŞƏKK*

**M:1215.** Əgər bir kəs müstəhəb namazların rəkətlərinin sayında şəkk etsə, bu halda şəkkin çox tərəfi namazı batil edirsə, niyyəti az tərəfə qoymalıdır. Məsələn, əgər sübh namazının nafiləsində iki rəkətlə üç rəkət arasında şəkk etsə, niyyəti iki rəkət qıldığına qoymalıdır. Amma şəkkin çox tərəfi namazı batil etmirsə (məsələn, iki rəkətlə bir rəkət arasında şəkk etsə) şəkkin hər tərəfinə əməl etsə səhihdir.

**M:1216.** Ehtiyat-vacibə görə rüknün az olması nafilə namazını batil edir, amma artıq olması batil etmir. Deməli, əgər nafilənin işlərindən hər hansı birini unutsa və sonrakı rüknə başladığı vaxt yadına düşsə, o işi yerinə yetirib yenidən həmin rüknü yerinə yetirməlidir. Məsələn, əgər rükuda Surəni oxumadığı yadına düşsə, qayıdıb Surəni oxumalı, yenidən rükuya getməlidir.

**M:1217.** Əgər nafilə namazının işlərinin hər hansı birində şəkk etsə–istər rükn olsun, istərsə də qeyri-rükn–əgər məhəlli keçməyibsə, yerinə yetirməlidir; yox əgər məhəlli keçibsə öz şəkkinə e’tina etməməlidir.

**M:1218.** Əgər iki rəkət müstəhəb namazında gümanı üç rəkətə, yaxud daha artığa getsə, yaxud iki rəkətə və az tərəfə getsə həmin gümana əməl etməlidir. Amma əgər gümana əməl etməsi namazın batil olmasına səbəb olarsa, bu halda güman şəkk hökmündədir. Məsələn, əgər gümanı bir rəkətə gedirsə ehtiyatən bir rəkət də qılmalıdır.

**M:1219.** Əgər nafilə namazında səcdeyi-səhvin vacib olduğu bir iş etsə, yaxud bir səcdəni və ya təşəhhüdü unutsa, namazdan sonra səcdeyi-səhv, yaxud səcdə və təşəhhüddün qəzasını etməsi lazım deyil.

**M:1220.** Bir kəs müstəhəb namazı qılıb-qılmamasında şəkk etsə, bu halda o namaz “Cə’fəri-təyyar” namazı kimi vaxtı müəyyən olmayan namazlardan olsa, qılmadığını niyyət etməlidir. Həmçinin əgər gündəlik namazların nafiləsi kimi vaxtı müəyyən olsa və vaxtının keçməsindən əvvəl, yerinə yetirib-yetirməməsində şəkk etsə də eyni qayda ilə. Amma əgər vaxtı keçəndən sonra şəkk etsə, şəkkinə e’tina etməməlidir.

### *SƏHİH ŞƏKKLƏR*

**M:1221.** Doqquz halda əgər namaz qılan şəxs dörd rəkətli namazın rəkətlərinin sayında şəkk etsə, fikirləşməlidir: əgər şəkkin bir tərəfinə yəqin və ya güman tapsa həmin tərəfi əsas tutub namazı qurtarmalıdır. Əks halda isə deyiləcək göstərişlərə əməl etməlidir. Bu doqquz hal aşağıdakılardan ibarətdir:

**1-**İkinci səcdədən başını qaldırdıqdan sonra iki rəkətlə üç rəkət arasında şəkk etsə; bu halda niyyəti üç rəkətə qoyub bir rəkət də qılaraq namazı tamamlamalı, namazdan sonra bir rəkət ayaq üstə, yaxud iki rəkət oturan halda ehtiyat namazı (qaydası sonradan deyiləcək) qılmalıdır.

**2-**İki rəkətlə dörd rəkət arasında, başını ikinci səcdədən qaldırdıqdan sonra şəkk etsə; bu halda niyyəti dörd rəkətə qoyub namazı tamamlamalı, namazdan sonra ayaq üstə iki rəkət ehtiyat namazı qılmalıdır.

**3-**Başını ikinci səcdədən qaldırdıqdan sonra iki, üç və dörd rəkət arasında şəkk etsə; bu halda niyyəti dördə qoyub namazı tamamlamalı, sonra iki rəkət ayaq üstə və iki rəkət oturan halda ehtiyat namazı qılmalıdır. Amma birinci səcdədən sonra, yaxud başını ikinci səcdədən qaldırmazdan əvvəl bu üç şəkdən hər hansı biri hasil olsa, namazı pozub yenidən qıla bilər.

**4-**İkinci səcdədən başını qaldırdıqdan sonra dörd rəkətlə beş rəkət arasında şəkk etsə; bu halda niyyəti dördə qoyub namazı tamamlamalı, namazdan sonra iki səcdeyi-səhv etməlidir. Amma əgər birinci səcdədən sonra, yaxud başını ikinci səcdədən qaldırmazdan əvvəl belə şəkk etsə, ehtiyat-vacib budur ki, qeyd olunan göstərişə əməl edib sonra namazı yenidən qılsın.

**5-**Üç rəkətlə dörd rəkət arasında olan şəkk; bu şəkk namazın hər yerində olsa, niyyəti dördə qoyub namazı qurtarmalı, sonra isə bir rəkət ayaq üstə, yaxud iki rəkət oturan halda ehtiyat namazı qılmalıdır.

**6-**Ayaq üstə olanda dörd rəkətlə beş rəkət arasında olan şəkk; bu halda yerə oturub təşəhhüdü, salamları deyib, bir rəkət ayaq üstə, yaxud iki rəkət oturan halda ehtiyat namazı qılmalıdır.

**7-**Ayaq üstə olanda üç rəkətlə beş rəkət arasındakı şəkk; bu halda yerə oturub təşəhhüd və salamı deyib sonra namazı qurtarmalı, ayaq üstə iki rəkət ehtiyat namazı qılmalıdır.

**8-**Ayaq üstə olanda üç, dörd, beşinci rəkətlər arasındakı şəkk. Bu halda yerə oturub təşəhhüd və salamı deməli, iki rəkət ayaq üstə, sonra isə iki rəkət oturan halda ehtiyat namazı qılmalıdır.

**9-**Ayaq üstə olanda beşinci rəkətlə altıncı rəkətdəki şəkk; bu halda yerə oturmalı, təşəhhüd və salamları deyib namazı qurtarmalı, sonra isə səcdeyi-səhv yerinə yetirməlidir.

**M:1222.** Əgər səhih şəklərdən biri insanın qarşısına çıxsa, namazı pozmamalıdır; əgər pozsa, günah etmişdir. Namazı batil edən işləri (məsələn, üzü qiblədən döndərmək kimi) görmədən ikinci namaza başlasa, ikinci namazı da batildir. Amma əgər bu kimi işləri yerinə yetirdikdən sonra (ikinci namaza) başlasa, səhihdir.

**M:1223.** Əgər ehtiyat namazı vacib olan şəklərdən biri namaz əsnasında qarşıya çıxsa, bu halda insan namazı qurtarsa və ehtiyat namazı qılmadan namazı yenidən başlasa, günah etmişdir, amma namazı batil edən işlərdən birini

görmədən namazı başlasa, ikinci namazı da batildir; yox əgər namazı batil edən işləri gördükdən sonra ikinci namaza başlasa, ikinci namazı səhihdir.

**M:1224.** Əgər səhih şəklərdən hər hansı biri insanın qarşısına çıxsa, qeyd olunduğu kimi, dərhal fikirləşməlidir; əgər iki tərəfdən birinə yəqin və ya güman tapması üçün olan vasitələrdən biri onun üçün mövcud olmasa və şəkki aradan getməsə, hətta azacıq ondan sonra fikirləşsə də eybi yoxdur. Məsələn, əgər səcdədə şəkk etsə fikirləşməyi səcdədən sonraya qədər tə'xirə salmalıdır.

**M:1225.** Əgər əvvəldə gümanı iki tərəfdən birinə çox olsa, sonra isə hər iki tərəfə bərabərləşsə, şəkkin göstərişinə əməl etməlidir. Əgər şəkk əvvəldə hər iki tərəfə bərabər olsa və niyyəti vəzifəli olduğu tərəfə qoysa, sonradan gümanı başqa tərəfə getsə, həmin tərəfi əsas götürüb namazı tamamlamalıdır.

**M:1226.** Gümanın bir tərəfə artıq olduğunu, yaxud hər iki tərəfə bərabər olduğunu bilməyən şəxs ehtiyat etməlidir. Hər iki halda ehtiyat məxsus haldadır ki, müfəssəl fiqhi kitablarda deyilmişdir.

**M:1227.** Əgər namazdan sonra, namaz əsnasında tərəddüddə olduğunu başa düşsə, məsələn, iki rəkət, yaxud üç rəkət qılmasında tərəddüddə olub və niyyəti üç rəkətə qoyubsa, amma bu niyyət üç rəkət qılmağa güman üzündən ya hər iki tərəf onun nəzərində bərabər olması əsasında olduğunu bilməsə, gərək ehtiyat-vacibə görə ehtiyat namazı qılsın.

**M:1228.** Əgər təşəhhüd oxuyan vaxtda, yaxud ayağa qalxandan sonra iki səcdəni yerinə yetirib-yetirməməsində şəkk etsə və elə həmin vaxt iki səcdənin tamam olmasından sonra baş verəndə səhih olan şəkklər irəli gəlsə (məsələn, iki rəkətlə üç rəkət arasında şəkk etsə) o şəkkin göstərişinə əsasən əməl etməli və ehtiyat-vacibə görə namazı da yenidən qılmalıdır.

**M:1229.** Əgər təşəhhüdə başlamamışdan, yaxud təşəhhüddü olmayan rəkətlərdə ayağa qalxmamışdan əvvəl iki səcdəni yerinə yetirməsində şəkk etsə və həmin vaxt iki səcdənin tamam olmasından sonra səhih olan şəkklərdən biri baş versə, namazı batildir.

**M:1230.** Əgər ayaq üstə olan halda üçlə dörd, yaxud üçlə dörd və beş arasında şəkk etsə və əvvəlki rəkətin iki səcdəsini yerinə yetirmədiyi yadına düşsə, namazı batildir.

**M:1231.** Əgər insanın şəkki aradan getsə, amma başqa bir şəkk yaransa (məsələn, əvvəl iki rəkətlə üç rəkət arasında şəkk etsə, sonra isə üçlə dörd arasında şəkk etsə) ikinci şəkkin göstərişinə əməl etməlidir.

**M:1232.** Əgər namazdan sonra, namaz vaxtı məsələn, iki ilə dörd arasında, yoxsa üç ilə dörd arasında şəkk etdiyində şəkk etsə, ehtiyat-vacib budur ki, hər ikisinin göstərişinə əməl etsin, namazı da yenidən qılsın.

**M:1233.** Əgər namazdan sonra, namaz əsnasında şəkk irəli gəldiyini bilsə, amma batil şəkklərdən, yoxsa səhih şəkklərdən olmasını bilməsə; habelə səhih şəkklərdən olmuşsa, hansı qismdən olmasını bilməsə ehtiyat-vacibə görə gərək

səhih olan ehtimal verdiyi şəklərin göstərişinə əməl edib namazı da yenidən qılsın.

**M:1234.** Oturan halda namaz qılan bir şəxs üçün bir rəkət ayaq üstə, yaxud iki rəkət oturan halda ehtiyat namazı qılmalı olan bir şəkk baş versə, bir rəkət oturan halda yerinə yetirməlidir. Hətta əgər iki rəkət ehtiyat namazı qılmalı olan bir şəkk qarşıya çıxsa, iki rəkət oturan halda qılmalıdır.

**M:1235.** Ayaq üstə namaz qılan bir kəs ehtiyat namazı qılan vaxt daha ayaq üstə dura bilməsə, ehtiyat namazını namazı oturan halda qılan şəxslər kimi (hökmü əvvəldəki məsələdə deyildi) qılmalıdır.

**M:1236.** Oturan halda namaz qılan bir kəs ehtiyat namazı qılan vaxt ayaq üstə dura bilsə, namazı ayaq üstə qılan kəslərin vəzifəsinə əməl etməlidir.

## *EHTİYAT NAMAZI*

**M:1237.** Ehtiyat namazı vacib olan bir kəs namazın salamından sonra dərhal ehtiyat namazı niyyəti edib təkbir deməli, Həmdi oxuyub rüku və səcdəni etməlidir. Əgər bir rəkət ehtiyat namazı vacibdirsə, iki səcdədən sonra təşəhhüdü oxumalı, salamları deməlidir. İki rəkət ehtiyat namazı vacibdirsə, iki səcdədən sonra bir rəkət də (əvvəlki kimi) qılıb sonra təşəhhüdü və salamları deməlidir.

**M:1238.** Ehtiyat namazının Surəsi və qunutu yoxdur və ahəstə qılınmalıdır, niyyəti də dildə deyilməməlidir. Ehtiyat-vacib budur ki, “bismillah”ı da ahəstə deyilsin.

**M:1239.** Əgər ehtiyat namazını qılmamışdan qabaq qıldığı namazın səhih olduğunu başa düşsə, ehtiyat namazı qılması; əgər ehtiyat namazı əsnasında başa düşsə onu tamamlaması lazım deyil.

**M:1240.** Əgər ehtiyat namazı qılmamışdan qabaq namazının rəkətinin az olduğunu başa düşsə, bu halda namazı batil edən işlərdən görməyibsə qılmadıqlarını qılmalı, yersiz salam dediyinə görə iki səcdeyi-səhv etməlidir. Amma namazı batil edən işlərdən görübsə (məsələn, arxasını qibləyə çeviribsə) namazı yenidən qılmalıdır.

**M:1241.** Əgər ehtiyat namazından sonra, namazının kəsirinin ehtiyat namazı qədər olduğunu bilsə (məsələn, üçlə dörd arasında şəkk edib bir rəkət ehtiyat namazı qılsa və sonradan namazını üç rəkət qıldığını başa düşsə) namazı səhihdir.

**M:1242.** Əgər ehtiyat namazını qıldıqdan sonra namazının kəsrinin ehtiyat namazından az olduğunu bilsə (məsələn, iki ilə dörd arasında şəkk edib iki rəkət ehtiyat namazı qılsa və sonra namazı üç rəkət qıldığını bilsə) ehtiyat-vacibə görə namazın kəsirini–əgər namazın surətini pozan bir iş görməyibsə–namaza müttəsil etməli, namazı da yenidən qılmalıdır.

**M:1243.** Əgər ehtiyat namazı qılandan sonra namazın kəsirinin ehtiyat namazından artıq olduğunu bilsə (məsələn, üçlə dörd rəkət arasındakı şəkkdə bir rəkət ehtiyat namazı qılıb sonradan namazın iki rəkət qıldığını bilsə), bu halda ehtiyat namazından sonra namazı batil edən işlərdən görmüş olsa (məsələn, arxası qibləyə dönmüş olsa) namazı yenidən qılmalıdır; yox əgər namazı batil edən işlərdən görməyibsə namazın iki rəkət kəsirini yerinə yetirməli, namazın özünü də yenidən qılmalıdır.

**M:1244.** Əgər iki, üç, dörd arasında şəkk edib iki rəkət ayaq üstə ehtiyat namazı qılandan sonra namazı iki rəkət qıldığını başa düşsə, iki rəkət oturan halda ehtiyat namazı qılması lazım deyil.

**M:1245.** Əgər üçlə dörd arasında şəkk etsə və oturan halda iki rəkət, yaxud bir rəkət ayaq üstə ehtiyat namazı qılan vaxt üç rəkət qıldığı mə’lum olsa ehtiyat namazını qurtarmalıdır, namazı da səhihdir.

**M:1246.** İki, üç, dörd rəkət arasında şəkk etsə və iki rəkət ayaq üstə ehtiyat namazı qılan vaxt ikinci rəkətin rükusuna getməzdən qabaq namazı üç rəkət qıldığını bilsə oturub ehtiyat namazını bir rəkətlə tamamlamalı, ehtiyat-vacibə görə namazını da yenidən qılmalıdır.

**M:1247.** Əgər ehtiyat namazı əsnasında namazın kəsirinin ehtiyat namazından az, yaxud çox olduğunu başa düşsə, bu halda ehtiyat namazını namazın kəsrinə müvafiq tamam edə bilməsə, onu pozub namazının kəsrini yerinə yetirməlidir. Ehtiyat-vacibə görə namazı da yenidən qılmalıdır. Məsələn, əgər üçlə dörd arasındakı şəkkdə iki rəkət oturan halda ehtiyat namazı qılan vaxt namazını iki rəkət qıldığını başa düşsə, iki rəkət oturan haldakı namaz iki rəkət ayaq üstə olan namaz hesab edilə bilmədiyinə görə, oturan halda ehtiyat namazını boşlayıb iki rəkət namazının kəsrini qılmalıdır. Ehtiyatən namazını da yenidən qılmalıdır.

**M:1248.** Əgər vacib olan ehtiyat namazını yerinə yetirib-yetirməməsində şəkk etsə, bu halda namazın vaxtı keçibsə öz şəkkinə e’tina etməməlidir. Amma əgər vaxtı olsa başqa işə başlamayıbsa və namaz yerindən qalxmayıbsa, habelə namazı batil edən işlərdən (məsələn, qiblədən dönmək kimi) görməyibsə ehtiyat namazını qılmalıdır. Əgər başqa işə məşğuldursa, yaxud namazı batil edən işlərdən birini görübsə və ya namazla şəkk arasında çox vaxt keçibsə, ehtiyat budur ki, ehtiyat namazını yerinə yetirib, namazı da yenidən qılsın.

**M:1249.** Əgər ehtiyat namazında hər hansı rüknü artırsa, yaxud misal üçün, bir rəkət yerinə iki rəkət qılsa, ehtiyat namazı batildir. Və bu halda namazın özünün yenidən qılınması ilə kifayətlənmək ehtimalı gözlənilir.

**M:1250.** Ehtiyat namazını qılmağa məşğul olan vaxt onun işlərindən hər hansı birinə şəkk etsə, bu halda onun məhəlli keçməyibsə yerinə yetirməlidir; amma məhəlli keçmiş olarsa, gərək öz şəkkinə e’tina etməsin. Məsələn, rükuya

getməmişdən əvvəl Həmdi oxuyub-oxumamasında şəkk etsə, onu oxumalıdır. Amma rükuya gedibsə öz şəkkinə e’tina etməməlidir.

**M:1251.** Əgər ehtiyat namazının rəkətlərinin sayında şəkk etsə, niyyəti çox tərəfə qoymalıdır. Amma əgər şəkkin çox tərəfi namazı batil edirsə, namazı əvvəldən başlamalıdır. Ehtiyat namazını isə qılmaq lazım deyil.

**M:1252.** Əgər ehtiyat namazında rükn olmayan bir şeyi səhvən artırıb-azaltsa, əqvaya görə səcdeyi-səhvi yoxdur.

**M:1253.** Əgər ehtiyat namazının salamından sonra onun hissələrini, yaxud şərtlərini yerinə yetirib-yetirməməsində şəkk etsə, öz şəkkinə e’tina etməməlidir.

**M:1254.** Əgər ehtiyat namazında təşəhhüdü və yaxud bir səcdəni unutsa, ehtiyat-müstəhəb budur ki, salamdan sonra onu qəza etsin.

**M:1255.** Əgər bir şəxsə ehtiyat namazı və bir səcdənin, yaxud bir təşəhhüdün qəzası, yaxud iki səcdeyi-səhv vacib olsa, əqvaya əsasən əvvəl ehtiyat namazını qılmalıdır.

**M:1256.** Namazın rəkətlərində gümanın hökmü yəqinin hökmüdür. Məsələn, əgər insan dörd rəkətli namazda namazı dörd rəkət qılmasını güman etsə, ehtiyat namazı qılmamalıdır. Amma əgər rəkətlərdən başqalarında güman etsə, ehtiyata əməl etməlidir. Hər halın məxsus göstərişi var ki, müfəssəl fiqhi kitablarda deyilmişdir.

**M:1257.** Şəkk, səhv və gümanın hökmünün gündəlik vacib namazlarında və s. vacibi namazlarda heç bir fərqi yoxdur. Məsələn, əgər ayət namazında bir rəkətlə iki rəkət arasında şəkk etsə, iki rəkətli namazda şəkk batil olduğundan, onun da namazı batildir.

## *SƏCDEYİ-SƏHV*

**M:1258.** Üç şey üçün namazın salamından sonra iki səcdeyi-səhv yerinə yetirilməlidir (onun qaydası sonradan deyiləcək):

**1-**Namaz əsnasında səhvən danışsa;

**2-**Bir səcdəni unutsa;

**3-**Dörd rəkətli namazın ikinci rəkətindən sonra dörd rəkətlə beş rəkət arasında şəkk etsə.

İki halda da ehtiyat-vacib budur ki, səcdeyi-səhv yerinə yetirsin:

**1-**Namazın salamını verməli olmadığı yerdə (məsələn, birinci rəkətdə) səhvən salam desə;

**2-**Təşəhüdü unutsa.

**M:1259.** Əgər insan səhvən, yaxud namazını tamam olmuş hesab edərək danışsa, iki səcdeyi-səhv yerinə yetirməlidir.

**M:1260.** Ah çəkmək və öskürmək səbəbilə yaranan bir hərf üçün səcdeyi-səhv vacib deyil. Amma əgər məsələn, səhvən “ah”, “ax” desə, səcdeyi-səhv etməlidir.

**M:1261.** Əgər səhv oxuduğu bir şeyi yenidən düzgün surətdə oxusa, onu ikinci dəfə oxuması üçün səcdeyi-səhv vacib deyil.

**M:1262.** Əgər namazda səhvən bir müddət danışsa və onun hamısı bir dəfə hesab olunsa, salamdan sonra iki səcdeyi-səhv hamısı üçün kifayətdir.

**M:1263.** Əgər səhvən təsbihati-ərbəəni deməsə, yaxud üç dəfədən az və ya çox desə, ehtiyat-müstəhəb budur ki, namazdan sonra iki səcdeyi-səhv yerinə yetirsin.

**M:1264.** Əgər namazın salamını deməli olmadığı yerdə səhvən “əssəlamu ələyna və əla ibadillahis-salihin”, yaxud “əssəlamu ələykum və rəhmətullahi və bərəkatuh” desə, iki səcdeyi-səhv etməlidir. Amma əgər səhvən bu iki salamın bir miqdarını desə, yaxud “əssəlamu ələykə əyyuhənnəbiyyu və rəhmətullahi və bərəkatuh” desə, ehtiyat-müstəhəb budur ki, iki səcdeyi-səhv yerinə yetirsin.

**M:1265.** Əgər salam verməməli olduğu yerdə səhvən hər üç salamı desə, iki səcdeyi-səhv kifayətdir. Amma ehtiyat çox deməkdir. Yə’ni, bir səcdeyi-səhv onların hamısı üçün və sonra hər biri üçün isə ayrılıqda bir səcdeyi-səhv etsin.

**M:1266.** Əgər bir səcdəni və ya təşəhhüdü unutsa və sonrakı rəkətin rükusuna çatmamışdan qabaq yadına düşsə, qayıdıb yerinə yetirməli, etdiyi artıq hərəkət üçün bir səcdeyi-səhv etməlidir.

**M:1267.** Əgər rükuda, yaxud ondan sonra əvvəlki rəkətdən bir səcdəni, yaxud təşəhhüdü unutduğu yadına düşsə, namazın salamından sonra səcdəni və ya təşəhhüdü qəza edib sonra iki səcdeyi-səhv etməlidir.

**M:1268.** Əgər səcdeyi-səhvi namazın salamından sonra qəsdən etməsə, günah etmişdir. Vacibdir ki, dərhal onu yerinə yetirsin. Əgər səhvən yerinə yetirməsə, hər vaxt yadına düşsə dərhal yerinə yetirsin. Namazı yenidən qılmaq lazım deyil.

**M:1269.** Əgər səcdeyi-səhvin vacib olub-olmamasında şəkk etsə yerinə yetirməsi lazım deyil.

**M:1270.** Əgər insan ona iki, yaxud dörd səcdeyi-səhv vacib olmasında şəkk etsə, ikisi kifayətdir.

**M:1271.** Əgər iki səcdeyi-səhvdən birini yerinə yetirmədiyini bilsə, onda iki səcdeyi-səhv etməlidir. Əgər səhvən üç səcdə yerinə yetirdiyini bilsə, yenidən səcdeyi-səhv etməlidir.

## *SƏCDEYİ-SƏHVİN QAYDASI*

**M:1272.** Səcdeyi-səhvin qaydası budur ki, namazın salamından sonra dərhal səcdeyi-səhv niyyəti edib alnı səcdənin səhih olduğu şeylərin üstünə qoyub desin:

بِسمِ اللهِ وَبِاللهِ وَصَلّى اللهُ عَلَى مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ

"Bismillahi və billahi və səlləllahu əla Muhəmmədin və Ali-Muhəmməd", yaxud

بِسمِ اللهِ وَبِاللهِ اَللهُمَّ صَلّ عَلَى مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ

"Bismillahi və billahi, Allahummə səlli əla Muhəmmədin və Ali-Muhəmməd". Amma daha yaxşı olar ki,

بِسمِ اللهِ وَبِاللهِ اَلسَّلاَمُ عَلَيْكَ اَيُّهَا النَّبِيُّ وَرَحمَةُ اللهِ وَبَرَكَاتُهُ

"Bismillahi və billahi, əssəlamu əleykə əyyuhən-Nəbiyyu və rəhmətullahi və bərəkatuh" desin. (Və bu ehtiyat daha yaxşıdır.) Sonra səcdədən qalxıb otursun, yenidən səcdəyə gedib yuxarıdakı zikrlərdən birini desin. Sonra səcdədən qalxıb otursun, təşəhhüd və salamları desin.

## *UNUDULMUŞ SƏCDƏ VƏ TƏŞƏHHÜDÜN QƏZASI*

**M:1273.** İnsanın unutduğu və namazdan sonra qəzasını yerinə yetirdiyi təşəhhüd və səcdədə, namazda olan bütün şərtlər (bədən və paltarın pak olması, üzü qibləyə olmaq və s.) olmalıdır.

**M:1274.** Əgər təşəhhüdü və səcdəni bir neçə dəfə unutsa, (məsələn, bir səcdəni birinci rəkətdən, birini də ikinci rəkətdən unutsa) gərək namazdan sonra hər birinin qəzasını, onlar üçün lazım olan səcdeyi-səhv ilə birlikdə yerinə yetirsin. Hansının yerinə yetirdiyini də müəyyən etməsi lazım deyil.

**M:1275.** Əgər bir səcdə və bir təşəhhüdü unudubsa, ehtiyat-vacibə görə hansını birinci unudubsa, əvvəlcə onun qəzasını yerinə yetirsin. Amma əgər əvvəlcə hansını unutduğunu bilməsə, ehtiyatən bir səcdə və bir təşəhhüd, sonra isə başqa bir səcdə yerinə yetirsin, yaxud bir təşəhhüd və bir səcdə, onların ardınca isə başqa bir təşəhhüd yerinə yetirsin ki, tərtibini unutduğu səcdə və təşəhhüdün qəzasını tərtiblə yerinə yetirməsinə yəqin etsin.

**M:1276.** Əgər əvvəlcə səcdəni unutmasını güman edərək onun qəzasını yerinə yetirib təşəhhüdü oxuduqdan sonra, əvvəlcə təşəhhüdü unutduğunu bilsə, ehtiyat-vacib budur ki, yenidən səcdənin qəzasını etsin. Həmçinin, əgər əvvəlcə təşəhhüdü unutduğunu güman edərək əvvəlcə onun qəzasını yerinə yetirsə və səcdədən sonra, əvvəlcə səcdəni unutması yadına düşsə, ehtiyat-vacibə görə yenidən təşəhhüd oxumalıdır.

**M:1277.** Əgər namazın salamı ilə səcdə və ya təşəhhüdün qəzası arasında həm qəsdən, həm də səhvən baş verməsi namazı batil edən işlərdən birini görsə (məsələn, arxası qibləyə çevrilsə), gərək səcdə və təşəhhüdün qəzasını yerinə yetirsin və ehtiyat-vacibə görə namazı təzədən qılsın.

**M:1278.** Əgər namazın salamından sonra, axırıncı rəkətin bir səcdəsini unutduğu yadına düşsə, onun qəzasını yerinə yetirməli və ondan sonra iki səcdeyi-səhv etməlidir. İstər namazı batil edən işlərdən görmüş olsun, istərsə də

görməmiş olsun. Əgər axırıncı rəkətin təşəhhüdünü unutsa, qəzasını yerinə yetirib sonra iki səcdeyi-səhv etməlidir.

**M:1279.** Əgər namazın salamı ilə səcdə və ya təşəhhüdün qəzası arasında səcdeyi-səhvin vacib olduğu bir iş etsə (məsələn, səhvən danışsa) gərək səcdənin, yaxud təşəhhüdün qəzasını etsin.

**M:1280.** Əgər təşəhhüd və səcdədən hansını unutduğunu bilməsə, hər ikisinin qəzasını etməlidir. Hər birini əvvləcə yerinə yetirsə, eybi yoxdur.

**M:1281.** Əgər səcdəni, yaxud təşəhhüdü unudub-unutmamasında şəkk etsə qəza etməsi vacib deyil.

**M:1282.** Əgər səcdə və ya təşəhhüdü unutduğunu bilsə, amma sonrakı rəkətin rükusundan əvvəl yerinə yetirib-yetirməməsində şəkk etsə ehtiyat-vacib budur ki, onu qəza etsin.

**M:1283.** Təşəhhüdü və səcdəni qəza etməli olan bir kəsə başqa iş üçün də səcdeyi-səvh vacib olsa, gərək namazdan sonra təşəhhüdü, yaxud səcdəni qəza edib sonra səcdeyi-səhvi yerinə yetirsin.

**1284.** Əgər namazdan sonra, unudulmuş səcdə və ya təşəhhüdün qəzasını edib-etməməsində şəkk etsə, bu halda əgər namazın vaxtı keçməyibsə, təşəhhüdün və ya səcdənin qəzasını etməlidir; yox əgər namazın vaxtı keçmiş olsa da ehtiyat-vacibə görə təşəhhüd və səcdəni qəza etməlidir.

### *NAMAZIN HİSSƏLƏRİNİ VƏ ŞƏRTLƏRİNİ ARTIRIB-AZALTMAQ*

**M:1285.** Əgər namazın vacibatından bir şeyi qəsdən artırıb azaltsa, hətta bir hərf olsa belə, namaz batildir.

**M:1286.** Əgər məsələni bilməməzlik üzündən namazın hissələrindən birini artırıb-azaltsa namazı batildir. İstər o vacib hissə rükn, istərsə də qeyri-rükn olsun.

**M:1287.** Əgər namaz əsnasında quslunun batil olduğunu, yaxud dəstəmazsız, qusulsuz namaza başladığını başa düşsə namazı pozub yenidən, dəstəmaz və ya qusul alıb qılmalıdır. Əgər namazdan sonra başa düşsə, namazı dəstəmaz və qusulla yenidən qılmalı, vaxt keçmiş olarsa, qəzasını etməlidir.

**M:1288.** Əgər rükuya çatandan sonra qabaqdakı rəkətin iki səcdəsini unutduğu yadına düşsə, namazı batildir. Amma əgər rükudan əvvəl yadına düşsə, qayıdıb iki səcdəni etməli, sonra ayağa qalxıb Həmdi, Surəni, yaxud təsbihatı deyib namazı qurtarmalıdır.

**M:1289.** Əgər "əssəlamu ələyna" və ya "əssəlamu ələykum" deməmişdən qabaq axırıncı rəkətin iki səcdəsini yerinə yetirmədiyi yadına düşsə gərək iki səcdəni edib yenidən təşəhhüdü və salamları oxusun.

**M:1290.** Əgər namazın salamından qabaq, namazın axırından bir rəkət, yaxud daha artıq qılmadığını başa düşsə, unutduğu qədəri yerinə yetirməlidir.

**M:1291.** Əgər salamdan sonra namazın axırından bir rəkət, yaxud daha çox qılmadığı yadına düşsə, bu halda həm qəsdən, həm də səhvən baş verməsi namazı batil edən işlərdən görübsə (məsələn, arxası qibləyə dönübsə) namazı batildir. Amma əgər bu işlərdən görməmiş olarsa, dərhal unutduğu hissəni yerinə yetirməlidir.

**M:1292.** Əgər namazın salamından sonra, həm qəsdən, həm də səhvən baş verməsi namazı batil edən bir əməl görüb (məsələn, arxası qibləyə dönüb) sonra axırıncı iki səcdəni etmədiyi yadına düşsə, namazı batildir. Hətta namazı batil edən işlərdən görmədiyi halda da axırıncı rəkətin iki səcdəsini unutduğu yadına düşsə, gərək onu yerinə yetirib yenidən təşəhhüdü, salamı desin, əvvəldə dediyi salam üçün iki səcdeyi-səhv etsin. Ehtiyat-vacib budur ki, namazı da yenidən qılsın.

**M:1293.** Əgər namazı, vaxt daxil olmamışdan qabaq, yaxud qiblənin tərsinə, yaxud sağ tərəfə və ya sol tərəfə qıldığını bilsə, namazı yenidən qılmalı, vaxtı keçibsə qəzasını etməlidir.

### *MÜSAFİRİN NAMAZI*

Müsafir (səfərdə olan şəxs) zöhr, əsr və işa namazını səkkiz şərt daxilində şikəstə, yə’ni iki rəkət qılmalıdır:

1-ci şərt budur ki, onun səfəri səkkiz şər’i fərsəxdən[20] az olmasın.

**M:1294.** Əgər gedib-qayıtması səkkiz fərsəx olan bir kəsin, getməsi dörd fərsəxdən az olmasa, gərək namazı şikəstə qılsın. Amma getməsi üç fərsəx, qayıtması beş fərsəx olsa namazı tamam qılmalıdır.

**M:1295.** Əgər gedib-qayıtması səkkiz fərsəx olsa, istər həmin gecə-gündüzdə, istərsə ondan başqa gecə-gündüzdə qayıtmasına baxmayaraq, namazı şikəstə qılmalıdır.

**M:1296.** Əgər bir kəsin səfəri səkkiz fərsəxdən bir müxtəsər az olsa, yaxud səfərin səkkiz fərsəx olub-olmaması mə’lum olmasa, namazı şikəstə qılmamalıdır. Əgər səfərin səkkiz fərsəx olub-olmamasında şəkk etsə, bu barədə axtarış aparmaq məşəqqətli olarsa (məşəqqət dedikdə əqli məşəqqət deyil, camaat arasında məşəqqət sayılan işlər nəzərdə tutulur) gərək namazını bütöv qılsın. Əgər qeyd olunan mə’nada məşəqqətli olmasa, ehtiyat-vacibə görə axtarış aparmalıdır: əgər səfərin səkkiz fərsəx olmasını iki adil şəxs xəbər versə, yaxud camaat arasında bu qədər olması mə’lum olsa namazı şikəstə qılmalıdır.

**M:1297.** Əgər bir nəfər adil şəxs səfərin səkkiz fərsəx olduğunu xəbər versə, zahirən vahid adil şəxsin xəbəri ilə səkkiz fərsəx sübut olunmur, namazı cəm (həm şikəstə, həm də bütöv) qılması vacib deyil, əhvətdir.

---

[20]Bir şər’i fərsəx–təqribən 5,5 km

**M:1298.** Səfərinin səkkiz fərsəx olmasına yəqini olan bir kəs namazı şikəstə qılıb sonradan səkkiz fərsəx olmadığını başa düşsə, gərək onu dörd rəkətli qılsın; vaxtı keçmişsə, ehtiyat-vacibə görə qəzasını etsin.

**M:1299.** Səfərinin səkkiz fərsəx olmamasına yəqin edən, yaxud o qədər olub-olmamasında şəkk edən bir şəxs yolda səfərinin səkkiz fərsəx olmasına yəqin etsə, hətta yolun az bir hissəsi qalmış olsa da, namazı şikəstə qılmalıdır. Əgər bütöv qılmış olsa, yenidən şikəstə qılmaldır.

**M:1300.** Əgər aralarındakı fasilə dörd fərsəxdən az olan iki yer arasında bir neçə dəfə gedib-gəlsə, üst-üstə səkkiz fərsəx olmasına baxmayaraq, namazı bütöv qılmalıdır.

**M:1301.** Əgər bir məntəqəyə iki yol olsa və onlardan biri səkkiz fərsəxdən az, digəri isə səkkiz fərsəx, yaxud ondan çox olsa, bu halda bir kəs həmin yerə səkkiz fərsəx olan yolla getsə, namazı şikəstə qılmalıdır. Amma səkkiz fərsəxdən az olan yolla getsə, namazı bütöv qılmalıdır.

**M:1302.** Əgər şəhərin divarı olsa, onda səkkiz fərsəxin əvvəlini şəhərin divarından; divarı olmasa şəhərin axırıncı evlərindən hesab etməlidir. Həddindən artıq böyük şəhərlər üçün, onun bir məntəqəsindən o biri məntəqəsinə getmək camaatın nəzərində səfər hesab olunmazsa, xas bir hökm və xüsusiyyət yoxdur.

2-ci şərt budur ki, səfərin əvvəlindən səkkiz fərsəx getməyi qəsd etmiş olsun. Deməli əgər səkkiz fərsəxdən az olan yerə səfər edib ora çatandan sonra, gəldiyi yol ilə birlikdə səkkiz fərsəx olacaq bir yerə səfər etsə, bu halda əvvəldən səkkiz fərsəxi qəsd etmədiyi üçün namazı bütöv qılmalıdır. Amma əgər o yerdən səkkiz fərsəx getmək, yaxud dörd fərsəx gedib vətəninə və ya on gün qalmaq istədiyi yerə çatıb qayıtmaq istəsə, (bu şərtlə ki, onun getməsi dörd fərsəxdən az olmasın) namazı şikəstə qılmalıdır.

**M:1303.** Səfərinin neçə fərsəx olacağını bilməyən (məsələn, itmiş şeyi axtarmaq üçün səfər edən, itiyini axtarmaq üçün nə qədər yol gedəcəyini bilməyən) bir şəxs namazı tamam qılmalıdır. Amma qayıdan vaxt, vətəninə, yaxud on gün qalmaq istədiyi bir yerə qədər səkkiz fərsəx və ya daha artıq olsa namazı şikəstə qılmalıdır. Həmçinin əgər getdiyi vaxt dörd fərsəx gedib-qayıdacağını qəsd etsə, bu halda onun gedib-qayıtması səkkiz fərsəx olsa və getməsi dörd fərsəxdən az olmasa namazı şikəstə qılmalıdır.

**M:1304.** Səfər edən kəs o halda namazını şikəstə qılmalıdır ki, səkkiz fərsəx getməyi qərara almış olsun. Deməli, bir kəs şəhərdən çölə çıxsa və məqsədi yoldaş tapacağı halda səkkiz fərsəx getmək olsa, bu halda yoldaş tapacağına xatircəm olarsa, namazı şikəstə, əks halda isə bütöv qılmalıdır.

**M:1305.** Səkkiz fərsəx getmək qəsdində olan bir şəxs, hətta əgər hər gün bir az yol getsə də, şəhərin divarları görünməyən, yaxud azanı eşidilməyən bir yerə çatsa, gərək namazını şikəstə qılsın. Amma əgər hər gün çox az miqdarda yol

getsə və ona artıq "səfər edən" deyilməzsə, namazını bütöv qılmalıdır. Ehtiyat-müstəhəb budur ki, həm şikəstə, həm də bütöv qılsın.

**M:1306.** Səfərdə başqasının ixtiyarında olan bir şəxs (məsələn, öz ağası ilə səfərə gedən nökər) səfərinin səkkiz fərsəx olduğunu bilsə namazını şikəstə qılmalıdır.

**M:1307.** Səfərdə başqasının ixtiyarında olan bir şəxs dörd fərsəxə çatmamışdan qabaq ondan ayrılacağını bilsə, yaxud güman etsə namazını bütöv qılmalıdır.

**M:1308.** Səfərdə başqasının ixtiyarında olan bir şəxs əgər dörd fərsəxə çatmamışdan qabaq ondan ayrılıb-ayrılmayacağında şəkk etsə, zahirən gərək namazı bütöv qılsın. Amma əgər ayrılmayacağına xatircəm olsa, həmçinin onun şəkki, səfəri üçün maneə irəli gələcəyinə ehtimal verməsindən irəli gəlsə, bu halda onun ehtimalı camaatın nəzərində yerli ehtimal olsa namazını şikəstə qılmalıdır.

3-ü şərt budur ki, yolda öz məqsədindən dönməsin. Deməli əgər dörd fərsəxə çatmamışdan qabaq öz niyyətindən dönsə, yaxud tərəddüddə qalsa namazı bütöv qılmalıdır.

**M:1309.** Əgər dörd fərsəxə çatandan sonra səfər niyyətindən dönsə, bu halda həmin yerdə qalmağı, yaxud on gündən sonra qayıdacağını qərara alsa və ya qayıtmaqda, yaxud qalmaqda tərəddüddə olsa, namazını bütöv qılmalıdır.

**M:1310.** Əgər dörd fərsəxə çatandan sonra səfər niyyətindən dönüb qayıtmaq qərarına gəlsə, namazını şikəstə qılmalıdır.

**M:1311.** Əgər müəyyən bir yerə getmək üçün hərəkət etsə və bir qədər yol getdikdən sonra başqa yerə getmək istəsə, bu halda hərəkət etdiyi ilk yerdən, getmək istədiyi yerə qədər səkkiz fərsəx olsa, namazı şikəstə qılmalıdır.

**M:1312.** Əgər səkkiz fərsəxə çatmamışdan qabaq yolun qalanını gedib-getməkdə tərəddüddə qalsa və tərəddüdə qaldığı vaxt yol getməsə, sonra yolun qalan hissəsini getmək qərarına gəlsə gərək səfərin axırına kimi namazı şikəstə qılsın.

**M:1313.** Əgər səkkiz fərsəxə çatmamışdan qabaq yolun qalanını gedib-getməkdə tərəddüddə qalsa və tərəddüdə düşdüyü vaxtdan müəyyən qədər yol gedib sonra başqa səkkiz fərsəx getməsi və ya dörd fərsəx gedib-qayıtması barədə qərara gəlsə, səfərin axırına qədər namazı şikəstə qılmalıdır.

**M:1314.** Əgər səkkiz fərsəxə çatmamışdan qabaq yolun qalanını gedib-getməkdə tərəddüdə düşsə və tərəddüddə olduğu vaxt bir az yol gedib sonradan yolun qalanını da getməyi qərara alsa, bu halda onun səfərinin qalan hissəsi səkkiz fərsəx olsa və ya dörd fərsəx olsa, amma gedib-qayıtmağı nəzərdə tutsa, gərək namazı şikəstə qılsın. Əgər tərəddüdə düşməmişdən qabaqkı və ondan sonra getdiyi yol üst-üstə səkkiz fərsəx olsa Ehtiyat-vacibə görə namazı həm şikəstə, həm də tamam qılmalıdır.

4-cü şərt budur ki, səkkiz fərsəxə çatmamışdan qabaq öz vətənindən keçmək, yaxud on gün və ya ondan artıq bir yerdə qalmaq istəməsin. Deməli səkkiz fərsəxə çatmamışdan qabaq öz vətənindən keçmək istəyən, yaxud müəyyən bir yerdə on gün qalmaq istəyən bir kəs namazını bütöv qılmalıdır.

**M:1315.** Səkkiz fərsəxə çatmamışdan qabaq öz vətənindən keçib-keçməyəcəyini bilməyən, yaxud müəyyən bir yerdə on gün qalıb-qalmayacağını bilməyən bir kəs namazını bütöv qılmalıdır.

**M:1316.** Səkkiz fərsəxə çatmamışdan qabaq öz vətənindən keçmək, yaxud müəyyən yerdə on gün qalmaq istəyən, habelə vətənindən keçib-keçməyəcəyində, yaxud müəyyən bir yerdə on gün qalmaqda tərəddüddə qalan bir kəs on gün qalmaq, yaxud vətənindən keçmək niyyətindən dönsə, yenə də namazı bütöv qılmalıdır. Amma əgər yolun qalan hissəsi səkkiz fərsəx olsa, yaxud dörd fərsəx olsa, amma həmin yolu gedib-qayıtmaq istəsə namazı şikəstə qılmalıdır.

5-ci şərt budur ki, haram iş üçün səfər etməsin. Əgər bir kəs haram işlər üçün (oğurluq kimi) səfər etsə namazı bütöv qılmalıdır. Həmçinin əgər, səfərin özü haram olsa, məsələn, səfər onun üçün zərərli olsa, yaxud qadın ərinin icazəsi olmadan, övlad ata-ananın nəhy etməsinə baxmayaraq vacib olmayan səfərə getsə, namazı bütöv qılmalıdır. Amma əgər Həcc kimi vacib səfər olsa namazı şikəstə qılmalıdır.

**M:1317.** Ata-ananın əziyyətə düşməsinə səbəb olan səfər haramdır. Belə səfərlərdə insan namazı bütöv qılmalı, orucu da tutmalıdır.

**M:1318.** Səfəri haram olmayan və haram iş üçün səfər etməyən bir kəs, səfərdə günah bir iş görsə də (məsələn, qeybət etsə, şərab içsə) namazı şikəstə qılmalıdır.

**M:1319.** Əgər, xüsusilə vacib bir işi tərk etmək üçün səfər etsə namazı tamam qılmalıdır. Deməli borclu olan bir kəs öz borcunu verə bildiyi halda borc sahibi də istəsə, bu halda səfərdə borcunu verə bilməsə və məxsusən borcu verməkdən boyun qaçırtmaq üçün səfər etsə, ehtiyat-vacibə görə namazı həm şikəstə, həm də bütöv qılmalıdır. Amma əgər, məxsusən vacib əməli tərk etmək üçün səfər etməsə gərək namazını şikəstə qılsın. Ehtiyat-müstəhəb budur ki, həm şikəstə, həm də bütöv qılsın.

**M:1320.** Əgər bir kəs səfəri haram olmasa, amma, mindiyi heyvan və ya başqa səfər vasitələri qəsbi olsa, namazı şikəstə qılmalıdır. Qəsbi yerdə səfər etsə, ehtiyat-vacibə görə namazı həm şikəstə, həm də tamam qılmalıdır.

**M:1321.** Zülmkar şəxs ilə səfər edən bir kəs, bu işə naçar olmasa və onun səfəri zalımın zülmünə kömək olsa gərək namazını tamam qılsın. Amma əgər naçar olsa, (məsələn, hər hansı bir məzluma nicat vermək üçün səfər etsə) namazı şikəstədir.

**M:1322.** Əgər əyləncə və gəzinti üçün səfər etsə, haram deyildir və namazı şikəstə qılmalıdır.

**M:1323.** Əgər bir kəs vaxtını xoş keçirmək və ləhv (eyş-işrət) üçün şikara getsə namazı tamam; həyat güzəranını tə'min etmək üçün ova getsə, namazı şikəstə; mal-dövlətini artırmaq, qazanc əldə etmək üçün şikara getsə, ehtiyat-vacib budur ki, namazı həm şikəstə, həm də bütöv qılsın. Amma oruc tutmamalıdır.

**M:1324.** Günah etmək üçün səfərə gedən bir kəs səfərdən qayıdanda tövbə etsə, gərək namazını şikəstə qılsın; yox əgər tövbə etməsə, bu halda səfərdən qayıtmaq camaatın nəzərində səfərə getməyin bir hissəsi kimi günah hesab olunursa, namazını bütöv qılmalıdır. Ehtiyat-müstəhəb budur ki, həm şikəstə, həm də bütöv qılsın.

**M:1325.** Səfəri günah səfəri olan bir kəs yolda günah niyyətindən dönsə, bu halda yolun yerdə qalan hissəsi səkkiz fərsəx olsa, yaxud dörd fərsəx olsa və o yolu gedib-qayıtmaq istəsə (bu şərtlə ki, getməsi dörd fərsəxdən az olmasın), namazı şikəstə qılmalıdır.

**M:1326.** Günah üçün səfər etməyən bir şəxs əgər yolda qalan miqdarı günah etmək üçün səfər etsə, namazını bütöv qılmalıdır. Amma şikəstə qıldığı namazlar səhihdir.

6-cı şərt budur ki, səhralarda köçəri həyat tərzi keçirən, hər yerdə özü və mal-qaraları üçün su, yem tapdıqda orada qalıb bir müddətdən sonra başqa yerlərə köçənlərdən olmasın. Köçəri həyat tərzi keçirənlər bu səfərlərdə namazlarını bütöv qılmalıdırlar.

**M:1327.** Əgər köçəri həyat tərzi keçirənlərdən biri mənzil və heyvanlar üçün otlaq tapmaq üçün səfər etsə və səfəri səkkiz fərsəx olsa, ehtiyat-vacib budur ki, namazı həm şikəstə, həm də bütöv qılsın.

**M:1328.** Əgər köçəri həyat tərzi keçirən bir şəxs ziyarət, həcc, ticarət və s. üçün səfər etsə, namazını şikəstə qılmalıdır.

7-ci şərt budur ki, onun işi, peşəsi səfər olmasın. Deməli, dəvə, qoyun, mal-qara otaran çobanlar, sürücülər, gəmiçi və s. kimi şəxslər öz mənzil vəsaitlərini aparmaq üçün səfər etsələr də belə, birinci səfər istisna olmaqla namazı bütöv qılmalıdırlar. Amma birinci səfər uzun çəksə də, namazı şikəstə qılmalıdırlalr.

**M:1329.** İşi səfər olan bir kəs başqa bir iş üçün (məsələn, ziyarət, həcc və s.) səfər etsə, namazı şikəstə qılmalıdır. Amma əgər sürücü öz maşınını ziyarət üçün kirayəyə verib özü də onunla birlikdə ziyarətə getsə, namazını bütöv qılmalıdır.

**M:1330.** Təkcə həcc aylarında səfərlə məşğul olan bir kəs, namazını şikəstə qılmalıdır.

**M:1331.** Həcc mövsümündə işi səfər olan və hacıları uzaq yerlərdən Məkkəyə aparan bir kəs, əgər bütün il boyu, yaxud bir ildən artıq yolda olsa, namazı bütöv qılmalıdır.

**M:1332.** Əgər bir kəsin işi ilin müəyyən fəslindəki səfər olsa (qışda və ya yayda öz maşını kirayə verən bir sürücü kimi) işi səfər olan vaxtlarda namazını tamam qılmalıdır. Ehtiyat-müstəhəb budur ki, həm şikəstə, həm də bütöv qılsın.

**M:1333.** Şəhərin iki-üç fərsəxliyinə get-gəl edən sürücülər və al-verçilər təsadüfən səkkiz fərsəx getsələr, namazı şikəstə qılmalıdırlar.

**M:1334.** İşi səfər olan bir kəs öz vətənində on gün və daha artıq qalsa–istər əvvəldə on gün qalmaq niyyəti olsun, istərsə də qəsdi olmadan qalsın–on gündən sonra getdiyi ilk səfərdə namazını şikəstə qılmalıdır.

**M:1335.** İşi səfər olan bir kəs öz vətənindən başqa yerdə on gün qalsa, on gündən sonra etdiyi ilk səfərdə–istər əvvəldən on gün qalmaq niyyəti olsun, istərsə də olmasın–namazını şikəstə qılmalıdır.

**M:1336.** İşi səfər olan bir kəs əgər öz vətənində, yaxud başqa yerdə on gün qalıb-qalmadığında şəkk etsə namazını bütöv qılmalıdır.

**M:1337.** Şəhərlərə səyahət edən və özü üçün vətən seçməyən bir kəs namazını tamam qılmalıdır.

**M:1338.** İşi səfər olmayan bir kəsin bir şəhərdə, yaxud kənddə müəyyən qədər malı varsa və o mal üçün ardıcıl səfərlər edirsə namazını şikəstə qılmalıdır.

**M:1339.** Öz vətənində qalmaq fikrindən dönüb özü üçün başqa bir vətən seçmək istəyən bir kəsin işi səfər olmasa bu səfərdə namazını şikəstə qılmalıdır.

8-ci şərt budur ki, tərəxxüs həddinə çatsın yə’ni, öz vətənindən o qədər uzaqlaşsın ki, şəhərin divarlarını görməsin, azanın səsini də eşitməsin. Amma gərək havada divarların görünməsinin, azan səsinin eşidilməsinin qarşısını alan toz-torpaq, duman və s. kimi şeylər olmasın. O qədər də uzaqlaşması lazım deyil ki, şəhərin məscidinin minarə və günbəzlərini görməsin, yaxud divarlar ümumiyyətlə görünməsin. Əksinə, elə divarlar tamamilə ayırd oluna bilmirsə kifayətdir. Əgər bir kəs on gün qalmağı qəsd etdiyi yerdən səkkiz fərsəx xaric olsa və tərəxxüs həddinə çatmasa ehtiyat-vacibə görə gərək namazını həm şikəstə, həm də bütöv qılsın. Böyük şəhərlərin tərəxxüs həddi səfər edən şəxsin mənzilinin yerləşdiyi məntəqədir.

**M:1340.** Səfərə gedən bir kəs əgər bir yerə çatıb azanı eşitməsə, amma şəhərin divarlarını görsə, yaxud şəhərin divarlarını görməsə amma azanın səsini eşitsə və orada namaz qılmaq istəsə, ehtiyat-vacibə görə həm şikəstə, həm də bütöv qılmalıdır.

**M:1341.** Vətəninə qayıdan bir kəs öz vətəninin divarını görsə və azan səsini eşitsə, gərək namazını bütöv qılsın. Amma müəyyən bir yerdə on gün qalmaq istəyən bir müsafir o yerin divarını görsə və azan səsini eşitsə, ehtiyat-vacibə

görə mənzilə çatana qədər namazı tə’xirə salmalı, yaxud namazı həm şikəstə, həm də bütöv qılmalıdır.

**M:1342.** Əgər şəhər uca yerdə olsa və uzaqdan görünsə;, yaxud çuxur yerdə olsa və azacıq uzaqlaşanda divarları görünmürsə, bu halda həmin şəhərdən səfər edən bir kəs o şəhərdən müəyyən miqdarda uzaqlaşsa, belə ki, o şəhər düzənlikdə olsaydı, divarlar həmin yerdən görünməyəcəkdi, onda namazı şikəstə qılmalıdır. Həmçinin əgər evlərin alçaq-ucalığı adi qaydadan çox olsa, adi halda olanlar mülahizə edilməlidir.

**1343.** Əgər bir kəs evi və divarı olmayan yerdən səfər edib bir yerə çatsa ki, əgər o yerin divarı olsaydı, həmin yerdən görünəcəkdi, onda namazı şikəstə qılmalıdır.

**M:1344.** Əgər müəyyən qədər uzaqlaşsa və eşitdiyi səsin azan və ya başqa səs olmasını bilməsə, namazı şikəstə qılmalıdır. Amma əgər azan olduğunu başa düşüb kəlmələrini ayırd edə bilməsə, namazı bütöv qılmalıdır.

**M:1345.** Əgər müəyyən qədər uzaqlaşsa və şəhərin axırındakı evlərin azan səsini eşitməsə, amma şəhərin adətən uca yerindən deyilən azan səsini eşitsə namazı şikəstə qılmalıdır.

**M:1346.** Əgər müəyyən bir yerə çatsa və şəhərin adətən uca yerində deyilən azan səsini eşitməsə, amma daha uca yerdə deyilən azan səsini eşitsə, namazı şikəstə qılmalıdır.

**M:1347.** Əgər səfər edən şəxsin gözü, qulağı və ya azanın səsi qeyri-adi olsa namazı, normal gözün o evlərin divarlarını gördüyü, normal qulağın adi azan səsini eşitdiyi yerdə şikəstə qılmalıdır.

**M:1348.** Əgər tərəxxüs həddində olub-olmamasında şəkk etdiyi bir yerdə namaz qılmaq istəsə, namazını bütöv qılmalıdır. Amma qayıdanda tərəxxüs həddinə çatıb-çatmamasında şəkk etsə, namazı şikəstədir. Bə’zi hallarda işkal qabağa gəldiyinə görə, ya həmin yerdə namaz qılmasın, qılsa da həm şikəstə, həm də bütöv qılsın.

**M:1349.** Səfərində öz vətənindən keçib gedən bir müsafir öz vətəninin divarlarını görüb, azan səsini eşitdiyi yerə çatanda namazı bütöv qılmalıdır.

**M:1350.** Səfəri əsnasında öz vətəninə çatan müsafir orada olduğu müddətdə namazlarını bütöv qılmalıdır. Amma əgər o yerdən səkkiz fərsəx getmək və ya dörd fərsəx gedib-qayıtmaq istəsə vətəninin divarlarını görmədiyi, azan səsini eşitmədiyi bir yerə çatanda namazı şikəstə qılmalıdır.

**M:1351.** İnsanın yaşamaq üçün seçdiyi yer onun vətənidir: istər o yerdə dünyaya gəlmiş olsun və ata-anasının vətəni olsun, istərsə də onu yaşamaq üçün seçmiş olsun. Bu şərtlə ki, bu yerdə daimi qalmaq qəsdi olsun.

**M:1352.** Əgər qəsdi əsl vətəni olmayan bir yerdə müəyyən müddət qalıb sonra başqa bir yerə getmək olsa o yer onun vətəni hesab olunmur.

**M:1353.** Əsli vətəni olmayan bir yerdə həmişəlik qalmaq qəsdi olmayan bir insan üçün o yer onun vətəni hesab olunmur. Amma əgər qalmaq qəsdi olmadan çox qalsa, nəticədə oranın camaatı "bura onun vətənidir" desələr, bu halda vətəni hesab olunur.

**M:1354.** Bir kəs iki yerdə yaşasa (məsələn, altı ay bir şəhərdə, altı ay da başqa şəhərdə qalsa) hər iki yer onun vətənidir. Amma əgər ikidən artıq yeri yaşamaq üçün seçsə, ehtiyat-vacibə görə gərək üçüncü və ya ondan artıq yerlərdə namazını həm şikəstə, həm də bütöv qılsın.

**M:1355.** Bir kəs əsli vətənindən və qeyri-əsli vətənindən başqa yerlərdə iqamət qəsdi etməsə–istər orada onun mülkü olsun, istərsə də olmasın; istər orada altı ay qalmış olsun, istərsə də qalmamış olsun–namazı şikəstədir.

**M:1356.** Əgər bir kəs əvvəlcə vətəni olan, sonradan isə orada yaşamaq fikrindən döndüyü bir yerə, yaxud qeyri-əsli vətəni olan, amma orada qalmaq qəsdi olmayan bir yerə çatsa, özü üçün başqa vətən seçməmiş olsa da, namazı bütöv qılmamalıdır.

**M:1357.** Əgər bir kəs müəyyən yerdə on gün ardıcıl olaraq qalmağı qəsd etsə, yaxud ixtiyarsız olaraq on gün qalacağını bilsə, namazını tamam qılmalıdır.

**M:1358.** Müəyyən bir yerdə on gün qalmaq istəyən bir müsafir birinci, yaxud on birinci gecəni qalmağı qəsd etməsi lazım deyil: elə birinci günün sübh azanından onuncu günün məğrib azanına kimi qalmağı qəsd etsə, namazını bütöv qılmalıdır. Həmçinin, əgər birinci günün zöhründən on birinci günün zöhrünə kimi qalmağı da qəsd etsə, namazı bütöv qılmalıdır.

**M:1359.** Müəyyən bir yerdə on gün qalmaq istəyən müsafir o halda namazı bütöv qılmalıdır ki, on günün hamısını bir yerdə qalmaq istəsin. Deməli əgər on günü iki şəhərdə (məsələn, Nəcəflə Kufədə) qalmaq istəsə namazı şikəstə qılmalıdır.

**M:1360.** Müəyyən bir yerdə on gün qalmaq istəyən bir müsafir əgər əvvəldən on gün arasında o yerin ətraf məntəqələrinə getməyi qəsd etmiş olsa və getmək istədiyi yer şəhərin tərəxxüs həddindən uzaq olmasa bütün on günün ərzində namazını bütöv qılmalıdır. Amma tərəxxüs həddindən uzaqda olsa, on günün hamısını şikəstə qılmalıdır. Amma əgər 1-2 saat ərzində gedib-qayıtmaq istəsə, on günün hamısında namazını tamam qılmalıdır.

**M:1361.** Müəyyən bir yerdə on gün qalmağı qərara almayan bir kəs (məsələn, məqsədi dostu gələrsə, yaxud yaxşı mənzil taparsa on gün qalmaq olsa) namazı şikəstə qılmalıdır.

**M:1362.** Müəyyən bir yerdə on gün qalmaq istəyən bir kəs hətta qalması üçün maneə yaranacağını ehtimal versə, bu halda camaat onun ehtimalına e'tina etməsə, namazı bütöv qılmalıdır.

**M:1363.** Əgər müsafir, ayın axırına on gün və ya ondan artıq qaldığını bilib ayın axırına qədər müəyyən bir yerdə qalmağı qərara alsa, namazı bütöv qılmalıdır. Amma əgər ayın axırına nə qədər qaldığını bilmədiyi halda ayın axırına qədər qalmağı qəsd etsə–hətta nəzərdə tutduğu vaxtdan ayın axırına qədər on gün, yaxud daha artıq qalsa belə, namazı şikəstə qılmalıdır.

**M:1364.** Əgər müsafir on gün müəyyən yerdə qalmağı qərara alsa, bu halda bir dörd rəkətli namaz qılmazdan qabaq orada qalmaq fikrindən dönsə, yaxud orada qalmağında və ya başqa yerə getməsində tərəddüddə olsa, namazı şikəstə qılmalıdır. Amma əgər bir dörd rəkətli namaz qıldıqdan sonra orada qalmaq fikrindən dönsə, yaxud tərəddüddə olsa, orada olduğu müddətdə namazı bütöv qılmalıdır.

**M:1365.** Müəyyən bir yerdə on gün qalmağı qəsd edən bir müsafir, əgər oruc tutsa və günortadan sonra orada qalmaq fikrindən dönsə, bu halda əgər dörd rəkətli bir namaz qılıbsa orucu səhihdir; və nə qədər ki, oradadır namazlarını bütöv qılmalıdır. Əgər dörd rəkətli bir namaz qılmamış olsa, tutduğu oruc səhihdir. Amma namazlarını şikəstə qılmalıdır. Sonrakı günlərdə də oruc tuta bilməz.

**M:1366.** Müəyyən bir yerdə on gün qalmağı qəsd edən bir müsafir, həmin yerdə qalmaq fikrindən dönsə və qalmaq məqsədindən dönməmişdən qabaq dörd rəkətli namaz qılıb-qılmaması barədə şəkk etsə öz namazlarını şikəstə qılmalıdır.

**M:1367.** Əgər müsafir namazı şikəstə qılmaq niyyəti ilə namaza başlasa və namaz əsnasında on gün və ya daha artıq qalmaq qərarına gəlsə, namazı dörd rəkətlə qurtarmalıdır.

**M:1368.** On gün bir yerdə qalmağı qəsd edən müsafir, dörd rəkətli namaz əsnasında öz niyyətindən dönsə, bu halda üçüncü rəkətə başlamayıbsa namazı iki rəkətdə qurtarmalı, qalan namazlarını da şikəstə qılmalıdır. Amma üçüncü rəkətə başlamış olsa, namazı batildir və orada oluğu müddətdə namazlarını, üçüncü rəkətin rükusuna daxil olmasına baxmayaraq, şikəstə qılmalıdır. Ehtiyat-vacib budur ki, namazı bütöv qılıb, sonradan iki rəkət şikəstə qılsın.

**M:1369.** Müəyyən bir yerdə on gün qalmağı qəsd edən bir müsafir on gündən artıq orada qalsa nə qədər ki, səfər etməyibdir namazını bütöv qılmalıdır. Və yenidən on gün qalmasını qəsd etməsi lazım deyil.

**M:1370.** Müəyyən bir yerdə on gün qalmağı qəsd edən müsafir vacib orucu tutmalıdır. Həmçinin müstəhəb oruc da tuta bilər, cümə namazını, zöhr, əsr və işa namazlarının nafilələrini də qıla bilər.

**M:1371.** Müəyyən bir yerdə on gün qalmasını qəsd edən müsafir dörd rəkətli bir namaz qıldıqdan sonra, dörd fərsəxdən az olan bir yerə getmək və öz qaldığı yerə qayıtmaq istəsə, namazı tamam qılmalıdır.

**M:1372.** Müəyyən bir yerdə on gün qalmasını qəsd edən müsafir dörd rəkətli namaz qıldıqdan sonra səkkiz fərsəxdən az olan bir yerə gedib orada on gün qalmaq istəsə getdiyi vaxtda, həmçinin on gün qalmaq istədiyi yerdə namazlarını bütöv qılmalıdır. Amma əgər getmək istədiyi yer səkkiz fərsəx, yaxud daha artıq olarsa getdiyi vaxt namazlarını şikəstə, çatdığı yerdə isə on gün qalmaq istəsə, namazı bütöv qılmalıdır.

**M:1373.** Müəyyən bir yerdə on gün qalmağı qəsd edən müsafir dörd rəkətli bir namaz qıldıqdan sonra dörd fərsəxdən az olan bir yerdə gedib sonra əvvəlki yerinə qayıtmaqda tərəddüd etsə, yaxud ümumiyyətlə oraya qayıtmaqdan qafil olsa və ya qayıtmaq istədiyi halda orada on gün qalıb-qalmayacağında tərəddüd etsə, yaxud orada on gün qalmasından və o yerdən səfər etməsindən qafil olsa, gərək getdiyi vaxtdan qayıtdığı vaxta qədər və qayıdandan sonra namazlarını tamam qılsın.

**M:1374.** Əgər dostlarının bir yerdə on gün qalacaqlarını güman edib o da on gün qalmağı qəsd etsə, bir dörd rəkətli namaz qıldıqdan sonra onların bu fikirdə olmadıqlarını başa düşsə, hətta özü də qalmaq fikrindən dönsə, orada olduğu müddətdə namazlarını bütöv qılmalıdır.

**M:1375.** Müsafir əgər səkkiz fərsəxə çatandan sonra 30 gün bir yerdə qalsa və 30 günün hamısında gedib, yaxud qalmaqda tərəddüddə olsa, 30 gün keçəndən sonra hətta orada az miqdar qalsa belə namazını bütöv qılmalıdır. Amma əgər səkkiz fərsəxə çatmamışdan qabaq yolun qalanını getməkdə tərəddüddə olsa, tərəddüdə düşdüyü vaxtdan namazını bütöv qılmalıdır.

**M:1376.** Doqquz gün, yaxud daha az müddətdə bir yerdə qalmaq istəyən müsafir, orada doqquz gün, yaxud ondan az qalandan sonra yenidən doqquz gün, yaxud ondan da az qalmaq istəsə və bu qayda ilə 30 gün keçsə, 31-ci gündən e'tibarən, hətta bir namaz qılmaq miqdarında da vaxt qalsa namazlarını bütöv qılmalıdır.

**M:1377.** 30 gün müddətində tərəddüddə qalan müsafir namazını o halda bütöv qılmalıdır ki, 30 günü bir yerdə qalmış olsun. Deməli əgər onlardan bir miqdarını bir yerdə, qalanlarını isə başqa yerdə qalsa 30 gün tamam olandan sonra da namazlarını şikəstə qılmalıdır.

### *MÜXTƏLİF MƏSƏLƏLƏR*

**M:1378.** Müsafir Məscidül-Həramda, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) məscidində və Kufə məscidində namazını bütöv və ya şikəstə qılmaqda ixtiyar sahibidir. Bu üç məsciddə ilk və əsl bina ilə sonradan əlavə olunan yerlər arasında fərq yoxdur. Həmçinin müsafir Həzrət Seyyidüş-Şühəda (əleyhis-salam)-ın həramində və həraminin həyatində, hətta hərəmə birləşən məsciddə də namazını həm şikəstə, həm də bütöv qıla bilər.

**M:1379.** Müsafir olmasını və namazını şikəstə qılacağını bilən bir kəs əvvəlki məsələdə deyilən dörd məkandan başqa yerlərdə qəsdən bütöv qılsa namazı batildir. Həmçinin müsafirin namazının şikəstə olduğunu unudub tamam qılsa ehtiyat-vacibə görə (yenidən qılsın) vaxtı keçmiş olsa da qəzasını etsin.

**M:1380.** Müsafir olduğunu və namazı şikəstə qılmalı olduğunu bilən bir kəs əgər adət üzrə, məsələyə diqqət yetirmədən namazı bütöv qılsa namazı batildir. Həmçinin əgər müsafirin və öz səfərinin hökmünü unutsa (və namazı bütöv qılsa), bu halda vaxt varsa, namazını yenidən qılmalıdır. Hətta əgər vaxtı keçmiş olsa da, ehtiyat-vacibə görə qəzasını etməlidir.

**M:1381.** Namazı şikəstə qılacağını bilməyən müsafir əgər bütöv qılsa namazı səhihdir.

**M:1382.** Namazının şikəstə olduğunu bilən müsafir əgər onun xüsusiyyətlərindən bə’zisini bilməyib (məsələn, səkkiz fərsəxlik məsafədə şikəstə qılacağını bilməyib) bütöv qılsa, bu halda vaxt vardırsa, namazı şikəstə qılmalıdır; yox əgər vaxt keçmiş olsa, şiksətə namazın qəzasını yerinə yetirməlidir.

**M:1383.** Namazın şikəstə olduğunu bilən müsafir səfərinin səkkiz fərsəxdən az olmasını güman edib namazını bütöv qılsa və sonradan səfərinin səkkiz fərsəx olduğunu başa düşsə, bütöv qıldığı namazı yenidən şikəstə qılmalıdır; əgər vaxtı keçibsə, qəzasını şikəstə yerinə yetirməlidir.

**M:1384.** Əgər müsafir olduğunu unudub namazını bütöv qılsa, bu halda namaz vaxtında yadına düşsə, yenidən şikəstə qılmalıdır. Amma namaz vaxtından sonra yadına düşsə namazın qəzası ona vacib deyil. Amma ehtiyata görə əgər hökmü unutmaq səbəbilə olarsa, qəzası vaxtdan xaricdə vacibdir.

**M:1385.** Namazını tamam qılmalı bir kəs şikəstə qılsa hər halda namazı batildir.

**M:1386.** Əgər dörd rəkətli namaz qılmağa başlayıb namaz əsnasında müsafir olduğu yadına düşsə, yaxud səfərinin səkkiz fərsəx olduğu yadına düşsə, üçüncü rəkətin rükusuna getməmişdirsə, namazı iki rəkətlə qurtarmalıdır. Amma əgər üçüncü rəkətin rükusuna getmiş olsa, namazı batildir. Hətta bir rəkət qılmaq miqdarında vaxtı olsa, gərək namazı şiksətə qılsın.

**M:1387.** Əgər müsafir namazının bə’zi xüsusiyyətlərini (məsələn, əgər dörd fərsəx gedib həmin günün gündüzü, yaxud gecəsi qayıtdıqda şiksətə qılmalı olduğunu) bilməsə, bu halda dörd rəkətli namaz niyyəti ilə namaza başlayıb üçüncü rəkətin rükusundan qabaq məsələni başa düşsə namazı iki rəkətli tamam etməlidir. Amma rükuda başa düşsə, namazı batildir və hətta bir rəkət miqdarında vaxtından qalmış olsa belə, namazı şikəstə qılmalıdır.

**M:1388.** Namazı tamam qılmalı olan müsafir, məsələni bilməməzlik səbəbi ilə iki rəkətli namaz niyyəti ilə namaza başlasa və namaz əsnasında məsələni

başa düşsə namazını dörd rəkətdə tamam etməlidir. Ehtiyat-müstəhəb budur ki, namaz qurtarandan sonra onu, yenidən dörd rəkət qılsın.

**M:1389.** Namaz qılmamış olan müsafir vaxt tamam olandan qabaq vətəninə, yaxud on gün qalmaq istədiyi yerə çatsa, namazını tamam qılmalıdır. Müsafir olmayan bir kəs əgər namazın əvvəl vaxtında namaz qılmayıb səfər etsə səfərdə namazını şikəstə qılmalıdır.

**M:1390.** Əgər namazını şikəstə qılmalı olan bir müsafirdən zöhr, əsr, yaxud işa namazı qəzaya getsə, qəzasını iki rəkətlə qılmalıdır–hətta səfərdən qeyri yerlərdə də qəzasını yerinə yetirmək istəsə; və əgər müsafir olmayan bir şəxsdən bu üç namazdan biri qəza olsa onu dörd rəkətdə qəza etməlidir–hətta onun qəzasını səfərdə də qılmaq istəsə.

**M:1391.** Müstəhəbdir ki, müsafir şikəstə qıldığı hər namazdan sonra 30 dəfə "subhanəllahi vəlhəmdu lillahi və la ilahə illəllahu vəllahu əkbər" desin.

## *QƏZA NAMAZI*

**M:1392.** Öz vacibi namazını, onun öz vaxtında qılmayan bir kəs, hətta vaxtın hamısında yuxuda olsa, yaxud məstlik səbəbi ilə namaz qılmamış olsa da, qəzasını yerinə yetirməlidir. Amma qadının heyz və nifas halında qılmadıqları gündəlik vacibi namazların qəzası yoxdur.

**M:1393.** Əgər namazın vaxtı qurtarandan sonra, qıldığı namazın batil olduğunu başa düşsə, qəzasını yerinə yetirməlidir.

**M:1394.** Əgər uşaq namaz vaxtının daxil olmasından qabaq–hətta bir rəkətlik namaz qədərində belə–baliğ olsa, namaz ona əda olaraq vacib olacaq. Əgər bunu tərk etsə, qəzası ona vacibdir. Həmçinin, haiz və nəfsa qadının vaxtın tamam olmasından qabaq üzrü aradan qalxsa, eyni qayda ilə.

**M:1395.** Cümə namazı vacib olan bir şəxs onu vaxtında yerinə yetirməsə, zöhr namazını qılmalıdır. Zöhr namazını da qılmasa, onun qəzasını yerinə yetirməlidir.

**M:1396.** Vacib namazların qəzasını günün istənilən vaxtında–istər səfərdə olsun, istərsə də adi halda (qeyri-səfərdə)–qılmaq olar. Lakin əgər səfərdə olmadığı vaxt səfər namazının qəzasını etmək istəsə, şikəstə qəza etməlidir; və əksinə, əgər səfərdə olduğu vaxt, səfərdə olmadığı vaxtın qəzasını qılmaq istəsə onu bütöv qılmalıdır.

**M:1397.** Mükəlləfin namazı tamam, yaxud şikəstə qılmaqda ixtiyar sahibi olduğu Məscidül-Həram və s. kimi yerlərdə namazı qılmamış olsa, ehtiyat-vacib budur ki, o məkanlardan xaricdə qılmaq istəsə, şikəstə qılsın, amma həmin məkanlarda olarsa, həm şikəstə, həm də bütöv qıla bilər.

**M:1398.** Boynunda qəza namazı olan bir kəs onu qılmaqda süstlük, səhlənkarlıq etməməlidir. Amma dərhal yerinə yetirməsi vacib deyil.

**M:1399.** Qəza namazı olan bir kəs müstəhəb namaz qıla bilər.

**M:1400.** Ehtiyat-vacib–gündəlik namazların qəzasını qılmaqda gündəlik tərtibə riayət etməkdir. Əda vaxtında tərtibin lazım olduğu namazların (zöhr və əsr kimi) qəzasında da bu tərtibə riayət olunması lazımdır.

**M:1401.** Əgər gündəlik namazından başqa bir neçə namazın (məsələn, ayət namazının) qəzasını qılmaq istəsə, yaxud bir gündəlik və bir neçə gündəlik olmayan namazın qəzasını qılmaq istəsə, qəzaya getməsi tərtibi ilə qılması lazım deyil.

**M:1402.** Əgər bir kəs, ondan qəzaya gedən namazların hansının qabaqca olduğunu bilməsə, tərtib hasil olacağı tərzdə qılması lazım deyil: hansını istəsə, onu da qabağa sala bilər.

**M:1403.** Əgər meyyitin qəza namazlarını qılmaq istəsələr və onun vərəsələri də meyyitin qəzaya getmiş namazlarının tərtibini bilsələr, bu tərtibə riayət etmələri lazımdır. Deməli, belə meyyit üçün bir neçə nəfəri eyni vaxtda onun namazları üçün əcir tutmaq səhih deyildir: onlardan hər biri üçün müəyyən vaxt ayırmaq lazımdır.

**M:1404.** Əgər bir kəsin bir neçə namazı qəzaya getsə və onların sayını (məsələn, dörd,yaxud beş dənə olduğunu) bilməsə, bu halda az miqdarın qəzasını qılsa, kifayətdir. Lakin ehtiyat-vacib budur ki, əgər əvvəllər sayını bilib sonra unudubsa, çox tərəfi yerinə yetirsin.

**M:1405.** Bir kəs əda namazı qılmaq istədiyi vaxt həmin günün qəza namazını da qılmaq istəsə, ehtiyat-vacibə görə qəza namazını həmin günün əda namazından qabaq qılmalıdır.

**M:1406.** Nə qədər ki insan diridir, hətta öz qəza namazlarını qıla bilməsə də, başqası (naibi) onun qəza namazlarını qıla bilməz.

**M:1407.** Qəza namazını camaat namazı ilə birlikdə qılmaq olar–istər imamın namazı əda olsun, istərsə də qəza. Hər ikisinin də (imam və mə’mum) eyni namazı qılmaları lazım deyil. Məslən, sübh namazının qəzasını imamın zöhr və ya əsr namazı ilə birlikdə qılsa, eybi yoxdur.

**M:1408.** Müstəhəbdir ki, müməyyiz (yaxşını və pisi başa düşən) uşağı namaza və s. ibadətlərə adət etdirsinlər. Hətta müstəhəbdir ki, onu qılmadığı namazların qəzasını qılmağa vadar etsinlər.

## *ATA-ANANIN BÖYÜK OĞULA VACİB OLAN QƏZA NAMAZI*

Əgər ata müəyyən üzrlü səbəblərə görə namazını qılmamış olsa, böyük oğula vacibdir ki, onun vəfatından sonra onların qəzasını etsin, yaxud da həmin namazları qılmaq üçün əcir tutsun. Habelə, əgər ata, orucunu xəstəlik, yaxud səfərdə olduğu üçün tutmayıbsa və sağlığında da qəzasını tutmaq mümkün olmayıbsa, böyük oğul onun vəfatından sonra qəzasını tutmalıdır.

**M:1409.** Ehtiyat-vacib budur ki, böyük oğul anasının da oruc-namazlarının qəzasını yerinə yetirsin.

**M:1410.** Böyük oğula, ata-ananın özlərinin qəzaya getmiş namazları vacibdir; amma onlara icarə və s. səbəbilə vacib olan namazın qəzası, yaxud onların da öz ata-anasının böyük oğula vacib olan oruc-namazları, böyük oğula vacib deyil.

**M:1411.** Meyyitin namazının qəzası oğlunun oğluna (nəvəsinə) əgər meyyit ölən vaxtda, hamıdan böyük olsa, vacib deyil. Ehtiyat-vacib budur ki, meyyitin övladı yoxdursa, namazlarının qəzasını o (nəvəsi) yerinə yetirsin.

**M:1412.** Böyük oğulun, atanın, yaxud ananın vəfatı zamanı həddi-büluğa çatması lazım deyil. Hətta uşaq da olsa, həddi-büluğa çatandan sonra qəzaları yerinə yetirməlidir. O da həddi-büluğa çatmazdan qabaq ölsə, ondan sonrakı övlada vacib deyil.

**M:1413.** Əgər övladlardan biri yaşca, başqası isə həddi-büluğ cəhətindən böyük olsa, namazların qəzası birinciyə vacibdir.

**M:1414.** Böyük oğulun meyyitin mal-dövlətini irs aparması lazım (ilzami) deyil. Hətta əgər (müəyyən səbəblərə görə–qətl, küfr və s.) irsdən məhrum edilmiş olsa da[21] belə qəzası vacibdir.

**M:1415.** Övladlardan hansının böyük oğul olması mə'lum olmazsa, qəzaları yerinə yetirmək onların heç birinə vacib deyil. Amma ehtiyat-müstəhəb budur ki, ata-ananın oruc-namazlarını öz aralarında bölsünlər, yaxud da püşk atmaqla onlardan biri bu işləri yerinə yetirmək üçün tə'yin edilsin.

**M:1416.** Əgər meyyit, onun qəza oruc-namazları üçün əcir tutulmasını vəsiyyət etmiş olsa, əcir tutulan şəxs də onun oruc-namazlarını səhih tərzdə yerinə yetirsə, böyük oğula heç nə vacib deyil. Həmçinin bir kəs meyyitin oruc-namazlarını pulsuz qəza etsə (böyük oğula vacib deyil).

**M:1417.** Namazı ucadan və ya astadan oxumaqda böyük oğul öz vəzifəsinə əməl etməlidir: yə'ni, sübh, məğrib və işa namazlarının ilk iki rəkətini ucadan qılmalıdır–hətta əgər anasının qəza namazlarını da qılsa.

**M:1418.** Əgər iki oğlan ekiz olsalar, hansı daha tez doğulubsa o böyük sayılır–hətta o birisinin nütfəsi daha tez mayalanmış olsa da.

**M:1419.** Əgər bir kəs namaz qılmağın mümkün olduğu miqdar vaxt keçəndən sonra, namaz vaxtında ölsə, o namazın qəzası böyük oğula vacibdir.

**M:1420.** Əgər meyyitin böyük oğlu olmasa, yaxud böyük oğul qəzaları yerinə yetirmədən ölsə, sair övladlara qəza vacib deyil. Əgər qəzalarını yerinə yetirməyi vəsiyyət etmiş olsa, onun malının üçdə birindən vəsiyyətə əməl olunmalıdır.

---

[21]Məsələn, övlad atasını qətlə yetirsə, yaxud kafir olsa, irsdən məhrum edilir. Bunun sair səbəbləri də var ki, fiqhi kitablarda qeyd olunub.

## CAMAAT NAMAZI

**M:1421.** Müstəhəbdir ki, vacibi namazlar, xüsusilə gündəlik vacib namazları camaatla birlikdə qılınsın. Sübh, məğrib və işa namazlarında, məxsusən məscidə qonşu olan və məscidin azan səsini eşidənlər üçün camaat namazında iştirak etmək daha çox sifariş olunub.

**M:1422.** Bir rəvayətdə gəlib ki, əgər bir nəfər imama iqtida etsə, onların namazlarının hər rəkətinin 150 rəkət namaz savabı vardır. Əgər iki nəfər iqtida etsə, hər rəkətinin 600 rəkət namaz savabı var. İqtida edənlər nə qədər artsa, namazlarının savabı da bir o qədər artacaq. Əgər onların sayı 10 nəfərdən keçsə, bütün asimanlar kağız, dəryalar mürəkkəb, ağaclar qələm, cin, ins və məlaikələr yazan olsalar, o namazın bir rəkətinin savabını yazıb qurtara bilməzlər.

**M:1423.** E’tinasızlıq üzündən camaat namazında iştirak etməmək caiz deyildir. İnsanın üzrü olmadan camaat namazına getməməsi layiq deyil.

**M:1424.** Müstəhəbdir ki, insan gözləsin və namazı camaatla qılsın. Camaatla qılınan namaz, əvvəl vaxtda təklikdə qılınan namazdan daha yaxşıdır. Həmçinin, müxtəsər və qısa şəkildə qılınan camaat namazı təklikdə uzun-uzadı qılınan namazdan daha yaxşıdır.

**M:1425.** Camaat namazı təşkil olunanda müstəhəbdir ki, təklikdə namaz qılan bir kəs namazı yenidən camaatla qılsın. Əgər sonradan birinci namazının batil olduğunu başa düşsə, ikinci namazı kifayətdir.

**M:1426.** Əgər imam və yaxud mə’mum camaatla qıldığı namazı yenidən camaatla qılsa, bu halda əgər ikinci camaat namazına gələnlər birinci namazdakılardan başqa şəxslər olsa və o şəxs də imam olsa eybi yoxdur.

**M:1427.** Namazda vəsvas olan və namazı yalnız camaatla qıldıqda vasvaslıqdan xilas olan bir kəs namazı camaatla qılmalıdır.

**M:1428.** Əgər ata və ya ana öz övladına, namazı camaatla qılmasını əmr etsələr, onu tərk etmək ata-ananın əziyyətlərinə, narahatlıqlarına, yaxud onlara qarşı ədəbsizlik, hörmətsizlik olarsa, namazı camaatla qılması vacibdir.

**M:1429.** Yağış yağması üçün qılınan istisqa, habelə Fitir və Qurban namazları istisna olmaqla (onları camaatla qılmaq olar) müstəhəb namazları camaatla birlikdə qılmaq olmaz.

**M:1430.** Pişnamaz gündəlik namazını qılanda gündəlik namazlardan hər birini ona iqtida edib qılmaq olar. Amma əgər imam gündəlik namazını ehtiyatən ikinci dəfə qılırsa, mə’mum öz namazında ona iqtida edə bilməz; amma hər ikisi bir cəhətdən–ehtiyat cəhətindən bir olsalar, eybi yoxdur.

**M:1431.** Əgər imam özünün gündəlik namazının qəzasını qılsa ona iqtida etmək olar; amma namazını ehtiyatən qəza edirsə, yaxud başqa bir kəsin namazının ehtiyatən qəzasını edirsə, hətta onun üçün pul almasa da, ona iqtida

etmək işkallıdır. Amma əgər insan namazı fövtə getmiş bir kəsin qəza namazını qılmasını bilsə, ona iqtida etməyin eybi yoxdur.

**M:1432.** Əgər imam mehrabda olsa və bir nəfər də onun arxasında olub iqtida etməsə, mehrabın iki tərəfində durub mehrabın divarının səbəbilə imamı görməyən şəxslər ona iqtida edə bilməzlər. Hətta əgər imamın araxasında bir kəs iqtida etmiş olsa, onun iki tərəfində duran şəxslərin, imamı mehrabın divarının vasitəsilə görmədikləri halda iqtida etməsi, ehtiyat-vacibə görə səhih deyil.

**M:1432.** Birinci cərgənin uzun olması səbəbilə cərgənin iki tərəfində duran şəxslər imamı görməsələr də, ona iqtida edə bilərlər. Həmçinin əgər (birinci cərgədən başqa) sair cərgələrdən birinin də uzun olması səbəbilə, onun iki tərəfində duran şəxslər öz qabaqlarındakı cərgəni görməsələr, iqtida edə bilərlər.

**M:1434.** Əgər camaat namazının cərgələri məscidin qapısına çatsa, qapının müqabilindəki cərgənin arxasında duran şəxsin namazı səhihdir. Həmçinin onun arxasında durub iqtida edən şəxslərin də namazı səhihdir. Amma onun iki tərəfində durub qabaqdakı cərgəni görməyənlərin iqtida etmələri, ehtiyat-vacibə görə səhih deyil.

**M:1435.** Sütunun arxasında duran bir kəs əgər sağ, yaxud sol tərəfdən başqa mə’mumun vasitəsilə imama müttəsil olmasa, iqtida edə bilməz. Amma əgər sağ, yaxud sol tərəfdən müttəsil olsa, iqtida edə bilər.

**M:1436.** İmamın dayandığı yer mə’mumun dayandığı yerdən uca olmamalıdır. Amma əgər imamın dayandığı yer azacıq uca olsa, eybi yoxdur. Həmçinin əgər namaz qılınan yer alçaqlı və ucalı yer olsa və imam uca olan yerdə dayansa, bu halda onun alçaqlığı-ucalığı çox olmasa və adi camaat arasında “düzənlik yerdir”-deyilsə, maneəsi yoxdur.

**M:1437.** Əgər mə’mumun yeri imamın yerindən uca olsa, bu halda qədim zamanlarda adət olan qədərdə uca olsa və camaat arasında bir ictima (toplantı) hesab olunsa, eybi yoxdur. Amma əgər bu zamanın çox mərtəbəli evləri kimi olsa, camaat namazının işkalı vardır.

**M:1438.** Əgər bir cərgədə dayanan şəxslərin içərisində müməyyiz (yaxşını və pisi başa düşən) uşaq fasilə salsa və onun namazının batil olmasını bilməsələr, iqtida edə bilərlər.

**M:1439.** İmamın təkbirindən sonra qabaqdakı cərgə namaza hazır olsa və onların təkbir demələri yaxın olsa sonrakı cərgədə dayanan şəxslər təkbiri deyə bilər. Amma ehtiyat-müstəhəb budur ki, birinci cərgənin təkbiri qurtarana qədər gözləsin.

**M:1440.** Əgər qabaqdakı cərgələrdən hər hansı birinin namazının batil olduğu mə’lum olsa, sonrakı cərgələr iqtida edə bilməz. Amma onların (qabaqdakıların) namazlarının səhih olub-olmaması mə’lum olmasa, iqtida edə bilər.

**M:1441.** Əgər bir kəs imamın namazının batil olmasını bilsə (məsələn, onun dəstəmazsız olduğunu bilsə) hətta imamın özü bu işdən agah olmasa da, ona iqtida edə bilməz.

**M:1442.** Əgər mə’mum namazdan sonra imamın adil olmadığını, yaxud kafir olduğunu, yaxud müəyyən səbəblər üzündən namazının batil olduğunu bilsə (məsələn, dəstəmazsız namaz qıldığını bilsə) mə’mumun namazı səhihdir.

**M:1443.** Əgər namaz əsnasında iqtida edib-etməməsində şəkk etsə, bu halda mə’mumun vəzifəli olduğu bir haldadırsa, (məsələn, imamın Həmd-Surəsinə qulaq asan haldadırsa) namazını camaatla qılıb qurtara bilər. Əgər həm imamın, həm də mə’mumun vəzifəsi olan işlərə məşğuldursa (məsələn, rükuda və ya səcdədədirsə) namazı furada niyyəti ilə tamam etməlidir.

**M:1444.** İnsan camaat namazı əsnasında furada niyyəti edə bilər.

**M:1445.** Əgər mə’mum imamın Həmd Surəsi qurtarandan sonra furada niyyət etsə, onları oxuması lazım deyil. Amma əgər Həmd-Surənin tamam olmasından qabaq furada niyyəti etsə, ehtiyat-vacibə görə onları əvvəldən oxumalıdır.

**M:1446.** Əgər bir kəs camaat namazı əsnasında furada niyyəti etsə, ehtiyat-vacibə görə yenidən camaat namazı niyyəti etməməlidir. Amma əgər furada niyyəti edib-etməməsində tərəddüddə qalsa və sonradan camaatla birlikdə tamamlamaq qərarına gəlsə, namazı səhihdir.

**M:1447.** Əgər furada niyyəti edib-etməməsində şəkk etsə, gərək niyyətini furada etməməsinə döndərsin.

**M:1448.** Əgər imam rükuda olan vaxt iqtida edib onun rükusuna çatsa, hətta imamın rükusu tamam olsa belə, namazı camaatla səhihdir və bir rəkət hesab olunur. Amma əgər rüku qədərində əyilib imamın rükusuna çatmasa, onun camaat namazı batildir.

**M:1449.** İmam rükuda olan vaxtda iqtida edib rüku qədərində əyilsə və imamın rükusuna çatıb-çatmamasında şəkk etsə namazı batildir. Ehtiyat budur ki, namazı qurtarandan sonra yenidən qılsın.

**M:1450.** Əgər imam rükuda olan vaxt iqtida etsə və rüku qədərində əyilməzdən qabaq imam başını rükudan qaldırsa, furada niyyəti də edə bilər, yaxud da gözləyə bilər ki, imam sonrakı rəkət üçün qalxanda niyyət edib onu öz namazının birinci rəkəti hesab etsin. Amma əgər imamın ayağa qalxması çox uzun çəksə və “bu şəxs camaat namazı qılır”-deyilməsə, furada niyyəti etməlidir.

**M:1451.** Əgər namazın əvvəlində, yaxud Həmd-Surə oxunan vaxt iqtida etsə və rükuya getməmişdən qabaq imam başını rükudan qaldırsa, onun namazı camaatla səhihdir: rüku edib özünü imama çatdırmalıdır.

**M:1452.** Əgər imama axırıncı rəkətin təşəhhüdünü oxuduğu vaxt çatsa, bu halda camaat namazının savabını qazanmaq istəyərsə, gərək niyyət edib,

təkbirətül-ehram dedikdən sonra oturub təşəhhüdü imamla birlikdə oxusun, amma salamları deməyib gözləməlidir ki, imam salamı desin, sonra ayağa qalxıb yenidən niyyət etmədən, təkbir demədən Həmd-Surəni oxumalıdır. Bunu, öz namazının birinci rəkəti hesab etməlidir.

**M:1453.** Mə’mum imamdan qabaqda durmamalıdır. Ehtiyat-vacibə görə imamdan bir qədər arxada dayanmalıdır. Əgər onun boyu imamdan uca olsa və rükuda, səcdədə ondan qabaqda olsa, eybi yoxdur.

**M:1454.** Camaat namazında mə’mum və imam arasında arxası görünməyən pərdə və bu kimi şeylər fasilə salmamalıdır. Həmçinin insan ilə onun, imama müttəsil olduğu bir şəxs arasında da fasilə düşməməlidir. Əgər mə’mum qadın, imam isə kişi olsa pərdə və bu kimi şeylərin fasilə salmasının eybi yoxdur. Qadınla, kişi olan sair mə’mum arasında pərdə və bu kimi şeylər fasilə salsa (belə ki, qadın onun vasitəsilə imama müttəsildirsə) eybi yoxdur. Amma əgər imam və mə’mum–hər ikisi qadın olsa, bunun hökmü kişilərin hökmü kimidir, yə’ni onların arasında heç nə fasilə salmamalıdır.

**M:1455.** Əgər namaza başlayandan sonra imamla mə’mum arasında, yaxud həmin mə’mumun imama müttəsil olduğu şəxs arasında pərdə və ya o biri tərəfi görünməyən başqa bir şey fasilə salsa, namazı furadadır və səhihdir.

**M:1456.** Ehtiyat-vacib budur ki, mə’mumun səcdə yeri ilə imamın durduğu yerin arasında bir normal addımdan artıq fasilə olmasın. Həmçinin əgər insan, qabağında dayanan mə’mumun vasitəsilə imama müttəsil olsa, ehtiyat-vacibə görə onun səcdəsinin yeri qabaqdakının dayandığı yerdən bir normal addımdan artıq olmasın. Ehtiyat-müstəhəb budur ki, mə’mumun səcdəsinin yerinin, onun qabağında duran kəsin dayandığı yerlə, ümumiyyətlə fasiləsi olmasın.

**M:1457.** Əgər mə’mum, sağında və ya solunda olan kəsin vasitəsilə imama müttəsil olub amma qabaqdan müttəsil olmasa, bu halda bir normal addımdan artıq fasiləsi olmazsa namazı səhihdir.

**M:1458.** Əgər namazda mə’mumla imam, yaxud mə’mumla onun imama müttəsil olduğu şəxs arasında bir addımdan artıq fasilə düşsə onun namazı furada olur və səhihdir.

**M:1459.** Əgər qabaqdakı cərgədə dayananların hamısının namazı tamam olsa, yaxud hamısı furada niyyəti etsələr, bu halda fasilə normal addımdan çox olmasa, sonrakı cərgənin namazı camaat namazı şəklində səhihdir. Əgər bu miqdardan artıq olsa furada olur və səhihdir.

**M:1460.** Əgər bir kəs ikinci rəkətdə iqtida etsə, qunutu və təşəhhüdü imamla birlikdə oxumalıdır. Ehtiyat budur ki, təşəhhüdü oxuyan zaman əllərin barmaqlarını və ayaqlarının pəncəsini yerə qoyub, dizlərini qaldırsın, təşəhüddən sonra imamla birlikdə qalxıb Həmd və Surəni oxusun. Əgər Surə üçün vaxt qalmasa, təkcə Həmdi oxuyub rükuda və ya səcdədə özünü imama çatdırsın, yaxud da furada niyyət etsin, namazı da səhihdir.

**M:1461.** Əgər imam dörd rəkətli namazın ikinci rəkətində olanda iqtida etsə, namazın ikinci (imamın üçüncü) rəkətində iki səcdədən sonra oturub təşəhhüdün vacibi qədərini oxumalı, sonra ayağa qalxmalıdır. Əgər təsbihatı üç dəfə deməyə vaxt olmazsa, gərək bir dəfə deyib rükuda və ya səcdədə özünü imama çatdırsın.

**M:1462.** Əgər imam üçüncü və ya dördüncü rəkətdə olsa və mə'mum iqtida edib Həmdi oxuyacağı surətdə imamın rükusuna çatmayacağını bilsə, ehtiyat-vacibə görə gözləməlidir ki, imam rükuya getsin, sonra iqtida etsin.

**M:1463.** Əgər imamın üçüncü və ya dördüncü rəkətində iqtida etsə, gərək Həmd-Surəni oxusun. Əgər Surə oxumağa vaxt olmasa, Həmdi tamamlamalı, rükuda özünü imama çatdırmalıdır. Amma əgər imama səcdədə çatsa, daha yaxşı olar ki, ehtiyatən namazı ikinci dəfə qılsın.

**M:1464.** Surəni və ya qunutu yerinə yetirdiyi surətdə rükuda imama çatmayacağını bilən bir kəs, Surəni oxumamalı, yaxud qunutu tutmalıdır. Amma əgər oxusa namazı səhihdir.

**M:1465.** Bir kəs Surəni başlayacağı, yaxud qurtaracağı halda imamın rükusuna çatacağına xatircəmdirsə, ehtiyat-vacib budur ki, Surəni başlasın və ya başlayıbsa qurtarsın.

**M:1466.** Surəni oxuyacağı təqdirdə imamın rükusuna çatacağına yəqini olan bir kəs Surəni oxusa, amma imamın rükusuna çatmasa, namazı səhihdir.

**M:1467.** İmam ayaq üstə olanda, mə'mum onun hansı rəkətdə olduğunu bilmirsə, ona iqtida edə bilər. Amma gərək Həmd-Surəni qürbət qəsdi ilə oxusun. Sonradan imamın birinci, yaxud ikinci rəkətdə olduğunu bilsə, namazı səhihdir.

**M:1468.** Bir kəs imamın birinci, yaxud ikinci rəkətdə olduğunu güman edərək Həmd-Surəni oxumasa, rükudan sonra onun üçüncü, yaxud dördüncü rəkətdə olduğunu başa düşsə, namazı səhihdir. Amma rükudan qabaq başa düşsə, Həmd-Surəni oxumalıdır. Vaxtı olmasa təkcə Həmdi oxumalı, rükuda və ya səcdədə özünü imama çatdırmalıdır.

**M:1469.** İmamın üçüncü, yaxud dördüncü rəkətdə olmasını güman edən bir kəs Həmd-Surəni oxusa və rükudan əvvəl və ya sonra onun birinci, yaxud ikinci rəkətdə olduğunu başa düşsə, namazı səhihdir. Həmd-Surə əsnasında başa düşsə onları axıra çatdırması lazım deyil.

**M:1470.** Əgər bir kəs müstəhəbbi namaza məşğul olduğu vaxt camaat namazı təşkil olunsa, bu halda namazını qurtararsa camaat namazına çatacağına xatircəm deyilsə, müstəhəbdir ki, namazı kəsib camaatla birlikdə namaz qılsın. Hətta əgər birinci rəkətə çatacağına xatircəm olmasa da, müstəhəbdir ki, həmin göstərişə əməl etsin.

**M:1471.** Üç, yaxud dörd rəkətli namazı qılmağa məşğul olan zaman camaat namazı təşkil olunsa, bu halda üçüncü rəkətin rükusuna getməyibsə və namazı

axıra qədər qılacağı təqdirdə camaat namazına çatacağına xatircəm deyilsə, müstəhəbdir ki, namazı müstəhəb namaz niyyətinə döndərib iki rəkətdə qurtarsın və özünü camaat namazına çatdırsın.

**M:1472.** Əgər imamın namazı qurtarsa, mə'mum da birinci təşəhhüdü və ya birlikdə salamı deməyə məşğuldursa, furada niyyəti etməsi lazım deyil.

**M:1473.** İmamdan bir rəkət dala qalan bir kəs onun axırıncı rəkətinin təşəhhüdünü oxuduğu vaxt, furada niyyətini edə, qalxıb namazını qurtara bilər və ya əllərinin barmaqlarını, ayaqlarının pəncəsini yerə qoyub dizlərini yerdən aralayaraq imamın, namazın salamını deməsini gözləməli, sonra isə ayağa qalxmalıdır.

## *PİŞNAMAZIN ŞƏRTLƏRİ*

**M:1474.** İmam camaat baliğ, aqil 12 İmam şiəsi, adil, halazadə olmalı, namazı səhih tərzdə oxumalıdır. Həmçinin, ehtiyat-vacibə görə imam camaat kişi olmalıdır. Yaxşı və pisi başa düşə bilən müməyyiz uşağın başqa bir uşağa iqtida etməsinin maneəsi yoxdur.

**M:1475.** Bir kəs əvvəlcə imamın adil olduğunu bilib sonradan ədalətində qalıb-qalmamasında şəkk etsə, ona iqtida edə bilər.

**M:1476.** Ayaq üstə namaz qılan bir kəs oturan, yaxud uzanan halda namaz qılana iqtida edə bilməz. Habelə, oturan halda namaz qılan bir kəs uzanan halda namaz qılana iqtida edə bilməz.

**M:1477.** Oturan halda namaz qılan bir kəs elə o halda namaz qılan başqa bir kəsə iqtida edə bilər. Amma ehtiyat-vacib budur ki, uzanan halda namaz qılan bir kəs, uzanan və ya oturan halda namaz qılan şəxsə iqtida etməsin.

**M:1478.** Əgər piş namaz müəyyən üzr səbəbi ilə təyəmmüm, yaxud cəbirə dəstəmaz ilə namaz qılsa ona iqtida etmək olar. Amma müəyyən səbəblərə görə nəcis paltarda namaz qılırsa, ehtiyat-vacibə görə gərək ona iqtida olunmasın.

**M:1479.** Əgər imam, müəyyən xəstəlik səbəbi ilə bovl və ya qaitin çölə gəlməsinin qarşısını ala bilməsə, ehtiyat-vacibə görə ona iqtida etmək olmaz. Habelə, müstəhazə olmayan qadın müstəhazə qadına iqtida edə bilməz.

**M:1480.** Ehtiyat-vacibə görə gərək cüzam (xora) və bərəs (alaca) xəstəliyinə yoluxan şəxs, habelə, şər'i hədd (şallaq) vurulan şəxs imam olmasın.

## *CAMAAT NAMAZININ HÖKMLƏRİ*

**M:1481.** Mə'mum niyyət edəndə imamını müəyyən etməlidir, amma adını bilməsi lazım deyil. Məsələn, "bu, hal-hazırdakı imama iqdtida edirəm"-deyə niyyət etsə, namazı səhihdir.

**M:1482.** Mə'mum Həmd-Surə istisna olmaqla, namazın qalan hissələrinin hamısını özü deməlidir. Amma əgər onun birinci və ya ikinci rəkəti, imamın isə üçüncü və ya dördüncü rəkəti olsa, Həmd-Surəni oxumalıdır.

**M:1483.** Əgər mə’mum sübh, məğrib və işa namazının birinci və ikinci rəkətlərində imamın Həmd-Surəsinin səsini eşitsə, hətta onun kəlmələrini bir-birindən ayırd edə bilməsə də, Həmd-Surəni oxumamalıdır. Amma əgər imamın səsini eşitməsə, müstəhəbdir ki, Həmd-Surəni oxusun. Lakin ahəstə oxumalıdır; səhvən ucadan oxusa, eybi yoxdur.

**M:1484.** Əgər mə’mum imamın Həmd-Surəsinin bə’zi kəlmələrini eşitsə, ehtiyat-vacib budur ki, Həmd-Surəni oxumasın.

**M:1485.** Əgər mə’mum səhvən Həmd-Surəni oxusa və ya eşitdiyi səsin imamın səsi olmadığını güman edərək Həmd-Surə oxuyub sonradan onun səsi olduğunu başa düşsə, namazı səhihdir.

**M:1486.** Əgər imamın səsini eşidib-eşitməməsində şəkk etsə, yaxud bir səs eşidib, imamın, yaxud başqa kəsin səsi olduğunu bilməsə, Həmd-Surəni, ümumiyyətlə qürbət qəsdi ilə oxuya bilər.

**M:1487.** Ehtiyat-vacib budur ki, mə’mum zöhr və əsr namazlarının birinci və ikinci rəkətlərində Həmd-Surəni oxumasın və müstəhəbdir ki, onun yerinə zikr desin.

**M:1488.** Mə’mum təkbirətül-ehramı imamdan qabaq deməməlidir. Hətta ehtiyat-vacib budur ki, onun təkbirətül-ehramı qurtarmayınca, təkbir deməsin.

**M:1489.** Əgər mə’mum imamın salamlarını eşitsə və ya onun nə vaxt salam deyəcəyini bilsə, ondan qabaq salamları deməməlidir. Əgər qəsdən imamdan qabaq desə, işkalı vardır. Amma əgər səhvən ondan qabaq desə, namazı səhihdir və salamları yenidən deməsi lazım deyil.

**M:1490.** Əgər mə’mum namazın təkbirətül-ehram və salamlarından başqa qalan hissələrini imamdan qabaq desə, eybi yoxdur. Amma əgər onları eşitsə və ya imamın onları nə vaxt deməsini bilsə, ehtiyat-müstəhəb budur ki, ondan qabaq deməsin.

**M:1491.** Mə’mum, namazda təkcə imamın oxumalı olduğu şeylər istisna olmaqla, sair əməlləri (rüku, səcdə kimi) imamla birlikdə, yaxud ondan azacıq sonra yerinə yetirməlidir. Əgər qəsdən imamdan qabaq, yaxud ondan bir müddət sonra yerinə yetirsə, mə’siyət etmişdir və ehtiyat-vacib budur ki, namazı qılıb qurtarandan sonra yenidən qılsın.

**M:1492.** Əgər səhvən başını rükudan qaldırıb imamın rükuda olduğunu görsə, rükuya qayıtmalı, imamla birlikdə qalxmalıdır. Bu halda rükn olan rükunun artıqlığı səbəbi ilə namazı batil olmur. Amma əgər rükuya çatmamış imam rükudan qalxsa, namazı batildir.

**M:1493.** Əgər mə’mum səhvən başını səcdədən qaldırıb imamın hələ səcdədə olduğunu görsə, gərək səcdəyə qayıtsın. Əgər hər iki səcdədə bu iş təkrar olsa, rükn olan iki səcdənin artıqlığı ilə namaz batil olmur.

**M:1494.** İmamdan qabaq səhvən başını səcdədən qaldıran bir kəs, səcdəyə qayıtsa və səcdəyə çatmamış imam başını səcdədən qaldırsa, namazı səhihdir. Amma əgər bu iş bir rəkətin hər iki səcdəsində baş versə, namazı batildir.

**M:1495.** Əgər səhvən rükudan və ya səcdədən qalxıb imama çatmayacağını güman edərək yenidən rükuya, yaxud səcdəyə getməsə, namazı səhihdir.

**M:1496.** Əgər başını səcdədən qaldırıb imamın səcdədə olduğunu görsə və imamın birinci səcdəsi olduğunu güman edərək imamla birlikdə səcdəyə getməyi qəsd edib səcdəyə getsə, sonra onun ikinci səcdəsi olduğunu başa düşsə, onun da ikinci səcdəsi hesab olunur. Əgər imamın ikinci səcdəsi olduğunu güman edərək səcdəyə getsə və səcdədən qalxandan sonra imamın birinci səcdəsi olduğunu başa düşsə, imama tabe olmaq hesab olunur və imamla birlikdə yenidən səcdəyə getməlidir. Hər iki halda ehtiyat-vacib budur ki, namazı camaatla qılıb qurtarandan sonra yenidən qılsın.

**M:1497.** Əgər səhvən imamdan qabaq rükuya getsə və rükudan qalxacağı halda imamın qiraətindən bir hissəsinə çatarsa, bu halda qalxıb yenidən imamla birlikdə rükuya getsə, namazı səhihdir. Əgər qəsdən qayıtmasa, ehtiyat-vacibə görə namazı batildir. Birinci halda hər iki rükuda zikri deməlidir, lakin ehtiyat-vacib budur ki, birinci rükuda bir kiçik zikrdən artıq deməsin.

**M:1498.** Əgər səhvən imamdan qabaq rükuya getsə və başını qaldıracağı halda imamın qiraətindən bir hissəsinə çatmayacaqsa, bu halda imamın ona çatmasını gözləsə, namazı səhidir.

**M:1499.** Əgər səhvən imamdan qabaq səcdəyə getsə və imamın ona çatmasını gözləsə, namazı səhihdir.

**M:1500.** Əgər imam qunutu olmayan bir yerdə qunut tutsa, yaxud təşəhhüdü olmayan yerdə təşəhhüd oxumağa başlasa, mə’mum qunutu və təşəhhüdü yerinə yetirməməlidir, amma imamdan qabaq rükuya gedə bilməz, yaxud ondan əvvəl ayağa dura bilməz. Üstəlik müəyyən əlamət və ya işarələrlə onu başa salmalıdır. Bu da mümkün olmasa, imamın təşəhhüdü və ya qunutunun qurtarmasını gözləməli, namazın ardını onunla qılmalıdır.

### *CAMAAT NAMAZINDA MÜSTƏHƏB OLAN ŞEYLƏR*

**M:1501.** Əgər mə’mum bir kişi olsa, müstəhəbdir ki, imamın sağ tərəfində dayansın; bir qadın olsa, müstəhəbdir ki, imamın sağ tərəfində elə dursun ki, səcdəsinin yeri imamın dizləri, yaxud ayaqları ilə bərabər olsun. Əgər mə’mum bir kişi və bir qadın, yaxud bir kişi və bir neçə qadın olsa, müstəhəbdir ki, kişi imamın sağ tərəfində, qadınlar isə imamın arxa tərəfində dursunlar. Əgər bir neçə kişi və bir neçə qadın olsa, müstəhəbdir ki, kişilər imamın arxasında, qadınlar da kişilərin arxasında dursunlar.

**M:1502.** Müstəhəbdir ki, imam cərgənin ortasında, elm, kamal və təqva sahibi olan sair şəxslər isə birinci cərgədə dayansınlar.

**M:1503.** Müstəhəbdir ki, camaat namazının cərgələri münəzzəm (nizam-intizamlı) olsun, bir cərgədə duran şəxslərin aralarında fasilə düşməsin, çiyinləri bir xətt boyunda olsun.

**M:1504.** Müstəhəbdir ki, "qəd-qamətissalat" deyiləndən sonra mə'mumlar ayağa qalxsınlar.

**M:1505.** Müstəhəbdir ki, imam, mə'mumların arasında halı başqalarına nisbətən zəif olanları nəzərə alsın, tələsməsin ki, zəiflər də ona çatsın. Habelə, müstəhəbdir ki, qunut, rüku və səcdələri uzatmasın. Amma ona iqtida edənlərin hamısının bu kimi işlərə meylli olduqlarını bilsə, eybi yoxdur.

**M:1506.** Müstəhəbdir ki, imam camaat Həmd-Surədə və ucadan oxunmalı zikrlərdə səsini o qədər ucaltsın ki, hamı eşitsin. Amma həddindən artıq uca olmamalıdır.

**M:1507.** Əgər imam rükuda olanda, təzə gələnlərin ona iqtida etmək istədiklərini başa düşsə, müstəhəbdir ki, rükunu həmişəkindən ikiqat artırıb sonra–hətta bundan sonra iqtida etmək üçün başqalarının da gəldiyini bilsə–qalxsın.

### *CAMAAT NAMAZINDA MƏKRUH OLAN ŞEYLƏR*

**M:1508.** Əgər camaat namazının cərgələrində yer olsa insan təklikdə dayanması məkruhdur.

**M:1509.** Məkruhdur ki, insan zikrləri, imamın eşidəcəyi tərzdə desin.

**M:1510.** Zöhr, əsr və işa namazlarını şikəstə (2 rəkət) qılan müsafirin, bu namazlarda müsafir olmayanlara, habelə, müsafir olmayan şəxsin bu namazlarda müsafir olana iqtida etməsi məkruhdur.

### *AYƏT NAMAZI*

**M:1511.** Qaydası sonradan deyiləcək ayət namazı dörd şey vasitəsilə vacib olur:

**1 və 2-**Günəşin və ayın tutulması (hətta onların azacıq tutulsa və bir kəs də qorxmasa);

**3-**Zəlzələ (hətta bir kəs qorxmasa da);

**4-**İldırım, şimşək və yaxud qara-qırmızı küləklər və s. kimi şeylər (o halda bunlara namaz vacib olur ki, camaatın əksəriyyəti qorxsun); Həmçinin ehtiyat-vacibə görə yerdə baş verən dəhşətli, qorxunc hadisələrdə (yerin yarılması, batması) camaatın çoxunun qorxduğu halda ayət namazı qılınsın.

**M:1512.** Əgər ayət namazı vacib olan hadisələrdən bir neçəsi baş versə, insan onun hər biri üçün bir ayət namazı qılmalıdır. Məsələn, həm günəş tutulsa, həm də zəlzələ baş versə, iki ayət namazı qılınmalıdır.

**M:1513.** Bir kəsə bir neçə ayət namazı vacib olsa və onların hamısı eyni şey üçün vacib olsa (məsələn, üç dəfə günəş tutulsa) və onları qılmamış olsa,

qəzasını yerinə yetirdiyi vaxt onların hansı üçün qılmasını müəyyən etməsi lazım (ilzami) deyil. Həmçinin əgər bir neçə ayət namazı ildırım, şimşək və qara-qırmızı küləklər və üçün insana vacib olsa da eyni qayda ilə. Amma əgər günəşin və ayın tutulması, zəlzələ baş verməsi, yaxud bunlardan ikisi üçün namaz vacib olsa, ehtiyat-vacibə görə niyyətdə ayət namazını hansı üçün qıldığını müəyyənləşdirməlidir.

**M:1514.** Ayət namazının vacib olduğu şeylər hər şəhərdə baş versə, təkcə o şəhərin əhalisi ayət namazı qılmalıdır, başqa yerlərin əhalisinə isə vacib deyil. Amma əgər onların məntəqələri bir-birinə çox yaxın olsa və ikisi bir şəhər hesab olunsa, onlara da vacib olur.

**M:1515.** Ayət namazı günəş və ya ay tutulmağa başlayanda qılınmalıdır. Əqvaya əsasən onun vaxtı, hər yeri açıldığı vaxta qədərdir. Ehtiyat-vacibə görə o qədər tə’xirə salınmamalıdır ki, açılmağa başlasın.

**M:1516.** Əgər bir kəs ayət namazını çox tə’xirə salsa və gün, yaxud ay açılmağa başlasa, ehtiyat-vacibə görə əda və qəza niyyəti etməməlidir. Amma əgər onun hər yerinin açılmasından sonra namaz qılsa, qəza niyyəti etməlidir.

**M:1517.** Əgər ay və günəşin tutulması müddəti bir rəkət namaz qılmaq müddətindən çox olsa amma insan namazı qılmasa və onun axırına bir rəkət namaz qılmaq qədər vaxt qalsa, əda niyyəti etməlidir. Hətta əgər onların tutulması bir rəkətlik namaz qılmaq qədərində və ya daha az olsa ayət namazı qılınmalıdır və ədadır.

**M:1518.** Zəlzələ, ildırım və s. baş verəndə insan dərhal ayət namazı qılmalıdır. Qılmasa mə’siyət etmişdir və ömrünün axırına kimi ona vacibdir. Hər vaxt qılsa, ədadır.

**M:1519.** Əgər ayın, günəşin açılmasından sonra hamısının tutulmuş olduğunu bilsə, o ayət namazının qəzasını etməlidir. Amma hamısı deyil, bir miqdarının tutulduğunu bilsə qəzasını qılmaq vacib deyil.

**M:1520.** Əgər bir neçə nəfər ay və ya günəşin tutulmasını xəbər versə, bu halda əgər insan onların sözündən yəqinə çatmayıb ayət namazını qılmasa, sonradan düz dedikləri mə’lum olsa, ayın və ya günəşin hər yeri tutulmuş olarsa ayət namazı qılınmalıdır. Əgər adil olmaları mə’lum olmayan iki nəfər günəşin və ya ayın tutulmasını xəbər versə, sonra isə adil olmaları mə’lum olsa, gərək ayət namazı qılınsın. Hətta əgər hər iki halda onların bir miqdarının tutulması məlum olsa ehtiyat-vacib budur ki, ayət namazı qılınsın.

**M:1521.** Əgər bir kəs münəccimlərin (astronomların), yaxud elmi qaydalar üzrə günəş və ya ayın tutulmasını xəbər verən şəxslərin sözündən xatircəmlik tapsa, gərək ayət namazını qılsın. Həmçinin əgər “filan vaxt ay və ya günəş tutulub filan qədər davam edəcək”-desələr və insan da onların sözlərindən xatircəmlik tapsa, gərək onların sözlərinə əsasən əməl etsin Məsələn, əgər

“günəş filan saatda açılmağa başlayacaq”-desələr, ayət namazını o vaxta qədər tə’xirə salmamalıdır.

**M:1522.** Əgər qıldığı ayət namazının batil olduğunu bilsə yenidən qılmalı, vaxtı keçmiş olsa qəzasını etməlidir.

**M:1523.** Əgər gündəlik namazı vaxtında ayət namazı da insana vacib olsa və hər ikisini qılmaq üçün vaxt olsa, onda hər birini əvvəldə qılsa, eybi yoxdur; əgər onlardan birinin vaxtı az olsa, onu əvvəlcə qılmalıdır; hər ikisinin vaxtı az olsa, əvvəlcə gündəlik namazını qılmalıdır.

**M:1524.** Əgər gündəlik namazı əsnasında ayət namazının vaxtının az olduğunu başa düşsə, bu halda gündəlik namazının da vaxtı az olsa onu qurtarıb sonra ayət namazını qılmalıdır. Əgər gündəlik namazın vaxtı az olmasa onu pozub əvvəlcə ayət namazı sonra isə gündəlik namazı qılmalıdır.

**M:1525.** Əgər ayət namazını qılan vaxtda gündəlik namazının vaxtının az olduğunu başa düşsə, ayət namazını yarıda saxlayıb gündəlik namazı qılmalı; namazı qurtarandan sonra onu batil edən bir iş görməyibsə ayət namazını, qaldığı yerdən qılmalıdır.

**M:1526.** Əgər qadın heyz və ya nifas olduğu halda gün, yaxud ay tutulsa və onların açılmasına qədər nifas və ya heyz halında qalsa ayət namazı ona vacib deyil. Amma ehtiyat-vacibə görə pak olandan sonra gərək qəzasını etsin. Həmçinin əgər zəlzələ və s. kimi ilahi ayələr, nişanələr baş versə, ehtiyat-vacib budur ki, pak olandan sonra ayət namazı qılsın.

## *AYƏT NAMAZININ QAYDALARI*

**M:1527.** Ayət namazı iki rəkətdir və hər rəkətində beş rüku vardır. Onun qılınma qaydası belədir: niyyətdən sonra təkbir deyib bir Həmd və bir Surəni tam oxumalı, rükuya getməli, rükudan qalıb yenə də bir Həmd və bir Surə oxumalı, sonra rükuya getməlidir. Beləliklə bu işi beş dəfə təkrar etməlidir. Beşinci rükudan qalxdıqdan sonra iki səcdə etməli, ayağa qalxıb ikinci rəkəti də eynilə birinci rəkət kimi yerinə yetirməli, təşəhhüd və salamı deyib namazı qurtarmalıdır.

**M:1528.** Ayət namazını başqa cür də qılmaq olar: niyyət, təkbirətül-ehram və Həmddən sonra bir Surəni beş yerə bölsün, bir və ya birdən artıq ayəsini oxuyub rükuya getsin, sonra qalxıb Həmdi oxumadan o Surənin ikinci hissəsini oxusun, sonra rükuya getsin. Bu qayda ilə qılıb beşinci rükudan əvvəl Surəni qurtarmalıdır. Məsələn, “Qul huvəllah” Surəsi niyyəti ilə (birinci rəkətin Həmd Surəsindən sonra) “Bismillahir-rəhmanir-rəhim” deyib rükuya getsin, sonra qalxıb “Qul huvəllahu əhəd” deyib yenidən rükuya getsin. Sonra qalxıb “Allahus-səməd” deyib rükuya getsin, sonra qalxıb “ləm yəlid və ləm yuləd” deyib rükuya getsin, sonra qalxıb “və ləm yəkun ləhu kufuvən əhəd” deyib beşinci rükuya getsin. Rükudan qalxıb iki səcdə etsin, ikinci rəkəti də birinci

rəkət kimi yerinə yetirsin, ikinci səcdədən sonra təşəhhüd və salamları deyib namazı qurtarsın.

**M:1529.** Əgər ayət namazının bir rəkətində beş dəfə Həmd-Surə oxusa, o biri rəkətində isə Həmd oxuyub Surəni beş yerə bölsə, eybi yoxdur.

**M:1530.** Gündəlik namazlarda vacib və müstəhəb olan əməllər ayət namazında da eynilə vacib və müstəhəbdir. Amma ayət namazında müstəhəbdir ki, azan və iqamənin yerinə üç dəfə, savab ümidi ilə “əssəlat” deyilsin.

**M:1531.** Müstəhəbdir ki, beşinci və onuncu rükudan sonra “səmi”əllahu limən həmidəh” deyilsin. Həmçinin hər rükudan əvvəl və sonra təkbir deyilsin. Amma beşinci və onuncu rükudan sonra təkbir müstəhəb deyil.

**M:1532.** Müstəhəbdir ki, 2, 4, 6, 8 və 10-cu rükulardan qabaq qunut tutulsun. Əgər 10-cu rükudan qabaq bir qunut tutulsa kifayətdir.

**M:1533.** Əgər ayət namazında neçə rəkət qıldığına şəkk etsə və fikri də bir yerə çatmasa, namazı batildir.

**M:1534.** Əgər birinci rəkətin axırıncı rükusunda, yaxud ikinci rəkətin birinci rükusunda olmasında şəkk etsə və fikri də bir yerə çatmasa namaz batildir. Amma əgər misal üçün dörd və ya beş rüku etməsində şəkk etsə, səcdəyə getmək üçün əyilməyibsə, şəkk etdiyi rükunu yerinə yetirməlidir. Amma səcdə üçün əyilmiş olsa öz şəkkinə e’tina etməməlidir.

**M:1535.** Ayət namazının hər rükusu rükndür; əgər qəsdən və ya səhvən azaldılıb-artırılsa, namaz batildir.

## *CÜMƏ NAMAZI*

**M:1536.** İmam Zamanın (ə) qaib olduğu dövrdə cümə namazı təxyiri vacibdir (yə’ni, mükəlləf şəxs cümə günündə ya zöhr namazını, ya da cümə namazını qılmaqda ixtiyar sahibidir). Amma cümə namazını qılmaq əfzəl, zöhrü qılmaq isə əhvətdir. Daha çox ehtiyat budur ki, hər ikisi yerinə yetirilsin.

**M:1537.** Cümə namazını qılan bir şəxsə, zöhr namazını da qılması vacib deyildir, amma ehtiyat-müstəhəbdir ki, onu da qılsın.

### *CÜMƏ NAMAZININ ŞƏRTLƏRİ*

**M:1538.** Cümə namazı yalnız kişilərin vasitəsilə bərqərar olur. Amma qadınlar da onda iştirak edə bilərlər.

**M:1539.** Cümə namazı camaat namazı şəklində qılınmalıdır. Onu furada qılmaq olmaz.

**M:1540.** Camaat namazında mö’təbər olan bütün şərtlər cümə namazında da lazımdır. Məsələn, pərdənin olmaması, imamın yerinin yüksəkdə və fasilənin çox olmaması və s.).

**M:1541.** İmam-camaatda lazım olan bütün şərtlər (məsələn, aqil, imanlı, halalzadə, ədalətli olmaq) imam-cümədə də olmalıdır. Amma uşaqların və qadınların cümə namazına imamət etmələri caiz deyil. (Hansı ki, başqa namazlarda müməyyiz uşaqların özləri üçün caizdir.) Qadınlarda isə onu tərk etmək vücubi-ehtiyatdır.[22]

**M:1542.** Kor, xəstə və həddindən artıq qoca olmayan hər qeyri-müsafir, azad, mükəlləf kişiyə cümə namazı vacibdir. Əlbəttə bu şərtlə ki, onunla cümə namazı qılınan yerin fasiləsi iki fərsəxdən artıq olmasın. Deməli bu şərtlərdən hər hansı birinə malik olmayan şəxs hətta cümə namazı tə’yini-vücub da olsa, cümə namazına getməsi vacib deyil, hətta orada iştirak etməyin məşəqqəti olmasa da.

**M:1543.** İki cümə namazı qılınan yerin arasında lazım olan ən az məsafə bir fərsəxdir.

**M:1544.** Cümə namazının bərqərar olması üçün lazım olan ən az say beş nəfərdir ki, onlardan biri imam olmalıdır. Deməli, cümə namazı beş nəfərdən azla vacib deyildir və bərqərar olunmur. Amma əgər yeddi və daha artıq olsalar cümə namazının fəziləti də artacaq.

**M:1545.** Lazımi şərtlər mövcud olduqda, cümə namazı böyük və kiçik şəhərlər və onların ətraf nahiyələrində olanlara, kəndlilərə, çadırlarda, səhralarda yaşayanlara (həyat tərzləri bu cür olanlara) vacibdir.

**M:1546.** Cümə namazının şərtlərinə malik olmayan şəxslər təsadüfən cümə namazına gəlsələr, yaxud məşəqqətlə özlərini ora çatdırsalar namazları səhihdir, zöhr namazı da onlara vacib deyil. Həmçinin, bir kəs şiddətli yağış və soyuğun olması ilə, yaxud ayaq və ya sair ə’zalarının olmaması kimi məşəqqət yaradan, cümə namazını saqit edən işlərlə belə, iştirak etsə, namazı səhihdir. Amma əgər dəli cümə namazı qılsa, namazı səhih deyildir. Həddi-büluğa çatmayan oğlan uşaqları cümə namazı qılsalar, səhihdir. Amma təklikdə cümə namazı bərqərar edə bilmədikləri kimi, cümə namazında lazım olan sayı da təkmil edə bilməzlər.

**M:1547.** Müsafir şəxs cümə namazında iştirak edə bilər və bu halda zöhr namazı ondan saqit olur. Amma müsafirlər ayrılıqda (cümə namazında hazır olanların iştirakı olmadan) cümə namazı təşkil edə bilməzlər və bu halda zöhr namazı onlara vacibdir. Həmçinin, müsafir cümə namazı üçün lazım olan sayı (5 nəfəri) təkmil edə bilməz, amma müsafirlər (10 gün və ya daha artıq) qəsdi-iqamə etsələr, cümə namazı təşkil edə bilərlər.

---

[22]Yə’ni ehtiyat-vacibdir.

**M:1548.** Qadınlar cümə namazında iştirak edə bilər amma namazları da səhihdir və zöhrün də əvəzindən müczidir (kifayətdir). Amma onlar təklikdə cümə namazının bərqərar olması üçün lazım olan sayı (5 nəfəri) təkmil edə bilmədikləri kimi, (kişilərin iştirakı olmadan) cümə namazı təşkil edə bilməzlər. Çünki, cümə namazı kişilərin iştirakı ilə təşkil olunur.

**M:1549.** Müşkilə xonsa (kişi ya qadın olması ümumiyyətlə mə'lum olmayan) cümə namazında iştirak edə bilər. Amma cümə namazının bərqərar olması üçün lazım olan sayın təkmil edicisi, yaxud imam-cümə ola bilməz. Deməli əgər ondan başqa dörd nəfər bir yerə yığışsa, cümə namazı bərqərar ola bilməz: zöhr namazını qılmalıdırlar.

### *CÜMƏ NAMAZININ VAXTI*

**M:1550.** Cümə namazının vaxtı, gün asimanın ortasından keçdikdə başlayır, şaxisin kölgəsi iki adi addıma çatana qədər davam edir. Amma ehtiyat-vacib budur ki, camaat arasında günortanın əvvəlləri sayılan vaxtdan sonraya qədər tə'xirə salınmasın. Əgər tə'xirə düşsə ehtiyat-müstəhəb budur ki, zöhr namazını qılsınlar.

**M:1551.** Əgər imam-cümə xütbələri günortadan qabaq başlayıb günorta olanda qurtarsa və cümə namazını başlasa, səhihdir.

**M:1552.** Cümə namazında imamın, xütbələri namazın vaxtı keçənə qədər uzatması caiz deyildir. Əks halda, zöhr namazını qılmalıdır. Çünki, cümə namazının vaxtı keçəndən sonra qəzası yoxdur.

**M:1553.** Əgər cümə namazı əsnasında onun vaxtı qurtarsa və onun bir rəkəti öz vaxtında qılınmış olsa, səhihdir. Amma ehtiyat-müstəhəb budur ki, onu qurtarandan sonra zöhr namazını da qılsınlar. Əgər heç bir rəkəti də cümə namazının vaxtında qılınmayıbsa batildir. Amma ehtiyat-müstəhəb budur ki, onu qılıb qurtarsınlar və sonra zöhr namazını qılsınlar.

**M:1554.** Əgər cümə namazını, bir rəkət namaz qılmaq vaxtı qalana qədər qəsdən tə'xirə salsalar, ehtiyat-vacib budur ki, zöhr namazını qılsınlar.

**M:1555.** Əgər cümə namazının iki xütbəsi və iki rəkət namazının heç olmasa vaciblərini yerinə yetirmək üçün vaxt olduğuna yəqin etsə, cümə namazı ilə zöhr namazının hər hansını qılmaqda ixtiyar sahibidir. Bu qədər vaxt olmamasına yəqini olsa, zöhr namazını qılmalıdır, amma şəkk də olsa cümə namazı səhihdir. Və əgər namazdan sonra hətta bir rəkət namaz üçün də vaxt qalmadığı mə'lum olsa zöhr namazı qılınmalıdır. Ehtiyat-müstəhəb budur ki, hətta onun bir rəkəti də öz vaxtında qılınmış olsa, zöhr namazını qılsınlar.

**M:1556.** Əgər vaxtın miqdarını bilsə, amma bu vaxt daxilində cümə namazını qıla biləcəyində şəkk etsə, cümə namazını başlaması caizdir. Sonradan vaxtın bütün namaz üçün kifayət olması mə'lum olsa səhih, əks halda zöhr

namazını qılmalıdır. Amma ehtiyat-müstəhəb budur ki, bu halda elə əvvəldən zöhr namazını seçsin.

**M:1557.** Əgər cümə namazı lazım olan sayın kamil və vaxtın geniş olduğu halda başlasa, amma bir mə’mum birinci rəkətə çatmasa, ikinci rəkətə, hətta onun rükusuna çatıb iqtida etsə, namazı səhihdir. (Bu şərtlə ki, onun ikinci rəkətinin, cümə namazının vaxtında vaqe olması üçün vaxt qaldığına yəqin etsin.) Bu halda namazın ikinci rəkətini furada şəkildə yerinə yetirməlidir. Amma, imamın ikinci rəkətinin rükusunun təkbirinə çata bilməyən bir kəs, daha yaxşı olar ki, niyyətini zöhrə döndərib zöhr namazını qılsın.

### *CÜMƏ NAMAZININ QAYDASI*

**M:1558.** Cümə namazı iki rəkətdən ibarətdir və eynilə sübh namazı kimi qılınır. Müstəhəbdir ki, Həmd-Surə uca səslə oxunsun; birinci rəkətdə Həmddən sonra “Cümə’, ikinci rəkətdə isə “Münafiqun” surəsi qiraət olunsun.

**M:1559.** Cümə namazında iki qunut vardır ki, birinci qunut birinci rəkətin rükusundan əvvəl, ikinci qunut isə ikinci rəkətin rükusundan sonra yerinə yetirilir.

**M:1560.** Cümə namazında iki xütbə vardır ki, namazın özü kimi vacibdir və imam-cümənin vasitəsilə deyilməlidir. Bu iki xütbə olmadan cümə namazı gerçəkləşmir.

**M:1561.** Vacibdir ki, bu iki xütbəni cümə namazından qabaq oxusunlar. Əgər əvvəlcə cümə namazını qılsalar batildir və vaxt qalarsa xütbələrdən sonra yenidən cümə namazını qılsınlar. Amma əgər məsələnin hökmünü bilməsə, yaxud səhv etsə xütbələri yenidən demək, hətta namazı da yenidən qılmaq lazım deyil.

**M:1562.** Cümə namazının iki xütbəsini şər’i zöhrdən qabaq oxumaq caizidir. Bu şərtlə ki, xütbələrin axırı şər’i zöhrlə eyni vaxta düşsün. Amma ehtiyat-müstəhəb budur ki, onları zöhr vaxtında oxusunlar.

**M:1563.** Birinci xütbədə ilahi həmd hesab olunan hər kəlmə ilə həmd etmək vacibdir. Amma ehtiyat-müstəhəb budur ki, Ləfzi-Cəlalə (“Allah” kəlməsi) ilə olsun. Ehtiyat-vacib budur ki, ondan sonra Allaha səna (tə’rif) etsin, sonra Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-ə salavat göndərsin. Vacibdir ki, camaatı təqvaya tövsiyə etsin və Qur’anın kiçik surələrindən birini oxusun. İkinci xütbədə də həmçinin Allaha, əvvəldə qeyd olunduğu kimi həmd-səna etmək, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-ə salavat göndərmək vacibdir. Ehtiyat-vacib budur ki, bu xütbədə də xətib camaatı təqvaya tövsiyə edib Qur’andan bir kiçik surə oxusun. Ehtiyat-müstəhəb və tə’kid olunmuş müstəhəb budur ki, ikinci xütbədə Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-ə salavat göndərəndən sonra, mə’sum İmamlarımıza (əleyhimüs-salam) da salavat göndərib mö’minlər üçün istiğfar etsin.

Daha yaxşı olar ki, Əmirəl-mö'minin Əli (əleyhis-salam)-a mənsub olan xütbələri, yaxud mə'sum İmamlar (əleyhimüs-salam)-dan gəlib çatan hədisləri seçsin.

**M:1564.** Daha yaxşı olar ki, xətib-imam bəlağətli olsun. Vəziyyətə, şəraitə mütənasib olaraq danışsın. Gözəl və fəsahətli, səlis kəlmələr işlətsin. Dünyada müsəlmanların baş verən hadisələrdən, xüsusilə öz məntəqələrinin hadisələrindən xəbərdar olsun. İslam və müsəlmanların mənafeylərini təhlil edə, seçə bilsin. O qədər şücaətli olsun ki, Allah yolunda hər hansı bir kəsin məzəmmət və tə'nəsindən özündə qorxuya yol verməsin. Haqqı izhar, batili ibtal etməkdə zaman və məkanın şəraitinə əsasən bəyanı aşkar olsun. Namazın vaxtlarına diqqət yetirmək, salehlərin, ilahi övliyaların getdiyi yolla, camaata tə'sir buraxmasına səbəb olan əməllərinə riayət etsin; onun işləri, müjdə və cəhənnəm əzabına dair dediyi sözlərlə uyğun olsun. Onun sözünün və özünün yüngüllüyünə səbəb ola bilən şeylərdən–hətta çox danışmaq, zarafat etmək, boş-boş söhbət etməkdən uzaq olsun. Bütün bu işlərə də yalnız Allahın razılığı üçün əməl etsin, niyyəti də dünyapərəstlikdən, məqampərəstlikdən uzaq olsun (bu kimi işlər bütün günahların başıdır) ki, kəlamı camata cani-dildən tə'sir etsin.

**M:1565.** Daha yaxşı olar ki, xətib-imam, cümə namazının xütbələrində müsəlmanların dini və dünyəvi mənafeylərini xatırlatsın, islami və qeyri-islami ölkələrin, onları ziyanlı və faydalı məslələrin gedişatında qoysun; müsəlmanların məad və dünyəvi ehtiyaclarını, siyasi və iqtisadi məsələlərdə müsəlmanların istiqlaliyyəti üçün mühüm rol oynayan işləri xatırlatsın. Onların sair millətlərlə səhih rabitə bərqərar etməsi yollarını bəyan etsin, camaatı, istismarçı, müstəmləkəçi dövlətlərin müsəlmanların siyasi və iqtisadi işlərində, onların müstəmləkə və istismarına aparıb çıxaracaq müdaxilələri barədə agahlıq verib müsəlmanları bu kimi işlərdən çəkindirsin.

Xülasə, cümə namazı və onun iki xütbəsi həcc və camaatın oraya yığışdığı mərkəzə, Qurban, Fitr namazları kimi böyük səngərlərə bənzəyir. Təəssüflə qeyd etmək lazımdır ki, müsəlmanların əksəriyyəti özlərinin onda olan mühüm siyasi vəzifələrindən qafil qalmışlar. Necə ki, islami siyasətin sair böyük qərargahlarından da qafildirlər. İslam siyasət dinidir, özü də siyasətin bütün sahələrində nəzəri olan dindir. Bir kəs İslamın məhkəmə, siyasət, iqtisadiyyat və ictimai məsələlərində azacıq təfəkkür etsə, qeyd olunanları səhih şəkildə anlaya bilər. Hər kəs İslamın siyasətdən ayrı olmasını güman etsə, bir cahildir ki, nə dindən xəbəri var, nə də siyasətdən başı çıxır.

**M:1566.** Müstəhəbdir ki, xətib-imam qışda və yayda əmamə qoysun, bordi-yəmani, yaxud ədən əbası geysin, özünü səliqəli saxlasın, ən təmiz paltarlarını geysin, xoş iyli ətirlərdən istifadə etsin. Vüqarlı və təmkinli olsun. Xitabədən əvvəl, müəzzinin azan dediyi vaxt minbərdə oturmuş olsun. Elə ki, azan sona çatdı, xütbəni başlasın. Xitabə minbərinə çıxıb camaatla üzbəüz dayansın,

onlara salam versin, camaat da öz üzlərini ona çevirsinlər. Xətib kaman, qılınc (silah) və əsa kimi şeylərə söykənsin. Camaat da onunla üzbəüz olsunlar.

**M:1567.** Vacibdir ki, imam-cümə xütbələri şəxsən özü və ayaq üstə oxusun. Əgər xütbələri ayaq üstə oxuya bilməsə, başqası xütbələri oxumalı və namaz qılmağı da öz öhdəsinə almalıdır. Əgər xütbəni ayaq üstə deyə bilən bir kəs tapılmasa, cümə namazı saqit, zöhr namazı vacib olur.

**M:1568.** Caiz deyil ki, imam cümə xütbələri, xüsusilə möv'izə və təqvaya tövsiyəni astadan desin. Ehtiyat-vacib budur ki, xütbələri uca səsələ desin. Belə ki, cümə namazının bərqərar olması üçün lazım olan say (4 nəfər) onun səsini eşidə bilsin. Hətta ehtiyat-müstəhəb budur ki, möv'izə və təqvaya sifariş edən vaxt öz səsini o qədər ucaltsın ki, iştirak edənlərin hamısı onun möv'izələrini eşitsinlər. Böyük toplantılarda da mikrofon ilə xütbəyə başlasın ki, yaxşı işlərə təşviq, pis işlərdən çəkindirmək və s. kimi mühüm məsələləri hamıya çatdıra bilsin.

**M:1569.** Ehtiyat-müstəhəb budur ki, imam, xütbə deyən halda xütbəyə aidiyyəti olmayan sözlər danışmasın. Əlbəttə xütbələrlə namaz arasındakı fasilədə başqa söz danışmağın eybi yoxdur.

**M:1570.** Vacibdir ki, imam birinci xütbədən sonra azacıq otursun, sonra qalxıb ikinci xütbəyə başlasın.

**M:1571.** Ehtiyat-müstəhəb budur ki, imam və dinləyicilər xütbə halında (namazda şərt olan) kamil təharətlə olsunlar.

**M:1572.** Ehtiyat-müstəhəb budur ki, mə'mumlar xütbə halında imamla üzbəüz olub, namazda icazə verilən qədərdən artıq o yana-bu yana dönməsinlər.

**M:1573.** Vacibdir ki, mə'mumlar imamın xütbələrinə qulaq assınlar. Ehtiyat-müstəhəb budur ki, sakit olsunlar və bir-biri ilə danışmasınlar ki, xütbə vaxtında söhbət etmək məkruhdur. Hətta əgər onların danışmaqları xütbənin eşidilməməsinə, onun faydasının aradan getməsinə səbəb olsa, sükut etmələri lazımdır.

**M:1574.** Ehtiyat-vacib budur ki, imam cümə xütbədə Allaha həmd-səna, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) və İmamlarımız (əleyhimüs-salam)-a salavatı–hətta o və onu dinləyənlər ərəb olmasa da belə–ərəb dilində desin. Amma möv'izə və təqvaya sifariş məqamında başqa dildə danışa bilər. Ehtiyat-müstəhəb budur ki, möv'izə və müsəlmanların mənafeyinə aid olan şeylər dinləyicilərin dilində deyilsin. Əgər dinləyicilərin dilləri müxtəlif olsa, onları müxtəlif dillərdə təkrar etsin. Hətta mə'mumlar həddi-nisabdan (4 nəfər) çox olsalar da, elə nisab həddindəki dillərdə (4 dildə) deməklə kifayətlənə bilər. Amma ehtiyat-müstəhəbə görə gərək onlara, öz dillərində möv'izə etsin.

**M:1575.** Cümə günündə ikinci azan bid'ət və haramdır.

## *CÜMƏ NAMAZININ HÖKMLƏRİ*

**M:1576.** Cümə namazını hər hansı bir imama iqtida edən kəs, əsr namazını da həmin imama iqtida edə bilər. Amma əgər ehtiyatən zöhr namazını da qılmaq istəsə, gərək camaat namazı qurtarandan sonra yenidən zöhr və əsr namazlarını furada şəkildə yerinə yetirsin. Amma əgər imam da cümə namazından sonra zöhrü ehtiyatən qılmış olsa, mə'mum da həmin qaydada əməl etmiş olsa, əsr namazını təkrarlaması lazım deyildir.

**M:1577.** Əgər imam və mə'mum cümə namazından sonra zöhrü ehtiyatən qılmaq istəsələr, onu camaat namazı şəklində qıla bilərlər. Amma cümə namazında iştirak etməyən bir mə'mum, bu ehtiyat namazına iqtida edib zöhrü qılsa, bu namaz onun üçün (zöhrün əvəzindən) müczi (kifayət) deyil; onu yenidən qılmalıdır.

**M:1578.** İmam-cümənin birinci rəkətinin rükusuna çatan bir mə'mum, camaatın çox olması, yaxud başqa səbəblərə görə səcdələri imamla birlikdə yerinə yetirə bilməyibsə, bu halda mümkün olarsa (imam ikinci rəkətin qiyamına qalxandan sonra) səcdələri özü yerinə yetirib rükudan əvvəl və ya rüku halında imama çatsa, namazı səhihdir. Əks halda öz halında (oturan halda) qalmalıdır ki, imam ikinci rəkətin səcdələrinə çatsın və bu vaxt iki səcdəni öz namazının birinci rəkətinin səcdələri niyyəti ilə imamla birlikdə yerinə yetirməli, sonra ikinci rəkəti furada qılmalıdır, namazı da səhihdir. Amma əgər onları ikinci rəkətin səcdələri, yaxud imama tabe olmaq niyyəti ilə yerinə yetirsə, ehtiyat-vacib budur ki, o iki səcdəni nəzərə almayıb başqa iki səcdə də (birinci rəkətin səcdələri niyyəti ilə) yerinə yetirsin, sonra ikinci rəkətə başlayıb namazı qurtarsın. Sonra isə zöhr namazını qılsın.

**M:1579.** Əgər mə'mum namaza müttəsil olmaq niyyəti ilə ikinci rəkətin rükusunda təkbir deyib rükuya getsə, amma imamın rükusuna çatıb-çatmamasında şəkk etsə, onun cümə namazı gerçəkləşmir. Ehtiyat-vacib budur ki, o namazı zöhr niyyəti ilə sona çatdırıb sonra zöhr namazını yenidən qılsın.

**M:1580.** Əgər mə'mumlar imamın xütbələri qurtarandan və namaza başlayandan sonra ona iqtida etməyib tək qoysalar, cümə namazı bərqərar olmur və batildir. İmam da o namazı pozub zöhr namazını başlaya bilər. Amma ehtiyat-müstəhəb budur ki, öz niyyətini zöhrə döndərib qurtarandan sonra bir daha zöhrü yenidən qılsın. Daha artıq ehtiyat budur ki, namazı elə cümə namazı niyyəti ilə qurtarıb sonra zöhrü qılsın.

**M:1581.** Əgər cümə namazı kamil sayla (yə'ni imamla birlikdə beş nəfər) bərqərar olub sonra, hətta təkbirini də dedikdən sonra dağılışsalar, namaz batil olur–istər mə'mumların hamısı, istərsə də bə'ziləri dağılışıb imam tək qalsın, istərsə də əksinə; istər bir rəkətini tamam qılmış olsunlar, istərsə də ondan az. Amma ehtiyat- müstəhəb budur ki, qalanlar cümə namazının qalanını qurtarıb

sonra isə zöhrü qılsınlar. Amma onlardan bə’ziləri ikinci rəkətin axırlarında, hətta ikinci rəkətin rükusundan sonra dağılışsalar, cümə namazı səhihdir. Ehtiyat-müstəhəb budur ki, ondan sonra zöhrü də qılsınlar.

**M:1582.** Əgər mə’mumların sayı lazım olan qədərdən (4 nəfər) çox olsa, onların bə’zilərinin dağılışmasının ümumiyyətlə zərəri yoxdur, bu şərtlə ki, yerdə qalanlar dörd nəfərdən az olmasın.

**M:1583.** Əgər beş nəfər (yaxud daha artıq) cümə namazı üçün hazırlaşsalar, amma xütbə əsnasında, yaxud xütbədən sonra və iqamədən əvvəl dağılışıb qayıtmasalar və beş nəfərdən az adam qalsa, vəzifələri zöhr namazını qılmaqdır.

**M:1584.** Əgər xütbədə vacib qədər adlana bilən (yə’ni xütbə adlandırıla bilən) ən az vacibat yerinə yetirilməzdən qabaq mə’mumlardan bir qədəri dağılışıb dörd nəfərdən az qalsa və qısa müddətdən sonra qayıtsalar (belə ki, beş nəfər kamil olsa), bu halda əgər imam bu fasilədə sükut etmiş olsa, onlar qayıdandan sonra xütbəni, saxladığı yerdən davam etdirməlidir. Amma əgər (mə’mumların lazımi həddən az olması ilə belə) xütbəni davam etdirsə və bu iş camaat arasında xütbələrin vəhdətinə yetirilən xələl kimi hesab olunsa, gərək imam xütbəni yenidən oxusun. Hətta yeni mə’mumların gəlişi ilə lazım olan say (beş nəfər) kamil olsa belə, xütbəni yenidən demək zəruridir.

**M:1585.** Əgər mə’mumlar xütbədən sonra və ya xütbə əsnasında dağılışsalar (və beş nəfərdən az qalsa) və sonra yenidən qayıdıb lazım olan sayı təkmil etsələr, bu halda xütbə adı gerçəkləşsə, onların dağılışdığı vaxtın uzun olmasına baxmayaraq, onu yenidən demək vacib deyil. Amma xütbə adlana bilən qədər gerçəkləşməmiş olsa, bu halda dağılışmalarının səbəbi mə’mumların cümə namazı qılmaq fikrindən dönmələri olsa, ehtiyat-vacib budur ki, onlar qayıdandan sonra imam xütbələri yenidən başlasın (hətta dağılışdıqları vaxt az olsa da belə); yox əgər onların dağılışması səbəbi yağış və s. kimi işlər olsa, bu halda onun vaxtı çox uzun olsa və camaat arasında xütbələrin vəhdətinə xələl sayılsa, vacibdir ki, xütbələri yenidən oxusun; əks halda (xələl sayılmazsa), əvvəlki xütbəni davam etdirməlidir və səhihdir.

**M:1586.** Əgər bir yerdə cümə namazı bərqərar olsa, ondan bir fərsəxdən az məsafədə başqa bir cümə namazı bərqərar ola bilməz. Deməli, aralarındakı məsafə bir fərsəx olan iki yerdə cümə namazı bərqərar olsa, hər ikisi səhihdir. Qeyd etmək lazımdır ki, cümə namazının qılınmasında əsas me’yar onun qılındığı şəhər deyil, cümə namazı qılınan məkandır. Deməli, uzunluğu bir neçə fərsəx olan şəhərdə bir neçə cümə namazı təşkil etmək olar.

**M:1587.** Ehtiyat-müstəhəb budur ki, cümə namazının təşkil olunmasından qabaq müəyyən olunmuş məsafədən az olan yerdə onlardan qabaq, yaxud onlarla eyni zamanda başqa bir cümə namazı təşkil olunmadığına, yaxud olunmayacağına yəqin etsinlər.

**M:1588.** Əgər eyni zamanda və müəyyən olunmuş məsafədən (bir fərsəxdən) az olan yerdə iki cümə namazı təşkil olunsa, hər ikisi batildir. Amma əgər onlardan biri öncə başlamış olsa, hətta təkcə təkbirətül-ehramı da demiş olsalar, ikincisi batildir–istər namaz qılanlar, onlardan qabaq bir fərsəxdən az məsafədə başqa cümə namazının başladığını, yaxud başlayacağını bilsinlər, istərsə də bilməsinlər. Bu halda onun səhih olması me'yarı xütbələrə deyil, namaza əvvəlcə başlamaqdır. Deməli əgər iki cümə namazından birinin xütbəsi, digərinin isə namazı əvvəlcə başlasa, ikinci namaz səhih, birinci batildir.

**M:1589.** Əgər lazım olan məsafədən az yerdə cümə namazı təşkil olunmasına yəqin etsələr, amma o namazın əvvəlcə, yaxud bu namazla eyni zamanda olub-olmamasında şəkk etsələr, hər iki halda özləri cümə namazı təşkil edə bilərlər. Həmçinin başqa yerdə ümumiyyətlə cümə namazının təşkil olunub-olunmaması barədə xatircəm olmasalar da eyni qayda ilə.

**M:1590.** Əgər cümə namazı sona çatandan sonra başqa bir cümə namazının müəyyən olunmuş məsafədən az olan yerdə təşkil olduğunu bilsələr və o namazlarda olanların hər birinin digərindən əvvəl başladığını ehtimal versələr, heç biri cümə namazını yenidən qılmamalıdır, zöhr də vacib deyil. Baxmayaraq ki, yenidən qılmağın vacibliyini hökm etmək ehtiyatla müvafiqdir. Amma əgər üçüncü bir qrup həmin ətraflarda cümə namazı qılmaq istəsə, o iki cümə namazının batil olmasına yəqinlikləri olmalıdır. Birinin səhih olmasına ehtimal versələr, başqa cümə namazı qıla bilməzlər.

**M:1591.** Həzrət Vəliyyi-Əsr (əleyhis-salam)-ın qeybdə olduğu zamanda cümə namazı tə'yini vacib deyildir. (Və bu halda cümə namazının əzanından sonra al-ver və s. əməllər haram deyildir.)

## *FİTR VƏ QURBAN NAMAZLARI*

**M:1592.** Fitr və Qurban bayramı namazları İmamın (ə) hazır olduğu (qeybdə olmadığı) vaxt vacibdir və camaatla qılınmalıdır. İmamın (ə) qaib olduğu bizim zəmanəmizdə isə müstəhəbdir. Onu camaatla da, furada da qılmaq olar.

**M:1593.** Fitr və Qurban bayramı namazlarının vaxtı gün çıxan vaxtdan zöhrə qədərdir.

**M:1594.** Müstəhəbdir ki, Qurban bayramı namazını günəş qalxandan sonra qılsınlar; Fitr bayramında isə, müstəhəbdir ki, gün qalxandan sonra iftar edib fitrə zəkatı verəndən sonra bayram namazı qılsınlar.

**M:1595.** Fitr və Qurban bayramı namazları iki rəkətdir. Birinci rəkətdə Həmd-Surədən sonra beş təkbir deyilməli, hər təkbirdən sonra bir qunut tutulmalıdır. Beşinci qunutdan sonra isə bir təkbir deyib rüku və iki səcdəni yerinə yetirib ayağa qalxmalı, ikinci rəkətdə isə (Həmd-Surədən sonra) dörd təkbir deyilməli, hər təkbirdən sonra qunut tutub beşinci təkbirdən sonra rüku, səcdəni yerinə yetirib namazı qurtarmaq lazımdır.

**M:1596.** Fitr və Qurban bayramı namazlarının qunutunda hər dua oxunsa, kifayətdir. Amma daha yaxşı olar ki, aşağıdakı dua oxunsun:

اَللَّهُمَّ اَهلَ الكِبرِياءِ وَالعَظَمَةِ وَاَهلَ الجُودِ وَالجَبَرُوتِ وَاَهلَ العَفوِ وَالرَحمَةِ وَاَهلَ التَّقوى
وَالمَغفِرَةِ اَسأَلُكَ بَحَقِّ هذَا اليَومِ الَذىِ جَعَلتَهُ لِلمُسلِمِينَ عِيداً وَلِمُحَمَّدٍ صَلىَّ اللهُ عَلَيهِ وَآلِهِ
ذُخراً وَشَرَفًا وَكَرَامَةً وَمَزِيداً اَن تُصَلِّىَ عَلَى مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ وَاَن تُدخِلَنىِ فِى كُلِّ خَيرٍ
اَدخَلتَ فِيهِ مُحَمَّداً وَآلَ مُحَمَّدٍ وَاَن تُخرِجَنِى مِن كُلِّ سُوءٍ اَخرَجتَ مِنهُ مُحَمَّداً وَآلَ مُحَمَّدٍ
صَلَواَتُكَ عَلَيهِ وَ عَلَيهِم اللَّهُمَّ اِنِّى اَسأَلُكَ خَيرَ مَا سَاَلَكَ بِهِ عِبَاَدُكَ الصَّالِحُونَ وَاَعُوذُبِكَ مِمَّا
استَعَاذَ مِنهُ عِبَادُكَ المُخلَصُونَ

**M:1597**. Müstəhəbdir ki, Fitr və Qurban bayramı namazlarında qiraət ucadan olsun.

**M:1598.** Bayram namazının məxsus surəsi yoxdur, amma daha yaxşı olar ki, birinci rəkətdə "Şəms", ikinci rəkətdə isə "Ğaşiyə' Surəsi oxunsun. Yaxud birinci rəkətdə "Səbbihismə', ikinci rəkətdə isə "Şəms" Surəsi oxunsun.

**M:1599.** Müstəhəbdir ki, Fitir bayramı günüdə bayram namazından qabaq xurma ilə iftar etsinlər, Qurban bayramında isə namazdan sonra qurbanlıq ətindən yesinlər.

**M:1600.** Müstəhəbdir ki, şəxs bayram namazından qabaq qusul alıb piyada, ayaqyalın, vüqarla bayram namazına getsin. Başına ağ əmmamə qoysun.

**M:1601.** Müstəhəbdir ki, bayram namazında yerə səcdə etsinlər. Təkbirləri deyəndə əlləri yuxarı qaldırıb namazı ucadan qılsınlar.

**M:1602.** Müstəhəbdir ki, bayram namazı səhrada qılınsın. Məkkədə isə müstəhəbdir ki, Məscidül-Həramda qılınsın.

**M:1603.** Fitr bayramı gecəsinin məğrib və işa namazından sonra, habelə bayram günü sübh, zöhr və əsr namazlarından sonra, həmçinin Fitr namazından müstəhəbdir ki, bu təkbirlər deyilsin:

اَللهُ اَكبَرُ اَللهُ اَكبَرُ لاَ اِلَهَ الاَّ اللهُ وَاللهُ اَكبَر اَللهُ اَكبرُ وَلِلّهِ الحَمدُ اللهُ اكبَرُ عَلَى مَا هَدَاَنَا

**M:1604.** Müstəhəbdir ki, insan Qurban bayramında əvvəli bayram gününün (zilhəccə ayının onu) zöhr, axırı isə ayın 12-ci gününün sübh namazı olan on namazdan sonra, əvvəlki məsələdə deyilən təkbirləri deyib sonra isə bunları desin:

اَللهُ اَكبَرُ عَلَى ماَ رَزَقَنَا مِن بَهِيمَةِ الاَنعَامِ وَالحَمدُ للهِ عَلَى مَااَبلاَنَا

Amma əgər bir kəs Qurban bayramında Minada olsa, müstəhəbdir ki, bu təkbirləri, əvvəli Qurban bayramının zöhrü, axırı isə zilhəccənin on üçünün sübh namazı olan 15 namazdan sonra desin.

**M:1605.** Bayram namazını tavanı olan yerdə qılmaq məkruhdur.

**M:1606.** Əgər bayram namazının təkbir və qunutlarında şəkk olunsa, bu halda şəkkin yeri keçmiş olsa, e'tina olunmamalıdır. Amma əgər təkbirin

məhəlli keçməyibsə, niyyəti az tərəfə qoymaq lazımdır. Sonradan demiş olduğu mə'lum olarsa, eybi yoxdur.

**M:1607.** Əgər qiraəti, yaxud təkbirləri və ya qunutları unudub yerinə yetirməsə və rükuya gedəndən sonra yadına düşsə, namazı səhihdir.

**M:1608.** Əgər rükunu, iki səcdəni və ya təkbirətül-ehramı unutsa, namazı batildir.

**M:1609.** Əgər bayram namazında bir səcdəni, yaxud təşəhhüdü unutsa, ehtiyat-müstəhəbbə görə namazdan sonra rəca niyyəti ilə yerinə yetirsin. Əgər gündəlik namazlarda səcdeyi-səhvə səbəb olan işlərdən birini görsə, ehtiyat-müstəhəb budur ki, namazdan sonra rəca niyyəti ilə bir cüt səcdeyi-səhv yerinə yetirsin.

## *NAMAZ ÜÇÜN ƏCİR TUTULMASI*

**M:1610.** İnsanın sağlığında yerinə yetirmədiyi ibadətlərin qəzasını öləndən sonra etmək üçün bir nəfəri əcir edə bilərlər, yə'ni həmin ibadətləri yerinə yetirmək üçün ona muzd verə bilərlər. Əgər bir kəs muzd almadan yerinə yetirsə, səhihdir.

**M:1611.** İnsan bə'zi müstəhəb işlər üçün (Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) və İmamların (ə) qəbrini ziyarət etmək kimi) diri şəxsin tərəfindən əcir oluna bilər. Həmçinin, hər hansı müstəhəb işi görüb savabını ölən adamları, yaxud diri adamları üçün hədiyyə edə bilər.

**M:1612.** Meyyitin qəza namazları üçün əcir olan şəxs ya müctehid olmalıdır, ya da namazı təqlid üzündən səhih tərzdə qıla bilməlidir, yaxud da ehtiyata əməl etməlidir.

**M:1613.** Əcir tutulan şəxs niyyət etdiyi vaxt, onu müəyyənləşdirməlidir. Onun meyyitin adını bilməsi lazım (ilzami) deyil. Əgər "məni əcir edən şəxs tərəfindən namaz qılıram" deyə niyyət etsə, kifayətdir.

**M:1614.** Əcir tutulan şəxs özünü meyyitin yerinə fərz etməli, ibadətlərinin qəzasını onun əvəzindən (niyabətən) yerinə yetirməlidir. Əgər müəyyən bir əməli yerinə yetirib savabını meyyitə hədiyyə etsə kifayət deyildir.

**M:1615.** Elə bir kəsi əcir tutmalıdırlar ki, namazı səhih tərzdə oxumasına xatircəm olsunlar. Amma o, namazı qılandan sonra səhih qılıb-qılmamasında şəkk etsə, eybi yoxdur.

**M:1616.** Meyyitin namazları üçün başqasını əcir tutan bir şəxs, onun müəyyən bir əməli yerinə yetirmədiyini, yaxud batil yerinə yetirdiyini bilsə, yenidən əcir tutmalıdır.

**M:1617.** Əcir tutduğu şəxsin hər hansı əməli yerinə yetirib-yetirməməsində şəkk etsə, hətta "yerinə yetirmişəm" desə o əməllər üçün yenidən əcir tutulmalıdır. Amma yerinə yetirdiyi əməlin səhih olub-olmamasında şəkk etsə, yenidən əcir tutmaq lazım deyil.

**M:1618.** Müəyyən üzrü olan (məsələn, təyəmmümlə, yaxud oturan yerdə namaz qılan) şəxsi, hətta meyyitdən də elə həmin tərzdə qəza olmuşsa da, meyyitin namazları üçün əcir tutmaq olmaz.

**M:1619.** Qadın kişi üçün, kişi də qadın üçün əcir ola bilər. Namazı ucadan, yaxud astadan qılmaqda isə öz vəzifəsinə əməl etməlidir.

**M:1620.** Əgər meyyitin qəza namazlarının tərtibi mə'lum olsa, tərtiblə qılınmalıdır. Əks halda isə tərtibə riayət etmək lazım (ilzami) deyil. Amma bir günün zöhr və əsr, yaxud məğrib və işa namazlarında tərtibə riayət etmək lazımdır.

**M:1621.** Əgər əcir tutulan şəxs ilə müstəhəb əməllərin nə qədər yerinə yetirəcəyi barədə şərt etməsələr, onun müstəhəbbatını adi qaydada olduğu qədər yerinə yetirməlidir.

**M:1622.** Əgər insan bir neçə nəfəri meyyitin qəza namazını qılmaq üçün əcir tutsa onların hər biri üçün müəyyən vaxt ayırmalıdır. Məsələn, əgər onlardan biri ilə sübhdən zöhrə qədər qəza namazını qılmağı qərara alsalar, digəri ilə zöhrdən axşama qədər qılmasını qərarlaşmalıdırlar. Həmçinin hər dəfə başladığı namazı müəyyən etməlidir. Məsələn, qərara almalıdırlar ki, birinci qılacağı namaz sübh, yaxud zöhr və ya əsr namazı olsun. Habelə onlarla qərarlaşmalıdırlar ki, hər dəfə bir günlük namazı tamam etsin. Əgər yarımçıq saxlasa, onu hesaba almasın və sonrakı dəfə bir gecə-gündüzün namazını yenidən qılsın.

**M:1623.** Əgər bir kəs, meyyitin bir ildəki namazlarını qılmaq üçün əcir olunsa və il tamam olmamışdan əvvəl ölsə ehtiyat-vacib budur ki, yerinə yetirmədiyini bildikləri, yaxud ehtimal verdikləri namazlar üçün başqa bir şəxsi əcir tutsunlar.

**M:1624.** Meyyitin namazları üçün əcir tutulan kəs, onun namazlarını qurtarmamışdan qabaq ölsə və muzdun hamısını almış olsa, bu halda namazların hamısını onun özünün qılmasını şərt etmiş olsalar, qılmadığı namazların muzdunu onun malından alıb meyyitin qəyyumuna verməlidirlər. Məsələn, əgər onların yarısını qılmış olsa, aldığı pulun yarısını onun malından alıb meyyitin qəyyumuna verməlidirlər. Amma bunu şərt etməmiş olsalar, vərəsələri onun malından əcir tutmalıdırlar. Əgər malı olmasa, vərəsələrinə heç nə vacib deyil. Amma daha yaxşı olar ki, meyyitin borcunu versinlər.

**M:1625.** Əgər əcir tutulan şəxs meyyitin namazlarını qılıb qurtarmamışdan qabaq ölsə və özünün də qəza namazı olsa, onda əcir tutulduğu namazlar üçün onun malından başqasını əcir etməlidirlər. Əgər artıq qalsa, bu halda onun bütün namazları üçün əcir tutulmasını vəsiyyət etmiş olsa və vərəsələri də icazə versələr, bütün namazları üçün əcir tutulmalıdır; yox əgər icazə verməsələr, malının üçdə birindən namazlarına sərf etməlidirlər.

## ORUCUN HÖKMLƏRİ

**M:1626.** Oruc o əməldir ki, insan Allah-Taalanın fərmanını yerinə yetirmək üçün sübh azanından məğribə qədər orucu batil edən şeylərdən (onların şərhi sonradan gələcək) pəhriz etsin.

### *NİYYƏT*

**M:1627.** İnsanın oruc niyyətini qəlbindən keçirtməsi, yaxud "sabah oruc tuturam" deməsi vacib deyil. Hətta əgər Allahın əmrini yerinə yetirmək üçün sübh azanından məğribə qədər orucu batil edən işləri görməsə kifayətdir. Bu müddətin hamısında oruc olduğunu yəqin etmək üçün bir az sübh azanından qabaq, həmçinin bir az məğribdən sonra orucu batil edən işlərdən çəkinməlidir.

**M:1628.** Vaxtı müəyyən olan vacib orucda (Ramazan ayının orucu kimi) gecənin əvvəlindən sübh azanına qədər hər vaxt sabahkı günün orucunun niyyətini etsə eybi yoxdur. Əgər Ramazan ayı, yaxud vaxtı müəyyən olan başqa vacibi orucda bilməsə, yaxud unutsa və zöhrdən qabaq yadına düşsə, bu halda orucu batil edən işlərdən görməyibsə, niyyət etməlidir, orucu da səhihdir; yox əgər orucu batil edən işlərdən görmüş olsa, yaxud zöhrdən sonra yadına düşsə, orucu batildir, lakin məğribə qədər orucu batil edən işləri görməməli, sonradan isə həmin orucun qəzasını tutmalıdır.

Müstəhəb orucun vaxtı isə gecənin əvvəlindən məğribə, niyyət etmək üçün vaxt qalana qədərdir ki, əgər bu vaxta qədər orucu batil edən işlərdən görməsə və müstəhəb oruc niyyəti etsə, orucu səhihdir.

**M:1629.** Sübh azanından qabaq oruc niyyəti etmədən yatan bir şəxs zöhrdən qabaq oyanıb niyyət etsə–istər vacib olsun istərsə də müstəhəb–orucu səhihdir. Amma əgər zöhrdən sonra oyansa vacibi oruc niyyəti edə bilməz.

**M:1630.** Əgər Ramazan ayından başqa bir orucu tutmaq istəsə gərək onu müəyyənləşdirsin. Məsələn, "qəza orucu, yaxud nəzir orucu tuturam", deyə niyyət etsin. Amma Ramazan ayınında "bu ayın orucunu tuturam", deyə niyyət etməsi vacib deyil. Hətta əgər Ramazan ayı olduğunu bilməsə və ya unudub başqa bir oruc niyyəti etsə də onun orucu Ramazan ayının orucu hesab olunur.

**M:1631.** Əgər bir kəs Ramazan ayı olduğunu bilsə və qəsdən Ramazan ayından başqa orucu niyyət etsə, onun orucu nə Ramazan ayının orucu hesab olunur, nə də niyyət etdiyi oruc.

**M:1632.** Əgər sübh azanından qabaq niyyət edib məst olsa və günün əsnasında huşa gəlsə, ehtiyat-vacibə görə o günün orucunu axıra çatdırıb sonradan qəzasını da yerinə yetirməlidir.

**M:1633.** Əgər sübh azanından qabaq niyyət edib huşdan getsə və gün əsnasında huşa gəlsə, ehtiyat-vacibə görə o günün orucunu tamamlamalıdır. Əgər tamamlamasa, gərək qəzasını yerinə yetirsin.

**M:1634.** Əgər sübh azanından qabaq niyyət edib yatsa və məğribdən sonra oyansa orucu səhihdir.

**M:1635.** Əgər məsələn, Ramazan ayının birinci gününün niyyəti ilə oruc tutub sonradan ikinci, yaxud üçüncü gün olduğunu başa düşsə orucu səhihdir.

**M:1636.** Əgər Ramazan ayı olduğunu bilməsə, yaxud unutsa və günortadan qabaq başa düşsə, bu halda orucu batil edən işlərdən görməyibsə, niyyət etməlidir, orucu da səhihdir; yox əgər orucu batil edən işlərdən görmüş olsa, yaxud zöhrdən sonra Ramazan ayı olduğunu başa düşsə, orucu batildir, lakin məğribə qədər orucu batil edən işləri görməməli, Ramazan ayından sonra isə qəzasını tutmalıdır.

**M:1637.** Uşaq Ramazan ayının sübh azanından qabaq həddi-büluğa çatsa oruc tutmalıdır. Amma əgər sübh azanından sonra həddi-büluğa çatsa, o günün orucu ona vacib deyil.

**M:1638.** Meyyitin orucunun qəzasını tutmaq üçün əcir tutulan bir şəxs əgər müstəhəb oruc tutsa eybi yoxdur. Amma qəza orucu olan bir şəxs müstəhəb oruc tuta bilməz. Başqa vacibi orucun qəzası olsa, ehtiyat-vacibə görə müstəhəb oruc tuta bilməz. Əgər unutsa və müstəhəb oruc tutsa, bu halda zöhrdən qabaq yadına düşsə müstəhəb orucu pozulur və öz niyyətini vacibi oruc niyyətinə döndərə bilər; yox əgər zöhrdən sonra başa düşsə orucu batil, məğribdən sonra yadına düşsə səhihdir.

**M:1639.** Əgər kafir Ramazan ayında zöhrdən qabaq müsəlman olsa və sübh azanından həmin vaxta qədər orucu batil edən işlərdən görməmiş olsa, ehtiyat-vacibə görə gərək niyyət edib oruc tutsun; əgər tutmasa, qəzasını etsin.

**M:1640.** Əgər xəstə Ramazan ayı günortadan qabaq sağalsa və sübh azanından o vaxta qədər orucu batil edən işlərdən görməmiş olsa oruc niyyəti edib o günü oruc tutmalıdır. Amma zöhrdən sonra sağalsa, o günün orucu ona vacib deyil.

**M:1641.** İnsan Ramazan ayının hər gecəsində onun sabahının orucu üçün niyyət edə bilər. Daha yaxşı olar ki, ayın ilk gecəsi də bütün ayın orucunu niyyət etsin.

**M:1642.** İnsan Şə'banın axırı, yaxud Ramazanın əvvəli olmasında şəkk etsə, oruc tutması vacib deyil. Amma oruc tutmaq istəsə, Ramazan ayının orucunun niyyətini edə bilməz. Qəza və s. kimi orucların niyyətini etsə və sonradan Ramazan ayı olduğu mə'lum olsa Ramazan ayının orucundan hesab olunur.

**M:1643.** Şə'banın axırı, yaxud Ramazanın əvvəli olmasında şəkk etdiyi halda qəza, müstəhəb və bu sair kimi oruc tutub günün əsnasında–hətta zöhrdən sonra

Ramazan olduğunu başa düşsə, onun orucunu niyyət etməlidir. Amma Ramazan ayı niyyəti ilə oruc tutsa, hətta əgər həqiqətdə Ramazanda vaqe olsa da batildir.

**M:1644.** Əgər bir kəs vaxtı müəyyən olan vacibi orucda (məsələn, Ramazan ayının orucunda) oruc tutmaq niyyətindən dönsə orucu batildir. Amma orucu batil edən işlərdən görməyi niyyət edib görməsə orucu səhihdir.

Həmçinin müstəhəb və vaxtı müəyyən olmayan vacibi orucda zöhrdən əvvəl yenidən oruc niyyəti etsə orucu səhihdir.

### *ORUCU BATİL EDƏN ŞEYLƏR*

**M:1645.** On şey orucu batil edir: **1-**Yemək; **2-**İçmək; **3-**Cima; **4-**İstimna (istimna–məninin xaric olmasına səbəb olan müəyyən bir iş görmək); **5-**Allah, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) və onun canişinlərinin (əleyhimüs-salam) adından yalan demək; **6-**Qəliz tozu boğaza çatdırmaq; **7-**Başın hər yerini suya batırmaq; **8-**Sübh azanına qədər cənabət, heyz və nifas halında qalmaq; **9-**Axıcı (maye) şeylərlə imalə etmək; **10-**Qusmaq. (Bunların hər birinin hökmü sonrakı məsələlərdə gələcək.)

### *1-2–YEMƏK VƏ İÇMƏK*

**M:1646.** Əgər oruc tutan şəxs qəsdən bir şey yesə və ya içsə orucu batil olur– istər o şeyin yeyilib-içilməsi adət olsun (çörək və su kimi), istərsə də adət olmasın (torpaq, ağacın şirəsi kimi); istər az olsun, istərsə də çox, hətta əgər sapı ağzının suyu ilə isladıb yenidən ağzına qoyaraq rütubətini udsa orucu batil olur. Həmçinin diş fırçasının rütubəti də bu qayda ilə. Amma əgər onların rütubəti ağzının suyunda aradan getsə və ona xarici rütubət deyilməsə (batil etmir). Həmçinin, dişlərin dibindən çıxan yemək qalıqlarını udmaq orucu batil edir.

**M:1647.** Əgər oruc tutan şəxs səhvən bir şey yesə və ya içsə orucu batil olmaz.

**M:1648.** Oruc tutan şəxs qida maddələri əvəzindən iynə vurdurmaqdan çəkinməlidir. Amma bədən üzvlərini keyləşdirən, yaxud dəva-dərman yerinə istifadə olunan ampullardan istifadə etməyin maneəsi yoxdur.

**M:1649.** Əgər bir kəs yemək əsnasında sübhün açıldığını başa düşsə ağzındakı tikələri çıxarmalıdır. Əgər qəsdən udsa orucu batildir və sonrakı deyləcək göstərişlərə əsasən kəffarə də vacibdir.

**M:1650.** Əgər oruc tutan şəxs həddindən artıq susuz olsa və susuzluqdan ölüm təhlükəsi gözlənilsə, ölümdən nicat tapacaq qədər su içə bilər, lakin orucu batil olur. Əgər bu iş Ramazan ayında baş versə, günün qalan hissəsində orucu batil edən işlərdən çəkinməlidir.

**M:1651.** Oruc tutmaq istəyən bir kəsin azandan qabaq dişlərini yuması, hətta dişlərin dibində qalan yemək qalıqlarının gündüz boğazına gedəcəyinə ehtimal versə də vacib deyil. Amma əgər dişinin dibində qalan qida qalıqlarının

boğazına gedəcəyini bilsə, bu halda dişlərini təmizləməsə, orucu batil olar: İstər o şey boğazına getsin, istərsə də getməsin.

**M:1652.** Ağız suyunu udmaq–hətta əgər turşluq və s.-ni xəyala gətirməklə də ağıza yığılsa, orucu batil etmir.

**M:1653.** Başdan, sinədən gələn suyu (bəlğəm və burun suyunu), qədər ki, ağızın fəzasına çatmayıb udmağın eybi yoxdur. Amma ağızın fəzasına daxil olsa, ehtiyat-vacibə görə gərək onu udmasın.

**M:1654.** Quş və ya uşaq üçün yeməyi çeynəmək, yeməyin dadına baxmaq və adətən boğaza çatmayan bu kimi işlərdə təsadüfən boğaza çatsa, oruc batil olmur. Amma əgər insan əvvəldən onun, boğaza çatacağını bilsə, bu halda boğazına getsə orucu batil olur. Onun qəzasını tutmalıdır, kəffarə də verməlidir.

**M:1655.** İnsan zəifliyə görə orucunu yeyə bilməz. Amma onun zəifliyi həddindən artıq olsa və adətən dözə bilməsə orucu yeməsinin eybi yoxdur.

### *3-CİMA*

**M:1656.** Cima–istər qabaqdan olsun, istərsə də arxadan; istər kiçik olsun, istərsə də böyük–cima edənin və olunanın hər ikisinin orucunu batil edir. Hərçənd dəllək kəsən yerə qədər daxil olsa da və məni gəlməsə də belə. Amma dəllək kəsən yerdən az daxil olsa və məni gəlməsə oruc batil olmur. Aləti kəsik olan bir kəs dəllək kəsilən yerə qədər daxil etsə və “daxil etmişdir” deyilsə, orucu batildir.

**M:1657.** Əgər bir kəs oruc olduğunu unudub cima etsə, yaxud yuxuda cima etsə, və ya onu cimaya məcbur etsələr, orucu batil olmaz. Amma cima əsnasında yadına düşsə (birinci halda), yaxud daha bu işə məcbur olmasa, dərhal cima halından çıxmalıdır. Əgər çıxmasa, orucu batildir.

**M:1658.** Əgər dəllək kəsən yerə qədər daxil olub-olmamasında şəkk etsə, orucu səhihdir. Aləti kəsik olan şəxs duxul olub-olmamasında şəkk etsə, orucu səhihdir.

### *4-İSTİMNA*

**M:1659.** Əgər oruc tutan şəxs istimna etsə, (yə’ni özü ilə məninin xaric olmasına səbəb olan bir iş görsə), orucu batildir. Amma əgər məni ixtiyarsız olaraq gəlsə, oruc batil deyil. Lakin bir iş görsə və məni ixtiyarsız xaric olsa, orucu batildir.

**M:1660.** Əgər oruc tutan şəxs gündüz yatarsa möhtəlim olacağını (yuxuda məni xaric olacağını) bilsə yata bilər. Əgər yatsa və möhtəlim olsa, orucu səhihdir. Xüsusilə də əgər yuxunu tərk etmək ona məşəqqəti olsa (yata bilər).

**M:1661.** Oruc tutan şəxs möhtəlim olsa qusuldan qabaq bovl edib (əvvəllər deyilən qaydada) istibra edə bilər. Amma əgər qusul edəndən sonra bovl, yaxud istibra edəcəyi halda məcrada qalan məninin çölə gələcəyini bilsə, onda istibra

edə bilməz. Əgər oruc tutan şəxs məni gələn vaxt yuxudan oyansa onun qarşısını alması vacib deyil.

**M:1662.** Oruc tutan şəxs möhtəlim olsa və məninin məcrada qaldığını bilib qusuldan qabaq bovl etməsə və qusuldan sonra məni gəlsə, yaxşı olar ki, qusuldan əvvəl bovl etsin.

**M:1663.** Əgər məninin çölə gəlməsi məqsədi ilə müəyyən bir iş görsə, amma məni gəlməsə , orucu batil olmaz.

**M:1664.** Əgər oruc tutan şəxs məninin çölə gəlməsi qəsdi olmadan bir kəslə oynasa və ya zarafat etsə, bu halda onun adəti bu cür işlərlə məninin çölə gəlməsi olarsa və məni xaric olsa, orucu batildir; yox əgər adəti bu cür işlərlə məninin ondan xaric olması deyilsə və təsadüfən xaric olsa, yenə də orucu batildir. Amma əgər məninin ondan xaric olmayacağına xatircəm olsa, batil deyildir.

### *5-ALLAHIN VƏ PEYĞƏMBƏRIN ADINDAN YALAN DANIŞMAQ*

**M:1665.** Əgər oruc tutan şəxs Allah, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) və o həzrətin canişinlərinin (əleyhimüs-salam) adından deмək, yazmaq, işarə etmək və s. kimi işlərlə yalan desə, hətta əgər dərhal “yalan deyirəm” desə və ya tövbə etsə də, orucu batildir. Ehtiyat-vacib budur ki, sair peyğəmbərlər və onların canişinləri, habelə, həzrət Zəhra (əleyha salam) da bu hökmdə eynilədir.

**M:1666.** Əgər səhih və ya yalan olduğunu bilmədiyi bir hədisi nəql etmək istəsə, ehtiyat-vacibə görə o xəbəri deyən kəsdən, yaxud nəql etdiyi kitabdan nəql etsin. Lakin əgər özü də yüz faizlik xəbər versə və onun yalan olmasına zənn, yaxud ehtimal versə də belə orucu batil olmur.

**M:1667.** Əgər bir şeyin düzlüyünə e’tiqad bəsləyərək Allahın və ya Peyğəmbərin adından nəql etsə, sonra isə yalan olduğunu başa düşsə, orucu batil olmaz.

**M:1668.** Əgər Allah və Peyğəmbərin adından yalan deməyin orucu batil etdiyini bilsə və yalan hesab etdiyi bir şeyi onlara aid edib sonradan düz olduğunu başa düşsə, orucu səhihdir.

**M:1669.** Əgər başqasının quraşdırdığı yalan xəbəri Allaha, Peyğəmbərə və onların canişinlərinin adından desə, orucu batildir. Amma əgər o yalanı quraşdıran kəsin adından nəql etsə, eybi yoxdur.

**M:1670.** Əgər oruc tutan şəxsdən “Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) filan şeyi buyurub ya yox?” deyə soruşsalar və o “yox” deməli olduğu halda qəsdən “bəli” desə, yaxud əksinə, “bəli” deməli olduğu yerdə qəsdən “yox” desə, orucu batil olur.

**M:1671.** Əgər Allah və ya Peyğəmbərin adından düz bir şey deyib sonradan “yalan deyirəm” desə, yaxud gecə hər hansı bir yalanı onların adından deyib sabahı gün oruc halında “dünən dediyim düzdür” desə, orucu batil olur.

### *6-QƏLİZ TOZU BOĞAZA ÇATDIRMAQ*

**M:1672.** Qəliz (qatı) tozu boğaza çatdırmaq–istər həmin qəliz şeyin yeyilməsi halal olsun (un kimi), istərsə də haram (torpaq və s. kimi) olsun, orucu batil edir.

**M:1673.** Ehtiyat-vacib budur ki, oruc tutan şəxs, qəliz buxarı, siqaret və tənbəki və s. kimi şeylərin də tüstüsünü boğazına çatdırmasın.

**M:1674.** Əgər bir kəs özünü gözləməsə və toz, buxar, tüstü və s. kimi şeylər boğazına daxil olsa, bu halda əgər boğaza çatmayacağına xatircəm imişsə, orucu səhihdir. Əgər oruc olduğunu unudub özünü gözləməsə və ya ixtiyarsız olaraq toz və s. kimi şeylər boğazına çatsa, eybi yoxdur.

### *7-BAŞI SUYA SALMAQ*

**M:1675.** Əgər oruc tutan şəxs başının hər yerini qəsdən suya batırsa, hətta bədəni sudan çöldə olsa da, ehtiyat-vacibə görə o orucun qəzasını tutmalıdır. Amma əgər bədəninin hamısı suyun altında, başının bir qədəri isə çöldə olsa, oruc batil olmaz.

**M:1676.** Əgər əvvəlcə başın bir yarısını, sonra isə o biri yarısını suya batırsa, orucu batil olmaz.

**M:1677.** Əgər başının hamısının suyun altına girib-girməməsində şəkk etsə, orucu səhihdir.

**M:1678.** Əgər başın hamısı suyun altına batsa, amma tüklərin bir miqdarı çöldə qalsa, oruc batildir.

**M:1679.** Ehtiyat-vacib budur ki, başı gülaba da batırmasınlar. Amma sair muzaf sulara və maye şeylərə batırmağın eybi yoxdur.

**M:1680.** Əgər oruc tutan şəxs ixtiyarsız olaraq suya düşsə və başının hamısı suya batsa;, yaxud oruc olduğunu unudub başını suya batırsa orucu batil olmaz.

**M:1681.** Əgər bir kəs suya düşəndə adətən başı suyun altına gedirsə, bu halda bu məsələni nəzərə alaraq özünü suya atsa və başı suyun altına getsə orucu batil olur.

**M:1682.** Əgər oruc olduğunu unudub başını suya batırsa, yaxud bir kəs zorla onun başını suya batırsa, bu halda suyun altında oruc olması yadına düşsə və ya məcbur edən kəs əl çəksə dərhal başını sudan çıxartmalıdır. Əgər sudan çıxartmasa orucu batildir.

**M:1683.** Əgər bir kəs oruc olduğunu unudub qusul niyyəti ilə başını suya batırsa, orucu və quslu səhihdir.

**M:1684.** Əgər oruc olduğunu bilib qusul üçün qəsdən başını suya batırsa, bu halda əgər onun orucu Ramazan ayının orucu kimi vaxtı müəyyəndirsə, ehtiyat-vacibə görə quslu yenidən alıb, orucunu da qəza etməlidir. Amma əgər

müstəhəb, yaxud kəffarə orucu kimi vaxtı müəyyən olmayan başqa oruc tutmuş olsa quslu səhih, orucu isə batildir.

**M:1685.** Əgər suda boğulan bir kəsi xilas etmək niyyəti ilə suya cumsa, ona nicat verməyin vacib olmasına baxmayaraq, orucu batildir.

### *8-SÜBH AZANINA QƏDƏR CƏNABƏT, HEYZ VƏ NİFAS HALINDA QALMAQ*

**M:1686.** Əgər cünub şəxs qəsdən sübh azanına qədər qusul etməsə, yaxud vəzifəsi təyəmmüm olduğu halda qəsdən təyəmmüm etməsə orucu batildir.

**M:1687.** Əgər Ramazan ayının orucu kimi vaxtı müəyyən olan vacibi orucda sübh azanına qədər qusul almasa və təyəmmüm də etməsə, amma bu işlər qəsdən olmasa (məsələn, başqası onu qusul, təyəmmüm etməyə qoymasa) orucu səhihdir.

**M:1688.** Cünub olan və Ramazan ayı kimi vaxtı müəyyən olan vacibi oruc tutmaq istəyən bir kəs, qəsdən qusul etməsə və vaxtı azalsa təyəmmüm ilə oruc tuta bilər, orucu da səhihdir.

**M:1689.** Əgər cünub olan şəxs Ramazan ayında quslu unutsa və bir gündən sonra yadına düşsə, həmin günün qəzasını etməlidir; əgər bir neçə gündən sonra yadına düşsə, cünub olduğuna yəqini olan hər günün qəzasını etməlidir. Məsələn, əgər üç, ya dörd gün cünub olduğunu bilsə üç günün orucunu qəza etməlidir.

**M:1690.** Ramazan ayının gecəsində qusul və təyəmmümün heç biri üçün vaxtı olmayan bir kəs, özünü cünub etsə orucu batildir, qəzası və kəffarəsi də vacibdir. Amma əgər təyəmmüm üçün vaxtı olan halda özünü cünub etsə təyəmmüm ilə orucu səhihdir. Günahkar da hesab olunmur.

**M:1691.** Bir kəs Ramazan ayının gecəsində cünub olsa və yatacağı halda sübhə qədər oyana bilməyəcəyini bilsə yatmamalıdır. Əgər yatsa və sübhə qədər oyanmasa, orucu batildir. Qəza və kəffarə də vacibdir.

**M:1692.** Əgər cünub olan şəxs Ramazan ayının gecəsində yatıb sonra ayılsa, bu halda əgər yenidən yatarsa qusul üçün oyanacağına ehtimal versə və adətən də oyanırsa, yata bilər.

**M:1693.** Ramazan ayının gecəsində cünub olan şəxs bilsə, yaxud ehtimal versə ki, yatsa sübh azanından qabaq oyanacaq, bu halda oyanandan sonra qusul alacağını qərara alsa və bu niyyətlə yatıb azana qədər yuxuya qalsa orucu səhihdir.

**M:1694.** Ramazan ayının gecəsində cünub olan şəxs bilsə, yaxud ehtimal versə ki, yatsa sübh azanından qabaq oyanacaqdır, bu halda oyandıqdan sonra qusul edəcəyindən qafil olub yatsa və sübh azanına qədər yuxuya qalsa orucu səhihdir.

**M:1695.** Ramazan ayının gecəsində cünub olan kəs bilsə, yaxud ehtimal versə ki, yatsa sübh azanından qabaq oyanacaq, bu halda oyandıqdan sonra qusul etmək istəməsə, yaxud qusul edib-etməyəcəyində tərəddüd edib yatsa və oyanmasa, orucu batildir.

**M:1696.** Əgər cünub şəxs Ramazan ayının gecəsində yatıb oyansa və yenidən yatarsa sübh azanından qabaq oyanacağını bilsə, yaxud ehtimal versə, habelə oyanandan sonra qusul edəcəyini qərara alsa, bu halda yenidən yatsa və sübh azanına qədər oyanmasa, o günün qəzasını etməlidir. Həmçinin əgər ikinci dəfə yatıb-ayıldıqdan sonra yenidən, üçüncü dəfə yatsa da eyni qayda ilə. Ehtiyat-vacibə görə üçüncü dəfə yatanda kəffarə də lazımdır.

**M:1697.** Möhtəlim olduğu yuxu birinci yuxu hesab edilməməlidir, əksinə möhtəlim olandan sonra yuxudan ayılsa, yenidən yatması onun birinci yatmağı hesab olunur.

**M:1698.** Əgər oruc tutan şəxs gündüz möhtəlim olsa dərhal qusul alması vacib deyil. Amma ehtiyat-müstəhəb budur ki, dərhal qusul etsin.

**M:1699.** Əgər bir kəs Ramazan ayında sübh azanından sonra ayılıb möhtəlim olduğunu bilsə, hətta sübh azanından qabaq möhtəlim olduğunu bilsə də, orucu səhihdir.

**M:1700.** Ramazan ayının orucunun qəzasını tutmaq istəyən bir kəs əgər sübh azanına qədər cünub halında qalsa, hətta qəsdən olmasa da orucu batildir.

**M:1701.** Ramazan ayının orucunun qəzasını tutmaq istəyən bir kəs əgər sübh azanından sonra oyanıb möhtəlim olduğunu görsə və sübh azanından qabaq möhtəlim olduğunu bilsə, bu halda orucun qəzasının vaxtı az olsa (məsələn, beş gün Ramazan ayının qəzası varsa və Ramazan ayına da beş gün qalıbsa) ehtiyat-vacib budur ki, həm o gün, həm də onun əvəzini Ramazan ayından sonra oruc tutsun. Amma qəza orucunun vaxtı az olmasa, başqa gün tutsun.

**M:1702.** Vaxtı müəyyən olan vacibi oruc ehtiyat-vacibə görə Ramazan ayının orucu kimidir. Deməli, sübh azanına qədər qəsdən cənabət halında qalmaq onun batil olmasına səbəb olar. Əgər nəzir orucu kimi kəffarəsi də olsa, kəffarə də ona vacib olur.

**M:1703.** Əgər Ramazan ayının və onun qəzasından başqa vacibi orucda sübh azanına qədər cünub halında qalsa amma bu iş qəsdən olmasa–istər onun vaxtı müəyyən olsun, istərsə də olmasın, orucu səhihdir.

**M:1704.** Əgər qadın sübh azanından qabaq heyz və ya nifasdan paklanıb qəsdən qusul etməsə, yaxud vəzifəsi təyəmmüm olduğu halda qəsdən təyəmmüm etməsə, orucu batildir.

**M:1705.** Əgər qadın sübh azanından sonra heyz və ya nifasdan paklansa, amma qusul üçün vaxtı olmasa, bu halda Ramazan ayının orucu kimi vaxtı müəyyən olan vacibi oruc tutmaq istəsə, təyəmmümlə orucu səhihdir və sübhə qədər oyaq qalması lazım (ilzami) deyil. Əgər müstəhəb, yaxud kəffarə orucu

kimi vaxtı müəyyən olmayan başqa vacibi oruc tutmaq istəsə, təyəmmümlə oruc tuta bilməz.

**M:1706.** Əgər qadın sübh azanına yaxın vaxtlarda heyz, yaxud nifasdan paklansa, amma qusul və təyəmmümün heç biri üçün vaxtı olmasa, yaxud azandan sonra, azandan qabaq pak olduğunu başa düşsə, onun orucu Ramazan ayının orucu kimi müəyyən olan vacibi orucda səhihdir. Amma Ramazan ayının orucunun qəzasında səhih olması işkallıdır.

**M:1707.** Əgər qadın sübh azanından sonra heyz və ya nifas qanından paklansa, yaxud gün ərzində heyz və ya nifas qanı görsə–hətta məğribə yaxın vaxtlarda da olsa, orucu batildir.

**M:1708.** Əgər qadın heyz və ya nifas quslunu unutsa və bir və ya bir neçə gündən sonra yadına düşsə, tutduğu oruclar səhihdir. Ehtiyat-müstəhəbbə görə gərək onların qəzasını etsin.

**M:1709.** Əgər qadın sübh azanından qabaq heyz və ya nifas qanından qabaq pak olub qusul etməkdə səhlənkarlıq etsə və sübh azanına qədər qusul etməsə, habelə vaxtın az olduğu vaxt təyəmmüm də etməsə orucu batildir. Amma əgər səhlənkarlıq etməsə (məsələn, hamamda qadınların növbəsinin çatmasını gözləsə) hətta əgər üç dəfə yatıb dursa və sübh azanına qədər qusul etməsə də, təyəmmümlə orucu səhihdir.

**M:1710.** Əgər istihazə halında olan bir qadın öz qusullarını istihazə hökmlərində deyilən qaydalara uyğun olaraq yerinə yetirsə orucu səhihdir.

**M:1711.** Meyyitə məss edən kəs, məss-meyyit quslu almadan oruc tuta bilər. Hətta oruc halında da meyyitə məss etsə, orucu batil olmaz.

### *9-İMALƏ*

**M:1712.** Maye şeylərlə imalə etmək hətta məcburiyyət üzündən və ya müalicə üçün olsa da orucu batil edir. Amma müalicə üçün istifadə olunan qeyri-maye dərmanların eybi yoxdur. Ehtiyat-müstəhəb budur ki, onların da istifadəsindən pərhiz olunsun. Ehtiyat-vacib budur ki, maye, yaxud bərk olması şəkkli olan şeylərdən də pərhiz olunsun.

### *10-QƏSDƏN QUSMAQ*

**M:1713.** Əgər oruc tutan şəxs qəsdən qussa–hətta xəstəlik və s. səbəbilə qusmağa naçar olsa, orucu batildir. Amma səhvən, yaxud ixtiyarsız olaraq qussa, eybi yoxdur.

**M:1714.** Əgər gecə bir şey yesə və onu yemək vasitəsilə gündüz ixtiyarsız olaraq qusacağını bilsə, ehtiyat-vacibə budur ki, o günün orucunun qəzasını tutsun.

**M:1715.** Əgər oruc tutan şəxs qusmağın qarşısını ala bilərsə və bunun da zərəri və məşəqqəti olmazsa, gərək qabağını alsın.

**M:1716.** Əgər milçək oruc tutan şəxsin boğazına getsə, bu halda onun udulması yemək hesab olunmayacağı yerə qədər (boğaza) getsə onu çıxartmaq lazım deyil, orucu da səhihdir. Amma bu qədər aşağı getməsə və çıxarılması mümkün olsa, onu çıxarmalıdır. Əgər qusmağa səbəb olsa onun qəzasını tutmalıdır.

**M:1717.** Əgər bir şeyi səhvən udsa və mə'dəsinə çatmamış oruc olduğu yadına düşsə, bu halda çox getmiş olsa və onu udmaq yemək hesab olunmazsa, çıxartmaq lazım deyil, orucu da səhihdir. Amma əgər boğazın ortasında və yaxud əvvəlinə çatmış olsa onu çıxartmalıdır. Bu halda ona qusmaq deyilmir.

**M:1718.** Əgər gəyirmək səbəbilə bir şeyin, boğazına gələcəyinə yəqini olsa, qəsdən gəyirməməlidir. Amma əgər yəqini olmasa, eybi yoxdur.

**M:1719.** Əgər gəyirsə və ixtiyarsız olaraq bir şey boğazına və ya ağzına gəlsə, onu çölə tökməlidir. Əgər ixtiyarsız olaraq udulsa eybi yoxdur. Ehtiyat-müstəhəb budur ki, onun qəzasını yerinə yetirsin.

### *ORUCU BATİL EDƏN ŞEYLƏRİN HÖKMLƏRİ*

**M:1720.** Əgər insan qəsdən və ixtiyar üzündən orucu batil edən işlərdən görsə, orucu batil olur. Amma qəsdən olmasa eybi yoxdur. Bu hökmdə Ramazan ayının orucu ilə başqa oruclar arasında, habelə vacibi oruclarla müstəhəb oruclar arasında heç bir fərq yoxdur. Amma cünub şəxs yatsa və 1609-cu məsələdə deyildiyi kimi, sübh azanına qədər qusul etməsə, orucu batildir.

**M:1721.** Əgər oruc tutan şəxs səhvən orucu batil edən işlərdən birini görsə və orucunun batil olmasını güman edərək o işlərdən yenə də görsə, orucu batildir.

**M:1722.** Əgər bir şeyi zorla oruc tutanın boğazına töksələr və ya başını zorla suya batırsalar orucu batil olmaz. Amma əgər (özünün) orucunu batil etməyə məcbur etsələr (məsələn "orucu yeməsən, mal-dövlətinə, canına zərər yetircəyik" desələr) və zərərin qarşısını almaq üçün özü orucunu yesə orucu batil olur.

**M:1723.** Oruc tutan şəxs boğazına bir şey töküləcəyini bildiyi yerə, yaxud onu, orucunu özünün yeməsinə məcbur edəcəklərini bildiyi yerə getməməlidir. Amma getməyi məqsədində tutub getməsə, yaxud gedəndən sonra ona bir şey yedizdirməsələr, orucu səhihdir. Əgər çarəsizlik üzündən orucu batil edən bir iş görsə və əvvəldən də məcbur olacağını bilsə, orucu batildir.

### *ORUC TUTAN ŞƏXSƏ MƏKRUH OLAN ŞEYLƏR*

**M:1724**. Bir neçə şey oruc tutana məkruhdur, o cümlədən: gözə dərman tökmək, sürmə çəkmək (əgər dadı, iyi boğaza çatarsa), zəifliyə səbəb olan iş görmək (qan almaq, hamama getmək kimi), burunotu çəkmək (əgər boğaza çatacağını bilməsə; amma əgər bilsə caiz deyildir), ətirli gülləri, bitkiləri

iyləmək, qadının suda oturması, qeyri-maye şeylərlə imalə etmək, bədəndəki paltarları islatmaq, diş çəkdirmək, ağızdan qan gəlməsinə səbəb olan bütün işlər, yaş çubuqdan diş fırçası kimi istifadə etmək məkruhdur. Həmçinin insan məninin çölə gəlməsi qəsdi olmadan öz qadınını öpsə, yaxud şəhvətini təhrik edən bir iş görsə və adəti də bu qəbil işlərdən məninin çölə gəlməsi olmasa, məkruhdur. Amma məninin çölə gəlməsi qəsdi ilə olsa və məni gəlsə, orucu batildir.

### *ORUCUN QƏZASI VƏ KƏFFARƏ VACİB OLAN YERLƏR*

**M:1725.** Əgər bir kəs Ramazan ayının orucunda qəsdən qussa, təkcə o günün qəzasını tutmalıdır. Əgər gecə cünub olub 1642-ci məsələdə deyildiyi kimi üç dəfə oyanıb yatsa və sübh azanına qədər oyanmasa, yaxud qəsdən imalə etsə və ya başını suya batırsa, yaxud Allah və Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in adından yalan danışsa, ehtiyat-vacibə görə kəffarə də verməlidir. Amma bunlardan başqa, orucu batil edən sair işləri qəsdən görsə, bu halda o işin orucun batil etdiyini bildiyi halda həm qəza, həm də kəffarə vacibdir.

**M:1726.** Əgər məsələni bilməməzlik üzündən orucu batil edən işlərdən birini görsə, bu halda məsələni öyrənə bilərdisə, ehtiyata görə kəffərə ona vacibdir. Amma əgər məsələni öyrənə bilməzdisə və ya ümumiyyətlə məsələdən agah deyildisə, yaxud filan şeyin orucu batil etmədiyinə yəqini var idisə, kəffarə vacib deyil.

### *ORUCUN KƏFFARƏSİ*

**M:1727.** Ramazan ayının orucunun kəffarəsi vacib olan bir kəs ya bir qul azad etməli, ya sonrakı məsələdə deyilən göstərişə uyğun olaraq iki ay oruc tutmalı, ya da 60 fəqiri doyuzdurmalı, yaxud onların hər birinə bir müdd[23] (təqribən 10 sir) təam (yə'ni buğda, arpa və bu kimi şeylər) verməlidir Əgər bir şəxs üçün bunlar mümkün olmasa, on yeddi gün oruc tutmaqla mümkün olan qədər müdd fəqirə təam vermək arasında ixtiyar sahibidir. Əgər verə bilməsə, hətta bir dəfə "əstəğfirullah" deməklə də istiğfar etməlidir. Ehtiyat-vacib budur ki, hər vaxt imkanı olsa, kəffarəni versin.

**M:1728.** Ramazan ayının orucunun kəffarəsi kimi iki ay oruc tutmaq istəyən bir kəs onun 31 gününü ardıcıl, arada fasilə salmadan tutmalıdır, amma yerdə qalan günlər ardıcıl olmasa, eybi yoxdur.

**M:1729.** Ramazan ayının orucunun kəffarəsi kimi iki ay oruc tutmaq istəyən bir kəs, əvvəldə ardıcıl tutmalı olduğu 31 günü elə gündə başlamalıdır ki, bu 31 günün içində orucu haram olan günlərdən (Qurban bayramı kimi) olmasın.

---

[23]Bir "müdd" təqribən 750 qramdır (bir "sir" 75 qram, 10 "sir" bir müdd, yə"ni 750 qramdır),

**M:1730.** Ardıcıl oruc tutmalı olan bir şəxs arada üzrsüz səbəbə görə bir gün oruc tutmasa, yaxud tutduğu oruc günləri arasında orucu vacib olan bir günə çatsa (məsələn, oruc tutmağı nəzir etdiyi günə təsadüf etsə) gərək orucları əvvəldən başlasın.

**M:1731.** Əgər ardıcıl oruc tutmalı olan günlər əsnasında heyz, nifas kimi üzr, yaxud getməyə məcbur olduğu bir səfər qarşıya çıxsa, üzrü aradan qalxandan sonra günləri əvvəldən başlaması vacib deyil: yerdə qalanları üzrü aradan qalxandan sonra tutmalıdır.

**M:1732.** Əgər bir kəs orucu haram şeylə batil etsə–istər bu şey ümumiyyətlə haram olsun (şərab, zina və s. kimi), istərsə də müəyyən səbəblərə görə haram olsun (öz əyalı ilə heyz halında yaxınlıq etmək kimi), ehtiyat-vacibə görə ona cəm kəffarəsi vacib olur. Yə’ni həm bir qul azad etməli, həm iki ay oruc tutmalı, həm də 60 fəqiri doyuzdurmalıdır (yaxud da onların hər birinə bir müdd təam verməlidir). Əgər bu üçünün hamısını yerinə yetirmək mümkün olmazsa, mümkün olan qədərini yerinə yetirməlidir.

**M:1733.** Əgər oruc tutan şəxs Allah və Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in adından yalan danışsa ehtiyat-vacibə görə cəm kəffarəsi deyil, bir kəffarə verməsi lazımdır.

**M:1734.** Əgər oruc tutan şəxs Ramazan ayının bir günündə bir neçə dəfə cima etsə, ehtiyata əsasən, o qədər də kəffarə vacibdir. Əgər onun ciması haram cima olsa, həmin qədər də cəm kəffarəsi vacib olur.

**M:1735.** Əgər oruc tutan şəxs Ramazan ayının bir günündə bir neçə dəfə (cimadan başqa) orucu batil edən sair işlər görsə, onların hamısı üçün bir kəffarə kifayətdir. Ehtiyat-müstəhəbbə görə nə qədər edibsə, bir o qədər də kəffarə versin.

**M:1736.** Əgər oruc tutan şəxs əvvəlcə haram cima, sonra isə öz halalı ilə cima etsə, hər biri üçün ayrıca kəffarə vacibdir.

**M:1737.** Əgər oruc tutan kəs orucu batil edən halal işlərdən görsə (məsələn, su içsə), sonra isə orucu batil edən haram işlərdən görsə (məsələn, haram yeməklərdən yesə), bir kəffarə kifayətdir.

**M:1738.** Əgər oruc tutan gəyirdiyi vaxt ağzına bir şey gəlsə və onu qəsdən udsa, orucu batildir. Qəzasını tutmalı, kəffarə də verməlidir. Əgər ağzına gələn şey haram olsa, məsələn, gəyirdiyi vaxt yemək halətindən çıxan qida və ya qan gəlsə və qəsdən onu udsa, o günün qəzasını tutmalıdır, ehtiyata görə cəm kəffarəsi də vacibdir.

**M:1739.** Əgər bir kəs müəyyən gündə oruc tutacağını nəzir etsə və həmin günü oruc tutub qəsdən batil etsə, gərək ya bir qul azad etsin, ya iki ay dalbadal oruc tutsun, ya da 60 fəqirə təam versin.

**M:1740.** Vaxtı ayırd edə bilən bir şəxs, “məğrib olmuşdur” deyən bir kəsin sözünə inanıb iftar etsə və sonradan hələ məğrib olmadığı mə’lum olsa, ehtiyata görə həm qəzası, həm də kəffarəsi vacibdir.

**M:1741.** Öz orucunu qəsdən batil edən bir şəxs, zöhrdən sonra səfərə çıxsa, yaxud zöhrdən qabaq kəffarədən qaçmaq üçün səfər etsə, kəffarəsi boynundan götürülmür; hətta əgər zöhrdən qabaq qarşıya çıxan səfərə getsə, ehtiyata görə, kəffarə ona vacibdir.

**M:1742.** Əgər bir kəs qəsdən orucunu batil etsə və sonradan heyz, nifas və ya başqa xəstəlik kimi üzr qarşıya çıxsa, kəffarə ona vacib deyil.

**M:1743.** Əgər Ramazan ayının birinci günü olduğunu yəqin edib qəsdən orucunu batil etsə və sonradan şə’banın axırı olması mə’lum olsa, ona kəffarə vacib deyil. Həmçinin əgər bir kəs Ramazanın axırı, yaxud şəvvalın əvvəli olduğunda şəkk etdiyi halda qəsdən orucunu batil etsə və sonradan şəvvalın əvvəli olduğu mə’lum olsa, kəffarə ona vacib olmaz.

**M:1744.** Əgər oruc tutan şəxs Ramazan ayında özünün oruc tutmuş arvadı ilə cima etsə, bu halda arvadını cimaya məcbur etmişsə, həm özünün, həm də arvadının kəffarəsini verməlidir. Amma əgər qadın cimaya razı olsa, hər birinə bir kəffarə vacibdir.

**M:1745.** Əgər qadın, oruc tutmuş ərini cimaya, yaxud orucu batil edən başqa bir işə məcbur etsə, ərinin kəffarəsini verməsi vacib deyildir.

**M:1746.** Əgər oruc tutan şəxs Ramazan ayında özünün oruc tutmuş arvadı ilə cima etsə, bu halda qadını, özündən ixtiyarı olmayan halda məcbur etsə və cima əsnasında da qadın razı olsa, ehtiyat-vacibə görə kişi iki, qadın isə bir kəffarə verməlidir. Əgər öz ixtiyar və iradəsi ilə cima etsə, ərinin onu məcbur etməsinə baxmayaraq, hər biri öz kəffarəsini verməlidir.

**M:1747.** Əgər oruc tutan şəxs Ramazan ayında, oruc tutmuş arvadı yuxuda olan halda onunla cima etsə, kişiyə bir kəffarə vacibdir. Qadının orucu səhihdir, kəffarə də vacib deyildir.

**M:1748.** Əgər kişi, qadınını cimadan başqa orucu batil edən sair işlərə məcbur etsə, qadının kəffarəsini verməməlidir, qadının özünə də kəffarə vacib deyil.

**M:1749.** Səfərdə olmaq və ya xəstəlik səbəbi ilə oruc tutmayan bir şəxs, oruc tumuş qadınını cimaya məcbur edə bilməz. Amma məcbur edərsə, ona kəffarə vacib deyil.

**M:1750.** İnsan kəffarəni verməkdə səhlənkarlıq etməməlidir. Amma onu dərhal verməsi lazım (ilzami) deyil.

**M:1751.** Əgər bir kəsə kəffarə vacib olsa və bir neçə il onu verməsə, üstünə bir şey əlavə olunmur.

**M:1752.** Bir günün kəffarəsi üçün 60 fəqirə təam verməli olan bir kəs 60 fəqir tapa bilməsə, gərək tapdığının hər birinə bir müddən artıq təam verməsin,

yaxud bir fəqiri bir dəfədən artıq doyuzdurmasın. Amma əgər fəqirin ailəsi olsa insan onun fəqir ailə üzvlərinin hər biri üçün, hətta səğir olsalar da, bir müdd təam verə bilər. Bu şərtlə ki, hər birinin payını ayrılıqda deyil, hamısını üst-üstə töküb, bir yerdə təhvil versin.

**M:1753.** Ramazan ayının orucunun qəzasını tutan bir kəs, zöhrdən sonra qəsdən orucu batil edən bir iş görsə, 10 fəqirin hər birinə bir müdd təam verməlidir. Əgər bunu edə bilməsə, üç gün oruc tutmalıdır, ehtiyat-müstəhəbbə görə 60 fəqirə təam verməlidir.

### *ORUCUN TƏKCƏ QƏZASI VACİB OLAN YERLƏR*

**M:1754.** Bir neçə halda orucun təkcə qəzası vacib olur və kəffarə vacib deyil:

**1-**Əgər Ramazan ayının gecəsində cunub olub 1640-cı məsələdə deyildiyi kimi, sübh azanına qədər ikinci yuxudan oyanmasa;

**2-**Orucu batil edən əməllərdən görməsə, amma oruc niyyəti etməsə və ya riya etsə, yaxud oruc olmamasını qəsd etsə;

**3-**Ramazan ayında cənabət quslunu unudub bir və ya bir neçə gün cənabətli halda oruc tutsa;

**4-**Ramazan ayında sübhün daxil açılıb-açılmamasında təhqiqat aparmadan orucu batil edən işlərdən görsə və sonradan sübh olduğu mə’lum olsa; Habelə əgər təhqiqat aparandan sonra sübh olmasını güman etdiyi halda orucu batil edən bir iş görsə, sonra sübh olması mə’lum olsa, o günün qəzası ona vacibdir. (Amma əgər təhqiqatdan sonra sübh olmamasını yəqin və ya güman edib bir şey yesə, sonradan da sübh olduğu mə’lum olsa, qəza vacib deyildir.) Əgər təhqiqat aparandan sonra sübh olub-olmamasında şəkk etsə və orucu batil edən işlərdən görsə, sonra da sübh olması mə’lum olsa, ehtiyat-vacibə görə gərək o günün qəzasını yerinə yetirsin;

**5-**Bir kəs sübhün açılması barədə xəbər versə və başqası da onun dediyinə əsasən orucu batil edən işlərdən görsə, sonradan sübhün daxil olduğu mə’lum olsa;

**6-**Bir kəs “sübh olmuşdur” desə və insan onun sözünə yəqin etməsə, yaxud zarafat etdiyini güman edərək orucu batil edən işlərdən görsə və sonra sübhün açıldığı mə’lum olsa;

**7-**Kor və s. kimi şəxslər başqa şəxsin dediyinə istinad edərək iftar etsə və sonradan hələ iftar vaxtı olmadığı mə’lum olmasa; Hətta əgər yalançı şəxsin dediyinə əsasən iftar etsə, kəffarə də vacibdir.

**8-**Bir kəs təmiz havada qaranlıq səbəbi ilə məğrib olmasını yəqin edib iftar etsə, sonradan məğrib olmaması mə’lum olsa; (Amma əgər buludlu havada məğrib olmasını güman edərək iftarını açsa və sonradan məğrib olmadığı mə’lum olsa, qəzası lazım deyildir.

**9-**Sərinləmək və ya heç bir səbəb olmadan suyu ağzında qar-qara etsə və ixtiyarsız olaraq qarnına getsə; (Amma əgər oruc olduğunu unudub suyu udsa, yaxud dəstəmaz üçün suyu qar-qara edəndə ixtiyarsız olaraq udulsa, onun qəzası vacib deyil.

**10-**Bir şəxs öz arvadı ilə mazaqlaşsa və ixtiyarsız olaraq məni çölə gəlsə; hətta əvvəldən məqsədi bu olmasa və adəti də mazaqlaşanda məninin çıxması olmasa da. (Bu halda onun qəzası müstəhəbdir.)

**M:1755.** Əgər bir kəs sudan başqa bir şeyi ağzına qoyub ixtiyarsız udsa, yaxud burnuna su çəkəndə ixtiyarsız olaraq udsa, qəzası vacib deyildir.

**M:1756.** Oruc tutan şəxsin su ilə çox məzməzə etməsi məkruhdur. Məzməzədən sonra ağzının suyunu udmaq istəsə, yaxşı olar ki, üç dəfə ağzının suyunu çölə töksün.

**M:1757.** Əgər məzməzə edəcəyi halda ixtiyarsız, yaxud unutqanlıq üzündən suyun boğazına gedəcəyini bilsə, məzməzə etməməlidir.

**M:1758.** Əgər Ramazan ayında təhqiqat aparıb sübh olmadığını yəqin etdikdən sonra orucu batil edən işlərdən birini görsə və sonradan sübh olduğu mə'lum olsa, qəzası lazım deyil.

**M:1759.** Əgər insan məğrib olub-olmamasında şəkk etsə, iftar edə bilməz. Amma sübh olub-olmamasında şəkk etsə təhqiqat aparmazdan qabaq da orucu batil edən işlərdən görə bilər.

## *QƏZA ORUCUNUN HÖKMLƏRİ*

**M:1760.** Əgər dəli insan ağıllansa, dəli olduğu vaxtlardakı orucların qəzasını tutması vacib deyil.

**M:1761.** Əgər kafir müsəlman olsa, kafir olduğu vaxtlardakı orucların qəzasını tutması vacib deyil. Həmçinin, müsəlman olduğu günün orucunun qəzası da vacib deyil. Amma əgər günortadan qabaq müsəlman olsa və o vaxta qədər orucu batil edən işlərdən görməmiş olsa, ehtiyat-vacibə görə niyyət edib oruc tutmalıdır. Əgər o günü oruc tutmasa, ehtiyat-vacibə görə qəzasını tutmalıdır. Mürtəd müsəlman olsa, mürtəd olduğu vaxtlarda qəzaya gedən oruclarının qəzasını tutmalıdır.

**M:1762.** İnsandan məstlik səbəbi ilə fövtə gedən oruc qəza edilməlidir–onu məst edən şeyi istər müalicə məqsədi ilə qəbul etsin, istərsə də dəlilsiz, heç bir fərqi yoxdur.

**M:1763.** Əgər müəyyən üzr üçün bir neçə gün oruc tutmayıb sonradan üzrünün nə vaxt aradan qalxdığında şəkk etsə, ehtimal verdiyi az günlərin orucunu qəza edə bilər. Məsələn, Ramazan ayından qabaq səfər edib ayın beşində, yoxsa altıda qayıtmasını bilməyən bir kəs beş gün qəza orucu tuta bilər. Həmçinin, üzrün nə vaxt yarandığını bilməyən bir kəs (ehtimal verdiyi) az miqdarı qəza edə bilər. Məsələn, Ramazan ayının axırlarında səfərə gedib,

Ramazan ayından sonra səfərdən qayıtsa və 25-də, yoxsa 26-da səfər etdiyini bilməsə, az miqdarı, yə'ni beş günü qəza edə bilər. Ehtiyat-vacib budur ki, əgər səfərin vaxtını bilib, amma miqdarını bilmirsə ehtimal verdiyi çox miqdarı qəza etsin.

**M:1764.** Əgər bir neçə Ramazan ayının qəzaları qalmış olsa hər birinin qəzasını əvvəl tutsa maneəsi yoxdur. Amma əgər axırıncı Ramazanın orucunun qəzasının vaxtı az olsa (məsələn, Ramazanın başlamasına beş gün qalsa və onun da axırıncı Ramazan ayından beş gün qəzası qalmış olsa) ehtiyat-vacibə görə əvvəlcə, axırıncı Ramazanın qəzasını tutmalıdır.

**M:1765.** Əgər bir neçə Ramazan ayının oruclarının qəzası bir kəsə vacib olsa, niyyətdə də tutduqlarının hansının qəzası olmasını müəyyənləşdirməsə, tutduqları oruc birinci ilin Ramazan ayının qəzası hesab olunur.

**M:1766.** Bir kəs Ramazan ayının orucunun qəzasını tutsa, bu halda əgər o orucların qəzasının vaxtı az olmasa, zöhrdən qabaq öz orucunu batil edə bilər.

**M:1767.** Əgər bir kəs başqasının oruclarının qəzasını tutubsa, ehtiyat-vacib budur ki, onu zöhrdən sonra batil etməsin.

**M:1768.** Əgər xəstəlik, yaxud heyz və ya nifas səbəbilə Ramazan ayının orucunu tutmasa və Ramazan ayı qurtarmamışdan qabaq ölsə, tutmadığı günləri onun üçün qəza etmələri lazım (ilzami) deyil.

**M:1769.** Əgər müəyyən xəstəlik səbəbilə Ramazan ayının orucunu tutmasa və onun xəstəliyi gələn ilin Ramazan ayına kimi davam etsə, oruc tutmadığı günlərin qəzası ona vacib deyil, amma gərək hər gün üçün bir müdd təam (buğda, arpa və s. kimi şeylər) fəqirə versin. Amma başqa üzr səbəbilə (məsələn, səfərə getdiyi üçün) oruc tutmamış olsa və onun üzrü gələn Ramazan ayına qədər davam etsə oruc tutmadığı günlərin qəzasını etməlidir. Ehtiyat-vacibə görə gərək hər gün üçün bir müdd təam da fəqirə versin.

**M:1770.** Əgər müəyyən xəstəlik səbəbilə Ramazan ayının orucunu tutmasa və Ramazandan sonra xəstəliyi sağalsa, lakin tapılan başqa bir üzr səbəbilə sonrakı Ramazan ayına qədər oruclarının qəzasını tuta bilməsə, gərək oruc tutmadığı günlərin qəzasını tutsun. Həmçinin əgər Ramazan ayında xəstəlikdən başqa bir üzrü olsa və Ramazandan sonra üzrü aradan qalxsa, amma gələn ilin Ramazan ayına qədər xəstəlik səbəbilə oruclarının qəzasını tuta bilməsə qəza etməlidir. Ehtiyat-vacibə görə hər gün üçün bir müdd təam da fəqirə verməlidir.

**M:1771.** Əgər Ramazan ayında müəyyən üzr səbəbilə oruc tutmasa və Ramazan ayından sonra üzrü aradan qalxsa, amma növbəti Ramazan ayına qədər onların qəzasını qəsdən tutmasa, gərək onların qəzasını etsin, hər gün üçün də bir müdd təam (arpa, buğda və s. kimi şeylər) fəqirə versin.

**M:1772.** Əgər orucun qəzasında səhlənkarlıq etsə və nəticədə vaxt az qalsa, vaxtın azlığında da bir üzrlü iş qarşıya çıxsa, qəzaları tutmalı, hər gün üçün də bir müdd təam fəqirə verməlidir. Üstəlik əgər üzrlü olduğu vaxt, üzrü aradan

qalxandan sonra oruclarının qəzasını tutmaq niyyətində olsa və qəza etməmişdən qabaq vaxtın az olduğu vaxtda bir üzr tapılsa, onun qəzasını tutmalıdır. Ehtiyat-vacib budur ki, hər gün üçün bir müdd təam fəqirə versin.

**M:1773.** Əgər insanın xəstəliyi bir neçə il davam etsə, sağalandan sonra, növbəti Ramazan ayına qədər qəzaları tutmaq miqdarında vaxt olsa, gərək axırıncı Ramazan ayının qəzasını tutsun, əvvəlki illərin qəzaları üçün də hər gün üçün bir müdd təam fəqirə versin.

**M:1774.** Hər gün üçün fəqirə bir müdd təam verməli olan bir kəs, bir neçə günün kəffarəsini bir fəqirə verə bilər.

**M:1775.** Əgər Ramazan ayının oruclarının qəzasını bir neçə il tə'xirə salsa, qəza edib hər gün üçün də bir müdd təam fəqirə verməlidir.

**M:1776.** Əgər bir kəs Ramazan ayının orucunu qəsdən tutmasa, onların qəzalarını yerinə yetirdikdən sonra hər gün üçün iki ay oruc tutmalı, yaxud 60 fəqirə təam verməli və ya bir qul azad etməlidir. Əgər növbəti Ramazana qədər onların qəzasını tutmasa, hər gün üçün bir müdd təam da verməlidir.

**M:1777.** Əgər Ramazan ayının orucunu qəsdən tutmasa və gün ərzində orucu batil edən işlərdən təkrarən görsə (məsələn, bir neçə dəfə cima etsə) ehtiyat-vacibə görə həmin qədər kəffarə verməsi lazımdır.

**M:1778.** Atanın vəfatından sonra böyük oğul, onun oruc-namazlarını "qəza namazı" bölməsində deyilən təfsilat ilə yerinə yetirməlidir. Ehtiyat-vacibə görə ananın da orucunun qəzasını yerinə yetirməlidir.

**M:1779.** Əgər ölən şəxsin Ramazan ayının oruclarından başqa yenə vacibi orucları (məsələn, nəzir orucu kimi) qalmışsa ehtiyat-vacibə görə böyük oğul onu da qəza etməlidir.

## *MÜSAFİRİN ORUCUNUN HÖKMLƏRİ*

**M:1780.** Dörd rəkətli namazları səfərdə iki rəkət qılmalı olan müsafir, oruc tutmamalıdır. Amma namazını bütöv qılan müsafir (məsələn, işi səfər olan, yaxud səfəri haram olan şəxs) səfərdə orucunu tutmalıdır.

**M:1781.** Ramazan ayında səfərə çıxmağın eybi yoxdur. Amma orucdan boyun qaçırmaq üçün səfər etmək məkruhdur.

**M:1782.** Əgər Ramazan ayının oruclarından əlavə, vaxtı müəyyən olan digər bir oruc insana vacib olsa (məsələn, müəyyən gündə oruc tutmağı nəzir etsə) həmin gün səfərə gedə bilər. Həmçinin, vaxtın az olduğu zamanda əgər Ramazan ayının orucunun qəzası boynunda olsa da bu qayda ilə.

**M:1783.** Əgər bir kəs oruc tutmağı nəzir edib, amma gününü müəyyən etməsə, onu səfərdə tuta bilməz. Amma səfərdə müəyyən bir günü oruc tutmağı nəzir etsə, onu səfərdə tutmalıdır. Həmçinin, əgər səfərdə olub-olmamasından asılı olmayaraq müəyyən bir günü oruc tutmağı nəzir etsə, hətta səfərdə də olsa, o günü oruc tutmalıdır.

**M:1784.** Müsafir, Allahdan hacətlərini istəmək üçün şərif Mədinə şəhərində üç gün müstəhəb oruc tuta bilər.

**M:1785.** Müsafirin orucunun batil olduğunu bilməyən bir şəxs, əgər səfərdə oruc tutsa və günü əsnasında məsələni başa düşsə, orucu batil olar. Əgər məğribə qədər başa düşməsə, orucu səhihdir.

**M:1786.** Əgər səfərdə olduğunu, yaxud müsafirin orucunun batil olduğunu unudub səfərdə oruc tutsa, orucu batildir.

**M:1787.** Əgər oruc tutan şəxs zöhrdən sonra səfər etsə, orucunu axıra çatdırmalıdır. Əgər zöhrdən qabaq səfər etsə, tərəxxüs həddinə (yə'ni şəhərin divarlarının görünmədiyi və azan səsinin eşidilmədiyi yerə) çatanda öz orucunu batil etməlidir. Əgər o həddə çatmamışdan qabaq batil etsə, ehtiyat-vacibə görə kəffarə vacib olur.

**M:1788.** Əgər müsafir zöhrdən qabaq öz vətəninə, yaxud 10 gün qalmaq istədiyi yerə çatsa, bu halda orucu batil edən işlərdən görməyibsə, o günü oruc tutmalıdır; yox əgər orucu batil edən işlərdən birini görsə və ya zöhrdən sonra vətəninə, yaxud 10 gün qalmaq istədiyi yerə çatsa, o günün orucu ona vacib deyil.

**M:1789.** Müsafir və oruc tutmaqda üzrü olan bir şəxsin, Ramazan ayının gündüzlərində cima etməsi habelə, doyunca yeyib-içməsi məkruhdur.

### *ORUC VACİB OLMAYAN ŞƏXSLƏR*

**M:1790.** Əgər bir şəxs qocalıq səbəbi ilə oruc tuta bilməsə, yaxud ona məşəqqəti olsa, oruc ona vacib deyil. Amma ikinci halda (məşəqqəti olan halda) hər gün üçün bir müdd təam (buğda, arpa və s.) fəqirə verməlidir.

**M:1791.** Qocalıq səbəbi ilə oruc tutmayan bir şəxs, Ramazan ayından sonra oruc tuta bilərsə, ehtiyat-müstəhəb budur ki, tutmadığı günlərin qəzasını tutsun.

**M:1792.** Əgər bir insan çox susuz olan və ya susuzluğa dözə bilməyən və ya susuzluğun məşəqqəti olan bir xəstəliyə tutularsa, oruc ona vacib deyil. Amma ikinci halda (məşəqqətli olan halda) hər gün üçün bir müdd təam fəqirə verməlidir. Ehtiyat-vacib budur ki, naçar olduğu miqdardan artıq su içməsin. Əgər sonradan oruc tuta bilərsə, tutmadıqlarının qəzasını tutmalıdır.

**M:1793.** Doğum vaxtı yaxınlaşan və oruc tutmağın bətnindəki uşağa zərəri olan qadına oruc vacib deyil. Həmçinin, əgər orucun onun özü üçün də zərəri olsa, oruc ona vacib deyil. Bu halda hər gün üçün bir müdd təam fəqirə verməlidir. Hər iki halda isə tutmadığı günlərin qəzasını etməlidir.

**M:1794.** Uşağa süd verən və südü az olan–qadın istər uşağın anası olsun, istər dayəsi, istərsə də uşağa muzd almadan süd verən bir şəxsin oruc tutması süd verdiyi uşağa zərər versə, oruc ona vacib deyil. Habelə, əgər özü üçün də zərəri olsa, oruc ona vacib deyil. Bu halda gərək hər gün üçün bir müdd təam fəqirə versin. Hər iki halda isə tutmadığı orucların qəzasını etməlidir. Amma

uşağa muzd almadan süd verən bir kəs tapılsa, yaxud uşağa süd vermək üçün onun ata-anasından və ya başqa şəxslərdən birinin verdiyi muzdu alan bir kəs tapılsa, uşağı ona verib oruc tutmalıdır.

### *AYIN ƏVVƏLİNİN SÜBUT OLUNMASI YOLLARI*

**M:1795.** Ayın əvəli bir neçə yolla sübut olunur:

**1-**İnsanın özü ayı görsə;

**2-**Sözlərindən yəqin hasil olan bir neçə nəfər “ayı gördük” desələr, həmçinin, yəqinlik hasil olan hər şeyin vastəsi ilə;

**3-**Şə’ban ayının əvvəlindən 30 gün keçmiş olsa, bunun vasitəsi ilə Ramazan ayının əvvəli olması sübuta yetir. Yaxud Ramazan ayının əvvəlindən 30 gün keçsə, bu halda şəvval ayının olması sübut olunur.

**4-**İki adil kişi “gecə ayı görmüşük” deyə xəbər versələr, amma ayın xüsusiyyətlərini bir-birinin əksinə desələr, yaxud verdikləri şəhadət həqiqətin xilafına olsa (məsələn, “ayın dairəsi üfüq tərəfində idi” deyə xəbər versələr) ayın əvvəli olması sübuta yetmir. Amma əgər bə’zi xüsusiyyətləri ayırd etməkdə ixtilaflı olsalar (məsələn, biri “ay ucada idi”, digəri isə “ay ucada deyildi” desə), onların deməsi ilə ayın əvvəli olması sübuta yetir.

**5-**Cameüş-şərait müctehid ayın əvvəli olmasına dair hökm versə.

**M:1796.** Əgər cameüş-şərait müctehid ayın əvvəli olmasını hökm etsə, hətta ona təqlid etməyən şəxslər də onun hökmünə əməl etməlidirlər. Amma cameüş-şərait müctehidin səhv etdiyini bilən bir şəxs, onun hökmünə əməl edə bilməz.

**M:1797.** Ayın əvvəli astronomların qabaqcadan verdikləri xəbərə əsasən sübuta yetmir. Amma əgər bir şəxs üçün onların dediklərindən yəqin hasil olsa, gərək ona əməl etsin.

**M:1798.** Ayın yuxarıda olması, yaxud gec batması keçən gecənin ayın əvvəli olmasına dəlil ola bilməz.

**M:1799.** Əgər bir kəs üçün Ramazan ayının əvvəli olması sübuta yetməsə və oruc tutmasa, sonradan iki adil kişi “keçən gecə ayı görmüşük” deyə xəbər versələr, o şəxs həmin günün qəzasını tutmalıdır.

**M:1800.** Əgər bir şəhərdə ayın əvvəli olması sübuta yetsə, onun başqa şəhər camaatı üçün faydası yoxdur. Amma o iki şəhər bir-birinə çox yaxın olarsa, yaxud insan o şəhər-lərin şər’i üfüqlərinin bir olmasını bilsə, sübut olunur.

**M:1801.** Ayın əvvəli teleqraf yolu ilə bir şəhərdən başqasına verilən xəbərlə sübuta yetmir. Amma əgər bir şəhərdən başqa şəhərə teleqrafla xəbər verilsə və bu iki şəhər bir-birinə yaxın, yaxud üfüqləri eyni olsa, insan da teleqrafın cameüş-şərait müctehidin hökmü, yaxud iki adil şəxsin şəhadəti əsasında olduğunu bilsə, sübuta yetir.

**M:1802.** Ramazan ayının axırı, yaxud şəvvalın əvvəli olmasını bilməyən bir şəxs, oruc tutmalıdır. Amma məğribdən qabaq şəvvalın əvvəli olduğunu bilsə, orucunu açmalıdır.

**M:1803.** Əgər zindanda olan bir kəs, ayın əvvəli olmasına yəqin edə bilməsə, öz gümanına əməl etməlidir. Bu da mümkün olmasa hər ayı oruc tutsa səhihdir və oruc tutduğu aydan 11 ay keçdikdən sonra yenidən bir ay oruc tutsa və sonradan onun xilafı mə'lum olsa, orucu səhihdir. Amma hələ Ramazan ayının gəlib çatmadığı mə'lum olsa, yenidən oruc tutmalıdır.

## *MƏKRUH VƏ HARAM ORUCLAR*

**M:1804.** Fitr və Qurban bayramları günündə oruc tutmaq haramdır. Həmçinin şə'banın axırı yoxsa Ramazanın əvvəli olması mə'lum olmayan gündə Ramazan ayının əvvəli niyyəti ilə oruc tutmaq haramdır.

**M:1805.** Əgər qadının müstəhəb oruc tutması səbəbilə ərinin haqqı aradan gedərsə, oruc tutması caiz deyil. Hətta ərinin haqqı aradan getməsə də, amma əri onun müstəhəb oruc tutmasına mane olsa, ehtiyat-vacibə görə oruc tutmamalıdır.

**M:1806.** Övladın müstəhəb oruc tutması ata-ananın, yaxud babanın əziyyətə düşməsinə səbəb olsa, caiz deyil. Hətta əgər onların əziyyətə düşmələrinə səbəb olmasa, amma onun müstəhəb oruc tutmasına mane olsalar ehtiyat-vacibə görə gərək oruc tutmasın.

**M:1807.** Əgər oğul atanın icazəsi olmadan müstəhəb oruc tutsa və gün əsnasında ata onu nəhy etsə orucunu açmalıdır.

**M:1808.** Orucun zərəri olmadığını bilən bir kəs, hətta həkim "zərəri var", desə də oruc tutmalıdır. Orucun zərərli olmasına yəqini, yaxud gümanı olan bir kəsə, hətta həkim "zərəri yoxdur", desə gərək oruc tutmasın. Əgər oruc tutsa səhih deyildir. Amma əgər qürbət qəsdi ilə tutsa və sonradan zərərli olmadığı mə'lum olsa, səhihdir.

**M:1809.** Əgər insan orucun zərərli olmasını ehtimal versə və bu ehtimaldan onun üçün qorxu törənsə, bu halda onun ehtimalı camaatın nəzərində yerli ehtimal olsa, gərək oruc tutmasın. Əgər oruc tutsa səhih deyildir. Amma əgər qürbət qəsdi ilə tutsa və sonradan zərərli olmaması mə'lum olsa səhihdir.

**M:1810.** Bir kəs orucun ona zərərli olmamasına əqidəsi olan halda oruc tutub məğribdən sonra zərərli olmasını başa düşsə o günün qəzasını tutmalıdır.

**M:1811.** Qeyd olunan günlərdən başqa yenə də oruc tutulması haram olan günlər var ki, müfəssəl fiqhi kitablarda deyilmişdir.

**M:1812.** "Aşura" gününün, habelə Ərəfə, yaxud Qurban bayramı günü olmasında şəkk olan günün orucu məkruhdur. Amma müstəhəbdir ki, insan "Aşura" günü əsrə qədər oruc qəsdi olmadan yeyib-içməkdən çəkinsin.

## *MÜSTƏHƏB ORUCLAR*

**M:1813.** Məkruh və haram günlərdən başqa ilin bütün günlərində oruc tutmaq müstəhəbdir. Bə'zi günlərdə oruc tutmaq üçün daha artıq sifariş olunmuşdur. O cümlədən:

**1**-Hər ayın birinci və axırıncı cümə axşamı günləri, ayın 10-dan sonra olan birinci çərşənbə; əgər bir kəs bunları tuta bilməsə, müstəhəbdir ki, qəza etsin. Əgər qayda üzrə oruc tuta bilməsə, müstəhəbdir ki, hər gün üçün bir müdd təam, yaxud 12,6 noxud gümüş fəqirə versin.

**2**-Hər ayın 13, 14, 15-ci günləri;

**3**-Rəcəb və Şə'ban aylarının hamısı və onlardan bə'zi günlər, hətta bir gün də olsa belə;

**4**-Novruz bayramı günü, Zilqə'dənin 25-ci və 29-cu günü, Zilhəccənin birindən 10-a kimi, "Ərəfə' günü. Amma əgər zəiflik səbəbilə "Ərəfə' gününün dualarını oxuya bilməsə, o günün orucu məkruhdur. Habelə "Qədir-Xum" bayramında (18 Zilhəccə), Məhərrəm ayının 1-i və 3, Peyğəmbəri Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-in səadətli miladı (17 Rəbiül-əvvəl) və be'səti (27 Rəcəb).

Əgər bir kəs müstəhəb oruc tutsa, onu axıra çatdırması vacib deyil. Hətta əgər mö'min qardaşı onu yeməyə də'vət etsə, müstəhəbdir ki, onun də'vətini qəbul edib günün ortasında iftarını açsın.

## *ORUCU BATİL EDƏN İŞLƏRDƏN ÇƏKİNMƏYİN MÜSTƏHƏB OLDUĞU YERLƏR*

**M:1814.** Altı nəfər üçün Ramazan ayında oruc tutmamalarına baxmayaraq, müstəhəbdir ki, orucu batil edən işlərdən çəkinsinlər.

**1**-Səfərdə orucu batil edən işlərdən görüb zöhrdən qabaq vətəninə və ya 10 gün qalmaq istədiyi yerə çatan şəxs;

**2**-Zöhrdən sonra vətəninə, yaxud 10 gün qalmaq istədiyi yerə çatan müsafir;

**3**-Zöhrdən qabaq sağalan və orucu batil edən işlərdən birini görən xəstə;

**4**-Zöhrdən sonra sağalan xəstə;

**5**-Gün əsnasında heyz və ya nifas qanından pak olan qadın;

**6**-Ramazan ayı günləri əsnasında müsəlman olan kafir.

**M:1815.** Müstəhəbdir ki, oruc tutan şəxs məğrib və işa namazını iftardan qabaq qılsın. Amma əgər bir kəs onu gözləyirsə, yaxud yeməyə daha çox meyli varsa və nəticədə hüzuri-qəlb ilə namaz qıla bilməzsə, yaxşı olar ki, əvvəl iftar edib sonra namazı, mümkün olan qədər fəzilətli vaxtında qılsın.

## XUMSUN HÖKMLƏRİ

**M:1816.** Yeddi şeydə xums vacibdir: **1-**Qazanc mənfəəti; **2-**Mə’dən; **3-**Xəzinə; **4-**Harama qarışmış halal mal; **5-**Suya cummaq vasitəsilə əldə edilən cəvahirat; **6-**Müharibə qənimətləri; **7-**Zimmi kafirin[24] müsəlmandan aldığı torpaq. (Bunların hər birinin hökmü müfəssəl deyiləcək.)

### *1-QAZANC MƏNFƏƏTİ*

**M:1817.** Əgər insan ticarətdən, sənətkarlıqdan, yaxud sair qazanc yerlərindən müəyyən qədər qazanc əldə etsə, məsələn, meyyitin namaz, orucunun qəzasını muzdla yerinə yetirsə və ona verilən muzddan müəyyən sərvət əldə etsə, bu halda bu özünün və ailəsinin illik xərclərindən artıq qalsa, onda xumsunu, yə’ni beşdən birini sonradan deyiləcək göstərişlərə əsasən versin.

**M:1818.** Əgər qazancdan başqa bir şey insanın əlinə gəlsə, (məsələn, ona bir şey bağışlasalar), bu halda onun illik xərclərindən çox olsa, ehtiyat-vacib budur ki, onun da xumsunu versin.

**M:1819.** Qadının aldığı mehriyyənin xumsu yoxdur. Habelə, insana çatan irs də eyni ilə. Amma insanın bir kəslə qohumluğu olsa və ondan irs aparmağa gümanı olmadığı halda (elə həmin cəhətdən) irs çatsa ehtiyat-vacib budur ki, ondan çatan irs illik xərclərindən çox olsa xumsunu versin.

**M:1820.** Əgər bir kəsə müəyyən miqdarda mal irs çatsa və malı irs çatan şəxsin, öz malının xumsunu vermədiyini bilsə, onun xumsunu verməlidir. Həmçinin əgər o malın özündə xums olmasa, amma malı irs olaraq ona çatan şəxsin xums borcu olduğunu bilsə, gərək xumsu onun malından versin.

**M:1821.** Əgər qənaət etməklə müəyyən bir şey illik xərclərdən artıq qalsa, onun da xumsunu verməlidir.

**M:1822.** Əgər bir kəsin xərclərini başqaları verirsə, əldə etdiyi bütün malın xumsunu verməlidir. Amma əgər onun müəyyən miqdarını ziyarətə və s.-yə xərcləsə, yerdə qalanların xumsunu verməlidir.

**M:1823.** Əgər bir kəs hər hansı bir mülkü müəyyən şəxslərə (məsələn, öz övladlarına) vəqf etsə və o mülkdə ağac, əkin əkilib müəyyən gəlir əldə olunsa və illik xərclərdən artıq qalsa, xumsu verilməlidir.

**M:1824.** Əgər fəqirin xums və ya zəkat kimi aldığı şeylər illik xərclərindən çox olsa, onun xumsunu verməsi vacib deyil. Amma əgər ona verilən maldan müəyyən mənfəət əldə etsə (məsələn, ona xums kimi verilən ağacdan məhsul əldə etsə) və illik xərclərindən də artıq olsa, onun xumsunu verməlidir. Ehtiyat budur ki, fəqir, müstəhəb sədəqə kimi aldığı malın, xumsunu versin.

---

[24]İslam dövlətinin himayəsində yaşayıb onun qanunlarına itaət edən kafir.

**M:1825.** Əgər bir kəs xumsu verilməmiş pulun eyni ilə müəyyən bir şey alsa (yə'ni satıcıya "bu malı bu pul ilə alıram desə), bu halda cameüş-şərait müctehid onun beşdə bir hissəsinin müamiləsinə icazə versə, o miqdarın müamiləsi səhihdir. Və o, aldığı malın beşdən birini cameüş-şərait müctehidə verməlidir; yox əgər icazə verməsə, həmin miqdarın müamiləsi batildir. Bu halda satıcının aldığı pul aradan getməyibsə, cameüş-şərait müctehid o pulun xumsunu almalıdır. Əks halda, xumsun əvəzini ya satıcıdan, ya da alıcıdan tələb edəcək.

**M:1826.** Əgər bir kəs müəyyən bir malı alıb müamilədən sonra onun pulunu xumsu verilməmiş puldan versə müamiləsi səhihdir, amma xumsu verilməyən pulu satıcıya verdiyindən, o pulun beşdən biri qədər ona borclu olur; satıcıya verdiyi pul aradan getməyibsə, cameüş-şərait müctehid onun beşdən birini almalıdır; yox əgər aradan getmiş olsa, onun əvəzini satıcıdan və ya alıcıdan tələb etməlidir.

**M:1827.** Bir kəs xumsu verilməmiş bir şeyi alsa və cameüş-şərait müctehid onun beşdən birinin müamiləsinə icazə verməsə, o miqdarın müamiləsi batildir. Cameüş-şərait müctehid o malın beşdən birini ala bilər; yox əgər icazə vermiş olsa müamilə səhihdir və alıcı onun pulunun beşdən birini cameüş-şərait müctehidə verməlidir. Əgər satıcıya vermişsə, ondan geri ala bilər.

**M:1828.** Əgər xumsu verilməyən bir şeyi bir kəsə bağışlasa, o şeyin beşdən biri həmin şəxsin malı deyildir.

**M:1829.** Əgər insanın əlinə kafirdən, yaxud xums verməyə e'tiqadı olmayan bir şəxsdən müəyyən qədər mal düşsə, onun xumsunu verməsi vacib deyil.

**M:1830.** Tacir, qazanc əldə edən, sənətkar və s. kimi şəxslər işə başladığı vaxtdan bir il keçəndə, illik xərclərindən artıq qalanın xumsunu verməlidirlər. Amma peşəsi kəsb-ticarət olmayan bir kəs, təsadüfən müəyyən qədər mənfəət əldə etsə, ondan bir il keçdikdən sonra illik xərclərindən artıq qalan hissəsinin xumsunu verməlidir.

**M:1831.** İnsan, ilin əsnasında hər vaxt mənfəət əldə etsə, onun xumsunun verə bilər. Xums verməyi ilin axırına qədər tə'xirə salmaq da caizdir. Əgər xumsu vermək üçün şəmsi ili başlanğıc götürsə maneəsi yoxdur.

**M:1832.** Tacir, qazanc edən şəxs kimi xums üçün il tə'yin etməli olan bir şəxs, mənfəət əldə edib ilin əsnasında ölsə, ölümünə qədər olan xərclərini o mənfəətdən çıxıb yerdə qalanın xumsunu verməlidirlər.

**M:1833.** Əgər bir kəsin ticarət üçün aldığı mallarının qiyməti bahalaşsa və onu satmasa, yenidən, ilin ortasında qiyməti aşağı düşsə, qiymətlər bahalanan miqdarın xumsu ona vacib deyil.

**M:1834.** Əgər ticarət üçün aldığı malların qiyməti bahalansa və daha da bahalanacağı ümidi ilə il başa çatandan sonraya qədər satmasa və sonradan qiymətlər aşağı düşsə, bahalanan miqdarın xumsu vacibdir. Hətta əgər tacirlərin

adətən qiymətlərin bahalaşması üçün saxladıqları vaxta qədər də saxlasa, bahalaşan miqdarın xumsunu verməlidir.

**M:1835.** Əgər ticarət malından başqa xumsunu vermiş olduğu və ya ümumiyyətlə xumsu olmayan malı olsa, bu halda qiyməti bahalanandan sonra satsa, qiymətinə əlavə olunan miqdarın xumsu vardır. Amma əgər, misal üçün, aldığı ağac məhsul versə və ya qoyunu kökəlsə, bu halda onu saxlamaqdan məqsədi mənfəət əldə etmək olmuşdursa, artan hissənin xumsunu verməlidir.

**M:1836.** Əgər qiyməti bahalanandan sonra satmaq məqsədi ilə bağ salsa, onun meyvəsinin və ağaclarının artımının və bağın qiymətinin artıq qalan miqdarının xumsunu verməlidir. Amma əgər məqsədi meyvəsindən istifadə etmək olmuşsa, təkcə meyvələrin xumsunu verməlidir. Ehtiyata görə ağacların artımının da xumsunu verməlidir.

**M:1837.** Əgər söyüd, çinar və s. kimi ağac əkib hətta onların satılmalı vaxtına çatdığı ildə satmasa da xumsunu verməlidir. Amma əgər, misal üçün, hər ildə adətən qırılan budaqlardan istifadə etsə və onlar təklikdə və ya illik mənfəətlərlə birlikdə illik xərclərindən artıq olsa, ilin axırında onun xumsunu verməlidir.

**M:1838.** Bir neçə işi, kəsbi olan bir kəs (müəyyən bir mülkü icarəyə verən, al-ver, əkinçilik edən və s.) ilin axırında illik xərclərindən artıq qalan hissənin xumsunu verməlidir. Amma əgər bir sahədən qazanıb digər sahədə zərərə düşsə, ehtiyat-vacibə görə əldə etdiyi mənfəətin xumsunu verməlidir. Amma əgər iki ticarəti olsa və birindən mənfəət qazanıb, digərindən isə zərərə düşsə, zərərini mənfəətdən ödəyə bilər.

**M:1839.** Fayda əldə etmək (dəllallıq, yükdaşıma və s.) üçün insanın etdiyi xərclər illik xərclərindən hesab olunmalıdır.

**M:1840.** İl boyunda qazanc mənfəətindən yeyib-içmək, geymək, mənzil və mənzil avadanlığı almaq, toy etmək, cehizlik almaq, ziyarət və s. kimi şeylərə məsrəf olunan miqdar əgər həmin şəxsin layiqindən, şə’nindən çox olmasa və adətən ehtiyacı olan vaxt hazırlayıb ifrat etməmiş olsa, onların xumsu yoxdur.

**M:1841.** İnsanın nəzirə, kəffarəyə məsrəf etdiyi mal, illik xərclərindən hesab olunur. Həmçinin, bir kəsə bağışladığı, hədiyyə və mükafat verdiyi şeylər onun layiqindən artıq olmasa, illik xərclərindən hesab olunur.

**M:1842.** Əgər insan qızının cehizliyini bir yerdə ala bilməsə və hər il müəyyən miqdarını almağa məcbur olsa, yaxud adətən hər il cehizliyin müəyyən miqdarı alınan bir şəhərdə olsa və onları da hazırlamağa ehtiyac duyulursa, bu halda il boyu o ilin mənfəətlərindən cehizlik alsa, onun xumsunu verməməlidir. Əgər o ilin mənfəətindən gələsi il cehiz alsa, onun xumsunu verməlidir.

**M:1843.** Həcc və s. ziyarətlərdə səfər xərci kimi sərf olunan mal, minik vasitəsi kimi eyni qalıb mənfəətindən (yenidən) istifadə olunan şeylərdən olsa,

hətta onun səfəri sonrakı ilin bir hissəsinə qədər gedib çatsa da, səfər etməyə başladığı ilin xərclərindən hesab olunacaq. Amma əgər yeyinti məhsulları kimi aradan gedənlərdən olsa sonrakı ildə vaqe olanların xumsunu verməlidir.

**M:1844.** Kəsb və ticarətdən müəyyən qədər gəlir əldə edən bir kəsin xumsu vacib olmayan başqa malı da olsa, illik xərclərini həmin kəsb-ticarətin gəlirindən hesab edə bilər.

**M:1845.** Əgər qazanc mənfəətindən illik məsrəf olunan azuqə alsa və ilin axırında artıq qalsa, artıq qalanın xumsunu verməlidir. Əgər onun qiymətini hesablayıb pulunun xumsunu vermək istəsə və qiyməti, aldığı vaxtdakı qiymətdən artıq olarsa, ilin axırındakı qiymətlə hesab etməlidir.

**M:1846.** Əgər qazanc mənfəətinin xumsunu verməmişdən qabaq mənzil üçün avadanlıq alsa və ehtiyacı tə'min olunsa, onun xumsunu verməsi vacibdir. Həmçinin, qadınların zinət əşyaları eyni qayda ilə: əgər onların vaxtı keçmiş olarsa, onun da xumsunu verməlidir.

**M:1847.** Əgər bir ildə mənfəət əldə edə bilməsə o ilin xərclərini sonrakı iki ildən sonra əldə edəcəyi mənfəətdən çıxa bilməz.

**M:1848.** Əgər ilin əvvəlində mənfəət əldə etməyib sərmayədən xərcləsə və ilin tamam olmasından qabaq müəyyən mənfəət də əldə etsə, sərmayədən götürdüyü miqdarı mənfəətdən çıxa bilər.

**M:1849.** Əgər bir sahənin qazancı sərmayəsindən bir miqdarı tələf, yaxud müamilədə zərər səbəbi ilə (təqsir olmadan) azalsa, yaxud aradan getsə və yerdə qalan sahədən illik xərclərindən çox olan müəyyən mənfəət qazansa, sərmayəsindən azalan miqdarı mənfəətdən götürə bilər.

**M:1850.** Əgər sərmayədən başqa bir şey mallarından aradan getsə əlinə gələn mənfəətdən o şeyi hazırlaya bilməz. Amma həmin ildə o şeyə ehtiyacı olsa həmin il boyundakı qazanc mənfəətlərindən o şeyi hazırlaya bilər.

**M:1851.** Əgər ilin əvvəlində öz xərcləri üçün borc etsə və ilin qurtarmasından qabaq mənfəət əldə etsə, öz borcunun miqdarını o mənfəətdən çıxa bilməz.

**M:1852.** Əgər bütün il boyu mənfəət əldə etməsə və öz xərclərini tə'min etmək üçün borc etsə borcunun miqdarını sonrakı illərin mənfəətlərindən çıxa bilməz. Bu və əvvəlki məsələdəki surətdə öz borcunu, ilin əsnasındakı mənfəətlərindən verə bilər və o miqdara xums düşmür.

**M:1853.** Əgər mal-dövlətini çoxaltmaq, yaxud ehtiyacı olmadığı bir mülkü almaq üçün borc etsə qazanc mənfəətindən o borcu verə bilməz. Və əgər borc etdiyi mal və borc pulla aldığı şey aradan getsə və borcunu verməyə naçar olsa, qazanc mənfəətindən borcunu ödəyə bilər.

**M:1854.** İnsan hər şeyin xumsunu həmin şeyin özündən, yaxud borclu olduğu xumsun qiymətini pul ilə verə bilər. Amma başqa bir mal vermək istəsə, məhəli-işkaldır. Ancaq cameüş-şərait müştehidin icazəsi ilə olsa, eybi yoxdur.

**M:1855.** Nə qədər ki, malın xumsunu verməyib o malda, xums vermək qəsdi olmasına baxmayaraq, təssərüf etmək olmaz.

**M:1856.** Xums borcu olan bir kəs onu zimməsinə ala bilməz. Yə'ni, özünü xums əhlinə borclu hesab edə bilməz və malının hamısında təssərüf edə bilməz. Əgər təssərüf etsə və o mal tələf olub aradan getsə, xumsunu verməlidir.

**M:1857.** Xums borcu olan bir kəs cameüş-şərait müctehidlə razılaşsa, malının hamısında təsərrüf edə bilər. Razılaşmadan sonra ondan əldə olunan mənfəətlər onun öz malıdır.

**M:1858.** Başqası ilə şərik olan bir kəs öz mənfəətlərinin xumsunu versə, şəriki isə verməsə və sonrakı ildə xumsunu vermədiyi maldan şirkətin sərmayəsi üçün qoysa heç biri orada təsərrüf edə bilməzlər.

**M:1859.** Əgər səğir uşağın sərmayəsi olsa və ondan müəyyən mənfəət əldə olunsa, uşağın qəyyumuna vacibdir ki, o həddi-büluğa çatmamışdan qabaq onun xumsunu versin.

**M:1860.** İnsan xumsunun verilmədiyinə yəqini olan malda təsərrüf edə bilməz. Amma xumsunu verib-verməməsində şəkk etdiyi malda təsərrüf edə bilər.

**M:1861.** Əgər təklifin əvvəlindən xumsunu verməyən bir kəs mülk alsa və onun qiyməti bahalaşsa, bu halda həmin mülkü bahalaşandan sonra satmaq niyyəti ilə almaq olmayıbsa (məsələn, müəyyən torpaq sahəsini əkin üçün alsa) və xumsu verilməmiş pulu satıcıya verib ona: "Bu mülkü bu pulla alıram" desə, bu halda cameüş-şərait müctehid onun beşdə birinin müamiləsinə icazə versə alıcı o mülkün dəyərinin xumsunu verməlidir.

**M:1862.** Təklifin (həddi-büluğa çatdığı vaxtın) əvvəlindən xums verməyən bir şəxs qazanc mənfəətindən ehtiyacı olmayan bir şey alsa və üstündən bir il keçsə xumsunu verməlidir. Əgər ehtiyacı olan və şə'ninə yaraşan ev əşyaları, mənzil avadanlığı və s. alsa onda fayda əldə etdiyi ilin əsnasında onları aldığını bilsə, xumsunu verməsi lazım deyil. İl boyunda, yaxud il tamam olandan sonra almasını bilməsə ehtiyat-vacib budur ki, cameüş-şərait müctehidlə razılaşsın.

### *2-MƏ'DƏN*

**M:1863.** Əgər mə'dəndən qızıl, gümüş, bürünc, mis, dəmir, neft, daş kömür, fürуzə, əqiq, mineral maddələr, duz və ümumiyyətlə "mə'dən qazıntıları" adlana bilən hər şey əldə olunsa, nisab həddinə çatanda xumsu verilməlidir.

**M:1864.** Ehtiyata əsasən, mə'dəndən çıxarılan şeylərin nisabı 105 gümüş, yaxud 15 qızıl misqal qədərdir. Ehtiyat-vacib budur ki, nisab, mə'dəndən çıxarılan şeylərin ixracına, saflaşdırılmasına, e'malına çəkilən xərcləri çıxmazdan qabaq hesab olunsun. Lakin, xumsu verilməli olan miqdar xərclər çıxıldıqdan sonradır.

**M:1875.** Mə’dəndən çıxarılan şey nisab həddinə çatmasa və təklikdə, yaxud başqa qazanc mənfəətləri ilə birlikdə illik xərclərdən artıq olsa xumsunu vermək vacibdir.

**M:1866.** Gəc, əhəng, baş yumaq üçün istifadə olunan gil (gilabı), qırmızı gil ehtiyat-vacibə görə mə’dən qazıntılarından hesab olunur və xumsu vardır.

**M:1867.** Əgər bir kəs mə’dəndən bir şey əldə etsə, xumsunu verməlidir. İstər mə’dən yerin səthində olsun, istərsə də dərinliyində; istər mülkdə olsun, istərsə də sahibi olmayan bir yerdə.

**M:1868.** Əgər mə’dəndən çıxartdığı şeyin nisab həddinə çatıb-çatmamasında şəkk etsə ehtiyat-vacib buduır ki, yoxlasın, yə’ni, çəkməklə, yaxud başqa yollarla qiymətini tə’yin etsin.

**M:1869.** Əgər bir neçə nəfər birlikdə mə’dəndən bir şey çıxartsalar, onun üçün sərf edilən xərcləri çıxdıqdan sonra hansının payı 105 misqal gümüş, yaxud 15 misqal qızıla çatsa xumsunu verməlidirlər.

**M:1870.** Başqasının mülkündə olan bir mə’dəni, sahibinin icazəsi olmadan istixrac etsələr əldə olunan şeylər mülkün sahibinə məxsusdur. Mülkün sahibi onların çıxarılmasına bir şey xərcləmədiyindən, mə’dəndən çıxarılanların hamısının xumsunu verməlidir.

**M:1871.** Mə’dəndən bir şey çıxartmaq üçün muzdla adam tutmaq caizdir. Əcir tutulan şəxs xüsusi şəraitdə olsa, yə’ni, bütün mənfəətlər, yaxud çıxartmağa məxsus olan mənfəəti icarə edən üçün olarsa, icarə verən mə’dənin maliki olur. Amma əgər əcir tutulan şəxs ümumi halda (şərtsiz) tutulsa və özünün sahib olmasını qəsd etsə, malik olur.

**M:1872.** Əgər mə’dən abadlıq yerdə olsa və müsəlmanlar onu zorla, qələbə ilə əldə etmiş olsalar (İran və İraqın əksər əraziləri kimi), bu halda bir müsəlman o mə’dəni istixrac etsə, onun maliki olur və xumsunu da verməlidir. Əgər qeyri-müsəlman istixrac etsə, maliki olmur. Əgər kafir şəxs müəyyən bir mə’dəni, müsəlmanların fəth etdiyi halda ölü torpaqlar (məvat) sırasında olan yerdən istixrac etsə onun maliki olmur.

## *3-XƏZİNƏ*

**M:1873.** Xəzinə o mala deyilir ki, yerdə, ağacda, dağda, divarda gizlədilmiş olsun və bir kəs də onu tapsın. Elə olmalıdır ki, ona xəzinə deyilsin.

**M:1874.** Əgər insan heç kəsin mülkü olmayan yerdə müəyyən qədər xəzinə tapsa onun özünün malıdır, xumsunu da verməlidir.

**M:1875.** Xəzinənin nisabı ehtiyata görə 105 misqal gümüş, yaxud 15 misqal qızıldır. Yə’ni əgər xəzinədən əldə edilən şeyin qiyməti, onu əldə etmək üçün sərf olunan xərcləri çıxdıqdan sonra 105 misqal sikkəli gümüş, yaxud 15 misqal sikkəli qızıla çatsa ehtiyat-vacibə görə xumsu verilməlidir.

**M:1876.** Əgər insan başqasından aldığı torpaqdan müəyyən qədər xəzinə tapsa və əvvələr o yerin maliki olan şəxslərin olmadığını bilsə, onun özünün malı olur, xumsunu da verməlidir. Amma əgər onun əvvəlki sahiblərindən birinin malı olduğunu ehtimal versə ona xəbər verməlidir. Onun da malı olmadığı mə'lum olsa həmin yerin qabaqca malik olduğu kəsə xəbər verməlidir və bu qayda ilə, ehtiyat-vacibə görə ondan qabaq həmin torpağın sahibi olan şəxslərin hamısına xəbər verməlidir. Əgər onlardan heç birinin olmadığı mə'lum olsa, öz malı hesab olunur və xumsunu da verməlidir.

**M:1877.** Əgər bir yerdə basdırılmış bir neçə qabda müəyyən qədər xəzinə tapsa və onların qiyməti üst-üstə 15 qızıl misqala çatsa, xumsunu verməlidir. Amma bir neçə yerdə tapsa (yə'ni, ayrı-ayrı yerlərdə) onlardan hər birinin qiyməti bu miqdara çatsa, onun xumsu vacibdir, qiyməti bu miqdara çatmayanların isə xumsu yoxdur.

**M:1878.** Əgər iki nəfər birlikdə müəyyən qədər xəzinə tapsalar və onun qiyməti 15 misqal sikkəli qızıla çatsa, onların hər birinin payının ayrılıqda bu miqdara çatmamasına baxmayaraq xumsunu verməlidirlər.

**M:1879.** Əgər bir kəs bir heyvan alıb qarnından müəyyən mal tapsa və satıcının malı olduğunu ehtimal versə, ona xəbər verməlidir. Onun malı olmaması mə'lum olarsa ehtiyat-vacibə görə tərtiblə əvvəlki sahiblərinə də xəbər verməlidir. Onlardan heç birinin malı olmadığı mə'lum olsa və qiyməti hətta 105 gümüş, yaxud 15 qızıl misqal olmasa da, ehtiyat-vacibə görə xumsunu verməlidir. Amma əgər balıq alıb qarnından gövhər tapsa, öz malıdır. Balığı ovlayana, yaxud satana xəbər verməsi lazım deyil. Ehtiyat-vacibə görə xumsunu da verməlidir.

### *4-HARAMA QARIŞAN HALAL MAL*

**M:1880.** Əgər halal mal, haram mala, ayrıd edilə bilməyəcəyi tərzdə qarışsa və haram malın sahibi və miqdarı–heç biri mə'lum olmasa, bütün malın xumsu verilməlidir. Xumsu verildikdən sonra qalan mal halal olur. Ehtiyat-vacibə görə bu xumsu "ma fizzimmə' qəsdi ilə (istilahi və sədəqə xumsundan daha geniş mə'nada) onun sahibi tərəfindən verməlidir.

**M:1881.** Əgər halal mal harama qarışsa və insan haram malın miqdarını bilsə, ancaq sahibini tanımasa, o miqdarı sahibinin niyyəti ilə sədəqə verməlidir. Ehtiyat-vacib budur ki, cameüş-şərait müctehiddən də icazə alsın.

**M:1882.** Əgər halal mal harama qarışsa və insan haram malın miqdarını bilməsə, ancaq sahibini tanısa, gərək razılaşsınlar. Amma malın sahibi razı olmasa və insan müəyyən bir şeyin onun olduğunu bilib ondan artığın da onun malı olub-olmamasında şəkk etsə, yəqini olduğu miqdarı ona qaytarmalıdır. Ehtiyat-müstəhəb budur ki, onun olmasını ehtimal verdiyi artıq malı da ona versin.

**M:1883.** Əgər bir kəs harama qarışan halal malın xumsunu verib sonradan haram malın xumsun miqdarından artıq olduğunu bilsə, ehtiyat-müstəhəbbə görə gərək xumsdan artıq olduğunu bildiyi miqdarı onun sahibi tərəfindən sədəqə versin.

**M:1884.** Əgər harama qarışmış halal malın xumsunu versə və sonradan sahibi mə'lum olsa, onun boynuna heç nə gəlmir. Ancaq sahibini tanımadığı malı, onun niyyəti ilə sədəqə versə, sonra sahibi tapılsa onun malı miqdarında qaytarması vacibdir.

**M:1885.** Əgər halal mal harama qarışsa və haramın miqdarı mə'lum olsa, insan da onun sahibinin bir neçə nəfərdən başqası olmadığını bilib ancaq dəqiq şəkildə hansı olduğunu bilməsə, püşk atmalıdır: hər kəsin adına çıxsa, malı ona verməlidir.

### *5-SUYUN DİBİNƏ GİRMƏKLƏ ƏLDƏ OLUNAN CƏVAHİR*

**M:1886.** Əgər suyun dibinə girmək vasitəsilə lö'lö, mərcan, yaxud hamısı dənizdən çıxarılan başqa cəvahir–istər göyərənlərdən olsun, istərsə də mə'dən şeylərindən–onların çıxarılmasına sərf edilən xərclər çıxıldıqdan sonra qiyməti 18 qızıl noxuda çatarsa xumsunu verməlidir; istər bir dəfəyə, istərsə də bir neçə dəfəyə dəryadan çıxarmış olsun; istər çıxartdığı şey bir növdən olsun, istərsə də bir neçə növdən. Amma əgər onu bir neçə nəfər birlikdə çıxartmış olsalar, onda hər hansının payı 18 qızıl noxuda çatsa, o, xumsunu verməlidir.

**M:1887.** Əgər dənizin dibinə girmədən, müəyyən vasitələrlə cəvahir çıxarılsa, ona sərf olunan xərclər çıxıldıqdan sonra, qiyməti 18 qızıl noxuda çatarsa, ehtiyat-müstəhəbbə görə gərək xumsunu versinlər. Amma suyun üzündən, yaxud sahildən cəvahir tapsa, onun xumsunu o vaxt verməlidir ki, bu iş onun daimi işi olsun və ayrılıqda, yaxud başqa mənfəətlərlə birlikdə illik xərclərindən çox olsun.

**M:1888.** İnsanın, dəryaya girmədən əldə etdiyi balıq və s. heyvanların xumsu o vaxt vacibdir ki, onları qazanc üçün tutsun və təklikdə, yaxud sair qazanc mənfəətləri ilə birlikdə illik xərclərindən çox olsun.

**M:1889.** Əgər insan, dəryadan bir şey çıxartmaq qəsdi olmadan dəryaya girsə və təsadüfən cəvahir tapsa, o şeyin öz mülkü olmasını qəsd etsə, xumsunu verməlidir.

**M:1890.** Əgər insan suyun altına gedib müəyyən bir heyvan tutsa və onun qarnından cəvahir tapsa, o cəvahirin qiyməti 18 qızıl noxud, yaxud ondan çox olsa, bu halda o heyvan, qarnında adətən cəvahir olanlardan (sədəf kimi) olsa, xumsunu verməlidir. Amma əgər o heyvan təsadüfən cəvahiri udmuş olsa ehtiyat-vacib xumsunu verməkdir.

**M:1891.** Əgər böyük çaylarda (Dəclə-Fərat və s. kimi) çaylara girib cəvahir çıxartsa, həmin çaylarda adətən cəvahir əldə olunursa, onun xumsunu verməlidir.

**M:1892.** Əgər insan suya girib müəyyən miqdar ənbər çıxartsa və onun qiyməti 18 qızıl noxud, yaxud daha artıq olsa, xumsunu verməlidir. Amma suyun üzündən, yaxud sahildən tapsa, bu halda qiyməti 18 qızıl noxuda çatmasa da, ehtiyata görə xumsu vacibdir.

**M:1893.** Əgər bir kəsin qazancı dəryaya girmək, yaxud mə'dən şeyləri çıxartmaqdırsa onların xumsunu versə və illik xərclərindən artıq qalsa, yenidən onların xumsunu verməsi lazım deyil.

**M:1894.** Əgər uşaq mə'dəndən müəyyən bir şey çıxartsa, yaxud onun harama qarışmış halal malı olsa, yaxud müəyyən xəzinə tapsa və ya dəryaya girib cəvahir əldə etsə, onun qəyyumu xumsunu verməlidir.

### *6-QƏNİMƏT*

**M:1895.** Qənimət məsələsi İmam (əleyhis-salam)-ın hazır olduğu zamana məxsus olduğundan, onun bəhsini etmirik.

### *7-ZİMMİ KAFİRİN MÜSƏLMANDAN ALDIĞI TORPAQ*

**M:1896.** Əgər zimmi kafir müsəlmandan müəyyən qədər torpaq alsa onun xumsunu həmin torpaqdan verməlidir. Əgər onun xumsunun pulunu da versə, eybi yoxdur. (Amma puldan başqa bir şey verərsə, cameüş-şərait müctehidin icazəsi ilə olmalıdır.) Həmçinin əgər ev, mağaza və s. kimi şeyləri müsəlmandan alsa, bu halda onun torpağını ayrılıqda hesab edib satsalar, xumsunu verməlidir. (Əgər dükanı və ya evi onun yeri ilə birlikdə satsalar və nəticədə torpaq sahəsi də təbii olaraq kafirin ixtiyarına keçsə, torpağın xumsunu vermək vacib deyil.) Bu xumsu verməkdə qürbət qəsdi lazım (ilzami) deyil. Hətta cameüş-şərait müctehidin də xumsu aldığı vaxt qürbət qəsdi etməsi lazım (ilzami) deyil.

**M:1897.** Əgər zimmi kafir müsəlmandan aldığı torpaq sahəsini başqa müsəlmana da satsa, gərək zimmi kafir onun xumsunu versin. Həmçinin əgər o ölsə və bir müsəlman o torpağı irs aparsa, onun xumsunu həmin torpaqdan, yaxud başqa malından verməlidir.

**M:1898.** Əgər zimmi kafir yeri alan zaman xums verməyəcəyini, yaxud satıcının onun xumsunu verməsini şərt etsə, onun şərti səhih deyil və xumsunu verməlidir. Amma əgər satıcının, xums miqdarını onun tərəfindən xums sahiblərinə verməsini şərt etsə eybi yoxdur.

**M:1899.** Əgər bir müsəlman müəyyən bir torpaq sahəsini al-ver qəsdi olmadan zimmi kafirin mülkünə keçirsə və onun əvəzini alsa (məsələn, onunla razılaşsa) zimmi kafir onun xumsunu verməlidir.

**M:1900.** Əgər zimmi kafir səğir olsa və onun qəyyumu onun üçün torpaq sahəsi alsa, yaxud irs vasitəsilə ona çatsa qəyyumuna vacibdir ki, onun xumsunu həmin torpaqdan, yaxud qiymətinin xumsunu versin.

### *XUMSUN MƏSRƏF OLUNMA YERLƏRİ*

**M:1901.** Xums iki yerə bölünməlidir: bir qismi seyyidlərindir. Ehtiyat-vacibə görə ya cameüş-şərait müctehidə, ya da onun icazəsi ilə fəqir, yetim, yaxud da səfərdə yolda qalmış seyyidlərə verilməlidir. Digər yarısı isə İmam (əleyhis-salam)-ın payıdır ki, bu zəmanəmizdə cameüş-şərait müctehidə verilməli, yaxud onun icazə verdiyi yerlərdə məsrəf olunmalıdır. Amma əgər insan İmam (əleyhis-salam)-ın payını təqlid etmədiyi bir müctehidə vermək istəsə, ona o vaxt icazə verilə bilər ki, o müctehidlə təqlid etdiyi müctehidin İmam (əleyhis-salam)-ın payını eyni tərzdə məsrəf etmələrini bilsin.

**M:1902.** Xums verilən yetim seyyid fəqir olmalıdır; ancaq səfərdə yolda qalan seyyid, hətta öz vətənində fəqir olmasa da, ona xums vermək olar.

**M:1903.** Səfərdə yolda qalan bir seyyidin səfəri günah səfəri olsa ehtiyat-vacibə görə ona xums verilməməlidir.

**M:1904.** Adil olmayan seyyidə xums vermək olar; amma 12 İmam (əleyhis-salam)-ı qəbul etməyən seyyidə xums vermək olmaz.

**M:1905.** Əgər günahkar seyyidə xums verilməsi onun günahlarına kömək olarsa, ona xums vermək olmaz. Amma aşkar surətdə günah edən seyyidə, hətta xumsun onun günahlarına kömək edən olmasa da, ehtiyat-vacibə görə ona xums verilməməlidir.

**M:1906.** Əgər bir kəs “seyyidəm”-desə, ona xums vermək olmaz. Amma iki nəfər adil şəxs onun seyyid olmasını təsdiq etsələr və ya camaat arasında məhşur olsa və nəticədə insan onun seyyid olmasını yəqinlik və ya xatircəmlik tapsa eybi yoxdur.

**M:1907.** Bir kəs öz məhəlləsində seyyid olması ilə məhşur olsa, hətta insanın onun seyyid olmasına yəqini olmasa da xums vermək olar–əgər onun seyyid olmasına e’timad taparsa.

**M:1908.** Arvadı seyyid olan bir kəsə, ehtiyat-vacibə görə xums verilməməlidir ki, öz xərclərinə sərf etsin. Amma əgər başqalarının xərci o qadına vacib olsa və onların xərclərini tə’min edə bilməsə, xumsu o qadına vermək caizdir ki, həmin işlərə məsrəf etsin.

**M:1909.** Əgər öz zövcəsi olmayan seyyidə qadının xərcləri insana vacib olsa, ehtiyat-vacibə görə onun yemək və geyimini xumsdan verə bilməz. Amma əgər xumsun bir miqdarını öz xərclərindən başqa şeylərə (xums verənə vacib olan xərclərə) sərf etsin deyə, onun mülkünə keçirsə, eybi yoxdur.

**M:1910.** Xərcləri başqa şəxslərə vacib olan fəqir və öz xərclərini tə’min edə bilməyən seyyidə xums vermək olar.

**M:1911.** Ehtiyat-vacib budur ki, bir seyyid fəqirə bir illik xərclərindən artıq miqdarda xums verilməsin.

**M:1912.** Əgər insanın yaşadığı şəhərdə müstəhəq[25] seyyid tapılmasa və tapılmasına da ehtimal verilməsə; yaxud müstəhəqqin tapılmasına qədər xumsu saxlamaq mümkün olmasa, onu başqa şəhərə aparıb müstəhəqlərə çatdırmalıdır. Onu aparmaq üçün lazım olan yol xərcini xumsdan götürə bilər. Amma əgər xums tələf olsa, bu halda onu saxlamaqda səhlənkarlıq etmişsə onun əvəzini verməlidir. Amma səhlənkarlıq etməmiş olsa, ona daha bir şey vacib deyil.

**M:1913.** Əgər xums verməli olan şəxs öz şəhərində müstəhəq tapmasa və tapılmasına ehtimal versə, xumsu müstəhəq tapılana qədər saxlamaq mümkün olsa da, başqa şəhərə apara bilər. Əgər onu saxlamaqda səhlənkarlıq etməsə və tələf olsa, bir şey verməməlidir. Amma xumsu o biri yerə aparmağın xərcini ondan götürə bilməz.

**M:1914.** Əgər bir şəxsin öz şəhərində müstəhəq tapılsa, yenə də xumsu başqa şəhərə aparıb müstəhəqqə çatdıra bilər. Amma bu halda onun yol xərclərini özü verməlidir və xums tələf olsa hətta onu saxlamaqda səhlənkarlıq etməsə də, zamindir.

**M:1915.** Əgər cameüş-şərait müctehidin icazəsi ilə xumsu başqa şəhərə aparsa və tələf olsa, yenidən xums verməsi lazım deyil. Əgər, cameüş-şərait müctehidin tərəfindən xumsu alıb o şəhərdən başqa şəhərə aparmağa vəkil olan kəsə versələr də, eyni qayda ilə.

**M:1916.** Əgər xumsu malın özündən deyil, cameüş-şərait müctehidin icazəsi ilə başqa maldan versə, o malın həqiqi qiyməti ilə hesablamalıdır. Əgər öz qiymətindən baha hesablasa, müstəhəqqin o qiymətlə razılaşmasına baxmayaraq, artıq hesabladığı miqdarı verməlidir.

**M:1917.** Müstəhəq şəxslərdə borcu olan bir kəs öz borcunu xumsdan hesab etmək istəsə, ehtiyat-vacibə görə xumsu ona verməlidir, sonra isə müstəhəq borcunu ona qaytarmalıdır.

**M:1918.** Müstəhəq şəxs xumsu alıb onu verənə bağışlaya bilməz. Amma çoxlu miqdarda xums borcu olub özü də fəqir olan, sonradan varlanmağa ümidi olmayan bir kəs, xums əhlinə borclu olmaq istəmirsə müstəhəqqin, xumsu ondan alıb yenidən ona bağışlamasına razı salsa, eybi yoxdur.

**M:1919.** Əgər xumsu, cameüş-şərait müctehidlə, yaxud onun vəkili, yaxud seyyidlə əldə dolandırıb[26] sonrakı il ödəmək istəsə o ilin mənfəətlərindən azalda bilməz. Deməli əgər, misal üçün, 1000 tümən əldə dolandırıbsa və sonrakı ilin mənfətlərindən 2000 tümən (xərclərindən artıq) qalıbsa, gərək 2000 tümənin

---

[25]Müstəhəq–xums almaq üçün lazım olan şərtlərə malik olan şəxs

[26]Bu belədir ki, bir kəs xumsu öz əli ilə verib sonra yenidən borc kimi alır.

xumsunu versin, sonradan xums kimi borclu olduğu 1000 tüməni yerdə qalanlardan versin.

## *ZƏKATIN HÖKMLƏRİ*

**M:1920.** Zəkat 9 şeyə vacibdir: **1**-Buğda; **2**-Arpa; **3**-Xurma; **4**-Kişmiş; **5**-Qızıl; **6**-Gümüş; **7**-Dəvə; **8**-İnək; **9**-Qoyun.

Əgər bir kəs bu 9 şeydən hər hansının sahibi olsa, gərək sonradan deyiləcək şərtlər daxilində bir miqdarını müəyyən olunan yerlərə sərf etsin. Amma müstəhəbdir ki, kəsb-ticarət və qazanc sərmayəsinin də hər il zəkatını versin.

**M:1921.** Dənli bitkilərdən olan sültün (buğdanın yumşaqlığı və arpanın xüsusiyyəti var) zəkatı yoxdur. Amma buğda kimi dənli bitkilərdən olan ələsin (Sən'a əhalisinin yemək məhsuludur) zəkatı ehtiyat-vacibə görə verilməlidir.

## *ZƏKATIN VACİB OLMASI ŞƏRTLƏRİ*

**M:1922.** Zəkat o halda vacib olur ki, mal (sonradan deyiləcək) nisab həddinə çatsın və onun maliki həddi-büluğa çatmış, aqil və azad olsun, öz malında təsərrüf edə bilsin.

**M:1923.** Əgər insanın 11 ay müddətində inək, qoyun, dəvə, qızıl və gümüşü olsa, 12-ci ayın əvvəlində onun zəkatını verməlidir. Amma sonrakı ilin əvvəlini 12-ci ay tamam olandan sonra hesab etməlidir.

**M:1924.** Əgər inək, qoyun, dəvə, qızıl və gümüşün sahibi ilin əsnasında həddi-büluğa çatsa ehtiyat-vacibə görə gərək zəkat versin.

**M:1925.** Buğda və arpanın zəkatı o vaxt vacib olur ki, dən bağlamış olsun və ona "buğda" və "arpa deyilsin. Kişmişin zəkatı ehtiyata görə qora olanda, xurmanın da rəngi sarı və ya qırmızı olub yeyilə biləndə ehtiyata görə zəkatı vacib olur. Amma arpa və buğdada zəkatın verilməsi vaxtı xərməndə samandan ayrıldığı, kişmişdə üzümün quruyub kişmiş olduğu, xurmada isə yaş xurmanın (rütəbin) quru xurma (təmr) olduğu vaxtdır.

**M:1926.** Əgər buğda, arpa, kişmiş və xurmanın zəkatının vacib olduğu vaxt onların sahibi həddi-büluğa çatsa, zəkatını verməlidir.

**M:1927.** Əgər inək, qoyun, dəvə, qızıl və gümüşün sahibi bütün il boyu dəlilik halında olsa, zəkat vacib deyil. Ancaq ilin müəyyən hissəsini dəli olub ilin axırında ağıllansa, dəli olduğu vaxt çox az olsa da, zəkat vacib olmur.

**M:1928.** Əgər inək, qoyun, dəvə, qızıl və gümüşün sahibi ilin bir miqdarını məst və bihuş halda olsa, zəkat ondan düşmür. Həmçinin əgər buğda, arpa, kişmiş və xurmanın vacib olduğu vaxt məst və ya bihuş olsa eyni qayda ilə (saqit olmur).

**M:1929.** Bir kəsin qəsb etdiyi və onda təsərrüf edə bilmədiyi malın zəkatı yoxdur.

**M:1930.** Əgər bir kəs zəkatın vacib olduğu qızıl, gümüş və başqa şeyləri borc alsa və bir il onun yanında qalsa, zəkatını verməlidir. Borc verənə isə heç nə vacib deyil.

### *BUĞDA, ARPA, XURMA VƏ KİŞMİŞİN ZƏKATI*

**M:1931.** Buğda, arpa, xurma və kişmişin zəkatı o vaxt vacib olur ki, nisab həddinə çatsın. Onların nisabı da 288 "mən" Təbriz ölçüsündən 45 misqal azdır ki, təqribən 847 kq-a bərabərdir.

**M:1932.** Əgər zəkat verməmişdən qabaq zəkatı vacib olan üzüm, xurma, arpa, buğdadan özü və əhli-əyalı yesə, yaxud fəqirə versələr məsrəf olunan miqdarın zəkatı vacib deyil.

**M:1933.** Əgər buğda, arpa, xurma və üzümün zəkatı vacib olandan sonra onun sahibi ölsə, zəkatını onun malından verməlidir. Amma əgər zəkat vacib olmamışdan qabaq ölsə, bu halda vərəsələrin hər birinin payı nisab həddinə çatsa, o öz payının zəkatını verməlidir.

**M:1934.** Cameüş-şərait müctehidin tərəfindən zəkatı yığmağa vəzifəli olan bir şəxs xərmən vaxtı (buğda və arpanı samandan ayıldığı vaxt) və üzümün kişmiş, yaş xurmanın qurumasından sonra zəkatı tələb edə bilər. Əgər maliki verməsə və zəkatı vacib olan şey tələf olub aradan getsə, əvəzini verməlidir.

**M:1935.** Əgər xurma, üzüm ağaclarını, yaxud buğda və arpa əkin sahələrinə malik olandan sonra zəkat vacib olsa (məsələn, xurma onun mülkündə sarı və qırmızı olsa) zəkatını verməlidir.

**M:1936.** Əgər buğda, arpa, xurma və üzümün zəkatı vacib olandan sonra əkin sahəsini və ağacı satarsa, satıcı onun zəkatını verməlidir.

**M:1937.** Əgər insan buğda, arpa, xurma və üzüm alıb satıcının onların zəkatlarını verdiyini bilsə, yaxud verib-verməməsində şəkk etsə ona heç nə vacib deyil. Amma əgər zəkatı vermədiyini bilsə, bu halda cameüş-şərait müctehid zəkatı verilməyən hissənin müamiləsinə icazə verməsə, o miqdarın müamiləsi batildir və cameüş-şərait müctehid zəkatı alıcıdan ala bilər; yox əgər zəkat miqdarının müamiləsinə icazə versə, müamilə səhihdir və alıcı onun (zəkatın) qiymətini cameüş-şərait müctehidə verməlidir. Əgər onun qiymətini satıcıya vermiş olsa, geri ala bilər.

**M:1938.** Əgər buğda, arpa, xurma və kişmişin yaş olan vaxtdakı çəkisi nisab həddinə çatsa, amma quruyandan sonra bu miqdardan az olsa zəkat vacib deyil.

**M:1939.** Əgər bir kəs buğda, arpa, xurmanı qurumamışdan qabaq məsrəf etsə, hətta quruyanda nisab həddinə çatardısa da, zəkatı vacib deyil.

**M:1940.** Təzə vaxt yeyilən xurma əgər qaldıqda çox azalarsa, bu halda əgər qurusaydı, nisab həddinə çatardısa, zəkatı vacibdir.

**M:1941.** Zəkatı verilmiş buğda, arpa, xurma və kişmiş bir neçə il insanın əlində qalsa, üstünə zəkat gəlmir.

**M:1942.** Əgər buğda, arpa, xurma və üzüm çay, yaxud yağış suyundan suvarılsa və ya Misirdə olduğu kimi, yerin rütubətindən (suvarılmağa ehtiyacı olmadan) məhsul verərsə, zəkatı məhsulun onda biri qədərdir. Əgər vedrə, su motoru və s. kimi vasitələrlə, hal-hazırda mövcud olan dərin, yaxud nisbətən dərin quyulardan suvarılarsa, zəkatı məhsulun iyirmidə biri qədərdir. Əgər məhsul torpağın bir hissəsindən yağış, çay suyu və yerin rütubətindən istifadə edilərək, elə həmin miqdar da vedrə, su motoru və s. kimi vasitələrlə suvarılaraq əldə edilirsə, birinci yarısının zəkatı onda bir, ikincinin zəkatı iyirmidə birdir ki, bütün məhsulun qırxda bir hissəsi zəkat kimi verməlidir.

**M:1943.** Əgər buğda, arpa, xurma və üzüm həm yağış və çay suyundan, həm də vedrə, motor və s. kimi şeylərdən istifadə edilərək suvarılarsa, bu halda camaat arasında "yağış suyu ilə deyil, motor və vedrə ilə suvarılıb", desələr, onun zəkatı iyirmidə birdir; yox əgər camaat arasında "vedrə ilə deyil, yağış suyu ilə suvarılıb", deyilsə, zəkatı onda birdir.

**M:1944.** Əgər suvarılması yağış suyu ilə, yaxud motor və vedrə ilə olmasında şəkk olsa iyirmidə bir qədər zəkat vacibdir. Ehtiyat-müstəhəb budur ki, onda bir qədər verilsin.

**M:1945.** Əgər buğda, arpa, üzüm yağış, yaxud çay suyu ilə suvarılsa və vedrə, motor kimi şeylərə ehtiyac olmasa, amma eyni zamanda vedrə və motor ilə də suvarılıb bunların suyunun məhsulun artımında tə'siri olmasa, onun zəkatı onda birdir. Əgər vedrə və motor kimi şeylərlə suvarılsa və çay, yağış suyuna ehtiyacı olmasa, çay və yağış suyu ilə də suvarılsa amma, məhsulun artımında yağışın və çayın tə'siri olmasa, zəkatı iyirmidə birdir.

**M:1946.** Əgər müəyyən əkin sahəsi vedrə və ya motor vasitəsilə suvarılsa və onun yanında olan sahədə də əkilən əkin sahəsi həmin yerin rütubətini cəzb edib daha suvarılmağa ehtiyac olmasa, vedrə ilə suvarılan əkin sahəsinin zəkatı iyirmidə bir, onun yanında olan əkin sahəsənin isə zəkatı onda birdir.

**M:1947.** Buğda, arpa, xurma və üzüm üçün sərf olunan xərcləri, hətta əkin əkmək səbəbilə paltar və avadanlıqların qiymətinin azalan hissəsini də məhsuldan çıxa bilər. Əgər bunları çıxmamışdan qabaq nisab həddinə çatsa, ehtiyat-vacib budur ki, yerdə qalanın zəkatı verilsin.

**M:1948.** Zəkat vacib olmayan, yaxud zəkatı verilmiş toxumların qiyməti əkinin xərclərinin bir hissəsi hesab oluna bilər. Amma taxılın əkildiyi vaxtın qiyməti ilə hesablanmalıdır.

**M:1949.** Əgər əkin yeri və əkinçilik avadanlıqları, yaxud bu ikisindən biri şəxsin öz mülkü olsa, onların kirayəsini xərclərdən hesab etməməlidir. Həmçinin, özünün, yaxud başqasının pulsuz gördüyü işlər üçün də məhsuldan bir şey çıxmamalıdır.

**M:1950.** Əgər bir şəxs üzüm və ya xurma ağacını alsa onun dəyəri xərclərdən deyil. Amma əgər xurmanı və üzümü yığımdan əvvəl və zəkat vacib olmamışdan qabaq alsa onun üçün verdiyi pul xərclərdən hesab olunur.

**M:1951.** Əgər bir nəfər müəyyən torpaq sahəsi alıb buğda və ya arpa əksə, yerin alınması üçün verilən pul xərclərdən hesab olunmur. Amma əkin sahəsini zəkat vacib olmamışdan qabaq alsa, onun alınmasına verdiyi pulu xərclərdən hesab edib məhsuldan çıxa bilər. Əldə edilən samanın qiymətini isə, əkin sahəsi üçün verdiyi puldan çıxmalıdır. Məsələn, əgər əkin sahəsini 500 tümənə alsa və onun samanının qiyməti 100 tümən olsa,yalnız 400 tüməni xərclərdən hesab etmək olar.

**M:1952.** Əgər bir kəs əkinçilikdə lazım olan öküz və s. əkinçilik vasitələri olmadan əkin əkə bilsə, bu halda həmin avadanlıqları alsa, onlara verdiyi pulu xərclərdən hesab etməməlidir.

**M:1953.** Əgər bir kəs öküz və əkinçilik üçün lazım olan sair avadanlıqlar olmadan əkin əkə bilməsə, bu halda onları alsa və əkində işlədilmək səbəbilə tamamilə aradan getsə onun qiymətinin hamısını xərclərdən hesab edə bilər. Əgər onların qiymətinin bir miqdarı azalsa o miqdarı da xərclərdən hesab edə bilər. Amma əkindən sonra onların qiymətindən bir şey azalmasa onların qiymətini xərclərdən hesab etməməlidir.

**M:1954.** Əgər bir torpaqda arpa, buğdadan əlavə zəkatı vacib olmayan düyü və lobya kimi şeylər də əkilsə, hər biri üçün nə qədər xərcləyibsə, həmin şeyin hesabına yazmalıdır. Amma hər ikisi üçün xərc etmiş olsa, bu halda onu iki yerə bölməlidir. Məsələn, hər ikisi eyni qədərdə olsa, bu halda xərclərin yarısını zəkatı onların hesabından çıxa bilər.

**M:1955.** Əgər şumlamağa, yaxud bir neçə il əkinçilik üçün faydalı olan başqa işlərə xərcləsə, ehtiyat-vacibə görə onun xərclərini bir neçə ilə bölməlidir.

**M:1956.** Əgər insan fəsilləri bir-biri ilə fərqlənən, habelə əkinçilik məhsulları və meyvəsi bir vaxtda yetişməyən bir neçə məntəqədə buğda, arpa, xurma, yaxud üzümü olsa və onların hamısı bir ilin məhsulu hesab olunsa, bu halda birinci yetişən şey nisab həddinə çatsa, onun zəkatını yetişdiyi vaxt, qalanlarının zəkatını isə sonra, hər vaxt yetişsə, o vaxt verməlidir. Əgər əvvəldə yetişən nisab həddinə çatmasa, bu halda sonradan əldə olunan məhsullarla birlikdə nisab həddinə çatmasına yəqini olsa, yenə də yetişənlərin zəkatını həmin vaxtda, qalanlarını isə sonradan, yetişdikləri vaxtda vermək vacibdir. Əgər hamısının birlikdə nisab həddinə çatacağına yəqini olmasa, bu halda qalanlarının da yetişməsini gözləməlidir: əgər üst-üstə nisab həddinə çatarsa, zəkatı vacibdir, əks halda isə vacib deyil.

**M:1957.** Əgər üzüm və ya xurma ağacı bir ildə iki dəfə meyvə versə və hər dəfə də nisab həddinə çatmasa, zəkat vacib deyil. Çünki iki fəsildəki əkin, iki ildəki əkin hesab olunur.

**M:1958.** Əgər quruduqda nisab həddinə çatan bir miqdar təzə xurma və ya üzümü olsa, bu halda zəkat vermək niyyəti ilə onların təzəsindən, quruyarsa ona vacib olan zəkat qədərində olan miqdarda müstəhəqqə versə, eybi yoxdur.

**M:1959.** Əgər quru xurma və ya kişmişin zəkatı bir nəfərə vacib olsa onun zəkatını təzə xurma və ya təzə üzümdən verə bilməz. Həmçinin təzə xurma və ya təzə üzümün zəkatı ona vacib olan halda zəkatını quru xurma və ya kişmişdən verə bilməz. Amma əgər bunlardan birini, yaxud başqa bir şeyi zəkatın qiyməti dəyəri niyyəti ilə versə, maneəsi yoxdur.

**M:1960.** Həm borclu, həm də zəkatı verməsi vacib olan malın sahibi ölərsə, əvvəlcə zəkatı vacib olan malın hamısının zəkatını verməli, sonra isə onun borclarını qaytarmalıdırlar.

**M:1961.** Həm borclu olan, həm də buğda arpa və xurma, üzümü olan bir kəs ölsə və onların zəkatı vacib olmamışdan qabaq vərəsələri onun borclarını başqa maldan versələr, bu halda hər birinin payı nisab həddinə çatsa, zəkatını verməlidir. Əgər onların zəkatı vacib olmamışdan qabaq ölənin borcunu verməsələr, bu halda meyyitin malı təkcə borcları qədərində olsa, onların zəkatını vermələri vacib deyil. Əgər meyyitin malı borclarından artıq olsa, bu halda əgər onun borclarını vermək istəsələr, müəyyən miqdar buğda, arpa, xurma, kişmişi də borc sahibinə verməli olacaqlarsa, borc sahibinə verdiklərinin zəkatı yoxdur. Yerdə qalanlar da vərəsələrindir: hər birinin payı nisab həddinə çatsa, zəkatını verməlidir.

**M:1962.** Əgər zəkatı vacib olan buğda, arpa, kişmiş və xurmanın həm yaxşısı, həm də pisi olsa, ehtiyat-vacibə görə hər birinin zəkatını onun özündən (yaxşıların zəkatını yaxşıdan, pislərinkini pisdən), yaxud da hamısının zəkatını yaxşıdan verməlidirlər. Amma hamısının zəkatını pis məhsuldan vermək olmaz.

### *QIZILIN NİSABI*

**M:1963.** Qızılın iki nisab həddi vardır:

**Birincisi**–İyirmi şər'i misqaldır (hər misqalı 18 noxud); əgər qızılın miqdarı 20 şər'i (15 adi misqal) qızıla çatsa, lazım olan sair şərtlər də mövcud olarsa onun qırxda birini (9 noxud) zəkat verməlidir. Əgər bu həddə çatmasa, zəkatı vacib deyil.

**İkincisi**–(Birinciyə əlavə olunan) dörd şər'i misqaldır ki, üç adi misqala bərabərdir. Deməli əgər, 15 (adi) misqala üç (adi) misqal əlavə olunsa, 18 misqalın hamısının zəkatını–qırxda birini verməlidirlər. Əgər üç misqaldan az əlavə olsa, təkcə 15 misqalın zəkatı verilməlidir və onun artıq qalan hissəsinin zəkatı yoxdur. Həmçinin hər nə qədər yuxarı getsə, yə'ni üç misqal-üç misqal artsa (15, 18, 21, 24...) onların hamısının zəkatı verməlidirlər. Əgər üç misqaldan az əlavə olunsa, artan hissənin zəkatı yoxdur.

## GÜMÜŞÜN NİSABI

**M:1964.** Gümüşün də iki nisab həddi vardır:

**Birincisi**–105 adi misqaldır; əgər gümüş 105 misqala çatsa sonradan deyiləcək sair şərtlər də mövcud olsa, insan onun qırxda birini (2 misqal və 15 noxud) zəkat verməlidir. Əgər bu miqdara çatmasa, zəkatı vacib deyil.

**İkincisi**–(Birinciyə əlavə olunan) 21 misqaldır. Yə'ni 105 misqala 21 misqal əlavə olunsa, bütün 126 misqalın zəkatı qeyd olunduğu kimi verilməlidir. Əgər 21 misqaldan az əlavə olunsa, təkcə 105 misqalın zəkatı verilməlidir. Artıq qalan hissənin zəkatı yoxdur. Həmçinin bu qayda ilə nə qədər yuxarı getsə (yə'ni 21-21 misqal əlavə olunsa), hamısının zəkatı verilməlidir. Amma əgər əlavə olunan miqdar 21 misqaldan az olsa, zəkatı yoxdur. Deməli əgər insan malik olduğu qızıl və gümüşün qırxda birini zəkat versə ona vacib olan zəkatı ödəmiş olur, bə'zi hallarda isə vacib olan miqdardan artıq vermiş olur. Məsələn, 110 misqal gümüşü olan bir kəs onun qırxda birini zəkat versə, 105 misqalının vacib olan zəkatını vermişdir. Hansı ki, onun beş misqalının da verməsi vacib deyilmiş.

**M:1965.** Əgər qızılı və ya gümüşü nisab halına çatan bir kəs hətta zəkatını versə də, nə qədər ki, birinci nisabdan azalmayıb hər ildə onun zəkatını verməlidir.

**M:1966.** Qızıl və gümüşün zəkatı o vaxt vacib olur ki, sikkə vurulmuş və onunla al-ver rəvac tapmış olsun. Əgər onun sikkəsi aradan getmiş olsa da, zəkatı verilməlidir.

**M:1967.** Qadınların zinət üçün istifadə etdikləri sikkəli qızıl və gümüş əgər al-ver onunla rəvac tapmaqda qalırsa, yə'ni yenə də qızıl və gümüş pul onunla müamilə olunursa, ehtiyata görə zəkatı vacibdir. Amma onların müamiləsi rəvacdan düşübsə, zəkatı vacib deyil.

**M:1968.** Bir kəsin qızılı və gümüşü olsa və heç biri nisab həddinə çatmasa (məsələn, 104 misqal gümüşü və 14 misqal qızılı olsa) ona zəkat vacib deyil.

**M:1969.** Əvvəldə qeyd olunduğu kimi, qızıl və gümüşün zəkatı o vaxt vacib olur ki, insan 11 ay müddətində nisab həddində olanlara malik olsun. Əgər 11 ay içində onun qızıl və gümüşü nisab həddindən azalsa, ona zəkat vacib deyil.

**M:1970.** Əgər 11 ay içində malik olduğu qızıl və gümüşü başqa qızıl və gümüşlə, yaxud başqa şeylə dəyişdirsə, və ya əritsə, zəkat vacib olmaz. Amma əgər zəkat verməkdən boyun qaçırmaq üçün bu işləri görsə, ehtiyat-müstəhəb budur ki zəkatını versin.

**M:1971.** Əgər qızıl və gümüşünü 12-ci ayda əritsə zəkatını verməlidir. Əgər əritməklə onların çəkisi, yaxud qiyməti azalsa, əridilməmişdən qabaq vacib olan zəkatı verməlidir.

**M:1972.** Əgər qızıl və gümüşünün həm yaxşısı, həm də pisi olsa, hər birinin zəkatını onun özündən (yaxşının zəkatını yaxşıdan, pisinkini pisdən) verə bilər. Amma yaxşı olar ki, hamısının zəkatını yaxşı qızıl və yaxşı gümüşdən versin.

**M:1973.** Adi qaydadan artıq başqa metallarla qarışan (xəlitə olan) qızıl və gümüşün xalisi nisab həddinə çatarsa, onun zəkatı verilməlidir. Həmçinin, əgər adi qaydadan artıq başqa metallarla qarışığı olan qızıl və gümüş pula "qızıl pul" və "gümüş pul" deyilərsə, nisab həddinə çatdıqda zəkatı–hərçənd xalisi nisab həddinə çatmasa da–ehtiyata görə vacibdir. Əgər onun xalisinin nisab həddinə çatıb-çatmamasında şəkk etsə, ehtiyat-vacibə görə əritmək və s. yollarla onun xalisinin miqdarını tə'yin etsin. Yaxud o qədər zəkat versin ki, zəkat vacibinin boynundan götürülməsinə, lazım olan miqdarı verməsinə yəqin etsin.

**M:1974.** Əgər malik olduğu qızıl və gümüş adi qaydada başqa metallarla qarışıq olsa, onun zəkatını adi haldan artıq qarışıq olan başqa qızıl və gümüşdən verə bilməz. Amma onda (verdiyində) xalis qızıl və gümüşün, zəkatın vacib olan qədərində olmasına yəqini olasa, eybi yoxdur.

### *DƏVƏ, İNƏK VƏ QOYUNUN ZƏKATI*

**M:1975.** Dəvə, inək və qoyunun zəkatda qeyd olunan şərtlərdən əlavə, iki şərti də var:

**1-**Həmin heyvanlar bütün il boyu işsiz olsunlar; (Amma əgər, il boyunda 1-2 gün işlədilsə və iş heyvanı hesab olunmasa, zəkatı vacibdir.)

**2-**Bütün il boyu çölün otlarından yesin; (Deməli əgər bütün ili, yaxud ilin müəyyən müəddətində biçilmiş otdan, onların malikinin, yaxud başqasının mülkü olan əkin yerindən otlasa, zəkatı yoxdur. Amma əgər il boyunda 1-2 gün malikinin otundan yesə, zəkatı vacibdir.

**M:1976.** Əgər insan öz inəyi, dəvəsi və qoyunu üçün heç kəsin əkmədiyi bir otlaq (örüş) alsa, yaxud icarə etsə onda zəkatın vacib olması müşküldür. Amma əgər orada otarmaq üçün vergi versə zəkatını verməlidir.

### *DƏVƏNİN NİSABI*

**M:1977.** Dəvənin 12 nisabı vardır:

**1.** 5 baş dəvə; onun zəkatı bir qoyundur. Nə qədər ki, dəvələrin sayı 5-ə çatmayıb, zəkatı yoxdur.

**2.** 10 baş dəvə; zəkatı iki qoyundur.

**3.** 15 baş dəvə; zəkatı üç qoyundur.

**4.** 20 baş dəvə; zəkatı dörd qoyundur.

**5.** 25 baş dəvə; zəkatı beş qoyundur.

**6.** 26 baş dəvə; zəkatı iki yaşına daxil olmuş bir dəvədir.

**7.** 36 baş dəvə; zəkatı üç yaşına daxil olan bir dəvədir.

**8.** 46 baş dəvə; zəkatı dörd yaşına daxil olmuş bir dəvədir.

**9.** 61 baş dəvə; zəkatı beş yaşına daxil olmuş bir dəvədir.

**10.** 76 baş dəvə; zəkatı üç yaşına daxil olmuş iki dəvədir.

**11.** 91 baş dəvə; zəkatı dörd yaşına daxil olmuş iki dəvədir.

**12.** 121 baş dəvə və ondan yuxarıdır ki, 40-40 hesab olunmalıdır. Hər 40 başın zəkatı üç yaşına daxil olmuş bir dəvədir; yaxud 50-50 hesablanmalıdır ki, hər 50 dəvənin zəkatı dörd yaşına daxil olmuş bir dəvədir. Yaxud 40-50, 40-50 hesab etməlidir. Amma elə hesab olunmalıdır ki, bir şey (qalıqsız bölünən) qalmasın, qalsa da 9-dan artıq olmasın. Məsələn, əgər bir nəfərin 140 dəvəsi olsa, 100 dəvə üçün dörd yaşına daxil olmuş iki dəvə, 40 dəvə üçün üç yaşına daxil olmuş dişi dəvə verməlidir.

**M:1978.** İki nisab arasında olan say üçün zəkat vacib deyil. Deməli əgər dəvələrin sayı birinci nisabdan (beşdən) keçib ikinci nisaba (ona) çatmasa, təkcə 5 dəvənin zəkatını verməlidir. (Sair nisablarda da eyni qayda ilə.)

## *İNƏYİN NİSABI*

**M:1979.** İnəyin iki nisabı vardır:

**1.** 30-dur: inəklərin sayı 30-a çatanda qeyd olunan şərtlərə malik olarsa, iki yaşına daxil olmuş bir dana zəkat verilməlidir.

**2.** 40-dır ki, onun da zəkatı üç yaşına daxil olmuş dişi danandır.

30-la 40 arasında olanların zəkatı vacib deyil. Məsələn, bir kəsin 39 inəyi olsa, yalnız 30-un zəkatını verməlidir. Həmçinin əgər 40-dan artıq inəyi olsa, nə qədər ki, 60-a çatmayıb yalnız 40-ın zəkatını verməlidir. 60-a çatandan sonra birinci nisab ikiqat olduğundan, iki baş iki yaşına daxil olmuş dana verməlidir. Həmçinin yuxarı getdikcə ya 30-30, ya 40-40, ya da 30-40-la hesablanmalı, qeyd olunan göstərişə əsasən zəkatını verməlidir. Elə hesab edilməlidir ki, bir şey qalmasın (qalıqsız olsun), qalsa da 10-dan artıq olmasın. Məsələn, əgər 70 baş inəyi olsa, 30-40-la hesab etməlidir. 30 baş üçün 30-un, 40 baş üçün 40-ın zəkatını verməlidir. Çünki əgər 30-30 hesab etsə 10 baş inək zəkatsız qalır.

## *QOYUNUN NİSABI*

**M:1980.** Qoyunun beş nisabı var:

**1.** 40 baş qoyundur ki, onun zəkatı bir qoyundur. Qoyunların sayı 40-a çatmayınca, zəkat vacib deyil.

**2.** 121 baş qoyundur ki, zəkatı 2 qoyundur.

**3.** 201 baş qoyunudur ki, zəkatı 3 qoyundur.

**4.** 301 baş qoyundur ki, zəkatı 4 qoyundur.

**5.** 400 baş və ondan artıqdır ki, onları yüz-yüz hesab etməli, hər yüz baş üçün bir qoyun verməlidir. Zəkatı qoyunların özündən verməsi lazım (ilzami) deyil, hətta başqa qoyun da, yaxud onun qiymətinə uyğun pul versə kifayətdir. Bu ikisindən başqa bir şey versə, işkalı var.

**M:1981.** İki nisab arasında olanlar üçün zəkat vacib deyil. Deməli əgər bir kəsin qoyunlarının sayı birinci nisab olan 40-dan artıq olub 121 olan ikinci nisaba çatmasa, təkcə 40 başın zəkatını verməlidir. Ondan artıq qalanın zəkatı yoxdur. Sonrakı nisablarda da eyni qayda ilə.

**M:1982.** Nisab həddinə çatan dəvə, inək və qoyunun zəkatı vacibdir. İstər hamısı erkək olsun, istərsə də dişi, yaxud bə'zisi erkək olsun, bə'zisi də dişi.

**M:1983.** Zəkatda inəklə camış, ərəb dəvəsi ilə qeyri-ərəb dəvəsi, keçi ilə qoyun və şişək zəkatda eyni cinsdən hesab olunur və bir-birilə fərqi yoxdur.

**M:1984.** Əgər zəkat üçün qoyun versə ehtiyat-vacibə görə iki yaşına, keçi versə ehtiyata görə üç yaşına daxil olmalıdır.

**M:1985.** Zəkat kimi verilən qoyunun qiyməti sair qoyunlardan azacıq az olsa, eybi yoxdur. Amma daha yaxşı olar ki, qiyməti sair qoyunların qiymətindən çox olanı zəkat kimi versin. Həmçinin inək və dəvədə də eyni qayda ilə.

**M:1986.** Əgər bir neçə nəfər şərik olsalar, hər birinin payı birinci nisab həddinə çatsa, zəkatını verməlidir. Payı birinci nisab həddindən az olan şəxsə zəkat vacib deyil.

**M:1987.** Əgər bir nəfərin bir neçə yerdə inəyi, dəvəsi, yaxud qoyunu olsa və üst-üstə nisab həddinə çatsalar, onların zəkatını verməlidir.

**M:1988.** Əgər inək, dəvə, yaxud qoyunların içərisində xəstə, yaxud eyblisi də olsa zəkatlarını verməlidir.

**M:1989.** Əgər bir şəxsin inək, dəvə, qoyunlarının hamısı xəstə, yaxud eybli və ya qoca olsalar, hər birinin zəkatını onların özündən verə bilər. Amma əgər hamısı sağlam, eybsiz və cavan olsalar zəkatlarını xəstə, eybli və qocalardan verə bilməz. Hətta əgər onların bə'ziləri sağlam, bəziləri xəstə; bə'ziləri eybli və bə'ziləri isə eybsiz; bə'ziləri qoca və bə'ziləri cavan olsalar, ehtiyat-vacib budur ki, onların zəkatını sağlam, eybsiz və cavanlardan versin.

**M:1990.** Əgər 11-ci ay tamam olmamışdan qabaq qoyun, inək və dəvələrini başqa şeylə dəyişsə, yaxud nisab qədərində olanları həmin cinsdən olan nisab miqdarında dəyişsə (məsələn 40 qoyun verib başqa 40 qoyun alsa) onun zəkatı vacib deyil.

**1991.** İnək, qoyun, dəvənin zəkatını verməli olan bir kəs onların zəkatını başqa maldan versə, nə qədər ki, onların sayı nisabdan azalmayıb, hər il zəkatını verməlidir. Əgər onların özündən versə və birinci nisabdan azalsa, ona zəkat vacib deyil. Məsələn, bir nəfərin 40 qoyunu olsa və zəkatını başqa malından versə, nə qədər ki, onun qoyunları 40-dan azalmayıb, hər il bir qoyun verməlidir; yox əgər onların özündən versə nə qədər ki, 40-a çatmayıbdır, zəkat ona vacib deyildir.

### *ZƏKATIN MƏSRƏF OLUNMA YERLƏRİ*

**M:1992.** İnsan zəkatı 8 yerə məsrəf edə bilər:

**1-**Fəqirə; Fəqir–özünün və ailəsinin illik xərclərini tə'min edə bilməyən kəsdir. Amma öz illik xərclərini tə'min edə bilən sənəti, yaxud mülkü və ya sərmayəsi olan bir kəs fəqir deyil.

**2-**Miskinə; Miskin–vəziyyəti fəqirdən də ağır olan kəsdir.

**3-**İmam (əleyhis-salam)ın, yaxud onun naibinin tərəfindən zəkatı yığıb saxlamağa, onun mühasibəsinə, onu İmam (əleyhis-salam)-a, yaxud onun naibinə və ya fəqirlərə çatdırmağa vəzifəli olan şəxsə; O zəhmət çəkdiyi qədər zəkatdan istifadə edə bilər.

**4-**Zəkat verilərsə İslam dininə yönələn, yaxud müharibədə müsəlmanlara kömək edən kafirlərə, həmçinin zəkat verilərsə imanları güclənən zəif imanlı müsəlmanlara;

**5-**Qulların alınıb azad olunmasına;

**6-**Öz borcunu verə bilməyən borclulara; (Bu şərtlə ki, o borcu günah işdə sərf etməmiş olsun.)

**7-**Allah yolunda; Yə'ni, məscid, mədrəsə tikmək, ümumi-dini mənfəəti olan işlər görmək, yaxud körpü tikilməsi, yolların tə'mir olunması kimi xeyri müsəlmanlara çatan və ümumiyyətlə İslam və müsəlmanların xeyrinə olan hər bir işə.

**8-**İbnüs-səbilə, (səfərdə pulu qurtarıb yolda qalan şəxs).

(Bunların hökmləri sonrakı məsələdə deyiləcək.)

**M:1993.** Ehtiyat-vacib budur ki, fəqir və miskin zəkatdan özünün və əhli-əyalının illik xərclərindən artıq götürməsin. Əgər müəyyən miqdarda pul və yaxud malı varsa, bu halda illik xərclərinin çatmayan hissəsi qədər götürməlidir.

**M:1994.** Əgər bir kəsin illik xərcləri qədər malı olsa və bu miqdar sərf etdikdən sonra yerdə qalanının illik xərclərinə çatıb-çatmayacağında şəkk etsə, zəkat ala bilməz.

**M:1995.** Qazancı illik xərclərindən az olan sənətkar, yaxud mülk sahibi, yaxud tacir öz xərclərinin kəsiri üçün zəkat ala bilər və öz iş avadanlıqlarını, əmək alətini, mülkünü, yaxud sərmayəsini xərclərinə sərf etməsi lazım (ilzami) deyil.

**M:1996.** Özünün və ailəsinin bir illik xərcini tə'min edə bilməyən bir fəqirin, öz mülkü olan bir evi varsa və orada oturubsa, yaxud minik heyvanı varsa, əgər bunlarsız yaşaya bilməzsə, hətta abırının hifz olunması üçün də olsa, zəkat ala bilər. Həmçinin, ehtiyacı olduğu ev əşyaları, qab-qacaq, qış və yay paltarları və sair şeyləri də bu qayda ilə. Əgər fəqir qeyd olunlara malik olmasa və onlara ehtiyacı olsa zəkatdan ala bilər.

**M:1997.** Müəyyən peşəni, sənəti öyrənmək çətin olmayan bir fəqir ehtiyat-vacibə görə öyrənməli, zəkatla güzəranını tə'min etməməlidir. Amma nə qədər ki, öyrənməyə məşğuldur, zəkat ala bilər.

**M:1998.** Əvvələr fəqir olan və "fəqirəm" deyən bir şəxsin sözündən xatircəmlik hasil olsa, ona zəkat vermək olar.

**M:1999.** Əgər bir kəs "fəqirəm" desə və əvvələr fəqir olmasa, yaxud fəqir olub-olmaması mə'lum olmasa, bu halda onun sözündən xatircəmlik hasil olmazsa, ehtiyat-vacib budur ki, ona zəkat verilməsin.

**M:2000.** Zəkat verməli olan bir kəsin fəqirdə borcu olsa, ona verməli olduğunu zəkatdan hesab edə bilər.

**M:2001.** Əgər fəqir şəxs ölsə və onun malı borcuna çatmasa, insan, ona vermiş olduğu borcu zəkatdan hesab edə bilər. Hətta əgər onun malı borcu qədərində olsa, amma vərəsələri onun borcunu verməsə, yaxud başqa səbəblərə görə insan öz borcunu ondan ala bilməsə, bu halda ona verdiyi borcu zəkatdan hesab edə bilər.

**M:2002.** İnsanın fəqirə zəkat kimi verdiyi şeyin zəkat olduğunu deməsi lazım (ilzami) deyil. Hətta əgər fəqir xəcalət çəksə müstəhəbdir ki, ona zəkat niyyəti ilə verib, amma zəkat olduğunu aşkar etməsin.

**M:2003.** Əgər bir kəsin fəqir olduğuna inanaraq ona zəkat versələr və sonra fəqir olmadığı mə'lum olsa; yaxud məsələni bilməməzlik üzündən fəqir olmayan bir kəsə zəkat versələr, bu halda ona verilən şey qalırsa geri alıb müstəhəqqə verə bilər. Amma əgər aradan getmiş olsa, bu halda onu alan şəxs zəkat olduğunu bilib, yaxud ehtimal vermiş olsa, gərək əvəzini versin və müstəhəqqə çatdırılsın; yox əgər zəkatdan başqa ad ilə verilmiş olsa, ondan bir şey almaq olmaz. Əgər zəkat verən şəxs müstəhəqqi tanımaqda səhlənkarlıq etməyibsə (məsələn, aydın şər'i dəlillər onun fəqir olduğuna dəlalət edirdisə) yenidən öz malından zəkat verməsi lazım deyil.

**M:2004.** Borclu olan və öz borcunu verə bilməyən şəxs, hətta illik xərclərini tə'min edə bildiyi halda da öz borcunu vermək üçün zəkat ala bilər. Amma gərək borc etdiyi malı mə'siyət yolunda xərcləməmiş olsun, yaxud mə'siyət üçün xərcləyibsə ondan tövbə etsin ki, bu halda fəqirlərin payından ona vermək olar.

**M:2005.** Əgər insan borclu olan və borcunu verə bilməyən bir şəxsə zəkat verib sonradan borcunu mə'siyətdə xərclədiyini bilsə, bu halda o borclu şəxs fəqirdirsə, ona verilənləri zəkat hesab edə bilər. Amma əgər o mə'siyətdən tövbə etməmiş olsa, ehtiyat-vacibə görə ona veriləni zəkatdan hesab etməməlidir.

**M:2006.** Borclu olan və öz borcunu verə bilməyən şəxs hətta fəqir olmasa da, insan, ona verdiyi borcu zəkatdan hesab edə bilər.

**M:2007.** Pulu, xərci qurtaran, yaxud minik vasitəsi xarab olan bir müsafirin səfəri mə'siyət səfəri olmasa və borc etməklə, yaxud özündə olan bir şeyi satmaqla mənzilə çata bilməzsə, hətta öz vətənində fəqir olmasa da, zəkat ala bilər. Amma əgər başqa bir yerdə müəyyən qədər borc etmək, yaxud bir şey

satmaqla səfər xərcini tə'min edə bilərsə, yalnız həmin yerə çatması üçün lazım olan qədər zəkat ala bilər.

**M:2008.** Yolda qalan və zəkat götürən müsafir vətəninə çatandan sonra zəkatdan artıq qalsa, onu cameüş-şərait müctehidə verib zəkat olmasını deməlidir.

## *ZƏKATA MÜSTƏHƏQ OLAN ŞƏXSLƏRİN ŞƏRTLƏRİ*

**M:2009.** Zəkatı alan şəxs 12 İmam şiəsi olmalıdır. Əgər şər'i yolla bir kəsin şiə olması sübut olunsa, ona zəkat versələr və zəkat tələf olsa, sonradan şiə olmadığı mə'lum olsa, yenidən başqa müstəhəqqə zəkat vermək lazım deyil.

**M:2010.** Əgər şiə olan uşaq, yaxud dəli fəqir olsa insan onun qəyyumuna bu məqsədlə zəkat verə bilər ki, o, verdiyini uşağın və ya dəlinin mülkünə keçirtsin.

**M:2011.** Əgər uşağın və ya dəlinin qəyyumunu tapa bilməsə özü, yaxud əmanətdar şəxsin vasitəsilə zəkatı uşağa və ya dəliyə xərcləyə bilər. Zəkatı onlara xərcləyəndə zəkat niyyəti etməlidir.

**M:2012.** Dilənçilik edən bir fəqirə zəkat vermək olar. Amma zəkatı günah yolunda məsrəf edənə zəkat vermək olmaz.

**M:2013.** Böyük günahları aşkar surətdə edənlərə, ehtiyat-vacibə görə zəkat verilməməlidir. Həmçinin, şərab içən də bu qayda ilə.

**M:2014.** Borclu olan və borcunu ödəyə bilməyən bir kəsə, onun xərclərinin insana vacib olmasına baxmayaraq, ona zəkat verə bilər ki, borcunu ödəsin. Amma əgər insanın arvadı, yaxud xərcləri ona vacib olan başqa bir kəs öz xərcləri üçün borc etsə, insan onun borcunu zəkatdan verə bilməz.

**M:2015.** İnsan, zəkatını xərcləri özünə vacib olan kəslərə (daimi arvad, övlad, nəvə, ata-ana, baba, nənə) verə bilməz. Amma əgər onların xərclərini verməsə başqaları onlara zəkat verə bilərlər.

**M:2016.** Əgər insan zəkatı, öz oğluna, həyat yoldaşına, nökərinə və külfətinə xərcləsin deyə, zəkat versə eybi yoxdur.

**M:2017.** Əgər oğulun dini-elmi kitablara ehtiyacı olsa ata onları almaq üçün zəkatı ona verə bilər.

**M:2018.** Ata zəkatını öz oğluna verə bilər ki, özü üçün arvad alsın, oğul da atasının arvad alması üçün öz zəkatını ona verə bilər.

**M:2019.** Bir qadının məxaricini öz əri versə, yaxud xərcini verməsə, lakin xərcini verməyə məcbur etmək mümkün olsa, o qadına zəkat vermək olmaz.

**M:2020.** Siyğə olunmuş qadın fəqir olsa əri və başqa şəxslər ona zəkat verə bilərlər. Amma əri əqddə, onun xərclərini verməyi şərt etsə, yaxud başqa səbəblərə görə onun xərcləri ərinə vacib olsa, bu halda əgər o qadının xərclərini verə bilsə, yaxud ərini onları verməyə məcbur etmək mümkün olsa, o qadına zəkat vermək olmaz.

**M:2021.** Qadın öz fəqir ərinə zəkat verə bilər. Hətta əgər əri həmin zəkatı qadının və övladlarının xərclərinə sərf etsə də belə.

**M:2022.** Seyyid olan şəxs başqa seyyiddən zəkat ala bilər, lakin qeyri-seyyiddən zəkat ala bilməz. Əgər xums və sair vücuhatlar seyyidin xərclərinə kifayət etməsə və nəticədə zəkat almağa məcbur olsa, onda qeyri-seyyiddən də zəkat ala bilər. Amma ehtiyat-vacib budur ki, mümkün olan surətdə gündəlik xərcləri üçün naçar olduğu qədərdən artıq götürməsin.

**M:2023.** Seyyid olub-olmaması mə’lum olmayan şəxsə zəkat vermək olar.

## *ZƏKATIN NİYYƏTİ*

**M:2024.** İnsan zəkatı qürbət yə’ni, Allah-Taalanın əmrini yerinə yetirmək niyyəti ilə verməlidir. Niyyətdə malın zəkatı, yaxud fitrə zəkatı olduğunu da müəyyənləşdirməlidir. Amma əgər misal üçün bir şəxsə buğda və arpa zəkatı vacib olsa verdiklərinin buğdanın, yaxud arpanın zəkatı olmasını müəyyənləşdirməsi lazım deyil.

**M:2025.** Bir neçə malın zəkatı vacib olan şəxs müəyyən qədər zəkat verib onlardan heç birini niyyət etməsə, bu halda zəkat kimi verdiyi şey onların biri ilə eyni cinsdən olsa, həmin malın zəkatı hesab olunur. Əgər heç biri ilə həmcins olmasa onda zəkat o malların hamısına bölünür. Məsələn, bir nəfərə 40 qoyunun və 15 misqal qızılın zəkatı vacib olsa və heç birinin niyyətini etmədən bir qoyunu zəkat kimi versə, qoyunların zəkatı hesab olunacaq. Amma əgər bir qədər gümüşü, qoyun və qızıl üçün vacib olan zəkat kimi versə, bu halda verdiyi zəkat o iki mala bölünür. Həmçinin əgər bir qoyunu onların əvəzini, yaxud qiymətinin əvəzi kimi versə, yenə də hər ikisinə bölünməlidir.

**M:2026.** Əgər bir nəfər başqasını, malının zəkatını verməyə vəkil etsə və vəkil zəkatı fəqirə verəndə malikin tərəfindən zəkat niyyəti etsə, kifayətdir.

**M:2027.** Əgər malik, yaxud onun vəkili qürbət niyyəti etmədən zəkatı fəqirə versə və mal aradan getməmişdən qabaq malikin özü zəkat niyyəti etsə, zəkat hesab olunur.

## *ZƏKATIN MÜXTƏLİF MƏSƏLƏLƏRİ*

**M:2028.** Buğda və arpa samandan ayrılanda; habelə üzüm quruyub kişmiş, yaş xurma quru xurma olanda insan onların zəkatını fəqirə verməli, yaxud öz malından ayırıb bir tərəfə qoymalıdır. Qızıl, gümüş, inək, dəvə və qoyunun zəkatını 11-ci ay tamam olandan sonra fəqirə verməli, yaxud öz malından ayırmalıdır. Əgər müəyyən bir fəqiri gözləsə, yaxud müəyyən cəhətdən üstünlüyü olan fəqirə vermək istəsə, ehtiyat-vacibə görə zəkatı ayırmalıdır ki, sonradan həmin fəqirə çatdırsın.

**M:2029.** Zəkatı ayırandan sonra dərhal müstəhəqqə vermək lazım (ilzami) deyil. Amma əgər müstəhəq tapsa ehtiyat-vacib budur ki, zəkat verməyi tə'xirə salmasın.

**M:2030.** Əgər zəkatı müstəhəqqə çatdıra bilən bir kəs onu verməsə və səhlənkarlıq nəticəsində tələf olub aradan getsə, əvəzini verməlidir.

**M:2031.** Zəkatı müstəhəqqə çatdıra bilən bir kəs, zəkatı verməsə və onu saxlamaqda səhlənkarlıq etmədən tələf olub aradan getsə, bu halda zəkatı verməyi çox tə'xirə salsa və "dərhal veribdir" deyilməsə, onun əvəzini verməlidir. Əgər bu qədər tə'xirə salmasa (məsələn, 2-3 saat tə'xirə salsa və elə həmin vaxt ərzində tələf olsa), bu halda müstəhəq tapa bilməyibsə ona bir şey vacib deyil. Amma əgər müstəhəq tapa bilərdisə, ehtiyat-vacibə görə onun əvəzini verməlidir.

**M:2032.** İnsan öz malından ayırdığı zəkatı özü üçün götürüb yerinə başqa şey qoya bilməz.

**M:2033.** Əgər zəkat üçün ayırdığı maldan müəyyən qədər mənfəət qazansa (məsələn, zəkat üçün ayırdığı qoyun doğsa), o, fəqirin malıdır.

**M:2034.** Əgər zəkatı malından ayırdığı vaxt müstəhəq yanında olsa, yaxşı olar ki, zəkatı ona versin. Amma əgər müəyyən cəhətdən üstünlüyə malik olan bir kəsi nəzərdə tutmuş olsa, bu halda (yanında olana) verməyə bilər.

**M:2035.** Əgər zəkat vacib olmamışdan qabaq zəkat kimi müəyyən bir şeyi fəqirə versə, zəkat hesab olunmur. Zəkat vacib olandan sonra, əvvəldə fəqirə verdiyi şey qalmış olsa və həmin fəqir də öz fəqirliyində qalmış olarsa, ona verdiyi şeyi zəkatdan hesab edə bilər.

**M:2036.** Müstəhəbdir ki, inək, qoyun və dəvənin zəkatını abırlı, ismətli fəqirlərə versinlər. Habelə, zəkatı verəndə öz qohumlarını başqalarına, elm və kamal əhlini qeyrilərinə, bir şey istəyənləri istəməyənlərdən qabağa salsınlar. Amma əgər zəkatı başqa bir fəqirə vermək bir cəhətdən daha yaxşı olsa, müstəhəbdir ki, zəkatı ona versin.

**M:2037.** Daha yaxşı olar ki, zəkat aşkar, müstəhəb sədəqə isə gizli verilsin.

**M:2038.** Əgər zəkat vermək istəyən şəxsin yaşadığı şəhərdə müstəhəq tapılmasa və zəkatı müəyyən olunmuş başqa yerlərdə sərf edə bilməsə, bu halda sonradan müstəhəq tapılacağına ümidi olmasa, gərək zəkatı başqa şəhərə aparıb məsrəf olunacağı yerlərə xərcləsin. O şəhərə aparmağın xərcləri həmin zəkatdan olacaq və zəkat tələf olarsa, zamin deyil.

**M:2039.** Əgər şəxsin öz şəhərində müstəhəq şəxs tapılsa da zəkatı başqa şəhərə apara bilər, bu halda lazım olan xərcləri özü verməlidir və zəkat tələf olarsa zamindir. Amma əgər hakimi-şər'in icazəsi ilə olsa zamin deyil.

**M:2040.** Zəkat kimi verilən buğda, arpa, kişmiş və xurmanın ölçülməsində alınan muzd, (zəkat verənin) özünün öhdəsinədir.

**M:2041.** Əgər bir kəsin 2 misqal 15 noxud gümüş, yaxud daha artıq zəkat borcu olsa ehtiyat-müstəhəbə görə bir fəqirə 2 misqal 15 noxuddan az gümüş verməsin. Həmçinin əgər gümüşdən başqa şey də (buğda və arpa kimi) zəkat borcu olsa və onun qiyməti iki misqal 15 noxud gümüşə çatsa, ehtiyat-müstəhəb budur ki, bir fəqirə o miqdardan az verməsin.

**M:2042.** İnsanın müstəhəqqə verdiyi zəkatı, onun özünə satmasını xahiş etməsi məkruhdur. Əgər müstəhəq aldığı şeyi satmaq istəsə, qiymət qoyulduqdan sonra, yenə də zəkatı ona verən şəxsin həmin şeyi alması məkruhdur.

**M:2043.** Əgər bir kəs vacib olan zəkatı verib-verməməsində şəkk etsə– hərçənd onun şəkki qabaqkı illərin zəkatında da olsa, zəkatı verməlidir.

**M:2044.** Fəqir zəkatın qiymətindən az qiymətlə razılaşa, yaxud onun qiymətindən baha bir şeyi (zəkat kimi) qəbul edə, yaxud da zəkatı mal sahibindən alıb yenidən ona bağışlaya bilməz. Amma əgər məsləhət belə olsa, borc kimi qaytara bilər. Çoxlu zəkat borcu olan, fəqir olub zəkatını verə bilməyən, varlanmasına da ümidi olmayan bir kəs tövbə etmək istəsə, fəqir zəkatı ondan alıb yenidən onun özünə bağışlaya bilər.

**M:2045.** İnsan zəkatdan Qur’an, yaxud dini, dua kitabları alıb vəqf edə bilər– hətta öz övladına, yaxud xərci onun özünə vacib olan kəslərə də vəqf etsə də. Həmçinin, vəqfin tovliyətini[27] özü öhdəsinə ala, yaxud övladlarını bu işə tə’yin edə bilər.

**M:2046.** İnsan gəlirini öz xərclərinə sərf etsin deyə, zəkatdan müəyyən əmlak alıb öz övladına, yaxud xərclərini verməsi vacib olan sair kəslərə vəqf edə bilməz.

**M:2047.** Fəqir həcc, ziyarət və s. kimi yerlərə getmək üçün zəkat ala bilər. Amma əgər illik xərcləri qədərində zəkat almış olsa, ziyarət və bu kimi işlər üçün yenidən zəkat ala bilməz. Ancaq səbilillah payından almasının maneəsi yoxdur.

**M:2048.** Əgər malik müəyyən bir fəqiri, onun malının zəkatını verməyə vəkil etsə, bu halda fəqir malikin qəsdinin o fəqirin həmin zəkatdan götürməməsi olduğunu ehtimal versə ondan özü üçün götürə bilməz. Amma malikin məqsədinin bu olmadığına yəqin etsə, özünə götürə bilər.

**M:2049.** Əgər fəqir dəvə, inək, qoyun, qızıl və gümüşü zəkat kimi alsa və zəkatın vacib olması şərtləri onda mövcud olsa (yə’ni, nisab həddinə çatsa və təsadüfən bir ildə keçsə) onun zəkatını verməlidir.

**M:2050.** Əgər iki nəfər zəkatı vacib olan müəyyən bir malda bir-biri ilə şərik olsalar və onlardan biri öz payının zəkatını verəndən sonra malı bölsələr, bu

---

[27] İdarə etmək, aidiyyəti olan bütün işlərə baxma məs’uliyyəti.

halda, şərikinin malının zəkatını vermədiyini bilsə onun öz malında da təsərrüf etməsinin işkalı var.

**M:2051.** Xums və ya zəkat verməli olan, kəffarə, nəzir və bu kimi şeylər də vacib olan bir şəxsin borcu da olsa, bu halda onların hamısını verə bilməsə və zəkatı, yaxud xumsu olan mal aradan getməmiş olsa, xumsunu və zəkatını verməlidir. Amma əgər aradan getmiş olsa, xumsu və zəkatı verməklə kəffarə, nəzir, borc və s. kimi şeyləri qaytarmaq arasında ixtiyar sahibidir. Amma daha yaxşı olar ki, iki hissəyə bölsün (yə'ni yarısını xums-zəkata, yarısını isə o biri işlərə versin).

**M:2052.** Xums və zəkat borcu olan, nəzir və s. kimi şeylər də vacib olan, habelə borcu da olan bir kəs ölsə və onun var-dövləti bunların hamısına kifayət etməsə, bu halda xums-zəkatı vacib olan mal aradan getməmiş olsa, xumsunu və zəkatını verib yerdə qalan malı da vacib olan sair işlərə bölməlidirlər. Əgər xumsu və zəkatı vacib olan mal tələf olub aradan getmiş olsa, onun malını xums, zəkat, borc, nəzir və bu kimi şeylərə mütənasib olaraq bölməlidirlər. Məsələn, əgər 40 tümən xums vacib olsa, 20 tümən də başqa bir kəsə borclu olsa, malının da hamısı 30 tümən olsa, gərək 20 tümən xumsa, 10 tüməni isə borcuna verilsin.

**M:2053.** Elm öyrənməyə məşğul olan bir kəs elm öyrənmədiyi təqdirdə öz məişəti üçün kəsb-qazanc əldə edə bilərsə, bu halda o elmi öyrənmək vacib, yaxud müstəhəb olsa ona zəkat vermək olar. Amma o elmin öyrənilməsi vacib və ya müstəhəb olmasa ona zəkat verməyin işkalı var.

### *FİTRƏ ZƏKATI*

**M:2053.** Bir kəs Fitr bayramı gecəsinin qürubunda–hətta bir neçə an qalanda belə, baliğ, aqil, huşyar olsa, fəqir və bir kəsin qulu olmasa özü və onun çörək yeyənləri sayılan hər nəfər üçün buğda, arpa, xurma, kişmiş, düyü, qarğıdalı və s. kimi şeylərdən bir sa' (təqribən 3 kq) müstəhəqqə verməlidir. Əgər bunlardan hər hansının pulunu versə, kifayətdir.

**M:2054.** Əgər bir kəs özünün və ailəsinin illik qazancını tə'min edə bilməsə və tə'min etmək üçün işi, qazancı, kəsb-ticarəti də olmasa fəqirdir və fitrə zəkatı ona vacib deyil.

**M:2055.** Hər kəs Fitr bayramı gecəsində (məğrib vaxtı) onun çörək yeyənləri hesab olunan şəxslərin fitrə zəkatını verməlidir: istər böyük olsunlar, istərsə də kiçik; istər müsəlman olsunlar istərsə də kafir; istər onların xərcləri o şəxsə vacib olsun istərsə də olmasın; istər öz şəhərində olsun, istərsə də başqa şəhərdə.

**M:2056.** Əgər insanın çörək yeyənləri başqa şəhərdə olsa və onu, öz malından fitrəsini verməyə vəkil etsə, bu halda fitrəsini verəcəyinə xatircəmdirsə, özü onun fitrəsini verməsi lazım deyil.

**M:2057.** Fitr bayramı gecəsində qürubdan qabaq ev sahibinin razılığı ilə evə daxil olan və onun çörək yeyəni hesab olunan qonağın fitrəsi ev sahibinə vacibdir.

**M:2058.** Fitr bayramı gecəsində məğribdən qabaq ev sahibinin razılığı olmadan evə daxil olan və bir müddət onun yanında qalan qonaq onun çörək yeyənlərindən hesab olunsa ehtiyata əsasən onun fitrəsi ev sahibinə vacibdir. Həmçinin, insanın xərcini verməyə məcbur etdiyi kəsin də fitrəsini verməlidir.

**M:2059.** Fitr bayramı gecəsində məğribdən sonra gələn qonağın fitrəsi–hətta məğribdən qabaq onu də’vət etsə və onun evində iftar etsə də, ev sahibinə vacib deyil.

**M:2060.** Əgər bir kəs Fitr bayramı gecəsi qürub zamanı dəli və ya bihuş olsa, ona fitrə zəkatı vacib deyil.

**M:2061.** Əgər uşaq məğribdən qabaq həddi-büluğa çatsa, dəli ağıllansa, fəqir varlansa və fitrənin vacib olma şərtlərinə malik olsalar, fitrə zəkatı verməlidirlər.

**M:2062.** Fitr bayramı gecəsi qürub vaxtı fitrə zəkatı vacib olmayan bir kəsdə, bayram günü zöhrə qədər fitrənin vacib olması şərtləri tapılsa, müstəhəbdir ki, fitrə zəkatı versin.

**M:2063.** Fitr bayramı gecəsi məğribdən sonra müsəlman olan kafirə fitrə zəkatı vacib deyil. Amma şiə olmayan müsəlman ayı görəndən sonra şiə olsa, fitrə zəkatı verməlidir.

**M:2064.** Əgər bir kəsin bir sa’ (təqribən 3 kq) miqdarında buğda və bu kimi şeyləri olsa, müstəhəbdir ki, fitrə zəkatı versin. Əgər əhli-əyalının da fitrəsini vermək istəsə, fitrə niyyəti ilə o bir sa’ buğdanı öz ailə üzvlərindən birinə verə bilər ki, o da həmin məqsədlə başqasına versin və bu qayda ilə axırıncı nəfərə kimi verə bilər. Daha yaxşı olar ki, axırıncı nəfər aldığı şeyi özlərindən olmayan bir kəsə versin. Əgər onlardan biri səğir olsa onun qəyyumu onun yerinə alsın ehtiyat-vacib budur ki, səğir üçün aldığını başqa kəsə verməsin.

**M:2065.** Əgər Fitir bayramı gecəsində qürubdan sonra uşaq dünyaya gəlsə, yaxud bir kəs insanın çörək yeyənlərindən hesab olunsa, onun fitrəsini vermək vacib deyil. Amma müstəhəbdir ki, bayram gecəsi qürubdan, bayram günü zöhrə qədər onun çörək yeyənləri hesab olunanların fitrə zəkatını versin.

**M:2066.** Bir kəsin çörək yeyəni, qürubdan əvvəl başqa kəsin çörək yeyəni olsa, onun fitrəsi çörəyini yediyi şəxsə vacibdir. Məsələn, əgər qız qürubdan qabaq ər evinə göçsə, əri onun fitrəsini verməlidir.

**M:2067.** Fitrəsini başqası verməli olan bir kəsin öz fitrəsini verməsi vacib deyil.

**M:2068.** Əgər insanın fitrəsi başqasına vacib olsa və o, fitrəni verməsə, insanın özünə vacib olmaz.

**M:2069.** Fitrəsi başqasına vacib olan bir kəsin özü fitrəni versə, fitrənin vacib olduğu şəxsdən saqit olmur. Amma əgər onun icazəsi ilə versə, saqit olar.

**M:2070.** Xərclərini əri verməyən bir qadın, başqa bir kəsin çörək yeyəni olsa, fitrəsi həmin şəxsə vacibdir. Əgər başqa kəsin çörək yeyəni deyildirsə, fəqir olmadığı halda öz fitrəsini verməlidir.

**M:2071.** Seyyid olmayan bir kəs seyyidə fitrə verə bilməz. Hətta əgər bir seyyid onun çörək yeyəni olsa da, onun fitrəsini başqa bir seyyidə verə bilməz.

**M:2072.** Anasından, yaxud dayəsindən süd əmən uşağın fitrəsi, ananın və ya dayənin xərclərini verən şəxsin öhdəsinədir. Amma ana, yaxud dayə öz xərclərini uşağın malından götürsə, uşağın fitrəsi heç kəsə vacib deyil.

**M:2073.** Əgər insan bir kəsi əcir edib onun xərclərini verməsini (xidmətçi kimi) şərt etsə, bu halda öz şərtinə əməl etsə və onun çörək yeyəni hesab edilsə, onun da fitrəsini verməlidir. Amma onun xərclərinin bir miqdarını verməyi şərt etsə (məsələn, başqa xərcləri üçün pul versə) onun fitrəsini verməsi vacib deyil. Məsələn, zavodlarda, mehmanxanalarda işləyən və adətən öz yeməklərini orada yeyən fəhlələrin, fitrəsi sahibkarlara deyil, özlərinə vacibdir.

**M:2074.** Əgər bir kəs Fitir bayramı gecəsi qürubdan sonra ölsə, onun özünün və ailə üzvlərinin fitrəsini onun malından verməlidirlər. Amma əgər qürubdan qabaq ölsə, özünü və ailə üzvlərinin fitrəsini onun malından vermək vacib deyil.

**M:2075.** Əgər fitrə zəkatını, əvvəldə (malın zəkatında) deyilən 8 yerdən birinə işlətsələr, kifayətdir. Amma ehtiyata müstəhəb budur ki, yalnız fəqir şiələrə versinlər.

**M:2076.** Əgər şiə bir uşaq fəqir olsa, insan fitrəni ona da xərcləyə bilər, onun qəyyumuna verməklə uşağın mülkünə də keçirə bilər.

**M:2077.** Fitrə verilən fəqirin adil olması lazım (ilzami) deyil. Amma ehtiyat-vacib budur ki, şərab içənə və aşkar mə’siyət edənə fitrə verilməsin.

**M:2078.** Fitrəni mə’siyət yolunda işlədən bir kəsə fitrə verilməməlidir.

**M:2079.** Ehtiyat-vacib budur ki, bir fəqirə, onun bir illik xərclərindən çox və bir sa’dan az fitrə verilməsin.

**M:2080.** Əgər qiyməti adi haldakı qiymətindən iki qat artıq olan bir şeydən (məsələn, adi undan iki qat baha olan ə’la növ undan) yarım sa’ verilsə kifayət deyildir. Əgər onu, fitrənin qiyməti məqsədilə də versələr işkalı vardır.

**M:2081.** İnsan sa’ ölçüsünün yarısını bir maldan (məsələn, buğdadan) yarısını isə başqa şeydən (məsələn, arpadan) verə bilməz. Əgər onu fitrə məqsədilə də versə işkalı vardır.

**M:2082.** Müstəhəbdir ki, insan zəkat fitrəsini verəndə qohum fəqirləri başqalarından qabağa salsın, sonrakı mərhələdə fəqir qonşularına, sonra isə fəqir elm əhlinə versin. Amma əgər başqaları müəyyən cəhətə görə üstün olsalar, müstəhəbdir ki, onları qabağa salsın.

**M:2083.** Əgər bir kəsin fəqir olmasına inanıb ona fitrə versələr və sonra fəqir olmadığı mə'lum olsa, yaxud məsələni bilməməzlik üzündən fəqir olmayan bir kəsə fitrə versələr, bu halda ona verilən mal aradan getməmiş olsa, geri alıb müstəhəqqə verə bilərlər. Əgər aradan getmiş olsa, bu halda onu alan kəs fitrə olduğunu bilsə və ya ehtimal versə, onun əvəzini qaytarmalıdır ki, müstəhəqqə verilsin. Amma əgər (fitrədən) başqa adla verilibsə, ondan bir şey almaq olmaz. Əgər müstəhəqqin ayırd edilməsində səhlənkarlıq etməsə (məsələn, şər'i dəlillər fəqir olmasına şəhadət versə) yenidən öz malının fitrəsini verməsi lazım deyil.

**M:2084.** Əgər bir kəs "fəqirəm" desə, ona fitrə vermək olmaz. Amma əgər onun fəqir olmasına xatircəmlik hasil olsa, yaxud əvvəllər fəqir olması mə'lum olsa, ona fitrə verməк olar.

## *FİTRƏ ZƏKATININ MÜXTƏLİF MƏSƏLƏLƏRİ*

**M:2085.** İnsan fitrə zəkatını qürbət qəsdi ilə, yə'ni Allah-Taalanın əmrini yerinə yetirmək məqsədilə verməlidir. Onu verdiyi vaxt fitrə niyyəti etməlidir.

**M:2086.** Əgər mübarək Ramazan ayından qabaq fitrəni versə səhih deyil. Ehtiyat-vacib budur ki, Ramazan ayında da fitrəni verməsinlər. Amma əgər Ramazandan əvvəl, yaxud Ramazan ayında fəqirə borc versə və fitrə vacib olandan sonra öz borcunu fitrədən hesab etsə maneəsi yoxdur.

**M:2087.** Fitrə üçün verilən buğda və s. başqa məhsul, yaxud torpaq ilə qarışıq olmamalıdır, yaxud əgər qarışıq olsa da nəzərə çarpmayacaq dərəcədə az olmalıdır. Əgər bu miqdardan artıq olsa, o vaxt səhih olar ki, onun xalisi bir sa' miqdarına çatsın.

**M:2088.** Əgər fitrəni eybli şeydən versə, kifayət deyil. Amma əgər əksər yeməkləri eybli olan bir yerdə olsa, eybi yoxdur.

**M:2089.** Bir neçə nəfərin fitrəsini verən bir kəsin onların hamısını bir növdən verməsi lazım (ilzami) deyil. Belə ki, bə'zilərinin fitrəsini buğdadan, bə'zilərininkini isə arpadan versə, kifayətdir.

**M:2090.** Fitr bayramı namazını qılan bir şəxs ehtiyat-vacibə görə gərək fitrəni bayram namazından qabaq versin. Amma əgər bayram namazı qılmırsa fitrəni zöhrə qədər tə'xirə sala bilər.

**M:2091.** Əgər öz malının bir miqdarını fitrə niyyəti ilə ayırsa və bayram günü zöhrə qədər müstəhəqqə verməsə, (sonradan) hər vaxt versə, fitrə niyyəti etməlidir.

**M:2092.** Əgər fitrə zəkatının vacib olduğu vaxt fitrə verməsə və ayırıb kənara da qoymasa, ehtiyat-vacib budur ki, sonradan əda və qəza niyyəti etmədən, qürbət qəsdi ilə versin.

**M:2093.** Əgər fitrəni ayırıb bir tərəfə qoysa, onu özü üçün götürüb yerinə başqa mal qoya bilməz.

**M:2094.** Əgər insanın, qiyməti fitrədən artıq olan bir malı olsa, bu halda fitrəni verməsə və o malın bir miqdarının fitrə olmasını niyyət etsə işkalı var.

**M:2095.** Əgər fitrə üçün ayırıb kənara qoyduğu mal tələf olub aradan getsə, bu halda fəqir mövcud olduğu halda fitrəni verməyi tə’xirə salıbsa onun əvəzini verməlidir. Amma fəqir tapa bilməyibsə, zamin deyil.

**M:2096.** Əgər bir kəs özünün yaşadığı yerdə müstəhəq tapsa, ehtiyat-vacib budur ki, fitrəni başqa yerlərə aparmasın. Əgər başqa yerə aparsa (və verməzdən qabaq) tələf olsa əvəzini verməlidir.

## HƏCCİN HÖKMLƏRİ

**M:2097.** Həcc Allah Evinin ziyarəti və orada görülməsi əmr olunan, göstəriş verilən əməlləri yerinə yetirməkdir. Bütün ömür boyu aşağıdakı şərtlərə malik olan bir kəsə həcc bir dəfə vacib olur: **1-**Həddi-büluğa çatmış olsun; **2-**Aqil və azad olsun; **3-**Həccə getmək səbəbilə Şəriətdə (tərk olunmasının) əhəmiyyəti həccdən daha artıq olan haram bir işə mürtəkib olmağa, yaxud Həccdən mühüm olan vacib bir əməli tərk etməyə məcbur olmasın; **4-**Müstəti' olsun. Müstəti' olmaq da bir neçə şeylədir: **a)** Yol azuqəsi və öz halına münasib olaraq səfərdə ehtiyaclı olduğu şeylərə (bunlar kitablarda müfəssəl deyilib) malik olsun. Həmçinin, minik vəsaiti, yaxud hazırlaya biləcəyi malı olsun; **b)** Səhhəti sağlam və Məkkəyə gedib Həcc əməlini yerinə yetirmək üçün qüdrəti olsun; **v)** Yolda, getməyinə maneə olan bir şey olmasın; (Əgər yol bağlı olsa, yaxud insan yolda canının təhlükəyə düşəcəyindən qorxsa, həcc ona vacib deyil. Əgər başqa yolla gedə bilərsə, hətta uzaq da olsa və çox məşəqqətli, çox qeyri-adi olmasa, o yol ilə getməlidir. **q)** Həcc əməllərini yerinə yetirə biləcəyi qədər vaxtı olsun; **ğ)** Xərcləri ona vacib olan şəxslərin (ailə, əhli-əyal), habelə camaatın xərclik verməsini lazım bildikləri şəxslərin xərclərinə də malik olsun; **d)** Qayıdandan sonra kəsb-ticarət, qazanc, əkin, yaxud mülkün gəliri, yaxud başqa yollarla məişətini, güzəranını tə'min edə bilsin və zəhmətə düşməyə məcbur olmasın.

**M:2098.** Şəxsi evi olmadan ehtiyacları tə'min olmayan bir kəsə Həcc o vaxt vacibdir ki, ev almaq üçün də pulu olsun.

**M:2099.** Məkkəyə gedə bilən bir qadının, qayıdandan sonra özünün malı olmasa, əri də (misal üçün) fəqir olub onun xərcliyini verə bilməsə və nəticədə güzəranının çətinliyə düşməsinə səbəb olsa, həcc ona vacib deyil.

**M:2100.** Əgər bir kəsin yol azuqəsi, minik vasitəsi olmasa və başqası "həccə get, mən sənin və əhli-əyalının, ailənin xərcini səfərdə olduğun müddətdə verəcəyəm" desə həcc ona vacib olur.

**M:2101.** Əgər bir kəsə Məkkəyə gedib-qayıtdığı müddətdə yol xərcini və ailəsinin xərcliyini o xərcləri ona bağışlayıb və Həccə getməsini şərt etsələr, hətta borclu olsa da və qayıdan vaxt güzəranı üçün lazımi qədər malı olmasa da, gərək qəbul etsin: həcc ona vacibdir.

**M:2102.** Əgər bir kəsin Məkkəyə gedib qayıtdığı müddətdə yol xərclərini və əhli-əyalının xərclərini verib "həccə get" desələr, amma o pulu onun mülkünə keçirməsələr, həcc ona vacib olur.

**M:2103.** Əgər həcc üçün kifayət edən qədər malı bir kəsə versələr və onunla Məkkə yolunda malı verən kəsə xidmət etməsini şərt etsələr, həcc ona vacib olmur. Ancaq qəbul etsə və xidmət etməyə həcc əməllərini yerinə yetirməyə maneəsi olmasa, həcc ona vacibdir.

**M:2104.** Əgər bir kəsə müəyyən qədər mal versələr və Həcc ona vacib olsa, bu halda həccə getsə, hətta sonradan özünün malı olsa da yenidən həcc ona vacib olmur.

**M:2105.** Əgər ticarət və ya başqa məqsədlə Cəddəyə gedib orada mal əldə etsə, belə ki, əgər oradan Məkkəyə gedərsə, müstəti' olacaqsa, habelə sair şərtlər də mövcud olsa, həccə getməlidir. Həcc edərsə və sonradan öz vətənindən Məkkəyə getməsinə kifayət edən qədər mal əldə etsə də daha həcc ona vacib deyil.

**M:2106.** Əgər insan başqasının tərəfindən birbaşa Həccə getməyə əcir olunsa, bu halda özü gedə bilməyib başqasını öz tərəfindən göndərmək istəsə, onu əcir edən şəxsdən icazə almalıdır.

**M:2107.** Əgər bir kəs müstəti olub Məkkəyə getməsə, sonra fəqir olsa və nəticədə istitaəti (həccə getmək qüdrəti) əlindən çıxsa, hər yolla mümkün olsa– hətta borc almaqla, yaxud əcir olunmaqla belə, həcc əməlini yerinə yetirməlidir. Əgər həccə getməsi məşəqqətə, çətinliyə səbəb olarsa, yenə də ehtiyat-vacibə görə getməlidir.

**M:2108.** Əgər müstəti' olduğu birinci ildə süstlük, səhlənkarlıq və tə'xir olmadan Məkkəyə getsə, amma müəyyən olunmuş vaxtda Ərəfata və Məş'ərül-hərama çatmasa, bu halda sonrakı illərdə müstəti' olmasa, həcc ona vacib deyil. Amma əgər əvvəlki illərdən müstəti olduğu halda getməsə gərək mümkün olan hər yolla həcc əməlini yerinə yetirsin.

**M:2109.** Əgər müstəti' olduğu birinci ildə Həcc etməsə və sonradan qocalıq, yaxud xəstəlik, yaxud qüdrətsizlik səbəbilə həccə gedə bilməsə və sonradan həcc etməsinə naümid olsa gərək başqasını öz tərəfindən göndərsin ki, onun üçün həcc əməlini (niyabətən) yerinə yetirsin. Hətta əgər həccə getmək qədərində mal tapdığı birinci ildə qocalıq, xəstəlik, yaxud qüdrətsizlik vasitəsilə həccə gedə bilməsə ehtiyata müstəhəb budur ki, bir kəsi həcci yerinə yetirmək üçün öz tərəfindən göndərsin.

**M:2110.** Əgər bir kəs başqasının tərəfindən Həcc üçün əcir olunsa Nisa təvafını onun tərəfindən yerinə yetir-məlidir. Əgər yerinə yetirməsə öz qadını ona haram olur.

**M:2111.** Əgər Nisa təvafını düzgün yerinə yetirməsə, yaxud unutsa və bir neçə gündən sonra yadına düşsə və yarı yoldan qayıdıb yerinə yetirsə səhihdir.

## AL-VERİN (MÜAMİLƏ) HÖKMLƏRİ

### *AL-VERDƏ MÜSTƏHƏB OLAN ŞEYLƏR*

**M:2112.** Müamilə hökmlərini (ehtiyac duyulan qədər) öyrənmək lazımdır. Müstəhəbdir ki, satıcı, müştərilərin arasında öz malının qiymətinə fərq qoymasın. Malının qiymətində çox israr etməsin. Onunla müamilə edən şəxs peşman olub müamiləni pozmaq istəsə qəbul etsin (malı geri götürsün).

**M:2113.** Əgər insan, etdiyi müamilənin səhih, yaxud batil olmasını bilməsə aldığı malda təsərrüf edə bilməz. Amma müamilə vaxtı onun hökmlərini bilib sonradan şəkkə düşsə, təsərrüf etməsinin eybi yoxdur. Müamiləsi səhihdir.

**M:2114.** Malı olmayan və müəyyən xərclər vacib olan bir kəsin ailəsinin xərcləri üçün kəsb-ticarət, qazanc etməsi vacibdir. Habelə müstəhəb işlər üçün (öz ailəsinin güzəranını yaxşılaşdırmaq, fəqirlərin əlindən tutmaq və s.) kəsb-ticarət etmək müstəhəbdir.

### *MƏKRUH MÜAMİLƏLƏR*

**M:2115.** Məkruh müamilələrin ümdəsi aşağıdakılardan ibarətdir: **1-**Qul satmaq; **2-**Qəssablıq (heyvan başı kəsmək); **3-**Kəfən satmaq; **4-**Alçaq adamlarla al-ver etmək; **5-**Sübh azanından gün çıxana qədərki al-ver; **6-**Öz işini buğda, arpa və s. kimi şeylərin al-veri qərar vermək; **7-**Başqasının almaq istədiyi bir şeyi almaq üçün müamiləyə daxil olmaq.

### *HARAM MÜAMİLƏLƏR*

**M:2116.** Bir neçə yerdə müamilə batildir:

**1-**Nəcisin eyninin (spirtli (məst edici) içkilər, ov üçün olmayan itin, donuzun) al-veri; Amma halal yolda istifadə edilə bilən nəcasətin eyninin al-veri caizdir. Məsələn, qaiti gübrə etsələr, al-veri caizdir. Həmçinin bizim zəmanəmizdə yaralılara, xəstələrə nicat verilməsi üçün edilən qan al-veri caizdir.

**2-**Qəsbi malın al-veri; (Amma əgər onun sahibi müamiləyə icazə versə batil deyil.)

**3-**Maliyyatı, xeyri olmayan şeylərin (məsələn, yırtıcı heyvanların) al-veri;

**4-**Adi mənafeyi haram olan şeylərin (qumar və musiqi alətləri kimi) müamiləsi;

**5-**Riba (sələm) olan müamilə.

Müamiləyə bir şey qatmaq (“ğəşş”, yə’ni başqa şeylə qarışan malı satmaq)– əgər qatılan şey mə’lum olmasa satıcı da alıcıya deməsə (piy qatılmış yağ kimi) bu kimi əmələ “ğəşş” deyilir və haramdır. Peyğəmbəri Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-dən nəql olunub ki, buyurur: “Müsəlmanlarla müamilədə ğəşş edən, onlara zərər vuran, saxtakarlıq edən, yaxud hiylə edən kəs bizdən

deyil. Hər kəs öz müsəlman qardaşı ilə ğəşş etsə, (al-verdə qatqı qatsa) Allah onun ruzisinin bərəkətini götürər, məişətinin, güzəranının yolunu bağlayar və onu öz başına buraxar.”

**M:2117.** Suya çəkilməsi mümkün olan nəcis şeyi satmağın eybi yoxdur. Əgər müştəri o şeyi yemək üçün alsa, satıcı onun nəcis olmasını deməlidir. Amma əgər paltar kimi şeylər olsa, hətta müştəri onunla namaz qılacaqsa belə, deməsi lazım (ilzami) deyil. Çünki təharətdə paltar və bədənin zahirən təharətli olması kifayətdir.

**M:2118.** Əgər suya çəkilməsi mümkün olmayan pak şeylər (yağ və neft kimi) nəcis olsa, nəcis yağı yemək üçün alıcıya versə, müamilə batil və bu iş haramdır. Amma əgər pak olması şərt olmayan işlər üçün satırsa (məsələn, nəcis nefti yandırmaq, yaxud nəcis yağdan sabun hazırlamaq istəyirsə) onu satmağın eybi yoxdur.

**M:2119.** Qəbul edilən nəcis dava-dərmanların al-veri caizdir, amma nəcis olması müştəriyə deyilməlidir.

**M:2120.** Qeyri-islami ölkələrdən gətirilən yağ, maye dava-dərman və ətirlərin nəcis olmaları mə’lum olmasa, al-verinin eybi yoxdur. Amma heyvan can verəndən sonra ondan alınan yağ, kafirlərin şəhərindən, kafirlərin əlindən alınsa və atıcı qanı olan heyvanlardan olsa, Şəriət göstərişlərinə müvafiq olaraq kəsilən heyvanlardan olması ehtimalı verilərsə, pak və al-verinin caiz olmasına baxmayaraq, yeyilməsi haramdır. Satıcı da onun keyfiyyətini müştəriyə deməlidir.

**M:2121.** Əgər tülkünü, Şəriətdə müəyyən olunmuş qaydalara əsasən kəsməsələr, yaxud onun özü ölsə, dərisinin al-veri haram, müamilə isə batildir.

**M:2122.** Qeyri-islami ölkələrdən gətirilən, yaxud kafirin əlindən alınan ət, piy və dərinin, başı Şəriət qanunlarına uyğun olaraq kəsilmiş heyvanlardan olması ehtimalı verilsə al-veri caizdir, amma onda (dəridə) namaz qılmaq caiz deyil.

**M:2123.** Müsəlmanın əlindən alınmış ət, piy və dərinin al-verinin eybi yoxdur. Amma əgər insan, o müsəlmanın onları kafirin əlindən aldığını bilsə və Şəriətdə olan qaydalara əsasən kəsilən heyvanlardan olub-olmaması barədə təhqiqat aparmasa, onun al-veri halaldır, lakin o dəridə namaz qılmaq, o əti yemək caiz deyil.

**M:2124.** Məstedici şeylərin al-veri haram, müamiləsi isə batildir.

**M:2125.** Əgər bir kəs qəsbi malı satsa, bu halda sahibi onun müamiləsini rədd etsə, batildir. satıcı da alıcıdan aldığı pulu ona (sahibinə) qaytarmalıdır.

**M:2126.** Əgər alıcının məqsədi malın pulunu verməmək olsa, müamilənin işkalı vardır.

**M:2127.** Əgər alıcı malın pulunu, sonradan haram puldan vermək istəsə və elə əvvəldən də məqsədi bu olsa, müamilənin işkalı vardır. Amma əgər

əvvəldən məqsədi bu olmasa, müamilə səhihdir, borclu olduğu miqdarı da halal maldan verməlidir.

**M:2128.** Musiqi alətlərinin (tar, saz və s.) al-veri haramdır.

**M:2129.** Əgər bir şeydən halal yolda istifadəsi mümkün olan halda haram yolda istifadə məqsədi ilə (məsələn, üzümü, şərab hazırlanması üçün) satsalar onun müamiləsi haram və ehtiyata əsasən batildir.

**M:2130.** Heykəl və üstündə heykəl olan sair şeylərin al-verinin eybi yoxdur.

**M:2131.** Qumar, oğurluq, yaxud batil müamilədən əldə olunan şeyin al-veri batil, onda təsərrüf etmək haramdır. Əgər bir kəs onu alsa, əsl sahibinə qaytarmalıdır.

**M:2132.** Əgər bir kəs yağa piy qatıb satsa və onun miqdarını da müəyyən etsə (məsələn, "mən" yağ satıram desə) müştəri müamiləni poza bilər. Amma əgər onu müəyyən etməsə əksinə bir "mən" yağ satsa və sonra piy qarışmış yağ versə müştəri o yağı geri qaytarıb xalis yağ tələb edə bilər.

**M:2133.** Əgər çəki, yaxud peymanə ilə satılan malın müəyyən miqdarını, həmin cinsdən olan artıq miqdara satsalar (məsələn, bir "mən" buğdanı bir yarım "mən" buğdaya satsalar) sələm və haramdır. Bir dirhəm sələmin günahı insanın öz məhrəmi ilə (ana, bacı və s.) 70 dəfə zina etməsi günahından daha böyükdür. Hətta əgər iki maldan biri sağlam, digəri isə eybli olsa, yaxud birinin cinsi yaxşı, digərininki isə pis olsa, yaxud iki şeyin bir-birindən qiymət fərqi olsa, verdiyindən artıq miqdarda alsa, yenə də riba və haramdır. Deməli əgər, sağlam mis qab verib əvəzində onun miqdarından artıq sınıq mis alsa; sədr düyüsü verib ondan artıq başqa növ düyü alsa; e'mal olunmuş qızıl verib ondan artıq e'mal olunmamış qızıl alsa, riba və haramdır.

**M:2134.** Əgər artıq aldığı şey satdığının cinsindən başqa olsa (məsələn, bir "mən" buğdanı bir "mən" buğda və üstəgəl bir riyal pula satsa) yenə də riba və haramdır. Hətta əgər üstündə bir şey almasa, amma alıcının müəyyən bir iş görməsini şərt etsə, yenə də riba və haramdır.

**M:2135.** Əgər az miqdar verən şəxs müəyyən bir şey əlavə etsə (məsələn, bir "mən" buğda ilə bir dəsmalı 1,5 "mən" buğdaya satsa) əgər az miqdar qiymətdə onunla eyni cinsdən olanın çox miqdarla bərabər olsa və az miqdarı verən şəxs onu satmaqdan xilas olmaq üçün həmcinsindən artığı üçün bir şey əlavə etsə məsələn, bir "mən"[28] ə'la növ buğda və bir dəsmalı 1,5 "mən" orta növ buğdaya satsa) eybi yoxdur. Həmçinin əgər hər iki tərəf müəyyən bir şeyi artırsalar (bir "mən" buğda və bir dəsmalı 1,5 "mən" buğda və bir dəsmala satsa) eyni qayda ilə.

---

[28]"Mən" çəki vahididir, təqribən 3 kiloqramdır.

**M:2136.** Əgər zira, yaxud metrlə ölçülən (parça kimi), yaxud say ilə müamilə olunan (qoz və yumurta kimi) bir şeyi satıb əvəzində artıq alsa (məsələn, 10 ədəd yumurta verib 11 ədəd alsa) eybi yoxdur. Əgər 10 ədəd yumurtanı 11 yumurtaya zimməsində satsa, aralarında imtiyaz, fərq olması lazım (ilzami) deyil. Çünki, al-ver gerçəkləşir. Məsələn, 10 ədəd böyük yumurtanı 11 ədəd orta həddə olan yumurtaya zimməsində sata bilər. Əskinasların al-veri də elə bu qəbildəndir. Yə'ni nəqd əskinası ondan artığına, müddətlə sata bilər. Məsələn, 1000 tümən nəqd pulu, altı aydan sonra alsın deyə, 1200 tümənə satsa. Həmçinin, əskinasların əskinasa, yaxud əskinasın dollara və ya xarici pullara satmağın, yaxud (bankların, sərrafların, yaxud ayrı-ayrı şəxslərin vasitəsilə) xırdalamağın eybi yoxdur. Amma ribalı (sələmli) borc haramdır.

**M:2137.** Bə'zi şəhərlərdə çəki və ya peymanə ilə, bə'zi şəhərlərdə isə say ilə al-ver olunan şeyi çəki və peymanə ilə satılan şəhərdə çox alsalar riba və haramdır, o biri şəhərdə isə haram deyil.

**M:2138.** Əgər satdığı və əvəzində aldığı şey eyni növdən olmasa, artıq almağın eybi yoxdur. Deməli, bir "mən" düyü satıb iki "mən" buğda alsa, müamilə səhihdir.

**M:2139.** Əgər satdığı və əvəzində aldığı mal eyni şeydən hazırlanmış olsa gərək müamilədə artıq almasın. Məsələn, bir "mən" yağ satıb əvəzində bir yarım "mən" pendir alsa, riba və haramdır. Həmçinin əgər, yetişmiş meyvəni kal meyvə ilə müamilə etsə artıq ala bilməz.

**M:2140.** Buğda və arpa riba məsələsində bir növdən hesab olunur. Deməli, bir "mən" buğda verib 1,5 "mən" arpa alsa riba və haramdır. Həmçinin əgər on "mən" arpa alıb müqabilində xərmən vaxtı on "mən" buğda vermək istəsə, arpanı nəqd aldığına və bir müddətdən sonra buğdanı vermək istədiyinə görə artıq almaq kimidir və haramdır.

**M:2141.** Əgər müsəlman bir şəxs İslamın pənahında olmayan kafirdən riba alsa eybi yoxdur. Həmçinin, ata-oğul, ər-arvad bir-birindən riba ala bilərlər.

## *SATICININ VƏ ALICININ ŞƏRTLƏRİ*

**M:2142.** Satıcı və alıcı üçün altı şərt vardır:

**1-**Baliğ olsunlar; **2-**Aqil olsunlar; **3-**Cameüş-şərait müctehid onları öz mallarında, əmlakında təsərrüf etmələrini qadağan etməmiş olsun; **4-**Al-ver niyyətləri olsun (deməli əgər misal üçün, zarafatyana "öz malımı satdım" desə müamilə batildir); **5-**Bir kəs onları al-verə məcbur etməsin; **6-**Verdiyi mal, yaxud onun əvəzində verdiyi şey öz malı olsun, yaxud səğir uşağın atası, babası kimi malının ixtiyarı onların əlində olsun. (Bunların hökmləri sonrakı məsələlərdə gələcək.)

**M:2143.** Həddi-büluğa çatmamış uşaqla edilən müamilə, hətta atası və ya babası müamilədə ona icazə vermiş olsa da batildir. Amma əgər uşaq müməyyiz

olsa və uşaqlar üçün adi olan az qiymətli şeyləri müamilə etsə, eybi yoxdur. Həmçinin əgər uşaq pulu satıcıya, malı alıcıya çatdırmaq üçün vasitə olsa, yaxud malı alıcıya versə və pulunu da satıcıya çatdırsa (əslində iki nəfər həddi-büluğa çatan şəxs müamilə etdiyi üçün) müamilə səhihdir. Amma satıcı və alıcının malın pulunu və ya özünü onun sahibinə çatdıracaqlarına yəqini olmalıdır.

**M:2144.** Əgər bir kəs həddi-büluğa çatmamış uşaqdan bir şey alsa, yaxud ona bir şey satsa, ondan aldığı pulu, yaxud malı sahibinə verməli, yaxud, sahibindən razılıq istəməlidir. Əgər onun sahibini tanımırsa və tanıması üçün vasitə yoxdursa uşaqdan aldığı şeyi onun sahibinin tərəfindən məzalim[29] verməlidir. Amma əgər aldığı şey səğirin öz malı olsa onu qəyyumuna çatdırmalıdır. Əgər onu tapmasa cameüş-şərait müctehidə verməlidir.

**M:2145.** Əgər bir kəs həddi-büluğa çatmamış uşaqla müamilə etsə və uşağa verdiyi pul, yaxud mal aradan getsə uşaqdan, yaxud onun qəyyumundan tələb edə bilməz.

**M:2146.** Əgər satıcını və ya alıcını müamiləyə məcbur etsələr, bu halda müamilədən sonra razılıqlarını bildirib "razıyıq" desələr, müamilə səhihdir. Amma ehtiyat-müstəhəb budur ki, yenidən müamilə siyğəsini oxusunlar.

**M:2147.** Əgər insan bir kəsin malını, sahibinin icazəsi olmadan satsa və (sonradan) sahibi razı olmasa, icazə də verməsə, müamilə batildir.

**M:2148.** Uşağın atası və (ata tərəfdən olan) babası onun malını o vaxt sata bilər ki, onun üçün məfsədəsi (zərəri) olmasın. Üstəlik daha yaxşı olar ki, nə qədər ki, xeyri, məsləhəti yoxdur, satmasınlar. Amma atanın və ata tərəfdən olan babasının vəsisi (canişini) və cameüş-şərait müctehid uşağın malını o vaxt sata bilərlər ki, uşağın məsləhəti, xeyri onda olsun.

**M:2149.** Əgər bir kəs bir malı qəsb edib satsa və sonradan malın sahibi müamiləni, özü üçün icazə versə müamilə səhihdir. Ehtiyat-vacib budur ki, müştəri və malın sahibi mal və onun əvəzi olan mənfəətdə bir-biri ilə razılaşsınlar.

**M:2150.** Əgər bir kəs bir malı qəsb edib satsa, məqsədi də o pulu özünə götürmək olsa, bu halda malın sahibi müamiləyə icazə verməsə batildir. Əgər malı qəsb edən kəs üçün də icazə versə, müamilənin səhihliyində işkal var. Zahir budur ki, pul malikin özünə qayıdır.

### *MAL VƏ ONUN ƏVƏZİNİN ŞƏRTLƏRİ*

**M:2151.** Satılan və onun əvəzində alınan malın beş şərti var:

**1.**-Onun miqdarı çəki, peymanə, saymaq və bu kimi şeylərlə mə'lum olsun;

---

[29]İnsanın boynunda olan və sahibini tanımadığı, yaxud sahibini tapa bilmədiyi şeylər.

**2-**Onu təhvil vermək mümkün olsun; deməli, qaçmış atı satmaq səhih deyil. Amma əgər qaçmış qulu, təhvil verilməsi mümkün olan bir şeylə (məsələn, bir xalça ilə) birlikdə satsalar, hətta o qul tapılmasa belə, müamilə səhihdir. Quldan başqalarında (bu cür müamilə) müşküldür. Amma əgər bir kəs qaçmış qulu azad etmək üçün almaq istəsə, müamilə səhihdir, başqa bir şeyin də o qula əlavə edilməsinə ehtiyac yoxdur.

**3-**Mal və onun əvəzinin xüsusiyyətləri, habelə, camaatın müamiləyə fərq qoymalarına səbəb olan xüsusiyyətləri müəyyən etsin;

**4-**Başqa bir kəsin malda, yaxud onun əvəzində müəyyən haqqı olmasın; deməli, insan bir kəsin yanında girov qoyduğu malı, onun icazəsi olmadan sata bilməz.

**5-**Malın özünü deyil, mənfəətini satsın. Deməli, misal üçün, evin bir illik mənfəətini satsa işkal məhəllidir.[30] Əgər alıcı pul yerinə, mülkünün mənfəətini versə (məsələn, bir kəsdən xalça alıb əvəzində evinin bir illik mənfəətini ona həvalə etsə) eybi yoxdur. (Bunların hökmləri gələcək məsələlərdə deyiləcək.)

**M:2152.** İnsan bir şəhərdə çəki və peymanə ilə satılan malı həmin şəhərdə çəki və peymanə ilə, görməklə (ölçmədən) müamilə edilən şəhərdə isə görməklə almalıdır.

**M:2153.** Çəki ilə al-ver olunan bir şeyi peymanə ilə müamilə etmək olar. Belə ki, misal üçün, 10 "mən" buğdanı peymanə ilə satmaq istəsələr bir "mən" tutan peymanə ilə 10 dənə verməlidirlər.

**M:2154.** Əgər dördüncü şərt istisna olmaqla qeyd olunan şərtlərdən biri mövcud olmasa müamilə batildir. Amma əgər alıcı və satıcı bir-birinin malında təsərrüf etməyə razı olsalar, onların təsərrüf etmələrinin eybi yoxdur. Dördüncü şərtdə əgər girov götürən müamiləyə icazə versə və ya mülk girovdan çıxsa, müamiləsi səhihdir.

**M:2155.** Vəqf olunan şeyin müamiləsi batildir. Amma əgər xarab olsa, yaxud xarab olma ərəfəsində olub malın vəqf olunduğu sahədə istifadə olunması mümkün olmasa (məsələn, məscidin həsiri çox cırılsa və üstündə namaz qılmaq mümkün olmasa) satmağın eybi yoxdur. Ancaq mümkün olan surətdə onun pulunu həmin məsciddə, hansı məqsədlə vəqf olunubsa, ona daha yaxın olan məqsədə sərf etməlidirlər.

**M:2156.** Əgər malın vəqf olunduğu şəxslər arasında ixtilaf düşsə və vəqf olunan malları satmayacaqları halda malın, yaxud kiminsə canının tələf olacağı gözlənilirsə, onu satıb vəqf olunan şəxslərin arasında bölə bilərlər. Həmçinin əgər vəqf edən şəxs, məsləhət vəqfin satılmasında olanda sata bilmələrini şərt etsə də eyni qayda ilə. Amma ixtilaf təkcə satıb başqa yer almaqla aradan

---

[30] İşkalı var, onun səhih olması şübhəlidir. (Müqəllid bu kimi məsələlərdə başqa müctehidə müraciət edə bilər.)

qalxacaqsa vəqf olunan o şeyi başqa məkana çevirməli və ya onun pulu ilə başqa yer alınmalı və birincinin vəqf olunduğu istiqamətdə vəqf edilməlidir.

**M:2157.** Bir kəsə icarə verilən mülkün al-verinin eybi yoxdur. Amma o mülkdən icarə müddətində istifadə etmək icarəyə götürən şəxsindir. Əgər alıcı mülkün icarəyə verildiyini bilməsə, yaxud icarə müddətinin az olduğunu güman edərək mülkü alsa, məsələdən xəbərdar olandan sonra müamiləni poza bilər.

### *AL-VER SİYĞƏSİ*

**M:2158.** Al-ver siyğəsinin ərəbcə oxunması lazım (ilzami) deyil. Məsələn, əgər satıcı hər hansı bir dildə "bu malı bu pulun müqabilində satdım", müştəri də "qəbul etdim" desə, müamilə səhihdir. Satıcı və alıcının inşa qəsdi olmalıdır. Yə'ni bu iki cümləni deməklə məqsədləri al-ver etmək olmalıdır.

**M:2159.** Əgər müamilədə siyğəni oxumasalar, amma satıcı alıcıdan aldığı mal müqabilində öz malını onun mülkü etsə və o da alsa, müamilə səhihdir. Hər ikisi malik olurlar.

**M:2160.** Müamilə sənədlərinin imzası–istər rəsmi dövlət idarələrində olsun, istərsə də başqa yerlərdə (bizim zəmanəmizdə adi olan bu halda) tələffüzdə deyilən siyğənin yerində oturur.

### *MEYVƏLƏRİN AL-VERİ*

**M:2161.** Gülləri tökülən və dənə bağlayan (və adətən artıq afət dəymə vaxtından keçmiş olan) meyvələrin al-veri dərməkdən qabaq səhihdir. Həmçinin üzüm budağında olan qoranı satmağın eybi yoxdur. Amma onların miqdarı mütəxəssislərin təxmini hesablamaları vasitəsilə mə'lum olmalıdır.

**M:2162.** Əgər ağacın üstündə olan meyvəni, gülləri tökülməmişdən qabaq satmaq istəsələr, bu halda satıcının mülkü və ayrıca maliyyəti olan (istifadəyə, satılmağa layiqi olan) başqa bir şeyi həmin şeylə yanaşı satmalıdırlar.

**M:2163.** Əgər saralmış, yaxud qızarmış xurmanı ağacın üstündə satsalar eybi yoxdur. Amma onun əvəzində xurma almamalıdırlar.

**M:2164.** Bir ildə bir neçə dəfə məhsul verən xiyar, badımcan, göyərti və bu kimi şeyləri satmağın–zahir olduqları vaxt və müştərinin ildə onu neçə dəfə yığmasını müəyyən etdikləri halda eybi yoxdur.

**M:2165.** Əgər buğda və arpa sünbülünü, dənə bağlayandan sonra buğda və arpadan başqa bir şey müqabilində satsalar eybi yoxdur.

### *NƏQD VƏ NİSYƏ*

**M:2166.** Əgər müəyyən bir şeyi nəqd satsalar alıcı və satıcı müamilədən sonra malı və pulu qarşılıqlı şəkildə tələb edib təhvil ala bilərlər. Ev, torpaq və s. kimi şeylərin təhvil verilməsi belədir ki, onu alıcının ixtiyarında qoysun ki, ondan istifadə (təsərrüf) edə bilsin. Paltar, palaz və bu kimi şeylərin təhvil

verilməsi belədir ki, onu alıcının ixtiyarında qoysunlar, belə ki, əgər onu başqa yerə aparmaq istəyərsə satıcı mane olmasın.

**M:2167.** Nisyə müamilədə gərək müddət dəqiq şəkildə mə’lum olsun. Deməli, müəyyən bir şeyi xərmən vaxtında pulunu almaq niyyəti ilə satsa, vaxt dəqiq şəkildə müəyyən olunmadığı üçün müamilə batildir.

**M:2168.** Əgər bir kəs müəyyən bir malı nisyə satsa qərar qoyulan müddət tamam olmamışdan qabaq onun əvəzini alıcıdan tələb edə bilməz. Amma əgər alıcı ölsə və özünün də malı olsa, satıcı müddətin vaxtı tamam olmamışdan qabaq onun vərəsələrindən ala bilər.

**M:2169.** Əgər müəyyən bir şeyi nisyə satsalar qərar qoyulan vaxt tamam olandan sonra onun əvəzini alıcıdan tələb edə bilər. Amma əgər alıcı verə bilməsə ona möhlət verməlidir.

**M:2170.** Əgər malın qiymətini bilməyən bir kəsə müəyyən qədər nisyə verib qiymətini ona deməsələr, müamilə batildir. Amma əgər, malın nəqd qiymətini bilən bir kəsə nisyə verib baha hesablasalar, məsələn, “sənə nisyə verdiyim malı, nəqd satdığım qiymətin hər tümənində bir riyal baha hesablayacağam” desə və o da qəbul etsə, eybi yoxdur.

**M:2171.** Müəyyən malı nisyə satan və onun pulunu almaq üçün vaxt müəyyən edən bir kəs, müddətin yarısı keçdikdən sonra öz alacağının bir miqdarını azaldıb qalan yarısını nəqd alsa eybi yoxdur.

### *SƏLƏF MÜAMİLƏSİ*

**M:2172.** Sələf müamiləsi budur ki, satılan şey külli olsun müştəri də pulu verib müəyyən müddətdən sonra malı təhvil alsın. Əgər “bu pulu verirəm ki, altı aydan sonra filan malı alam”, satıcı da “qəbul etdim” desə, yaxud satıcı pulu alıb “filan malı satdım ki, altı aydan sonra təhvil verəm” desə müamilə səhihdir.

**M:2173.** Əgər qızıl və gümüşdən olan pulu sələf kimi satıb əvəzini qızıl və gümüş puldan alsa, müamilə batildir. Ancaq müəyyən malı sələf kimi satıb əvəzinə başqa mal, yaxud pul alsa müamilə səhihdir. Amma ehtiyat-müstəhəb budur ki, satdığı malın əvəzində pul alsın, başqa mal almasın.

### *SƏLƏF MÜAMİLƏSİNİN ŞƏRTLƏRİ*

**M:2174.** Sələf müamiləsinin altı şərti vardır:

**1-**Malın qiymətinin fərqlənməyə səbəb olan xüsusiyyətlərini müəyyən etsinlər. Amma həddindən artıq diqqət etmək lazım deyil: Elə camaat “bunun xüsusiyyəti mə’lumdur” desə kifayətdir. Deməli, çörək, ət, heyvan dərisi və s. kimi şeylərdə onun xüsusiyyətlərinin müştəri üçün namə’lum qalmayacağı surətdə müəyyən etmək mümkün olmasa və müamilə “ğərəri” (namə’lumluq olan) olsa sələf müamiləsi batildir.

**2-**Satıcı və alıcı bir-birindən ayrılmamışdan qabaq alıcı pulunun hamısını satıcıya versin, yaxud pulunun müəyyən miqdarında satıcıda nəqd borcu olsun və öz borcunu malın qiymətindən hesab etsin, o da qəbul etsin. Əgər onun qiymətinin müəyyən miqdarını versə, müamilənin həmin miqdarda səhih olmasına baxmayaraq, satıcı həmin miqdarın müamiləsini poza bilər.

**3-**Müddət dəqiq şəkildə müəyyən olsun; misal üçün, "xərmənin əvvəlinə qədər malı təhvil verəcəyəm" desə, müddət dəqiq mə'lum olmadığından, müamilə batildir.

**4-**Malın təhvil verilməsi üçün elə vaxt tə'yin olunmalıdır ki, o vaxtda həmin mal az tapılan olmasın ki, satıcı onu təhvil verə bilməsin.

**5-**Malın təhvil olunacağı yer tə'yin etsinlər. Amma əgər onların danışıqlarından təhvil olunacağı yer mə'lum olsa həmin yerin adını demələri lazım (ilzami) deyil.

**6-**Malın çəkisini, peymanəsini, yaxud sayını müəyyən etsinlər. Adətən görməklə müamilə olunan malı sələf kimi satsalar eybi yoxdur. Amma gərək qoz və yumurtanın bə'zi qismlərində olan kimi onun fərdlərinin təfavütü o qədər az olsun ki, camaat arasında ona əhəmiyyət verilməsin.

### *SƏLƏF MÜAMİLƏSİNİN HÖKMLƏRİ*

**M:2175.** İnsan, sələf kimi aldığı malı, müddəti qurtarmamışdan qabaq sata bilməz. Müddət tamam olandan sonra, onu təhvil almamasına baxmayaraq, satmasının eybi yoxdur.

**M:2176.** Sələf müamiləsində əgər satıcı qərara alınan malı və'də verdiyi vaxtda təhvil versə, müştəri qəbul etməlidir.

**M:2177.** Əgər satıcının verdiyi mal qərara aldıqlarından yaxşı, yaxud pis olsa, müştəri qəbul etməyə bilər.

**M:2178.** Əgər satıcı, müştərinin razı olduğu halda qərara alınan malın yerinə başqa mal versə eybi yoxdur.

**M:2179.** Əgər sələf kimi satılan mal, təhvil verilməli olduğu vaxtda tapılmazsa və onu tapa bilməsə müştəri, satıcı tapana qədər gözləyə bilər, yaxud (gözləməyib) müamiləni poza, verdiyi şeyi geri ala bilər.

**M:2180.** Əgər müəyyən malı satıb bir müddətdən sonra təhvil almaq və pulunu da bir müddətdən sonra verməsini qərara almaq istəsə, müamilə batildir.

### *QIZIL-GÜMÜŞÜN QIZIL-GÜMÜŞƏ SATILMASI*

**M:2181.** Əgər qızılı qızıla gümüşü gümüşə satsalar–istər sikkəli olsun, istərsə də sikkəsiz–onlardan birinin çəkisi o birisindən artıq olsa, müamilə haram və batildir.

**M:2182.** Qızılı gümüşə, gümüşü qızıla satsalar müamilə səhihdir; çəkilərinin də bərabər olması ilzami deyil.

**M:2183.** Əgər qızılı və ya gümüşü, qızıla, yaxud gümüşə satsalar, satıcı və alıcı bir-birindən ayrılmazdan qabaq malı və onun əvəzini gərək bir-birinə təhvil versinlər. Əgər qərar qoyduqları şeydən heç bir miqdarını təhvil verməsələr müamilə batildir.

**M:2184.** Əgər satıcı və ya alıcı qərar qoyduğu şeyin hamısını, digəri isə bir miqdarını təhvil verib bir-birindən ayrılsalar, müamiləni həmin miqdarda səhih olmasına baxmayaraq malın hamısı əlinə çatmayan tərəf müamiləni poza bilər.

**M:2185.** Əgər bir miqdar mə’dən gümüş torpağını həmin miqdar xalis gümüşə, yaxud bir miqdar mə’dən qızıl torpağını həmin miqdar xalis qızıla satsalar, müamilə batildir. Amma gümüş torpağını qızıla, qızıl torpağını gümüşə satmağın heç bir halda eybi yoxdur.

### *MÜAMİLƏNİ POZMAĞIN MÜMKÜN OLDUĞU YERLƏR*

**M:2186.** Müamiləni pozmaq haqqına “xiyar” (ixtiyar) deyilir. Satıcı və alıcı 11 halda müamiləni poza bilərlər:

**1-**Müamilə məclisindən dağılmamış olsunlar. (Buna “məclis xiyarı” deyilir.)

**2-**Müştəri, yaxud satıcı al-verdə, yaxud müamilənin iki tərəfindən biri başqa müamilələrdə məğbun (aldadılmış) olmuş olsalar. (Buna “ğəbn xiyarı” deyilir.)

**3-**Müamilədə müəyyən müddətə qədər hər ikisinin, yaxud birinin müamiləni poza bilməsini qərara alsınlar. (Buna “şərt xiyarı” deyilir.)

**4-**Satıcı, yaxud alıcı öz malını, həqiqətdə olduğundan daha yaxşı cilvələndirsin; Belə ki, malın qiyməti camaatın nəzərində çox olsun. (Buna “təlis xiyarı” deylir.)

**5-**Satıcı və ya alıcı müəyyən bir iş görməyi, yaxud verdiyi malın məxsus halda olmasını şərt edib sonra şərtə əməl etməsin; Bu halda müqabil tərəf müamiləni poza bilər. (Buna “şərtə təxəllüf” xiyarı deyilir.)

**6-**Malda, yaxud onun əvəzində müəyyən eyb olsun və əvvəlcədən bundan xəbərsiz olsunlar. (Buna “eyb xiyarı” deyilir.)

**7-**Satılan malın müəyyən miqdarının başqasının olduğu mə’lum olsa; Əgər onun sahibi müamiləyə razı olmasa, alıcı müamiləni poza, yaxud o midarın pulunu satıcıdan ala bilər. Həmçinin alıcının aldığı şeyin müqabilində əvəz qərar verdiyi şeyin bir miqdarının başqasının malı olduğu, sahibinin də razı olmadığı mə’lum olsa, satıcı müamiləni poza bilər, yaxud həmin miqdarı əvəzini alıcıdan ala bilər. (Buna “təbəü”zü səfqə xiyarı” deyilir.)

**8-**Satıcı, müştərinin görmədiyi müəyyən olunmuş malın xüsusiyyətlərini ona deyəndən sonra dediyi kimi olmadığı mə’lum olsa; Bu halda müştəri müamiləni poza bilər. Həmçinin əgər müştəri (verdiyi) müəyyən olunmuş əvəzin xüsusiyyətlərini desə, sonradan dediyi kimi olmadığı mə’lum olsa, satıcı müamiləni poza bilər. Habelə, əgər əvvəlcə görülməklə müamilə olunub sonradan gördükləri malın, yaxud onun əvəzinin nöqsan (azalmaq) tərəfə

dəyişdiyi mə’lum olsa, birinci halda alıcı, ikinci halda isə satıcı müamiləni poza bilər. (Buna “rö’yət xiyarı” deyilir.)

**9-**Müştəri nəqd aldığı malın pulunu üç günə kimi verməsin, satıcı da malı təhvil verməmiş olsun. Satıcı və alıcı üçün alınan, yaxud satılan şey (səmən və müsmən) üçün tə’xir şərti olmasa, satıcı müamiləni poza bilər. Amma əgər aldığı mal bə’zi meyvələr kimi bir gün qaldıqda xarab olursa, bu halda birinci gecəyə qədər onun pulunu verməsə və pulu verməkdə tə’xirə salmağı şərt etməmiş olsalar, malın da tə’xiri şərt olmasa satıcı müamiləni poza bilər. (Buna “tə’xir xiyarı” deyilir.)

**10-**Heyvan almış olsun ki, alıcı üç gün ərzində müamiləni poza bilər. (Buna “heyvan xiyarı” deyilir.)

**11-**Satıcı, satdığı malı təhvil verə bilməsin. (Məsələn, satdığı at qaçsın.) Bu halda müştəri müamiləni poza bilər. (Buna “təəzzürü təslim” xiyarı deyilir.)

(Bunların hökmləri gələcək məsələlərdə deyiləcək.)

**M:2187.** Əgər alıcı malın qiymətini bilməsə, yaxud müamilə vaxtı qafil olub malı öz qiymətindən baha alsa, bu halda çox baha almış olsa, belə ki, camaat onu məğbun (zərər çəkən) hesab edib azlığına-çoxluğuna əhəmiyyət verirsə, müamiləni poza bilər. Həmçinin, əgər satıcı malın qiymətini bilməsə, yaxud müamilə vaxtında qafil olub malı öz qiymətindən ucuz satsa, bu halda əgər camaat onun ucuz satmasına əhəmiyyət verib onu məğbun hesab edirsə, müamiləni poza bilər.

**M:2188.** Şərt-bey müamiləsində alıcı və satıcının al-ver qəsdi olsa, müamilə səhihdir. (Bu müamilə belədir ki, məsələn, 1000 tümənlik evi 200 tümənə satıb qərara alsalar ki, əgər satıcı vaxt tamam olan vaxtda pulu verərsə, müamiləni poza bilər.)

**M:2189.** Şərt bey müamiləsində satıcının hərgah müddəti qurtarandan sonra pulu verməzsə alıcının mülkü ona verəcəyinə xatircəm olsa da, müamilə səhihdir. Amma əgər vaxt tamam olanda pulu verməsə, mülkü alıcıdan, alıcı da ölsə onun vərəsələrindən tələb edə bilməz.

**M:2190.** Əgər ə’la növ çayı pis çayla qarışdırıb “ə’la növ çay” adı ilə satsa və müştərinin də xəbəri olmasa, xəbər tutduqda müamiləni poza bilər.

**M:2191.** Əgər alıcı aldığı malın eybli olduğunu başa düşsə (məsələn, aldığı heyvanın bir gözünün kor olduğunu bilsə), bu halda eyb müamilədən qabaq həmin malda mövcud imişsə və o da bilməyibsə, ya müamiləni poza bilər, ya da sağlam heyvanla eybli heyvanın qiyməti arasındakı fərqi müəyyən edib sağlam və eybli qiymətin təfavütünə mütənasib olaraq satıcıya verdiyi puldan geri ala bilər. Məsələn, dörd tümənə aldığı malın eybli olduğunu başa düşsə, bu halda onun sağlamının qiyməti 8, eyblisinin qiyməti isə altı tümən olsa, sağlam və eyblinin arasındakı fərq qiymətin dörddə-bir nisbətində olduğuna görə verdiyi pulun dörddə birini yə’ni, bir tüməni satıcıdan ala bilər.

**M:2192.** Əgər satıcı aldığı əvəzdə eyb olduğunu başa düşsə, bu halda müamilə külli əvəz müqabilində olmuşsa onu geri qaytarıb sağlam əvəzi tələb edə bilər. Amma müəyyən əvəz müqabilində olmuşsa, bu halda o eyb müamilədən qabaq verilən əvəzdə olsa və o da bilməsə, müamiləni ya poza bilər, ya da sağlam və eyblinin qiyməti arasındakı fərq nisbətini əvvəlki məsələdə deyilən göstərişə uyğun olaraq ala bilər.

**M:2193.** Əgər müamilədən sonra və təhvil almazdan qabaq malda eyb tapılsa, alıcı müamiləni poza bilər. Həmçinin əgər malın əvəzində də müamilədən sonra və təhvil almazdan qabaq müəyyən eyb tapılsa satıcı müamiləni poza bilər. Ancaq qiymətlərdəki təfavüt qədərində almaq istəsə, eybi yoxdur.

**M:2194.** Əgər müamilədən sonra malın eybli olduğunu başa düşsə və dərhal müamiləni pozmasa, ehtiyat-vacibə görə daha müamiləni pozmaq haqqı yoxdur. Amma əgər məsələni bilməsə, başa düşdüyü vaxt müamiləni poza bilər. Fikirləşmək üçün müəyyən qədər tə’xirə salmağın eybi yoxdur.

**M:2195.** Hər gah malı aldıqdan sonra eybli olduğunu başa düşsə, satıcı hazır olmasa da müamiləni poza bilər.

**M:2196.** Dörd halda alıcı malın eybli olduğunu başa düşsə müamiləni poza, yaxud qiymətlər fərqini ala bilməz:

**1-**Aldığı vaxt malın eybini bilsə;

**2-**Malın eybinə razı olsa;

**3-**Müamilə vaxtı “əgər malın eybi olsa geri qaytarmayacağam, qiymətlər fərqini də almayacağam” desə;

**4-**Satıcı müamilə vaxtı “Bu malı, onda olan hər eybi ilə birlikdə satıram.” Amma əgər eybi müəyyən etsə və desə ki, malı bu eyblə birlikdə satıram və sonradan onda başqa eyb də olması mə’lum olsa, alıcı, satıcının müəyyən etmədiyi eyb üçün malı geri qaytara və ya qiymətlər fərqini ala bilər.

**M:2197.** Üç halda əgər alıcı malda eyb olduğunu başa düşsə, müamiləni poza bilməz, amma sağlam və eyblinin qiymətləri arasındakı təfavüt nisbətini ala bilər:

**1-**Müamilədən sonra malda müəyyən dəyişiklik etsə, belə ki, camaat “alınıb təhvil verildiyi halda qalmamışdır” desə; (Məsələn, parçanı tikiş üçün kəssə, buğdanı üyütsə.)

**2-**Yalnız fəsx (müamiləni pozmaq) haqqını saqit etmiş olsa;

**3-**Malı təhvil aldıqdan sonra onda başqa bir eyb tapılsa. Amma əgər eybli bir heyvanı alsa və üç gün keçməmişdən qabaq müştərinin səhlənkarlığı olmadan başqa eyb tapılsa, onu təhvil almasına baxmayaraq, geri qaytara bilər. Həmçinin əgər, təkcə alıcının da müəyyən müddətə qədər müamiləni pozmaq haqqı olsa və o müddətdə malda başqa bir eyb tapılsa onu təhvil almasına baxmayaraq müamiləni poza bilər.

**M:2198.** Əgər insanın özünün görmədiyi və başqasının onun xüsusiyyətlərini dediyi bir malı olsa, bu halda o, həmin xüsusiyyətləri müştəriyə deyib satsa və sonra deyilənlərdən daha yaxşı olduğunu bilsə müamiləni poza bilər.

### *MÜXTƏLİF MƏSƏLƏLƏR*

**M:2199.** Əgər satıcı malın alındığı qiyməti müştəriyə desə, gərək malın qiymətinin azalıb-çoxalmasına səbəb olan şeylərin hamısını desin, hətta əgər həmin qiymətə, yaxud ondan az və ya çox satmış olsa da. Məsələn, nəqd, yoxsa nisyə aldığını deməlidir.

**M:2200.** Əgər insan müəyyən bir malı bir kəsə verib qiymətini müəyyən etsə və "bu malı bu qiymətə sat, nə qədər çox satsan sənindir" desə, bu halda həmin şəxs onu nə qədər artıq qiymətə satsa özünün (dəllalın) malıdır. Həmçinin əgər "bu malı bu qiymətə sənə satdım" və o da "qəbul etdim" desə və ya satmaq məqsədi ilə malı ona versə, o da almaq qəsdi ilə götürsə, o qiymətdən nə qədər artıq satsa, özünündür.

**M:2201.** Əgər qəssab erkək heyvan əti satıb onun yerinə dişi heyvan əti versə, günah etmişdir. Deməli, əgər o əti müəyyən edib "bu erkək ətini satıram" demiş olsa, müştəri müamiləni poza bilər. Əgər onu müəyyən etməsə, müştəri də aldığı ətə razı olmasa, qəssab gərək ona erkək əti versin.

**M:2202.** Əgər müştəri parça satana "mən elə bir parça istəyirəm ki, rəngi getməsin" desə, parça satan da rəngi gedən parçanı ona satsa, müştəri müamiləni poza bilər.

**M:2203.** Müamilədə and içmək–əgər düzgün olsa məkruh, yalan olsa haramdır.

## ŞİRKƏTİN HÖKMLƏRİ

**M:2204.** Əgər iki nəfər bir-biri ilə şirkət etmək (şərik olmaq) istəsələr, bu halda hər biri öz malının müəyyən miqdarını o birinin malı ilə bir yerə qatsalar, belə ki, camaat arasında bir-birindən ayrılmaz hesab olunsa və ərəbcə, yaxud başqa dildə şirkətin siyğəsini oxusalar, yaxud şərik olmalarını göstərən müəyyən bir iş görsələr, onların şirkəti səhihdir.

**M:2205.** Əgər bir neçə nəfər öz işlərindən aldıqları muzdda bir-birləri ilə şirkət etsələr (məsələn, dərzilər, yaxud zavod fəhlələri aldıqları muzdu bir-biri ilə bölməyi qərara alsalar) onların şirkəti səhih deyil və hər biri öz işinin muzdunun malikidir. Amma əgər muzd aldıqları şeyi razılıq əsasında bölmək istəsələr, eybi yoxdur.

**M:2206.** Əgər iki nəfər bir-birilə, hər birinin öz şərti ilə müəyyən bir mal alıb qiymətini özünə borclu olmaq, amma hər birinin aldığı malda və onun istifadəsində bir-biri ilə şərik olmaları əsasda şirkət etsələr, səhih deyil. Amma əgər onlardan hər biri başqasını, malı onun üçün müştərək şəkildə almağa vəkil etsə, bu halda şirkətləri səhihdir.

**M:2207.** Şirkət əqdi vasitəsilə bir-biri ilə şərik olan kəslər mükəlləf, aqil olub qəsd və ixtiyar üzündən şirkət etməlidirlər. Həmçinin gərək öz malında təsərrüf edə bilsinlər. Deməli, öz malını boş və əbəs yerlərdə məsrəf edən səfeh adam şirkət etsə, öz malında təsərrüf etmək haqqı olmadığından səhih deyil. Həmçinin, cameüş-şərait müctehidin tərəfindən müflisləşməsinə dair hökm verilən müflis də bu qayda ilə.

**M:2208.** Əgər şirkət əqdində işləyən şəxsin, yaxud o birisindən daha çox işləyən şəxsin daha çox mənfəət aparmasını, yaxud işləməyən və ya az işləyən şəxsin (güzəşt və ya başqa səbəblərə görə) artıq mənfəət aparmasını şərt etsələr, bu şərtə əməl etməlidirlər.

**M:2209.** Əgər güzəşt, yaxud başqa səbəblərə görə bütün gəliri bir nəfər aparmasını, yaxud zərərin hamısını və ya çox hissəsini onlardan birinin verməsini qərara alsalar, şirkət və qərar–hər ikisi səhihdir.

**M:2210.** Əgər şəriklərdən birinin daha çox mənfəət aparmasını şərt etməsələr, bu halda onların sərmayələri eyni qədərdə olsa mənfəət və zərəri də eyni aparmalıdırlar; yox əgər sərmayələri eyni qədərdə olmasa, mənfəət və zərəri də sərmayələrinə mütənasib olaraq bölməlidirlər. Məsələn, iki nəfər şirkət etsə və onlardan birinin sərmayəsi digərindən ikiqat artıq olsa, onun mənfəət və zərərdən olan payı o birisindən ikiqat artıqdır–istər hər ikisi bir qədərdə işləsinlər, istərsə də biri az işləsin, ya ümumiyyətlə işləməsin.

**M:2211.** Əgər şirkət əqdində hər ikisinin birlikdə al-ver etməsini, yaxud hər ikisinin təklikdə, yaxud onlardan təkcə birinin müamilə etməsini şərt etsələr, qərarlarına əməl etməlidirlər.

**M:2212.** Əgər onlardan hansının sərmayə ilə al-ver etməsini müəyyənləşdirməsələr, heç biri digərinin icazəsi olmadan o sərmayə ilə müamilə edə bilməz. Amma bir müamilədə icazə versələr və sonrakı müamilələrdə də təzə icazəyə lazım olmasa, birinci icazə kifayətdir.

**M:2213.** Şirkətin sərmayəsinin ixtiyarı öhdəsinə olan şərik şirkətin qərarlarına əməl etməlidir. Məsələn, əgər onunla nisyə və ya nəqd satmasını, malları məxsus yerdən almasını qərara alsalar, gərək həmin qərara uyğun əməl etsin. Əgər belə qərar qoymasalar ehtiyat-vacibə görə gərək şirkətin məsləhətinə olan al-ver etməlidir. Müamiləni adi qaydada və şirkətin məsləhətinə uyğun olaraq yerinə yetirməlidir. Deməli əgər misal üçün, malın nəqd satılması, yaxud şirkətin malını səfərdə özü ilə aparmaması adət olsa, bu halda şirkətin məsləhəti olsa elə o cür əməl etməlidir. Əgər nisyə verməsi, yaxud malı səfərə aparması adət olsa şirkətin məsləhətinə uyğun olaraq əməl etməlidir.

**M:2214.** Şirkətin sərmayəsi ilə müamilə edən şərik onunla bağlanan qərarın əksinə olaraq al-ver etsə və şirkətə xəsarət dəysə, zamindir. Amma sonrakı müamilələrdə qərara uyğun əməl etsə səhihdir. Həmçinin əgər onunla qərar bağlamamış olsalar və adətin, məsləhətin əksinə müamilə etsə zamindir. Amma əgər sonrakı müamilələrdə adətə və məsləhətə uyğun olaraq müamilə etsə səhihdir. Əgər şəriklərin icazəsi, şərtə xilaf çıxdığı halda müamilə etməyə haqqı olmaması əsasında olarsa, sonrakı müamiləsi də səhih deyil.

**M:2215.** Şirkətin sərmayəsi ilə müamilə edən şərik əgər sərmayəni saxlamaqda ifrat, səhlənkarlıq etməsə və onun bir qismi, yaxud hamısı təsadüfən tələf olsa, zamin deyil.

**M:2216.** Şirkətin sərmayəsi ilə müamilə edən şərik əgər “sərmayə tələf olmuşdur” desə və cameüş-şərait müctehidin yanında and içsə, sözü qəbul olunmalıdır.

**M:2217.** Əgər bütün şəriklər bir-birinə, malda təsərrüf etməyə dair verdikləri icazədən dönsələr heç biri şirkətin malında təsərrüf edə bilməz. Həmçinin əgər onlardan biri öz icazəsindən dönsə, sair şəriklərin təsərrüf haqqı yoxdur. Hətta icazəsindən dönən şəxsin özü də şirkətin malında təsərrüf edə bilməz.

**M:2218.** Hər vaxt şəriklərdən biri şirkətin sərmayəsini bölüşdürməyi təklif etsə, hələ şirkətin müddətinin qurtarmamasına baxmayaraq, sair şəriklər qəbul etməlidir.

**M:2219.** Əgər şəriklərdən biri ölsə, yaxud dəli, huşsuz, səfeh olsa, yaxud cameüş-şərait müctehid onun öz malında təsərrüf etməsini qadağan etsə, sair şəriklər şirkətin malında təsərrüf edə bilməzlər.

**M:2220.** Əgər şərik özü üçün bir şeyi nisyə alsa zərər və ya mənfəəti onun özününküdür. Amma şirkət üçün alsa və şəriki də o müamiləyə razı olduğunu desə, mənfəət və zərəri hər ikisinə çatır.

**M:2221.** Əgər şirkətin sərmayəsi ilə müəyyən müamilə edib sonradan şirkətin batil olduğunu başa düşsələr, bu halda şəriklərdən hər birinin icazəsi şirkətin səhih olması ilə şərtlənməsə müamilə səhihdir və o müamilədən əldə olunan şeylər onların hamısının malıdır. Əgər onlardan hər birinin icazəsi, şirkətin səhih olması ilə şərtlənmiş olsa, yerinə yetirilən müamilə “füzuli”dir: yə’ni sonradan o müamiləyə razı olsalar müamilə səhih, əks halda batildir. Füzuli müamilədə şəriklərin etdiyi işin muzdu yoxdur.

## SÜLHÜN (RAZILAŞMA) HÖKMLƏRİ

**M:2222.** Sülh budur ki, insan başqası ilə razılaşsın ki, malının, yaxud onun mənfəətinin bir miqdarını onun mülkü etsin; yaxud tələbindən, haqqından keçsin ki, o da əvəzində malının, yaxud onun mənfəətinin bir miqdarını ona həvalə etsin və ya tələbindən, haqqından keçsin. Hətta əgər əvəz almadan malın, yaxud onun mənfəətinin müəyyən miqdarını bir kəsə həvalə etsə, yaxud tələbindən, haqqından keçsə yenə də sülh səhihdir.

**M:2223.** Bir şeyi bir-biri ilə sülh edən iki nəfər gərək baliğ, aqil olsunlar. Bu işə onları bir kəs məcbur etməsin, özlərinin də sülh qəsdi olsun, cameüş-şərait müctehid onların öz mallarında təsərrüf etmələrini qadağan etməsin.

**M:2224.** Sülh siyğəsinin ərəbcə oxunması lazım (ilzami) deyil. Hətta bir-biri ilə sülh və razılaşdığını başa salan hər söz ilə olsa səhihdir.

**M:2225.** Əgər bir kəs öz qoyunlarını, bir il saxlayaraq südündən istifadə edib bir miqdar yağ versin deyə, çobana versə, bu halda qoyunların südünü çobanın zəhmətləri və o yağın müqabilində sülh etsə yağın o südün özündən hasil olmasını şərtləşməsələr, səhihdir. Amma əgər qoyunları bir il müddətində çobana onların südündən istifadə edib əvəzində bir miqdar yağ versin deyə icarəyə versə işkalı var.

**M:2226.** Əgər bir kəs öz tələbini və ya haqqını başqasına sülh etmək istəsə, onun qəbul etdiyi halda səhihdir. Amma əgər sülh olmadan öz haqqından və ya tələbindən keçmək istəsə onu qəbul etmək lazım (ilzami) deyil.

**M:2227.** Əgər insan öz borcunun miqdarını bilsə, amma borclu olduğu şəxs miqdarını bilməsə, bu halda borc sahibi öz borcunu olduğu miqdardan az ilə sülh etsə (məsələn, onda 50 tümən borcu olsa və öz borcunu 10 tümənə sülh etsə) borclu şəxsə qalan artıq miqdar halal deyil. Amma əgər borcunun miqdarını ona deyib razı salsa, yaxud əgər öz borcunun miqdarını bilmiş olsaydı həmin miqdarla da sülh edəcəkdisə də (halal olur).

**M:2228.** Əgər çəkiləri mə'lum və bir cinsdən olan iki şeyi bir-birinə sülh etmək istəsələr, o halda səhih olar ki, birinin çəkisi digərindən çox olmasın. Amma çəkisi mə'lum olmasa, hətta birinin çəkisinin digərindən artıq olması ehtimalını versələr də sülh səhihdir.

**M:2229.** Əgər iki nəfərin bir nəfərdə, yaxud iki nəfərin başqa iki nəfərdə borcu olsa və öz borclarını bir-birinə sülh etmək istəsələr, bu halda onların borcu bir cinsdən və çəkiləri də eyni olsa (məsələn, hər ikisi 10 "mən" buğda borc vermiş olsa) onların sülhü səhihdir. Həmçinin əgər onların borc verdiyi şeyin cinsi bir olmasa da (məsələn, biri 10 "mən" düyü, digəri isə 12 "mən" buğda olsa) sülhü səhihdir. Amma əgər onların tələbi bir cinsdən və adətən çəki

və ya peymanə ilə müamilə olunan şeydən olsa onların çəkisi və ya peymanəsi bərabər olmasa, sülh batildir.

**M:2230.** Əgər bir kəsin başqasında müəyyən müddətdən sonra alacağı borc olsa, bu halda öz borcunu az miqdarla sülh etsə və məqsədi də öz tələbinin müəyyən miqdarını güzəştə gedib qalanını nəqd almaq olsa, eybi yoxdur.

**M:2231.** Əgər iki nəfər müəyyən bir şeyi biri-birilə sülh etsələr, qarşılıqlı razılığa əsasən, sülhü poza bilərlər. Həmçinin əgər hər ikisi, yaxud biri üçün müamiləni pozmaq haqqı qoymuş olsalar, o haqqı olan şəxs sülhü poza bilər.

**M:2232.** Nə qədər ki, satıcı və alıcı müamilə məclisindən dağılışmayıblar müamiləni poza bilərlər; həmçinin əgər müştəri heyvanı alsa üç günə qədər müamiləni pozmaq haqqı var. Habelə əgər nəqd aldığı malın pulunu üç gün müddətində verməsə və malı da təhvil almasa, satıcı müamiləni poza bilər. Amma malı sülh edən bir kəsin bu üç halda sülhü pozmaq haqqı yoxdur. Ancaq üstündə müsalihə (razılaşma) edilən malı verməkdə adi haldan çox tə’xirə salsa, yaxud müsahilə olunan malın nəqd verilməsi şərt olunsa müqabil tərəf də şərtə əməl etməsə, bu halda sülhü poza bilərlər, al-verin hökmlərində deyilən sair hallarda da sülhü poza bilərlər.

**M:2233.** Əgər bir kəsin sülh ilə aldığı şey eybli çıxsa, sülhü poza bilər. Amma əgər sağlam və eybli mal arasındakı qiymət fərqini almaq istəsə, işkal məhəllidir.

**M:2234.** Əgər bir kəs öz malını başqası ilə sülh etsə və onunla, “öləndən sonra varisim olmasa, səninlə sülh etdiyim şeyi vəqf etməlisən” deyə şərt etsə və o da bu şərti qəbul etsə, öz şərtinə əməl etməlidir.

## İCARƏNİN HÖKMLƏRİ

**M:2235.** Bir şeyi icarəyə verən və icarəyə alan şəxslər mükəlləf və aqil olmalı, öz ixtiyarı ilə icarəni yerinə yetirməlidirlər. Həmçinin gərək öz malında təsərrüf etmək haqları da olsun. Deməli, öz malını əbəs, lazımsız yerlərə məsrəf edən səfeh öz malında təsərrüf etmək haqqına malik olmadığı üçün, bir şeyi icarə edərsə, yaxud icarəyə verərsə səhih deyil. Lakin qəyyumu ona icazə versə, eybi yoxdur.

**M:2236.** İnsan başqasının tərəfindən vəkil olub onun malını icarəyə verə, yaxud müəyyən bir malı onun üçün icarə edə bilər.

**M:2237.** Əgər uşağın qəyyumu onun malını icarəyə versə, yaxud onun özünü başqasına əcir etsə eybi yoxdur. Amma əgər onun həddi-büluğa çatmasının bir müddətini icarə müddətində qərar versə, uşaq həddi-büluğa çatandan sonra malına nisbətən olan icarənin qalan hissəsini poza bilməz. Ancaq öz icarəsinə nisbətdə həddi-büluğa çatandan sonra icarənin qalanını poza bilər. Amma əgər uşağın həddi-büluğa çatması zamanından bir miqdarını icarə müddəti etməməsi uşağın məsləhətinin əksinə olarsa, bu halda icarəni poza bilməz.

**M:2238.** Qəyyumu olmayan səğir uşaq cameüş-şərait müctehidin icazəsi olmadan əcir oluna bilməz. Əgər bir kəs cameüş-şərait müctehidi tapa bilməsə bir nəfər adil mö'mindən icazə alıb onu əcir edə bilər.

**M:2239.** İcarə verən və icarəni qəbul edənlərin icarə siyğəsini ərəbcə oxumaları lazım (ilzami) deyil. Hətta əgər malın maliki bir kəsə "öz mülkümü sənə icarə verdim" və o da "qəbul etdim" desə, icarə səhihdir. Həmçinin əgər bir söz danışmasalar, amma malın sahibi mülkünü icarə vermək qəsdi ilə onu icarəçiyə həvalə etsə o da icarə etmək məqsədilə alsa, icarə səhihdir.

**M:2240.** Əgər insan icarə siyğəsi oxumadan müəyyən işi yerinə yetirmək üçün əcir olunmaq istəsə, onda icarə ünvanı ilə o əmələ başlasa, yaxud özünü icarə verənin ixtiyarına qoysa icarə səhihdir.

**M:2241.** Danışa bilməyən bir kəs işarə ilə mülkünü icarə verməyi, yaxud icarəni qəbul etməyi başa salsa səhihdir.

**M:2242.** Əgər bir kəs ev, mağaza və ya bir otağı icarə edəndə, mülkün sahibi onunla təkcə özünün istifadə etməsini şərt etsə, yaxud icarə bu mə'nanı göstərsə, icarə edən şəxs onu başqasına icarəyə verə bilməz. Amma əgər şərt etməsə və bu mə'nanı da göstərməsə, onu başqasına icarəyə verə bilər. Bu halda icarə etdiyi qiymətdən artıq qiymətə icarə vermək istəsə, gərək onda müəyyən tə'mir işləri görsün, yaxud icarə etdiyi maldan qeyrisinə icarəyə versin (məsələn, pul ilə icarə etdiyi şeyi buğda, yaxud başqa şeyə icarəyə versin).

**M:2243.** Əgər əcir tutulan şəxs təkcə o şəxsin özü üçün işləyəcəyini şərt etsə, yaxud icarənin özü bu mə'nanı göstərsə, onu başqa şəxsə icarəyə verə bilməz.

Əgər şərt etməsələr, bu halda onu müəyyən olunan muzdla icarə versə, gərək artıq almasın. Lakin başqa şeyə icarə versə, artıq ala bilər.

**M:2244.** Əgər bir şəxs ev, mağaza və otaqdan başqa şeyləri bir şəxsdən icarəyə alsa (məsələn, torpaq sahəsini icarə etsə) və onun sahibi də təkcə özünün istifadə etməsini şərt etməsə, bu halda əcir tutulan şəxs icarəni istədiyi qiymətə başqasına icarə verə bilər. Hərçənd bu icarənin qiyməti əvvəlcə icarə olunduğundan artıq olsa da belə.

**M:2245.** Əgər misal üçün, ev ya mağazanı ili 100 tümənə icarə edib yarısından özü istifadə etsə, istifadə etmədiyi yarısını da 100 tümənə, yaxud ondan az qiymətə icarəyə verə bilər. Amma əgər o biri yarısını icarə etdiyindən artıq qiymətə (məsələn, 120 tümənə) icarə vermək istəsə, gərək onda müəyyən iş (tə’mir kimi) görmüş olsun, yaxud icarə etdiyi şeydən başqa şeyə icarə versin.

### *İCARƏYƏ VERİLƏN MALIN ŞƏRTLƏRİ*

**M:2246.** İcarəyə verilən malın bir neçə şərti var:

**1-**Müəyyən olsun; deməli əgər “öz evlərimdən birini icarə verdim” desə, səhih deyil.

**2-**İcarə alan şəxs onu görsün, yaxud malı icarəyə verən şəxs onun xüsusiyyətlərini elə bəyan etsin ki, tamamilə mə’lum olsun;

**3-**Onun təhvil verilməsi mümkün olsun; deməli qaçmış atı icarə vermək batildir.

**4-**O mal istifadə etməklə aradan getməsin; deməli çörək, meyvə və sair yeyinti məhsullarını icarəyə vermək səhih deyil.

**5-**Maldan icarə verildiyi istiqamətdə istifadə etmək mümkün olsun; deməli torpağın əkinçilik üçün icarəyə verilməsi yağış suyu kifayət etməzsə və çay, yaxud başqa yerlərdən suvarılmazsa, səhih deyil.

**6-**İcarəyə verilən şey şəxsin öz malı olsun; əgər başqasının malını icarəyə versə, sahibi razılıq verdiyi halda səhih olar.

**M:2247.** Ağacın, meyvələrindən istifadə olunsun deyə, icarəyə verilməsinin eybi yoxdur.

**M:2248.** Qadın, öz südündən istifadə olunmaq üçün əcir tutula bilər. Öz ərindən də icazə alması lazım (ilzami) deyil. Lakin süd vermək vasitəsilə ərinin haqqı aradan gedərsə, onun icazəsi olmadan əcir oluna bilməz.

### *İCARƏYƏ VERİLƏN MALDAN İSTİFADƏNİN ŞƏRTLƏRİ*

**M:2249.** Malın icarəyə verildiyi istifadənin dörd şərti vardır:

**1-**Halal olsun; deməli mağazanı şərab satmaq, yaxud saxlamaq, avtomobili şərab daşımaq üçün icarəyə vermək batildir.

**2-**O istifadə üçün pul vermək camaatın nəzərində boş və mə’nasız olmasın;

**3-**Əgər icarəyə verdiyi şeydən bir neçə cəhətdə istifadə etmək mümkün olsa, icarəyə alan şəxsin edəcəyi istifadəni müəyyən etməlidir. (Məsələn, həm minik, həm də yük daşımaq üçün istifadə olunan heyvanı icarəyə versə, icarə vaxtı icarəçinin minik kimi, yaxud yük daşımasından, yaxud da hər ikisindən istifadə edəcəyini müəyyən etməlidir. Amma əgər istifadələr bərabər olsa, tə'yin etmək lazım (ilzami) deyil.)

**4-**İstifadənin müddəti müəyyən olmalıdır; əgər müddəti müəyyən olunmasa, lakin işi müəyyən etsələr (məsələn, dərzi ilə paltarı məxsus formada tikməsini qərara alsalar) kifayətdir.

**M:2250.** Əgər icarə müddətinin əvvəlini tə'yin etməsələr, onda əvvəli icarə siyğəsi oxunandan sonradır.

**M:2251.** Əgər bir evi məsələn, bir il icarəyə verib əvvəlini siyğə oxunandan bir ay sonra qərarlaşsalar, hətta siyğə oxunan vaxt ev başqasının icarəsində olsa da icarə səhihdir..

**M:2252.** Əgər icarə müddətini tə'yin etməsələr, amma "hər vaxt evdə otursan o ayın icarəsini 100 tümən verməlisən" desələr, icarə səhihdir. Bu qədər az namə'lumluğun icarədə maneəsi yoxdur.

**M:2253.** Əgər icarə edənə "evi bir ayı 1000 tümənə sənə icarə verirəm. Nə qədər artıq qalsan da, həmin qiymətdir" desələr, icarə səhihdir. İcarədə bu qədər az naməlumluğun zərəri yoxdur.

**M:2254.** Müsafirlərin və ziyarətçilərin mənzil etdikləri və qədər qalacaqları mə'lum olmayan evdə, məsələn, gecəsi 100 tümən verməyi qərara alsalar, ev sahibi də razı olsa, o evdən istifadə etməyin eybi yoxdur, icarə də səhihdir. Ev sahibi onları çölə çıxarda bilməz.

### *İCARƏNİN MÜXTƏLİF MƏSƏLƏLƏRİ*

**M:2255.** İcarə alan şəxsin icarə haqqı olaraq verdiyi mal mə'lum olmalıdır. Deməli, əgər buğda kimi çəki ilə al-ver edilən şeylərdən olsa, çəkisi; yumurtası, yaxud əskinas kimi sayılan şeylərdən olsa, onun sayı müəyyən olmalıdır; at, qoyun və s. kimi şeylərdən olsa, icarə verən onu görməli, yaxud icarə edən onun xüsusiyyətlərini ona deməlidir.

**M:2256.** Əgər müəyyən torpaq sahəsini buğda, arpa, yaxud başqa şeylər əkmək üçün icarəyə verib icarə haqqını da həmin torpağın məhsulundan şərt etsələr, icarə səhih deyil.

**M:2257.** Bir şeyi icarəyə verən kəs nə qədər ki, onu təhvil verməyib, icarə haqqını tələb edə bilməz. Həmçinin əgər müəyyən işi yerinə yetirmək üçün əcir olubsa o işi yerinə yetirmədən muzdunu tələb etməyə haqqı yoxdur.

**M:2258.** Əgər icarə verdiyi şeyi təhvil versə, hətta icarə alan təhvil almasa və ya təhvil alıb icarə müddətinin axırına kimi istifadə etməsə də onun icarə haqqını verməlidir.

**M:2259.** Əgər insan müəyyən bir gündə hər hansı bir işi görmək üçün əcir olunsa və o gündə həmin işi yerinə yetirmək üçün hazır olsa, onu əcir edən şəxs o işdə həmin şəxsə müraciət etməsə də haqqını verməlidir. Məsələn, bir dərzini müəyyən bir gündə paltar tikmək üçün əcir etsə və dərzi də həmin gündə işə hazır olsa, amma parçanı tikmək üçün ona verməsələr, haqqını verməlidirlər– istər dərzi işsiz olsun, istərsə də başqası üçün işləsin.

**M:2260.** İcarə müddətinin vaxtı qurtarandan sonra icarənin batil olduğu mə'lum olarsa, icarə edən şəxs icarə haqqını, onun adi dəyərinə uyğun olaraq mülk sahibinə verməlidir. Məsələn, əgər evi bir il müddətində 1000 tümənə icarə versələr və sonradan icarənin batil olduğu mə'lum olsa, bu halda, evin icarəsi adətən 500 tümən olarsa, elə o qədər verməlidir; əgər 2000 tümən olarsa, yenə də o qədər verməlidir. Həmçinin, icarə müddətindən bir qədər keçdikdən sonra icarənin batil olduğu mə'lum olarsa, o müddətin icarəsini adi qiymətlə (hesablayıb) mülk sahibinə verməlidir.

**M:2261.** Əgər bir şəxsin icarə etdiyi şey tələf olub aradan getsə, bu halda onun saxlanmasında səhlənkarlıq etməyibsə, ondan istifadə etməkdə həddi keçməyibsə, zamin deyildir. Habelə, (misal üçün) dərziyə verilən parça tələf olub aradan getsə, yaxud yanğında yansa, bu halda dərzi onu saxlamaqda səhlənkarlıq etməyibsə, əvəzini verməməlidir.

**M:2262.** Əgər sənətkar götürdüyü şeyi xarab etsə, zamindir.

**M:2263.** Əgər qəssab heyvanın başını kəsib haram etsə–istər muzd almış olsun, istərsə də pulsuz kəsmiş olsun–pulunu sahibinə verməlidir.

**M:2264.** Əgər bir heyvanı icarəyə verəndə nə qədər yükləyəcəyini müəyyənləşdirsə, bu halda icarə edən şəxs ondan artıq yükləsə və heyvan ölsə, yaxud eybli olsa, zamindir. Həmçinin, əgər yükün miqdarını müəyyənləşdirməsə, icarə edən də heyvanı çox yükləyib tələf etsə, yaxud eybli olsa, zamindir. Artıq etdiyi istifadənin də muzdunu borcludur.

**M:2265.** Əgər bir heyvanı, tez sınan şeyləri daşımaq üçün icarəyə versə, bu halda həmin heyvan sürüşsə, yaxud hürküb yükdəkiləri salıb sındırsa, o heyvanın sahibi zamin deyil. Amma vurmaq və sair kimi səbəblərlə yerə yıxılsa və yükündə olanları sındırsa, zamindir.

**M:2266.** Əgər dəllək uşağı kəssə və o uşağa müəyyən zərər dəysə, yaxud ölsə, bu halda adi qaydadan artıq kəsibsə, zamindir. Əgər mütəxəssis olduğu halda adi qaydadan artıq kəsməyibsə, zamin deyil. Ancaq zərər olub-olmamasını ayırd etmək ona tapşırılıbsa, bu halda zamindir.

**M:2267.** Əgər həkim öz əli ilə xəstəyə dərman versə, yaxud iynə vursa, yaxud da təbabət adı ilə bir nüsxə yazsa və ya ona müəyyən göstəriş versə, xəstə də dərmanı qəbul etsə, bu halda həkim təbabətdə, müalicədə xəta etsə və xəstəyə zərər dəysə, yaxud ölsə, həkim zamindir. Amma əgər təbabət və müalicə məqamında deyil, sadəcə olaraq həkim nəzəriyyəsi kimi kitabda yazsa

və ya "filan dərmanın filan xəstəliyə faydası var" desə və həmin dərmanı qəbul etmək nəticəsində xəstəyə zərər dəysə və ya ölsə, həkim zamin deyil.

**M:2268.** Əgər həkim, xəstəyə və ya onun qəyyumuna "zərər dəysə mən zamin deyiləm" desə, bu halda lazımi qədər ehtiyat etsə və xəstəyə də zərər dəysə və ya ölsə, həkim zamin deyil.

**M:2269.** Bir şeyi icarə alan və icarəyə verən kəs qarşılıqlı razılıq əsasında müamiləni poza bilərlər. Habelə, icarədə hər ikisinin, yaxud birinin müamiləni pozmaq haqqının olmasını şərt etsələr, buna müvafiq olaraq icarəni poza bilərlər.

**M:2270.** Əgər malı icarəyə verən, yaxud icarəyə alan zərər etdiyini başa düşsə, bu halda siyğəni oxuyan vaxt zərərə düşməsinə diqqət yetirməmiş olsalar, icarəni poza bilərlər. Amma əgər icarə siyğəsində, hətta zərər etdikləri halda belə, icarəni pozmaq haqları olmayacaqlarını şərt etsələr, icarəni poza bilməzlər.

**M:2271.** Müəyyən şeyi icarəyə verib təhvil verməzdən qabaq bir kəs onu qəsb etsə, icarə alan şəxs icarəni poza, icarə verənə verdiyi şeyləri geri ala bilər, yaxud icarəni pozmadan qəsb edənin ixtiyarında olan müddətdəki icarəsini adi qaydada ondan ala bilər. Deməli əgər bir heyvanı ayı 1000 tümənə icarəyə alsa və başqası da o şəxsdən 10 gün müddətində qəsb etsə, adi icarənin də 10 günlük qiyməti 1500 tümən olsa, o miqdarı qəsb edəndən geri ala bilər.

**M:2272.** Əgər icarə etdiyi şeyi təhvil alandan sonra bir kəs onu qəsb etsə, icarəni poza bilməz, təkcə o şeyin kirayə haqqını qəsb edəndən almağa haqqı var.

**M:2273.** Əgər icarənin müddəti tamam olmamışdan qabaq mülkü icarəyə verdiyi şəxsə satsa, icarə pozulmur. İcarə alan şəxs icarə haqqını satıcıya verməlidir. Başqasına da satsa eyni qayda ilə.

**M:2274.** Əgər icarə müddəti başlamamışdan qabaq mülk ümumiyyətlə istifadə oluna bilməyəcəyi, yaxud şərt etdikləri kimi istifadəyə qabiliyyəti olmayan tərzdə xarab olsa, icarə batil olur, icarə edənin mülk sahibinə verdiyi pul ona qaytarılmalıdır. Hətta əgər azacıq miqdarda istifadə edə bilərsə, yenə də icarəni poza bilər.

**M:2275.** Əgər müəyyən bir mülkü icarə edib, icarə vaxtından bir müddət keçəndən sonra ümumiyyətlə istifadə oluna bilməyən, yaxud şərt etdikləri kimi istifadə edilə bilməyən tərzdə xarab olsa müddətin qalan hissəsinin icarəsi batil olur. Habelə, əgər azacıq da istifadə edə bilsə, icarənin bütün müddətini poza bilər və istifadə etdiyi miqdara mütənasib olaraq ücrətül-misl (icarə haqqı) verə bilər.

**M:2276.** Əgər iki otağı olan bir evi icarəyə verdikdən sonra bir otağı xarab olsa, bu halda onu dərhal tiksə və istifadəsindən heç nə əldən çıxmasa icarə batil olmur, icarə edən şəxs də icarəni poza bilməz. Amma əgər onun yenidən

tikilməsi, tə’mir edilməsi uzun çəksə və nəticədə icarə edənin edəcəyi istifadənin bir miqdarı aradan getsə həmin miqdarın icarəsi batildir (və icarə alan şəxs bütün icarəni pozub istifadə etdiyi qədər ücrətül-misl (icarə haqqı) verə bilər).

**M:2277.** Əgər icarə verən və ya icarə alan ölsə, icarə batil olmur. Amma əgər başqası deyil, icarə alanın şəxsən özünün istifadə edəcəyini şərt etsələr, mülk sahibi müddətin qalan hissəsini fəsx (ləğv) edə bilər. Amma əgər ev icarə verənin öz malı olmasa (məsələn, başqası sağ olduğu müddətdə evin mənfəətinin onun olmasını vəsiyyət etsə), bu halda evi icarəyə versə və icarə müddəti tamam olmamışdan qabaq ölsə, öldüyü vaxtdan e’tibarən icarə batil olur.

**M:2278.** Əgər sahibkar bənnanı onun üçün fəhlə tutmağa vəkil etsə, bu halda bənna fəhləyə sahibkardan aldığı miqdardan az versə, özünə götürdüyü artıq hissə haramdır. Onu sahibkara verməlidir. Amma əgər evin tikintisini qurtarmaq üçün əcir olsa və özü üçün, şəxsən tikmək, yaxud başqasına vermək ixtiyarı qoysa və əcir olunduğu miqdardan az başqasına verib özü də dəyəri olan bir iş görsə artıq aldığı ona halaldır.

**M:2279.** Əgər rəngsazla, parçanı lilə ilə rəngləməsini qərara alsalar və o, başqa şeylə rəngləsə, bir şey almağa haqqı yoxdur. Üstəlik parçanın xarab olmasına, yaxud dəyərinin azalmasına səbəb olsa, zamindir.

## CÜALƏNİN HÖKMLƏRİ

**M:2280.** Cüalə budur ki, insan onun üçün görülən işin müqabilində müəyyən bir şey verəcəyini qərar qoysun. Məsələn, “hər kəs mənim itiyimi tapsa, 10 tümən verəcəyəm” desin. Bu qərarı qoyan şəxs cail, işi görən şəxs isə amil adlanır. Cüalə ilə, bir kəsin müəyyən iş üçün əcir olunması arasındakı fərq budur ki, ikincidə siyğə oxunandan sonra əcir olunan şəxs əməli yerinə yetirməlidir. Onu əcir edən şəxs də muzdunu ona borclu olur. Amma cüalədə hətta amil müəyyən şəxs olsa da, əməl etməyə bilər. Və nə qədər ki, əməli yerinə yetirməyib cail ona borclu deyil.

**M:2281.** Cail gərək aqil və baliğ olsun, qəsd və ixtiyar üzündən qərar qoysun, şər’ən öz malında təsərrüf edə bilsin. Deməli, öz malını boş və bihudə yerlərə sərf edən səfeh adamın cüaləsi səhih deyil.

**M:2282.** Cüalədə yerinə yetirilməsi istənilən iş haram, aqillərin qərəzindən xaric olan faydasız, yaxud, şər’ən görülməsi pulsuz olan vacibatlardan olmamalıdır. Amma əgər cail üçün müəyyən əqli qərəz mövcud olsa, eybi yoxdur. Deməli “hər kəs şərab içsə, yaxud geçə qaranlıq bir yerə getsə 10 tümən verəcəyəm” desə cüalə səhih deyil.

**M:2283.** Əgər vermək istədiyi malı müəyyən etsə, məsələn, “hər kəs mənim atımı tapsa bu buğdanı ona verəcəyəm” desə o buğdanın hara buğdası, qiymətinin nə qədər olduğunu deməsi lazım (ilzami) deyil. Amma əgər malı müəyyən etməsə (məsələn, “hər kəs mənim atımı tapsa, 10 “mən” buğda verəcəyəm” desə, ehtiyat-vacibə görə onun xüsusiyyətlərini dəqiq şəkildə deməlidir.

**M:2284.** Əgər cail iş üçün müəyyən bir muzd tə’yin etməsə məsələn, “hər kəs mənim uşağımı tapsa pul, yaxud muştuluq verəcəyəm” deyib, miqdarını tə’yin etməsə cüalə səhih deyil. Amma əgər bir kəs o işi yerinə yetirsə o işin camaat arasında dəyəri qədər həmin şəxsə muzd verməlidir.

**M:2285.** Əgər amil, qərar qoymamışdan əvvəl bir iş görmüş olsa, yaxud qərardan sonra pul götürməmək məqsədilə bu işi görsə, muzd almağa haqqı yoxdur.

**M:2286.** Amil işə başlamazdan əvvəl cail cüaləni poza bilər.

**M:2287.** Amil işə başlayandan sonra cail cüaləni pozmaq istəsə işkalı vardır.

**M:2288.** Amil başladığı işi yarımçıq qoya bilər. Amma əgər o işi tamamlamaması cailə zərər vursa onu axıra çatdırmalıdır. Məsələn, əgər bir şəxs “hər kəs mənim gözümdə cərrahiyyə əməli etsə, filan qədər pul verəcəyəm” desə və cərrah da əməliyyata başlasa, bu halda əməli tamam etməyəcəyi təqdirdə gözü eybli olacaqsa, onu axıra çatdırmalıdır. Əgər natamam qoysa, cailə bir şey çatmır, yaranan eybə də zamindir.

**M:2289.** Əgər amil işi yarımçıq qoysa, bu halda o iş itmiş atın tapılması kimi axıra çatdırılmayınca cail üçün faydası olmayan işlərdən olsa, amil heç nə tələb edə bilməz. Həmçinin əgər cail muzdu, işi qurtarmaq üçün qərara alsa (məsələn, "hər kəs mənim paltarımı tiksə 10 tümən, verəcəyəm" desə), amma məqsədi işin nə qədəri yerinə yetirilərsə, o qədərin də muzdunu vermək olsa, cail yerinə yetirilən miqdarın muzdunu amilə verməlidir. Amma ehtiyat budur ki, müəyyən yollarla bir-biri ilə razılaşsınlar.

## MÜZARİƏNİN HÖKMLƏRİ

**M:2290.** Müzariə budur ki, yerin sahibi, yaxud yer ixtiyarında olan şəxs əkinçi ilə müamilə edib yeri onun ixtiyarında qoyur ki, o da onda əkinçilik etsin və məhsulun bir miqdarını yerin sahibinə versin.

**M:2291.** Müzariənin bir neçə şərti var:

**1-**Yerin sahibi əkinçiyə "torpağı sənə həvalə etdim", əkinçi də "qəbul etdim" desin, yaxud heç nə danışmadan yer sahibi torpağı ona təhvil versin, əkinçi də onu təhvil alsın;

**2-**Yerin sahibi və əkinçi–hər ikisi mükəlləf (həddi-büluğa çatmış) və aqil olsunlar, qəsd və ixtiyar üzündən müzariəni yerinə yetirsinlər; həmçinin gərək yerin sahibi səfeh olmasın, hakimi-şər' onun, öz malında təsərrüf etməsini qadağan etməsin; Amma əkinçinin səfeh, yaxud malında təsərrüf etməkdən qadağan olunması müzariənin səhihliyinə zərər yetirmir, lakin mal sərf etməyə ehtiyaclı olsa (səhih deyil).

**3-**Həmin yerdən hasil olan məhsul birinə məxsus olmasın;

**4-**Hər birinin payı müşa" şəklində (ümumi məhsuldan) olsun; (məsələn, məhsulun yarısı, üçdə biri və s. kimi.) Və tə'yin olunmalıdır. Deməli əgər yerin bir tərəfinin məhsulunun birinin, başqa tərəfin məhsulunun isə digərinin olmasını qərara alsalar, müzariə səhih deyil. Həmçinin əgər malik "bu yerdə əkin ək, hər nə istəsən mənə ver" desə müzariə səhih deyil.

**5-**Yerin əkinçinin ixtiyarında olacağı müddəti müəyyən etsinlər; Bu müddət o qədər olmalıdır ki, məhsulun tədarükü mümkün olsun. Əgər müddətin əvvəlini müəyyən bir gün, axırını isə adətən mə'lum olan məhsulun yetişməsi götürsələr, kifayətdir.

**6-**Yerin əkin üçün qabiliyyəti olsun; Əgər əkin üçün qabiliyyəti olmasa, amma müəyyən işlər gördükdən sonra əkin üçün qabiliyyəti olsa müzariə səhihdir.

**7-**Əkiləcək şeyin növü mə'lum olmalıdır. Amma əgər adətən mə'lum bir şey əkilən yerdə olsalar, bu halda onun adını deməsələr də həmin əkin nəzərdə tutulur. Əgər bir neçə şey əkilirsə, əkmək istədikləri şeyin növünü müəyyən etməlidirlər. Amma əgər adət olsa, həmin qaydada əməl etməlidirlər.

**8-**Yerin sahibi hansı torpağı verdiyini müəyyən etsin; Deməli əgər bir-biri ilə fərqlənən bir neçə yerdə torpaq sahəsi olsa və əkinçiyə "bunların birində əkin ək" deyib onları müəyyən etməsə, müzariə batildir.

**9-**Əkinçiliyin, toxum və s. kimi şeylərin xərclərinin kimin öhdəsinə olmasını müəyyən etməlidilər. Amma əgər hər birinin öhdəsində olan xərclər camaat arasında mə'lum olsa kifayətdir və müəyyən etmələri lazım (ilzami) deyil.

**M:2292.** Əgər yerin sahibi əkinçi ilə, məhsulun müəyyən miqdarının özü üçün olmasını, yerdə qalanları isə öz aralarında bölməyi qərara alsa, bu halda o miqdar götürüləndən sonra bir şey qalacağını bilsələr, müzariə səhihdir.

**M:2393.** Əgər müzariənin müddəti qurtarsa, ancaq məhsul ələ gəlməsə, bu halda sahibi və əkinçi icarə ilə, yaxud icarəsiz əkinin onun yerində qalmasına razı olsalar, maneəsi yoxdur. Amma əgər yerin sahibi razı olmasa əkinçini, əkini biçməyə məcbur edə bilər və əkini biçməklə əkinçiyə zərər dəysə, əvəzini verməsi lazım (ilzami) deyil. Amma əkinçi yer sahibinə bir şey verməyə razı olsa da belə, əkinin onun yerində qalmasına məcbur edə bilməz.

**M:2294** Əgər müəyyən bir hadisə səbəbi ilə yerdə əkin mümkün olmasa (məsələn su qurusa), bu halda əgər əkinin müəyyən miqdarı hasil olubsa hətta heyvana verilə biləcək ot da olsa, o miqdar qərara uyğun olaraq hər ikisinin malıdır. Qalan hissədə isə müzariə batildir. Əgər əkinçi bir şey əkməsə, bu halda torpaq onun ixtiyarında olsa, digər tərəfdən də malik heç bir təsərrüf etməmiş olsa, o müddətin icarəsini adi qaydada malikə verməlidir. Əgər əkin əkməmək səbəbi ilə o yerə xəsarət və zərər dəymiş olsa, əkinçi onu ödəməlidir.

**M:2295.** Əgər malik və əkinçi siyğəni oxumuş olsalar, bir-birinin razılığı olmadan müzariəni poza bilməzlər. Həmçinin əgər malik müzariə qəsdi ilə torpağını bir kəsə həvalə etsə, o da həmin qəsdlə qəbul etsə, amma siyğəni oxuyan vaxt hər ikisinin və ya onlardan birinin müamiləni pozmaq haqqı olmasını şərt etsələr, qoyduqları qərara uyğun olaraq müamiləni poza bilərlər.

**M:2296.** Əgər müzariə qərarından sonra malik, yaxud əkinçi ölsə müzariə pozulmur, varisləri onların yerinə keçir. Amma əgər əkinçi ölsə və əvvəlcədən də şəxsən özünün əkin işlərini yerinə yetirməsini şərt etsələr müzariə pozulur. Əgər əkin cücərmiş olsa onun payını vərəsələrinə verməlidirlər. Habelə əkinçinin malik olduğu sair hüquqlar da onun vərəsələrinə çatır. Amma yerin sahibini, əkinin həmin torpaqda qalmasına məcbur edə bilməzlər.

**M:2297.** Əgər əkindən sonra müzariənin batil olduğunu başa düşsələr, bu halda toxum malikin öz malı idisə, əldə olunan məhsul da onundur; yox əgər əkinçinin imişsə, əkin də onun olur. Birinci halda malikin əkinçiyə bir şey verməsi lazım (ilzami) deyil. Həmçinin ikinci halda da əkinçinin malikə bir şey verməsi lazım deyil.

**M:2298.** Əgər toxum əkinçinin olsa və əkindən sonra müzariənin batil olduğu mə'lum olsa, bu halda malik və əkinçi muzdla, yaxud muzdsuz əkinin o yerdə qalmasına razı olsalar, eybi yoxdur. Əgər malik razı olmasa, hətta məhsulun yetişməsindən qabaq da əkinçini, əkini biçməyə vadar edə bilər. Əkinçi da malikə bir şey verməsinə razı olsa da, onu, yeri icarəyə verməyə, əkinin o torpaqda saxlamağa məcbur edə bilməz. Həmçinin malik də əkinçiyə icarə verib əkinin onun torpağında saxlamağa məcbur edə bilməz.

**M:2299.** Əgər məhsul yığılıb müzariə vaxtının tamam olmasından sonra əkilən şeyin kökləri torpaqda qalıb sonrakı ildə yenə məhsul versə, bu halda malik və əkinçi əkini öz mülkiyyətindən xaric olacaq tərzdə boşlamış olsalar, mübah şey hökmündədir. Əgər bütün məhsul və onun kökünün müştərək olmasını qərara almış olsalar, onda bölməlidirlər. Əgər qərarları yalnız birinci ilin məhsulu barəsində olsa, ikinci ilin məhsulu toxum sahibinindir.

## MUSAQATIN HÖKMLƏRİ

**M:2300.** Əgər bir kəs meyvəsi özünün olan, yaxud onun ixtiyarında olan ağacları müəyyən müddətə qədər becərib su vermək üçün başqasına versə və əvəzində o meyvədən qərar qoyduqlarından müşa" qədər (ümumi halda) götürməsi əsasında müamilə etsə, bu müamiləyə musaqat deyilir.

**M:2301.** Musaqat müamiləsi söyüd, çinar kimi bar verməyən ağaclarda səhih deyil. Amma yarpaqlarından istifadə olunan həna və sidr ağacında, yaxud gülü gülab çəkmək üçün istifadə olunan ağaclarda eybi yoxdur.

**M:2302.** Musaqat müamiləsində siyğə oxunması lazım (ilzami) deyil. Hətta əgər ağacın sahibi onu, musaqat qəsdi ilə həvalə etsə və işləyən şəxs həmin qəsdlə təhvil alsa, müamilə səhihdir.

**M:2303.** Malik və ağacları becərməyi öhdəsinə alan şəxs mükəlləf və aqil olmalıdırlar, bir kəs onları (bu işə) məcbur etməməlidir. Habelə malikin şərtlərindən biri də budur ki, səfeh olmasın və öz malında hakimi-şər'in tərəfindən təsərrüf etməsi qadağan olunmamalıdır. Amma işləyənin səfeh olmaması, öz malında təsərrüf etməsinin qadağan olunmaması şərt deyil. Ancaq öz malında təsərrüf etmək qəsdi olsa, şərtdir.

**M:2304.** Musaqatın müddəti mə'lum olmalıdır. Əgər onun əvvəlini müəyyən tərzdə tə'yin edib axırını da həmin ilin meyvələri yetişən vaxt götürsələr səhihdir.

**M:2305.** Gərək hər birinin payı məhsulun yarısı, üçdə biri və s. kimi olsun. Əgər məsələn meyvənin bir tonu malikin, qalanları isə işləyən kəsin olmasını qərara alsalar, müamilə batildir.

**M:2306.** Musaqat müamilə qərarı meyvənin zahir olmasından bağlanmalıdır. Əgər zahir olmasından sonra və yetişməzdən qabaq bağlasalar, bu halda əgər ağacı, meyvəni becərmək üçün lazım olan suvarmaq kimi işlərdən qalmış olsa, müamilə səhihdir. Əks halda–hətta meyvələri yığmaq və saxlamaq kimi işlər də olsa, işkalı vardır.

**M:2307.** Musaqat müamiləsi qarpız, yemiş, xiyar və s. kimi tərəvəzlərdə səhih deyil.

**M:2308.** Yağış suyu, yaxud yerin rütubətini cəzb edib suvarılmağa ehtiyacı olmayan ağaclar meyvənin lətafətli olmasına səbəb olan belləmək, gübrə vermək, dərman səpmək kimi işlərə ehtiyacı olsa, o işlərdə musaqat müamiləsi səhihdir. Amma əgər o işlərin meyvənin artmasında, yaxud lətafətli olmasında tə'siri olmasa, musaqat müamiləsinin işkalı var.

**M:2309.** Musaqat qərarı bağlayan iki nəfər bir-birinin razılığı ilə müamiləni poza bilərlər. Həmçinin əgər musaqat siyğəsini oxuyan vaxt hər ikisinin, yaxud onlardan birinin müamiləni pozmaq haqqına malik olmasını şərt etsələr,

qoyulan qərara müvafiq olaraq müamiləni pozmağın eybi yoxdur. Hətta əgər müamilədə müəyyən bir şərt etsələr və əməli olaraq yerinə yetirilməsə, nəf"inə şərt qoyulan tərəf müamiləni poza bilər.

**M:2310.** Əgər malik ölsə musaqat müamiləsi pozulmur, vərəsələri onun yerinə keçir.

**M:2311.** Ağacları becərməyi öhdəsinə alan şəxs ölsə, bu halda əqddə, onları şəxsən özü becərməsi şərt edilməyibsə vərəsələri onun yerini tutur. Amma özləri işi görməsələr və başqasını əcir və fəhlə tutmasalar, hakimi-şər' meyyitin malından əcir və fəhlə tutub məhsulu meyyitin vərəsələri ilə malikin arasında bölməlidir. Əgər onun özünün ağacları becərməsini şərt etmiş olsalar, bu halda başqasına həvalə etmələri şərt olunubsa onun ölümü ilə musaqat müamiləsi pozulur. Əgər belə qərar qoymamış olsalar, malik əqdi poza da bilər, yaxud onun vərəsələrinin və ya onların əcir tutduqları şəxsin ağacları becərməsinə razı ola bilər.

**M:2312.** Əgər bütün məhsulun malikə verilməsini şərt etsələr, musaqat batil, meyvələr isə malikindir. İşləyən kəs əcir, muzd tələb edə bilməz.

**M:2313.** Əgər torpaq sahəsini başqasına, orada ağac əkib əldə olunan məhsulun hər ikisinin olsun deyə, həvalə etsə, ehtiyat-vacibə görə müamilə batildir: əgər, ağaclar yer sahibinindirsə, becərdikdən sonra da onun malıdır, becərən şəxsin muzdunu verməlidir. Bu şərtlə ki, qərar qoyulan miqdardan artıq olmasın; yox əgər ağaclar onu becərən şəxsin olsa, becərəndən sonra da onun malıdır, onları oradan çıxarda bilər. Amma (çıxartsa) əmələ gələn boşluqları, çalaları doldurmalı, ağacları əkdiyi gündən e'tibarən yerin icarəsini sahibinə verməlidir. Bu şərtlə ki, qərara alınan miqdardan artıq olmasın. Malik də onu, ağaclarını çıxartmağa məcbur edə bilər. Bu halda ağacları çıxartmaq vasitəsilə eyb yaransa, onun səhih torpaqla olan qiymətinin təfavütünü ağacların sahibinə verməlidir. Onu, icarə ilə və ya icarəsiz ağacların o yerdə qalmasına məcbur edə bilməz.

## ÖZ MALLARINDA TƏSƏRRÜF EDƏ BİLMƏYƏN ŞƏXSLƏR

**M:2314.** Həddi-büluğa çatmayan uşaq şər’ən öz malında təsərrüf edə bilməz. Həddi-büluğa çatmağın nişanələri üç şeydən biri ola bilər:

**1-**Qarnının altında, ovrətinin üstündə qalın tüklərin göyərməsi;

**2-**Məninin gəlməsi;

**3-**Kişilərdə 15 yaşın (qəməri illə) və qadınlarda 9 yaşın (qəməri illə) tamam olması.

**M:2315.** Üzdə, bığ yerində, sinədə, qoltuğun altında qalın tüklərin göyərməsi, səsin qalınlaşması və s. həddi-büluğa çatmağın əlaməti deyildir. Amma əgər bunların vasitəsilə həddi-büluğa çatmaq yəqin olunsa, deməli həddi-büluğ nişanələridir.

**M:2316.** Dəli və səfeh (yə’ni öz malını əbəs yerlərə sərf edən) şəxs öz malında təsərrüf edə bilməz. Onların etdiyi təsərrüflər qəyyumlarının nəzarəti altında olmalıdır. Cameüş-şərait müctehidin, malında təsərrüf etməsini qadağan etdiyi müflis də eyni qayda ilə.

**M:2317.** Bə’zi vaxtlarda ağıllı, bə’zi vaxtlarda isə dəli olan bir şəxsin, dəli olduğu vaxtlarda öz malında təsərrüf etməsi səhih deyil.

**M:2318.** İnsan ölüm yatağında olan xəstəlikdə öz malından lazım olan qədər özünə, əhli-əyalına, qonaqlarına, israf olmayan sair işlərə xərcləyə bilər. Əzhər[31] budur ki, əgər öz malını bir kəsə bağışlasa, yaxud öz qiymətindən ucuz satsa və ya icarəyə versə, hətta üçdə birindən çox olsa və vərəsələri icazə verməsə də, onun təsərrüf etməsi səhihdir.

---

[31]Daha açıq-aydın olan fətvadır ki, mükəlləf ona müvafiq olaraq əməl etməlidir.

## VƏKALƏTİN HÖKMLƏRİ

Vəkalət odur ki, insan, dəxalət edə biləcəyi bir işi onun tərəfindən yerinə yetirsin deyə, başqasına tapşırsın. Məsələn, bir kəsi, onun evini satmaq, yaxud bir qadını onun əqdinə keçirməyə vəkil etsin. Deməli öz malını boş, əbəs yerlərə məsrəf edən səfeh adamın, öz malında təsərrüf etmək haqqı olmadığından; habelə hakimi-şər'in malında təsərrüf etməsini qadağan etdiyi bir şəxs öz malını satmaq üçün bir kəsi vəkil edə bilməzlər.

**M:2319.** Vəkalətdə siyğə oxunması lazım (ilzami) deyil. Əgər insan başqasını vəkil etdiyini, o da qəbul etdiyini başa salsa, (məsələn, öz malını bir kəsə satmaq üçün versə, o da malı qəbul etsə) vəkalət səhihdir.

**M:2320.** Əgər insan başqa şəhərdə olan bir şəxsi vəkil edib onun üçün vəkalətnamə göndərsə və o da qəbul etsə, hətta vəkalətnamə müəyyən müddətdən sonra çatsa da, vəkalət səhihdir.

**M:2321.** Müvəkkil–yə'ni başqasını vəkil edən bir kəs, habelə vəkil olan şəxs baliğ və aqil olmalı, qəsd və ixtiyar üzündən bu işi görməlidirlər. Yaxşını-pisi başa düşən müməyyiz uşaq təkcə siyğə oxumaqda vəkil olsa və siyğəni onun şərtləri daxilində oxusa, oxuduğu siyğə səhihdir.

**M:2322.** İnsan görə bilmədiyi, yaxud şər'ən görməməli olduğu bir işi yerinə yetirmək üçün başqası tərəfindən vəkil ola bilməz. Məsələn, həcc ehramında olan bir kəs əqd siyğəsi oxumamalı olduğundan, siyğəni oxumaq üçün başqasının tərəfindən vəkil ola bilməz.

**M:2323.** Əgər insan bir kəsi özünün bütün işlərini görmək üçün vəkil etsə, səhihdir. Amma əgər, işlərindən birini görmək üçün vəkil edib, amma onu müəyyənləşdirməsə, vəkalət səhih deyil.

**M:2324.** Vəkalət caiz əqddir və iki tərəfdən hər biri onu poza bilər. Amma əgər əqddə lazımlılıq şərt olunsa, məsələn, övlad öz mağazasını atasına satıb bey" əqdində oğulun vəkil olub mağazanı beş il müddətində özünə, yaxud başqasına icarə verməyi və icarə haqqını ödəməyi şərt etsələr bu halda ata oğlunun vəkalətini poza bilməz. Bundan başqa hallarda əgər müvəkkil vəkili vəkalətdən çıxartsa, bunun xəbəri ona çatandan sonra həmin işi görə bilməz. Amma xəbər çatmamışdan qabaq o işi görsə, səhihdir.

**M:2325.** Vəkil vəkalətini geri götürə bilər. Müvəkkil qaib də olsa eybi yoxdur.

**M:2326.** Vəkil, ona həvalə edilən işi yerinə yetirmək üçün başqasını vəkil edə bilməz. Lakin müvəkkil, onun vəkil tutmasına icazə vermiş olarsa, ona dediyi qaydada əməl edə bilər. Həmçinin əgər, zahirən də, vəkil tutulmasına icazə verməsi mə'lum olsa da bu qayda ilə. Məsələn, əgər işdən vəkilin özünün

yerinə yetirə bilməyəcəyi mə'lum olsa və müvəkkil "mənim üçün vəkil tut" desə, onun tərəfindən vəkil tutmalıdır. Öz tərəfindən bir kəsi vəkil tuta bilməz.

**M:2327.** Əgər insan, öz müvəkkilinin icazəsi ilə onun tərəfindən bir kəsi vəkil tutsa, o vəkili vəkalətdən çıxarda bilməz. Əgər onun vəkili ölsə, yaxud müvəkkil birinci vəkili vəkalətdən çıxartsa, ikinci vəkalət batil olmur.

**M:2328.** Əgər vəkil, müvəkkilin icazəsi ilə bir kəsi öz tərəfindən vəkil etsə, həm müvəkkil, həm də birinci vəkil onu vəkalətdən çıxarda bilərlər. Əgər birinci vəkil ölsə, yaxud vəkalətdən çıxarılsa ikincinin vəkaləti batil olmur.

**M:2329.** Əgər bir kəs bir neçə nəfəri müəyyən bir iş üçün vəkil etsə və onların hər birinin ayrılıqda o işə başlamasına icazə versə, onlardan hər biri o işi yerinə yetirə bilərlər. Əgər onlardan biri ölsə və ya vəkalətdən çıxarılsa, sair vəkillərin vəkaləti batil olmur. Amma əgər bir işi birlikdə, yaxud təklikdə yerinə yetirməyə vəkil olmalarını deməsə, sözündən də birlikdə və ya təklikdə yerinə yetirmələri mə'lum olmasa, yaxud birlikdə işləyəcəklərini desə təklikdə işə başlaya bilməzlər. Əgər işi birlikdə yerinə yetirməyə vəkil olsalar və onlardan biri ölsə, sair vəkillərin də vəkaləti batil olur Amma müvəkkilin kəlamının anlaşılmaz olduğu halda başqalarının vəkaləti, onlardan birinin ölməsi ilə aradan getmir.

**M:2330.** Əgər vəkil və ya müvəkkil ölsə, vəkalət batil olur. həmçinin əgər təsərrüf etməyə vəkil olduğu şey aradan getsə (məsələn, qoyunu satmaq üçün vəkil olsa və qoyun da ölsə) vəkalət batil olur. Onlardan biri dəli olsa və ya huşdan getsə dəlilik, yaxud bihuşluq vaxtında vəkalətin tə'siri yoxdur. Amma dəliliyin və ya bihuşluğun aradan qalxmasından sonra bir əməli yerinə yetirə bilməyən tərzdəki vəkalət məhəlli-işkaldır.

**M:2331.** Əgər insan bir kəsi müəyyən iş üçün vəkil edib onun üçün bir şey verməyi qərara alsa, o iş yerinə yetiriləndən sonra həmin şeyi ona verməlidir.

**M:2332.** Əgər vəkil, ona verilən malı saxlamaqda səhlənkarlıq etməsə və ona icazə verilən miqdardan başqa təsərrüf etməsə və təsadüfən, mal tələf olub aradan getsə onun əvəzini verməməlidir.

**M:2333.** Əgər vəkil, ixtiyarında olan malı saxlamaqda səhlənkarlıq etsə, yaxud ona icazə veriləndən əlavə təsərrüf etsə və o mal da aradan getsə, zamindir. Deməli əgər bu satış üçün verilən paltarı geysə və tələf olsa, əvəzini verməlidir.

**M:2334.** Əgər vəkil, malda ona icazə veriləndən başqa təsərrüf etsə (məsələn, satmaq üçün verilən paltarı geysə) və sonradan ona icazə verilən təsərrüf etsə, o təsərrüfü səhihdir.

## BORCUN HÖKMLƏRİ

Borc vermək müstəhəb işlərdəndir ki, Qur'an ayələrində və hədislərdə ona dair çoxlu sifariş edilmişdir. Peyğəmbəri Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-dən rəvayət olunub ki: "Hər kəs öz müsəlman qardaşına borc versə onun malı artar, məlaikələr ona rəhmət göndərərlər. Əgər ona borclu olan şəxslə müdara etsə, hesab-kitabsız, sür'ətlə Sirat körpüsündən keçəcək. Əgər bir müsəlman öz müsəlman qardaşından borc istəyəndə verməsə, behişt ona haram olar." Həmçinin başqa rəvayətdə gəlib ki, sədəqənin savabı birə on qat, borcun savabı isə birə on yeddi qat artıqdır.

**M:2335.** Borcda siyğə oxunması lazım (ilzami) deyil. Hətta əgər bir şeyi borc niyyəti ilə bir kəsə versə və o da həmin məqsədlə qəbul etsə, səhihdir.

**M:2336.** Əgər borcda müəyyən vaxtda qaytarılmasını şərt etsələr, həmin vaxt çatmazdan əvvəl borc sahibinin (borcu) qəbul etməsi vacib deyil. Amma əgər borcun qaytarılması üçün vaxt tə'yin olunması yalnız borc alan şəxsin həmrahlığı üçün olarsa, o vaxtdan qabaq da borcu qaytarsa, qəbul etməlidir.

**M:2337.** Əgər borc siyğəsində onu qaytarmaq üçün vaxt tə'yin etsələr, borc sahibi o müddətin tamam olmasından qabaq öz borcunu tələb edə bilməz. Amma əgər müddəti tə'yin olunmasa, hər vaxt istəsə, öz borcunu tələb edə bilər.

**M:2338.** Əgər borc sahibi öz borcunu, tələb etməyə haqlı olduğu vaxt istəsə və borclu da verə bilsə dərhal verməlidir, tə'xirə salsa, günahkardır.

**M:2339.** Əgər borclu şəxsin öz şə'ninə layiq olan və içində oturduğu ev, mənzil avadanlıqları və ehtiyacı olan sair şeylərdən başqa heç nəyi olmasa, borc sahibi öz borcunu ondan tələb edə bilməz: öz borcunu verməyə qadir olduğu vaxta qədər gözləməlidir.

**M:2340.** Borclu olan və öz borcunu verə bilməyən bir şəxs kəsb-qazanc edə bilərsə və bu işin onun üçün məşəqqəti olmazsa, vacibidir ki, qazanc edib borcunu qaytarsın.

**M:2341.** Borc sahibini tapa bilməyən bir şəxs onun özünü, yaxud onun varislərini tapacağına ümidi olmasa, ehtiyata görə gərək cameüş-şərait müctehidin icazəsi ilə borcunu fəqirə versin. Əgər borc sahibi seyyid olmasa, ehtiyat-vacib budur ki, onu seyyid fəqirə verməsin.

**M:2342.** Əgər meyyitin malı, kəfən və dəfnin vacibatının xərclərindən və borclarından artıq olmasa həmin işlərə sərf etməlidirlər. Varislərinə heç nə çatmır.

**M:2343.** Əgər bir kəs müəyyən qədər qızıl, gümüş, misli olan sair şeylər borc etsə və qiyməti azalsa, yaxud bir neçə qat artsa, bu halda götürdüyü qədəri

qaytarsa, kifayətdir. Amma əgər hər iki tərəf ondan başqasına razı olsalar eybi yoxdur.

**M:2344.** Əgər borc etdiyi mal aradan getməsə və malın sahibi də həmin şeyi istəsə ehtiyat-vacib budur ki, şəxs həmin malı ona qaytarsın.

**M:2345.** Borc verən şəxs verdiyi miqdardan artıq alacağını (məsələn, bir "mən" buğda verib bir "mən" yarım alacağını şərt etsə, yaxud 10 ədəd yumurta verib 11 ədəd alacağını) şərt etsə sələm və haramdır. Hətta əgər borc verdiyi adamın onun üçün müəyyən bir iş görməsini də şərt etsə, yaxud borc etdiyi şeyə başqa bir şey əlavə edərək qaytarmasını (məsələn, borc aldığı bir tümən pulu, bir kibritlə qaytarmasını) şərt etsə, sələm və haramdır. Həmçinin onunla, borc aldığı şeyi məxsus halda (məsələn, müəyyən qədər e'mal olunmamış qızıl verib, bir şey düzələrək qaytarmasını) şərt etsə, yenə də sələm və haramdır. Lakin belə şərt edilmədən borclunun özü aldığından çox versə, eybi yoxdur, hətta müstəhəbdir də.

**M:2346.** Sələm vermək sələm almaq kimi haramdır. Sələmli borc götürən bir kəs onun maliki olmur və onda təsərrüf edə bilməz. Amma əgər sələm qərarı qoymadan da pulun sahibi borc alanın pulda təsərrüf etməsinə razı olardısa, borc alan şəxs onda işkalsız təsərrüf edə bilər.

**M:2347.** Əgər buğda və sair toxumları sələm borcu kimi alıb taxıl əksə, məhsulu borc verən şəxsindir.

**M:2348.** Əgər bir paltarı zimməsinə alıb[32] sonradan sələm kimi aldığı, yaxud sələmə qarışmış halal puldan paltarın sahibinə versə, bu halda onu alan vaxt məqsədi bu puldan vermək olarsa, o paltarı geymək caiz deyil, onda namaz qılmaq ehtiyata görə batildir; yox əgər alan vaxtı məqsədi bu olmayıbsa, o paltarı geymək caiz, onda namaz qılmaq səhihdir. Həmçinin əgər onun sələm, yaxud harama qarışmış halal pulu olsa və satıcıya "bu paltarı bu pul ilə alıram" desə, o paltarı geymək haramdır. Əgər o paltarı geyməyin haram olmasını bilsə, ehtiyat-vacibə görə o paltarda namaz batildir.

**M:2349.** Əgər insan müəyyən miqdarda pulu başqa şəhərdə onun tərəfindən az alsın deyə, tacirə versə eybi yoxdur. Buna "bərat sərfi" deyilir. Bu ona oxşayır ki, öz borcunun bir qismindən keçmiş olsun. Həmçinin əgər bir kəsə pul versə və həmin miqdarda başqa şəhərdə alacağını şərt etsə, eyni qayda ilə (eybi yoxdur).

**M:2350.** Əgər bir qədər pulu bir neçə gündən sonra başqa şəhərdə artıq alsın deyə, bir kəsə versə (məsələn, 990 tümən verib 10 gündən sonra başqa bir şəhərdə 1000 tümən almaq istəsə) sələm və haramdır. Amma əgər artıq alan kəs artığın müqabilində müəyyən bir şey versə və ya bir iş görsə, eybi yoxdur.

---

[32]Pulunu sonradan verməyini iltizam vermək.

**M:2351.** Əgər bir kəsin başqasında çəki, yaxud peymanə ilə ölçülməyən bir şey borcu olsa, onu borclu şəxsə, yaxud başqasına ucuz qiymətə verib pulunu nəqd ala bilər. Deməli, hazırkı zəmanəmizdə borc sahibinin borclu şəxsdən aldığı bərat, yaxud səftələri (qəbzləri) banka, yaxud başqa şəxsə öz borcundan az qiymətə satıb pulun qalanını nəqd ala bilər. Çünki adi əskinaslar çəki və peymanə ilə müamilə olunmur.

## HƏVALƏ VERMƏYİN HÖKMLƏRİ

**M:2352.** Əgər insan borc verdiyi şəxsə öz borcunu başqasından almaq üçün həvalə (qəbz) versə və borc sahibi də qəbul etsə həvalə düzələndən sonra həvalə olunan şəxs borclu olur, daha borc sahibi verdiyi borcu birinci şəxsdən tələb edə bilməz.

**M:2353.** Borclu, borc sahibi və borcunun həvalə olunduğu şəxs mükəlləf, aqil olmalıdır və bir kəs onları bu işə məcbur etməməlidir. Həmçinin səfeh də olmamalı, mallarını bihudə yerlərə sərf etməməlidirlər. Həmçinin əgər cameüş-şərait müctehid bir kəsin, müflis olma səbəbilə öz malında təsərrüf etməsini qadağan etsə, borcunu başqasından alsın deyə, ona həvalə vermək olmaz. Özü də başqasına həvalə verə bilməz. Amma əgər ona borclu olmayan bir şəxsə həvalə versə, eybi yoxdur.

**M:2354.** Əgər borclu olan bir kəsə həvalə versələr ehtiyat-vacib budur ki, həvalə onun razılığı və qəbul etməsi ilə olsun. Amma borclu olmayan şəxsə həvalə vermək o halda səhih sayılır ki, onu qəbul etsin. Həmçinin əgər insan müəyyən mal borclu olduğu bir kəsə başqa bir şey həvalə versə (məsələn, arpa borclu olduğu adama buğda həvaləsi versə), o qəbul etməyincə, səhih deyildir.

**M:2355.** İnsan həvalə verdiyi vaxt borclu olmalıdır. Deməli əgər bir kəsdən borc almaq istəsə, nə qədər ki, ondan borc etməyib və ona borclu olmayıbdır, onu sonradan borc verəcəyi bir kəsə həvalə versələr və o kəs də götürsə, həvalə səhih deyil.

**M:2356.** Həvalə verən və borc sahibi həvalənin miqdarını və növünü bilməlidirlər. Deməli əgər misal üçün, bir nəfərə 10 "mən" buğda və 100 tümən pul borclu olsa və ona "iki borcundan birini filan kəsdən götür" deyib onu tə'yin etməsə, həvalə düzgün deyil.

**M:2357.** Əgər borc həqiqətdə müəyyən olsa, amma borclu və borc sahibi həvalə verən vaxt onun miqdarını və ya növünü bilməsələr, həvalə səhihdir. Məsələn, bir kəsin borcunu dəftərdə yazmış olsalar və dəftəri görmədən həvalə verib sonra dəftəri görsə və borc sahibinə borcunun miqdarını desə, həvalə səhihdir.

**M:2358.** Borc sahibi həvaləni–hətta həvalə olan şəxs fəqir olmasa da və həvaləni verməkdə səhlənkarlıq etməsə də, qəbul etməyə bilər.

**M:2359.** Əgər borclu olmayan bir kəsə həvalə versələr və o da həvaləni qəbul etsə, həvaləni verməmişdən qabaq onun bir miqdarını həvalə verəndən ala bilməz. Amma əgər borc sahibi öz borcunu az miqdarla sülh etsə həvaləni qəbul edən şəxs həvalə olunan şeyin miqdarının hamısını həvalə verəndən tələb edə bilər.

**M:2360.** Həvalə düzələndən sonra həvalə verən və həvalə olunan şəxs həvaləni poza bilməzlər. Hərgah həvalə olunan şəxs həvalə vaxtında fəqir olmasa, yə’ni borcda istisna olunan şeylərdən başqa bir malı olsa və həvaləni verə bilsə, sonradan fəqir də olsa, borc sahibi həvaləni poza bilməz. Həmçinin əgər həvalə vaxtında fəqir olsa və borc sahibi də onun fəqir olduğunu bilsə eyni qayda ilə (poza bilməz). Amma fəqir olmasını bilməyib sonradan başa düşsə, hətta o vaxt mal-dövləti olsa da borc sahibi həvaləni pozub borcunu həvalə verəndən ala bilər.

**M:2361.** Əgər borclu, borc sahibi və həvalə olunan şəxs, yaxud onlardan biri həvaləni pozmaq haqqı qoymuş olsalar, ona uyğun olaraq həvaləni poza bilərlər.

**M:2362.** Əgər həvalə verən şəxsin özü borc sahibinin borcunu verə bilsə, bu halda ona həvalə olunan şəxsin xahişi ilə olsa, onun öhdəsindən götürülür və verdiyi şeyi ondan ala bilər. Əgər onun xahişi olmadan versə, məqsədi də onu almamaq olsa, verdiyi şeyi ondan ala bilməz.

## RƏHNİN (GİROV) HÖKMLƏRİ

**M:2363.** Rəhn, yaxud vəsiqə qoymaqdan məqsəd budur ki, borclu şəxs öz malının bir miqdarını borc aldığı şəxsin yanına qoyur ki, əgər borcunu vaxtında qaytara bilməsə o maldan götürsün.

**M:2364.** Rəhndə siyğə oxunması lazım (ilzami) deyil; elə borclu olan şəxs öz malını girov niyyəti ilə borc sahibinə versə və borc sahibi də həmin niyyətlə qəbul etsə rəhn səhihdir.

**M:2365.** Malı girov qoyan və girov götürən şəxs mükəlləf, aqil olmalı, bir kəs onları məcbur etməməlidir. Həmçinin girov qoyan şəxs səfeh olmamalıdır. Habelə, müflisləşmə səbəbilə cameüş-şərait müctehid onu, mal-dövlətində təsərrüf etməsini qadağan etsə, öz malını girov qoya bilməz.

**M:2366.** İnsan şər'ən təsərrüf edə bildiyi malı girov qoya bilər. Əgər başqa bir şəxsin malını girov qoysa, o vaxt səhih olar ki, o malın sahibi razı olduğunu desin. (Məsələn, bizim zamanda haqq sahibinin haqqının qaytarılması üçün qoyulan vəsiqələr kimi.)

**M:2367.** Girov qoyulan şey, al-veri səhih olan şeylərdən olmalıdır. Deməli şər'ən maliyyəti olmayan şərab, qumar alətləri və ya camaat arasında maliyyəti olmayan şeylərin girov qoyulması səhih deyildir.

**M:2368.** Girov qoyulan şeyin mənfəəti onun sahibinindir.

**M:2369.** Girov qoyan və alan şəxs girov qoyulan şeyi bir-birinin icazəsi olmadan kiminsə mülkünə keçirə bilməz. (Məsələn, bağışlaya, yaxud sata bilməz.) Amma əgər onlardan biri onu bağışlasa, yaxud satsa və sonra isə digəri razı olduğunu bildirsə, eybi yoxdur.

**M:2370.** Əgər borc sahibi girov götürdüyü şeyi, borclu olan şəxsin icazəsi ilə satsa, rəhn batil olur, pulu da rəhn olmur. Amma əgər satmaqda vəkalətin qəbul edilməsi, pulun rəhn qoyulması ilə şərtlənsə, səhihdir.

**M:2371.** Əgər borcu qaytarmalı olduğu vaxt borc sahibi istəsə və o da verməsə, borc sahibi girov qoyulan şeyi satıb borcunu götürə, artıq qalanlarını isə borclu olana qaytara bilər. Əgər cameüş-şərait müctehidi tapsa, ehtiyat-vacibə görə onu satmaqda ondan icazə almalıdır.

**M:2372.** Əgər borclu olan şəxsin öz şə'ninə layiq olan ev, onda olub ehtiyac duyulan mənzil avadanlıqlarından başqa bir şeyi olmasa, borc sahibi öz borcunu ondan tələb edə bilməz. Amma əgər girov qoyduğu şey ev və ev əşyaları olsa, borc sahibi onu satıb öz borcunu götürə bilər.

**M:2373.** Ehtiyat-vacibə görə girov borc sahibinə təhvil verilmədən gerçəkləşmir.

**M:2374.** Bə'zi camaat arasında belə qayda var ki, ev sahibinə bir qədər borc verib onun evini girov götürürlər. Bu şərtlə ki, icarə haqqını az versinlər., yaxud

ümumiyyətlə icarə pulu verməsinlər. Buna “rəhnli ev” deyilir. Bu iş riba və haramdır. Onun səhih yolu budur ki, əvvəl evi icarəçiyə müəyyən qiymətə icarə versinlər, (hətta az məbləğdə də olsa) icarədə də şərt etsinlər ki, icarəçi filan məbləğ borcu ona versin. Bu halda riba deyil, halaldır və rəhn sayılmır.

## ZAMİN OLMAĞIN HÖKMLƏRİ

**M:2375.** Əgər bir kəs başqasının borcunu vermək üçün zamin olsa, onun zəmanəti o vaxt səhih olar ki, hər hansı bir kəlmə ilə–hətta ərəbcə olmasa da, borc sahibinə desin ki, mən sənin borcunu verməyə zamin oldum. Borc sahbi də öz razılığını bildirsin. Amma borclu olan şəxsin razı olması şərt deyil. Həmçinin zəmanət qərarını imzalamaqla, yaxud bu mətləbi borc sahibinə başa salan hər hansı bir işlə də etmək olar ki, onun özü də əməli olaraq qəbul etsin.

**M:2376.** Zamin və borc sahibi mükəlləf və aqil olmalıdır, bir kəs onları bu işə məcbur etməməlidir. Həmçinin öz malını əbəs yerlərə xərcləyən səfeh də olmamalıdır. Müflisləşmə səbəbi ilə cameüş-şərait müctehid, malında təsərrüf etməsini qadağan edən bir kəsin öz borcunun hesabından başqası zamin ola bilməz. Amma bu şərtlər borclu şəxsdə yoxdur. Məsələn, əgər bir kəs uşaq, dəli və səfehin borcunu verməyə zamin olsa borc sahibi də qəbul etsə zəmanət səhihdir.

**M:2377.** Əgər özünün zamin olması üçün bir şərt edib "borclu olan şəxs sənin borcunu verməsə mən verərəm" desə ehtiyat-vacib budur ki, onun zamin olmasına e'tina etməsin.

**M:2378.** İnsanın borcunu qaytarmasına zamin olduğu bir kəs borclu olmalıdır. Deməli əgər bir kəs başqasından borc etmək istəsə, borc etməyincə, insan ona zamin ola bilməz.

**M:2379.** İnsan o vaxt zamin ola bilər ki, borc sahibi, borclu olan şəxs və borc olunan şey–hamısı müəyyən olunsun. Deməli, iki nəfərin bir nəfərdə borcu olsa və insan "mən zaminəm ki, sizlərdən birinin borcunu qaytarım" desə, hansının borcunu qaytaracağını müəyyən etmədiyi üçün ehtiyat-vacibə görə onun zamin olması batildir. Həmçinin əgər bir nəfərin iki nəfərdə borcu olsa və insan "mən zaminəm ki, o iki nəfərdən birinin borcunu sənə verim" desə, hansının borcunu qaytaracağını müəyyənləşdirmədiyi üçün, ehtiyat-vacibə görə zamin olması batildir. Həmçinin əgər bir nəfərin başqasında misal üçün, 10 "mən" buğda və 100 tümən pul borcu olsa və insan "mən sənin iki şeyindən birinə zamin oluram" deyib buğdanın, yoxsa pulun zamini olduğunu müəyyənləşdirməsə, ehtiyat-vacibə görə səhih deyildir.

**M:2380.** Əgər borc sahibi öz borcunu zamin olan şəxsə bağışlasa, o, borclu olan şəxsdən bir şey ala bilməz. Əgər bir miqdarını bağışlasa, o miqdarı tələb edə bilməz.

**M:2381.** Əgər insan bir kəsin borcunu qaytarmağa zamin olsa, zəmanətindən geri çəkilə bilməz.

**M:2382.** Zamin olan şəxs və borc sahibi, ehtiyat-vacibə görə istədikləri vaxt zaminin zəmanətini poza biləcəklərini şərt edə bilməzlər.

**M:2383.** Əgər insan zamin olan vaxt borc sahibinin borcunu verə bilsə, hətta sonradan fəqir olsa da, borc sahibi onun zamin olmasını pozub öz borcunu birinci borcludan tələb edə bilməz. Həmçinin əgər həmin vaxt onun borcunu verə bilməsə, amma borc sahibi bunu bilsə və onun zamin olmasına razı olsa da eyni qayda ilə.

**M:2384.** Əgər insan zamin olduğu vaxt borclunun borcunu verə bilməsə, borc sahibi də o vaxt onu bilməyib sonradan başa düşsə zəmanəti poza bilər. Amma əgər borc sahibi bu məsələni başa düşməmişdən qabaq zaminin borcu qaytarmağa qüdrəti çatsa, bu halda o, zəmanəti pozmaq istərsə, işkalı vardır.

**M:2385.** Əgər bir kəs borclunun icazəsi olmadan onun borclarını verməyə zamin olsa, ondan bir şey ala bilməz.

**M:2386.** Əgər bir kəs borclu olan şəxsin icazəsi ilə onun borcunu verməyə zamin olsa zamin olduğu miqdarı verdikdən sonra ondan tələb edə bilər. Amma əgər borclu olduğu malın yerinə başqa bir malı borc sahibinə versə, verdiyi şeyi ondan tələb edə bilməz. Məsələn, əgər 10 “mən” buğda borclu olsa və 10 “mən” düyüyə zamin olsa, düyünü ondan tələb edə bilməz. Amma əgər özü düyü verməsinə razı olsa, eybi yoxdur.

## KƏFALƏTİN HÖKMLƏRİ

**M:2387.** Əgər bir kəsin başqasının boynunda haqqı (məsələn, borc, qisas, diyə və s. kimi) olsa, yaxud məhkəmədə baxılmağa qabiliyyəti olan və isbat olunması mümkün olan müəyyən haqqı iddia etsə, bu halda insan haqq sahibi və ya iddiaçıya müttəhim şəxsi buraxmasını zamin olsa, belə ki, hər vaxt onu istəsə, təhvil verə bilsin, bu qərara kəfalət, bu işə zamin olan şəxsə isə kəfil deyilir.

**M:2388.** Kəfalət o zaman səhihdir ki, kəfil, hətta ərəbcə olmayan hər hansı bir kəlmə, yaxud əməl ilə tələbkara başa salsın ki, hər vaxt sənə borclu olan şəxsi istəsən, təhvil verəcəyəm, tələbkar da qəbul etsin.

**M:2389.** Kəfil olan şəxs mükəlləf və aqil olmalı, bir kəs onu kəfalətə məcbur etməməli, kəfili olduğu şəxsi də hazır edə bilməlidir.

**M:2390.** Aşağıdakı 7 şey kəfaləti pozur:

**1-**Kəfil olan şəxs borclu şəxsi haqq sahibinə qaytarsa;

**2-**Haqq sahibinin haqqı ödənmiş olsa;

**3-**Haqq sahibi öz haqqından keçsə;

**4-**Borclu olan şəxs ölsə;

**5-**Haqqı olan şəxs kəfili, kəfalətdən azad etsə;

**6-**Kəfil olan şəxs ölsə;

**7-**Haqq sahibi olan şəxs həvalə və ya başqa yollarla öz haqqını başqasına həvalə etsə.

**M:2391.** Əgər bir kəs borclu olan şəxsi haqq sahibinin əlindən zorla buraxdırsa, onda ya onu borc sahibinə təhvil verməlidir, ya da borc sahibinin haqqını qaytarmalıdır.

**M:2392.** Kəfalətdə haqq öhdəsində olan şəxsin razılığı lazım (ilzami) deyil; deməli borcu olan şəxsin razılığı şərt deyil.

**M:2393.** Əgər kəfalət borclu olan şəxsin icazəsi ilə olsa, kəfil də haqq sahibinin borcunu qaytarmağa naçar olsa, onu borclu olan şəxsdən almağa haqqı var. Amma əgər onun icazəsi ilə olmasa, almağa haqqı yoxdur.

## VƏDİ'Ə (ƏMANƏT)İN HÖKMLƏRİ

**M:2394.** Əgər insan öz malını bir kəsə verib "sənin yanında əmanət qalsın" desə o da qəbul etsə; yaxud bir söz danışmadan, mal sahibi öz malını saxlamaq üçün ona verdiyini, o da saxlamaq məqsədi ilə qəbul etdiyini başa salmaq istəsələr, vədi'ənin (əmanətin) hökmünə əməl etməlidirlər. (Bu hökmlər sonradan deyiləcək.)

**M:2395.** Əgər bir kəs bir əmanəti qəbul etsə, onu saxlamaqda səhlənkarlıq etməməli, hər vaxt malın sahibi almaq istəsə, təhvil verməlidir.

**M:2396.** Əmanət alan və malını əmanət verən şəxs–hər ikisi aqil olmalıdır. Deməli bir şəxs malını dəlinin yanında əmanət qoysa, yaxud dəli öz malını bir kəsin yanında əmanət qoysa, səhih deyil. Amma müməyyiz uşağın malını, qəyyumunun icazəsi ilə bir kəsin yanında əmanət qoyması caizdir. Həmçinin başqasının da malını, onun icazəsi ilə bir kəsin yanında əmanət qoya bilər. Müməyyiz uşağın yanında qəyyumunun icazəsi ilə bir şeyi əmanət qoymağın eybi yoxdur.

**M:2397.** Əgər bir kəs, sahibinin icazəsi olmadan uşaqdan bir şeyi əmanət kimi qəbul etsə, onu sahibinə verməlidir. Əgər o şey uşağın öz malı olsa, amma uşağın qəyyumu onun əmanət qoymasına icazə verməsə, lazımdır ki, o malı onun qəyyumuna çatdırsın. Əgər malı ona çatdırmaqda səhlənkarlıq etsə və tələf olsa, əvəzini verməlidir. Amma mal tələf olmasın deyə, uşaqdan alsa, bu halda saxlamaqda səhlənkarlıq etməsə zamin deyildir. Həmçinin əgər əmanət qoyan şəxs dəli olsa da eyni qayda ilə (zamin deyildir).

**M:2398.** Əmanəti saxlaya bilməyən bir şəxs ehtiyat-vacibə görə gərək qəbul etməsin. Amma əgər malın sahibi onu saxlamaqda aciz olsa və ondan yaxşı saxlaya bilən bir şəxs də olmasa bu ehtiyat, vacib deyil.

**M:2399.** Əgər insan malın sahibinə, onun malını saxlamağa hazır olmadığını başa salsa, o da malı qoyub getsə, bu şəxs də malı götürməsə və tələf olsa, əmanəti qəbul etməyən şəxs zamin deyil. Amma ehtiyat-müstəhəb budur ki, mümkün olarsa, onu saxlasın.

**M:2400.** Bir şeyi əmanət qoyan şəxs hər vaxt istəsə, geri ala bilər. Əmanəti qəbul edən şəxs də hər vaxt istəsə, onu sahibinə qaytara bilər.

**M:2401.** Əgər insan əmanəti saxlamaq fikrindən dönüb vədi'əni pozsa, onu mümkün qədər tez sahibinə, vəkilinə və ya sahibinin qəyyumuna çatdırmalı, yaxud onu saxlamağa razı olmadığını onlara xəbər verməlidir. Əgər üzrü olmadan malı onlara çatdırmasa və ya xəbər verməsə, nəticədə mal xarab olsa, əvəzini verməlidir.

**M:2402.** Əmanəti qəbul edən şəxsin onu saxlamaq üçün münasib yeri olmasa, gərək münasib yer hazırlasın və onu elə saxlasın ki, camaat "əmanətə

xəyanət edibdir, onu saxlamaqda səhlənkarlıq edibdir” deməsin. Əgər münasib olmayan yerə qoysa və tələf olsa, əvəzini verməlidir.

**M:2403.** Əmanəti qəbul edən şəxs onu saxlamaqda səhlənkarlıq, ifrat etməsə və təsadüfən tələf olsa, zamin deyildir. Amma əgər öz ixtiyarı ilə onu, zalımın agah olub apara biləcəyini güman etdiyi bir yerə qoysa və tələf olsa, əvəzini sahibinə verməlidir. Ancaq o yerdən daha yaxşı hifz olunacaq yeri olmasa və malı öz sahibinə, yaxud daha yaxşı qoruyan adama çatdıra bilməsə, bu halda zamin deyil.

**M:2404.** Əgər malın sahibi öz malını saxlamaq üçün yer tə’yin edib əmanəti qəbul edən şəxsə “gərək malı orada saxlayasan və tələf olmasına ehtimal versən, başqa yerə aparmamalısan” desə, əmanəti saxlayan şəxs o yerdə tələf olacağını ehtimal verib o yerin, mal sahibinin nəzərində hifz olunmaq üçün daha yaxşı olduğuna görə o yerdən çıxartmamasını demiş olduğunu bilsə, bu halda onu başqa yerə apara bilər. Əgər ora aparsa və tələf olsa, zamin deyil. Amma əgər başqa yerə aparmamalı olduğunu hansı səbəbə görə deməsini bilmədən başqa yerə aparsa, iki fərz mümkündür:

**1-**O biri yer əmanət alan şəxsin nəzərində hifz olunmaq üçün əmanət verən şəxsin nəzərdə tutduğu yerdən daha yaxşı olarsa, əgər tələf olsa zamin deyil;

**2-**Sonrakı yer əmanət verən şəxsin tə’yin etdiyi yerlə bərabər, yaxud ondan da pis olsa, bu halda mal tələf olsa zamindir və əvəzini verməlidir.

**M:2405.** Əgər malın sahibi öz malını saxlamaq üçün bir yeri müəyyən etsə, əmanəti qəbul edən şəxs də o yerin mal sahibinin nəzərində heç bir xüsusiyyəti olmadığını və onun hifz olunan yerlərindən biri olmasını bilsə, bu halda həmin şeyi hifz etmək üçün birinci yerlə bərabər, yaxud ondan daha yaxşı yerə apara bilər, əgər mal orada tələf olsa zamin deyil.

**M:2406.** Əgər malın sahibi dəli olsa əmanəti qəbul edən şəxs dərhal əmanəti onun qəyyumuna çatdırmalı və ya xəbər verməlidir. Əgər şər’i üzr olmadan malı onun qəyyumuna verməsə, xəbər verməkdə də səhlənkarlıq etsə və mal tələf olsa, əvəzini verməlidir.

**M:2407.** Əgər malın sahibi ölsə əmanəti qəbul edən şəxs malı onun varislərinə çatdırmalı, yaxud onlara xəbər verməlidir. Əgər malı varislərə verməsə, xəbər verməkdə də səhlənkarlıq etsə və mal tələf olsa, zamindir. Amma əgər “meyyitin varisi mənəm” deyən şəxsin düz deyib-deməməsini, yaxud meyyitin başqa varisi olub-olmamasını bilmək üçün malı verməyib xəbər də göndərməsə və onu saxlamaqda səhlənkarlıq etməsə və mal tələf olsa, zamin deyildir.

**M:2408.** Əgər malın sahibi ölsə və bir neçə vərəsəsi olsa, əmanəti qəbul edən şəxs malı onların hamısına (bir yerdə), yaxud onların hamısının malı almağı həvalə etdikləri adama verməlidir. Əgər canişini olsa ona da müraciət etməlidir.

Deməli əgər sair varislərin icazəsi olmadan malın hamısını vərəsələrdən birinə versə o birilərin payına zamindir.

**M:2409.** Əmanəti qəbul edən şəxs ölsə, yaxud dəli olsa, onun qəyyumu və ya varisi mümkün olan qədər tez malın sahibinə xəbər verməli, yaxud əmanəti ona çatdırmalıdır.

**M:2410.** Əgər əmanəti qəbul edən şəxs özündə ölüm əlamətlərini görsə mümkün olan halda onu sahibinə, yaxud onun vəkilinə çatdırmalıdır. Əgər mümkün olmasa gərək cameüş-şərait müctehidə versin. Əgər onu tapa bilməsə, özünün varisi əmanətdar və əmanətdən xəbərdardırsa, vəsiyyət etməsi lazım (ilzami) deyil. Əks halda vəsiyyət etməli, şahid tutmalıdır, vəsi və şahidə malın sahibinin adını, malın cinsini, xüsusiyyətini yerini deməlidi.

**M:2411.** Əgər əmanəti qəbul edən şəxs özündə ölüm əlamətlərini görüb qabaqkı məsələdə deyilən vəzifəsinə əməl etməsə, bu halda əmanət aradan getsə hətta onu saxlamaqda səhlənkarlıq etməsə və onun xəstəliyi sağalsa, yaxud bir müddətdən sonra peşman olub vəsiyyət etsə də, əvəzini verməlidir.

## ARİYƏNİN HÖKMLƏRİ

**M:2412.** Ariyə budur ki, insan öz malını istifadə etmək üçün başqasına versin, əvəzində də heç nə almasın.

**M:2413.** Ariyədə siyğə oxunması lazım (ilzami) deyil. Əgər misal üçün, öz paltarını ariyə məqsədi ilə bir kəsə versə və o da həmin məqsədlə alsa, ariyə səhihdir.

**M:2414.** Qəsbi malı, habelə özü insanın, mənfəəti isə başqasının olan (məsələn, icarəyə verilən) bir malı ariyəyə verilməsi o vaxt səhihdir ki, qəsbi şeyin sahibi, yaxud icarə edən şəxsin ariyəyə verilməsinə razı olduqlarını desinlər və ya onların halından razılıqları mə'lum olsun.

**M:2415.** İnsan, mənfəəti özünün olan (məsələn, icarə etdiyi) bir şeyi ariyə verə bilər. Amma əgər icarədə, təkcə özünün istifadə edəcəyini şərt etsələr, yaxud o yerin camaatı arasında icarə bu mə'nada başa düşülsə, başqasına ariyəyə verə bilməz.

**M:2416.** Dəli, uşaq, səfeh və müflis şəxsin öz malını ariyəyə verməsi səhih deyildir. Amma əgər onların qəyyumu ariyə verməyi məsləhət görsə və bu iş onların məsləhətinə olsa, eybi yoxdur. Həmçinin uşağın, qəyyumunun icazəsi ilə öz malının, məsləhəti olan yerlərdə ariyəyə verməsi caizdir. Habelə, müfəlləs[33] borclu olduğu şəxslərin icazəsi ilə öz malını ariyəyə verə bilər.

**M:2417.** Əgər ariyə etdiyi şeyi saxlamaqda səhlənkarlıq, ondan istifadə etməkdə həddi aşmasa və təsadüfən tələf olsa, zamin deyil. Amma əgər tələf olarsa zamin olmasını şərt etsələr, yaxud ariyə etdiyi şey qızıl və gümüş olsa, əvəzini verməlidir.

**M:2418.** Əgər qızıl və gümüşü ariyə edib tələf olduğu surətdə zamin olmayacağını da şərt etsə, bu halda tələf olsa, zamin deyil.

**M:2419.** Əgər malı ariyə verən ölsə ariyə alan şəxs aldığı şeyi onun vərəsələrinə verməlidir.

**M:2420.** Əgər ariyə verən şəxsin şər'ən öz malında təsərrüf etməyə haqqı olmasa (məsələn, dəli olsa) ariyə edən malı onun qəyyumuna verməlidir.

**M:2421.** Bir şeyi ariyə verən bir şəxs hər vaxt istəsə, geri ala bilər. Ariyə edən şəxs də hər vaxt istəsə, onu qaytara bilər. Birinci halda geri almaq camaat arasında ariyə alana xəsarət hesab edilərsə, ehtiyat-vacibə görə ona möhlət verilməlidir.

**M:2422.** Halal istifadəsi olmayan şeyləri, məsələn, musiqi, qumar alətlərini, yaxud istifadə olunması səbəbilə haram olan qızıl və gümüş qabları ariyə

---

[33]Müfəlləs–borcları mal-dövlətindən çox olan şəxsə deyilir. əgər cameüş-şərait müctehid onu, öz malında təsərrüf etməsini qadağan etsə, ona müflis deyilir.

vermək batildir. Əgər (qızıl-gümüşü) ariyə vermək zinət məqsədilə olsa, caizdir. Lakin, ehtiyat, onu tərk etməkdir.

**M:2423.** Qoyunun südündən, yunundan istifadə etmək, dişi heyvanları mayalandırmaq üçün erkək heyvanı ariyə vermək, səhihdir. Habelə başqa heyvanları şər'i mənfəət almaq üçün ariyə verməyin eybi yoxdur.

**M:2424.** Əgər ariyə etdiyi şeyi onun sahibinə, qəyyumuna, yaxud ümumi halda bütün işlərdə vəkalət haqqı olan vəkilinə və ya yalnız ariyə işlərinə məxsus vəkaləti olan vəkilinə verəndən sonra tələf olsa ariyəyə götürən zamin deyil. Amma əgər malın sahibinin, yaxud vəkilinin, qəyyumunun icazəsi olmadan müəyyən bir yerə aparsa–hətta sahibinin də adəti həmin yerə aparmaq idisə, (məsələn, avtomobili, adətən sahibinin park etdiyi yerdə park etsə)–sonradan tələf olsa, yaxud bir kəs onu tələf etsə və ya oğurlansa, zamindir.

**M:2425.** Əgər nəcis bir şeyi, istifadəsində paklığı şərt olan bir iş üçün (məsələn, nəcis qabı xörək yemək üçün) ariyə versə nəcis olmasını ariyə alana deməlidir. Amma əgər nəcis paltarı namaz qılmaq üçün ariyə versə nəcis olmasını xəbər verməsi lazım (ilzami) deyil.

**M:2426.** Bir kəs ariyə etdiyi şeyi sahibinin icazəsi olmadan başqasına icarəyə, yaxud ariyəyə verə bilməz.

**M:2427.** Əgər ariyəyə aldığı şeyi sahibinin icazəsi ilə başqasına ariyəyə versə və birinci ariyə edən şəxs ölsə, yaxud dəli olsa, ikinci ariyə batil olmur.

**M:2428.** Əgər ariyə etdiyi malın qəsbi olduğunu bilsə, sahibinə qaytarmalıdır: ariyə aldığı şəxsə verə bilməz.

**M:2429.** Əgər qəsbi olmasını bildiyi malı ariyə edib müəyyən qədər istifadə etsə və onun əlində tələf olub aradan getsə, sahibi onun əvəzini, habelə ariyə edən şəxsin istifadə etdiyi qədərin hesabını ondan, yaxud malı qəsb edən şəxsdən tələb edə bilər. Əgər ariyə edəndən alsa, o, sahibinə verdiyi şeyi ariyə verəndən ala bilməz.

**M:2430.** Əgər ariyəyə aldığı malın qəsbi olmasını bilməsə və onun əlində tələf olsa, bu halda malın sahibi onun əvəzini alsa, o da malın sahibinə verdiyi şeyi ariyə verən şəxsdən tələb edə bilər. Amma əgər ariyə aldığı şey qızıl və gümüş olsa, yaxud ariyə verən, onunla malın aradan getdiyi halda əvəzini verməsini şərt etsə, malın sahibinə verdiyi şeyi ariyə verəndən tələb edə bilməz.

## NİKAHIN HÖKMLƏRİ

Nikah əqdi vasitəsilə qadın kişiyə halal olur. O iki qismdir: daimi və qeyri-daimi. Daimi əqd budur ki, onda evlənmənin müddəti müəyyən olunmasın. Bu cür əqd olunan qadına "daimə" deyilir. Qeyri-daimi əqd budur ki, onda evlənmənin müddəti müəyyən olunsun. (Məsələn, qadını bir saatlığa, bir günlüyə, bir aylığa, bir illiyə, yaxud daha artıq əqd etsələr.) Bu qayda ilə əqd oxunan qadına "müt'ə" və "siyğə" deyilir.

### *ƏQDİN HÖKMLƏRİ*

**M:2431.** İstər daimi, istərsə də qeyri-daimi nikahda siyğə oxunmalıdır. Qadın və kişinin təkcə razılıqları kifayət deyil. Əqd siyğəsini ya qadınla kişinin özü oxumalı, ya da əqdi oxumaq üçün başqasını öz tərəflərindən vəkil etməlidirlər.

**M:2432.** Vəkilin kişi olması lazım (ilzami) deyil; qadın da əqd siyğəsini oxumaq üçün başqasının tərəfindən vəkil ola bilər.

**M:2433.** Qadın və kişi onların vəkillərinin siyğəni oxumasını yəqin etməyincə bir-birinə məhrəm baxışı ilə baxa bilməzlər. Vəkilin siyğəni oxumasını güman etmələri kifayət deyil. Amma əgər vəkil "siyğəni oxumuşam" desə, kifayətdir.

**M:2434.** Əgər bir qadın müəyyən bir şəxsi, onu 10 gün müddətində bir nəfərin əqdinə keçirməsini vəkil edib 10 günün əvvəlini tə'yin etməsə, bu halda qadının sözündən vəkilə tam ixtiyar verməsi mə'lum olarsa, vəkil hər vaxt istəsə, onu kişinin 10 günlük əqdinə keçirə bilər. Əgər qadının müəyyən günü, yaxud saatı nəzərdə tutması mə'lum olsa siyğəni onun məqsədinə uyğun oxumalıdır.

**M:2435.** Bir nəfər daimi, yaxud qeyri-daimi nikah əqdini oxumaq üçün iki nəfərin tərəfindən vəkil ola bilər. Həmçinin insan qadının tərəfindən vəkil olub onu öz daimi və ya qeyri-daimi nikah əqdinə keçirə bilər. Amma ehtiyat-müstəhəb budur ki, əqdi iki nəfər oxusun.

### *DAİMİ ƏQDİN OXUNMA QAYDASI*

**M:2436.** Əgər daimi əqd siğəsini qadın və kişinin özü oxusa, bu halda qadın əvvəldə

زَوَّجتُكَ نَفسِى عَلَى الصَّدَاقِ المَعلُومِ

Zəvvəctukə nəfsi 'ələs-sədaqil-mə'lum - (yə'ni, özümü müəyyən olunmuş mehr müqabilində sənə arvad etdim), ondan sonra kişi zaman fasiləsi olmadan

قَبِلتُ التَّزوِيجَ

Qəbiltut-təzvicə - (yə’ni, bu izdivacı qəbul etdim) desə, əqd səhihdir. Əgər başqasını onların tərəfindən daimi əqd siyğəsini oxumaq üçün vəkil etsələr bu halda kişinin adı Əhməd, qadının adı Fatimə olsa, bu halda qadının vəkili

زَوَّجتُ مُوَكِّلَتِی فاطِمَةَ مُوَكِّلَكَ اَحمَدَ عَلَی الصَّداقِ المَعلُومِ

(Zəvvəctukə muvəkkiləti Fatimətə muvəkkiləkə Əhmədə ələs-sədaqil-mə’lum)

Sonra isə kişinin vəkili fasilə olmadan

قَبِلتُ لِمُوَكِّلی اَحمَدَ عَلَی الصَّداقِ

(Qəbiltu limuvəkkili Əhmədə ələs-sədaq)

desə, səhihdir.

## *QEYRİ-DAİMİ ƏQDİN OXUNMA QAYDASI*

**M:2437.** Əgər qadın və kişinin özü qeyri-daimi siyğə əqdini oxumaq istəsələr, müddəti və mehriyyəsi müəyyən olunduqdan sonra qadın

زَوَّجتُكَ نَفسِي فِی المُدَّةِ المَعلُومَةِ عَلَی المَهرِ المَعلُومِ

(Zəvvəctukə nəfsi fil muddətil-mə’luməti ələl-məhril-mə’lum)

sonra isə kişi, zaman fasiləsi olmadan

قَبِلتُ

(Qəbiltu)

desə, səhihdir. Əgər başqasını vəkil etsələr, əvvəlcə qadının vəkili kişinin vəkilinə

مَتَّعتُ لِمُوَكِّلَتِی مُوَكِّلَكَ فِی المُدَّةِ المَعلُومَةِ عَلَی المَهرِ المَعلُومِ

(Məttətu limuvəkkiləti muvəkkiləkə fil-muddətil-mə’luməti ələl-məhril-mə’lum)

sonra zaman fasiləsi olmadan kişinin vəkili

قَبِلتُ لِمُوَكِّلی هَكَذاَ

(Qəbiltu limuvəkkili hakəza)

desə, səhihdir.

## *ƏQDİN ŞƏRTLƏRİ*

**M:2438.** İzdivac əqdinin bir neçə şərti vardır:

**1-**Ərəbcə səhih oxunsun. Əgər qadın və kişinin özü siyğəni ərəbcə səhih oxuya bilməsələr, mümkün olan halda ehtiyat-vacib budur ki, ərəbcə səhih oxuya bilən şəxsi vəkil etsinlər. Əgər bu da mümkün olmasa özləri (ərəbcə olmayan) başqa dildə deyə bilərlər. Amma elə deməlidirlər ki, “zəvvəctu” və “qəbiltu” sözlərinin mə’nasını çatdırsın.

**2-**Kişi və qadın, yaxud əqd siyğəsini onların tərəfindən oxuyan vəkilin inşa qəsdi olsun. Yə’ni, əgər kişi və qadının özü siyğəni oxuyurlarsa, qadının “zəvvəctukə nəfsi” deməklə məqsədi, özünü o kişinin arvadı etmək olsun. Kişi

də “qəbiltut-təzvicə” deməklə onun arvad olmasını qəbul etsin. Əgər kişi və qadının vəkili siyğəni oxuyarsa, “zəvvəctu” və “qəbiltu” kəlmələrini deməklə məqsədləri bu olmalıdır ki, tərəfindən vəkil olunduğu qadın və kişini bir-birinə ər-arvad etsinlər.

**3-**Əqd siyğəsini oxuyan şəxs baliğ və aqil olmalıdır–istər özü üçün oxusun, istərsə də başqasının tərəfindən vəkil olsun.

**4-**Qadın və ya kişinin vəkili, yaxud qəyyumları əqd siyğəsini oxuyanda ər arvadı müəyyən etməlidir. Məsələn, adlarını deməli, yaxud onlara işarə etməlidir. Deməli bir neçə qızı olan bir şəxs bir kişiyə “zəvvəctukə ehda bənati” (yə’ni, qızlarımdan birini sənin arvadın etdim) və o da “qəbiltu” (yə’ni, qəbul etdim) desə, əqd oxunan vaxtda qızlardan hansını deməsi mə’lum olmadığından, əqd batildir.

**5-**Qadın və kişi evlənməyə razı olsunlar. Amma əgər qadın zahirdə ikrah üzündən icazə versə, amma qəlbən razı olduğu mə’lum olarsa, əqd səhihdir.

**M:2439.** Əgər əqddə bir hərfi səhv oxusalar və onun mə’nası dəyişsə, əqd batildir.

**M:2440.** Ərəb dilinin qrammatikasını bilməyən bir kəsin qiraəti səhih olsa və əqd kəlmələrindən hər birinin mə’nasını ayrı-ayrılıqda bilsə, məqsədi də inşa olsa və hər kəlməni deyəndə mə’nasını da qəsd etsə, əqd oxuya bilər.

**M:2441.** Əgər bir qadını bir kişinin əqdinə, onların icazəsi olmadan keçirsələr və sonradan qadın və kişi “bu əqdə razıyıq” desələr, səhihdir.

**M:2442.** Əgər qadın və kişini, yaxud ikisinin birini evlənməyə məcbur etsələr və əqd oxunandan sonra razılaşıb “o əqdə razıyıq” desələr, əqd səhihdir.

**M:2443.** Ata və (ata tərəfindən olan) baba həddi-büluğa çatmayan və ya dəlilik halında həddi-büluğa çatan dəli qız və oğlunu evləndirə bilərlər. Uşaq həddi-büluğa çatandan, dəli ağıllanandan sonra onun üçün edilən izdivacın məfsədəsi (zərəri, fəsadı) olmasa, onu poza bilməzlər. Amma əgər məfsədəsi olsa, yaxud məsləhəti olmasa əqd füzulidir[34]: onu həm təsdiqləyə, həm də poza bilərlər.

**M:2444.** Həddi-büluğa çatan rəşidə (yə’ni, öz mənafe və məsləhətini dərk edən) bir qız ərə getmək istəsə, bu halda bakirədirsə, ehtiyat-vacibə görə atasından, yaxud (ata tərəfindən olan) babasından icazə almalıdır. Anasının və qardaşının icazəsi lazım (ilzami) deyil.

**M:2445.** Əgər ata, yaxud (ata tərəfindən olan) baba qaib (başqa yerdə) olsa və onlardan icazə almaq mümkün olmasa, qız da ərə getməyə ehtiyac duysa, bu halda atadan, yaxud ata tərəfindən olan babadan icazə alması lazım (ilzami) deyil. Həmçinin əgər qız üçün münasib ər tapılsa və camaat arasında və şər’ən

---

[34]Səhihliyi sonrakı razılıqla şərtlənən müamilə, yaxud əqddir.

onunla tay olan oğlan ilə izdivac etmək istəsə, atası, yaxud ata babası mane olsalar, təzyiq göstərsələr, bu halda da onların icazəsi lazım (ilzami) deyil. Habelə, qız bakirə olmasa və bakirəliyi ərə getmək səbəbilə aradan getsə, ata və babasının icazəsi lazım (ilzami) deyil.

**M:2446.** Əgər ata, yaxud (ata tərəfindən olan) baba öz həddi-büluğa çatmamış oğlu (nəvəsi) üçün arvad alsa oğlan həddi-büluğa çatandan sonra onun xərclərini verməlidir.

**M:2447.** Əgər ata, yaxud (ata tərəfindən olan) baba öz həddi-büluğa çatmamış oğlu (nəvəsi) üçün arvad alsa və oğlanın əqd oxunan vaxtda mal-dövləti olsa, qadının mehriyyəsini ona borclu olur. Əqd vaxtında heç nəyi olmasa, onda atası, yaxud (ata tərəfindən olan) babası qadının mehriyyəsini verməlidir.

### *ƏQDİ POZMAĞIN MÜMKÜN OLDUĞU EYBLƏR*

**M:2448.** Əgər kişi əqd oxunandan sonra qadında aşağıdakı yeddi eybdən biri olduğunu bilsə, əqdi poza bilər (bu şərtlə ki, həmin eybin əqddən qabaq mövcud olduğu mə'lum olsun):

**1-**Dəlilik; **2-**Xora xəstəliyi; **3-**Bərəs (alaca) xəstəliyi; **4-**Korluq; **5-**Zarıncı olmaq; həmçinin şil olması və şilliyinin aşkar olması da bu hökmdədir; **6-**Bovl və heyzin, yaxud heyzlə qaitin yolu bir olsa (amma əgər heyzlə qait yolu bir olsa əqdi pozmağın işkalı vardır, gərək ehtiyat olunsun); **7-**Qadının fərcində (cinsiyyət üzvündə) yaxınlıq etməyə mane olan artıq ət, sümük, vəz olarsa.

**M:2449.** Qadın da dörd halda əqdi poza bilər:

**1-**Əri dəli olsa; (əgər qadın əqd oxunandan sonra ərinin, əqddən qabaq dəli oluduğunu bilsə, habelə əqddən sonra–istər yaxınlıq etməkdən qabaq olsun, istərsə də sonra–dəli olarsa); **2-**Ərinin kişilik aləti olmazsa; əgər qadın əqd oxunandan sonra ərinin əvvəlcədən aləti olmadığını bilsə, yaxud əqddən sonra və yaxınlıq etməmişdən qabaq aləti kəsilmiş olsa əqdi poza bilər; **3-**Cinsi əlaqəyə bacarığı olmasa; Əgər qadın əqd oxunandan sonra ərinin yaxınlıq edə bilməməsini (xəstəlik səbəbilə) bilsə, hətta o xəstəlik əqddən sonra və yaxınlıqdan qabaq yaranmış olsa da, əqdi poza bilər; **4-**Kişinin yumurtaları çıxarılmış olsa. Əgər qadın əqd oxunandan sonra ərinin yumurtalarının çıxarıldığını bilsə, əqdi poza bilər.

Üçüncü şərt istisna olmaqla, bu dörd halın hamısında qadın, təlaqsız əqdi poza bilər. Üçüncü halda isə qadının cameüş-şərait müctehidə, yaxud onun vəkilinə müraciət etməsi lazımdır. Cameüş-şərait müctehid onun ərinə bir il möhlət verməlidir. Əgər bu müddətdə o qadınla və ya başqa qadınla yaxınlıq edə bilməsə ondan sonra qadın əqdi poza bilər. Əgər kişinin aləti yaxınlıq edəndən sonra kəsilsə və qadın izdivac əqdini fəsx etsə, fəsxin tə'siri yoxdur. Amma ehtiyat-müstəhəb budur ki, əri ona təlaq versin.

**M:2450.** Əgər qadın və ya kişi, əvvəlki iki məsələdə deyilən eyblər səbəbilə əqdi pozsalar, təlaq verilmədən ayrılmalıdırlar.

**M:2451.** Əgər kişi (ənin) xəstəlik səbəbilə yaxınlıq edə bilməsə və qadın da əqdi pozsa ər mehriyyənin yarısını verməlidir. Amma əgər deyilən sair eyblər səbəbilə qadın və ya kişi əqdi pozsa, bu halda kişi qadınla yaxınlıq etməmiş olsa heç nə verməməlidir. Əgər yaxınlıq etmiş olsa, mehriyyənin hamısını verməlidir.

### *EVLƏNMƏK HARAM OLAN QADINLAR*

**M:2452.** İnsana məhrəm olan qadınlarla (ana, bacı, qaynana və s.) evlənmək haramdır.

**M:2453.** Əgər bir kəs bir qadını öz əqdinə keçirtsə, hətta onunla yaxınlıq etməsə də, o qadının anası, nənəsi, atasının anası və nə qədər yuxarı getsə (yə'ni nənəsinin anası, nənəsinin nənəsi və s.) o kişi ilə məhrəm olurlar.

**M:2454.** Əgər bir qadını öz əqdinə keçirdib yaxınlıq etsə o qadının (əvvəlki ərindən olan) qızı, qız nəvəsi, oğlan nəvəsi, nə qədər aşağı getsə də–istər əqd vaxtında olsunlar, istərsə də əqddən sonra dünyaya gəlsinlər–o kişiyə məhrəmdir.

**M:2455.** Əgər öz əqdinə keçirtdiyi qadın ilə yaxınlıq etməsə də nə qədər ki, o qadın onun əqdindədir o qadının (əvvəlki ərindən olan) qızı ilə evlənə bilməz.

**M:2456.** İnsanın atasının, babasının, anasının, nənəsinin xala və bibiləri–nə qədər yuxarı getsə də–ona məhrəmdir.

**M:2457.** Ərin atası və babası–nə qədər yuxarı getsə də; onun oğlu, oğul nəvəsi və qız nəvəsi–nə qədər aşağı getsə də istər əqd vaxtında, istərsə də sonradan dünyaya gəlmiş olsunlar, onun arvadına məhrəmdirlər.

**M:2458.** Əgər bir qadını özü əqdinə keçirsə–istər daimi olsun, istərsə də siyğə–nə qədər ki, o qadın onun əqdindədir, onun bacısı ilə evlənə bilməz.

**M:2459.** Əgər kişi öz arvadına təlaq kitablarında deyilən ardıcıllıqla ric'i təlaq versə, iddə əsnasında onun bacısını öz əqdinə keçirdə bilməz. Hətta bain təlaq iddəsində də (sonradan deyiləcək) ehtiyat-müstəhəb budur ki, arvadının bacısı ilə evlənməsin.

**M:2460.** Bir kəs öz arvadının icazəsi olmadan onun bacısının və ya qardaşının qızı ilə evlənə bilməz. Amma əgər arvadının icazəsi olmadan onları öz əqdinə keçirtsə və sonradan arvadı o əqdə razı olduğunu bildirsə eybi yoxdur.

**M:2461.** Əgər qadın ərinin onun qardaşının və ya bacısının qızını öz əqdinə keçirtdiyini bilsə və sükut edib sonradan razılıq verməsə onların əqdi batildir. Hətta əgər onun sükut etməsindən qəlbən razı olduğu mə'lum olarsa, ehtiyat-vacib budur ki, əri onun qardaşı və ya bacısının qızından ayrılsın. Amma icazə versə, saxlaya bilər.

**M:2462.** Müsəlman qadın kafir kişi ilə evlənə bilməz. Həmçinin müsəlman kişi də kafir qadınlarla daimi əqd əsasında evlənə bilməz. Amma kitab əhlinin qadınları ilə (yəhudi, məsihi) siyğə etməyin maneəsi yoxdur.

**M:2463.** Əgər insan öz bibisinin, yaxud xalasının qızı ilə evlənməmişdən qabaq onların anası ilə zina etsə[35] daha onlarla evlənə bilməz.

**M:2464.** Əgər bir kəs öz bibisinin, yaxud xalasının qızı ilə evlənib yaxınlıq etməzdən qabaq onların anası ilə zina etsə, ehtiyat-vacib budur ki, onlardan ayrılsın.

**M:2465.** Əgər öz xalası və bibisindən başqa bir qadınla zina etsə, ehtiyat-vacib budur ki, onun qızı ilə evlənməsin. Amma əgər bir qadını öz əqdinə keçirdib onunla yaxınlıq edəndən sonra onun anası ilə zina etsə, o qadın o kişiyə haram olmur. Amma onunla yaxınlıq etməmişdən qabaq onun anası ilə zina etsə, ehtiyat-vacib budur ki, o qadından ayrılsın.

**M:2466.** Əgər bir kəs ric'i təlaq iddəsində olan bir qadınla zina etsə, o qadın (sonradan evlənmək üçün) ona haram olmur. Amma müt'ə iddəsində, yaxud bain təlaqında, yaxud da vəfat iddəsində bir qadınla zina etsə, sonradan onu öz əqdinə keçirdə bilər. (Ric'i və bain təlaq, müt'ə və vəfat iddəsi təlaqın hökmlərində deyiləcək.)

**M:2467.** Əgər bir kəs iddədə olmayan ərsiz qadınla zina etsə, sonradan onu öz əqdinə keçirdə bilər. Amma ehtiyat-müstəhəb budur ki, o qadın heyz görənə qədər gözləyib sonra onu öz əqdinə keçirtsin. Başqa bir kəs də o qadınla evlənmək istəsə, eyni ilə.

**M:2468.** Əgər bir kəs başqasının iddəsində olan bir qadını öz əqdinə keçirtsə, bu halda kişi və arvadın hər ikisi, yaxud onlardan biri qadının iddəsinin tamam olmadığını, habelə iddədə olan qadını əqdə keçirtməyin haram olduğunu bilsə– hətta kişi əqddən sonra onunla yaxınlıq etməsə də, o qadın o kişiyə haram olur.

**M:2469.** Əgər bir qadını öz əqdinə keçirtsə və sonra iddədə olması mə'lum olsa, bu halda heç biri qadının iddədə olmasını, yaxud qadını iddədə əqdə keçirtməyin haram olduğunu bilməsələr, kişinin onunla yaxınlıq etdiyi halda arvad ona haram olur.

**M:2470.** Əgər insan bir qadının ərli olduğunu bilib onunla evlənsə, gərək ondan ayrılsın. Və sonralar da onu öz əqdinə keçirtməsin.

**M:2471.** Əri olan bir qadın zina etsə, öz ərinə haram olmur. Əgər tövbə etməsə, öz əməlində qalıb zinakar ləqəbi ilə məhşur olsa, ehtiyat-vacib budur ki, əri ona təlaq versin. Amma mehriyyəsini verməlidir.

**M:2472.** Təlaq verilən, habelə siyğə olandan sonra ərinin müddətini ona bağışlayan, yaxud siyğə müddəti tamam olan bir qadın bir müddətdən sonra ərə

---

[35]Bu cür qəbahətli işlərin cəzası "hüdud" bölməsində bəhs edilir və kəbirə günahdır, amma əgər bir kəs bu işə mürtəkib olsa, söhbət onun cəzasından deyil, hazırkı vəzifələrindən gedir.

gedib sonra ikinci ərinin əqdinin vaxtında birinci ərinin iddəsinin tamam olub-olmamasında şəkk etsə, öz şəkkinə e'tina etməməlidir.

**M:2473.** Livat verən oğlanın anası, bacısı və qızı livat edən şəxsə haramdır, ancaq livat edən şəxs həddi-büluğa çatmamış olsa, haram olmalarını hökm etmək müşküldür. Amma əgər duxul olub-olmamasında şəkk etsə, ona haram deyil.

**M:2474.** Əgər bir şəxs başqasının anası, bacısı, yaxud qızı ilə evlənib izdivac və duxuldan sonra o kəslə livat etsə, arvadı ona haram olmur. Amma əgər əqddən sonra və duxuldan qabaq livat etsə ehtiyat-vacibə görə o qadın ona haram olur.

**M:2475.** Əgər bir kəs həcc və ömrənin rüknlərindən biri olan ehram halında bir qadın ilə evlənsə onun əqdi batildir. (Əgər həmin halda) qadınla evlənməyin haram olduğunu bilirdisə, həmin qadınla evlənə bilməz.

**M:2476.** Əgər ehram halında olan bir qadın ehram halında olmayan bir kişi ilə evlənsə, onun əqdi batildir. Əgər qadın ehram halında izdivacın haram olduğunu bilsə, vacibdir ki, sonradan o kişi ilə evlənməsin.

**M:2477.** Əgər kişi Həccin ərkanlarından biri olan “Nisa' təvafını yerinə yetirməsə, ehram bağlamaq səbəbilə ona haram olan arvadı halal olmur. Həmçinin qadın da “Nisa' təvafını etməsə, əri ona halal olmur. Amma əgər sonradan “Nisa' təvafını yerinə yetirsələr, bir-birinə halal olurlar.

**M:2478.** Əgər bir kəs həddi-büluğa çatmamış qızı öz əqdinə keçirdib 9 yaşı tamam olmamışdan qabaq onunla yaxınlıq və duxul etsə, bu halda ona ifza etsə, gərək heç vaxt onunla yaxınlıq etməməlidir.

**M:2479.** Üç dəfə təlaq verilən qadın ərinə haram olur. Amma əgər təlaq kitabında deyilən şərtlərlə başqa kişi ilə evlənsə, birinci əri onu (boşanandan sonra) yenidən öz əqdinə keçirdə bilər.

## *DAİMİ ƏQDİN HÖKMLƏRİ*

**M:2480.** Daimi əqddə olan qadın ərinin icazəsi olmadan evdən çölə çıxa bilməz. O, özünü ərinin istədiyi hər bir ləzzət üçün təslim etməli, şər'i üzrü olmadan yaxınlıq etməsinə mane olmamalıdır. Əgər bu işlərdə ərinə itaət etsə, yemək, geyim, mənzil və kitablarda qeyd olunan sair şeyləri tədarük görməsi ərinə vacibdir. Əgər əri tədarük görməsə–istər bacarığı çatsın, istərsə də çatmasın–qadına borcludur.

**M:2481.** Əgər qadın qabaqkı məsələdə deyildiyi işlərdə ərinə itaət etməsə günahkardır, yemək, geyim, mənzil və bir yerdə yatmaq haqqı yoxdur. Lakin mehriyyə haqqı aradan getmir.

**M:2482.** Kişinin öz arvadını evdə xidmətçilik etməyə məcbur etmək haqqı yoxdur.

**M:2383.** Əgər qadının səfər xərcləri vətən (evdəki) xərclərindən çox olsa, ərinin öhdəsinə deyil. Amma əgər əri onu səfərə aparmaq istəsə, səfər xərclərini verməlidir.

**M:2484.** Ərinə itaət edən qadın xərclərini tələb etsə, amma əri verməsə, ərini nəfəqəni verməyə işlərinə məcbur etmək üçün cameüş-şərait müctehidə, əgər o da mümkün olmasa, mö'minlər içərisində ədalətli olan şəxslərə, bu da mümkün olmasa mö'minlərin fasiqlərinə müraciət edə bilər. Əgər ərini nəfəqə verməyə məcbur etmək mümkün olmasa, hər gün, o günün xərcləri qədərində icazəsiz ərinin malından götürə bilər. Bu da mümkün olmasa və öz məişətini tə'min etməyə məcbur olsa, məişət şeylərini hazırlamağa məşğul ikən ərinə itaət etməsi vacib deyil.

**M:2485.** Bir kişinin iki arvadı olsa və onların hər birinin yanında bir gecə qalsa, dörd gün ərzində bir gecə də o birisinin yanında qalması vacibdir. Bundan qeyri hallarda qadının yanında qalmaq vacib deyildir. Bəli, lazımdır ki, onun ümumi halda tərk etməsin. Ovla[36] və əhvət budur ki, kişi hər dörd gecədən birini öz daimi arvadının yanında olsun.

**M:2486.** Ər dörd aydan çox öz daimi əyalı ilə yaxınlıq etməyi tərk edə bilməz.

**M:2487.** Əgər daimi əqddə mehriyyəni müəyyən etməsələr, əqd səhihdir. Əgər kişi arvadı ilə yaxınlıq etsə, onun mehriyyəsini, onun mislində olan qadınların mehriyyəsinə uyğun verməlidir.

**M:2488.** Əgər daimi əqd oxunan vaxt mehriyyəni vermək üçün vaxt tə'yin etməsələr qadın mehriyyəni almamışdan qabaq ərinin yaxınlıq etməsinə mane ola bilər–istər ərinin mehriyyəni verməyə qüdrəti olsun, istərsə də olmasın. Amma əgər mehriyyəni almamışdan qabaq yaxınlıq etməyə razı olsa və əri də onunla yaxınlıq etsə, şər'i üzr olmadan ərinin yaxınlıq etməsinə mane ola bilməz.

### *MÜT'Ə, YAXUD SİYĞƏ*

**M:2489.** Qadını siyğə etmək–hətta ləzzət almaq üçün olmasa da, səhihdir.

**M:2490.** Ər siyğə etdiyi arvadını dörd aydan artıq tərk etməməlidir.

**M:2491.** Siyğə olunan qadın, əqddə ərinin onunla yaxınlıq etməməsini şərt etsə, əqd və şərt səhihdir. Əri də ondan sair ləzzətlər ala bilər. Amma əgər sonradan yaxınlıq etməyə razı olsa, əri onunla yaxınlıq edə bilər.

**M:2492.** Siyğə olunan qadın hətta hamilə olsa da xərcliyini ərindən almaq haqqı yoxdur.

**M:2493.** Siyğə olunan qadının əri ilə bir yerdə yatmaq (yaşamaq) haqqı yoxdur; o ərindən, əri də ondan irs aparmır.

---

[36]Daha yaxşı

**M:2494.** Siyğə olunan qadın xərclik və bir yerdə yatmaq haqqı olmadığını bilməsə, əqdi səhihdir. Və bu işi bilmədiyi üçün ərinin boynuna bir haqq gəlmir.

**M:2495.** Siyğə olunan qadın ərinin icazəsi olmadan evdən çölə çıxa bilər, lakin əgər çölə çıxmaq səbəbilə ərinin haqqı aradan gedərsə çölə çıxması haramdır.

**M:2496.** Əgər qadın bir kişini, müəyyən müddət və məbləğ əsasında onu özü üçün siyğə etməyə vəkil etsə bu halda kişi onu daimi əqdinə keçirtsə, yaxud müəyyən olunan məbləğdən və ya müddətdən başqa məbləğ və müddətə siyğə etsə, sonra qadın başa düşüb razı olduğunu bildirsə, əqdi səhih, əks halda isə (razı olmasa) batildir.

**M:2497.** Ata və (ata tərəfdən olan) baba məhrəm olmaq üçün bir və bir neçə saatlığa bir qadını özünün həddi-büluğa çatmamış oğlunun əqdinə keçirdə bilər. Həmçinin öz həddi-büluğa çatmamış qızını, məhrəm olmaq üçün bir kəsin əqdinə keçirdə bilər. Amma gərək bu əqdin qız üçün məfsədəsi deyil, əksinə məsləhəti olsun.

**M:2498.** Əgər ata, yaxud (ata tərəfdən olan) baba özünün başqa yerdə ola və diri olub-olmamadığını bilmədiyi uşağının məhrəm olması üçün bir kəsin əqdinə keçirtsə, zahirən məhrəmlik hasil olur. Əgər sonradan, əqd oxunan vaxt qızın diri olmadığı mə’lum olsa, əqd batildir, zahirdə əqd vasitəsilə məhrəm olanlar isə naməhrəmdirlər.

**M:2499.** Əgər kişi siyğə müddətini (qadına) bağışlasa, bu halda o qadınla yaxınlıq etmiş olsa qərara alınan şeyin hamısını; əgər yaxınlıq etməyibsə yarısını verməlidir.

**M:2500.** Kişi öz siyğə arvadı olan və hələ iddəsi tamam olmayan qadını özünün daimi, yaxud müvəqqəti əqdinə keçirdə bilər.

### *BAXMAĞIN HÖKMLƏRİ*

**M:2501.** Kişinin naməhrəm qadının bədəninə baxması–istər ləzzət məqsədi ilə olsun, istərsə də ləzzət məqsədi olmadan–haramdır. Üzünə və əllərinə baxmaq ləzzət qəsdi ilə olarsa haram, ləzzət qəsdi ilə olmazsa eybi yoxdur. Amma əhvət budur ki, ondan da ictinab olunsun. Həmçinin qadının naməhrəm kişinin bədəninə baxması–istər ləzzət qəsdi ilə olsun, istərsə də olmasın–haramdır. Həddi-büluğa çatmamış qızın üzünə, əllərinə, tüklərinə baxmaq ləzzət məqsədi ilə olmasa və şəhvət qüvvəsinin həyəcanlanmasına səbəb olmasa, habelə baxmaqla harama düşməsindən qorxmasa, eybi yoxdur.

**M:2502.** Əgər insan kafir qadınların bədənlərini adətən örtmədiyi yerlərə ləzzət qəsdi olmadan baxsa, harama düşəcəyindən qorxmayacağı halda eybi yoxdur.

**M:2503.** Qadın gərək öz bədənini, tüklərini naməhrəm kişidən örtsün. Hətta ehtiyat-vacib budur ki, öz bədən və tüklərini həddi-büluğa çatmayan, amma

yaxşını-pisi başa düşən və şəhvət hislərinin oyanma həddində olan oğlan uşağından da örtsün.

**M:2504.** Başqasının ovrətinə baxmaq–hətta şüşənin arxasından, yaxud aynada, saf suda və s. kimi şeylərdə olsa da, haramdır. Ehtiyat-vacib budur ki, müməyyiz uşağın da ovrətinə baxmasınlar. Amma ər-arvad bir-birinin bədəninin hər yerinə baxa bilərlər.

**M:2505.** Bir-birinə məhrəm olan qadın və kişi ləzzət qəsdi olmasa, ovrəti istisna olmaqla, bir-birinin bədəninin hər yerinə baxa bilərlər.

**M:2506.** Kişi ləzzət məqsədi ilə başqa kişinin bədəninə baxmamalıdır. Həmçinin qadının ləzzət qəsdi ilə başqa qadının bədəninə baxması haramdır.

**M:2507.** Əgər kişi naməhrəm qadını müalicə etmək üçün baxmağa, yaxud əlini onun bədəninə vurmağa məcbur olsa eybi yoxdur. Amma əgər baxmaqla, nəzər salmaqla müalicə edə bilərsə əlini vurmamalı; əl vurmaqla müalicə edə bilərsə, baxmamalıdır.

**M:2508.** Əgər insan bir kəsin müalicə etmək üçün onun ovrətinə baxmağa məcbur olsa gərək güzgünü onun qarşısına qoyub onda baxsın. Lakin əgər ovrətə baxmaqdan başqa çarəsi olmasa eybi yoxdur.

## *EVLƏNMƏNİN MÜXTƏLİF MƏSƏLƏLƏRİ*

**M2509.** Əgər bir kəs evlənməmək səbəbi ilə harama düşürsə, evlənməsi vacibdir. Və bu vacib olma haramın qarşısını almaq səbəbilədir; belə ki, əgər harama düşəcəyini yəqin etsə evlənməsi vacibdir.

**M:2510** Əgər ər əqddə qadının bakirə olmasını şərt etsə və əqdən sonra bakirə olmaması mə’lum olsa əqdi poza bilər. Həmçinin, əgər tələffüzdə bakirəliyi şərt etməsə, lakin camaat arasında əqd bakirəlik əsasında olsa bu qayda ilə (poza bilər).

**M:2511.** Naməhrəm kişi və qadının heç kəsin daxil olmadığı xəlvət bir yerdə qalmaları fəsad ehtimalı verilən halda haramdır. Amma başqa üçüncü bir şəxsin daxil olması mümkün olsa, yaxud yaxşını-pisi başa düşən uşaq orda olsa və ya fəsad ehtimalı verilməsə, eybi yoxdur.

**M:2512.** Əgər kişi qadının mehriyyəsini əqddə müəyyən etsə və məqsədi də onu verməmək olsa, əqd səhihdir. Amma gərək mehriyəni versin.

**M:2513.** Allahı, Peyğəmbəri (s) inkar edən, habelə dinin zəruri hökmlərini (yə’ni müsəlmanların İslam dininin zəruriyyatının bir hissəsi hesab etdikləri hökmləri), məsələn namaz-orucun vacibliyini inkar edən və bu hökmün inkar olunması Allahın və Peyğəmbər (s)-in inkar olunmasına qayıtsa, şəxs də bu

hökmün dinin zəruriyyatından olduğunu bilsə mürtəd olur. Həmçinin əgər məadı inkar etsə, yaxud xəvaric, nəvasib və ğülatdardan[37] da olsa, mürtəddir.

**M:2514.** Əgər qadın ərinin onunla yaxınlıq etməsindən qabaq, əvvəlki məsələdə deyildiyi kimi, mürtəd olsa onun əqdi batil olur. Həmçinin əgər yaxınlıq etdikdən sonra da mürtəd olsa (batil olur); amma yaisə olsa (yə'ni seyyiddirsə 60 və seyyid deyilsə 50 yaşı tamam olubsa). Əgər yaisə olmasa, təlaq hökmlərində deyilən göstərişə uyğun olaraq iddə saxlamalıdır; əgər iddə arasında müsəlman olsa əqd yerindədir; yox əgər iddənin axırına qədər mürtədliyində qalsa əqd batildir.

**M:2515.** Əgər bir kəsin atası, yaxud anası nütfə bağlanan zaman müsəlman olsa və o kəs də həddi-büluğa çatdıqdan sonra İslamı izhar edəndən sonra mürtəd olsa arvadı ona haram olur, təlaq hökmlərində deyildiyi qədər vəfat iddəsi saxlamalıdır. Fəqihlərin istilahında belə şəxsə “fitri mürtəd” deyilir.

**M:2516.** Müsəlman olmayan ata-anadan dünyaya gəlib sonradan, müsəlman olan kişi, əyalı ilə yaxınlıq etməmişdən qabaq mürtəd olsa, yaxud (mürtəd olanda) arvadı yaisa olsa, əqdi batil olur. Amma yaxınlıq etdikdən sonra mürtəd olsa və arvadı da heyz görən qadınların yaşında olsa, arvadı təlaq hökmlərində deyildiyi qədər iddə saxlamalıdır. Əgər iddə tamam olandan qabaq əri müsəlman olsa, əqd yerində qalır. Əks halda batildir. Amma birinci halda da daha yaxşı olar ki, əqd təzələnsin. Fəqihlərin istilahında bu cür şəxsə “milli mürtəd” deyilir.

**M:2517.** Əgər qadın əqddə kişi ilə onu şəhərdən çölə aparmamasını şərt etsə, kişi də qəbul etsə qadının razılığı olmadan şəhərdən çıxarmamalıdır.

**M:2518.** Əgər bir kəsin arvadının əvvəlki ərindən bir qızı olsa, o qızı, həmin arvadından olmayan başqa oğlunun əqdinə keçirdə bilər. Həmçinin əgər bir qızı öz oğlu üçün əqd etsə, onun anası ilə evlənə bilər.

**M:2519.** Əgər bir qadın zinadan hamilə olsa uşağını siqt etməsi (saldırması) caiz deyil.

**M:2520.** Əgər bir kəs əri olmayan və başqasının da iddəsində olmayan bir qadınla zina edib sonradan əqdinə keçirtsə və onlardan uşaq dünyaya gəlsə, halal, yaxud haram nütfədən əmələ gəlməsini bilməsələr, o uşaq halalzadədir.

**M:2521.** Əgər kişi qadınının iddədə olduğunu, yaxud iddə halında əqd oxunmasınının haram olduğunu bilməyib onunla evlənsə, bu halda qadın da bilməsə və onlardan uşaq dünyaya gəlsə, halalzadədir, şər'ən də hər ikisinin övladı sayılır. Amma əgər qadın iddədə olduğunu, habelə iddədə oxunan əqdin

---

[37]Xəvaric–Mə'sum İmam (əleyhis-salam)-ın əleyhinə qiyam edənlər; Nəvasib–İmamlara (xüsusilə həzrət Əliyə (əleyhis-salam) qarşı nalayiq sözləri rəva bilənlər; Ğülat–İmamlar barəsində ifrata varıb Allahın onların bədədəninə hülul etməsinə, daxil olmasına e'tiqad bəsləyənlər.

haram olduğunu bilsə, uşaq şər'ən atanındır. Hər iki halda onların əqdi batildir və bir-birinə əbədi haram olurlar.

**M:2522.** Əgər qadın "yaisəyəm" desə, sözü qəbul olunmamalıdır. Amma əgər "ərim yoxdur" desə sözü qəbul olunur. Bu şərtlə ki, müttəhim olmasın; əks halda, bu barədə təhqiqat aparılması daha yaxşıdır.

**M:2523.** Əgər bir qadınla evlənəndən sonra bir kəs "o qadının əri vardır", qadın da "ərim yoxdur" desə, bu halda qadının ərli olması şər'ən sübut olunmasa, qadının sözü qəbul edilməlidir. Amma əgər o kəs e'timadlı şəxs olsa ehtiyat-vacibə görə gərək kişi talaq ilə o qadından ayrılsın.

**M:2524.** Oğulu saxlamaq, tərbiyə etmək iki ilə qədər; qızı isə yeddi ilə qədər anasının öhdəsinədir. Bu şərtlə ki, anası aqil, müsəlman və azad olsun, başqası onunla evlənməmiş olsun. Əks halda ata irəlidir. Amma əgər ata ölmüş olsa və ana, hətta ərə getmiş olsa da, baba və başqalarından irəlidir. Bu tərtibə ehtiyat-vacibə görə riayət olunmalıdır.

**M:2525.** Müstəhəbdir ki, həddi-büluğa çatmış qızı ərə verməkdə tələssinlər. Həzrəti Sadiq (əleyhis-salam) buyurur: "Kişinin səadətlərindən biri budur ki, qızı öz evində heyz görməsin."

**M:2526.** Əgər qadın öz mehriyyəsini başqa arvad almasın deyə, ərinə bağışlasa, kişi də qəbul etsə, ehtiyat-vacib budur ki, qadın mehriyəni almasın, kişi də başqa arvadla evlənməsin.

**M:2527.** Zinadan dünyaya gələn bir kəs arvad alsa və ondan uşağı olsa, uşaq halalzadədir.

**M:2528.** Əgər kişi mübarək Ramazan ayının orucunda, yaxud qadın heyz olan vaxt onunla yaxınlıq etsə günah etmişdir. Amma ondan uşaq dünyaya gəlsə halalzadədir.

**M:2529.** Ərinin səfərdə ölməsini yəqin edən qadın vəfat iddəsindən sonra (onun miqdarı talaq hökmlərində deyiləcək) ərə getsə və sonradan əvvəlki əri səfərdən (diri) qayıtsa, ikinci ərindən ayrılmalıdır və birinci ərinə halaldır. Amma əgər ikinci əri onunla yaxınlıq etmiş olsa, qadın iddə saxlamalı, ikinci əri də onun mehriyyəsini verməlidir. Əgər onun mehrül-müsəmması (mehriyyə adlana bilən məbləğ) mehrül-misl (onun kimilərin adətən olan mehriyyəsi) ilə fərqlənsə, onun fərqində ehtiyata görə bir-birilə razılaşmalıdırlar. Amma iddə xərci yoxdur və ikinci ərinə də əbədi olaraq haram olur.

**M:2530.** Əgər bir qadının əri səfərə, müharibəyə, dəniz səfərinə getmək, yaxud başqa səbəblərə görə itsə və onun diri olduğunu yəqin etsə ərə gedə bilməz. Onun xərcləri də ərinin malından, yaxud sədəqədən və beytül-maldan (ehtiyac olanda) verilməlidir.

**M:2531.** Qabaqkı məsələnin fərz olunduğu halda əgər qadın ərinin ölü və ya diri olmasını bilməsə, bu halda ərinin atası, babası, yaxud vəkili ərinin malından, yaxud öz malından öz ixtiyarı ilə, yaxud cameüş-şərait müctehidin

məcbur etməsi ilə qadının xərclərini onun şə’ninə layiq olan surətdə tə’min etsələr, qadın gərək gözləsin, ərə getmək haqqı da yoxdur. Əgər qadın xərcləri heç bir yolla tə’min olunmursa, cameüş-şərait müctehidə müraciət edə bilər. Ona müraciət etdikdən sonra göstəriş verir ki, qadın dörd ilə qədər gözləsin. Bu müddət ərzində ərinin olması ehtimal verilən məntəqələrə məktub yazmaq, yaxud sair yollarla təhqiqat aparmalıdır. Əgər onun diri olması sübut olunsa qadın gözləməlidir. Əks halda (diri olması mə’lum olmasa), cameüş-şərait müctehid kişinin atasına, yaxud ata tərfindən olan babasına göstəriş verir ki, qadına təlaq versin. Əgər bu mümkün olmasa cameüş-şərait müctehid şəxsən təlaq verir. Ehtiyat-vacibə görə qadın təlaq verildikdən sonra vəfat iddəsi qədər (4 ay 10 gün) iddə saxlayıb iddədən sonra azad olur və ərə gedə bilər. Amma əri iddə əsnasında tapılsa arvadına rücu etmək haqqı var. Amma iddədən sonra tapılsa, əhvət, rucu etməməsidir.

## SÜDVERMƏNİN HÖKMLƏRİ

**M:2532.** Əgər bir qadın, 2542-ci məsələdə deyiləcək şərtlər daxilində bir uşağa süd versə, o uşaq aşağıdakı şəxslərə məhrəm olur:

**1-**O qadının özünə (ona süd anası deyilir);

**2-**Qadının əri (süd ona məxsusdur və ona da süd atası deyilir);

**3-**O qadının atası və anasına–nə qədər yuxarı getsələr də; (hətta onun süd anası və süd atası da olsa.)

**4-**O qadından dünyaya gələn, yaxud dünyaya gələcək uşaqlara;

**5-**O qadının övladlarının uşaqları; nə qədər aşağı getsə də; istər onun övladından dünyaya gəlsin, istərsə də onun övladı o uşaqlara süd vermiş olsun;

**6-**O qadının bacı və qardaşına, hətta süd bacısı və süd qardaşı da olsa; (Yə'ni süd əmizdirilməsi səbəbilə o qadınla bacı-qardaş olmuşlarsa da.)

**7-**O qadının əmisi və bibisinə, hətta süd əmisi və ya süd bibisi də olsa;

**8-**O qadının xalası və dayısına, Hətta süd dayısı və süd xalası da olsa;

**9-**O qadının ərinin övladlarına, (süd o ərin malıdır), nə qədər aşağı getsə, hətta onun süd övladları da olsa;

**10-**O qadının ərinin ata-anasına, nə qədər yuxarı getsə də;

**11-**Ərinin qardaşı və bacısına, hətta süd qardaşı və süd bacısı da olsa;

**12-**Ərinin əmisi, bibisi, dayısı və xalasına, nə qədər yuxarı getsələr də, hətta südvermə yolu ilə də olsalar. Həmçinin sonrakı məsələlərdə deyiləcəyi kimi, bundan başqa bir neçə nəfər də südvermə yolu ilə məhrəm olurlar.

**M:2533.** Əgər bir qadın, 2542-ci məsələdə deyiləcək şərtlərə əsasən, bir uşağa süd versə o uşağın atası, o qadından dünyaya gələn qızlarla evlənə bilməz. Həmçinin, (südə sahib olan) ərin qızlarını da ala bilməz. Hətta ehtiyat-vacib budur ki, onun süd qızlarını da öz əqdinə keçirtməsin. Amma o qadının süd qızları ilə evlənməsi caizdir. Lakin ehtiyat-müstəhəb budur ki, onlarla da evlənməsin, onlara məhrəm baxışları ilə (yə'ni, insanın öz məhrəmlərinə etdiyi baxışlarla) baxmasın.

**M:2534.** Əgər bir qadın 2542-ci məsələdə deyiləcək şərtlərlə uşağa süd versə o qadının əri (süd ona məxsusdur) o uşağın bacılarına məhrəm olmur, ancaq ehtiyat-müstəhəb budur ki, onlarla evlənməsin. Həmçinin ərin qohumları da o uşağın bacı və qardaşları ilə məhrəm olmur.

**M:2535.** Əgər qadın bir uşağa süd versə o uşağın qardaşlarına məhrəm olmur. Həmçinin o qadının qohumları da süd verdiyi uşağın bacı-qardaşlarına məhrəm olmurlar.

**M:2536.** Əgər bir kəs bir qıza kamil süd verən qadınla evlənib yaxınlıq etsə, o qızı öz əqdinə keçirdə bilməz.

**M:2537.** Əgər insan bir qızla evlənsə, o qıza kamil süd verən qadınla evlənə bilməz.

**M:2538.** İnsan anasının, yaxud nənəsinin kamil süd verdiyi qız ilə evlənə bilməz. Həmçinin əgər insanın atasının (başqa) arvadı onun atasına məxsus olan süddən bir qıza süd versə o şəxs həmin qızla evlənə bilməz. Əgər südəmər bir qızı öz əqdinə keçirtsə və sonra anası, nənəsi atasının arvadı, yaxud həmin ataya məxsus olan süddən o qıza süd versə əqd batil olur.

**M:2539.** İnsanın bacısı, yaxud qardaşının arvadının (qardaşına məxsus olan) kamil süd verdiyi qızla evlənə bilməz. İnsanın bacısının, yaxud qardaşının övladı, yaxud bacısının nəvəsi və ya qardaşının nəvəsi süd versə də həmin qayda ilə.

**M:2540.** Əgər bir qadın öz qızının uşağına (nəvəsinə) süd versə o qız öz ərinə haram olur. Həmçinin əgər bir qadın qızının ərinin, başqa qadından olan uşağına süd versə (haram olur). Amma əgər qadın öz oğlunun uşağına süd versə, o uşağın anası ərinə haram olmur.

**M:2541.** Əgər bir qızın atasının arvadı, o qızın ərinin uşağına (atasına məxsus olan) süd versə o qız öz ərinə haram olur. İstər uşaq o qızdan olsun, istərsə də ərinin başqa arvadından olsa.

## *MƏHRƏMLİYƏ SƏBƏB OLAN SÜDVERMƏNİN ŞƏRTLƏRİ*

**M:2542.** Məhrəm olmağa səbəb olan südvermənin 9 şərti var:

**1-**Uşaq diri qadının döşündən süd əmsin; Deməli ölmüş qadının döşündən süd əmsə, faydası yoxdur (məhrəmlik yaratmır).

**2-**O qadının südü haramdan olmasın; Deməli zinadan dünyaya gələn uşağın südünü başqa uşağa versələr uşaq o süd vasitəsilə heç kəsə məhrəm olmur.

**3-**Süd doğumdan olsun; Deməli uşaq doğulmamışdan qadının döşündən süd gəlsə və bir uşaq o südü əmsə, məhrəmliyə səbəb olmur.

**4-**Uşaq südü qadının döşündən əmsin; Deməli südü uşağın boğazına töksələr, məhrəmliyə səbəb olmur.

**5-**Süd xalis olub başqa şeylərlə qarışmasın;

**6-**Süd bir ərdən olsun; Deməli süd verən qadına təlaq versələr sonradan başqa ərə gedib ondan hamilə olsa, doğuş vaxtına qədər döşündə birinci ərindən süd qalsa və ya misal üçün, 8 dəfə doğuşdan qabaq birinci ərinə məxsus olan süddən və doğandan sonra isə 7 dəfə ikinci ərinə məxsus olan süddən uşağa versələr, o uşaq heç kəsə məhrəm olmur.

**7-**Uşaq xəstəlik səbəbilə əmdiyi südü qaytarmasın. Əgər qaytararsa ehtiyat-vacibə görə gərək süd əmmək vasitəsilə o uşağa məhrəm olacaq kəslər onunla evlənməsinlər və məhrəm baxışlarla baxmasınlar.

**8-**15 dəfə, yaxud bir gün (24 saat) ərzində, sonrakı məsələdə deyiləcəyi kimi doyunca süd əmsin, yaxud onu o qədər əmizdirsinlər ki, “o südlə sümüyü

möhkəmlənmişdir, bədənində ət əmələ gəlmişdir" desinlər. Hətta əgər 10 dəfə də ona süd versələr və onların arasında heç fasilə (hətta yemək verilməklə də) düşməsə, ehtiyat-vacib budur ki, ona süd vasitəsilə məhrəm olan kəslər onunla evlənməsinlər, ona məhrəm baxışlarla baxmasınlar.

**9-**Uşağın iki yaşı tamam olmamış olsun; Deməli, iki yaşı tamam olandan sonra ona süd versələr, heç kəsə məhrəm olmur. Hətta əgər misal üçün, iki il tamam olmamışdan qabaq 8 dəfə, tamam olandan sonra isə 7 dəfə süd əmsə heç kəsə məhrəm olmur. Amma əgər süd verən qadının doğuşundan iki ildən artıq keçmiş olsa və onun südü hələ də qalmış olsa, bir uşağa süd versə, ehtiyat-vacib budur ki, onunla evlənməyi, məhrəmiyyət rəftarını tərk etsinlər.

**M:2543.** Gərək uşaq bir gecə-gündüz əsnasında başqa yemək yeməsin, yaxud başqa kəsdən süd əmməsin. Amma əgər az miqdarda yemək yesə və "arada yemək yeyibdir" deyilməsə, eybi yoxdur. Həmçinin gərək 15 dəfəni bir qadının döşündən əmsin və bu əsnada başqa kəsin südünü əmməsin. Hər dəfə də zaman fasiləsi olmadan süd əmsin. Amma əgər süd əmdiyi vaxt əsnasında yenidən nəfəs çəksə, yaxud bir az gözləsə və birinci dəfə döşü ağzına aldığı vaxtdan doyduğu vaxta qədər bir dəfə hesab olunsa, eybi yoxdur. Və 10 dəfə süd əmsə, ehtiyat-vacibə görə qeyd olunan şərtlərə riayət olunmalıdır.

**M:2544.** Əgər qadın öz ərinə məxsus olan süddən bir uşağa süd verib sonra başqa ərə getsə və ikinci ərinə məxsus olan süddən başqa uşağa süd versə o iki uşaq bir-birinə məhrəm olmurlar. Amma daha yaxşı olar ki, bir-biri ilə evlənməsin, bir-birinə məhrəm baxışı ilə baxmasınlar.

**M:2545.** Əgər qadın ərinə məxsus olan süddən bir neçə uşağa süd versə onların hamısı bir-birinə, ərinə və (onlara süd verən) qadına məhrəm olurlar.

**M:2546.** Əgər bir kəsin bir neçə arvadı olsa və onların hər biri deyilən şərtlərlə bir uşağa süd versələr, o uşaqların hamısı bir-birinə, o kişiyə və o qadınlara məhrəm olurlar.

**M:2547.** Əgər bir kişinin iki südlü qadını olsa və onlardan biri bir uşağa 8 dəfə, digəri isə 7 dəfə süd versə o uşaq heç kəsə məhrəm olmur.

**M:2548.** Əgər bir qadın ərinə məxsus olan süddən bir oğlan və bir qıza kamil süd versə onlar bir-birinə məhrəm olurlar. Amma o qızın bacı-qardaşları oğlanın bacı-qardaşlarına məhrəm olmurlar.

**M:2549.** Bir kəs öz arvadının icazəsi olmadan, süd vasitəsilə onun arvadının bacısı uşaqları, yaxud qardaşı uşaqları olan qadınlarla evlənə bilməz. Həmçinin əgər bir oğlanla livat etsə, ehtiyat-vacibə görə, o oğlanın süd əmməsi ilə qızı, bacısı, anası və nənəsi olan şəxslərlə evlənə bilməz.

**M:2550.** Bir kəsin qardaşına süd verən qadın həmin şəxsə məhrəm olmur. Amma ehtiyat-müstəhəb budur ki, onunla evlənməsin.

**M:2551.** İnsan iki bacı ilə–hətta süd bacısı olsalar da, evlənə bilməz. Əgər iki qadını əqd edib sonradan bacı olduqlarını başa düşsə, bu halda onların əqdi eyni zamanda olubsa, hər ikisi batildir. Əks halda, birincisi səhih, sonrakı isə batildir.

**M:2552.** Əgər qadın ərinə məxsus olan süddən aşağıdakı şəxslərə süd versə əri ona haram olmur (ancaq daha yaxşı olar ki, bu işi etməsin):

**1**-Öz bacısı və qardaşına;

**2**-Öz əmisi, bibisi, dayısı və xalasına;

**3**-Əmisinin və dayısının övladlarına;

**4**-Öz qardaşının övladlarına;

**5**-Ərinin qardaşına, yaxud ərinin bacısına;

**6**-Öz bacısının uşaqlarına, yaxud ərinin bacısının uşaqlarına;

**7**-Ərinin əmisi, bibisi, dayısı və xalasına;

**8**-Ərinin başqa arvaddan olan nəvəsinə;

**M:2553.** Əgər bir kəs insanın bibisinin və ya xalasının qızına süd versə, həmin şəxsə məhrəm olmur. Amma ehtiyat-müstəhəb budur ki, onunla evlənməsin.

**M:2554.** Bir kişinin iki arvadı olsa və onlardan biri o biri qadının əmisi uşağına süd versə, onun əmi övladlarına süd verən qadın öz ərinə haram olmur.

## *SÜDVERMƏNİN QAYDALARI*

**M:2555.** Uşağa süd vermək üçün hamıdan yaxşı anasıdır. Yaxşı olar ki, ana uşağa süd vermək üçün ərindən muzd almasın, amma yaxşı olar ki, əri muzd versin. Əgər uşağın anası dayədən artıq muzd almaq istəsə, əri uşağı ondan alıb dayəyə verə bilər.

**M:2556.** Müstəhəbdir ki, uşaq üçün tutulan dayə 12 İmam şiəsi, ağıllı, iffətli, üzü gözəl olsun; məkruhdur ki, ağılsız, 12 İmama inanmayan, bədsurət, bədəxlaq, zinazadə olsun. Həmçinin zinadan hamilə olan və südü də zinadan olan qadını dayə kimi götürmək məkruhdur.

## *SÜDVERMƏNİN MÜXTƏLİF MƏSƏLƏLƏRİ*

**M:2557.** Müstəhəbdir ki, qadınların hər uşağa süd verməsinin qarşısı alınsın. Çünki ola bilsin ki, hansı uşağa süd verməsini unudub sonradan bir-birinə məhrəm olan iki nəfəri evləndirsinlər.

**M:2558.** Müstəhəbdir ki, süd vasitəsilə qohum olan şəxslər bir-birinə ehtiram qoysunlar. Amma bir-birindən irs aparmırlar və insanın öz qohumlarına qarşı olan (xüsusi) qohumluq haqqı onlar üçün yoxdur.

**M:2559.** Mümkün olan halda müstəhəbdir ki, uşağa iki il tamam süd verilsin.

**M:2560.** Əgər südvermə vasitəsilə ərin haqqı aradan getməzsə, qadın ərinin icazəsi olmadan başqasının uşağına süd verə bilər. Amma südvermə ilə ərinə haram olmasına səbəb olan şəxslərə süd verməsi caiz deyil. Məsələn, əgər onun əri südəmər qız uşağını özü üçün əqd etmiş olsa, qadın o uşağa süd verməməlidir. Əks halda, o qadının özü ərinin arvadının anası (qaynanası) olur və ərinə haram olur.

**M:2561.** Əgər bir kəs qardaşının arvadının ona məhrəm olmasını istəyərsə, bu halda gərək bir südəmər qız uşağını iki günlük özünə siyğə etsin və o iki gündə, 2542-ci məsələdə deyildiyi şərtlərə uyğun olaraq qardaşının arvadı o qıza süd versin. Bu halda qızın əqdi batil, ona məhrəm və əbədi haram olur, qardaşının arvadı isə ona məhrəm olur.

**M:2562.** Əgər kişi bir qadını özünə əqd etməmişdən süd vasitəsilə o qadının ona haram olduğunu (məsələn, onun anasından süd əmdiyini) desə, bu halda onun sözünü təsdiq etmək mümkün olsa, o qadınla evlənə bilməz. Əgər əqddən sonra desə və qadın da onun sözünü qəbul etsə, əqd batildir. Kişi onunla yaxınlıq etməmiş olsa, yaxud yaxınlıq etsə, amma yaxınlıq edən vaxt qadın o kişiyə haram olduğunu bilsə, mehriyyəsi yoxdur. Əgər yaxınlıq etdikdən sonra kişinin ona haram olduğunu başa düşsə, kişi onun mehriyyəsini, onun misli olan qadınların mehriyyəsinə müvafiq olaraq verməlidir.

**M:2563.** Əgər qadın əqddən qabaq süd əmmək vasitəsi ilə bir kişiyə haram olduğunu desə, bu halda onun sözünü təsdiq etmək mümkün olsa o kişi ilə evlənə bilməz. Əgər əqddən sonra desə kişinin əqddən sonra qadının ona haram olmasını deməsi kimidir ki, bunun hökmü keçən məsələdə deyilib.

**M:2564.** Məhrəm olmağa səbəb olan südvermə iki yolla isbat olunur.

**1-**Sözlərindən yəqin və ya xatircəmlik hasil olan şəxslərin xəbər verməsi;

**2-**İki adil kişinin, yaxud hamısı adil olan bir kişi və iki qadının və ya dörd qadının şəhadət verməsi. Amma gərək südvermənin şəraitini də desinlər. Məsələn desinlər ki: “biz gördük ki, filan uşaq 24 saat ərzində filan qadının döşündən süd əmdi, arada da başqa şey yemədi.” Həmçinin 2542-ci məsələdə deyilən sair şərtləri də şərh etsinlər. Amma əgər şərtləri bilib, amma əqidələrində bir-birinə müxalif olmamaları və kişi və qadınla da əqidədə müxalifətləri olmaması mə’lum olsa şərtləri şərh etmələri lazım deyil.

**M:2565.** Əgər uşağın məhrəmliyə səbəb olacağı qədər süd əmib-əmməməsində şəkk etsələr, yaxud o miqdarda süd əmməsini güman etsələr, uşaq heç kəsə məhrəm olmur. Amma yaxşı olar ki, ehtiyat etsinlər.

## TƏLAQIN HÖKMLƏRİ

**M:2566.** Öz arvadına təlaq verən kişi aqil, ehtiyat-vacibə görə həddi-büluğa çatan olub öz ixtiyarı üzündən təlaq verməlidir. Əgər onu, arvadına təlaq verməyə məcbur etsələr, təlaq batildir. Həmçinin gərək təlaq vermək niyyəti olsun. Deməli təlaq siyğəsini zarafatyana desə, səhih deyildir.

**M:2567.** Qadın təlaq vaxtında heyz və nifas qanından pak olmalı, əri həmin paklıq vaxtında onunla yaxınlıq etməməlidir. Əgər ondan qabaqkı paklıqda olan nifas və ya heyz halında onunla yaxınlıq etsə, ehtiyat-vacibə görə təlaq kifayət deyil; ikinci dəfə qan görüb sonra pak olmalıdır. (Bu iki şərtin təfsilatı sonrakı məsələlərdə gələcək.)

**M:2568.** Heyz, yaxud nifas halında qadına verilən təlaq üç halda səhihdir:

**1-**Əri evlənəndən sonra onunla yaxınlıq etməmiş olsa;

**2-**Hamilə olsa; Əgər hamilə olması mə'lum olmasa və əri də heyz halında təlaq versə və sonradan hamilə olduğu mə'lum olsa eybi yoxdur.

**3-**Kişi, qaib (səfərdə) olmaq və s. kimi səbəblərlə qadının pak olduğundan xəbər tuta bilməsə;

**M:2569.** Əgər bir kəs, qadını heyz qanından pak hesab edib təlaq versə, sonradan təlaq vaxtı heyz halında olduğu mə'lum olsa, təlaqı batildir. Əgər qadının heyz halında olduğunu hesab edərək təlaq versələr və sonra pak olduğu mə'lum olsa, təlaq səhihdir.

**M:2570.** Öz arvadının heyz və ya nifas halında olduğunu bilən şəxs qaib olsa (məsələn, səfərə getsə) və ona təlaq vermək istəsə, amma qadının halından xəbər tuta bilməsə, gərək qadınların adətən heyz və ya nifasdan pak olacaqları müddətə qədər gözləsin.

**M:2571.** Əgər qaib olan bir şəxs öz arvadına təlaq vermək istəsə, bu halda arvadının heyz və ya nifas olmasından xəbər tuta bilərsə, hətta onun xəbər tutması qadının heyz adəti üzündən, yaxud müqəddəs Şəriətdə müəyyən olunan sair əlamətlər üzündən mə'lum olarsa, gərək onun halını soruşsun. Əgər soruşa bilməsə, qadınların adətən heyz və ya nifasdan pak olduqları müddətə qədər gözləməlidir. Ehtiyat-vacib budur ki, bir aya qədər gözləsin.

**M:2572.** Əgər kişi, heyz və ya nifas qanından pak olan arvadı ilə yaxınlıq edib sonra təlaq vermək istəsə, gərək ikinci dəfə heyz qanı görüb paklanmasını gözləsin . Həmçinin əgər heyz, yaxud nifas halında onunla yaxınlıq etsə, ehtiyat-vacibə görə o heyz və nifasdan sonrakı paklıqda–hətta o paklıqda onunla yaxınlıq etməmiş olsa da, ona təlaq verə bilməz. Amma 9 yaşı tamam olmayan, yaxud hamilə olan qadına, onunla yaxınlıq etdikdən sonra təlaq versələr eybi yoxdur. Qadın yaisə olsa da eyni qayda ilə. Əgər yaxınlıq edəndən sonra təlaq versələr eybi yoxdur.

**M:2573.** Əgər kişi heyz və ya nifas qanından pak olan arvadı ilə yaxınlıq edib həmin paklıq müddətində təlaq versə və sonra təlaq verdiyi vaxt hamilə olduğu mə’lum olsa, eybi yoxdur.

**M:2574.** Əgər kişi heyz və ya nifas qanından pak olan arvadı ilə yaxınlıq edib sonra səfərə getsə və səfərdə təlaq vermək istəsə, amma arvadının halını səfərdə soruşa bilməsə, bu halda qadınların adətən (o müddətdən sonra) paklıqdan sonra qan görüb yenidən pak olduqları qədər gözləməlidir. Ehtiyat-vacib budur ki, o müddət bir aydan az olmasın.

**M:2575.** Əgər kişi xilqətinin, yaxud xəstəlik və ya heyzin qabağını almaq üçün qəbul edilən dərman səbəbilə heyz görməyən qadınına təlaq vermək istəsə, onunla yaxınlıq etdiyi vaxtdan e’tibarən üç ay müddətində onunla cima etməkdən çəkinməli, sonra təlaq verməlidir.

**M:2576.** Təlaq ərəbcə və səhih siyğə ilə olmalıdır. Ehtiyat-vacibə görə “taliq” sözü ilə olmalı, iki nəfər adil kişi də onu eşitməlidir. Əgər ərin özü təlaq siyğəsini oxumaq istəsə və arvadının da adı Fatimə olsa gərək desin:

زَوجَتيِ فَاطِمَةُ طَالِقٌ

(Zəvcəti Fatimətu taliq)

Əgər başqasını vəkil etsə, vəkil belə deməlidir:

زَوَجَةُ مُوَكِّلِي فَاطِمَةُ طَالِقٌ

(Zəvcətu muvəkkili Fatimətu taliq)

**M:2577.** Siyğə olunan (məsələn, bir aylıq, bir illik) qadının təlaqı yoxdur. Onun boşanması müddətinin tamam olması, yaxud kişinin həmin müddəti ona bağışlaması ilədir. Belə ki, “müddəti sənə bağışladım” desin. Bu halda qadının heyz qanından paklığı və şahid tutulması lazım deyil.

## *TƏLAQ İDDƏSİ*

**M:2578.** 9 yaşı tamam olmayan, habelə yaisə qadının müddəti yoxdur. Yə’ni ərinin onunla yaxınlıq etməsinə baxmayaraq, təlaq veriləndən sonra dərhal ərə gedə bilər.

**M:2579.** 9 yaşı tamam olan və yaisə olmayan qadının, əri, onunla yaxınlıq edib təlaq versə, təlaqdan sonra iddə saxlamalıdır. Yə’ni, təlaq verildiyi paklıqdan sonra (hərçənd az miqdar olsa da) o qədər gözləməlidir ki, yenidən heyz görüb pak olsun. Üçüncü heyzi görən kimi, iddəsi tamam olur və ərə gedə bilər. Amma əgər yaxınlıq etmədən təlaq versə iddəsi yoxdur; yə’ni təlaqdan sonra dərhal ərə gedə bilər.

**M:2580.** Heyz görən qadınlar ilə bir yaşda olub heyz görməyən qadının əri onunla yaxınlıq edib təlaq versə, təlaqdan sonra üç ay iddə saxlamalıdır.

**M:2581.** İddəsi üç ay olan qadına, ayın əvvəlində təlaq versələr, üç hilali (qəməri) ay gözləməlidir. Yə’ni, ayın göründüyü vaxtdan etibarən üç ay müddətində iddə saxlamalıdır. Əgər ayın ortalarında təlaq versələr, ayın

qalanını sonrakı iki ay ilə birlikdə, habelə birinci ayın kəsrini dördüncü aydan iddə saxlamalıdır ki, üç ay tamam olsun. Məsələn, bir qadına ayın iyirminci gününün məğrib vaxtında təlaq versələr və o ay da 29 gün olsa, o ayın 9 gününü sonrakı iki ay və 4-cü ayın 20 günü ilə birlikdə iddə saxlamalıdır. Ehtiyat-müstəhəbə görə 4-cü aydan 21 gün iddə saxlasın ki, birinci aydakı ilə 30 gün tamam olsun.

**M:2582.** Əgər hamilə qadına təlaq versələr, onun iddəsi uşağın dünyaya gəlməsinə, yaxud saqit olmasına qədərdir. Məsələn, təlaqdan bir saat sonra uşaq dünyaya gəlsə, həmin vaxt iddəsi tamam olur.

**M:2583.** Doqquz yaşı tamam olan və yaisə olmayan bir qadın (məsələn, bir ay, yaxud bir illiyə) siyğə olunsa, əri onunla yaxınlıq etsə və o qadının müddəti tamam olsa, yaxud əri həmin müddəti bağışlasa, bu halda heyz görürsə, ehtiyat-vacibə görə gərək iki heyzlə iki paklığın hansı çox olsa onu iddə saxlasın, ərə getməsin; yox əgər heyz görmürsə, 45 günə qədər ərə getməməlidir. Hamilə olduğu surətdə ehtiyat-vacib budur ki, doğuşla 45 günün hansı çox olsa, onu iddə saxlasın.

**M:2584.** Təlaq iddəsinin əvvəli təlaq siyğəsinin tamam olduğu vaxtdan e'tibarən başlayır–istər qadın ona təlaq verildiyini bilsin, istərsə də bilməsin. Əgər iddə qurtarandan sonra ona təlaq verilməsini başa düşsə, yenidən iddə saxlaması lazım (ilzami) deyil.

### *ƏRİ ÖLƏN QADININ İDDƏSİ*

**M:2585.** Əri ölən qadın hamilə olmazsa–hətta əgər yaisə, yaxud səğiyrə olsa da, yaxud əri onunla yaxınlıq etməsə də, 4 ay 10 gün iddə saxlamalı, yə'ni ərə getməməlidir. Əgər hamilə olsa, doğuşa qədər iddə saxlamalıdır. Amma əgər uşaq 4 ay 10 gün keçməzdən qabaq dünyaya gəlsə, ərinin ölümündən 4 ay 10 gün keçənə qədər gözləməlidir. Buna "vəfat iddəsi" deyilir.

**M:2586.** Vəfat iddəsində olan qadının bəzəkli paltar geyməsi, sürmə çəkməsi həmçinin zinət sayılan sair işlər görmək ona haramdır.

**M:2587.** Əgər qadın ərinin ölməsini yəqin edib vəfat iddəsi qurtarandan sonra ərə getsə və sonradan ərinin, ərə gedəndən sonra ölməsi mə'lum olsa, ikinci ərindən ayrılmalıdır. Əgər hamilə olsa təlaq iddəsində deyildiyi qədər ikinci əri üçün təlaq iddəsi, sonra isə birinci əri üçün vəfat iddəsi saxlamalıdır. Əgər hamilə olmasa birinci əri üçün vəfat iddəsi, sonra isə ikinci əri üçün təlaq iddəsi saxlamalıdır. Vəfat iddəsinin başlanğıcı–ərinin vəfatı barədə səhih xəbərin ona verildiyi vaxtı götürməlidir.

**M:2588.** Qadının əri qaib, yaxud qaib hökmündə olsa, vəfat iddəsinin başlanğıcı qadının ərinin ölümündən xəbərdar olduğu vaxtan başlanır.

**M:2589.** Əgər qadın "iddəm tamam olmuşdur" desə, bu sözü iki şərtlə qəbul edilir:

**1-**Ehtiyata əsasən, töhmət mövqeyində olmasın;

**2-**Təlaqdan, yaxud ərinin ölməsindən o qədər vaxt keçsin ki, o müddətdə iddənin tamam olması mümkün olsun.

### *BAİN VƏ RİC'İ TƏLAQ*

**M:2590.** Bain təlaqı budur ki, təlaqdan sonra kişinin öz arvadına qayıtmaq haqqı olmasın. Yə'ni, əqd oxunmadan onu arvad kimi qəbul edə bilməsin. Bu beş qismdir:

**1-**9 yaşı tamam olmayan qadının təlaqı;

**2-**Yaisə olan qadının təlaqı;

**3-**Ərinin əqddən sonra yaxınlıq etmədiyi qadının təlaqı;

**4-**Üç dəfə təlaq verilən qadının üçüncü təlaqı;

**5-**Xül' və mübarat təlaqı.

(Bunların hökmləri sonradan deyiləcək.) Bunlardan başqa yerdə qalanları ric'i təlaqdır ki, təlaqdan sonra, qadın iddədə olduğu vaxta qədər kişi ona qayıda bilər bilər (yə'ni təlaq niyyətindən dönə bilər).

**M:2591.** Arvadına ric'i təlaq verən bir kəsin, onu, təlaq verilən vaxtdakı evdən çölə çıxartması haramdır. Amma fiqhi kitablarda müfəssəl deyildiyi kimi, bə'zi vaxtlar onu çölə çıxartmağın eybi yoxdur. (O cümlədən fahişəlik, əcnəbilərlə gediş-gəliş edərsə.) Həmçinin qadının zəruri olmayan işlər üçün evdən çölə çıxarması da haramdır.

### *QAYITMAĞIN HÖKMLƏRİ*

**M:2592.** Ric'i təlaqda kişi öz qadınına iki cür qayıda bilər:

**1-**Mə'nası onu ikinci dəfə öz arvadı etməsi olan bir söz desin;

**2-**Elə bir iş görsün ki onun qayıtması başa düşülsün. Deməli, yenidən onu öz arvadı etməsi başa düşülən hər söz, yaxud ibarə, əməl ilə rücu gerçəkləşir. Zahir budur ki, rücu qəsdi olmasa da, yaxınlıq etməklə rucu gerçəkləşir.

**M:2593.** Rücu etməkdə kişinin şahid tutması, yaxud qadına xəbər verməsi lazım (ilzami) deyil. Hətta əgər bir kəs bilmədən "arvadına rucu etdim" desə səhihdir. Amma müstəhəbdir ki, rücu etmək üçün şahid tutsun. Lakin iddə qurtarandan sonra kişi "iddə vaxtı rücu etmişəm" desə isbat etməsi lazımdır.

**M:2594.** Əgər kişi öz arvadına ric'i təlaq versə və təlaqdan sonra qadın kişi ilə rücu haqqının olmaması barədə razılaşsa, onun razılaşması batil olur və onun müqabilində aldığı mala malik olmur. Əgər "rücu haqqı olmasına baxmayaraq, əmələn rücu etməsin və öz haqqından istifadə etməsin" deyə razılaşsalar, bu cür müsahilə (razılaşma) səhihdir. Rücu edərsə, onun səhih olması işkallıdır.

**M:2595.** Əgər kişi arvadına iki dəfə təlaq verib sonra rücu etsə, yaxud iki dəfə təlaq verib hər təlaqdan və iddə vaxtı keçəndən sonra əqdinə keçirtsə, yaxud bir təlaqdan sonra rucu edib ikinci təlaqda iddə vaxtı keçəndən sonra

əqdinə keçirtsə, üçüncü təlaqdan sonra qadın ona haramdır. Amma əgər üçüncü təlaqdan sonra başqa ərə getsə, dörd şərtlə ikinci ərinə halal olur (yə'ni, birinci əri onu, ikinci ərindən boşanandan sonra, yenidən ala bilər):

**1-**İkinci ərinin əqdi daimi olsun; deməli, misal üçün, bir aylıq, bir illik siyğə etsə ondan ayrılandan sonra birinci əri onu öz əqdinə keçirdə bilməz;

**2-**Ehtiyata əsasən ikinci əri həddi-büluğa çatmış olsun və onunla yaxınlıq və duxul etsin, ehtiyat-vacibə görə inzal (məninin axıdılması) da olsun, yaxınlıq da qadının qabaq tərəfindən olsun;

**3-**İkinci əri ona təlaq versin, yaxud ölsün;

**4-**İkinci ərinin təlaq, yaxud vəfat iddəsi tamam olsun.

## *XUL' TƏLAQI*

**M:2596.** Ərinə mayil olmayıb mehriyyəsini və ya başqa malını, təlaq verilməsi üçün ərinə bağışlayan qadının təlaqına "xul' təlaqı" deyilir.

**M:2597.** Əgər ər, təlaq siyğəsini oxumaq istəsə və qadının adı Fatimə olsa, qadının ona, istədiyi şeyi verdikdən sonra deyir:

زَوجَتِی فَاطِمَةُ خَالَعتُهَا عَلَی مَابَذَلَت هِیَ طَالِقٌ

(Zəvcəti Fatimətu xalə'tuha əla mabəzələt hiyə taliq)

Yə'ni, "arvadım Fatiməni verdiyi şeylər müqabilində xul' təlaqı verdim və o boşandı." "Hiyə taliq" cümləsi ehtiyat-vacibə görə deyilməlidir.

**M:2698.** Əgər qadın, bir kəsi mehriyyəsini ərinə vermək üçün, əri də həmin kəsi, arvadına təlaq vermək üçün vəkil etsə, bu halda məsələn, ərin adı Məhəmməd, arvadın adı Fatimə olarsa, vəkil təlaq siyğəsini belə oxumalıdır:

عَن مُوَكِّلَتِي فَاطِمَةَ بَذلتُ مَهرَهَا لِمُوَكِّلِي مُحَمَّدٍ لِيَخلَعَهَا عَلَيهِ

(Ən muvəkkiləti Fatimətə bəzəltu məhrəha limuvəkkili Muhəmmədin liyəxlə'əha ələyhi)

deməli, sonra dərhal deməlidir:

زَوجَةُ مُوَكِّلِي خَالَعتُهَا عَلَی مَابَذَلَت هِیَ طَالِقٌ

(Zəvcətu muvəkkili xalə'tuha əla mabəzələt hiyə taliq)

Əgər qadın bir kişini, ərinə mehriyyədən başqa bir şey bağışlayıb ona təlaq verməsini vəkil etsə, vəkil gərək "məhrəha" kəlməsinin yerinə onun verdiyi şeyi desin. Məsələn, əgər 100 tümən vermiş olsa gərək desin:

بَذَلتُ مِائَة تُومَان

(Bəzəltu miətə tuman)

## *MÜBARAT TƏLAQI*

**M:2599.** Əgər ər-arvad bir-biri ilə yaşamaq istəməzsə və qadın öz mehriyyəsini, yaxud başqa malı kişiyə, təlaq versin deyə, bağışlasa, bu cür təlaqa "mübarat təlaqı" deyilir.

**M:2600.** Əgər ər mübarat siyğəsini oxumaq istəsə və arvadının adı məsələn, Fatimə olsa, gərək desin:

بَارَأتُ زَوجَتِی فَاطِمَةَ عَلَی مَهرِهَا فَهِیَ طَالِقٌ

(Barə'tu zəvcəti Fatimətə əla məhriha fəhiyə taliq)

(Yə'ni, arvadım Fatiməyə, mehriyyəsinin müqabilində mübarat təlaqı verdim və o boşandı.) Əgər başqasını vəkil etsə, vəkil deməlidir:

بَارَاتُ زَوجَةَ مُوَكِّلِی فَاطِمَةَ عَلَی مَهرِهَا فَهِیَ طَالِقٌ

(Barə'tu zəvcətə muvəkkili Fatimətə əla məhriha fəhiyə taliq)

Hər iki halda əgər "əla məhriha" kəlməsinin yerinə "bi məhriha" desə eybi yoxdur.

**M:2601.** Xul' və mübarat siyğələri ərəbcə səhih oxunmalıdır. Amma əgər qadın öz malını ərinə bağışlaması üçün hər hansı dildə, "təlaq üçün filan şeyi sənə bağışladım" desə, eybi yoxdur.

**M:2602.** Əgər qadın xul', yaxud mübarat təlaqı əsnasında öz bağışladığı şeyi vermək fikrindən dönsə, əri qayıdıb (rücu edib) əqd oxunmadan yenidən onu özünə arvad edə bilər.

**M:2603.** Mübarat təlaqı üçün ərin aldığı mal mehriyyədən çox olmamalıdır. Hətta ehtiyat-vacib budur ki, mehriyyədən az olsun. Ancaq xul' təlaqında çox olmasının eybi yoxdur.

## *TƏLAQIN MÜXTƏLİF MƏSƏLƏLƏRİ*

**M:2604.** Əgər bir kəs naməhrəm qadınla, öz əyalı olduğunu güman edərək yaxınlıq etsə–istər qadın onun əri olmadığını bilsin, istərsə də əri olduğunu güman etsin–iddə saxlamalıdır.

**M:2605.** Əgər əyalı olmadığını bildiyi bir qadınla zina etsə, bu halda qadın o kişinin onun əri olmadığını bilməsə, ehtiyat-vacibə görə iddə saxlamalıdır.

**M:2606.** Əgər bir kişi, qadını özünə arvad etmək üçün aldadıb onun ərindən təlaq alsa, o qadına verilən təlaq və əqd səhihdir. Amma hər ikisi böyük günaha mürtəkib olmuşdur.

**M:2607.** Əgər qadın əqd əsnasında əri ilə səfərə gedərsə, yaxud ona altı aylıq xərcini verməzsə, təlaqın ixtiyarının onun əlində olmasını şərt etsə bu şərt batildir. Amma əgər kişi səfərə gedərsə, ya misal üçün, altı aya qədər onun xərcini verməzsə, onun tərəfindən özünə təlaq vermək üçün vəkil olmasını şərt etsələr bu halda, kişinin səfərə getməsindən, yaxud altı aylıq xərcini verməməsindən sonra özünə təlaq versə səhihdir.

**M:2608.** Dəliliyi səğirlik vaxtına müttəsil olan dəli bir şəxsin atası və (ata tərəfindən olan) babası məsləhət olarsa, onun arvadına təlaq verə bilərlər. Əgər dəliliyi səğirlik vaxtına müttəsil olmasa, bu iş cameüş-şərait müctehidin öhdəsinədir. Ehtiyat lazım-budur ki, cameüş-şərait müctehid də onlardan icazə alsın.

**M:2609.** Əgər ata, yaxud (ata tərəfindən olan) baba öz övladı (nəvəsi) üçün bir qadını siyğə etsələr, hətta uşağın həddi-büluğa çatması zamanının bir miqdarı siyğə müddətinin bir hissəsi olsa da (məsələn, bir arvadı 14 yaşlı oğluna iki illiyə siyğə etsə) bu halda uşağın məsləhətinə olsa, (ata) onun vaxtını qadına bağışlaya bilər, lakin onun daimi arvadına təlaq verə bilməz.

**M:2610.** Əgər Şəriətdə müəyyən olunmuş əlamətlərə əsasən, kişi iki nəfəri adil bilib onların yanında öz arvadına təlaq versə, onları adil bilməyən başqa bir şəxs ehtiyat-vacibə görə o qadını özü, yaxud başqası üçün əqd edə bilməz. Amma onların ədalətində şəkk etsə, o qadını iddəsi qurtarandan sonra özü, yaxud başqası üçün əqd edə bilər.

**M:2611.** Əgər bir kəs öz qadınına, o başa düşmədən təlaq versə, bu halda onun məxarcini arvadı olan müddətdəki kimi vermiş olarsa, məsələn, bir ildən sonra "bir il bundan qabaq sənə təlaq vermişəm" desə və şər'ən də bu işi sübuta yetsə, o müddətdə qadın üçün tədarük gördüyü, amma qadının məsrəf etmədiyi şeyləri ondan geri ala bilər. Lakin məsrəf etdiyi şeyləri ondan tələb edə bilməz.

## *QƏSBİN HÖKMLƏRİ*

Qəsb odur ki, insan zülm ilə bir kəsin malına, yaxud haqqına hakim kəsilsin (ələ keçirsin). Bu da böyük günahlardan biridir ki, bu işi görən şəxs Qiyamət günüdə ağır əzaba düçar olacaq. Peyğəmbəri Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-dən rəvayət olunub ki, hər kəs bir qarış torpağı başqasından qəsb etsə, Qiyamət günü o torpağı onun 7 təbəqəsindən boyunbağı kimi onun boynundan asacaqlar.

**M:2612.** Əgər bir kəs camaatın məscid, mədrəsə, körpü və ümumiyyətlə sair yerlərdən istifadə etmələrinə mane olsa, onların haqqını qəsb etmişdir. Habelə, əgər bir kəs məsciddə ondan qabaq yer tutan bir kəsin yerini ələ keçirsə (qəsb sayılır).

**M:2613.** İnsanın borclu olduğu şəxsin yanında girov (yaxud vəsiqə) qoyduğu şey onun yanında qalmalıdır ki, əgər onun borcunu verməsə borcunu ondan əldə etsin. Deməli əgər o şeyi, borcunu verməmişdən qabaq razılıq olmadan ondan geri alsa, haqqını qəsb etmişdir.

**M:2614.** Bir kəsin yanında rəhn (girov) qoyulan bir malı başqası qəsb etsə malın sahibi və borc sahibi o şeyi ondan tələb edə bilərlər. O şeyi ondan aldıqdn sonra yenə də girovdur. Əgər o şey tələf olub aradan getsə və əvəzini alsalar o (əvəz alınan) şey də əvvəlki şeyin özü kimi girov sayılır.

**M:2615.** Əgər insan bir şeyi qəsb etsə, sahibinə qaytarmalıdır. Tələf olarsa, əvəzini sahibinə verməlidir.

**M:2616.** Əgər qəsb etdiyi şeydən mənfəət əldə etsə (məsələn, qəsb etdiyi qoyun doğsa) o, malın sahibinindir. Həmçinin, evi qəsb edən bir kəs orada oturmasa belə, icarəsini verməlidir.

**M:2617.** Əgər uşağın, dəlinin əlindən onların malı olan şeyi qəsb etsələr, həmin şeyi qəyyumuna verməlidirlər. Əgər tələf olub aradan getsə əvəzini verməlidirlər. Uşağın və dəlinin əlinə verərsə və tələf olarsa zamindir.

**M:2618.** Əgər iki nəfər birlikdə bir şeyi qəsb etsələr, hətta hər ikisinin ayrılıqda həmin şeyi qəsb edə bilməsi mümkün olsa da, onların hər biri həmin şeyi ələ keçirtməkdəki istila nisbətində zamindir. Amma əgər, onlardan hər biri həmin şeyi tam ixtiyarına keçirtsə (belə ki, istədikləri təsərrüfü edə bilsə) bu halda onlardan hər birinin ona bütövlükdə zamin olması ehtimalı gözlənilir.

**M:2619.** Əgər qəsb etdiyi şeyi başqa bir şeylə (məsələn, qəsb etdiyi buğdanı arpa ilə) qarışdırsa, bu halda onların ayrılması mümkün olsa, hətta zəhməti də səbəb olsa, ayırıb sahibinə qaytarmalıdır.

**M:2620.** Əgər sırğa və s. kimi şeyləri qəsb edib xarab etsə gərək onu, düzəldilməsinə lazım olan muzd ilə birlikdə sahibinə qaytarsın. Əgər onun düzəldilməsinin muzdu düzəldilmişi ilə düzəldilməmişi arasındakı təvafütdən az olarsa qiymətlər fərqini də verməlidir. Muzdu verməmək üçün "əvvəlki halda düzəldəcəyəm" desə, sahibi qəbul etməyə məcbur deyil. Həmçinin sahibi, onu əvvəlki kimi düzəltməyə məcbur edə bilməz.

**M:2621.** Əgər qəsb etdiyi şeyi əvvəlkindən daha yaxşı surətdə düzəldə bilsə (məsələn, qəsb etdiyi qızıldan sırğa düzəltsə) bu halda malın sahibi "həmin halda ver" desə, verməlidir. Çəkdiyi zəhmət üçün muzd ala bilməz, hətta malikin icazəsi olmadan əvvəlki halına qaytarmağa haqqı yoxdur. Əgər icazəsi olmadan o şeyi əvvəlki halına salsa, onu düzəltməyin muzdunu da sahibinə verməlidir. Düzəldilməsinin muzdu düzəldilmiş və düzəldilməmiş arasındakı təvafütdən az olsa qiymətlər fərqini də verməlidir.

**M:2622.** Əgər qəsb etdiyi şeyi əvvəlkindən daha yaxşı halda düzəltsə və malın sahibi də "onu əvvəlki hala salmalısan" desə, əvvəlki hala salması vacibdir. Əgər onun qiyməti, etdiyi dəyişikliklər səbəbi ilə əvvəlki qiymətindən az olsa qiyməti təfavütünü də sahibinə verməlidir. Deməli qəsb etdiyi qızıldan sırğa düzəltsə və onun sahibi "əvvəlki halına qaytarmalısan" desə, bu halda onun əridilməsindən sonrakı qiyməti sırğa düzəldilməsindən qabaqkı qiymətindən az olsa onun qiymət fərqini də verməlidir.

**M:2623.** Əgər bir kəs qəsb etdiyi torpaqda taxıl, yaxud ağac əksə, taxıl, ağac və onun meyvəsi onun özünündür. Əgər yerin sahibi əkinin, ağacın həmin torpaqda qalmasına razı olmasa, qəsb edən şəxs hətta zərər etsə də dərhal əkini, yaxud ağacları yerdən çıxartmalıdır. Həmçinin əkin və ağac əkdiyi müddətdəki yerin icarə haqqını da yer sahibinə verməli torpaqda yaranan xarablıqları düzəltməlidir. (Məsələn, ağacı çıxartdığı yerin çalalarını doldurmalıdır.) Əgər bu işlərin vasitəsilə yerin qiyməti əvvəlki qiymətindən az olsa, onun qiymətlər fərqini də verməlidir. O, yerin sahibini, yeri ona satmağa, yaxud icarə verməyə

məcbur edə bilməz. Yerin sahibi də ağacı, yaxud əkini ona satmağa məcbur edə bilməz.

**M:2624.** Əgər yerin sahibi əkinin, ağacların onun yerində qalmasına razı olsa, onu qəsb edən şəxsin ağacı, yaxud əkini oradan çıxartması lazım (ilzami) deyil. Amma qəsb etdiyi müddətdən e’tibarən sahibinin razı olduğu müddətə qədər yerin icarəsini verməlidir.

**M:2625.** Əgər qəsb etdiyi şey tələf olub aradan getsə, bu halda onun fərdləri eyni, yeknəsəq olmayan əksinə, müxtəlif xüsusiyyətlərə görə adətən qiymətləri fərqlənən inək, qoyun kimi şeylərdən olsa, onun pulunu verməlidir. Əgər bazarın qiyməti dəyişmiş olsa, vermək istədiyi günün qiyməti ilə hesablamalıdır. Ehtiyat-müstəhəb budur ki, qəsb etdiyi gündən verdiyi günə qədər olan ən yuxarı qiymətlə hesablasın.

**M:2626.** Əgər qəsb edib tələf etdiyi şey misli çox olan maşında toxunan xalça, qab-qacaq, kitab və s. kimi şeylərdən olsa, onda mislini verməlidir. Ancaq vermək istədiyi şeyin xüsusiyyətləri qəsb edib tələf etdiyi şeyin misli kimi olmalıdır.

**M:2627.** Əgər qoyun kimi fərdlərinin qiyməti bir-birindən fərqlənən bir şeyi qəsb etsə və o şey də aradan getsə, bu halda onun bazarının qiyməti fərqlənməmiş olsa, amma onun yanında olan müddətdə məsələn, kökəlmiş olsa, kökəldiyi vaxtın pulunu verməlidir.

**M:2628.** Əgər qəsb etdiyi şeyi başqası ondan qəsb etsə və tələf olsa, malın sahibi əvəzini onların hər birindən ala bilər, yaxud onların hər birindən aradan gedən şeyin bir miqdarını tələb edə bilər. Əgər birincidən alsa, birinci də öz növbəsində ikincidən ala bilər. Amma əgər ikincidən alsa o, verdiyi şeyi birincidən ala bilməz.

**M:2629.** Əgər satılan şeydə müamilənin şərtlərindən biri olmasa (məsələn, çəki ilə alver edilməli olan bir şey çəkisiz müamilə olunsa) müamilə batildir. Əgər satıcı və alıcı müamiləni nəzərə almadan, bir-birinin malında təsərrüf etməyə razı olsalar eybi yoxdur. Əks halda (icazə verməsələr) isə, bir-birindən aldıqları şey qəsbi mal kimidir. Onu bir-birinə qaytarmalıdırlar. Əgər hər birinin malı digərinin əlində tələf olsa, müamilənin batil olduğunu bilib-bilməmələrindən asılı olmayaraq, əvəzini verməlidirlər.

**M:2630.** Əgər bir malı satıcıdan baxmaq üçün götürsələr, yaxud müəyyən müddətdə öz yanında saxlayıb bəyənəcəyi halda almaq üçün saxlasalar, bu halda o mal tələf olarsa əvəzini sahibinə verməlidirlər.

### *TAPILAN ŞEYİN HÖKMLƏRİ*

**M:2631.** Əgər bir kəs heyvan qismindən olmayan, sahibini mə’lum edən nişanələri olmayan (itən bir malı) tapsa və onun qiyməti bir dirhəm–12,6 noxud

sikkəli gümüşdən az olmasa ehtiyat-vacib budur ki, sahibinin tərəfindən sədəqə versin.

**M:2632.** Əgər nişanəsi olan və qiyməti 12,6 noxud sikkəli gümüşdən az olan malı tapsa, bu halda sahibi mə'lum olarsa və insan onun razı olub-olmamasını bilməsə, icazəsi olmadan götürə bilməz. Lakin sahibi mə'lum olmasa öz mülkü olması qəsdi ilə götürə bilər. Ehtiyat-vacib budur ki, hər vaxt sahibini tapsa tələf olmamışsa malın özünü, tələf olmuşsa əvəzini versin. Ehtiyat-vacib budur ki, Məkkeyi-Müəzzəmə hərəminin məntəqəsində tapılan şeyi də götürməsin.

**M:2633.** Əgər tapdığı şeyin nişanələri olsa və bunların vasitəsilə sahibini tapmaq mümkün olsa, hətta sahibi müsəlmanların pənahında olan kafir də olsa, qiyməti 12,6 noxud sikkəli gümüş dəyərinə çatsa bir ilə müddətində camaatın yığışdığı və sahibinin olmasına ehtimal verilən yerlərdə e'lan etməlidir. Belə ki, camaat arasında "bir il müddətində müntəzəm surətdə e'lan etmişdir" desinlər. Əgər tapdığı gündən e'tibarən bir həftə müddətində hər gün, sonra isə bir il müddətində hər həftədə bir dəfə camaatın yığışdığı yerlərdə e'lan etsə, kifayətdir.

**M:2634.** Əgər insanın özü e'lan etmək istəməsə, arxayın olduğu şəxsə deyə bilər ki, onun tərəfindən e'lan etsin.

**M:2635.** Əgər bir il müddətində e'lan etdikdən sonra sahibi tapılmazsa, onu özü üçün götürə bilər. Bu məqsədlə ki, hər vaxt sahibini tapsa, onun əvəzini versin. Yaxud götürüb onun üçün saxlasın ki, hər vaxt tapılsa, qaytarsın, ya da sahibinin tərəfindən sədəqə versin. Amma ehtiyat-müstəhəb budur ki, sahibinin tərəfindən sədəqə versin.

**M:2636.** Əgər bir il e'lan etdikdən sonra sahibi tapılmasa və malı onun üçün saxlasa və tələf olub aradan getsə, bu halda onu saxlamaqda səhlənkarlıq və ifrat etməmiş olsa, zamin deyil. Lakin sahibinin tərəfindən sədəqə vermiş, yaxud özü üçün götürmüş olsa, hər iki halda zamindir. Amma əgər malın sahibi onun sədəqə verilməsinə razı olsa, zamin deyil.

**M:2637.** Hər hansı bir şeyi tapan şəxs qəsdən qeyd olunan göstərişə əsasən e'lan etməsə, günah etməsindən əlavə, e'lan etməsi yenə də vacibdir.

**M:2638.** Əgər dəli, yaxud həddi büluğa çatmayan uşaq bir şey tapsa, onun qəyyumu e'lan etməlidir. Bundan sonra onun mülkiyyətinə keçirə, yaxud sahibinin tərəfindən sədəqə verə bilər. Amma əgər səğir uşaq üçün məsləhəti olsa, gərək mülkiyyətinə keçirtsin.

**M:2639.** Əgər insan e'lan etdiyi il əsnasında malın sahibinin tapılmasından ümidsiz olsa belə ki, onu e'lan etmək artıq mə'nasız bir iş hesab olunsa, ehtiyat-vacib budur ki, onu sədəqə versin.

**M:2640.** Əgər e'lan etdiyi il əsnasında mal tələf olsa, bu halda onu saxlamaqda səhlənkarlıq, yaxud ifrat etmiş olsa, əvəzini sahibinə verməlidir. Əks halda isə onun boynunda bir şey vacib deyil.

**M:2641.** Əgər nişanəli, qiyməti 12,6 noxud sikkəli gümüş dəyərinə çatan bir malı, e’lan etməklə sahibinin tapılmayacağı mə’lum olan yerdən tapsa, elə tapdığı gün sahibinin tərəfindən sədəqə verə bilər; bir ilin tamam olmasını gözləməsi lazım (ilzami) deyil. Əgər sonradan sahibi tapılsa və sədəqə verilməsinə razı olmasa, əvəzini qaytarmalıdır. Verdiyi sədəqənin savabı onun özünə çatır.

**M:2642.** Əgər bir şey tapıb öz malı olduğunu güman edərək götürsə, sonradan onun malı olmadığı mə’lum olsa, bir il müddətinə qədər e’lan etməlidir. Ehtiyat-vacibə görə onu öz ayağı ilə hərəkət etdirib yerini dəyişsə də eynilə.

**M:2643.** Gərək e’lan etdiyi vaxt tapdığı şeyin cinsini camaatın nəzərində onun əlamətləri hesab olunacaq tərzdə (müəyyən şəkildə) desin. Məsələn, “kitab və ya paltar tapmışam” desin. “Bir şey tapmışam” desə, kifayət deyil.

**M:2644.** Əgər bir kəs bir şey tapsa və başqası “mənim malımdır” desə o halda ona verməlidir ki, nişanələrini desin, malın onun olmasına yəqin, yaxud xatircəmlik hasil olsun.

**M:2645.** Əgər tapdığı şeyin qiyməti 12,6 noxud sikkəli gümüş dəyərinə çatsa, bu halda e’lan etmədən məsciddə, yaxud camaatın yığışdığı başqa yerlərdə qoysa, nəticədə aradan getsə, yaxud başqası götürsə tapan şəxs zamindir.

**M:2646.** Əgər qalanda xarab olan bir şey tapsa, mümkün olan qədər saxlamalı sonra cameüş-şərait müctehidin, yaxud onun vəkilinin icazəsi ilə qiymət qoyub satmalı, pulunu saxlamalıdır. Və bir il müddətində malın xüsusiyyətlərini e’lan etməlidir. Sahibi tapılmazsa, onun tərəfindən sədəqə verməlidir.

**M:2647.** Əgər tapdığı şey dəstəmaz alanda, namaz qılanda onun üstündə olsa, bu halda məqsədi sahibini tapmaq olsa eybi yoxdur. Əks halda qəsb olunmuş şey hökmündədir.

**M:2648.** Əgər bir kəsin ayaqqabısını aparıb yerinə başqa bir ayaqqabı qoysalar bu halda qalan ayaqqabının onun ayaqqabısını aparan şəxsin olduğunu və o ayaqqabını, apardığı ayaqqabının əvəzində götürülməsinə razı olduğunu bilsə, onda sahibinin tapılacağından mə’yus olsa, yaxud tapmaq məşəqqətli olsa, onu öz ayaqqabısının yerinə götürə bilər. Amma əgər onun qiyməti öz ayaqqabısının qiymətindən artıq olsa, sahibini hər vaxt tapsa qiymətinin artıq hissəsini ona verməlidir. Əgər onu tapmaqdan naümid olsa, artıq qiyməti sahibinin tərəfindən sədəqə verməlidir. Əgər qalmış ayaqqabının onun ayaqqabısını aparan şəxsin malı olmadığını ehtimal versə və qiyməti də 12,6 noxud sikkəli gümüş dəyərindən az olsa özü üçün götürə bilər. Amma çox olsa, bir il müddətində e’lan etməli, bir ildən sonra ehtiyat-vacibə görə sahibinin tərəfindən sədəqə verməlidir.

**M:2649.** Əgər qiyməti 12,6 noxud sikkəli gümüşdən az olan mal tapıb əhəmiyyət verməyərək məscidə, yaxud başqa yerə qoysa və bir kəs də onu götürsə onun üçün halaldır.

**M:2650.** Tikilmək üçün dərzinin yanına gətirilən paltarlar, tə’mir üçün zərgərin yanında qoyulan qızıl mə’mulatlar, cildlənmək, yaxud satış üçün kitab satanların, cildləyənlərin yanında qoyulan kitablar, tə’mir üçün tə’mirçinin yanına qoyulan vəsaitlərin sahibi namə’lum olub aparmağa gəlməsələr, axtarış və təhqiqatdan sonra sahibinin gəlişindən mə’yus olsa, ehtiyat-vacibə görə sahibinin tərəfindən sədəqə verməlidir.

## HEYVANLARIN BAŞININ KƏSİLMƏSİ VƏ ŞİKAR EDİLMƏSİNİN HÖKMLƏRİ

**M:2651.** Əgər əti halal olan heyvanın başını, sonradan deyiləcək göstərişlərə əsasən kəssələr–istər vəhşi olsun istərsə də əhli, can verdikdən sonra əti halal, bədəni pak olur. Amma əgər nəcasət yeyən heyvanın başını, Şəriətdə müəyyən olunan göstərişlərə əsasən istibra etmədən kəssələr, əti halal deyil. İnsanın vəty (yaxınlıq) etdiyi heyvanın və onun balasının əti haramdır.

**M:2652.** Əti halal olan vəhşi heyvanların (ahu, kəklik, dağ keçisi və s.) və əti halal olub sonradan vəhşiləşən əhli heyvanların (fərar edib vəhşi olan ev inəyi və dəvə kimi) başının kəsilməsi asanlıqla müyəssər olmadığından, sonradan deyiləcək göstərişlərə əsasən şikar etsələr pak və halal olur. Amma asanlıqla başını kəsmək mümkün olan qoyun, ev toyuğu və s. kimi əti halal əhli heyvanları, habelə tə'lim verilməklə əhilləşdirilən əti halal vəhşi heyvanları şikar etsələr, pak və halal olmur.

**M:2653.** Əti halal olan vəhşi heyvan o vaxt şikarla pak və halal olur ki, qaça və ya uça bilsin. Deməli ahunun qaça bilməyən, kəkliyin uça bilməyən balası şikar edilməklə pak və halal olmur. Əgər ahu və onun qaça bilməyən balası bir güllə ilə şikar olunsa, ahu halal, balası haram olur.

**M:2654.** Əti halal, amma atıcı qanı olmayan heyvan məsələn, balıq öz-özünə suda ölsə, yaxud balıq ovunda deyilən Şəriət göstərişindən başqa yolla öldürülsə, pakdır, ancaq ətini yemək olmaz.

**M:2655.** Atıcı qanı olmayan haram ətli heyvan (ilan kimi) başı kəsilməklə halal olmur, amma onun ölüsü pakdır. İstər özü ölsün, istərsə də başı kəsilsin.

**M:2656.** İt və donuz baş kəsilməklə, şikar edilməklə pak olmur. Onların ətini də yemək haramdır. Yırtıcı və ət yeyən haram ətli heyvanların (canavar, pələng) başı qeyd olunan göstərişlərə əsasən kəsilsə, yaxud ox, güllə və s. ilə şikar olunsa pak olur, amma əti halal olmur. Əgər ov iti ilə onu şikar etsələr bədəninin pak olması işqallıdır.

**M:2657.** Fil, ayı, meymun, habelə yerin daxilində yaşayan və atıcı qanı olan siçan və kərtənkələ kimi heyvanlar öz-özünə ölsələr, nəcisdir. Hətta əgər başlarını kəssələr, yaxud şikar etsələr belə, bədəninin pak olması işqallıdır, ehtiyat-lazım onlardan ictinab etməkdir.

**M:2658.** Əgər diri heyvanın qarnından balası ölü doğulsa, yaxud onu ölü halda çölə çıxartsalar, ətini yemək haramdır.

### *HEYVAN BAŞININ KƏSİLMƏSİ QAYDALARI*

**M:2659.** Heyvanın başını kəsəndə hülqumu (nəfəs borusu), qida borusu və hülqumun iki tərəfində olan iki yoğun damar (bunlara "dörd damar" deyilir),

boğazın altında olan çıxıntının alt tərəfindən tam, kamil şəkildə kəsilməlidir. Əgər onları deşsələr, kifayət deyil.

**M:2660.** Əgər dörd damarın bə'zilərini kəsib gözləsələr və heyvan öləndən sonra qalanlarını kəssələr faydası yoxdur (pak olmur). Hətta əgər bu qədər də gözləməsələr, ancaq adi qaydada dörd damarı bir-birinin ardınca kəsməsələr, nəticədə vahid əməl hesab olunmasa və heyvanın canı çıxmamışdan qabaq qalan damarları kəssələr, işkalı var.

**M:2661.** Əgər canavar qoyunun boğazını qopartsa və boynundakı (kəsilməli olan) dörd damardan bir şey qalmasa, o heyvan haram olur. Amma boynunun bir miqdarını qopartsa və dörd damar qalsa, yaxud bədəninin başqa yerini yırtsa və qoyunu diri olan halda deyilən göstərişlərə əsasən kəssələr, əti halal və pakdır.

### *HEYVANIN BAŞININ KƏSİLMƏSİ ŞƏRTLƏRİ*

**M:2662.** Heyvanın başının kəsilməsində altı şərt var:

**1-**Heyvanın başını kəsən şəxs–istər qadın olsun istrəsə də kişi–müsəlman olmalıdır; Müməyyiz (yaxşını-pisi başa düşən) müsəlman uşağı heyvanın başını kəsə bilər. Amma kafir və ya kafir hökmündə olan firqələrdən (ğülat, xəvaric, nəvasib kimi) olan kəslər heyvanın başını kəsə bilməz.

**2-**Heyvanın başı dəmir şeylərlə kəsilməlidir. Amma əgər dəmir tapılmasa və heyvanın başını kəsməyəcəkləri halda murdar olacağı gözlənilərsə, onun dörd damarını ayıra bilən iti bir şey ilə (şüşə, daş parçası və s.) başını kəsmək olar.

**3-**Heyvanın başını kəsəndə bədəninin qabaq tərəfi üzü qibləyə olmalıdır. Heyvanın başının üzü qibləyə kəsilməli olduğunu bilən bir kəs qəsdən üzünü qibləyə çevirməsə, heyvan haram olur. Amma unutsa, məsələni bilməsə, yaxud qibləni səhv salsa, yaxud qiblənin hansı tərəfdə olmasını bilməyib soruşa da bilməsə, digər tərəfdən də başını kəsməyə naçar olsa, habelə heyvanı üzü qibləyə döndərə bilməsə, eybi yoxdur.

**4-**Heyvanın başını kəsmək istəyəndə, yaxud bıçağı onun başına qoyanda baş kəsmək niyyəti ilə Allahın adını zikr etməlidir. “Bismillah” demək kifayətdir. Amma əgər baş kəsmək qəsdi olmadan Allahın adını desə o heyvan pak olmur, əti də haramdır. Məsələni bilməməzlik üzündən Allahın adını deməsə də eyni qayda ilə (pak olmur, əti də haramdır). Amma əgər unutqanlıq üzündən Allahın adını deməsə, eybi yoxdur.

**5-**Heyvan baş kəsiləndən sonra gərək bir qədər hərəkət etsin (hətta misal üçün, diri olmasını mə'lum edən gözünü, yaxud quyruğunu hərəkət etdirmək, yaxud ayağını yerə vurmaq kimi də olsa), yaxud qan adi qaydada çölə gəlsin. Bu hökm o haldadır ki, heyvanın başı kəsilən halda diri olması şəkkli olsun. Əgər şəkkli olmasa, lüzumu yoxdur.

**6-**Heyvanın öldürülməsi baş kəsilən yerdən (qabaqdan) olsun. Vücubi-ehtiyata əsasən, bıçağı boyunun ardından batırıb qabaq tərəfə gətirmək (yə'ni, başı dal tərəfdən kəsmək) caiz deyil.

### *DƏVƏNİN NƏHR EDİLMƏSİNİN QAYDALARI*

**M:2663.** Əgər dəvəni can verəndən sonra pak və halal olsun deyə, nəhr etmək istəsələr, gərək heyvanın başının kəsilməsindəki beş şərtdən əlavə, bıçaq, dəmir və s. kimi kəsici olan başqa şeyi, onun sinəsi ilə boynu arasındakı çuxur yerə batırsınlar.

**M:2664.** Bıçağı dəvənin boğazına batırmaq istədikləri vaxt yaxşı olar ki, dəvə ayaq üstə olsun. Amma əgər dizlərini yerə vuran halda, yaxud böyrü üstə yatıb bədəninin qabağı üzü qibləyə olanda, bıçağı ora batırsalar, eybi yoxdur.

**M:2665.** Əgər bıçağı dəvənin boynundakı çuxura batırmaq əvəzinə başını kəssələr, yaxud qoyun, inək və s.-ni dəvədə olan kimi bıçağı onun boynundakı çuxura batırsalar, onların əti haram, bədənləri nəcis olur. Amma əgər dəvənin dörd damarını kəsib diri olduğu müddətdə qeyd olunan göstərişlərə əsasən, bıçağı onun boynundakı çuxura batırsalar əti halal, bədəni pak olur. Həmçinin əgər bıçağı inək, qoyun və s. boynundakı çuxura batırıb diri olduğu müddətdə başını, qeyd olunan göstərişlərə əsasən, kəssələr halal və pakdır.

**M:2666.** Əgər heyvan inadkar olsa və onu, Şəriətdə müəyyən olan göstərişlərə əsasən kəsə bilməsələr, yaxud quyuya düşüb ölməsi gözlənilsə və Şəriətdəki qaydalara əsasən kəsilməsi mümkün olmasa, onda itilik səbəbilə bədəni yaralayan bir şeylə (qılınc kimi) heyvanın bədənini yaralasalar və yaralanma nəticəsində can versə, halal olur; üzü qibləyə olması lazım (ilzami) deyil. Ancaq gərək heyvanların başının kəsilməsindəki deyilən sair şərtlərə riayət olunsun.

### *HEYVAN KƏSƏNDƏ MÜSTƏHƏB OLAN ŞEYLƏR*

**M:2667.** Heyvanların başının kəsilməsində bir neçə şey müstəhəbdir:

**1-**Məşhur qaydaya əsasən, qoyunun başını kəsəndə iki qabaq və bir dal ayağını bağlayıb bir ayağını isə açıq qoysunlar. İnəyin başını kəsəndə isə dörd ayağını bağlayıb quyruğunu açıq qoysunlar. Dəvəni nəhr edəndə qabaq ayaqlarını dizlərinə qədər, yaxud qoltuğunun altına qədər bir-birinə bağlayıb dal ayaqlarını açıq qoysunlar. Müstəhəbdir ki, toyuğun başını kəsdikdən sonra buraxsınlar ki, qoy-qanad çalsın.

**2-**Heyvanın başını kəsən şəxs üzü qibləyə olsun;

**3-**Heyvanı kəsməmişdən qabaq qabağına su qoysunlar;

**4-**Elə kəssinlər ki, heyvan az əzab-əziyyət çəksin. Məsələn, bıçağı yaxşı itiləsinlər və başını tez kəssinlər.

### *HEYVAN BAŞI KƏSƏNDƏ MƏKRUH OLAN ŞEYLƏR*

**M:2668.** Heyvanların başının kəsilməsində aşağıdakı işlər məkruhdur:

**1-**Başqa heyvanların olduğu yerdə bir heyvanın başını kəsmək;

**2-**Cümə gecəsi, yaxud günü zöhrdən qabaq heyvanın başını kəsmək; (Amma ehtiyac halında eybi yoxdur.)

**3-**İnsanın özünün bəslədiyi heyvanın başını kəsməsi; Ehtiyat-vacib budur ki, canı çıxmamış heyvanın dərisini soymasınlar və onurğa sümüyündə olan haram (onurğa) beynini–ətinin onun səbəbilə haram olmamasına baxmayaraq, kəsməsinlər və ehtiyat-müstəhəbə görə canı çıxmamışdan qabaq heyvanın başını bədənindən ayırmasınlar. Amma bu əməl ilə heyvan haram olmur. Əgər qəflət üzündən, yaxud bıçağın çox iti olması səbəbilə ixtiyarsız olaraq heyvanın başı bədənindən ayrılsa, məkruh deyil.

### *SİLAH İLƏ ŞİKARIN HÖKMLƏRİ*

**M:2669.** Əgər əti halal olan vəhşi heyvanı silah ilə ovlasalar və ölsə 5 şərt daxilində bədəni pakdır:

**1-**Şikar silahı bıçaq, qılınc kimi kəsici, yaxud nizə, ox kimi iti olsun və itilik səbəbilə heyvanın bədənini parçalasın. Əgər heyvanı tora salmaq, çubuq, daş və s. kimi şeylərlə şikar etsələr (və ölsə) pak olmur, onu yemək də haramdır. Amma əgər onu diri tutub başını kəssələr haram olmaz. Əgər bir heyvanı tüfənglə ovlasalar, onun gülləlləri iti olub heyvanın bədəninə batsa və onu parçalasa, pak və halaldır; yox əgər güllənin ucu iti olmasa, əksinə təzyiq, sür’ət nəticəsində heyvanın bədəninə batıb öldürsə, yaxud hərarət vasitəsilə bədənini yandırsa və bu səbəblə heyvan ölsə pak və halal olması işqallıdır.

**2-**Şikar edən müsəlman, yaxud yaxşını-pisi başa düşən müsəlman uşağı olsun. Əgər kafir, yaxud kafir hökmündə olan bir kəs (ğülat, xəvaric və nəvasib kimi) heyvanı şikar etsə o şikar halal deyil.

**3-**Silahı heyvanı şikar etmək üçün işlətsin. Amma başqa yeri nişan alsa və təsadüfən heyvana dəyib öldürsə o heyvan pak deyil, yeyilməsi də haramdır.

**4-**Silahı işə salanda Allahın adını desin. Əgər qəsdən Allahın adını deməsə, şikar halal deyil. Amma unutsa, eybi yoxdur.

**5-**Heyvana çatanda ölmüş olsun, yaxud diri olarsa baş kəsmək miqdarında vaxt olmasın. Əgər baş kəsmək miqdarında vaxt olduğu halda heyvanın başını kəsməsə və ölsə haramdır.

**M:2670.** Əgər biri müsəlman və digəri kafir olan iki nəfər bir heyvanı şikar etsə, o heyvan halal deyil. Əgər hər ikisi müsəlman olsa, lakin ikisindən biri Allahın adını deyib digəri qəsdən deməsə, o heyvan ehtiyat-vacibə görə halal deyil.

**M:2671.** Əgər heyvanı məsələn, güllə ilə vurduqdan sonra suya düşsə və insan onun həm güllə, həm də suya düşmək səbəbilə can verdiyini bilsə, halal deyil. Hətta təkcə güllə səbəbilə ölüb-ölməməsində şəkk etsə də halal deyil. Əgər bir heyvanı şikar etsələr və gözdən itsə, sonra onu ölmüş halda tapsalar, bu halda onun ölümünün təkcə şikar silahı ilə olmasına istinad versələr halaldır. Amma əgər şikar silahının başqa şeyin köməyi ilə heyvanın ölümünə səbəb olmasını ehtimal versələr, nəcasəti hökm olunur və haramdır.

**M:2672.** Əgər bir kəs qəsbi it və ya qəsbi silah ilə heyvanı şikar etsə, şikar halal və onun öz malıdır, amma günah etməkdən əlavə, silahın və ya itin muzdunu sahibinə qaytarmalıdır.

**M:2673.** Əgər qılınc, yaxud şikar etmənin səhih olduğu başqa şeylər əvvəldə deyilən şərtlərə uyğun olaraq heyvanı iki yerə bölsə, başı ilə boynu bir tərəfində qalsa və insan ona, can verməsindən sonra çatsa–əgər parçalamaq səbəbilə can vermiş olsa, hər iki hissəsi halaldır; və əgər heyvan diri olsa və baş kəsmək üçün Şəriət qaydalarına əməl etməyə vaxt olsa ehtiyat-vacibə görə baş və boyun olmayan hissə haram, olan hissə isə halaldır. Əgər baş kəsmək üçün vaxt olarsa, baş olmayan tərəfi haram, baş olan tərəfi isə Şəriət qaydalarına uyğun olaraq kəsilsə, halaldır. Bu şərtlə ki, hətta diri qalması mümkün olmasa və can vermə halında olsa da başını kəsən vaxt diri olsun.

**M:2674.** Əgər çubuq, daş və şikar etmək səhih olmayan sair şeylərlə heyvanı iki yerə bölsələr, baş və boynu olmayan hissə haram, baş və boyun olan hissə isə diri olsa, başını Şəriət qaydalarına uyğun olaraq kəssələr, halaldır. Bu şərtlə ki, başı kəsilən vaxtda–hətta diri qalması mümkün olmasa və can vermə halında olsa da, diri olsun.

**M:2675.** Əgər bir heyvanı şikar etsələr (və ya başını kəssələr) və onun qarnından balası diri çıxsa, bu halda onu Şəriət qaydalarına uyğun kəssələr, halal, əks halda isə haramdır.

**M:2676.** Əgər bir heyvanı şikar etsələr, (yaxud başını kəssələr) qarnından ölü balası çıxsa, bu halda onun xilqəti kamil olsa, bədənində tük, yun göyərmiş olsa və anasının öldürülməsi səbəbilə ölmüş olsa, pak və halaldır. Amma əgər anasının öldürülməsindən qabaq ölmüş olsa, nəcis və haramdır.

## *OV İTİ İLƏ ŞİKAR ETMƏK*

**M:2677.** Əgər ov iti əti halal olan vəhşi və ya vəhşiləşmiş əhli heyvanı şikar etsə, onun pak və halal olmasının 7 şərti vardır:

**1-**İtə elə tə'lim verilsin ki, hər vaxt onu şikar tutmaq üçün göndərsələr getsin və hər vaxt ov dalınca getməsinin qabağını alsalar, dayansın; Amma əgər şikara yaxınlaşanda qabağını ala bilməsələr, eybi yoxdur. Ehtiyat-vacib budur ki, əgər sahibi çatmazdan qabaq şikarı yeməyə adət etsə, şikardan ictinab etsinlər.

Amma əgər şikar etdiyi heyvanın qanını yeməyə adət etsə, yaxud təsadüfən şikarı yesə eybi yoxdur.

**2-**O iti, sahibi göndərsin; əgər göndərilmədən ovun dalınca gedib şikar etsə o heyvanı yemək haramdır. Hətta əgər öz-özünə şikara getsə və sonradan sahibi ovu tez tutmaq üçün muşqurtsa, sahibinin səsi vasitəsilə tələsməsinə baxmayaraq, ehtiyat-vacibə görə gərək o şikarın ətini yeməsinlər.

**3-**İti ov dalınca göndərən şəxs müsəlman, yaxud yaxşını-pisi başa düşən müsəlman övladı olsun; Əgər kafir, yaxud kafir hökmündə (ğulat, xəvaric, Əhli-beyt (əleyhimüs-salam) ilə düşmənlik izhar edən nasibilərdən) olan şəxs iti göndərsə, o itin etdiyi şikar haramdır.

**4-**İti göndərən vaxt Allahın adını zikr etsin; Əgər qəsdən Allahın adını zikr etməsə o şikar haramdır. Amma əgər unudaraq deməsə eybi yoxdur. Əgər iti göndərən zaman Allahın adını qəsdən deməsə və itin şikara çatmasından qabaq Allahın adını desə ehtiyat-vacibə görə o şikardan ictinab olunmalıdır.

**5-**Şikar, itin dişindən aldığı yara səbəbilə ölsün; Deməli, it ovu boğsa, yaxud şikar qaçmaqla, qorxudan ölsə, halal deyil.

**6-**İti göndərən şəxs, heyvanın öldüyü vaxt çatsın, yaxud diri olarsa, başını kəsmək qədər vaxt olmasın; Əgər baş kəsmək qədər vaxt olarkən çatıb başını kəsməsə, nəticədə ölsə, halal deyil.

**7-**Ovçu (şikarçı) sür'ətlə, yaxud adi qaydada ova tərəf hərəkət etsin.

**M:2678.** İti göndərən şəxs heyvana, başını kəsə biləcəyi vaxt çatıb adi, yaxud tələsən halda bıçağı çıxartsa və baş kəsilmə vaxtı keçsə, nəticədə heyvan ölsə, halaldır. Amma əgər misal üçün, bıçağın qabının dar olması, yaxud bir şeyin yapışması səbəbilə çıxartmaq uzun çəksə və vaxt keçsə ehtiyat-vacibə görə halal olmur. Əgər heyvanın başını kəsməyə alət olmasa və o heyvan ölsə vacibdir ki, onun ətini yeməkdən ictinab olunsun.

**M:2679.** Əgər bir neçə it göndərsələr və onların hamısı birlikdə bir heyvanı şikar etsə, bu halda onların hamısında əvvəldə deyilən şərtlər mövcud olsa, şikar halaldır. Əgər birində həmin şərtlər olmasa, amma şikar edilməsində rolu olsa, o şikar haramdır.

**M:2680.** Əgər iti bir heyvanı şikar etmək üçün göndərsələr və başqa heyvanı şikar etsə, halal və pakdır. Həmçinin əgər it, o heyvanı başqa heyvanla birlikdə şikar etsə, hər ikisi halal və pakdır.

**M:2681.** Əgər iti aralarında bir kafir olan bir neçə nəfər birlikdə göndərsələr, o şikar haramdır. Əgər hamısı müsəlman olsa, amma onlardan biri Allahın adını qəsdən deməsə ehtiyat-lazıma görə o şikar haramdır. Həmçinin göndərilən itlərdən birinə əvvəldə deyilən kimi tə'lim verilməmiş olsa, o şikar haramdır.

**M:2682.** Əgər ov itindən başqa şahin və ov quşu bir heyvanı şikar etsə o şikar halal deyil. Amma əgər heyvanın diri olduğu vaxt çatıb Şəriətdəki qaydalara əsasən başını kəssələr halaldır.

## *BALIQ OVU*

**M:2683.** Əgər pullu balığı sudan diri tutsalar və sudan kənarda can versə pak, yeyilməsi də halaldır. Əgər suda ölsə pak, yeyilməsi isə haramdır. Amma əgər balıqçıların toruna düşüb suda ölsə, yeyilməsi halaldır. Pulsuz balıqları hətta sudan diri tutsalar və sudan çöldə can versə, haramdır.

**M:2684. Ə**gər balıq sudan kənara düşsə, yaxud dalğalar onu kənara atsa, yaxud da su çəkilsə və balıq quruda qalsa, ölməmişdən qabaq bir kəs onu əl ilə, yaxud başqa vasitələrlə tutsa, öləndən sonra halaldır.

**M:2685.** Balığı tutan bir kəsin müsəlman olması, onu götürən vaxt Allahın adını deməsi lazım (ilzami) deyil. Amma müsəlman gərək kafirin onu diri tutmasını və sudan çöldə can vermiş olduğunu bilsin.

**M:2686.** Sudan ölü, yaxud diri halda tutulması mə'lum olmayan ölü balıq müsəlmanın əlində olsa halaldır. Əgər kafirin əlində olsa, hətta "onu diri tutmuşam" desə də, haramdır. Amma əgər onun sözünün doğruluğuna yəqin və ya xatircəmlik hasil olsa, yaxud iki nəfər adil şəxs şəhadət versə haram deyil.

**M:2687.** Diri balığı yeməyin eybi yoxdur.

**M:2688.** Əgər diri balığı kabab etsələr, yaxud, sudan kənarda, can verməmişdən qabaq öldürsələr, yeyilməsinin eybi yoxdur.

**M:2689.** Əgər balığı sudan kənarda iki yerə bölsələr və onun bir hissəsi diri ikən suya düşsə, sudan kənarda qalan hissəni yeməyin eybi yoxdur.

## *ÇƏYİRTKƏ OVU*[38]

**M:2690.** Əgər çəyirtkəni əl, yaxud başqa vasitələrlə diri tutsalar can verəndən sonra yeyilməsi halaldır. Onu tutan şəxsin müsəlman olması, onu tutduğu vaxt Allahın adını deməsi lazım (ilzami) deyil. Amma ölü çəyirtkə kafirin əlində olsa və onu diri tutub-tutmaması mə'lum olmasa, "hətta diri tutmuşam" desə də halal deyil. Amma əgər onun sözünün doğruluğuna xatircəmlik hasil olsa, yaxud iki nəfər adil şəhadət versə halaldır.

**M:2691.** Qol-qanadı çıxmayan və uça bilməyən çəyirtkəni yemək haramdır.

---

[38]Əti yeyilən bir çəyirtkə növüdür

## YEMƏLİLƏRİN VƏ İÇMƏLİLƏRİN HÖKMLƏRİ

**M:2692.** Caynağı olan yırtıcı quşların (şahin, qartal, kərkəs, çalağan və s.) ətini yemək haramdır. Həmçinin ehtiyat-vacibə görə qarğa, gecə quşu, tavuz da bu qayda ilə. Amma göyərçin növləri, kəklik, turac, qırqovul, ev toyuğu, sərçə növləri və s. kimi quşların yeyilməsi halaldır. (Bülbül, qaraquş, bildirçin, sərçə növündəndir.) Amma ehtiyat-vacibə görə şanapipik və qaranquşun ətini yeməkdən ictinab olunmalıdır.

**M:2693.** Adətən əti halal olan quşlar əti haram olan quşlardan iki yolla seçilir:

**1-**Uçan vaxtı qanad çalması, qanad saxlamasından çox olan quşlar halal, uçanda əksər hallarda qanadlarını saxlayıb çalmayanların əti haramdır.

**2-**Çinədanı, yaxud (insanın baş barmağı kimi) ayrı barmağı olanlar halal, olmayanlar isə haram ətlidir.

**M:2694.** Əti halal olan quşların yumurtası halal, əti haram olan quşların yumurtası isə haramdır. Əgər səhv olunsa, onda iki tərəfi bərabər olanlar haram, bir tərəfi o biri tərəfindən nazik olanlar isə halaldır.

**M:2695.** Su heyvanları içərisində yalnız pullu balıq və pulları təkcə qulaqlarının yanında aşkar görünən balıq növləri halaldır. Pulsuz balıqların əti, sair dəniz heyvanları (balina, xərçəng, qurbağa və s.) kimi haramdır.

**M:2696.** Halal balığın kürüsü halal, haram balığın kürüsü haramdır.

**M:2697.** Əgər diri heyvandan ruhu olan bir hissə ayrılsa (məsələn, qoyunun quyruğu, yaxud ətinin bir hissəsini kəssələr) nəcis və haramdır.

**M:2698.** Əti halal olan heyvanların bə'zi hissələri halal, bə'zi hissələri isə ehtiyat-lazıma görə haramdır. Onların cəmisi 15-dir:

**1-**Qan; **2-**Fəzlə; **3-**Toxumluq; **4-**Fərc (cinsiyyət orqanı); **5-**Balalıq; **6-**Artıq ətlər; **7-**Donbalan deyilən toxum; 8-Kəllə beynində xüsusi formada, noxudun yarısı qədər olan hissə; **9-**Onurğa sümüyünün içində olan haram beyin (onurğa beyni); **10-**Onurğa sümüyünün iki tərəfində olan piy; **11-**Öd kisəsi; **12-**Dalaq; **13-**Bovl kisəsi; **14-**Gözlərin bəbəyi. Ehtiyat lazıma görə; **15-**Dırnaqların arasında olan və zatül əşca adlanan vəz. Ehtiyat lazıma görə, bu şeylərin haramlığı böyük heyvanlardadır. Amma kiçik heyvanlarda (sərçə kimi) bunların ayırd edilməsi, yaxud ayrılması mümkün olmasa, yeməyin eybi yoxdur.

**M:2699.** Heyvanın peyinin və burnunun suyunu yemək haramdır. Ehtiyat-vacib budur ki, insanın təbiətinə iyrənc olan sair şeylərdən də ictinab olunsun. Amma əgər pak olsalar və onun bir miqdarı yeyilməsi halal olan şeylərlə, camaatın nəzərində aradan getmiş sayılan tərzdə qarışsa yeyilməsinin eybi yoxdur.

**M:2700.** Torpaq yemək haramdır. Amma Həzrəti Seyyidü-Şühəda İmam Hüseyn (əleyhis-salam)-ın türbətini (şəfa üçün) az miqdarda yemək caizdir. Daha yaxşı olar ki, türbəti suda həll edib (həll olmaqla) aradan getdikdən sonra içsinlər. Dağıstan və İrəvan gilini müalicə üçün yeməyin (əgər əlacı yalnız bunları yeməkdə olsa) eybi yoxdur.

**M:2701.** Ağız boşluğuna gəlməyən burun suyunu və bəlğəmi udmaq haram deyil. Amma ağız boşluğuna daxil olarsa, ehtiyat-vacib onu udmamaqdır. Dişlərin dibini təmizləyən zaman oradan çıxan yemək qalıqlarını udmağın–insanın təbiəti ondan iyrənmirsə–eybi yoxdur.

**M:2702.** Ölümə səbəb olan, yaxud insan üçün külli (yüz faizlik) zərəri olan şeylərin yeyilməsi haramdır.

**M:2703.** Əhli heyvanlardan dəvə, inək və qoyunun əti halal; at, qatır və ulağın əti isə məkruhdur. Vəhşi çöl heyvanlarından ahu, maral, vəhşi inək, vəhşi qoç, dağ keçisi və zebr halaldır.

**M:2704.** Əti halal əhli heyvanın əti üç yolla haram olur:

**1-**Adəti üzrə insan nəcisini yesə; (Bu halda onun əti və südü haram, ehtiyat-vacibə görə bovlu, qaiti və təri də nəcis olur.)

**2-**İnsan bu heyvanlarla yaxınlıq edib çirkin əmələ mürtəkib olsa; (Bu halda onun əti və südü, hətta ehtiyat-vacibə görə onun bütün nəsli də haram olur, həmçinin bovlu və qaiti də ehtiyata görə nəcisdir.)

**3-**Donuz südündən qidalanıb sümüyü onunla möhkəmlənən, inkişaf edən quzu, çəpiş və buzovun əti, südü və nəsli haram olur. Ehtiyat-vacibə görə bovl və qaiti də nəcisdir. Amma əgər insan südü əmib böyüsələr əti, südü haram deyil, amma kərahəti var.

**M:2705.** Nəcis yeyən heyvanın ətinin halal olması üçün onu istibra etməlidirlər. Yə'ni bir müddət nəcasət yeməsinin qarşısını alıb o qədər pak yeməklər verilməlidir ki, daha ona “nəcis yeyən” deyilməsin. Ehtiyat-vacibə görə dəvə 40 gün, inək 30 gün (yaxşı olar ki, 40 gün), qoyun 10 gün (yaxşı olar ki, 14 gün), su quşları 5 gün (yaxşı olar ki, 7 gün), ev toyuqları 3 gün və balığı bir gün istibra etsinlər.

**M:2706.** İnsanın yaxınlıq etdiyi heyvanın adətən ət və südündən istifadə olunursa (dəvə, inək, qoyun kimi), onu mümkün olan hər vasitə ilə dərhal öldürüb ətini yandırmalıdırlar. Bu çirkin vəty əməlinə mürtəkib olan şəxs onun pulunu sahibinə verməlidir. Əgər adətən minik üçün istifadə olunursa (at, qatır və ulaq kimi) onu başqa şəhərə aparıb orada satmalıdırlar. Vəty əməlini görən şəxs isə ona dəyən xəsarəti və pulunu ödəməlidir. Əgər bu heyvan sair heyvanların içinə qarışıb səhvə düşsə poşk atmaqla müəyyənləşdirilməlidir.

**M:2707.** Nəcis heyvanın (it və donuz kimi) əti və südü haramdır. Həmçinin adətən iynəsi və caynağı olan vəhşi, yırtıcı heyvanların (pələng, bəbr, canavar, kaftar, çaqqal, tülkü, pişik), həmçinin məsx olunmuş heyvanların (fil, ayı,

meymun, dovşan) əti və südü haramdır. Kiçik həşəratları və həşəratları (siçan, kərtənkələ, ilan, koramal, əqrəb, tarakan, arı, qarışqa, milçək, ağcaqanad və sair qurdları) yemək haramdır.

**M:2708.** Şərab içmək haramdır. Bə’zi rəvayətlərdə ən böyük günah sayılmışdır. Hər kəs onu halal hesab etsə və onun halal sayılması Allahın və Peyğəmbər (s)-in təkzib edilməsinə gətirib çıxararsa kafirdir. İmam Cəfər Sadiq (əleyhis-salam)-dan rəvayət olunub ki, buyurur: “Şərab pisliklərin kökü, günahların mənşəyidir. Şərab içən kəs öz əqlini əldən verir və o vaxtda Allahı tanımır. Heç bir günahdan qorxusu olmur. Heç kəsin hörmətini saxlamır. Yaxın qohumlarının haqqına riayət etmir. Aşkar çirkinliklərdən çəkinmir. İman və tövhid ruhu bədənindən çıxır. Naqis və xəbis, Allahın rəhmətindən uzaq olan bir ruh onda qalır. Allah, mələklər, peyğəmbərlər və mö’minlər ona lə’nət edir, 40 gün namazı qəbul olmur. Qiyamət günü onun üzü qara, dili ağzından çölə çıxmış, ağzının suyu sinəsinə axan halda susuzluqdan nalə edəcəkdir.”

**M:2709.** İnsan şərab içilən süfrənin başında oturanlardan biri sayılsa oturmamalıdır. O süfrədən bir şey yemək haramdır.

**M:2710.** Hər müsəlmana vacibdir ki, susuzluqdan, aclıqdan ölüm ərəfəsində olan müsəlmana çörək və su verib onu ölümdən xilas etsin.

### *YEMƏK YEYƏNDƏ MÜSTƏHƏB OLAN ŞEYLƏR*

**M:2711.** Yemək yeyəndə müstəhəbdir ki:

**1-**Yeməkdən qabaq əlləri yusun;

**2-**Yeməkdən sonra əlləri yuyub dəsmalla qurulasın;

**3-**Ev sahibi hamıdan qabaq (yeməyə) başlayıb hamıdan sonra çəkilsin;

**4-**Yeməyə başlayanda “bismillah” desin; Amma əgər bir süfrədə bir neçə növ yemək olsa hər birini yeməyə başlayanda “bismillah” demək müstəhəbdir.

**5-**Sağ əllə yesin;

**6-**Əgər bir neçə nəfər bir süfrənin başında otursa, hər kəs öz qabağında olan yeməklərdən yesin;

**7-**Tikələri kiçik götürsün;

**8-**Yeməyi tə’cili və tələsən halda yeməsin, yeməyi uzatsın;

**9-**Xörəyi yaxşı-ylxşı çeynəsin;

**10-**Yeməkdən sonra Allaha həmd etsin;

**11-**Yeməkdən sonra dişlərini yusun, dişlərinin dibində qalan yemək qalıqlarını çıxartsın, ağzını yusun, misvak vursun;

**12-**Yeyinti məhsullarını atmasın; Amma səhrada çörək yeyirsə, müstəhəbdir ki, tökülən şeyləri quşlar, heyvanlar üçün qoysun;

**13-**Gündüz və gecənin əvvəlində yemək yesin, gündüz və gecə arasında yemək yeməsin;

**14-**Yemək yeyəndən sonra arxası üstə uzanıb sağ ayağını sol ayağının üstünə qoysun;

**15-**Yeməyin əvvəlində və axırında duz yesin;

**16-**Meyvələri və göyərtiləri yeməkdən qabaq su ilə yusun;

**17-**Mümkün qədər qonağı olsun;

**18-**Yemək yeyəndə oturub yesin.

### *YEMƏK YEMƏKDƏ MƏKRUH OLAN ŞEYLƏR*

**M:2712.** Yemək vaxtı bir neçə şey məkruhdur.

**1-**Tox halında yemək;

**2-**Çox yemək; (Rəvayətdə var ki, Allahın hər şeydən artıq, qarnı dolu olan adamdan acığı gəlir.)

**3-**Yemək yeyəndə başqalarının üzünə baxmaq;

**4-**Xörəyi çox isti, yandıra-yandıra yemək;

**5-**Yediyi, yaxud içdiyi şeyi üfürmək;

**6-**Süfrəyə çörək qoyulandan sonra başqa şeyləri gözləmək;

**7-**Çörəyi bıçaqla kəsmək;

**8-**Çörəyi yemək qabının altına qoymaq, ona hər növ ehtiramsızlıq etmək;

**9-**Sümüyə yapışan ətləri tər-təmiz təmizləmək;

**10-**Meyvəni tam yemədən atmaq.

### *SU İÇMƏYİN MÜSTƏHƏBBATI*

**M:2713.** Su içməkdə bir neçə şey müstəhəbdir:

**1-**Suyu somurmaqla içmək;

**2-**Gündüzlər ayaq üstə içmək;

**3-**Su içməkdən əvvəl "bismillah", axırda "əlhəmdu lillah" demək;

**4-**Suyu üç dəfəyə içmək;

**5-**Meyli olanda su içmək;

**6-**Su içəndən sonra İmam Hüseyn (əleyhis-salam) və onun Əhli-beytini yad edib və qatillərinə lə'nət göndərsin.

### *SU İÇMƏYİN MƏKRUHATI*

**M:2714.** Çox su içmək, piyli yeməklərdən sonra su içmək gecə ayaq üstə su içmək məkruhdur. Həmçinin suyu sol əllə içmək, qabın sınıq yerindən və dəstəyindən tutub içmək məkruhdur.

## NƏZİR, AND, ƏHD VƏ VƏQFİN HÖKMLƏRİ

**M2715.** Nəzir budur ki, insan müəyyən xeyir işi Allah üçün yerinə yetirməyi, yaxud görülməməsi yaxşı olan işi Allah üçün tərk etməyi özünə vacib etsin.

**M:2716.** Nəzir iki qismdir:

1-Şərt edilməklə olunan nəzir; Məsələn. şəxs “əgər mənim xəstəliyim sağalsa, Allah üçün filan işi görmək mənim öhdəmə olsun” desin. Bu cür nəzirə “şükür nəziri” deyilir. Yaxud “əgər filan çirkin işi görsəm, filan xeyir işi Allah üçün yerinə yetirəcəyəm” desin. Bu cür nəzirə “zəcr nəziri” deyilir;

**2-**Mütləq nəzir. Bu qeydsiz-şərtsiz deyilən nəzirdir. Məsələn, “mən Allaha nəzir edirəm ki, gecə namazı qılam” desin. Bütün bu nəzirlər səhihdir.

**M:2717.** Nəzirdə siyğə oxunmalıdır. Onun ərəbcə oxunması lazım (ilzami) deyil. Deməli “əgər xəstəliyim sağalsa, Allah üçün 10 tümən fəqirə vermək mənim boynumadır” desə, səhihdir. “Allah üçün” kəlməsi dildə deyilməlidir, qəlbdə qəsd olunması kifayət deyil.

**M:2718.** Nəzir edən şəxs mükəlləf, aqil olmalı, öz ixtiyarı və qəsdi ilə nəzir etməlidir. Deməli nəzir etməyə məcbur olan, əsəbiləşib ixtiyarsız olaraq nəzir edən şəxslərin nəziri səhih deyil.

**M:2719.** Müfəlləs və səfeh şəxs bir şey fəqirə verməyi nəzir etsə, səhih deyil.

**M:2720.** Qadının ərinin hüquqlarına narahatçılıq törədərsə, ondan icazə almadan nəzir etməsi batildir. Amma əgər narahatçılıq törətməsə ehtiyat-vacib budur ki, onun icazəsi ilə olsun. Xüsusilə mal nəzir etməkdə, hətta o mal qadının özünə məxsus olsa da (icazə lazımdır).

**M:2721.** Əgər qadın ərinin icazəsi ilə nəzir etsə, əri ehtiyat-vacibə görə onun nəzrini poza, yaxud nəzrinin verməsinə mane ola bilməz.

**M:2722.** Əgər övlad, atasının icazəsi olmadan da nəzir etsə, nəzrinə əməl etməlidir. Amma nəzir edəndən sonra atası ona mane olsa nəzirə vəfa etməsi lazım (ilzami) deyil. Ana da ehtiyat-vacibə görə eynilə.

**M:2723.** İnsan o işi nəzir edə bilər ki, görülməsi mümkün olsun. Deməli piyada Kərbəlaya gedə bilməyən bir kəs, piyada getməyi nəzir etsə, nəziri səhih deyil.

**M:2724**. Əgər məkruh, haram bir iş görməyi, yaxud vacib, müstəhəb işi tərk etməyi nəzir etsə, nəziri səhih deyil.

**M:2725.** Nəzir etdiyi əməlin cü”ziyyatı (incəlikləri) və xüsusiyyətlərinin bəyənilən (mətlub) olması lazım (ilzami) deyil. Elə onun ümumi halda əsli Şəriətdə bəyənilən olsa kifayətdir. Məsələn, əgər hər ayın birinci gecəsi gecə namazı qılmağı nəzir etsə, səhihdir və ona əməl etməlidir. Yaxud xas bir yerin fəqirlərinə təam verməsini nəzir etsə öz nəzirinə müvafiq olaraq əməl etməlidir,

**M:2726.** Əgər mübah[39] bir işi yerinə yetirməyi, yaxud tərk etməyi nəzir etsə, bu halda onu yerinə yetirməklə tərk etmək bütün cəhətlərdən bərabər olsa, nəziri səhih deyil. Əgər yerinə yetirilməsi müəyyən cəhətdən yaxşı olsa və insan da həmin cəhəti nəzərdə tutaraq nəzir etsə (məsələn, müəyyən şey yeməyi, ibadətdə qüvvət tapması üçün nəzir etsə) onun nəziri səhihdir. Həmçinin əgər mübah bir işin tərk olunması müəyyən cəhətdən yaxşı olsa və insan da həmin cəhəti nəzərdə tutaraq nəzir etsə, (məsələn, tüstünün zərərli olduğuna görə siqarəti tərk etməsini nəzir etsə) nəziri səhihdir.

**M:2727.** Əgər vacib namazı öz-özlüyündə, adi halda savabı çox olmayan bir yerdə qılmağı (məsələn, otaqda qılmağı) nəzir etsə, bu halda orada namaz qılmaq müəyyən cəhətdən yaxşı olsa (məsələn, ora sakitlik olduğuna görə insan orada hüzuri-qəlb tapacaqsa) nəzir səhihdir.

**M:2728.** Əgər bir əməli yerinə yetirməyi nəzir etsə, nəzir etdiyi qaydada yerinə yetirməlidir. Deməli, əgər ayın əvvəl günü sədəqə verməsini, yaxud oruc tutmasını, yaxud da ayın əvvəlinin namazını qılmağı nəzir etsə bu halda həmin gündən əvvəl və ya sonra yerinə yetirsə kifayət deyil. Həmçinin əgər xəstəliyi sağalarsa sədəqə verməyi nəzir etsə və sağalmamışdan qabaq sədəqə versə, kifayət deyil.

**M:2729.** Əgər oruc tutmağı nəzir etsə, amma vaxtını və miqdarını müəyyən etməsə, bir gün oruc tutması kifayətdir. Əgər namaz qılmağı nəzir edib amma miqdarını, xüsusiyyətlərini müəyyən etməsə, iki rəkətlik bir namaz qılması kifayətdir. Əgər sədəqə verməsini nəzir edib, onun cinsini və miqdarını müəyyən etməsə, "sədəqə vermişdir" deyilə bilən bir şey versə, öz nəzirinə əməl etmişdir. Əgər müəyyən bir işi Allah üçün yerinə yetirməyi nəzir etsə, onda bir namaz qılsa, yaxud bir gün oruc tutsa, yaxud bir şey sədəqə versə, öz nəzirini yerinə yetirmişdir.

**M:2730.** Əgər müəyyən bir gün oruc tutmağı nəzir etsə həmin günü oruc tutmalıdır və o gündə səfərə gedə bilməz. Əgər səfərə getmək səbəbilə oruc tutmasa, o günün qəzasından əlavə, kəffarə də verməlidir. Amma əgər səfər etməyə məcbur olsa və ya başqa üzr səbəbilə (xəstəlik, yaxud heyz) həmin gün tuta bilməsə, təkcə qəzası kifayətdir.

**M:2731.** Əgər insan ixtiyar üzündən öz nəzirinə əməl etməsə, kəffarə verməlidir. Yə'ni, ya bir qul azad etməli, ya 60 fəqirə təam verməli, ya da iki ay ardıcıl oruc tutmalıdır.

**M:2732.** Əgər müəyyən bir vaxta kimi bir əməli tərk etməyi nəzir etsə, o vaxt keçəndən sonra o əməli görə bilər. Əgər vaxt keçməmişdən qabaq unudaraq, yaxud naçar olaraq o işi görsə, heç nə vacib olmur. Amma yenə o vaxta qədər

---

39Vacib, haram, məkruh və müstəhəb olmayan bir iş, məsələn, adi halda su içmək kimi.

həmin əməli görməməlidir. Əgər həmin vaxt qurtarmamışdan qabaq üzrsüz olaraq yenidən o əməli görsə, əvvəlki məsələdə deyildiyi qədər kəffarə verməlidir.

**M:2733.** Əgər bir kəs müəyyən bir əməli daimi olaraq tərk etməyi nəzir edib vaxtını müəyyən etməsə, bu halda ixtiyar üzündən onu görsə birinci dəfədə kəffarə verməlidir. Əgər onun nəzrinin hər dəfəsi nəzirə aid olursa, hər dəfə o işi yerinə yetirdiyi üçün kəffarə verməlidir. Amma əgər belə məqsədi olmasa, yaxud məqsədinin necə olmasında şəkk etsə birdən artıq kəffarə vacib deyil.

**M:2734.** Əgər hər həftənin müəyyən gününü, məsələn, cümə gününü oruc tutmağı nəzir etsə və cümələrdən biri Fitir və Qurban bayramına düşsə, yaxud cümə günü başqa üzr tapılsa (məsələn, heyz vaxtına düşsə) o günü oruc tutmamalı, ehtiyatən qəzasını tutmalıdır.

**M:2735.** Əgər müəyyən qədər sədəqə verməyi nəzir etsə və sədəqə verməmişdən qabaq ölsə, o miqdarı onun malından sədəqə vermək lazım (ilzami) deyil. Daha yaxşı olar ki, onun vərəsələrindən həddi-büluğa çatanları o miqdarı öz malından və meyyitin tərəfindən sədəqə versinlər.

**M:2736.** Əgər müəyyən bir fəqirə sədəqə verməyi nəzir etsə, başqa fəqirə verə bilməz. O fəqir ölsə ehtiyata əsasən onun vərəsələrinə verməlidir.

**M:2737.** Əgər İmamlardan hər hansı birinin (məsələn, Həzrəti Əba Əbdillah (əleyhis-salam)ın) ziyarətinə getməyi nəzir edib başqa İmamın ziyarətinə getsə kifayət deyil. Əgər müəyyən üzr səbəbilə həmin İmamı ziyarət edə bilməsə boynuna bir şey vacib deyil.

**M:2738.** Ziyarətə getməyi nəzir edən, amma ziyarət quslu və ziyarət namazını nəzir etməyən bir kəsin onları yerinə yetirməsi lazım (ilzami) deyil.

**M:2739.** Əgər İmamlardan, yaxud İmamzadələrdən birinin hərəmi üçün bir şey nəzir etsə o şeyi hərəmə məsrəf edilməlidir. Xalça, pərdə, işıq avadanlıqları və s.-ni İmam (əleyhis-salam) və ya İmamzadələr üçün nəzir etsə oranın xidmətçilərinə verə bilər. Əgər mümkün olsa, hərəmin məsrəfinə, yaxud sair yaxşı, xeyir işlərə, savabının nəzir olunmuşa qayıtması məqsədilə xərcləyə bilər.

**M:2740.** Əgər İmam (əleyhis-salam)-ın özü üçün bir şey nəzir edib müəyyən bir şey xərcləməyi qəsd etsə, həmin yerə məsrəf etməlidir. Əgər müəyyən şeyi xərcləməyi qəsd etməsə, şiə fəqirlərə və zəvvarlara versin, yaxud məscid və s. tikib savabını o İmama hədiyyə etsin, yaxud əzadarlıq məclislərinə, o həzrətlərin əsərlərinin yayılmasına, onlara aid olan sair işlərə xərcləsin. İmamzadələr üçün bir şey nəzir etsə, eynilə.

**M:2741.** Sədəqə, yaxud İmamlardan birinə nəzir olunan qoyunun yunu və kökəldiyi miqdar nəzirin hissəsidir. Əgər nəzir məsrəfinə xərcləməmişdən qabaq süd versə, yaxud doğsa, ehtiyat-vacibə görə o da nəzir olunan yerə məsrəf olunmalıdır.

**M:2742.** Əgər xəstəliyi sağalarsa, yaxud səfərdə olanı qayıdarsa filan əməli yerinə yetirəcəyini nəzir etsə, bu halda nəzir etməmişdən qabaq xəstəliyinin sağaldığı, yaxud səfərdə olanın qayıtmış olduğu mə'lum olsa, nəzirə əməl etmək lazım deyil.

**M:2743.** Əgər ata və ya ana öz qızını seyyidə ərə verməyi nəzir etsə, qızı həddi-büluğa çatanda ehtiyata görə onu razı sala bilsələr, gərək seyyidə ərə getsin; yox əgər razı olmasa, onların nəziri e'tibardan düşür. İxtiyar qızın öz əlindədir.

**M:2744.** Bir kəs Allahla, şər'i istəyinə çatarsa xeyir bir iş yerinə yetirəcəyini əhd eləsə, sonradan, istəyi yerinə yetirildikdən sonra o işi yerinə yetirməlidir. Həmçinin əgər istəyi olmadan, xeyir bir iş görməyi əhd etsə o əməli yerinə yetirmək ona vacibdir.

**M:2745.** Əhddə də nəzir kimi siyğə oxunmalı, Allahın adı dildə deyilməlidir. Həmçinin əhd etdiyi iş ya ibadət (müstəhəb və vacib namaz kimi), yaxud görülməsi tərk edilməsindən yaxşı olan işlərdən olmalıdır. Amma ehtiyat-vacibə görə əhd etdiyi iş şər'ən mərcuh[40] olmasa, gərək onu yerinə yetirsin.

**M:2746.** Əgər öz əhdinə əməl etməsə, kəffarə verməlidir. Yə'ni ya 60 fəqiri doyurmalı, ya iki ay oruc tutmalı, ya da bir qul azad etməlidir.

## *AND İÇMƏYİN HÖKMLƏRİ*

**M:2747.** Əgər insan hər hansı bir işi görməsinə, yaxud tərk etməsinə (məsələn, oruc tutmasına, yaxud siqaret çəkməməyə) dair and içib qəsdən bu andına müxalif çıxsa, kəffarə verməlidir. Yə'ni ya bir qul azad etməli, ya 10 fəqiri doyurmalı, ya da onları geyimlə tə'min etməlidir. Əgər bunları edə bilməsə, üç gün oruc tutmalıdır. Oruc günləri də ardıcıl olmalıdır.

**M:2748.** And içməyin bir neçə şərti vardır:

1-ci şərt budur ki, and içən şəxs həddi-büluğa çatan, aqil olsun. Öz malı ilə əlaqədar and içmək istəyirsə gərək səfeh olmasın və hakimi-şər' də onun öz malında təsərrüf etməsini qadağan etməmiş olsun, qəsd və ixtiyar üzündə and içsin. Deməli uşağın, dəlinin, məstin, and içməyə məcbur olan şəxsin and içməsi səhih deyil. Həmçinin əgər əsəbiləşən halda qəsd etmədən və ya ixtiyarsız olaraq and içsə, səhih deyil.

2-ci şərt budur ki, yerinə yetirməsini and içmək istədiyi iş haram və məkruh; tərk etməsini and içmək istədiyi iş vacib və müstəhəb olmasın. Əgər mübah bir işi yerinə yetirməyə and içsə, gərək camaatın nəzərində onun tərk olunması yerinə yetirilməsindən yaxşı olmasın. Həmçinin müəyyən mübah işi tərk

---

[40] Şər'i kərahəti (məkruhluğu) olmayan əməl.

etməsini and içsə, gərək onu yerinə yetirmək camaatın nəzərində tərk etməsindən yaxşı olmasın.

3-cü şərt budur ki, Allahın Müqəddəs Zatından başqalarına deyilməyən mübarək adlarından birinə and içsin ("Allah" kəlməsi kimi). Həmçinin Allahdan başqası üçün də işlənən, amma Allaha çox deyilən və o adı eşidəndə Allahın Müqəddəs Zatı nəzərinə gələn (məsələn Xaliq, Raziq kimi) sair adlara and içsə, səhihdir. Hətta əgər əlamət və nişanələr olmadan Allahın nəzərə gəlmədiyi adlara and içsə, amma onun nəzəri Allaha and içmək olsa, ehtiyata əsasən, o andına əməl etməlidir.

4-cü şərt budur ki, and içməyi dilinə gətirsin. Əgər yazsa, yaxud qəlbində qəsd etsə səhih deyildir. Lal adam işarə ilə and içsə, səhihdir.

5-ci şərt budur ki, andına əməl etmək onun üçün mümkün olsun. Əgər and içdiyi vaxt mümkün olsa, ancaq and üçün müəyyən etdiyi vaxtın axırına qədər aciz olsa, yaxud onun üçün məşəqqətli olsa aciz olduğu vaxtdan e'tibarən onun andı pozulur. Həmçinin əgər and içdiyi şey əməl etmək istədiyi vaxtı mərcuh və yaxud haram olsa and pozulur. Əhd və nəzirin hökmündə də eynilə.

**M:2749.** Əgər ata övladının, yaxud ər öz arvadının and içməsinin qarşısını alsa onların andı səhih deyil.

**M:2750.** Əgər övlad atanın, arvad ərinin icazəsi olmadan and içsə, onların andlarının səhih olmaması ehtimalı yoxdur. Lakin ehtiyatı tərk etməməlidirlər.

**M:2751.** Əgər insan unutqanlıq və ya çarəsizlik üzündən öz andına əməl etməsə, həmçinin andına əməl etməməsinə məcbur etsələr, kəffarə vacib deyil. Vəsvas adam and içsə, məsələn "Vallahi bu saat namaz qılmağa başlayıram" desə amma vəsvaslıq səbəbi ilə qılmasa bu halda onun vəsvaslığı, ixtiyarsız olaraq andına əməl etməməsi əsasında olarsa, kəffarəsi yoxdur.

**M:2752.** And içən şəxsin sözü düz olsa and içməsi məkruh, yalan olsa haramdır və böyük günahlardandır. Lakin əgər özünü, yaxud başqa müsəlmanı zalımın şərrindən xilas etmək üçün yalandan and içsə, eybi yoxdur. (Hətta bə'zi hallarda vacib də olur.) Amma əgər tovriyə edə bilsə (yə'ni and içən vaxtda elə niyyət etsin ki, yalan olmasın.) ehtiyat-vacibə görə gərək tovriyə etsin. Məsələn, zalım bir şəxs bir nəfərə əzab-əziyyət vermək istəsə və insandan "onu görməmisən?" deyə soruşsa, insan da bir saat bundan qabaq görmüş olsa və "onu görməmişəm" desə, məqsədi də beş dəqiqə bundan qabaq görmədiyi olsa, bu cür and içmə əvvəlki məsələdə deyləndən fərqlənir. Çünki, and içmək iki növdür: 1-Bir şeyi isbat, yaxud təkzib etmək üçün and içmək; 2-Gələcəkdə müəyyən bir işi yerinə yetirmək üçün and içmək. Birinçi halda and yalan olsa haramdır, amma kəffarəsi yoxdur. Və təxəllüf edəndə kəffarəsi olan and–işin gələcəkdə görülməsinə dair olan anddır.

## *VƏQFİN HÖKMLƏRİ*

**M:2753.** Əgər bir kəs müəyyən bir şeyi vəqf etsə, onun mülkündən çıxır, onun özü və başqaları da onu bağışlaya, sata bilməzlər. Bir kəs o mülkü irs aparmır. Amma 2155 və 2156-cı məsələlərdə deyiləcək bə’zi hallarda satılmasının eybi yoxdur.

**M:2754.** Vəqfin siyğəsinin ərəb dilində oxunması lazım (ilzami) deyil; hətta əgər misal üçün “öz evimi vəqf etdim” desə, vəqf səhihdir. Amma ehtiyat vacibə görə xüsusi vəqfdə ev vəqf olunan kəs, yaxud onun vəkili və ya qəyyumu “vəqfi qəbul etdim” deməlidir. Vəqf əməl ilə də gerçəkləşir. Məsələn, həsiri vəqf məqsədi ilə məscidə atsa, yaxud bir yeri məscid olması niyyəti ilə tikib namazqılanların istifadəsinə versə, vəqf gerçəkləşir. Ümumi istifadə üçün vəqf olunan yerlərdə (məscid, mədrəsə, yaxud ümumxalq üçün, yaxud fəqirlər və seyyidlər üçün vəqf olunan şeylər) vəqfin səhihliyində bir kəsin qəbul etməsi lazım deyil, qəbul etməyə də ehtiyacı yoxdur.

**M:2755.** Əgər bir mülkü vəqf üçün nəzərdə tutub siyğə oxunmamışdan qabaq peşman olsa (fikrindən dönsə), yaxud ölsə, vəqf səhih deyil.

**M:2756.** Müəyyən bir malı vəqf edən bir şəxs, onu həmişəlik olaraq vəqf etməlidir. Deməli əgər “bu mal 10 il müddətində vəqf olsun, sonrakı vaxtlarda vəqf olmasın”, yaxud “bu mal 10 il müddətində vəqf olsun, sonra 5 il müddətinə vəqf olmasın və yenidən vəqf olsun” desə batildir. Vəqf, siyğənin oxunduğu vaxtdan olmalıdır. Deməli misal üçün, “bu mal mənim ölümümdən sonra vəqf olsun” desə, siyğə oxunduğu vaxtdan öldüyü vaxta qədər vəqf olmadığına görə, işkalı var. Amma əgər vəqf edənin məqsədi öz ölümündən sonra vəqf olunmasına vəsiyyət etmək olsa, eybi yoxdur.

**M:2757.** Vəqf o vaxt səhihdir ki, vəqf olunan malı vəqf etdiyi şəxsin, yaxud onun vəkilinin və ya vəlisinin təsərrüfünə keçirtsin. Amma əgər şəxs bir şeyi öz səğir övladlarına vəqf edib o mülkün onların malı olsun deyə, onların tərəfindən saxlasa vəqf səhihdir.

**M:2758.** Əgər bir məscidi vəqf etsələr və onu vəqf edən şəxs məscidi camaatın ixtiyarına vermək məqsədi ilə orada namaz qılmağa icazə versə, bu halda bir nəfərin o məsciddə namaz qılması ilə vəqf düzəlir. Zahir budur ki, ümumi vəqf olunan yerlərdə (mədərsə, məscid və s.) qəbz mö’təbər deyildir. Vəqf məsələsi isə sadəcə olaraq vəqf etməklə gerçəkləşir. Həmçinin əgər bir kəs məscid tikib onu məscidin mütəvəllisinə[41] versə, vəqf sübuta yetir və gerçəkləşir.

**M:2759.** Vəqf edən şəxs mükəlləf, aqil olmalı, qəsd və ixtiyar üzündən vəqf etməli, şər’ən öz malında təsərrüf edə bilməlidir. Deməli səfeh və cameüş-şərait

[41] Məscidin işlərinə baxan adam

müctehidin, malında təsərrüf etməsini qadağan etdiyi şəxslər öz malında təsərrüf etməyə haqqı olmadığına görə, bir şeyi vəqf etsə, səhih deyil.

**M:2760.** Əgər müəyyən malı hələ dünyaya gəlməmiş şəxslərə vəqf etsə, məhəlli-işkaldır. Amma bə'ziləri dünyaya gələn şəxslərə vəqf etmək səhihdir. Sonradan dünyaya gələnlər əvvəlkilər ilə şərik olur.

**M:2761.** Əgər bir şeyi özünə vəqf etsə, (məsələn, bir mağazanı, gəlirinin öləndən sonra ona məqbərə tikilməsinə xərclənsin deyə vəqf etsə) səhih deyil. Amma əgər misal üçün, müəyyən bir malı fəqirlərə vəqf edib sonra özü də fəqirləşsə, vəqfin mənfəətlərindən istifadə edə bilər.

**M:2762.** Əgər vəqf etdiyi şey üçün mütəvəlli tə'yin etsə onun qərarına müvafiq olaraq əməl etməlidirlər; yox əgər tə'yin etməsə, bu halda məxsus şəxslərə (məsələn, öz övladlarına) vəqf etmişsə, ixtiyar onların əlindədir. Əgər həddi-buluğa çatmasalar, ixtiyarı onların qəyyumunun əlindədir, vəqfdən istifadə etmək üçün cameüş-şərait müctehidin icazəsi lazım deyil.

**M:2763.** Əgər müəyyən bir mülkü misal üçün, fəqirlərə, seyyidlərə vəqf etsə, yaxud mənfəətinin xeyir işlərə məsrəf olunmasını vəqf etsə, bu halda o mülkə müəyyən bir şəxsi mütəvvəli tə'yin etməyibsə, onun ixtiyarı hakimi-şər'in əlindədir.

**M:2764.** Əgər bir mülkü məxsus şəxslərə (məsələn, öz övladına) nəsilbənəsil ondan istifadə etsinlər deyə, vəqf etsə, bu halda o mülkün mütəvəllisi onu icarəyə verib sonra ölsə, vəqfin özünün və ya sonrakı nəslin məsləhətini nəzərə alıbsa, icarə batil olmur. Həmçinin əgər mütəvəllisi olmasa və vəqf olunan kəslərdən bir təbəqəsi onu icarəyə verib icarə müddəti əsnasında ölsələr, bu halda vəqfin özünün, yaxud sonrakı təbəqənin məsləhətini nəzərə almış olsalar, icarə batil olmur.

**M:2765.** Əgər vəqfin mülkü xarab olsa, vəqfdən çıxmır; amma əgər nəzərdə tutulan ünvan aradan getsə (məsələn, bağı əyləncə, istirahət üçün vəqf etsələr və bağ xarab olsa) vəqf batil olur və vəqf edəninin vərəsələrinə qayıdır.

**M:2766.** Bir hissəsi vəqf olan, digər hissəsi isə isə vəqf olmayan bir mülk bölünməmiş olsa, cameüş-şərait müctehid, yaxud vəqfin mütəvəllisi (bu sahədəki) mütəxəssilərin nəzəri ilə vəqf olan hissəni ayıra bilər.

**M:2767.** Əgər vəqfin mütəvəllisi xəyanət etsə və onun gəlirini müəyyən olunduğu yerlərə xərcləməsə, hakimi-şər' əmin bir şəxsi ona qoşmalıdır ki, xəyanətinin qabağını alsın. Əgər mümkün olmasa, onun yerinə əmanətdar bir mütəvəlli tə'yin edə bilər.

**M:2768.** Hüseyniyyə üçün vəqf olunan xalçanı, palazı namaz üçün məscidə– hətta onun yaxınlığında da olsa aparmaq olmaz. Xalçanın, palazın hüseyniyyəyə məxsus olub-olmadığı mə'lum olmasa, yenə də başqa yerə aparmaq səhih deyil. Vəqf olunan sair şeylərdə də eynilə. Hətta məsciddəki möhürləri başqa məscidə aparmaq olmaz.

**M:2769.** Əgər bir mülkü müəyyən bir məscidin tə'miri üçün vəqf etsələr, bu halda o məscidin tə'mirə ehtiyacı olmasa və bir müddət də tə'mirə ehtiyacı olacağına ehtimal verilməsə, onda tə'mirdən başqa ehtiyacı olmasa və onun gəliri tələf olmaq ərəfəsində olub saxlanması əbəs iş sayılsa, o mülkün gəlirini tə'mirə ehtiyacı olan məsçidə sərf edə bilərlər.

**M:2770.** Əgər bir mülkü, gəlirini bir məscidə xərcləmək üçün vəqf edib imam-camaata və o məsciddə azan deyən şəxsə versələr bu halda, hər birinə nə qədər nəzərdə tutulduğunu bilsələr, yaxud xatircəm olsalar, gərək həmin qaydada məsrəf etsinlər. Amma yəqin, yaxud arxayınlıqları olmasa, gərək əvvəlcə məscidi tə'mir etsinlər, artıq bir şey qalarsa imam-camaatla azan deyən kəsə bərabər şəkildə bölsünlər. Daha yaxşı olar ki, o iki nəfər onu bölüşdürməkdə bir-biri ilə razılığa gəlsinlər.

## VƏSİYYƏTİN HÖKMLƏRİ

**M:2771.** Vəsiyyət odur ki, insan ölümündən sonra onun üçün müəyyən işlər görülməsini, yaxud malından bir şeyi başqasının mülkünə keçirilməsini sifariş etsin. Yaxud da öz övladı və ya ixtiyarında olan şəxslər üçün qəyyum və himayəçi tə'yin etsin. Vəsiyyət edilən şəxsə "vəsi" deyilir.

**M:2772.** Vəsiyyət etmək istəyən bir kəs, hətta lal da olmasa da, məqsədini başa salan işarə ilə vəsiyyət edə bilər.

**M:2773.** Əgər meyyitin imzası və ya möhürü olan bir yazı görünsə, bu halda onun məqsədini çatdırsa və vəsiyyət üçün yazdığı mə'lum olsa ona müvafiq olaraq əməl edilməlidir.

**M:2774.** Vəsiyyət edən şəxs, aqil, baliğ olmalıdır. Amma yaxşını-pisi başa düşən 10 yaşlı uşaq xeyir işlər (məscid, su anbarı, körpü tikmək) üçün vəsiyyət etsə səhihdir. Həmçinin, vəsiyyət edən şəxs ixtiyar üzündən vəsiyyət etməli, həddi-büluğa çatanda səfeh olmamalıdır. Amma onun vəsiyyəti səhihdir, xüsusilə əgər (vəsiyyəti) mə'ruf və xeyir işlərdə və cameüş-şərait müctehidin qadağan etməsindən qabaq olsa.

**M:2775.** Əgər bir kəs qəsdən özünü yaralasa, yaxud zəhər içib nəticədə ölmünə yəqin və güman hasil olsa, bu halda öz malının bir miqdarını müəyyən işlərə sərf edilməsini vəsiyyət etsə , səhih deyil.

**M:2776.** Əgər bir kəs bir şeyi şəxsə verilməsini vəsiyyət etsə, o kəs həmin şeyin o vaxt maliki olur ki, qəbul etsin. Amma əzhər budur ki, vəsiyyətin rədd edilməməsi kifayətdir. Çünki rədd etmək vəsiyyətin münəcciz[42] olmasına manedir, hərçənd ki, vəsiyyət edənin sağlığında da olsa.

**M:2777.** İnsan ölüm əlamətlərini özündə görəndə, dərhal camaatın əmanətlərini sahiblərinə qaytarmalı, onlara borcludursa və borclarının qaytarılması vaxtı çatıbsa verməlidir. Əgər özü verə bilməsə, yaxud borcun qaytarılması vaxtı çatmayıbsa, vəsiyyət etməli və vəsiyyətinə şahid tutmalıdır. Amma əgər onun borcu mə'lum olsa və vərəsələrinin verəcəyinə xatircəm olsa, vəsiyyət etməsi lazım (ilzami) deyil.

**M:2778.** Özündə ölüm əlamətlərini görən bir kəs əgər xüms, zəkat və məzalim borcu olsa, dərhal verməlidir. Verə bilməsə, bu halda özünün malı varsa, yaxud bir kəsin onu qaytaracağına ehtimal verirsə, yaxud başqa yollarla boynundan götürüləcəyi hasil olsa, gərək vəsiyyət etsin. Boynunda vacibi həcci olsa da eynilə.

**M:2779.** Ölüm əlamətlərini özündə görən bir kəsin oruc-namaz qəzası olsa vəsiyyət etməlidir ki, onun öz malından onun üçün əcir tutsunlar. Hətta əgər

---

[42]Nüfuzlu olmaq, qüvvəyə minmək.

malı olmasa, amma bir kəsin onları pulsuz yerinə yetirəcəyini ehtimal versə yenə də vəsiyyət etməsi vacibdir. Amma onun oruc-namaz qəzaları, “qəza namazı” bölməsində deyildiyi kimi, böyük oğluna vacib olsa, gərək ona xəbər versin, yaxud yerinə yetirməsini vəsiyyət etsin.

**M:2780.** Ölüm əlamətlərini özündə görən bir kəsin başqasının yanında malı olsa, yaxud vərəsələrin bilmədiyi yerdə gizlətmiş olsa, bu halda bilməməkləri vasitəsilə haqları aradan gedəcəksə, gərək onlara xəbər versin. Özünün səğir uşaqları üçün bir nəfəri qəyyum və himayəçi tə’yin etməsi lazım deyil. Amma qəyyum tə’yin edilmədən malları tələf olub aradan gedərsə, yaxud özləri zay olarsa, onlar üçün əmanətdar bir qəyyum tə’yin etməlidir.

**M:2781.** Vəsi aqil və e’timad ediləsi şəxs olmalıdır. Əgər vəsiyyət edən müsəlman olsa, bu halda vəsiyyətə əməl etmək, bu fərzdə təbii olaraq müsəlman olan vərəsələrə istila tapmasına (hakim kəsilməsinə) səbəb olsa, müsəlman olması lazımdır. Ehtiyat-vacibə görə vəsi baliğ olmalıdır.

**M:2782.** Əgər bir kəs özü üçün bir neçə vəsi tə’yin edib, hər birinin ayrılıqda vəsiyyətə əməl etməsinə icazə vermiş olsa, vəsiyyəti yerinə yetirməkdə bir-birindən icazə almaları lazım deyil. Yox əgər icazə verməmiş olsa–istər hamısının birlikdə vəsiyyətə əməl etmələrini demiş olsun, istərsə də deməmiş olsun–bir-birinin rə’ylərini nəzərə almaqla vəsiyyətə əməl etməlidirlər. Əgər vəsiyyətə bir yerdə əməl etməyə razı olmasalar və məsləhəti ayırd etməkdə ixtilafları olsa bu halda tə’xirə salınıb möhlət verilməsi vəsiyyətin yerdə qalmasına səbəb olsa, cameüş-şərait müctehid onları məcbur edəcək ki, məsləhəti ayırd edə bilən şəxsin nəzərinə təslim olsunlar. Əgər itaət etməsələr onların yerinə başqalarını tə’yin etməlidir. Onlardan biri qəbul etməsə başqa bir nəfəri, onun yerinə tə’yin edir.

**M:2783.** Əgər insan öz vəsiyyətindən dönsə, məsələn, malının üçdə birini bir kəsə verilməsini vəsiyyət edib sonra “ona verməsinlər” desə, vəsiyyət batil olur. Əgər öz vəsiyyətini dəyişsə (məsələn, öz uşaqları üçün bir qəyyum tə’yin edib sonradan başqasını onun yerinə tə’yin etsə), birinci vəsiyyəti batil olur; ikinci vəsiyyətinə əməl edilməlidir.

**M:2784.** Əgər müəyyən bir iş görməklə vəsiyyətindən dönməsi mə’lum olsa (məsələn, müəyyən bir şəxsə verilməsini vəsiyyət etdiyi evi satsa, yaxud başqasını onu satmağa vəkil etsə) vəsiyyət batil olur.

**M:2785.** Əgər müəyyən bir şeyi bir kəsə, sonra isə həmin şeyin yarısının başqa bir kəsə verilməsini vəsiyyət etsə, o şeyi iki yerə bölüb hər birinə bir yarısını verməlidirlər.

**M:2786.** Əgər bir kəs ölüm xəstəliyində malının bir miqdarını bir kəsə bağışlasa və öləndən sonra onun da bir miqdarını başqa bir kəsə verməsini vəsiyyət etsə, sağlığında bağışladığı şey malın əslindən olub vərəsələrin

icazəsinə ehtiyac yoxdursa. Vəsiyyət etdiyi şey isə malın üçdə birindən çoxdursa, artıq olan hissə vərəsələrin icazəsinə bağlıdır.

**M:2787.** Əgər malının üçdə birini satmamalarını və ondan gələn gəlirin müəyyən yerlərə xərclənməsini vəsiyyət etsə, vəsiyyətə əsasən əməl olunmalıdır.

**M:2788.** Ölümə səbəb olan xəstəlik yatağında bir kəsə bir qədər borclu olduğunu desə, bu halda vərəsələrə zərər vurmaq niyyəti ilə ittiham olunursa gərək müəyyən etdiyi miqdarı onun malının üçdə birindən versinlər. Əks halda malın əslindən verməlidirlər.

**M:2789.** İnsanın bir şey verilməsini vəsiyyət etdiyi kəs mövcud olmalıdır. Deməli əgər, filan qadından doğulamsı mümkün olan bir uşağa bir şey verilməsini vəsiyyət etsə, batildir. Amma əgər anasının bətnində olan uşağa bir şey verilməsini vəsiyyət etsə–hətta hələ ruh daxil olmasa da, vəsiyyət səhihdir: əgər diri doğulsa, vəsiyyət etdiyi şeyləri ona verməlidirlər; yox əgər ölü doğulsa, vəsiyyət batil olur və vəsiyyət olunan şeyləri vərəsələr öz aralarında böləcəklər.

**M:2790.** Əgər insan bir kəsin onu vəsi etməsini bilsə bu halda vəsiyyət edən şəxsə, vəsiyyəti yerinə yetirməyə razı olmadığını xəbər versə, onun ölümündən sonra vəsiyyətə əməl etməsi lazım (ilzami) deyil. Amma əgər ölməmişdən qabaq onu canişin etməsini bilsə, yaxud bilib razı olmadığını xəbər verməsə, onun vəsiyyətinə əməl etməlidir. Əgər vəsi, ölümdən qabaq, xəstəliyinin ağırlaşması səbəbilə başqasına vəsiyyət edə bilmədiyi vaxt başa düşsə, ehtiyat-lazım budur ki, vəsiyyəti qəbul etsin.

**M:2791.** Əgər vəsiyyət edən kəs ölsə, vəsi meyyitin işlərini yerinə yetirmək üçün başqasını tə’yin edib öz boynundan ata bilməz. Amma əgər meyyitin məqsədinin vəsinin o işləri şəxsən yerinə yetirməsi deyil, yalnız işin yerinə yetirilməsi olduğunu bilsə, başqasını öz tərəfindən vəkil edə bilər.

**M:2792.** Əgər bir nəfər iki nəfəri birlikdə iştirak etsinlər deyə, vəsi etsə və o iki nəfərdən biri ölsə, yaxud kafir və ya dəli olsa, cameüş-şərait müctehid onun yerinə başqa bir nəfəri tə’yin etməlidir. Əgər hər ikisi ölsə, yaxud dəli və ya kafir olsa, cameüş-şərait müctehid başqa iki nəfəri tə’yin etməlidir.

**M:2793.** Əgər vəsi təklikdə meyyitin işlərini yerinə yetirə və özü üçün kömək tapa bilməsə, cameüş-şərait müctehid (ona kömək üçün) başqa bir nəfəri tə’yin etməlidir.

**M:2794.** Əgər meyyitin malının bir miqdarı vəsinin əlində tələf olsa, bu halda onu saxlamaqda səhlənkarlıq və ifrat edibsə (məsələn, meyyit malının bir miqdarını hər hansı bir şəhərin fəqirlərinə verməyi vəsiyyət etsə, o da həmin malı başqa şəhərə aparsa və yolda tələf olsa) zamindir. Hətta əgər yolda tələf olmasa, amma vəsiyyət etdiyi şəhərin fəqirlərinə də verməsə zamindir. Amma əgər səhlənkarlıq və ifrat etməmiş olsa, zamin deyil.

**M:2795.** Hərgah insan bir nəfəri vəsi etsə və əgər ölərsə, filan şəxsin vəsi olmasını desə, birinci vəsi öləndən sonra ikinci vəsi meyyitin işlərini yerinə yetirməlidir.

**M:2796.** Meyyitə vacib olan həcc, habelə, xums, zəkat, məzalim kimi yerinə yetirilməsi vacib olan hüquqlar və borclar–hətta meyyit onlar üçün vəsiyyət etməmiş olsa da, malının əslindən verilməlidir. Amma əgər müəyyən maldan verilməsini vəsiyyət etsə həmin maldan vermələri lazımdır. Əgər çatmasa, yerdə qalan borclarını malın əslindən verməlidirlər.

**M:2797.** Əgər meyyitin malı onun borc, vacib həcc, habelə xums, zəkat, məzalim kimi borclarından artıq gəlsə, bu halda malının üçdə birini, yaxud üçdə birinin bir hissəsinin müəyyən yerə xərclənməsini vəsiyyət etmiş olsa, onun vəsiyyətinə əməl edilməlidir. Əgər vəsiyyət etməmiş olsa yerdə qalan mal vərəsələrindir.

**M:2798.** Əgər meyyitin müəyyən etdiyi məsrəf, malının üçdə birindən çox olsa, onun (üçdə birdən çox olan yerdəki) vəsiyyəti o vaxt səhihdir ki, vərəsələrin danışmaq və ya müəyyən bir iş görməklə vəsiyyətin əməli olmasına icazə verməri mə’lum olsun; təkcə razılıqları kifayət deyil. Əgər onun ölümündən bir müddət sonra da icazə versələr, səhihdir. Vərəsələrin bə’zisi icazə verib bə’zisi isə icazə verməsə, icazə verənlərin payında vəsiyyət səhih və nüfuzludur (qüvvədədir).

**M:2799.** Əgər meyyitin müəyyən etdiyi məsrəf onun malının üçdə birindən çox olsa və ölməmişdən qabaq vərəsələr də onun vəsiyyətinə əməl olunmasına icazə versələr, o öləndən sonra icazə vermək fikrindən dönə bilməzlər.

**M:2800.** Əgər bir nəfər onun malının üçdə birindən xums, zəkat, yaxud başqa borclarının verilməsini, habelə qəza namaz-oruçları üçün əcir tutulmasını və müəyyən müstəhəb əməlləri də (məsələn, fəqirə təam vermək kimi) görülməsini vəsiyyət etsə, bu halda əvvəlcə vacibatı (istər mali olsun, istərsə də bədəni) yerinə yetirilməlidir. Vacibatın arasında da tərtib şərt deyil. Vəsiyyəti, hətta bədəni vəsiyyət də, tərtiblə olsa, gərək onun əvvəldə dediyi vacibə əməl etsinlər. Həmçinin bu tərtiblə vacibatın axırına qədər vəsiyyətə əməl edilməlidir. Malının üçdə biri onların hamısına çatsa, hamısına əməl edilməlidir. Əks halda isə, yerdə qalanların hamısı, yaxud bir qismi mali vacib olarsa, onun tərəkəsinin (tərk etdiyi malın) əslindən götürüb əməl etməlidirlər. Əgər yerdə qalanların hamısı, yaxud bir qismi bədəni vacib olsa ləğv olunur (qüvvədən düşür). Meyyitin vəsiyyəti tərtiblə olmasa, yenə də vacibat müstəhəbbatdan qabağa keçirilməlidir. Bu halda vacibat arasında heç bir tərtib yoxdur. Üstəlik malının üçdə biri vacibatın hamısına bölünməlidir–istər mali olsun, istərsə də bədəni. Onların hamısına çatmasa, mali vacibin yerdə qalanı tərəkənin əslindən götürülməlidir. Yerdə qalan bədəni vacibə isə əməl olunmur. Hər halda o vaxt

müstəhəbbata əməl etmək vacibdir ki, malının üçdə biri vacibatdan əlavə onlara da çatsın.

**M:2801.** Əgər borcunun verilməsini və qəza namaz-orucları üçün əcir tutulmasını, həmçinin müstəhəb iş görülməsini vəsiyyət etsə, bu halda onların malın üçdə birindən edilməsini vəsiyyət etməsə, borcunu malın əslindən verməlidirlər. Əgər artıq qalsa, onun üçdə birini namaz, oruc və müəyyən etdiyi müsthəb işlərə sərf etməlidirlər. Amma üçdə biri çatmasa, bu halda vərəsələr icazə versələr, vəsiyyəti əməli olaraq həyata keçirilməlidir. Əks halda isə, namaz-orucları üçün malın üçdə birindən verməli, artıq qalarsa müəyyən etdiyi müstəhəb işlərə sərf etməlidirlər.

**M:2802.** Əgər bir kəs "mən meyyitin vəsisiyəm ki, onun malını filan yerə məsrəf edim", yaxud "meyyit məni öz uşaqlarının qəyyumu seçmişdir" desə, sözü o vaxt qəbul olunar ki, dediyindən yəqin, yaxud xatircəmlik hasil olsun, yaxud iki adil kişi onun sözünü təsdiq etsin.

**M:2803.** Əgər müəyyən şeyin bir kəsə verilməsini vəsiyyət etsə, o kəs də vəsiyyəti qəbul, yaxud rədd etməmişdən qabaq ölsə nə qədər ki, onun vərəsələri vəsiyyəti rədd etməyiblər, o şeyləri qəbul edə bilərlər. Bu şərtlə ki, vəsiyyət edən öz fikrindən dönməsin. Əks halda o şeydə haqqları yoxdur.

## İRSİN HÖKMLƏRİ

**M:2804.** Qohumluq səbəbi ilə irs aparan şəxslər üç dəstədən ibarətdir: Birinci dəstə meyyitin atası, anası övladlarıdır. Övlad olmayan halda nə qədər aşağı getsə də (nəvə, nəticə...) hansı meyyitə daha yaxındırsa, irs aparır. Bu dəstədən hətta bir nəfər də olsa, ikinci dəstə irs aparmır. İkinci dəstə: "cədd" yə'ni babası, babasının atası–nə qədər yuxarı getsə də; nənə, onun anası–nə qədər yuxarı getsə də (nənəsinin nənəsi...)–istər ana tərəfdən olsun, istərsə ata tərəfdən; bacı və qardaşı, bunlar da olmayanda onların övladlarından hansı meyyitə daha yaxındırsa, irs aparır. Bu dəstədən hətta bir nəfər də qalsa, üçüncü dəstə irs aparmır. Üçüncü dəstə əmi, bibi, xala, dayı–nə qədər yuxarı getsə; və onların övladı–nə qədər aşağı getsə də. Nə qədər ki, meyyitin əmi, bibi, dayı, xalalarından bir kəs diridir, onların övladları irs aparmır. Amma əgər meyyitin ata tərəfdən doğma olan bir əmisi və həm ata, həm də ana tərəfdən doğma olan əmioğlusu olsa və onlardan başqa da vərəsə olmasa, irs həm ata, həm də ana tərəfdən doğma olan əmioğluya çatır; təkcə ata tərəfdən doğma olan əmisi isə irs aparmır.

**M:2805.** Əgər meyyitin əmisi, bibisi, dayısı, xalası və onların övladları; habelə övladlarının övladları (nəvələri) olmasa, meyyitin atasının və anasının əmisi, bibisi, dayısı və xalası irs aparır. Əgər bunlar da olmasa onların övladları; əgər övladları da olmasa, meyyitin babası və nənəsinin xalası, dayısı, bibisi və əmisi onlar da olmasa onların övladları irs aparır.

**M:2806.** Ər-arvad sonradan deyiləcəyi kimi bir birindən irs aparırlar.

### *BİRİNCİ DƏSTƏNİN İRSİ*

**M:2807.** Əgər meyyitin varisi birinci dəstədən olan təkcə bir nəfər olsa, (məsələn atası, yaxud anası, yaxud bir qızı və ya bir oğlu olsa) malının hamısı ona çatır. Əgər bir neçə oğlan və ya bir neçə qız olsa, malın hamısı onların aralarında bərabər şəkildə bölünür. Əgər bir oğlan və bir qız olsa, malı üç yerə bölüb iki hissəsini oğlana, bir hissəsini isə qıza verməlidirlər. Əgər bir neçə oğlan və bir neçə qız olsa, malı elə bölməlidirlər ki, oğlanın hər biri qızdan iki qat artıq irs aparsın.

**M:2808.** Əgər meyyitin varisi təkcə atası və anası olsa mal üç yerə bölünür, iki hissəsini atası, bir hissəsini anası irs aparır. Amma əgər meyyitin iki qardaşı, yaxud dörd bacısı, yaxud bir qardaşı və iki bacısı olsa və onların hamısı meyyitlə ata tərəfdən doğma olsa, (yə'ni onların atası meyyitin atası ilə bir olsa)–istər anaları da meyyitin anası ilə bir olsun, istərsə bir olmasın, meyyitin ata-anası sağ olan vaxt onların irs aparmamasına baxmayaraq, onların olması ilə ana malın altıda birini, ata isə yerdə qalanları irs aparır.

**M:2809.** Əgər varis meyyitin təkcə atası, anası və bir qızı olsa, bu halda meyyitin ata tərəfdən iki qardaşı və ya dörd bacısı, yaxud bir qardaşı və iki bacısı olmasa, (ata, ana və qızı) malı beş yerə bölməlidirlər: ata və ana hər biri bir pay, qız üç pay aparır. Əks halda, yə'ni əgər ata tərəfdən iki qardaş, yaxud dörd bacı, yaxud da bir qardaş və iki bacısı olsa, mal altı yerə bölünməlidir: ata və ana–hər biri bir pay, qızı üç pay irs aparır, yerdə qalan bir payı yenidən dörd yerə bölürlər: bir hissəsi ataya, üç hissəsi qıza çatır. Məsələn, əgər meyyitin malını 24 yerə bölsələr, onun 15 hissəsi qıza, 5 hissəsi ataya, 4 hissəsi isə anaya verilməlidir.

**M:2810.** Əgər meyyitin varisi təkcə atası, anası və bir oğlu olsa, malı 6 yerə bölməlidirlər: ata və ana–hər biri bir hissə, oğlan isə 4 hissəni irs aparır. Əgər bir neçə oğlan və ya bir neçə qız olsalar, o 4 hissəni öz aralarında bərabər şəkildə bölürlər. Əgər qız və oğlan olsa o 4 hissəni elə bölməlidirlər ki, oğlan qızdan iki qat artıq irs aparsın.

**M:2811.** Əgər meyyitin varisi təkcə atası və bir oğlu və ya anası və bir oğlu olsa, mal 6 yerə bölünməli bir hissəsi ataya və ya anaya, 5 hissəsi isə oğlana verilməlidir.

**M:2812.** Əgər meyyitin varisi ata, yaxud anası (meyyitin) oğlu və qızı ilə birlikdə olsa, 6 yerə bölməlidirlər: bir hissəsi ata və ya anaya çatır; yerdə qalanları isə oğlan və qız öz aralarında elə bölməlidirlər ki, oğlan qızdan iki qat artıq irs aparsın.

**M:2913.** Əgər meyyitin varisi təkcə atası və bir qızı, yaxud anası və bir qızı olsa, mal 4 yerə bölünməlidir: bir hissəsi ata və ya ananın, yerdə qalanlar isə qızındır.

**M:2814.** Əgər meyyitin varisi təkcə atası və bir neçə qızı, yaxud anası və bir neçə qızı olsa, malı 5 yerə bölməlidirlər: bir hissəsi ata və ya anaya çatır, 4 hissəsini isə qızlar öz aralarında bərabər şəkildə bölməlidirlər.

**M:2815.** Əgər meyyitin övladı olmasa (yə'ni ölmüş olsa), oğul nəvəsi (hətta qız da olsa) meyyitin oğlunun payını; qız nəvəsi (hətta oğlan da olsa) meyyitin qızının payını aparır. Məsələn, əgər meyyitin həm oğlunun qızı, həm də qızının oğlu olsa, malı 3 yerə bölüb bir hissəsini qızının oğluna, iki hissəsini isə oğlunun qızına verməlidir.

### *İKİNCİ DƏSTƏNİN İRSİ*

**M:2816.** Qohumluq səbəbi ilə irs aparan ikinci dəstə meyyitin babası, nənəsi, qardaşı və bacısıdır. Əgər bacısı və qardaşı olmasa (ölmüş olsalar), onların övladları irs aparır.

**M:2817.** Əgər meyyitin varisi təkcə bir qardaşı və ya təkcə bir bacısı olsa, malın hamısı ona çatır. Əgər ata-anadan doğma olan bir neçə qardaşı və ya bacısı olsa, mal onların arasında bərabər şəkildə bölünməlidir. Əgər ata-anadan

doğma olan həm qardaşı, həm də bacısı olsa, hər qardaş bacısının payından iki qat artıq irs aparır. Məsələn, əgər meyyitin ata-anadan doğma olan iki qardaşı və bir bacı olsa, malı beş yerə bölməlidirlər: qardaşlardan hər biri iki, bacısı isə bir pay irs aparır.

**M:2818.** Meyyitin ata-anadan bir olan qardaşı və bacısı olan halda, onunla ana tərəfdən ayrı, ata tərəfdən bir olan bacı və qardaşı irs aparmır. Əgər ata-anadan bir olan bacısı və qardaşı olmasa, bu halda ata tərəfdən bir olan bir bacısı və ya bir qardaşı olsa, malın hamısı ona irs çatır. Əgər təkcə ata tərəfdən bir olan bir neçə qardaşı və ya bir neçə bacısı olsa, mal onların arasında bərabər şəkildə bölünür. Əgər ata tərəfdən bir olan həm qardaşı, həm də bacısı olsa, qardaşlar bacılardan iki qat artıq irs aparır.

**M:2819.** Əgər meyyitin varisi ata tərəfdən onunla ayrı, ana tərəfdən bir olan təkcə bir bacısı və ya bir qardaşı olsa, malın hamısı ona çatır. Əgər ana tərəfdən bir olan bir neçə qardaşı və ya bir neçə bacısı, yaxud həm qardaşı, həm də bacısı olsa, mal onların arasında bərabər şəkildə bölünməlidir.

**M:2820.** Əgər meyyitin həm ata-anadan bir olan bacısı və qardaşı, həm ata tərəfdən bir olan bacısı və qardaşı, həm də təkcə ana tərəfdən bir olan bir qardaşı və ya bir bacısı olsa, ata tərəfdən bir olan qardaş və bacı irs aparmır. Malı 6 yerə bölməlidirlər: bir hissəsini ana tərəfdən bir olan bacı və ya qardaşa, yerdə qalanları isə ata və anadan bir olan bacı və qardaşlar (hər qardaş bacısından iki qat artıq) irs aparır.

**M:2821.** Əgər meyyitin həm ata-anadan bir olan, həm atadan bir olan, həm də anadan bir olan bacısı və qardaşı olsa, atadan bir olan bacı və qardaş irs aparmır. Meyyitin malını üç yerə bölürlər, bir hissəsini meyyitin ana tərəfdən bir olan bacı və qardaşı öz aralarında bərabər şəkildə bölürlər. Yerdə qalanlarını isə ata-anadan bir olan bacısına və qardaşına verirlər: hər qardaş bacısından iki qat artıq irs aparır.

**M:2822.** Əgər meyyitin varisi təkcə atadan bir olan bacı və qardaşı ilə anadan bir olan bir qardaşı (yaxud bacısı) olsa, malı altı yerə bölürlər: bir hissəsini anadan bir olan qardaşı (və ya bacısı), yerdə qalanları isə atadan bir olan bacı və qardaşları (hər qardaş bacısından iki qat artıq) irs aparır.

**M:2823.** Əgər meyyitin varisi atadan bir olan qardaş və bacısı ilə anadan bir olan bir neçə bacısı və qardaşı olsa malı üç yerə bölməlidirlər: bir hissəsini anadan bir olan qardaş və bacı aralarında bərabər şəkildə bölməlidirlər, yerdə qalanları isə atadan bir olan bacı və qardaş (hər qardaş bacısından iki qat artıq) artıq irs aparır.

**M:2824.** Əgər meyyiti varisin təkcə qardaşı, bacısı və arvadı olsa, qadın "ər-arvadın irsi" bölməsində deyilənlərə əsasən, bacı və qardaş isə əvvəlki məsələlərdə deyilənlərə uyğun olaraq irs aparır. Əgər qadın ölsə və varisi də təkcə bacısı, qardaşı və əri olsa, əri onun malının yarısını, bacısı və qardaşı isə

əvvəlki məsələlərdə deyilənlərə əsasən irs aparır. Ancaq arvad, yaxud ər irs apardığına görə ana tərəfindən olan bacı və qardaşların payından heç nə azalmır; əksinə, ata-ana, yaxud ata tərəfindən bir olan bacı və qardaşın payı azalır. Məsələn, əgər meyyitin varisləri onun əri, anadan bir olan bacısı və qardaşı ilə ata-anadan bir olan bacısı və qardaşı olsa, malının yarısı ərinə çatır, malın əslinin üçdə biri anadan bir olan bacı və qardaşa, yerdə qalanlar isə ata-anadan bir olan bacı və qardaşa çatır. Deməli, malının hamısı altı tümən olarsa, üç tüməni ərinə, iki tüməni anadan bir olan bacı və qardaşına, bir tüməni isə ata-anadan bir olan bacı və qardaşına çatır.

**M:2825.** Əgər meyyitin bacısı və qardaşı olmasa (ölmüş olsalar) onların payını övladlarına verirlər. Meyyitin anadan bir olan bacısının və qardaşının övladlarının payı, onların arasında bərabər şəkildə bölünür. Amma təkcə atadan, yaxud ata-anadan bir olan qardaşlarının və bacılarının övladlarında isə hər oğlan qızdan iki artıq irs aparır.

**M:2826.** Əgər meyyitin varisi təkcə nənəsi və babası olsa–istər ata tərəfdən olsun, istərsə də ana tərəfdən–malın hamısı ona çatır. Meyyitin babası sağ olduğu halda, babasının atası irs aparmır.

**M:2827.** Əgər meyyitin varisi təkcə ata tərəfdən olan bir babası və nənəsi olarsa, malı üç yerdə bölməlidirlər: iki hissəsi babasına, bir hissəsi isə nənəsinə çatır. Əgər babası və nənəsi ana tərəfdən olarsa, malı öz aralarında bərabər şəkildə bölməlidirlər.

**M:2828.** Əgər meyyitin varisi ata tərəfdən olan bir babası, (yaxud nənəsi) ilə ana tərəfdən olan bir babası (və ya nənəsi) olsa malı üç yerə bölünməlidir: iki hissəsini ata tərəfdən olan babası (yaxud nənəsi), bir hissəsini isə ana tərəfdən olan babası (yaxud nənəsi) irs aparır.

**M:2829.** Əgər meyyitin varisi təkcə onun arvadı, ata tərəfdən olan babası və nənəsi, həmçinin ana tərəfdən olan babası və nənəsi olarsa, qadın gələcək məsələlərdə deyilənlərə əsasən öz irsini aparır, malın əslinin üçdə biri ana tərəfindən olan baba və nənəyə verilir ki, öz aralarında bərabər şəkildə bölürlər. Yerdə qalanlarını isə ata tərəfdən olan babaya və nənəyə verirlər: baba nənədən iki qat artıq irs aparır. Əgər meyyitin varisi əri, babası və nənəsi olarsa, əri malın yarısını, babası və nənəsi isə əvvəlki məsələlərdə deyilənlərə əsasən irs aparırlar.

### *ÜÇÜNCÜ DƏSTƏNİN İRSİ*

**M:2830.** Üçüncü dəstə–meyyitin əmisi, bibisi, dayısı, xalası və onların övladlarıdır. Yuxarıda qeyd olunduğu kimi, əgər birinci və ikinci təbəqədən bir kəs olmazsa, yalnız bu halda üçüncü dəstə irs aparır.

**M:2831.** Əgər meyyitin varisi təkcə bir əmisi, yaxud bir bibisidirsə (istər ata-anadan bir olsun, yə’ni onlar meyyitin atası ilə bir ata-anadan olsunlar, istərsə

də təkcə ata tərəfdən, yaxud təkcə ana tərəfdən bir olsunlar) malın hamısı ona çatır. Əgər bir neçə əmisi, yaxud bir neçə bibisi (hamısı da ata-anadan, yaxud atadan bir) olsa, malı öz aralarında bərabər şəkildə bölməlidirlər. Əgər həm əmisi, həm də bibisi olsa və hamısı da ata-anadan, yaxud atadan bir olsalar, əmilər bibidən iki qat artıq irs aparır. Məsələn, əgər meyyitin varisləri iki əmisi və bir bibisi olsa, malı beş yerə bölürlər: bir hissəsi bibisinə çatır, dörd hissəsini isə əmiləri öz aralarında bərabər şəkildə bölürlər.

**M:2832.** Əgər meyyitin varisi təkcə anadan bir olan bir neçə əmisi (yaxud bibisi) olsa, mal onların aralarında bərabər şəkildə bölünür. Amma əgər ana tərəfdən bir olan bir neçə əmisi və bibisi olsa, ehtiyat-vacibə görə bir-biri ilə razılaşmalıdırlar.

**M:2833.** Əgər meyyitin varisi onun əmisi və bibisi olsa, onların da bə’ziləri ata, bə’ziləri ana, bə’ziləri isə həm ata, həm də ana tərəfdən bir olsalar, ata tərəfdən bir olan əmisi və bibisi irs aparmır. Deməli, əgər meyyitin anadan bir olan bir əmisi (və ya bibisi) olsa, malı altı yerə bölməlidirlər: bir hissəsini ana tərəfdən bir olan əmisi (yaxud bibisi), yerdə qalanlarını isə həm atadan, həm də anadan bir olan əmisi və bibisi irs aparır ki, əmilər bibilərdən iki qat artıq irs aparır. Əgər ana tərəfdən bir olan həm əmisi, həm də bibisi olsa, malı üç yerə bölməlidirlər: iki hissəsini ata-anadan bir olan əmisinə və bibisinə verirlər (əmisi bibisindən iki qat artıq irs aparır), bir hissəsini isə ana tərəfdən bir olan bibisinə və əmisinə verirlər. Ehtiyat-vacib budur ki, malı bölməkdə bir-biri ilə razılaşsınlar.

**M:2834.** Əgər meyyitin varisi təkcə bir dayısı (və ya xalası) olsa, malın hamısı ona çatır. Əgər həm dayısı, həm də xalası olsa və hamısı da ata-anadan, yaxud atadan və ya anadan bir olsalar, mal onların arasında bərabər şəkildə bölünməlidir. Ehtiyat budur ki, malı bölməkdə bir-biri ilə razılaşsınlar.

**M:2835.** Əgər meyyitin varisi anadan bir olan dayısı (yaxud xalası) və ata-anadan bir olan dayısı (yaxud xalası), habelə ata tərəfdən bir olan dayısı (yaxud xalası) olsa, ata tərəfdən bir olan xalası və dayısı irs aparmır. Mal altı yerə bölünür, bir hissəsini anadan bir olan dayısına (yaxud xalasına), yerdə qalanlarını isə ata-anadan bir olan dayısına (yaxud xalasına) verilər ki, onlar da öz aralarında bərabər şəkildə bölürlər.

**M:2846.** Əgər meyyitin varisi həm atadan bir olan, həm ana tərəfdən bir olan, həm də ata-anadan bir olan dayıları və xalaları olsalar, ata tərəfdən bir olan dayısı və xalası irs aparmır. Mal üç yerə bölünür: bir hissəsini ana tərəfdən bir olan dayısı və xalası öz aralarında bərabər şəkildə bölməlidirlər. Yerdə qalanı isə ata-anadan bir olan dayısı və xalası öz aralarında bərabər şəkildə bölməlidirlər.

**M:2837.** Əgər meyyitin varisi bir dayısı (yaxud xalası) və bir əmisi (yaxud bibisi) olsa, malı üç yerə bölməlidirlər: bir hissəsini dayısı (və xalası), yerdə qalanlarını isə əmisi (və bibisi) irs aparır.

**M:2838.** Əgər meyyitin varisi bir dayısı (yaxud xalası), əmisi və bibisi olsa, bu halda bibisi və əmisi ata-anadan, yaxud atadan bir olsa, malı üç yerə böləcəklər: bir hissəsini dayısı (yaxud xalası) aparır, yerdə qalanın iki hissəsi əmisinə, bir hissəsi isə bibisinə çatır. Deməli əgər malı doqquz yerə bölsələr, üç hissəsini dayısına (yaxud xalasına), dörd hissəsini əmisinə, iki hissəsini isə bibisinə verməlidirlər.

**M:2839.** Əgər meyyitin varisi bir dayısı (yaxud xalası), anadan bir olan əmisi (və ya bibisi) və ata-anadan, yaxud atadan bir olan əmisi və bibisi olsa, malı üç yerə bölməlidirlər: bir hissəsini dayısına (yaxud xalasına) verirlər, yerdə qalanlarını isə altı yerə bölürlər. Bir hissəsini anadan bir olan əmisinə (yaxud bibisinə), yerdə qalanlarını isə ata-anadan, yaxud atadan bir olan əmisinə və bibisinə verirlər ki, əmisi bibisindən iki qat artıq irs aparır. Deməli əgər meyyitin malını doqquz yerə bölsələr, üç hissəsi dayısına (yaxud xalasına), bir hissəsi ana tərəfdən bir olan əmisinə (yaxud bibisinə), beş hissəsi isə ata-anadan, yaxud ata tərəfdən bir olan əmisinə və bibisinə verilməlidir.

**M:2840.** Əgər meyyitin varisi anadan bir olan əmisi və bibisi, bir dayısı (yaxud xalası), ata-anadan, yaxud atadan bir olan əmisi və bibisi olsa, malı üç yerə böləcəklər: bir hissəsini dayısı (yaxud xalası) irs aparacaq, yerdə qalanları isə üç yerə böləcəklər, bir hissəsini ana tərəfdən olan əmisi və bibisi aparacaq, ehtiyat-vacibə görə bir-biri ilə razılaşmalıdırlar. İki hissəsini isə ata-anadan, yaxud atadan bir olan əmi və bibisi böləcəklər. (Əmisi bibisindən iki qat artıq irs aparacaq.) Deməli malı doqquz yerə bölsələr, onun üç hissəsini xalası (yaxud dayısı), iki hissəsini ana tərəfdən bir olan əmi və bibisi, dörd hissəsini isə ata-anadan, yaxud ata tərəfdən bir olan əmisi və bibisi irs aparacaq.

**M:2841.** Əgər meyyitin varisi hamısı ata-anadan, yaxud təkcə atadan və ya təkcə anadan bir olan bir neçə dayısı və xalası, həmçinin əmisi və bibisi də olsa, mal üç yerə bölünməlidir: iki hissəsini əmisi və bibisi əvvəlki məsələdə deyilən qaydaya əsasən, bir hissəsini isə dayıları və xalaları öz aralarında bərabər şəkildə bölürlər.

**M:2842.** Əgər meyyitin varisi ata tərəfdən bir olan dayısı (yaxud xalası) və ata-anadan, yaxud atadan bir olan bir neçə dayısı və xalası, həmçinin əmisi və bibisi də olsa, mal üç yerə bölünür: iki hissəsini əvvəldə deyilən göstərişlərə əsasən əmisi və bibisi öz aralarında bölürlər. Deməli əgər meyyitin ana tərəfdən bir olan bir dayısı (yaxud xalası) olsa, yerdə qalan bir hissəni altı yerə bölüb bir hissəsini ana tərəfdən bir olan dayısına (yaxud xalasına), yerdə qalanlarını isə ata-anadan, yaxud atadan bir olan dayısına və xalasına verəcəklər, onlar da öz aralarında bərabər şəkildə böləcəklər. Əgər ana tərəfdən olan bir neçə dayısı,

yaxud bir neçə xalası, yaxud həm, dayısı həm də xalası olsa, o bir hissəni üç yerə bölüb bir hissəsini ana tərəfdən bir olan dayılar və xalalar öz aralarında bərabər şəkildə böləcəklər, Yerdə qalanlarını ata-anadan, yaxud atadan bir olan dayı və xalasına verəcəklər ki, öz aralarında bərabər şəkildə bölsünlər.

**M:2843.** Əgər meyyitin əmisi, bibisi, dayısı və xalası olmasa (ölmüş olsalar), əmisinə və bibisinə çatmalı olan hissə onların övladlarına, dayı və xalasına çatmalı olan hissə isə onların övladlarına çatır.

**M:2844.** Əgər meyyitin varisi onun atasının əmisi, bibisi, dayısı və xalası, habelə anasının əmisi, bibisi, dayısı və xalası olsalar, malı üç yerə bölünür: bir hissəsini anasının əmisi, bibisi, dayısı və xalası öz aralarında bərabər şəkildə bölürlər. Amma ehtiyat-vacib budur ki, meyyitin ana tərəfdən bir olan əmisi və bibisi bir-biri ilə razılaşsınlar. İki hissəsini isə üç yerə bölüb bir hissəsini meyyitin atasının dayısına və xalasına verirlər, onlar da öz aralarında bərabər şəkildə bölürlər. Qalan iki hissəsini isə meyyitin atasının əmisinə və bibisinə verirlər. (Belə ki, əmisi bibisindən iki qat artıq alır.)

### *ƏR-ARVADIN İRSİ*

**M:2845.** Əgər bir qadın ölsə və övladı olmasa, malının yarısını əri, yerdə qalanını isə sair vərəsələr irs aparır. Əgər o ərindən, yaxud başqa ərindən övladı olsa, malının dördə biri ərinə, yerdə qalanları isə sair vərəsələrə çatır.

**M:2846.** Əgər bir kişi ölsə və övladı olmasa, malının dördə biri arvadına, yerdə qalanı isə sair vərəsələrə çatır. Əgər o arvaddan, yaxud başqa arvadından övladı olsa, malının səkkizdə birini arvadı, yerdə qalanlarını isə sair vərəsələr irs aparır. Qadın ərinin mənqul (bir yerdən başqa yerə daşına bilən) əmlakının hamısından irs aparır. Amma torpaq və onun qiymətindən irs aparmır. Həmçinin o yerin fəzasında olanların özündən (bina və ağac kimi) irs aparmır. Amma onun qiymətindən irs aparır.

**M:2847.** Əgər qadın irs aparmadığı şeydə təsərrüf etmək istəsə, sair vərəsələrdən icazə almalıdır. Həmçinin nə qədər ki, vərəsələr qadının payını verməyiblər, qadının qiymətindən irs apardığı bina kimi şeylərdə onun icazəsi olmadan təsərrüf etməməlidirlər. Əgər qadının payını verməmişdən qabaq bunları satsalar, qadın icazə versə müamilə səhih, əks halda isə onun payının nisbətində batildir.

**M:2848.** Əgər bina, ağac və s. kimi şeylərə qiymət qoymaq istəsələr, onda onlar tələf olub aradan gedənə qədər icarəsiz olaraq torpaqda qalanda malik olduğu dəyərlə hesablayıb, qiymətindən qadının payını verməlidirlər.

**M:2849.** Çeşmənin məcrası və bu kimi şeylər yer, onda işlədilən kərpic və s. kimi şeylər isə bina hökmündədir.

**M:2850.** Əgər meyyitin bir neçə arvadı olsa, bu halda övladı olmazsa malının dörddə biri; övladı olarsa səkkizdə biri qeyd olunduğu kimi, onun əqdində olan

qadınların arasında–hətta əri onların heç biri, yaxud bə’zisi ilə yaxınlıq etməmiş olsa da–bərabər şəkildə bölünəcək. Amma ölüm yatağında olan xəstəlik vaxtı bir qadını öz əqdinə keçirib yaxınlıq etməmiş olsa, qadın ondan irs aparmır, mehriyyə haqqı da yoxdur.

**M:2851.** Əgər qadın xəstəlik halında ərə gedib həmin xəstəliklə ölsə, əri hətta onunla yaxınlıq etməsə də ondan irs aparır.

**M:2852.** Əgər qadına, təlaq hökmlərində deyildiyi kimi ric’i təlaq versələr və iddə əsnasında ölsə, əri ondan irs aparır. Həmçinin əgər kişi qadının iddəsi əsnasında ölsə arvadı ondan irs aparır. Amma əgər ric’i təlaq iddəsi keçdikdən sonra, yaxud bain təlaqı iddəsində onlardan biri ölsə, digəri ondan irs aparmır.

**M:2853.** Əgər kişi xəstəlik halında arvadına təlaq verib on iki qəməri ay keçməmişdən qabaq ölsə, arvadı üç şərt daxilində ondan irs aparır:

1-ci şərt budur ki, bu müddətdə başqa ərə getməsin;

2-ci şərt budur ki, ərinə, onunla yaşamağa meylli olmaması səbəbi, təlaq verməsinə razı salmaq üçün bir şey verməmiş olsun; Hətta əgər bir şey verməsə, amma təlaq qadının təklifi ilə olsa, yenə də irs aparması işkallıdır.

3-cü şərt budur ki, əri arvadına təlaq verdiyi vaxtdakı xəstəliklə, yaxud başqa səbəblərə görə ölsün. Deməli, o xəstəlikdən sağalıb başqa səbəbə görə ölsə, arvadı ondan irs aparmır.

**M:2854.** Kişinin arvadının geyməsi üçün aldığı paltarı–hətta arvadı geymiş olsa da, ər öləndən sonra onun malı hesab olunur.

## *İRSİN MÜXTƏLİF MƏSƏLƏLƏRİ*

**M:2855.** Meyyitin Qur’anı, üzüyü və qılıncı geydiyi, yaxud geymək üçün alıb tikdiyi paltarı–hətta geyməsə də böyük oğlunundur. Əgər meyyitin bu dörd şeyin hər birindən bir neçə ədəd (məsələn iki Qur’anı, yaxud iki üzüyü) olsa, bu halda əgər istifadə olunursa, yaxud istifadə olunmaq üçün hazırlanıbsa, böyük oğlunun malıdır.

**M:2856.** Əgər meyyitin bir neçə böyük oğlu olsa (məsələn, iki arvadından eyni vaxtda iki oğlan uşağı dünyaya gəlmiş olarsa), gərək meyyitin paltar, Qur’an, üzük və qılıncını öz aralarında bərabər şəkildə bölsünlər.

**M:2858.** Əgər meyyit borclu olsa və borcu malı qədərində, yaxud ondan çox olsa, gərək əvvəlki məsələdə deyilən böyük oğula məxsus olan dörd şeyi onu borcuna versinlər. Əgər borcu malından az olsa, ehtiyat-vacibə görə gərək böyük oğluna çatmalı olan dörd şeydən, onlara mütənasib olaraq borcu versinlər. Məsələn, əgər meyyitin bütün malının dəyəri altmış tümən, böyük oğula çatmalı olan şeylərin dəyəri iyirmi tümən, borcu isə otuz tümən olsa, ehtiyat-vacibə görə böyük oğul o dörd şeydən on tümən dəyərində meyyitin borcuna versin.

**M:2858.** Müsəlman kafirdən irs aparır, amma kafir–hətta meyyitin atası, yaxud oğlu da olsa ondan irs aparmır.

**M:2859.** Əgər bir kəs öz qohumlarından birini qəsdən və nahaq yerə qətlə yetirsə, ondan irs aparmır. Amma əgər xəta üzündən olsa (məsələn, havaya daş atsa və təsadüfən qohumlarının birinə dəyib öldürsə) ondan irs aparır, amma qətlin diyəsindən irs aparmır.

**M:2860.** Əgər meyyitin malını, anasının bətnində uşağı olan halda irs kimi bölmək istəsələr və onunla eyni dəstədən olan başqa varislər də olsa (meyyitin övladı, yaxud atası, anası kimi), anasının bətnində olan və diri dünyaya gələrsə irs aparmalı olan uşaq üçün iki oğlan payı qədər ayırmalıdırlar. Amma əgər ikidən artıq (məsələn üç uşaq) olmasını ehtimal versələr, üç oğlan uşağının payını ayırmalıdırlar. Əgər bir oğlan və bir qız doğulsa, irsin artıq qalmış hissəsini vərəsələr öz aralarında bölməlidirlər.

## ƏMR BE MƏ'RUF VƏ NƏHY ƏZ MÜNKƏR

**M:2861**. Əmr be mə'ruf və nəhy əz münkər (yaxşı işlərə də'vət, pis işlərdən çəkindirmək) qeyd olunan şərtlər daxilində vacib, tərk olunması isə günahdır. Müstəhəb və məkruh işlərdə əmr be mə'ruf və nəhy əz münkər etmək müstəhəbdir.

**M:2862.** Əmr be mə'ruf və nəhy əz münkər vacibi-kifaidir, yə'ni əgər mükəlləf şəxslərdən bə'ziləri ona əməl etsələr o birilərin boynundan düşür. Əmr be mə'ruf və nəhy əz münkər işinin yerinə yetirilməsi bir dəstə mükəlləfin bir yerə yığışması ilə şərtlənirsə, vacibdir ki, yığışsınlar.

**M:2863.** Əgər bə'zi şəxslər əmr be mə'ruf və nəhy əz münkər etdikdə tə'sirli olmasa, amma bə'zilərinin bu işi etməsinin tə'sirli olacağını ehtimal versələr, vacibdir ki, onlar bu işi yerinə yetirsinlər.

**M:2864.** Əmr be mə'ruf və nəhy əz münkər işində şər'i məsələni bəyan etmək kifayət deyil, əksinə mükəlləf şəxs əmr və nəhy etməlidir.

**M:2865.** Əmr be mə'ruf və nəhy əz münkərdə qürbət qəsdi şərt deyil, əksinə məqsəd vacibin yerinə yetirilməsi, haramın qarşısının alınmasıdır.

### *ƏMR BE MƏ'RUF VƏ NƏHY ƏZ MÜNKƏRIN ŞƏRTLƏRI*

**M:2866.** Əmr be mə'ruf və nəhy əz münkərin vacib olmasının bir neçə şərti var:

1-ci şərt budur ki, əmr be mə'ruf və nəhy əz münkər etmək istəyən şəxs, mükəlləfin yerinə yetirmədiyi işin vacib, yerinə yetirdiyi işin isə tərk olunmalı (haram) olduğunu bilsin; Deməli, mə'ruf və münkəri bilməyən şəxsə vacib deyil.

2-ci şərt budur ki, əmr və nəhyinin tə'sirli olacağını ehtimal versin; Deməli əgər tə'sir etməyəcəyini bilsə, vacib deyil.

3-cü şərt budur ki, günahkar şəxsin öz günah işini təkrar edəcəyinə yəqin, yaxud xatircəmliyi olsun; Deməli əgər təkrar etməyəcəyini bilsə, yaxud güman etsə və ya səhih ehtimal versə, vacib deyil.

4-cü şərt budur ki, onun əmr və nəhy etməsindən fəsad irəli gəlməsin. Deməli əgər əmr və nəhy edəcəyi təqdirdə canına, irz-namusuna, heysiyyətinə, malına nəzərə çarpacaq dərəcədə zərər dəyəcəyini bilsə, yaxud güman etsə vacib deyil. Hətta əgər ondan qeyd olunan zərərlərdən yaranacaq qorxuya səhih ehtimal versə də vacib deyil. Ona aid olan şəxslərə də zərər dəyməsindən qorxsa, vacib deyil. Can, mal, irz-namus, heysiyyət zərərinin baş verməsi ehtimalı ilə mö'minlərdən bə'zilərinin məşəqqətinə səbəb olacağı halda da vacib deyil, əksinə çox hallarda haram da olur.

**M:2867.** Əgər əmr be mə’ruf və nəhy əz münkər etmək istədiyi şey Müqəddəs Şəriət Sahibinin xeyli əhəmiyyət verdiyi işlərdən (üsuli-dinin, məzhəbin, Qur’ani-Məcidin, müsəlmanların e’tiqad üsullarının, yaxud zəruri hökmlərin hifzi) olsa, onun əhəmiyyətini mülahizə etməlidir: sadəcə zərər, vaciblikdən düşməyə səbəb olmur. Deməli əgər müsəlmanların əqidələrinin, İslamın zəruri hökmlərinin qorunub-saxlanması candan keçib mal xərclənməsinə bağlı olsa onları vermək vacibdir.

**M:2868.** Əgər İslam dinində bid’ətlər (zülmkar dövlətlərin İslam adı ilə yerinə yetirdikləri yaramaz işlər kimi) baş verərsə, hamıya, xüsusilə İslam alimlərinə haqqı izhar, batili inkar etmək vacibdir. Əgər alimlərin sükut etmələri elmin məqamına hörmətsizliyə, İslam alimlərinə qarşı sui-zənnə səbəb olarsa, mümkün olan hər vasitə ilə haqqı izhar etmək–hətta tə’sir etməcəyini bilsə də, vacibdir.

**M:2869.** Əgər sükut edilməsinin münkərin mə’ruf və ya mə’rufun münkər olmasına səbəb olacağına səhih ehtimal versələr, hamıya xüsusilə İslam alimlərinə haqqı izhar və onun aşkar edilməsi vacibdir, sükut etmələri isə caiz deyil.

**M:2870.** Əgər İslam alimlərinin sükut etməsi zalımın güclənməsinə, təsbit olunmasına, sair haram işlərə cür”ətlənməsinə səbəb olarsa, haqqı izhar, batili inkar etmək–hətta hal-hazırda tə’siri olmasa da vacibdir.

## *ƏMR BE MƏ’RUF VƏ NƏHY ƏZ MÜNKƏRİN MƏRTƏBƏLƏRİ*

**M:2871.** Əmr be mə’ruf və nəhy əz münkərin müxtəlif mərtəbələri vardır. Əvvəlki mərtəbədə məqsədin hasil olmasına ehtimal verildiyi halda, sonrakı mərtəbəyə əməl etmək caiz deyil.

**M:2872.** Birinci mərtəbəsi budur ki, günahkar şəxs ilə elə rəftar olunsun ki, günah iş gördüyünə görə ona qarşı bu cür rəftar olunmasını başa düşsün. Məsələn, ondan üz döndərsin, yaxud üz-gözünü turşudan halda onunla görüşsün, yaxud onunla yoldaşlığı tərk edib ondan üz döndərsin. Belə ki, bu işlərin, o günahı tərk edib bir daha təkrarlamaması üçün olduğu mə’lum olsun.

**M:2873.** Əgər bu mərtəbənin müxtəlif dərəcələri olsa, yüngül, nisbətən sadə dərəcənin tə’sirli olmasına ehtimal verdiyi halda, elə onunla kifayətlənsin. Məsələn, əgər onunla danışmamaq (küsmək) səbəbi ilə məqsədinə çatacağına ehtimal versə, elə bu qədərlə kifayətlənməli, ondan yuxarı olan dərəcələrə əməl etməməlidir, xüsusilə də bu cür rəftar günah edən şəxsə qarşı hörmətsizlik olarsa.

**M:2874.** Əgər günahkar şəxslə əlaqənin kəsilməsi, ondan üz döndərilməsi günahın yüngülləşməsinə səbəb olarsa, yaxud səbəb olacağını ehtimal versələr–hətta tamamilə tərk etməsinə səbəb olmayacağını bilsə də, vacibdir. Bu əmr o

haldadır ki, sair mərtəbələrlə günah işin tamamilə, yaxud bundan artıq miqdarın qarşısının alınması mümkün olmasın.

**M:2875.** Əmr be mə'ruf və nəhy əz münkərin ikinci mərtəbəsi sözdə əmr və nəhy etməkdir. Deməli qeyd olunan şərtlərin hasil olmasını və bu işin tə'sirli olmasını ehtimal versələr, günahkarın günahdan çəkindirmək, vacibatı tərk edərsə ona əmr etmək vacibdir.

**M:2876.** Əgər bir kəs möv'izə və öyüd-nəsihətə günahkarın günahı tərk edəcəyini ehtimal versə, həmin miqdarla kifayətlənməli, o həddən keçməməlidir.

**M:2877.** Əgər nəsihətin tə'sirli olmayacağını bilsə, bu halda tə'sirli olmasına ehtimal verdiyi halda ilzami əmr və nəhy etməsi vacibdir. Əgər kobud danışıqdan və müxalifət edəcəyi halda təhdid olunmasından başqa yolla tə'sir qoymazsa, bu işləri etmək, amma yalan və sair mə'siyətlərdən uzaq olmaq lazımdır.

**M:2878.** Günahın qarşısını almaq üçün başqa bir günaha əl atmaq (söyüş, yalan, təhqir və s.) caiz deyil. Amma əgər o günah iş Müqəddəs Şəriət Sahibinin həddindən artıq diqqət yetirdiyi və görülməsinə heç hansı vəchlə razı olmadığı işlərdən (möhtərəmə nəfsin qətlə yetirilməsi kimi) olarsa, bu halda mümkün olan hər yolla qarşısı alınmalıdır.

**M:2879.** Əgər günahkar şəxs günah işi yalnız birinci və ikinci mərtəbələrə birlikdə əməl etməklə günahdan əl çəkərsə, bu halda vacibdir ki, həm ondan üz çevirib əlaqələri kəssin, üz-gözünü turşutmaqla onunla görüşsün, həm də əmr be mə'ruf işini sözlə yerinə yetirsin.

**M:2880.** Üçüncü mərtəbə zor gücünə əl atmaqdır. Deməli əgər vacibi yerinə yetirməyi, haramı tərk etməyi yalnız zor gücünə edəcəyini bilsə, yaxud xatircəm olsa, bu işi etməsi vacibdir, amma lazım olan həddi aşmamalıdır.

**M:2881.** Əgər günah edən şəxs ilə günah iş arasında ayrılıq salınmaqla günah əməlinin qarşısını almaq mümkün olsa, onunla kifayətlənmək lazımdır-əgər onun məhzur olması sair şeylərdən az olarsa.

**M:2882.** Əgər günahın qarşısının alınması günahkarın əlindən tutulmasına, yaxud onu günah etdiyi yerdən çıxarılmasına və ya günah etdiyi alətləri zəbt edilməsinə bağlı olarsa, bu işlər caiz, hətta əməl etmək vacibdir.

**M:2883.** Günahkarın ehtiramı saxlanmalı olan malını tələf etmək caiz deyil. Amma əgər günahının qarşısının alınması bunu tələb edən halda tələf edərsə, ehtiyat-lazım budur ki, onun mislini, yaxud pulunu ödəsin. Bundan başqa hallarda zamin və günahkardır.

**M:2884.** Əgər günahkarın günahının qarşısının alınması onun müəyyən bir yerdə həbs olunmasına, yaxud müəyyən bir yerə daxil olmasının qarşısını almağa bağlı olarsa, lazım olan miqdara riayət edib, o həddi aşmadan həmin işləri görmək vacibdir.

**M:2885.** Əgər günahının qarşısının alınması onun kötəklənməsinə, təzyiq göstərilməsinə, sıxma-boğmaya salınmasına bağlı olarsa, bu işlər caizdir. Amma həddi aşmamağa riayət etmək lazımdır. Daha yaxşı, hətta ehtiyat-lazım budur ki, bu və buna oxşar işlərdə cameüş-şərait müctehiddən icazə alınsın.

**M:2876.** Əgər haram işlərin qarşısının alınması, vacib işlərə əmr edilməsi məşəqqətə və qətlə gətirib çıxardarsa, caiz deyil. Amma cameüş-şərait müctehidin icazəsi və şərtlərin gerçəkləşməsi ilə olsa, eybi yoxdur.

**M:2887.** Əgər münkər iş Müqəddəs Şəriət Sahibinin həddindən artıq diqqət yetirdiyi, onun baş verməsinə heç hansı vəchlə razı olmadığı işlərdən olarsa, onun qarşısını mümkün olan hər vasitə ilə almaq caizdir. Məsələn, əgər bir nəfər qətli caiz olmayan bir kəsi öldürmək istəsə, onun qarşısı alınmalıdır. Əgər məzlumun qətlə yetirilməsinin qarşısını almaq zalımı öldürməkdən başqa bir yolla mümkün olmazsa, zalımı öldürmək caiz, üstəlik vacibdir də. Bu halda müctehiddən icazə almaq lazım deyil. Lakin imkan daxilində onun qarşısı elə alınmalıdır ki, qətl ilə nəticələnməsin. Əgər lazım olan həddən keçərsə, günahkardır və onun barəsində əlavə hökmlər icra olunur.

## MÜDAFİƏ MƏSƏLƏLƏRİ

**M:2888.** Əgər düşmən müsəlmanların ölkəsinə, sərhədlərinə hücum etsə, bütün müsəlmanlara, mümkün olan hər vasitə ilə–can və mal sərf etməklə onu qorumaq, müdafiə etmək vacibdir. Bu işdə cameüş-şərait müctehidin icazəsinə ehtiyac yoxdur.

**M:2889.** Əgər əcnəbilərin müsəlmanların ölkələrini istila altına almaq planlarından təhlükə törənərsə–istər birbaşa olsun, istərsə də daxildəki və xaricdəki casuslarının, əlaltılarının vasitəsi ilə–İslam ölkələrini müdafiə etmək mümkün olan hər vasitə ilə vacibdir.

**M:2890.** Əgər əcnəbilər tərəfindən İslam ölkələrinin daxilində plan çəkilsə və onlara hakim olmasından qorxu törənsə, müsəlmanlara vacibdir ki, mümkün olan hər vasitə ilə onların planlarını pozub nüfuz dairələrinin genişlənməsinin qarşısını alsınlar.

**M:2891.** Əgər əcnəbilərin siyasi, iqtisadi və ticarət nüfuzunun genişləndirilməsi vasitəsilə müsəlman ölkələrinin istila altına alınması qorxusu törənərsə, müsəlmanlara vacibdir ki, mümkün olan hər vasitə ilə öz ölkələrini müdafiə edib, istər daxili istərsə də xarici əcnəbilərin əllərini kəssinlər.

**M:2892.** Əgər İslam dövlətləri ilə əcnəbi dövlətlər arasındakı siyasi əlaqələrdən onların İslam ölkələrinə istər siyasi, istərsə də iqtisadi cəhətdən hakim olması qorxusu törənərsə, müsəlmanlara vacibdir ki, bu sayaq əlaqələrlə müxalifətçilik edib İslam dövlətlərini, bu əlaqələri kəsməyə vadar etsinlər.

**M:2893.** Əgər əcnəbilərlə ticarət əlaqələrinin bərqərar olunmasından müsəlmanların iqtisadiyyatına zərbə dəyməsi, nəticədə iqtisadi və ticarət əsarətinə düşmələri gözlənirsə, bu cür əlaqələrin kəsilməsi vacib, bu cür ticarət əlaqələri haramdır.

**M:2894.** Əgər İslam dövlətləri ilə əcnəbi dövlət arasında bağlanan iqtisadi və ya ticarət müqavilələri İslam və müsəlmanların mənafeyinin xilafına olarsa, caiz deyil. Əgər hər hansı bir dövlət bu cür əlaqə yaratsa, sair dövlətlərə vacibdir ki, mümkün olan hər yolla onu, bu əlaqələri kəsməyə vadar etsinlər.

**M:2895.** Əgər bə’zi İslam ölkələrinin rəhbərləri, yaxud məs’ul işçiləri əcnəbilərin İslam və müsəlmanların mənafeyinə zidd olan nüfuzunun (istər siyasi, istər iqtisadi, istərsə də hərbi) genişlənməsinə səbəb olarsa, gərək bu xəyanət vasitəsi ilə olduğu məqamından kənarlaşdırılsın. Əgər fərzən o məqamı aşkar etməsi haqq olsa da, müsəlmanlara vacibdir ki, mümkün olan hər yolla və şəriət me’yarlarına riayət etməklə onları cəzalandırsınlar.

**M:2896.** Hegemon zülmkar dövlətlərin əlində alət olan bə’zi dövlətlərlə (İsrail kimi) siyasi və ticarət əlaqələri yaratmaq caiz deyil. Müsəlmanlara vacibdir ki, mümkün olan hər yolla bu cür əlaqələrlə müxalifətçilik etsinlər.

İsrail və onun əlaltıları ilə ticarət əlaqələri yaradan tacirlər İslama və müsəlmanlara xəyanət, İslam hökmlərinin məhvinə kömək edirlər. Müsəlmanlara vacibdir ki, bu sayaq xainlərlə–istər dövlət başçıları olsun, istərsə də tacirlər–əlaqələri kəsib onları bu dövlətlərlə olan əlaqələrin kəsilməsinə vadar etsinlər.

Mündəricat

TƏQLİD ......................................................................................................................3
TƏQLİD MƏSƏLƏLƏRİ .............................................................................................3
TƏHARƏTİN HÖKMLƏRİ............................................................................................6

MÜTLƏQ VƏ MÜZAF SU ........................................ 6
1-KÜRR SUYU ........................................ 6
2-QƏLİL SU ........................................ 7
3-AXAR SU ........................................ 7
4-YAĞIŞ SUYU ........................................ 8
5-QUYU SUYU ........................................ 8
SULARIN HÖKMLƏRİ ........................................ 9
TƏXƏLLİNİN HÖKMLƏRİ ........................................ 10
İSTİBRA ........................................ 11
TƏXƏLLİNİN MÜSTƏHƏB VƏ MƏKRUHATI ........................................ 12
NƏCASƏTLƏR ........................................ 12
1 VƏ 2-BOVL VƏ QAİT (İFRAZAT) ........................................ 13
3-MƏNİ ........................................ 13
4-MURDAR (ÖLÜ HEYVAN) ........................................ 13
5-QAN ........................................ 13
6 VƏ 7-İT VƏ DONUZ ........................................ 14
8-KAFİR ........................................ 14
9-ŞƏRAB ........................................ 15
10-PİVƏ ........................................ 15
HARAMDAN CÜNUB OLANIN TƏRİ ........................................ 15
11-NƏCASƏT YEYƏN DƏVƏNİN TƏRİ ........................................ 16
NƏCASƏTİN SÜBUT OLUNMASI YOLLARI ........................................ 16
PAK ŞEYLƏRİN NƏCİS OLMASI YOLLARI ........................................ 16
NƏCASƏTİN HÖKMLƏRİ ........................................ 17
PAKLAYICILAR ........................................ 19
1-SU ........................................ 19
2-TORPAQ ........................................ 22
3-GÜNƏŞ ........................................ 23
4-İSTİHALƏ (BİR HALDAN BAŞQA HALA KEÇMƏK) ........................................ 24
5-ÜZÜM SUYUNUN ÜÇDƏ İKİ HİSSƏSİNİN AZALMASI ........................................ 24
6-İNTİQAL (BİR YERDƏN BAŞQA YERƏ NƏQL OLUNMA) ........................................ 25
7-İSLAM ........................................ 25
8-TƏBƏİYYƏT ........................................ 25
9-NƏCASƏTİN ARADAN GETMƏSİ ........................................ 26
10-NƏCASƏT YEYƏN HEYVANIN İSTİBRASI ........................................ 26
11-MÜSƏLMANIN QAİB OLMASI ........................................ 26
QABLARIN HÖKMLƏRİ ........................................ 27
DƏSTƏMAZ ........................................ 28
İRTİMASİ DƏSTƏMAZ ........................................ 30
DƏSTƏMAZ VAXTI MÜSTƏHƏB OLAN DUALAR ........................................ 30
DƏSTƏMAZIN ŞƏRTLƏRİ ........................................ 32

DƏSTƏMAZIN HÖKMLƏRİ ....... 36
DƏSTƏMAZ ALINMASI VACİB OLAN ƏMƏLLƏR ....... 38
DƏSTƏMAZI BATİL EDƏN ŞEYLƏR ....... 39
CƏBİRƏ DƏSTƏMAZININ HÖKMLƏRİ ....... 39
QUSULLAR ....... 41
CƏNABƏTİN HÖKMLƏRİ ....... 41
CÜNUBA HARAM OLAN ŞEYLƏR ....... 42
CÜNUB ŞƏXSƏ MƏKRUH OLAN ŞEYLƏR ....... 43
CƏNABƏT QUSLU ....... 43
TƏRTİBİ QUSUL ....... 43
İRTİMASİ QUSUL ....... 44
QUSLUN HÖKMLƏRİ ....... 44
İSTİHAZƏ ....... 46
İSTİHAZƏNİN HÖKMLƏRİ ....... 46
HEYZ ....... 51
HAİZİN HÖKMLƏRİ ....... 52
HAİZ QADINLARIN NÖVLƏRİ ....... 55
1-VƏQTİYYƏ VƏ ƏDƏDİYYƏ ADƏT SAHİBLƏRİ OLAN QADINLAR ....... 55
2-VƏQTİYYƏ ADƏT SAHİBİ OLAN QADINLAR ....... 57
3-ƏDƏDİYYƏ ADƏTİ OLAN QADINLAR ....... 59
4-MÜZTƏRİBƏ ....... 60
5-MÜBTƏDİƏ ....... 60
6-NASİYƏ ....... 61
HEYZİN MÜXTƏLİF MƏSƏLƏLƏRİ ....... 61
NİFAS ....... 62
MƏSS-MEYYİT QUSLU ....... 64
MÖHTƏZİRİN HÖKMLƏRİ ....... 65
ÖLÜMDƏN SONRANIN HÖKMLƏRİ ....... 66
QUSUL, KƏFƏN, NAMAZ VƏ DƏFNİN HÖKMLƏRİ ....... 66
MEYİT QUSLUNUN HÖKMLƏRİ ....... 67
MEYİTİN KƏFƏNİNİN HÖKMLƏRİ ....... 68
HƏNUTUN HÖKMLƏRİ ....... 70
MEYYİT NAMAZININ HÖKMLƏRİ ....... 70
MEYYİT NAMAZININ QAYDALARI ....... 72
MEYYİT NAMAZININ MÜSTƏHƏBBATI ....... 73
DƏFNİN HÖKMLƏRİ ....... 73
DƏFNİN MÜSTƏHƏBBATI ....... 75
VƏHŞƏT NAMAZI ....... 78
QƏBRİN AÇILMASI ....... 78
MÜSTƏHƏBB QUSULLAR ....... 79
TƏYƏMMÜM ....... 81

BİRİNCİ YER ........................................ 81
İKİNCİ YER ........................................ 82
ÜÇÜNCÜ YER ........................................ 83
DÖRDÜNCÜ YER ........................................ 83
BEŞİNCİ YER ........................................ 83
ALTINCI YER ........................................ 84
YEDDİNCİ YER ........................................ 84
TƏYƏMMÜMÜN SƏHİH OLDUĞU ŞEYLƏR ........................................ 84
TƏYƏMMÜMÜN QAYDASI ........................................ 86
TƏYƏMMÜMÜN HÖKMLƏRİ ........................................ 86
NAMAZIN HÖKMLƏRİ ........................................ 90
VACİBİ NAMAZLAR ........................................ 90
GÜNDƏLİK VACİB NAMAZLAR ........................................ 91
ZÖHR VƏ ƏSR NAMAZLARININ VAXTI ........................................ 91
MƏĞRİB VƏ İŞA NAMAZLARININ VAXTI ........................................ 92
SÜBH NAMAZININ VAXTI ........................................ 93
NAMAZ VAXTININ HÖKMLƏRİ ........................................ 93
TƏRTİBLƏ QILINMALI OLAN NAMAZLAR ........................................ 95
MÜSTƏHƏB NAMAZLAR ........................................ 96
GÜNDƏLİK NAFİLƏ NAMAZLARININ VAXTLARI ........................................ 96
ĞÜFEYLƏ NAMAZI ........................................ 97
QİBLƏNİN HÖKMLƏRİ ........................................ 98
NAMAZDA BƏDƏNİN ÖRTÜLMƏSİ ........................................ 100
NAMAZ QILANIN PALTARI ........................................ 101
BİRİNCİ ŞƏRT ........................................ 101
İKİNCİ ŞƏRT ........................................ 103
ÜÇÜNCÜ ŞƏRT ........................................ 104
DÖRDÜNCÜ ŞƏRT ........................................ 105
BEŞİNCİ VƏ ALTINCI ŞƏRTLƏR ........................................ 105
NAMAZ QILANIN PALTAR VƏ BƏDƏNİNİN PAK OLMASININ LAZIM OLMADIĞI HALLAR ........................................ 107
NAMAZ QILANIN PALTARINDA MÜSTƏHƏB OLAN ŞEYLƏR ........................................ 109
NAMAZ QILANIN PALTARINDA MƏKRUH OLAN ŞEYLƏR ........................................ 109
NAMAZ QILANIN YERİ ........................................ 109
NAMAZ QILMAĞIN MÜSTƏHƏB OLDUĞU YERLƏR ........................................ 113
NAMAZ QILMAĞIN MƏKRUH OLDUĞU YERLƏR ........................................ 114
MƏSCİDİN HÖKMLƏRİ ........................................ 114
AZAN VƏ İQAMƏ ........................................ 116
AZAN VƏ İQAMƏNİN TƏRCÜMƏSİ ........................................ 117
NAMAZIN VACİBATI ........................................ 120
NİYYƏT ........................................ 120

TƏKBİRƏTÜL-EHRAM........................................121
QİYAM........................................122
QİRAƏT........................................124
RÜKU........................................129
SƏCDƏ........................................131
SƏCDƏ ETMƏYİN SƏHİH OLDUĞU ŞEYLƏR........................................134
SƏCDƏNİN MÜSTƏHƏB, BATİL VƏ MƏKRUHATI........................................135
QUR'ANIN VACİBİ SƏCDƏ OLAN SURƏLƏRİ........................................136
TƏŞƏHHÜD........................................137
SALAMLAR........................................138
TƏRTİB........................................138
MUVALAT........................................139
QUNUT........................................139
NAMAZIN TƏRCÜMƏSİ........................................141
1. HƏMD SURƏSİNİN TƏRCÜMƏSİ........................................141
2. "QUL HUVƏLLAH" SURƏSİNİN TƏRCÜMƏSİ:........................................142
4. QUNUTUN TƏRCÜMƏSİ........................................143
NAMAZIN TƏ'QİBATI........................................144
PEYĞƏMBƏRƏ (SƏLLƏLLAHU ƏLEYHİ VƏ ALİHİ VƏ SƏLLƏM) SALAVAT......145
NAMAZI BATİL EDƏN ŞEYLƏR........................................145
NAMAZDA MƏKRUH OLAN ŞEYLƏR........................................148
VACİBİ NAMAZI POZMAĞIN CAİZ OLAN YERLƏRİ........................................149
NAMAZIN ŞƏKKİYYATI........................................149
NAMAZI BATİL EDƏN ŞƏKLƏR........................................149
E'TİNA OLUNMAMALI ŞƏKLƏR........................................150
1-MƏHƏLLİ KEÇƏN ŞEYLƏRDƏ ŞƏKK........................................150
2-SALAMDAN SONRAKI ŞƏKK........................................152
3-VAXT KEÇƏNDƏN SONRAKI ŞƏKK........................................152
4-KƏSİRÜL-ŞƏKK........................................152
5-İMAM VƏ MƏ'MUMUN ŞƏKKİ........................................153
6-MÜSTƏHƏB NAMAZDAKI ŞƏKK........................................154
SƏHİH ŞƏKKLƏR........................................154
EHTİYAT NAMAZI........................................157
SƏCDEYİ-SƏHV........................................159
SƏCDEYİ-SƏHVİN QAYDASI........................................160
UNUDULMUŞ SƏCDƏ VƏ TƏŞƏHHÜDÜN QƏZASI........................................161
NAMAZIN HİSSƏLƏRİNİ VƏ ŞƏRTLƏRİNİ ARTIRIB-AZALTMAQ........................................162
MÜSAFİRİN NAMAZI........................................163
MÜXTƏLİF MƏSƏLƏLƏR........................................172
QƏZA NAMAZI........................................174
ATA-ANANIN BÖYÜK OĞULA VACİB OLAN QƏZA NAMAZI........................................175

CAMAAT NAMAZI ........ 177
PİŞNAMAZIN ŞƏRTLƏRİ ........ 182
CAMAAT NAMAZININ HÖKMLƏRİ ........ 182
CAMAAT NAMAZINDA MÜSTƏHƏB OLAN ŞEYLƏR ........ 184
CAMAAT NAMAZINDA MƏKRUH OLAN ŞEYLƏR ........ 185
AYƏT NAMAZI ........ 185
AYƏT NAMAZININ QAYDALARI ........ 187
CÜMƏ NAMAZI ........ 188
CÜMƏ NAMAZININ ŞƏRTLƏRİ ........ 188
CÜMƏ NAMAZININ VAXTI ........ 190
CÜMƏ NAMAZININ QAYDASI ........ 191
CÜMƏ NAMAZININ HÖKMLƏRİ ........ 194
FİTR VƏ QURBAN NAMAZLARI ........ 196
NAMAZ ÜÇÜN ƏCİR TUTULMASI ........ 198
ORUCUN HÖKMLƏRİ ........ 200
NİYYƏT ........ 200
ORUCU BATİL EDƏN ŞEYLƏR ........ 202
1-2–YEMƏK VƏ İÇMƏK ........ 202
3-CİMA ........ 203
4-İSTİMNA ........ 203
5-ALLAHIN VƏ PEYĞƏMBƏRİN ADINDAN YALAN DANIŞMAQ ........ 204
6-QƏLİZ TOZU BOĞAZA ÇATDIRMAQ ........ 205
7-BAŞI SUYA SALMAQ ........ 205
8-SÜBH AZANINA QƏDƏR CƏNABƏT, HEYZ VƏ NİFAS HALINDA QALMAQ 206
9-İMALƏ ........ 208
10-QƏSDƏN QUSMAQ ........ 208
ORUCU BATİL EDƏN ŞEYLƏRİN HÖKMLƏRİ ........ 209
ORUC TUTAN ŞƏXSƏ MƏKRUH OLAN ŞEYLƏR ........ 209
ORUCUN QƏZASI VƏ KƏFFARƏ VACİB OLAN YERLƏR ........ 210
ORUCUN KƏFFARƏSİ ........ 210
ORUCUN TƏKCƏ QƏZASI VACİB OLAN YERLƏR ........ 213
QƏZA ORUCUNUN HÖKMLƏRİ ........ 214
MÜSAFİRİN ORUCUNUN HÖKMLƏRİ ........ 216
ORUC VACİB OLMAYAN ŞƏXSLƏR ........ 217
AYIN ƏVVƏLİNİN SÜBUT OLUNMASI YOLLARI ........ 218
MƏKRUH VƏ HARAM ORUCLAR ........ 219
MÜSTƏHƏB ORUCLAR ........ 220
ORUCU BATİL EDƏN İŞLƏRDƏN ÇƏKİNMƏYİN MÜSTƏHƏB OLDUĞU YERLƏR ........ 220
XUMSUN HÖKMLƏRİ ........ 221
1-QAZANC MƏNFƏƏTİ ........ 221

2-MƏ'DƏN ........................................ 225
3-XƏZİNƏ ........................................ 226
4-HARAMA QARIŞAN HALAL MAL ........................................ 227
5-SUYUN DİBİNƏ GİRMƏKLƏ ƏLDƏ OLUNAN CƏVAHİR ........................................ 228
6-QƏNİMƏT ........................................ 229
7-ZİMMİ KAFİRİN MÜSƏLMANDAN ALDIĞI TORPAQ ........................................ 229
XUMSUN MƏSRƏF OLUNMA YERLƏRİ ........................................ 230
ZƏKATIN HÖKMLƏRİ ........................................ 232
ZƏKATIN VACİB OLMASI ŞƏRTLƏRİ ........................................ 232
BUĞDA, ARPA, XURMA VƏ KİŞMİŞİN ZƏKATI ........................................ 233
QIZILIN NİSABI ........................................ 236
GÜMÜŞÜN NİSABI ........................................ 237
DƏVƏ, İNƏK VƏ QOYUNUN ZƏKATI ........................................ 238
DƏVƏNİN NİSABI ........................................ 238
İNƏYİN NİSABI ........................................ 239
QOYUNUN NİSABI ........................................ 239
ZƏKATIN MƏSRƏF OLUNMA YERLƏRİ ........................................ 240
ZƏKATA MÜSTƏHƏQ OLAN ŞƏXSLƏRİN ŞƏRTLƏRİ ........................................ 243
ZƏKATIN NİYYƏTİ ........................................ 244
ZƏKATIN MÜXTƏLİF MƏSƏLƏLƏRİ ........................................ 244
FİTRƏ ZƏKATI ........................................ 247
FİTRƏ ZƏKATININ MÜXTƏLİF MƏSƏLƏLƏRİ ........................................ 250
HƏCCİN HÖKMLƏRİ ........................................ 252
AL-VERİN (MÜAMİLƏ) HÖKMLƏRİ ........................................ 254
AL-VERDƏ MÜSTƏHƏB OLAN ŞEYLƏR ........................................ 254
MƏKRUH MÜAMİLƏLƏR ........................................ 254
HARAM MÜAMİLƏLƏR ........................................ 254
SATICININ VƏ ALICININ ŞƏRTLƏRİ ........................................ 257
MAL VƏ ONUN ƏVƏZİNİN ŞƏRTLƏRİ ........................................ 258
AL-VER SİYĞƏSİ ........................................ 260
MEYVƏLƏRİN AL-VERİ ........................................ 260
NƏQD VƏ NİSYƏ ........................................ 260
SƏLƏF MÜAMİLƏSİ ........................................ 261
SƏLƏF MÜAMİLƏSİNİN ŞƏRTLƏRİ ........................................ 261
SƏLƏF MÜAMİLƏSİNİN HÖKMLƏRİ ........................................ 262
QIZIL-GÜMÜŞÜN QIZIL-GÜMÜŞƏ SATILMASI ........................................ 262
MÜAMİLƏNİ POZMAĞIN MÜMKÜN OLDUĞU YERLƏR ........................................ 263
MÜXTƏLİF MƏSƏLƏLƏR ........................................ 266
ŞİRKƏTİN HÖKMLƏRİ ........................................ 267
SÜLHÜN (RAZILAŞMA) HÖKMLƏRİ ........................................ 270
İCARƏNİN HÖKMLƏRİ ........................................ 272

İCARƏYƏ VERİLƏN MALIN ŞƏRTLƏRİ ....................................................................273
İCARƏYƏ VERİLƏN MALDAN İSTİFADƏNİN ŞƏRTLƏRİ..................................273
İCARƏNİN MÜXTƏLİF MƏSƏLƏLƏRİ..........................................................................274
CÜALƏNİN HÖKMLƏRİ.................................................................................................278
MÜZARİƏNİN HÖKMLƏRİ...........................................................................................280
MUSAQATIN HÖKMLƏRİ.............................................................................................283
ÖZ MALLARINDA TƏSƏRRÜF EDƏ BİLMƏYƏN ŞƏXSLƏR..................................285
VƏKALƏTİN HÖKMLƏRİ..............................................................................................286
BORCUN HÖKMLƏRİ.....................................................................................................288
HƏVALƏ VERMƏYİN HÖKMLƏRİ ..............................................................................291
RƏHNİN (GİROV) HÖKMLƏRİ.....................................................................................293
ZAMİN OLMAĞIN HÖKMLƏRİ....................................................................................295
KƏFALƏTİN HÖKMLƏRİ ...............................................................................................297
VƏDİ'Ə (ƏMANƏT)İN HÖKMLƏRİ...............................................................................298
ARİYƏNİN HÖKMLƏRİ...................................................................................................301
NİKAHIN HÖKMLƏRİ.....................................................................................................303
ƏQDİN HÖKMLƏRİ .........................................................................................................303
DAİMİ ƏQDİN OXUNMA QAYDASI.............................................................................303
QEYRİ-DAİMİ ƏQDİN OXUNMA QAYDASI ...............................................................304
ƏQDİN ŞƏRTLƏRİ ...........................................................................................................304
ƏQDİ POZMAĞIN MÜMKÜN OLDUĞU EYBLƏR ......................................................306
EVLƏNMƏK HARAM OLAN QADINLAR ...................................................................307
DAİMİ ƏQDİN HÖKMLƏRİ...........................................................................................309
MÜT'Ə, YAXUD SİYĞƏ...................................................................................................310
BAXMAĞIN HÖKMLƏRİ................................................................................................311
EVLƏNMƏNİN MÜXTƏLİF MƏSƏLƏLƏRİ.................................................................312
SÜDVERMƏNİN HÖKMLƏRİ .......................................................................................316
MƏHRƏMLİYƏ SƏBƏB OLAN SÜDVERMƏNİN ŞƏRTLƏRİ..................................317
SÜDVERMƏNİN QAYDALARI ......................................................................................319
SÜDVERMƏNİN MÜXTƏLİF MƏSƏLƏLƏRİ..............................................................319
TƏLAQIN HÖKMLƏRİ.....................................................................................................321
TƏLAQ İDDƏSİ..................................................................................................................322
ƏRİ ÖLƏN QADININ İDDƏSİ .........................................................................................323
BAİN VƏ RİC'İ TƏLAQ .....................................................................................................324
QAYITMAĞIN HÖKMLƏRİ.............................................................................................324
XUL' TƏLAQI .....................................................................................................................325
MÜBARAT TƏLAQI..........................................................................................................325
TƏLAQIN MÜXTƏLİF MƏSƏLƏLƏRİ..........................................................................326
QƏSBİN HÖKMLƏRİ........................................................................................................327
TAPILAN ŞEYİN HÖKMLƏRİ .......................................................................................329
HEYVANLARIN BAŞININ KƏSİLMƏSİ VƏ ŞİKAR EDİLMƏSİNİN HÖKMLƏRİ...333

HEYVAN BAŞININ KƏSİLMƏSİ QAYDALARI ............ 333
HEYVANIN BAŞININ KƏSİLMƏSİ ŞƏRTLƏRİ ............ 334
DƏVƏNİN NƏHR EDİLMƏSİNİN QAYDALARI ............ 335
HEYVAN KƏSƏNDƏ MÜSTƏHƏB OLAN ŞEYLƏR ............ 335
HEYVAN BAŞI KƏSƏNDƏ MƏKRUH OLAN ŞEYLƏR ............ 336
SİLAH İLƏ ŞİKARIN HÖKMLƏRİ ............ 336
OV İTİ İLƏ ŞİKAR ETMƏK ............ 337
BALIQ OVU ............ 339
ÇƏYİRTKƏ OVU ............ 339
YEMƏLİLƏRİN VƏ İÇMƏLİLƏRİN HÖKMLƏRİ ............ 340
YEMƏK YEYƏNDƏ MÜSTƏHƏB OLAN ŞEYLƏR ............ 342
YEMƏK YEMƏKDƏ MƏKRUH OLAN ŞEYLƏR ............ 343
SU İÇMƏYİN MÜSTƏHƏBBATI ............ 343
SU İÇMƏYİN MƏKRUHATI ............ 343
NƏZİR, AND, ƏHD VƏ VƏQFİN HÖKMLƏRİ ............ 344
AND İÇMƏYİN HÖKMLƏRİ ............ 347
VƏQFİN HÖKMLƏRİ ............ 349
VƏSİYYƏTİN HÖKMLƏRİ ............ 352
İRSİN HÖKMLƏRİ ............ 357
BİRİNCİ DƏSTƏNİN İRSİ ............ 357
İKİNCİ DƏSTƏNİN İRSİ ............ 358
ÜÇÜNCÜ DƏSTƏNİN İRSİ ............ 360
ƏR-ARVADIN İRSİ ............ 363
İRSİN MÜXTƏLİF MƏSƏLƏLƏRİ ............ 364
ƏMR BE MƏ’RUF VƏ NƏHY ƏZ MÜNKƏR ............ 366
ƏMR BE MƏ’RUF VƏ NƏHY ƏZ MÜNKƏRİN ŞƏRTLƏRİ ............ 366
ƏMR BE MƏ’RUF VƏ NƏHY ƏZ MÜNKƏRİN MƏRTƏBƏLƏRİ ............ 367
MÜDAFİƏ MƏSƏLƏLƏRİ ............ 370